AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ

BAKI DÖVLƏT UNİVERSİTETİ

N.S. SEYFULLAYEVA

COĞRAFİYANIN TƏDRİSİ METODİKASI

Dərslik

Azərbaycan Respublikası Təhsil Nazirliyinin
11.08. 2011-ci il tarixli 1475 saylı əmri ilə
ali məktəblər üçün dərslik kimi
təsdiq edilmişdir.

BAKI 2011

Elmi redaktoru: coğrafiya elmləri doktoru
professor V.Ə. Əfəndiyev

91(07)
S 37

Rəyçilər: coğrafiya elmləri doktoru
E.K. Əlizadə

pedaqoji elmlər namizədi
O.K. Alxasov

coğrafiya elmləri namizədi
H.Ə. Sultanova

Coğrafiya elmləri namizədi
Y.Ə. Qəribov

Kompyuter tərtibatçısı: Firəngiz Qasımova

Seyfullayeva Nərminə Səftər qızı, pedaqoji elmlər namizədi.
Coğrafiya tədrisi metodikası. Ali məktəblər üçün dərslik
«EMK » nəşriyyatı. Bakı 2011.

Bakı Dövlət Universiteti
Elmi Kitabxana

MÜNDƏRİCAT

Giriş 7

MÖVZU I.
COĞRAFİYA TƏDRİSİ METODİKASI BİR ELM KİMİ

1.1.Coğrafiya tədrisi metodikasının predmeti, məqsədi, vəzifələri 11
1.2. Coğrafiya tədrisi metodikasının inkişaf tarixi 22
1.3. Coğrafiya tədrisi metodikasının tədqiqat metodları 33
1.4. Coğrafiya tədrisi metodikasının digər elmlər ilə əlaqəsi 42
1.5. Coğrafiya tədrisi metodikasının müasir elmi –metodiki işlərin əsas istiqamətləri 47

MÖVZU II.
ORTA ÜMUMTƏHSİL MƏKTƏBLƏRİNDƏ COĞRAFİYA FƏNNİNİN TƏDRİSİ

2.1. Orta ümumtəhsil məktəblərinin tədris planında coğrafiyanın yeri və strukturu 56
2.2. Məktəb coğrafiyasının məzmunu və məqsədi 62
2.3. Milli kurrikulumda coğrafiya fənninin tədrisi 71

MÖVZU III.
COĞRAFİYA TƏDRİSİNİN PEDAQOJİ–PSİXOLOJİ ƏSASLARI

3.1. Müasir məktəb sisteminin psixoloji təhlili 76

3.2. Coğrafiya tədrisində müəllim və şagird münasibətləri 92
3.3. Coğrafiya müəlliminin əsas vəzifələri 106
3.4. Coğrafiya tədrisinin başlıca prinsipləri 112

MÖVZU IV.
COĞRAFİ BİLİKLƏRİN FORMALAŞDIRILMASI METODİKASI

4.1. Coğrafi biliklər təlim prosesinin əsası kimi 117
4.2. Nəzəri coğrafi biliklərin formalaşdırılmasının metodikası 123
4.3. Emprik (təcrübi) coğrafi biliklərin formalaşdırılmasının metodikası 153

MÖVZU V.
COĞAFİYA TƏLİMİNİN METODLARI

5.1. Təlim metodları anlayışı 169
5.2. Bilik mənbələrinə görə təlim metodları 173
5.3. İdrak fəaliyyətinin xarakterinə görə təlim metodları 195
5.4. Coğrafiya tədrisində yeni pedaqoji texnologiyaların tətbiqi 203

MÖVZU VI.
COĞRAFİYA TƏDRİSİNİN TƏŞKİLAT FORMALARI

6.1. Dərs – pedaqoji prosesin əsası kimi 268
6.2.Coğrafiya dərslərinin tipləri 283
6.3.Coğrafiya tədrisinin formaları 287

6.4.Coğrafiya dərslərində şagird fəaliyyətinin
təşkili formaları 292
6.5. Coğrafiya tədrisində dərsdənkənar (sinifdənxaric)
təşkilat formalarının aparılması 299

MÖVZU VII.
COĞRAFİYA TƏDRİSİNDƏ İSTİFADƏ OLUNAN ƏYANİ VƏSAİTLƏR

7.1.Tədris vəsaitləri və onun əhəmiyyəti.....308
7.2. Dərslik – ən mühüm tədris vəsaitidir.....319
7.3. Xəritə və digər kartoqrafik təsvirlər üzərində
aparılan işlər 326
7.4.Coğrafiya tədrisində kompyuter texnologiyasının
tətbiqi 361
7.5. Coğrafiya kabineti 373

MÖVZU VIII.
COĞRAFİ BİLİKLƏRİN QİYMƏTLƏNDİRİLMƏSİ

8.1. Bilik və bacarıqların yoxlanılmasına verilən
tələblər.....377
8.2. Coğrafi biliklərin qiymətləndirilməsi.....382
8.3. Qiymətləndirilmənin növləri
və formaları 387
8.4.Coğrafiya tədrisində test tapşırıqları ilə
yoxlama metodikası 406
8.5.Coğrafi biliklərin yoxlanılmasında tətbiq
olunan yeni texnologiyalar 425

MÖVZU IX.
ORTA ÜMUMTƏHSİL MƏKTƏBLƏRİNDƏ TƏDRİS OLUNAN COĞRAFİYA KURSLARININ TƏDRİSİ METODİKASI

9.1. «Ümumi fiziki coğrafiya» (VI sinif) və «Yerşünaslıq» (X sinif) kurslarının tədrisi məsələləri 446
9.2. « Materiklər və okeanların fiziki coğrafiyası» (VII sinif) kurslarının tədrisi məsələləri 455
9.3. «Azərbaycan Respublikasının fiziki coğrafiyası» və «Azərbaycan Respublikasının iqtisadi və sosial coğrafiyası» (VIII sinif) kurslarının tədrisi məsələləri 460
9.4. «Dünyanın iqtisadi və sosial coğrafiyası»(IX sinif) və «Türk dünyasının coğrafiyası» (XI sinif) kurslarının tədrisi məsələləri 471

MÖVZU X.
COĞRAFİYA FƏNNİ ÜZRƏ SİNİFDƏNKƏNAR İŞLƏRİN TƏŞKİLİ

10.1. Sinifdənkənar tədbirlərin təşkili formaları 479

ƏDƏBİYYAT 489

Unudulmaz müəllimim,professor
M.Müseyibovun əziz xatirəsinə
ithaf olunur!

GİRİŞ

Cəmiyyətin inkişafının bütün dövrlərində öyrətmə və öyrənmə prosesi aktual olmuş və daima yeniliklərin tətbiq edilməsini tələb etmişdir.Təhsildə aparılan islahatlar isə təlim və tərbiyə prosesinin təkmilləşdirilməsinə səbəb olur. Təlim anlayışını təhsilin məzmunu və bu məzmunun ötürülməsi yollarının cəmi kimi qəbul etmək mümkündürsə, o zaman islahatların aparılmasının nə qədər məsuliyyət tələb etdiyi ortaya çıxır. Təlimin yeni qanunauyğunluqlarını aşkara çıxarmaq, onun yeni metodlarını yaratmaq və ya təlim metodlarını cəmiyyətin tələbatına uyğunlaşdırmaq həyatı tələbata çevrilir. Məlumdur ki, XXI əsrə qədəm qoymuş Azərbaycanın hərtərəfli inkişaf etmiş vətəndaş cəmiyyəti qurucularına çox böyük ehtiyacı vardır. Bu tələb Azərbaycan Respublikasının Konstitusiyasının müvafiq maddələrində öz əksini tapmışdır. Konstitusiyanın 42-ci maddəsi Azərbaycan vətəndaşlarının təhsil hüququna həsr edilib. Əsas Qanunumuzda deyilir ki, "hər bir vətəndaşın təhsil almaq hüququ vardır. Təhsil sisteminə dövlət tərəfindən nəzarət edilir. Maddi vəziyyətindən asılı olmayaraq istedadlı şəxslərin təhsilini davam etdirməsinə dövlət zəmanət verir. Dövlət minimum təhsil standartlarını müəyyən edir". Təhsilin əsas məqsədi kimi isə Təhsil qanununun 4-cü maddəsində aşağıdakı kimi qeyd edilir: «Azərbaycan dövləti qarşısında öz məsuliyyətini dərk edən xalqının milli ənənələrinə və demokratiya prinsiplərinə, insan hüquqları və azadlıqlarına hörmət edən, vətənpərvərlik və azərbaycançılıq ideyalarına sadiq olan müstəqil və yaradıcı düşünən vətəndaş və şəxsiyyət yetişdirmək; sistemləşdirilmiş bilik, bacarıq, vərdişlərin mənimsənilməsini və ixtisasının

daim artırılmasını təmin etmək, təhsil alanları ictimai həyata və səmərəli əmək fəaliyyətinə hazırlamaq;»- və s.bütün bunlar gələcək nəsli tərbiyə edənlərdən cəmiyyət üçün tam yetkin şəxsiyyətin formalaşdırılmasını tələb edir.Müasir dövrdə həyatın tələblərinə baxış dəyişmiş və gənc nəslə həyatı bacarıqlara, əsaslanan təhsilin verilməsi problemə çevrilmişdir. Adı çəkilən problemlərin həll edilməsində, sovet dövründə heç bir dəyişikliklərə məruz qalmadan, uzun müddət istifadə olunan ənənəvi metodlar imkansızdır.

Təhsil sisteminin fənnlər blokunda özünəməxsus mövqeyə malik olan coğrafiya kursunun müasir məzmunu yarandığı vaxtdan fiziki coğrafiyanın, iqtisadi coğrafiyanın və kartoqrafiyanın əsasları üzrə biliklər sistemi daxil edilmişdir. Eyni zamanda nəyi öyrənmək problemi ilə yanaşı onu necə öyrətmək mövzusu da aktual olmuşdur. Məktəb coğrafiyası kursunun məzmununda son dövrdə ciddi təkmilləşdirmə aparılmış təlimin məzmunu müasirləşdirilmiş və tədrisin praktik istiqaməti gücləndirilmişdir. Unutmaq olmaz ki, hələ keçən əsrin 50-ci illərində məktəb coğrafiyasının məzmününa dair ciddi araşdırmalar aparılmış, politexnik tədrisin məzmunu müəyyən edilmiş, iqtisadiyyatın əsasını təşkil edən təbii ehtiyatların yerləşməsinin öyrənilməsinə, istehsalın təşkili və texnologiyası məsələlərinə diqqət artırılmışdır. Coğrafiyanın tədrisində praktik yönümlü problemlərin həllində- təbii ehtiyatlardan səmərəli istifadə prosesində əmək ehtiyatlarından düzgün istifadə edilməsinə, müxtəlif təsərrüfat müəssisələrinin, yerləşmə prinsipinə, yeni yaşayış məntəqələrinin salınmasına, hər hansı müəssisənin tikilməsinə, kənd təsərrüfat bitkilərinin əkilməsinə, suvarma kanallarının və magistral yolların çəkilməsinə və s. məsələlərin həllinə dair şagirdlərin özlərinin müstəqil qərar vermək bacarığının formalaşdırılması eyni zamanda, çıxarılan qərarları əsaslandırmaq, onun nə dərəcədə düzgün olmasını sübut etmək üçün tutarlı dəlillərin gətirilməsi və s vərdişlər

coğrafiya fənninin tədrisində yeni texnologiyaları tətbiq eməklə mümkündür, bu isə fənnin tədrisi metodikasında güclü dəyişikliklər tələb edir. Müasir məlumat-kommunikasiya dövründə təhsilin əsas problemlərindən biri də müxtəlif elm sahələrində cəmlənən bilik kütləsinin əhəmiyyətli dərəcədə artması nəticəsində yaranan informasiyanın şagirdlərə çatdırılmasıdır. Dərsin əsas ölçüsünün inkişafetdirici, tərbiyəedici və təhsilverici məqsəd olduğu və bu üç məqsədli dərs məkanında pedoqoji, psixoloji və metodiki dəyərlərin dəyişildiyi bir şəraitdə, mövcud olan informasiyanın məzmununu müəyyən etmək isə mütəxəssislər tərəfindən müzakirə obyektinə çevrilmişdir. «Hafizə məktəbi» -nin tərəfdarları ənənəvi sistemə üstünlük verərək fənnin məzmununa daxil olan biliklərin şagirdlərə çatdırılmasına üstünlük verir və dəyişiklikləri, həmin elm sahəsində yaranan yeni informasiyaları məzmuna daxil etməkdə görürlər.

« Təfəkkür məktəbi»- nin tərəfdarları isə şəxsiyyət amilini üstün tutaraq şagirdə «obyekt» kimi deyil, «subyekt» kimi müraciət etməyin əhəmiyyətini əsaslandırır, onu təlim-tərbiyə prosesinin mərkəzinə gətirərək, təlimin məzmununu məqsəd kimi deyil, yalnız vasitə olduğunu iddia edirlər. Azərbaycan Respublikasında təhsil sistemində aparılan islahatlar məhz, «Təfəkkür məktəbi»nin tərəfdarlarının təklifləri istiqamətində inkişaf etdirilir ki,bu konsepsiya təhsilin humanistləşdirilməsinə, şagirdlərdə milli keyfiyyətləri saxlamaqla, qlobal düşüncə tərzinin inkişaf etdirilməsinə, digər xalqların mədəni- əxlaqi xüsusiyyətlərinə tolerant yanaşmaqla təhsilin demokratikləşməsinə, özünənəzarət və özünüqiymətləndirmə proseslərinin aktivləşməsinə, idrak fəaliyyətinin tənzimləşməsinə, şəxsiyyətlərarası münasibətlərdə «insan» faktorunun önəmli yer tutmasına və s. əxlaqi xüsusiyyətlərin yaradılmasına və formalaşmasına təkan verir.

«Təfəkkür məktəbinin» tələbləri və dünyanın inkişaf etmiş ölkələrinin təcrübəsi göstərir ki, təhsilin inkişafı, əvvəldə olduğu kimi məktəb fənnlərinin tədrisi prosesində mümkündür. Orta məktəbdə tədris olunan fənnlərin məzmunu, tədrisi metodikasında aparılan islahatlar da şagirdlərin təfəkkürünün inkişafına yönəldilmişdir.

«Coğrafiyanın tədrisi metodikası» kursunun əsas məqsədləri müasir dövrün tələblərinə uyğunlaşaraq
- nəyi öyrənmək (kursun məzmunu)
- niyə öyrənmək (kursun məqsədi)
- necə öyrətmək (tədris metodları)
- nəyin köməyi ilə öyrətmək (tədris vəsaitləri) –dir.

Kursun qarşısında duran ümumi məsələləri aşağıdakı kimi qruplaşdırmaq mümkündür:

- müəllimin təlim prosesində «öyrədən» roluna istiqamətlənmiş pedaqoji hazırlığını təmin etmək;
- şagirdin tədris prosesində « öyrənən» rolunda çıxış etməsi üçün imkanlarını təhlil etmək;
- məktəb coğrafiyasının təhsilverici, inkişafetdirici və tərbiyəedici vəzifələrini müəyyən etmək və yerinə yetirmək;
- coğrafiya fənninin tədrisində müasir interaktiv metodların tətbiq edilməsi imkanlarını öyrətmək;
- kartoqrafik bilik və bacarıqların sistemli şəkildə tətbiq edilməsinin yollarını başa salmaq;
- şagirdlərin müstəqil yaradıcılığını, sərbəst fəaliyyətinin təşkil edilməsi üçün onları istiqamətləndirmək;
- təlim-tərbiyə prosesinin praktikliyini artırmaq məqsədi ilə müxtəlif vəsaitlərdən istifadə etmək bacarığını formalaşdırmaq;
- coğrafi biliklərin obyektiv qiymətləndirilməsi məqsədi ilə müxtəlif variantlarını praktiki olaraq tətbiq etmək və s bacarıqlarını formalaşdırmaqdır.

Məktəb coğrafiyasının tədris məsələlərinə həsr olunmuş dərslik universitet və ali məktəblərin magistr və tələbələri,

coğrafiya tədrisi metodikası üzrə tədqiqatçı mütəxəssislər, metodist və eləcə də orta məktəbin coğrafiya müəllimləri üçün nəzərdə tutulmuşdur. Dərslik giriş ,10 mövzu , 39 paraqraf, əlavələr və ədəbiyyat siyahısından ibarətdir

«Mən eşidəndə unuduram, görəndə yadda saxlayıram, özüm əldə edəndə dərk edirəm»
Çin atalar sözü

MÖVZU I.
COĞRAFİYA TƏDRİSİ METODİKASI BİR ELM KİMİ

1.1. Coğrafiyanın tədrisi metodikasının predmeti, məqsədi və vəzifələri

Coğrafiya müəllimlərinin metodiki bilik və bacarıqlarının formalaşdırılması, onun inkişaf etdirilməsi-coğrafiya tədrisi metodikasının əsas predmeti olub, cəmiyyətin inkişafında baş verən dəyişiklikləri əks etdirir. Demokratik tələblərin aparıcı qüvvəyə çevrildiyi müasir dövr mövcud olan təhsil sisteminin əsaslı dəyişikliklərlə daima yeniləşməsini tələb edir. Gənc və yeniyetmələrin həyata hazırlanmasında, demokratik dəyərlərin qiymətləndirilməsində istiqamətləndirici kimi coğrafiya müəlliminin də rolu daim artır. Məhz bu baxımdan coğrafiya tədrisi metodikasının xidmətləri böyükdür.

Coğrafiyanın tədrisi metodikasının predmeti –coğrafi elmlərə əsaslanan məktəb coğrafiyasının köməyi ilə müxtəlif pedoqoji əməliyyatlar tərtib etmək və məktəblilərin təlim və tərbiyəsinin inkişaf etdirilməsinə nail olmaqdır.


Coğrafiya tədrisi metodikası fənn daxilində «nəyi?», «necə?», və «niyə?» öyrətmək suallarına cavab verir və şagirdlərin müstəqil düşüncəyə malik, yaradıcı və

təşəbbüskar şəxsiyyət kimi formalaşdırılmasını bilavasitə təchiz edir.

Təlim prosesinin məqsədi, məzmunu, istifadə olunan vəsaitlər, metod və formaların seçilməsi, onların dərs və dərsdənkənar proseslərdə təşkili də coğrafiya tədrisi metodikası ilə bilavasitə əlaqədardır.

Azərbaycan Respublikasının - Təhsil sistemində islahatların aparıldığı müasir zaman kəsiyində coğrafiyanın tədrisi metodikasına olan münasibət xeyli dəyişmişdir. Bunu aşağıdakı sxemdə olduğu kimi əks etdirmək olar (Sxem 1).

Coğrafiya tədrisi metodikasının mahiyyəti. Sxem 1.



Coğrafiya tədrisi metodikası müəllim və şagirdlərin qarşılıqlı fəaliyyəti əsasında əldə olunan coğrafi bilik və bacarıqların mənimsənilməsi prosesini öyrənir. Kursun göstərilən xarakteri, ona pedoqoji və coğrafi elmlərə

əsaslanmağı tələb edir. Ümumtəhsil məktəblərdə coğrafi qanunauyğunluqların öyrədilməsi prosesində şagirdlərin yaş psixologiyasını nəzərə almaq tələb olunur ki, bu da coğrafiya tədrisi metodikasına didaktikanın tərkib hissəsi kimi çıxış etmək imkanı verir.

Müasir didaktika – nəzəri elmlərdən biri olub, təlim prosesində mövcud olan qanunauyğunluqları, şagirdlərin tərbiyə və inkişafını tədqiq edir və təlim prosesi üçün ümumi modellərin yaranmasını təmin edir. Fənnlər üzrə konkret modellərin tətbiqi isə bilavasitə coğrafiya tədrisi metodikasının vəzifəsidir.

Məlumdur ki, hər hansı fənnin tədrisi prosesində şagirdlərin vətənpərvərlik, estetik, ekoloji, iqtisadi və s.tərbiyəsinin formalaşdırılması prosesi aparılır ki, bu da dəqiq, təbiət və humanitar fənnlərin tədrisində özünəməxsus xüsusiyyətlərə malikdir. Coğrafiyanın tədrisi metodikasının özünəməxsusluğunu bu elmin həm təbiət, eləcə də ictimai fənnlər bloku arasında aralıq bir mövqedə olması ilə əlaqələndirmək mümkündür.

Müasir coğrafiya mürəkkəb quruluşa malik olub: «Təbiət – cəmiyyət – insan» - qarşılıqlı sistemini əhatə edir. Təbiətə təsir insan faktorunun yaratdığı ekoloji dəyişikliklərin bəşəriyyətin gələcək inkişafına təsiri baxımından təhlil edir.

Coğrafiyanın tədrisi prosesində müxtəlif aparıcı ideyalar nəzərə alınmalıdır:

- fiziki-iqtisadi-coğrafi biliklərin inteqrasiyası-hər hansı ərazinin (ölkənin) kompleks öyrənilməsi – konstruktiv coğrafiyanın tətbiqi imkanlarının araşdırılması;
- şagirdlərdə kartoqrafik bilikləri diqqət mərkəzində saxlamaq və kartoqrafik təsvir vasitələrinin köməyi ilə coğrafi biliklərin formalaşdırılması;
- şagirdlərin məntiqi düşüncəsində üçpilləli məkan anlayışını – yerli, regional və qlobal miqyasda öyrənilməsinin təmin edilməsi;

- nəzəri biliklərin praktik olaraq tətbiq edilməsi coğrafiya fənninin bütün mövzularında aparıcı rola malik olmasının əsaslandırılması;

- tədqiqat və axtarış, müşahidə yolu ilə coğrafi biliklərin əldə edilməsi prosesinin genişləndirilməsi və (ekskursiya və təcrübələr yolu ilə biliklərin mənimsənilməsi) bütün sinifləri əhatə olunması;

- geokoloji aspekt – fənnin məzmununda inkişafetdirici amil kimi mərkəz rolunda olması;

- coğrafi biliklərin obyektiv və əhatəli qiymətləndirilməsi üçün imkanlar – özünü qiymətləndirmə prinsipinə əsaslanmalı və şagirdlərin yaş və dərketmə imkanları səviyyəsinin nəzərə alınması və s..

Göründüyü kimi, coğrafiyanın tədrisi metodikasının rolu bilavasitə coğrafiya müəlliminin rolunu artırmağa yönəlir, onun yaradıcılıq imkanlarının tətbiq edilməsinə şərait yaradır.

Orta ümumtəhsil məktəblərinin, coğrafiya proqramında baş verən əsaslı dəyişikliklər və xüsusilə təhsil islahatlarındakı həyata keçirilməsi nəzərdə tutulan (bu prosesə artıq ibtidai siniflərdə başlanılmışdır) milli kurrikulumun tətbiq edilməsi; respublikanın dünya ölkələrinə inteqrasiyası tədris prosesində yeniliklərin tətbiqini labüdləşdirir.

Azərbaycan Respublikasının geosiyasi mövqeyi, ölkənin qərb və şərq mədəniyyətlərini qovuşduran rolunda çıxış etməsi – bütün sahələrdə eləcə də təhsil islahatlarında aparılan dəyişikliklərin çox önəmli olmasını düşünməyə imkan verir. Orta məktəbdə tədris prosesinin «başçısı» rolunda çıxış edən, ənənəvi müəllimin, sadəcə «istiqamətləndirici» və «təşkilatçı» kimi iştirak etməsini qəbul etmək məcburiyyətində qalan coğrafiya müəllimi pedaqoji ustalığını artırmaq, problemlərin həllinə yaradıcı yanaşmaq, fənnin tədrisində metodiki vəsaitlərin tətbiqini artırmaq, ümumiyyətlə ixtisasını təkmilləşdirmək üçün yeni

yollar axtarmalıdır. Çünki məktəb işində müəllim mərkəz roldadır və təhsilin keyfiyyəti bilavasitə müəllimin elmi-metodiki hazırlıq səviyyəsindən asılıdır.

Metodiki ustalığın artırılması prosesi isə uzun və mürəkkəb yoldur. Əmək məşğuliyyətinə yeni başlayan coğrafiya müəllimi, ilk növbədə, fənnin tədrisindəki metodlarla tanış olmalı və onları tətbiq etmək bacarığını sınaqdan keçirməlidir. Lakin nəzərə almaq lazımdır ki, hazır metodlar «standart» və «şablon» kimi istifadə edilə bilməz. Müəllimin yaradıcılığı və sənətkarlığı ona təklif edilən mövcud metodları – sinifin və fərdin özünəməxsusluğunu nəzərə almaqla tətbiq etməkdədir. Keyfiyyətli metodik bazaya malik olan coğrafiya müəllimi şəxsi yaradıcılığını inkişaf etdirə və tədris prosesini yeniləşdirməyə qadir ola bilər. Çünki, ən ideal yeniliklər əslində unudulmuş köhnəliklərdə olur.

Sual oluna bilər: metodiki baza nədir və müəllim hazırlığında onun rolu nədədir? Metodiki baza fənnin metodiki nəzəriyyəsi olub, coğrafiya fənninin tədrisi istiqamətlərini müəyyən edir, nəzəri biliklərin praktik olaraq tətbiqinə imkan verən müəllim yaradıcılığına şərait yaradır.

Müəllim yaradıcılığı – pedoqoqun şəxsi keyfiyyətlərinə, davranış və həssaslığına əsaslanan pedoqoji fəaliyyətin əsas elementlərindən biridir. Coğrafi biliklərin əsaslarını pedoqoji ustalıq və metodiki bacarıqların köməyi ilə tədris etmək – müəllim yaradıcılığının tərkib hissəsidir. Onun mənbəyi – müəllimin şəxsi təcrübəsi, şagirdlər ilə ünsiyyəti, digər müəllimlərin və bütövlükdə kollektivin təcrübəsi, ümumi mütəxəssis hazırlığı, mövqeyi və müşahidəsidir. Pedoqoji ədəbiyyatda müəllim yaradıcılığı termini bilavasitə «pedoqoji təcrübə» sözü ilə eyniləşdirilsə də birincinin daha çox metodiki fəaliyyəti təlim və tərbiyə prosesində aktivliyi nəzərdə tutulur ki, bütün bunlar coğrafiya tədrisi metodikasının əsas predmetidir.

Metodikanı ümumi və xüsusi olmaqla iki sahəyə ayırmaq olar.Ümumi metodika coğrafiya kurslarının bütün suallarını tədqiq edir. Xüsusi metodika isə məktəb coğrafiyasının ayrı-ayrı kurslarının tərkibinə daxil olan bölmə və mövzuların tədrisinə aid verilən tövsiyyələri əhatə edir.

Orta ümumtəhsil məktəblərində coğrafiya fənninin məqsədinin yeniləşməsi - tədris metodikasının istiqamət və vəzifələrinin təkmilləşməsinə səbəb olur. Hazırda,tədris prosesində yalnız təhsil (öyrədici) deyil, eləcə də inkişafetdirici və tərbiyəedici məqsədlərinin həyata keçirilməsi daha çox əhəmiyyət daşıyır. Coğrafiya tədrisinin metodikası kursunun ümumi məqsədi təhsil sistemindəki ümumi təlim məqsədlərinə uyğun gəlir. Bunlar aşağıkılardır.

Təhsilverici məqsədi – yəni coğrafiya fənninin məzmunu, öyrənilməsi tələb olunan bilik, bacarıq və vərdişləri nəzərdə tutur. Orta ümumtəhsil məktəblərində coğrafiya fənninin təhsil məqsədinə:

- yer kürəsində təbii komplekslərin yaranması, təbiət hadisələri və onların baş vermə səbəblərini müşahidə edərək, səbəb-nəticə əlaqələri kontekstində təbii proseslərin dinamik inkişafının dərk etdirilməsi;
- yer planetinin təbii imkanlarının bəşəriyyətin tələbatını ödəmək baxımından hesablanması,məskunlaşma potensialı təbii resurslardan səmərəli istifadə və yaranan qlobal ekoloji problemlərin nəticələrinin proqnozlaşdırılması;
- Azərbaycan Respublikasının dünya ölkələri ilə müqayisədə fiziki, iqtisadi geosiyası xüsusiyyətlərinin özünəməxsusluğuna dair təsəvvürün yaradılması daxildir;

İnkişafetdirici məqsəd – ətraf aləmin dərk edilməsi, idrak fəaliyyətini artıran tapşırıqların yerinə yetirilməsi, onların təqdim edilməsi və qiymətləndirilməsi vərdişlərini nəzərdə tutur.

İnkişafetdirici məqsədə:

- təbiət proseslərinin və təbiət hadisələrinin baş vermə səbəblərini onun yerləşməsi ilə müqayisə etmək və nəticələr çıxarmaq;

- coğrafi alət və cihazlar vasitəsi ilə ətraf mühitin öyrənilməsini müşahidə etmək;

- fiziki iqtisadi və sosial coğrafi məlumatların, statistik rəqəmlərdən istifadə edərək hesablamalar aparmaq, gələcək qidalanma və insanın təbiətdən istifadə etməsinə aid cədvəl, diaqramlar qurmaq və s.

- dünyada baş verən geosiyasi dəyişikliklərin Azərbaycan Respublikasına təsirini, ölkənin dünya iqtisadiyyatına, inteqrasiyasına aid mülahizələr söyləmək və s.daxildir.

Tərbiyəedici məqsəd – coğrafiya fənninin tədrisində mühüm yer tutur. Fənnin tədrisində Azərbaycanın qloballaşma prosesindəki mövqeyi, antropogen dəyişikliklərin bəşəriyyətin inkişafına təsiri, ekoloji, iqtisadi tərbiyə, dünya xalqlarının müxtəlif xüsusiyyətlərinə (dini, irqi, dil və s.) tolerant yanaşma və s problemlərin həllinə yönəldilmiş məqsədləri həyata keçirmək mümkündür.

Tərbiyəedici məqsəd kimi şagirdlərin:

- müxtəlif təcrübə və müşahidələrin aparılması məqsədi ilə fərdi və qrup şəklində fəaliyyəti (məhəldə cəhət təyini, hava müşahidələrinin aparılması, məhəllin planın tərtib olunması və s.), nəticələrin təqdim edilməsi və s.

- diyarşünaslıq materiallarının seçilməsi və komplektləşdirilməsi, vətəndaşlıq mövqeyinin formalaşdırılması

- iqtisadi təfəkkür, ekoloji və coğrafi mədəniyyətin inkişafını və s.təmin edir.

Müasir dövrdə coğrafiya tədrisinin məqsədlərinə şagirdlərin fənnə dair nəzəri bilik və bacarıqlarının praktik olaraq tətbiq edilməsi və onların gələcək də sosial fəaliyyətini aktivləşdirməyə yönəldilən tədbirlərin həyata keçirilməsinə verilən tələblər də daxil olmuşdur.

Didaktikadan fərqli olaraq (didaktika – yunan dilində öyrədirəm deməkdir) pedaqogikanın mühüm sahələrindən biri olan, metodika, təlim və təhsil prosesinin nəzəri əsaslarını təhlil edir. Metodikanın ikinci aspekti onun həm də tətbiqi elm sahəsi olmasıdır.

Nəzəri elm kimi coğrafiyanın tədrisi metodikası elmi – tədqiqat işlərinin istiqamətlərini, fənnin təliminin məqsəd və vəzifələrini məktəb coğrafiyasının məzmununu, əsas istiqamətləri, strukturunu metodikanın inkişaf tarixini, xarici ölkələrdəki inkişafını, milli kurrikulumda coğrafiyanın yerini, insan faktorunu fənnin mərkəzinə gətirilməsini, fənnin məzmun xəttinin əsaslandırılmasını, fiziki və iqtisadi coğrafiyanın inteqrasiyasından yaranan konstruktiv coğrafiyanın əhəmiyyətini, coğrafi biliklərin qiymətləndirilməsi yollarını, eləcə də fənnin pedoqoji, psixoloji əsaslandırılmasını və s.öyrənir.


Coğrafiya tədrisinin tətbiqi xarakteri, müxtəlif metodların, yeni vasitələrin, təşkilat formalarının pedoqoji texnologiyaların bilavasitə təlim prosesinə tətbiq edilməsi ilə müəyyən olunur. Tədris metodlarının daima təkmilləşdirilməsi, yeni metodların işlənilməsi, və s.problemlər də coğrafiya tədrisinin tətbiq xüsusiyyətində əks olunur.

Dünya ölkələrində təhsilin inteqrasiyası, cəmiyyətin inkişafı, məktəb coğrafiyasının məzmunu, fiziki və iqtisadi-sosial coğrafi biliklərin yaxınlaşması nəzəri və faktiki biliklərin bir-birini tamamlaması tədris proqramında yeni – ölkəşünaslıq istiqamətində yanaşmanı tələb edir. Məktəblilərin ekoloji və iqtisadi təhsil səviyyəsinin yüksəldilməsi, bu prosesdə kollektiv işin vacib olması, müəllim yaradıcılığının labüdlüyü, müəllim –

şagird ünsiyyətinin yeni aspekti coğrafiya tədrisi metodikasında «tədris metodları» termininin daha çox «tədris texnologiyaları» ilə əvəz olunmasına zəmin yaradır. «Tədris texnologiyaları» anlayışı son illər qərb ölkələrində

yaranmış və əsasən qabaqcadan müəyyən edilmiş və planlaşdırılmış məqsədə çatmaq üçün şagirdlərlə aparılan tapşırıqlar toplusunu (onların məzmunu, aparılması, qiymətləndirilməsi qaydalarını) əhatə edir. Texnologiya tədris prosesini daha təsirli etmək məqsədi daşıyır (eləcə də hər bir şagirdin müvəffəqiyyətini düzgün qiymətləndirməyə imkan yaradır) və tədris prosesini sistem şəkilinə salır. (Sxem 2)

Pedaqoji texnologiyanın məzmunu. **Sxem 2.**



Coğrafiya tədrisi metodikasının nəzəri və tətbiqi istiqamətləri əslində bir-biri ilə əlaqədardır. Kursun məzmununa:

- orta ümumtəhsil məktəblərində tədris olunan coğrafiya fənninin strukturu, məzmunu və digər ümumi məsələləri;
- məktəb coğrafiyasının təlim xüsusiyyətləri, tədris metodları, vasitələri, təşkilat formàları, müxtəlif texnologiyaların tətbiqi

- məktəb coğrafiyasının ayrı-ayrı kurslarının – «Ümumi fiziki coğrafiya», «Materiklərin və okeanların fiziki coğrafiyası», «Yerşünaslıq», «Dünyanın iqtisadi və sosial coğrafiyası», «Azərbaycan Respublikasının fiziki coğrafiyası», «Azərbaycan Respublikasının iqtisadi və sosial coğrafiyası», «Türk dünyasının coğrafiyası»-nın məzmunu və tədrisi məsələlərindən ibarətdir.

Coğrafiya tədrisi metodikasının əsas vəzifəsi digər pedoqoji elmlər kimi məktəbin təlim tərbiyə vəzifələrinə uyğun gələn tədbirləri həyata keçirməkdir. Tədqiq olunan problemlər aşağıdakılardan ibarətdir:

a) məktəb coğrafiyasının təhsil vəzifəsini həyata keçirmək – coğrafi təfəkkürün formalaşması üçün sistemli iş aparmaq, müasir qloballaşma dövründə cəmiyyətin hər bir üzvünün müəyyən olunmuş coğrafi biliklərə sahib olaraq «coğrafi mədəniyyətə» malik olmasına nail olmaqdır. Beynəlxalq miqyasda ümumitəhsil məktəblərində coğrafi biliklər – fəlsəfə, tarix, xarici dil ilə eyni müstəvidədir.

«Coğrafi mədəniyyətin» tərkib hissəsi kimi:

- ətraf aləmi elmi şəkildə başa düşmək;
- coğrafi dil, – anlayış, termin, qanunauyğunluq, prinsip və nəzəriyyələri – anlamaq;
- coğrafi mühit komponentlərini, onların mahiyyətini, ekoloji vəziyyətini və dəyişməsini müşahidə etmək;
- təbiətdə mövcud olan səbəb-nəticə əlaqələrini dərk etmək, onlara aid proqnozlar vermək;
- coğrafi təsəvvürlərin, bilik və bacarıqları xəritə və digər kartoqrafik təsvirlərdə tətbiq etmək və s. xüsusiyyətləri durur.

Şagirdlərin intellektual səviyyəsinin artmasında, mənəvi dəyərlərin qiymətləndirilməsində bəşəriyyətin coğrafi mühitdəki rolunun öyrənilməsində - coğrafiya fənninin rolu əvəzedilməzdir.

b) məktəb coğrafiyasının məzmununu – müəyyən etmək coğrafiya tədrisi metodikasının ən mühüm vəzifələrindən biridir. Fiziki və iqtisadi sosial coğrafiyanın inteqrasiyasına istiqamətlənmiş – müasir məktəb coğrafiyası şagirdlərdə kompleks coğrafi biliklərin formalaşmasınà kömək edir.

c) coğrafiya müəlliminin təlim fəaliyyətinə – elmi – nəzəri – metodik bilik səviyyəsinin artırılması, «müəllim – şagird» ünsiyyətinin beynəlxalq normalara uyğun qəbul etməsinə dair biliklər daxildir.

d) şagirdlərin coğrafi biliklərə sahib olması, onların maraqlandırılması üçün seçilmiş mövzu, metodları – coğrafiya tədrisi metodikasının vəzifələri sırasına aiddir.

e) coğrafiya fənninin - cəmiyyətin tərbiyəsindəki rolunu müəyyən etmək – tədris metodikasnın başlıca vəzifələrindən biridir:

- yaradıcı və müstəqil düşünmə qabiliyyəti;
- müstəqil olaraq biliklərə yiyələnmək bacarığı;
- məlumatı məntiqi təhlil etmək, tənqidi qiymətləndirmək, təcrübədə istifadə etmək və yaradıcı sürətdə dərk etmək qabiliyyəti;
- demokratik cəmiyyətin dəyərlərinə hörmət və vətənpərvərlik hissi;
- ədalətlilik, mənəvi sərvətlərə, mədəniyyət və ənənələrə hörmət etmək hissi;
- davranış bacarığı, mütəşəkkillik , ünsiyyət vərdişləri, təbiətə sevgi hissi, digər xalqlar, dinlər və etiqatlara tolerant yanaşma və s-ləri inkişaf etdirməyi nəzərdə tutur.

Coğrafiya tədrisi metodikası təlim tərbiyə sisteminin ümumi prinsiplərini demokratikləşdirmə, humanistləşdirmə, differensiallaşdırma, fərdiləşdirmə, inteqrasiya və humanitarlaşdırma əsas və Azərbaycan Respublikasının təhsil sistemində təlim prosesinə yanaşma keyfiyyətcə dəyişmiş:

- şagirdyönümlü
- inkişaf etdirici

- çeviklik
- əməkdaşlıq
- qrupda işləmək

prinsiplərini tətbiq edərək fəal təlimi inkişaf etdirməyə yönəldilmişdir.

Coğrafiyanın tədrisi metodikasının əsas məqsədlərindən biri şagirdlərin coğrafiya dərslərində

- coğrafi bilikləri yaradıcı olaraq (xəritə, sxem, məhəldə və s.də) tətbiq etmək;
- müstəqil olaraq coğrafi biliklərə yiyələnmək, yenilərini əldə etmək, proqnozlar vermək,
- coğrafi biliklərin əldə edilməsində öz yoldaşları ilə əməkdaşlıq etmək və s.üçün yollar axtarmaq, yeni strategiyalar tətbiq etməkdir.

1.2. Coğrafiya tədrisi metodikasının inkişaf tarixi

Cəmiyyətin inkişaf tarixində öyrənmə problemi heç vaxt öz aktuallığını itirməmiş, eləcə də coğrafiya fənni üzrə «nəyi» və «necə» öyrənmək daima tədqiqatçıların maraq dairəsində olmuşdur. Bu motiv isə fənnlərin inkişaf etməsinə səbəb olmuşdur. Coğrafiya tədrisi metodikasının inkişafı da bilavasitə məktəbdə coğrafiyanın tədrisi ilə əlaqədardır.

Cəmiyyətin coğrafiya fənnin tədrisində tələb etdiyi – tərbiyə və təhsilin mahiyyəti tarixən müxtəlif məzmuna malik olmuşdur və coğrafiyanın tədrisi metodikası da ona uyğun istiqamətdə inkişaf etmişdir.

Coğrafiya tədrisi metodikasının banisi dünya miqyaslı Çex pedaqoqu Yan Amos Komenski (1592-1670) qəbul edilir.

Didaktikanın yaradıcısı hesab olunan Y. Komenski ilk dəfə olaraq coğrafiya fənninin tədrisində ətraf aləm və təbiətdə baş verən hadisə və proseslərin müşahidə etməklə

fənnin öyrənilməsinə üstünlük verilməsini diqqət mərkəzinə gətirmişdir.

Azərbaycanda təhsil sistemi uzun illər Rusiya təhsilinin tərkib hissəsi olduğu üçün, coğrafiya fənninin də məzmunu, strukturu, metodikası adı çəkilən ölkədəki sistemdən fərqlənməmişdir.

Məhz bu baxımdan coğrafiya tədrisi metodikasının tarixi XVIII əsrin əvvəlində Rusiya məktəblərində coğrafiya fənninin sərbəst şəkildə tədris olunması ilə diqqəti cəlb edir. (Bu I Pyoturun təşəbbüsü ilə baş vermişdir). Rusiyada yeni ərazilərin zəbt edilməsi, təsərrüfatın müxtəlif istiqamətlərdə inkişafı, ticarətin rolunun artması, sənayenin inkişafı nəticəsində yeni təbii sərvətlərin kəşf olunmasına olan tələblər coğrafiya fənninin tədris olunmasına tələbin artmasına səbəb olmuş, ilk dəfə olaraq naviqasiya məktəblərində tətbiq edilmişdir. Coğrafiya fənninin tədrisi ilə əlaqədar – tədris planı, dərslik, əyani vəsaitlər (qlobus, kompas, xəritə və s.) İngiltərə və Hollandiyadan gətirilmiş və müəllimlər üçün xüsusi kurslar təşkil edilmişdir. İlk illərdə coğrafiya tədrisində əsas istiqamət coğrafi nomenklaturanı və digər coğrafi bilikləri əzbərləməklə – «Yer kürəsinin qisa təsviri»-ni verməyə istiqamətlənirdi. Rusiya məktəblərində ilk milli coğrafiya dərsliyi də məhz 1710-cu ildən (müəllifi məlum deyil) tədris olunmağa başlanılmışdır. Dərslikdə dərəcə toru, təbii hadisələrin təsviri, dünya və Rusiyaya dair statistik rəqəmlər və s. qısa şəkildə qeyd olunur. Bu dövr üçün ən mühüm coğrafi tədqiqatlar V.N. Tatişevə məxsus olmuşdur.

Coğrafiya tədrisində vətənpərvərlik tərbiyəsi, diyarşünaslıq materiallarından istifadə, ətraf mühitə insanın təsiri, tədrisdə «məlumdan məchula «yaxından uzağa» doğru» prinsipi K.D.Uşinskinin fəaliyyəti ilə bağlıdır. K.D. Uşinskinin «Müəllimlər üçün pedoqoji qeydlər», «Coğrafiya dərsi» adlı metodik vəsaitləri uzun

illər Rusiyada, o cümlədən Azərbaycan məktəblərində müəllimlər üçün başlıca informasiya mənbəyi olmuşdur.

Azərbaycan Respublikasında məktəb coğrafiyasının inkişafı.

Azərbaycanda coğrafi fikrin inkişafı qədim tarixə malikdir. XI əsrdə böyük mütəfəkkir və şair Nizami Gəncəvi özünün misilsiz poemalarında qədim dünya xalqlarının həyat şəraiti, təsərrüfat fəaliyyəti və mədəniyyəti haqqında dolğun məlumatlar vermişdir. XIX-XX əsrlərdə Azərbaycan alimi Əbdul Rəşid Bakuvinin yazdığı coğrafi əsərlər bu günədək öz əhəmiyyətini saxlamışdır.

Məşhur səyyah və coğrafiyaşünas Hacı Zeynalabdin Şirvani isə (XVII əsr) coğrafi təsvirlərin üstünlük təşkil etdiyi 350 çap vərəqi həcmində əsərlərini bizə irs qoyub getmişdir.

Lakin Azərbaycan coğrafiya alimlərinin fars və ya ərəb dilində yazdığı qiymətli əsərlərinin məktəb coğrafiyasının inkişafına təsiri az olmuşdur. Azərbaycan məktəblərində coğrafiya fənni yalnız XIX əsrin 30-cu illərindən etibarən burada rus, rus-tatar (Azərbaycan) və realni məktəblər (Bakı, Şuşa, Gəncə, Şəki və s.) açılandan sonra özünə vətəndaşlıq hüququ qazana bildi. Bu məktəblərdə o zaman rus dilində mövcud olan coğrafiya dərsliklərindən və tədris metodiki ədəbiyyatından istifadə olunurdu.

Sovet hakimiyyətinin qurulmasına qədərki dövrdə Azərbaycan coğrafi təhsilində H.Zərdabinin xidmətlərini qeyd etməmək olmaz. Görkəmli ədibin 1912-ci ildə yazdığı «Torpaq su və hava» adlı əsərində torpaqlardan istifadə, şoranlaşması və onlara aid nümunələr gətirilmişdir.

Azərbaycanda məktəb coğrafiyasının əsasını 1909-cu ildə Moskvada təbiət-coğrafiya kursunu, 1922-ci ildə isə Bakıda Ali Pedaqoji İnstitutu (hazırda ADPU) bitirmiş Qafur Rəşad Mirzəzadə qoymuşdur.

1911-ci ildə onun «Ümumi coğrafiya, (birinci hissə)», 1916-cı ildə isə «Ümumi coğrafiya,(ikinci hissə)» dərslikləri nəşr edilmişdir..

Onun 1919-cu ildə nəşr olunmuş «Qafqazın coğrafiyası» əsəri Rusiyada yaşayan bütün türk dilli xalqlar arasında milli dildə yazılmış ilk dərslik olmuşdur.

1920-ci il aprelin 28-də Azərbaycanda Sovet hakimiyyətinin qurulması təhsil sistemində köklü dəyişiklərə səbəb oldu.

1920-ci ilin payızında sovet Azərbaycanının məktəbləri üçün «1920-21-ci dərs ili üçün bir və iki dərəcəli məktəblərin texniki dərs cədvəli» adı ilə nəşr edilmiş ilk tədris planında coğrafiyanın bir dərəcəli məktəbin II və V, iki dərəcəli məktəblərin isə I və II qruplarında (hər qrupda həftədə 3 saat, cəmi 12 saat) tədris edilməsi müəyyən olundu. Azərbaycan SSR XMK coğrafiya fənn komissiyası həmin tədris planına müvafiq olaraq texniki proqram layihəsi tərtib edərək yerlərə göndərmişdi.

1921-ci ildə Qafur Rəşid Mirzəzadənin bir dərəcəli məktəblərin IV qrupları üçün yazdığı «Azərbaycan coğrafiyası» (birinci hissə) tədris vəsaiti çap olundu. Burada əvvəlcə ümumi coğrafi məsələlərdən bəhs edilir, sonra isə Azərbaycanın mövqeyi, ərazisi, relyefi, faydalı qazıntıları, iqlimi və əhalisinin məşğuliyyəti haqqında qısa məlumatlar verilirdi.

1924-cü ildə Qafur Rəşid Mirzəzadənin tədris proqramına uyğun tərtib etdiyi « Azərbaycan coğrafiyası» (ikinci hissə) tədris vəsaiti çap olundu. Vəsaitdə əvvəlcə Qafqazın ümumi coğrafi icmalı verilir, sonra Zaqafqaziya və Azərbaycan SSR-in tabii şəraiti, əhalisinin məşğuliyyəti haqqında ümumi məlumatlar verilirdi. Sonra isə respublikanın ayrı-ayrı qəzalarının təbii şəraiti və əhalisinin məşğuliyyətindən bəhs olunur. Proqrama uyğunluğunu və verilən məlumatın genişliyini nəzərə alınırsa Qafur Rəşadın

bu kitabını Azərbaycan SSR coğrafiyası üzrə ilk tədris vəsaiti hesab etmək olar.

1923-cü il proqramı üzrə bir dərəcəli məktəbin IV qrupunda ümumi coğrafi məlumatlar, I qrupunda isə əvvəlcə Zaqafqaziyanın ümumi coğrafi icmalı, sonra isə Azərbaycanın coğrafiyası ətraflı keçilirdi. Proqram yaxından uzağa prinsipi üzrə tərtib edilmişdi. Azərbaycan SSR-dən sonra Gürcüstan SSR, Ermənistan SSR, daha sonra isə İttifaqın digər respublika və vilayətləri haqqındakı məlumatlar öyrənilirdi.

1925-ci ildə Azərbaycan Sovet Sosialist Respublikası Xalq Maarif Komissarlığı (XMK) bir və iki dərəcəli məktəblər üçün yeni tədris planları qəbul etdi. Yeni tədris planında coğrafiya fənninin bir dərəcəli məktəbin IV və V (3 saat), iki dərəcəli məktəbin isə bütün I-IV qruplarında (2 saat) həftədə 14 saat ərzində keçilməsi müəyyən edildi.

Azərbaycanda coğrafiya elminin eləcə də məktəb coğrafiyasının inkişafında M.Vəliyevin (Baharlı) xidmətləri böyükdür. O, Kiyev Universitetinin yetirməsi idi. Azərbaycanda ilk ali təhsilli iqtisadi coğrafiya mütəxəssisi idi. Onun 1920-ci ildə yazdığı «Azərbaycanın coğrafiyası» kitabında ölkənin ümumi icmalı, təbii şəraiti, təbii ehtiyatları, əhalinin coğrafiyası və təsərrüfatın inkişaf imkanları və s. geniş işıqlandırılmışdır.

1921-ci ildə görkəmli yazıçı Yusif Vəzir Çəmənzəmənlinin Azərbaycan iqtisadiyyatına həsr olunmuş «Tarixi, coğrafi və iqtisadi Azərbaycan» kitabı da öz dövrünün mükəmməl əsərlərindən biri sayılırdı. Kitab iki hissədən ibarət idi. Birinci hissə, Azərbaycanın sərhədləri daxilindən, ölkənin təbii şəraiti, təbii ehtiyatları, ikinci hissə isə Azərbaycan iqtisadiyyatından bəhs olunurdu. Kitabın özəlliyi ondadır ki, Azərbaycan ərazisi vahid ölkə- Şimali və Cənubi Azərbaycan kimi təsvir edilir.

Proqram və dərsliklərdə diyarşünaslıq elementlərinin verilməsinə maraq böyük idi. 1925-ci ildə F.Rzabəylinin

«Tənəzzəh (ekskursiya) haqqında» məqaləsində ekskursiyanın təlim-tərbiyə prosesində rolu, keçirilməsi qaydaları, onun əhəmiyyətindən bəhs olunurdu ki, bu da məktəb coğrafiyasında mühüm yenilik idi.

Azərbaycan xalq maarifi və ilk təhsil tarixində ilk dəfə olaraq 1934-1935-ci tədris ilində V.İ.Lenin adına APİ-da coğrafiya ixtisası üzrə tələbə qəbulu edildi və bununla da ilk ali təhsilli coğrafiya müəllim kadrlarının hazırlanmasına başlandı. Respublikada ali təhsilli coğrafya müəllim kadrlarının hazırlanması ümumtəhsil məktəblərində coğrafiya fənninin tədrisi keyfiyyətinin yüksəldilməsinə səbəb olmaqla yanaşı, coğrafiya elminin, coğrafiya tədrisi metodikasının da inkişafına təkan verdi. V.İ.Lenin adına APİ-nin coğrafiya fakültəsinin məzunlarının elmi-tədqiqat fəaliyyəti nəticəsində respublikada coğrafiya tədrisi metodikası kimi xüsusi elm sahəsi yaranmışdır.

30-cu illəritn sonunda ölkədə avtoritar-diktator rejiminin yaranması, digər sahələrdə olduğu kimi məktəb coğrafiyasında milli kadrların yetişməsinin qarşısını kəskinliklə aldı.

1950-ci ilə qədər ölkədə demək olar ki, milli dildə bir kitab belə işıq üzü görmədi. Məktəb coğrafiyasında milli respublikaların tədrisi demək olar ki, dayandırılmışdı. Lakin 1941-ci ildə qabaqcıl coğrafiya müəllimi və metodisti Vaqif Axundovun bilavasitə əsaslandırması ilə ölkədə ilk olaraq IV sinifdə SSRİ coğrafiyasının tərkibində Azərbaycan coğrafiyasının tədrisinə 16 saat vaxt ayrıldı.

Tədris prosesində V.Axundova məxsus «Azərbaycan SSR coğrafiyası» vəsaitindən istifadə olunmağa başladı.

1949-cu ildə Osman Osmanov beş çap vərəqi həcmində «Azərbaycan SSR coğrafiyası» tədris vəsaiti də yenə həmin siniflər (IV sinif) üçün həmin həcm (16 saat) üçün nəzərdə tutulurdu. Lakin 1953-cü ildə Ənvər Şıxlinskinin yazdığı eyni adlı dərslik bundan əvvəlki vəsaitlə əvəz olundu. 1956-57-ci ildə Azərbaycan coğrafiyasının IV siniflərdə tədris

edilməsi dayandırıldı və VII sinifdə «Qafqaz» mövzusunun tərkibində (8 saatlıq) 4 saat həcmində Azərbaycan SSR-nin fiziki coğrafiyası», VIII sinifdə «Zaqafqaziya» mövzusunun (11 saatlıq) tərkibində 6 saat həcmində «Azərbaycan SSR-in iqtisadi coğrafiyası» adı ilə tədris olunmağa başladı. Tədris prosesində Ə.Şıxlinskinin tərtib etdiyi dərsliyin təkmilləşdirilmiş variantından istifadə olunurdu.

1960-1982-ci illərdə Azərbaycan SSR fiziki coğrafiyası prof.Qasım Gülün «Azərbaycan SSR iqtisadi coğrafiyası ilə prof. Hadı Əliyevin eyni adlı dərslikləri üzrə tədris edilmişdir.

1960-cı ilə qədər «Azərbaycan SSR fiziki və iqtisadi coğrafiyası» əsasən SSRİ fiziki və iqtisadi coğrafiya kurslarına verilən saatların sıxlaşdırılması hesabına əldə edilən vaxt əsasında tədris olmuşdur.

1971-72-ci dərs ilindən etibarən respublikanın coğrafiyasını daha dərindən, həm də xələl gətirmədən öyrənmək məqsədilə VII sinifdə Azərbaycan SSR məktəblərinin tədris planında Rusiya məktəblərindən fərqli olaraq coğrafiya fənninə dərs ilinin ikinci yarısında 2 saat əvəzinə, 3 saat vaxt verildi. VIII sinifdə isə əlavə vaxt ayırmaq mümkün olmadı. Bununla əlaqədar olaraq Azərbaycan SSR fiziki və iqtisadi coğrafiyası «Azərbaycan SSR coğrafiyası» adı altında birləşdirilərək 1972-1975-ci illərdə 24 saat həcmində VII sinifdə dərs ilinin sonunda tədris olundu.

Azərbaycan SSR Nazirlər Kabinetinin təsdiq etdiyi və 1979-cu ildə nəşr olunan yeni coğrafiya proqramında respublikanın fiziki coğrafiyasının VII sinifdə, SSRİ fizika coğrafiyasının tədrisində, iqtisadi coğrafiyasının isə VIII sinifdə, SSRİ iqtisadi coğrafiyasının tərkibində öyrənilməsi müəyyən edildi. Yeni proqram üzrə Azərbaycan SSR fiziki coğrafiyasının əvvəlki kimi kursun sonunda deyil, bilavasitə respublikanın ərazisi daxil olan Qafqaz regionunu öyrənildikdən sonra tədris etmək nəzərdə tutuldu. Belə bir

yanaşma Azərbaycan SSR ərazisini Qafqazla birlikdə kiçik miqyasda, ayrılıqda isə orta və iri miqyasda öyrənməyə və bunun əsasında şagirdlərə hər hansı bir ərazinin müxtəlif miqyaslarla tədqiqi və öyrənilməsi haqqında təsəvvür yaratmağa imkan verirdi və eyni zamanda tədris ilinin sonunda, təlim kəmiyyətlərinin aşağı düşdüyü bir vaxtda tətbiq edilməsinə son qoyurdu

«Azərbaycan SSR- nin coğrafiyası» 25 saatlıq proqramı aşağıdakı hissələrdən ibarət idi:

1.Azərbaycan SSR-nin ümumi fiziki-coğrafi xüsusiyyətləri (13 saat)

2. Azərbaycan SSR-in fiziki-coğrafi vilayətlərinin təbii şəraiti və təbii ehtiyatları (6 saat.)

3. Məktəbin yerləşdiyi muxtar respublikanın, muxtar vilayətin və ya iqtisadi rayonun təbiəti və təsərrüfatı (5 saat) və təkrar (1 saat.).

Azərbaycan SSR-in fiziki coğrafiyası proqramında təbii şəraitin və onun ayrı-ayrı komponentlərinin təsərrüfat cəhətdən qiymətləndirilməsi, insanların ictimai istehsal fəaliyyətinin təsiri nəticəsində olaraq dəyişdirilməsi, rekonstruksiyası ,mühafizəsi, habelə meliorasiya, suvarma; su təchizatı məsələlərinə geniş yer verilmişdi. Praktiki işlər sistemində yerli süxurlardan ibarət mineralların kolleksiyasının hazırlanması, məktəbin yerləşdiyi məntəqə üçün ümumi günəş radiasiyanın miqdarının, buxarlanma və rütubətlik əmsalının, şaxtalı və temperaturu +10°C-dən yuxarı olan günlərin sayının hesablanması, xəritələrin müqayisəsi əsasında təklif edilən rayonun kompleks xarakteristikasının tərtibi, Nabran-Şahdağ, Puşkin (indiki Biləsuvar)-Kömürköy xətləri üzrə landşaft profillərinin tərtibi və s.kimi politexnik təhsil əhəmiyyətli konstruktiv məsələlər mühüm yer tuturdu.

1950-1985-ci illər arasında respublikamızda coğrafiya elminin və məktəb coğrafiyasının inkişafı, xüsusən yuxarı siniflərində Azərbaycan SSR fiziki və iqtisadi coğrafiyasının

vahid proqram və dərslik üzrə tədrisi coğrafiya tədrisi metodikası sahəsində elmi-tədqiqat işlərinin genişlənməsinə; yüksək ixtisaslı, elmi dərəcəli metodist kadrların hazırlanmasına imkan vermişdir. İlk dəfə 1955-ci ildə M.Ə.Zülfüqarov VII sinifdə Azərbaycan SSR fiziki coğrafiyasının tədrisi metodikasına həsr olunmuş namizədlik dissertasiyasını müdafiə etdi, 1959-cu ildə H.Ə.Sadıxlı Azərbaycan SSR coğrafiyasının tədrisində əyanilik mövzusunda; 1962-ci ildə isə S.H.Məcidov Azərbaycan SSR coğrafiyasının tədrisində diyarşünaslıq materiallarından istifadəyə həsr olunmuş namizədlik dissertasiyasını başa çatdırdı. Sonralar aspirantura yolu ilə yetişdirilən gənc metodistlər isə təkcə respublika üçün deyil, bütün ölkə üçün əhəmiyyəti olan mövzularla namizədlik dissertasiyaları hazırladılar.

Məsələn, N.Allahverdiyev «Coğrafiya üzrə tədris ekskursiyalarının təşkili və keçirilməsi metodikası» (1964-cü il), B.A.Paşayev, VI-VII sinif şagirdlərində ümumcoğrafi anlayışların formalaşdırılması» (1972) və D.M.Ələskərov 1976-ci ildə «Fiziki coğrafiya kurslarında kartoqrafik biliklərin və bacarıqların formalaşdırılması» mövzusunda namizədlik dissertasiyaları müdafiə etdilər.

Respublikada coğrafiya metodikasının inkişafında prof. R.X.Piriyev, dosentlərdən M.A.Zülfüqarov, D.Ə.Məcidov İ.N.Allahverdiyev, B.A.Paşayev, D.M.Ələskərov, müəllimlərdən Rəcəb Yaqubov, Sabir Quliyev tərəfindən yazılmış və kütləvi tirajla çap olunmuş metodik əsərləri və tədris vəsaitləri mühüm rol oynamışdır. Xüsusilə, BDU-nun dosenti Bəlqiyyə Paşayevin xidmətlərini qeyd etmək lazımdır. XX əsrin sonunda Azərbaycanda coğrafiyanın inkişafında yeni mərhələ açıldı. Müstəqilliyin qazanılması coğrafiya fənninin inkişaf etdirilməsində də sərbəst siyasətin həyata keçirilməsi ilə nəticələndi.

Respublika Təhsil Nazirliyində yaradılan Vahid Elmi Metodik Şuranın coğrafiya bölməsi ali və orta məktəblər

üçün proqram və dərsliklərin yenidən tərtib olunmasına məsuliyyət daşımaqla yanaşı, bir sıra vəsait və dəsrliklərin də yazılmasında yaxından iştirak edirlər.

Fənnin tədrisi metodikasının inkişaf etdirilməsində mərhum professor MA.Müseyibovun xidmətləri əvəzolunmazdır. O, 1992-ci ildən 2011-ci ilə qədərki dövrdə EMŞ-nın «Coğrafiya» bölməsinə rəhbərlik etmiş və fənnin strukturunda, məzmununda köklü dəyişiklərin edilməsində c.e.d. V.Əfəndiyev, c.e.d.E. Əlizadə, p.e.n O.Alxasov, c.e.d. T.Həsənov, c.e.n N.N.Allahverdiyev, c.e.n. T.Gərayzadə, c.e.n. Y.Qəribov, c.e.n.R.Babayev, c.e.d. F.İmanov, c.e.d Ş.Göyçaylı, c.e.n. N.Əyyubov və başqalarının xidmətləri böyükdür. Hazırda Bakı Dövlət Universitetində, Azərbaycan Dövlət Pedoqoji Universitetində, Lənkəran Dövlət Universitetində, Gəncə Dövlət Universitetində, Sumqayıt Dövlət Universitetində, Naxçıvan Dövlət Universitetində coğrafiya fakültələri ilə yanaşı «Coğrafiya müəllimi» ixtisasları üzrə mütəxəssis hazırlığı başlamışdır. Ali məktəblərin magistratura pilləsində «Coğrafiya fənninin tədrisi və metodikası» ixtisası üzrə kadr hazırlığı gələcəkdə coğrafiya tədrisi metodikası, orta və ali məktəb coğrafiyasının tədrisi sahəsində elmi potensialın sayının və keyfiyyətinin artmasına səbəb olacaqdır.

Orta məktəblər üçün coğrafiya proqramı, dərsliklər, dərs vəsaitləri, siniflər üzrə dərs vəsaitləri, əyani vəsaitlər və test kitabçaları nəşr olunur. Bakı Kartoqrafiya Fabrikində məktəb coğrafiyası üçün divar xəritələri və atlaslar, kontur xəritələr, müxtəlif müəlliflərin tərtib etdiyi iş dəftərləri və s. coğrafiya fənninin tədrisinin səviyyəsinin yüksəldilməsinə xidmət göstərir. Tələbə Qəbulu üzrə Dövlət Komissiyasında fəaliyyət göstərən coğrafiya fənni üzrə seminar üzvlərinin müsbət işi də qeyd olunmalıdır. Məktəblilərin coğrafi biliklərinin yoxlanılmasına istiqamətlənən test nümunələri abituriyentlər üçün dərs vəsaiti, «Abituriyent» jurnalında nəşr olunan metodik məqalələr, təhlil səciyyəli ali

məktəblərə qəbul proqramları və s. yüksək elmi-metodik səviyyəsi ilə fərqlənir.

Coğrafiya fənninin tədrisinin inkişafında bir sıra hazırlıq kurslarının nəşr etdirdiyi («Araz», «Bilik», «Hədəf» və s.) vəsaitlər də əhəmiyyətlidir.

Azərbaycan Respublikasının təhsil sistemində dünyaya inteqrasiya etmək prinsipi, ölkədə Milli kurrikulumun qəbul edilməsi ilə müşayiət olunur. Azərbaycanda məktəb coğrafiyasının qarşısında yeni layihə-milli kurrikulumun tətbiq edilməsi artıq reallığa çevrilməkdədir.

Lakin, fənnin tədrisində xidmət edən əyani vəsaitlər, elektron dərsliklər, multimedia, alternativ dərsliklərlə yanaşı daimi fəaliyyət göstərə bilən mətbuat orqanına (aylıq və ya rüblük jurnal) böyük ehtiyac duyulur. Bu respublikada fəaliyyət göstərən 7000 nəfərdən çox coğrafiya müəllimlərinin ən böyük arzusudur.

Respublikanın – təhsil sistemində ana dili, tarix və coğrafiya fənnlərinin yetişməkdə olan gənc nəslin ümumi dünyagörüşünün inkişafındakı müstəsna rolu daim qəbul edilmişdir. Coğrafiya bir elm sahəsi kimi dünyanın coğrafi mənzərəsini, iqtisadiyyatını, ekologiyasını əhatə etdiyindən xalqın maariflənməsində yaxından iştirak edir. Məhz bu amillər coğrafiya fənninin tədris əhəmiyyətini artırır.

Şərti olaraq Azərbaycanda coğrafiya fənninin tədrisi tarixini şərti olaraq dörd mərhələyə ayırmaq mümkündür.

a) XX əsrin əvvəlində – maarifçi alimlərdən Qafur Rəşad, Həsənbəy Zərdabi, Məhəmməd Baharlının xidmətlərinə əsaslanan mərhələdir. Onlar Azərbaycan coğrafiyasının tədrisinin keyfiyyətini artırmaq və təhsil sisteminə gətirmək üçün mübarizə aparmış və həmin dövrün mətbuat səhifələrində aktiv fəaliyyət göstərmiş və coğrafiya fənninin tədrisi ilə bağlı məqalələrlə çıxış etmişlər.

b) Azərbaycanda məktəb coğrafiyasının elmi şəkildə əsaslandırılması 1935-ci ildən sonraya təsadüf edir.

Orta və ali məktəblərdə coğrafiya fənninin tədrisi ilə əlaqədar verilən ittifaq miqyaslı qərarlar Azərbaycanda da öz əksini tapırdı. 1935-ci ildə Azərbaycan Pedoqoji İnstitutunda coğrafiya müəllimi kadrlarının hazırlığı ilə əlaqədar təbiət fakültəsində eyni adlı şöbənin açılması və daha sonra 1944-cü ildə Azərbaycan Dövlət Universitetində sərbəst olaraq coğrafiya fakültəsinin yaradılması coğrafiya fənninin, məktəb coğrafiyasının və eləcə də coğrafiya tədrisi metodikasının inkişafına güclü təkan verdi. İlk məzunlar M.Zülfüqarov, S.Şükürov, H.Sadıqlı, O.Osmanov, N.Kərəmov, Ə.Hacızadə, Q.Gül, H.Əliyev və s.sonrakı dövrlərdə coğrafiyaçıların hazırlanmasında yaxından iştirak etmiş, onlarla dərslik və vəsaitlər tərtib etmişlər. Proqram və dərsliklərin tərtib olunmasına müdaxilə edə bilməyən azərbaycanlı mütəxəssislər onların tərcüməsi və qismən əlavə metodik vəsaitlərin hazırlanması ilə kifayətlənməli olurdular. Orta məktəbin qabaqcıl metodist müəllimlərinin əməli fəaliyyətləri, mətbuatda vaxtaşırı çıxışları – məktəb coğrafiyasında müəyyən məsələlərin həllinə kömək edirdi. 1989-cu ilə qədər məktəb coğrafiyasına aid metodik məqalələri əks etdirən «Tarix, ictimaiyyət və coğrafiya» jurnalının nəşr olunması da coğrafi təhsilin inkişafına şərait yaradırdı.

c) 1992-ci ildən sonra respublikada həyatın bütün sahələrində eləcə də ali və orta məktəb coğrafiyası tədrisində dəyişikliklər baş verməsi ilə səciyyələnir.

d) Coğrafiya fənni üzrə mili kurrikulumun tətbiqi – məktəb coğrafiyasının strukturunda, məzmununda, tədrisində indiyədək mövcud olmuş və sovet təhsil sisteminin varisi kimi qəbul edilən proqramın ləğv edilməsi və təfəkkürün inkişafına yönəldilmiş şəxsiyyətyönümlü kurrikulumun tətbiqidir.

1.3. Coğrafiya tədrisi metodikasının tədqiqat metodları

Müasir dövrdə coğrafiya fənninin qarşısına qoyulan tələblərin yerinə yetirilməsinə xidmət edən tədris metodikasının da rolu dəyişmişdir. Coğrafiya müəlliminin pedoqoji fəaliyyətindəki müvəffəqiyyəti hər zaman bilavasitə coğrafiya tədrisi metodikasının bir elm kimi inkişafı ilə əlaqədar olmuşdur. Tədris metodikasının elmi əsaslarla işlənilməsi, təcrübələr vasitəsi ilə əsaslandırılması, coğrafiya müəlliminə çatdırılması (ixtisasartırma kurslarında, ali məktəb proqramında, seminar məqalə, çıxış və s.formasında) coğrafiya tədrisi metodikası üzrə mütəxəssislərin bilavasitə əsas vəzifəsidir.

Coğrafiya tədrisi metodikasına aid aparılan elmi tədqiqat işləri tədqiqatçılar tərəfindən emprik yolla toplanmış material bazası ilə müəyyən olunur, təcrübədə sübut edilir və elmi şəkildə təhlil olunur. Pedoqoji fəaliyyətində yeniliyə meyl edən coğrafiya müəllimlərinin dərs və dərsdənkənar vaxtlarda tətbiq etdiyi yeni metodlar, onların nəticələri, qiymətləndirilməsi tədqiqatçı tərəfindən müxtəlif yollarla öyrənilməli və nəzəri cəhətdən əsaslandırılmalıdır.


Tədqiqat metodları xarakterinə və yerinə yetirilməsinə görə iki qrupa ayrılır.

Nəzəri metodlar hadisə və prosesləri müəyyən etmək, ümumiləşdirmək və formalaşdırmağa xidmət edir.

Emprik tədqiqat metodları tədqiqat üçün tələb olunan faktların tapılmasıdır. Tədqiqat tədris prosesinin, pedoqoji təcrübələrin və pedoqoji müşahidənin əsasında aparılması, əsasən müşahidə və eksperiment olmaqla iki qrupda birləşir. (*Sxem 3*)

Nəzəri metodlar öyrənilən hadisə və prosesə aid qanunauyğunluqları təhlil etmək, onları ümumiləşdirərək nəticə çıxarmağa yönəlmişdir. Ümumi məntiqə əsaslanan (analiz sintez, induksiya, deduksiya ümumiləşmə və s.) bu metodlar tədqiqatçıda yeni ideyaların yaranmasına səbəb olur və onu yeni biliklərə istiqamətləndirir

Coğrafiya tədrisi metodikasının tədqiqat metodları.
Sxem 3



Cədvəl 1

Nəzəri və emprik metodların qısa təsnifatı

Məntiqi	Formalaşdırılmış	Emprik
1.Analiz	1.Sistemli yanaşma	1.Anket sorğuları
2.Sintez	2.Müqayisə	2.Müşahidə
3.İnduksiya	3.Tarixi yanaşma	3.Məktəb sənədləri
4.Deduksiya	4.Riyazi	4.Yazılı yoxlama işi
5.Ümumiləşdirmə	5.Statistik	5.Test sorğusu
6.Tipolgiya		6. Ekspert rəyi
7.Analogiya		
8.Ədəbiyyatın təhlili		
9.İdeallaşdırma		

İnduktiv (xüsusidən ümumiyə doğru yol) və deduktiv (ümumidən xüsusiyə doğru yol) adlanan metodlar isə hadisə

və prosesə iki istiqamətdə yanaşmağa kömək edir. Coğrafiya fənninin tədrisində induktiv və deduktiv metodları şagirdlərdə məkan anlayışının yaranmasında «lokal – qlobal» və ya «qlobal – lokal» prinsiplərinin formalaşmasında mühüm rola malikdir.

Bənzətmə (analogiya) metodunun köməyi ilə coğrafi obyekt, hadisə və proseslərə dair təsəvvürləri formalaşdırmaq, onun özünəməxsusluğunu canlandırmaq mümkündür. Tipologiya adlanan digər metod coğrafi hadisə və obyketləri hər hansı xüsusiyyətinə görə qruplaşdırmağa, təsnifat etməyə imkan yaradır.

Bu metod şagirdlərə differensial yanaşmağa, onların yaradıcılığının üzə çıxarılmasına təkan verir, öyrənilən obyekt və hadisənin əhəmiyyətinin üzə çıxarılması, onun ideal kimi qiymətləndirilməsi, şagirdlərə təlim prosesində fərdi yanaşmağa, əqli qabiliyyətinə görə («zəif», «orta», «güclü») yanaşmağa imkan verən metod ideallaşdırma adlanır.

Nəzəri metodlar arasında bu mövzuya aid metodik ədəbiyyatın təhlili ənənəvi metodlardan biridir. Mövzuya aid müxtəlif illərdə nəşr olunmuş ədəbiyyatın araşdırılması, onların müqayisə edilməsi, qarşıya qoyulmuş tapşırığın, praktik vəziyyətini öyrənmək üçün şərait yaradır, seçilmiş problemin aktuallığını əsaslandırmağa imkan verir.

Sistemli yanaşma metodu xüsusilə son illər daha aktual olmuşdur. Bu metod mürəkkəb quruluşa malik olan hər hansı obyekt və hadisənin bütövlükdə yəni bir-biri ilə əlaqədə olan sistem kimi öyrənməyə imkan verir ki, bu da hadisə və proseslər arasında səbəb-nəticə əlaqələrini öyrənməyə, məntiqi ardıcıllıqla izləməyə, tədris materialları arasında varisliyin üzə çıxarılmasına, müəllim və şagird fəaliyyəti arasında qarşılıqlı ünsiyyətin formalaşmasına səbəb olur.

Müqayisə metodu nəzəri metodlar içərisində ən çox tətbiq edilən və ən əhəmiyyətli rola malikdir. Məktəb

coğrafiyasında, müqayisə metodunun tətbiqi şagirdlərdə xüsusilə tənqidi təfəkkürün inkişafına səbəb olur, tədqiq edilən məsələnin özünəməxsus xüsusiyyətlərini daha aydın təsəvvür etməyə imkan verir.

Tarixi metod isə öyrənilən məsələyə müxtəlif illərdə olan yanaşmanı üzə çıxarmağa şərait yaradır ki, bu isə müxtəlif dövrlərdə şagirdlərin coğrafiya fənni üzrə təlim nəticələri, bilik və bacarıqlarının qiymətləndirilməsinin müqayisəsi ilə təhlil olunur. Yalnız belə müqayisə ilə tədris prosesində ola biləcək uğurlara aid məlumat əldə etmək mümkündür.

Statistik və riyazi metodlar digər elm sahələrində olduğu kimi coğrafiya tədrisi metodikasının da əsas tədqiqat metodlarıdır. Şagirdlərin müvəffəqiyyətinin müəyyən olunmasında (adətən beş və ya on bal sistemi ilə) geniş istifadə olunan bal sistemi tədqiqatçıya kifayət qədər statistik məlumat verir. Bu isə əldə edilən nəticələri analiz etmək üçün metodik bazà rolunu oynayır.

Riyazi metod eləcə də əldə edilən məlumatları təsnif etməyə, onları müəyyən xüsusiyyətlərinə görə qruplaşdırmağa imkan verir.

Nəzəri tədqiqat metodları içərisində son illər **modelləşdirmə** adlanan metod uğurla tətbiq olunur. Bu metodun mahiyyəti – hər hansı coğrafi hadisə və ya prosesə aid digər formada oxşarını vermək və onu tətbiq etməklə aparmaqdır. Belə ki, tədqiqatçı hər hansı dərs mövzusunun konspektini təklif etdiyi metoda əsasən model olaraq təqdim edir və müəllimin işini şagirdlərin fəaliyyətini fərz edir, alınacaq nəticələrə dair proqnozlar verir.

Nəzəri metodların seçilməsi tədqiqatçının qarşısına qoyduğu məqsəd və vəzifələrdən asılıdır. Lakin mövzunun aktuallığını əsaslandırmaq, problemə aid fərziyyə irəli sürmək üçün mütləq problemə dair ədəbiyyat təhlil olunmalıdır.

Tədqiqat prosesində yeni elmi nailiyyətlər müxtəlif istiqamətli təcrübələr nəticəsində əldə olunur ki, bu da emprik metodlar sisteminə əsaslanır. Emprik metodlar içərisində ən geniş yayılmış metod **müşahidədir.** Pedoqoji prosesi müəyyən vaxt ərzində ardıcıl olaraq müşahidə etmək, nəticələri təhlil etmək, müəllim və şagird fəaliyyətini düzgün qiymətləndirmək üçün ən qiymətli vasitədir. Məqsədyönlü müşahidə aparmaq üçün tədqiqatçı xüsusi plan tərtib etməli, müşahidə gündəliyində qeydlər aparmalıdır. Müşahidə metodu ciddi və obyektiv aparılmalıdır, dərs, ekskursiya və ya dərsdənkənar məşğələlərdə yerinə yetirilməlidir.

Müşahidələr anket-sorğu və müsahibə metodları ilə paralel aparıla bilər.

Anket-sorğu metodu müəllim, şagird və valideynlər arasında aparılmalıdır. Seçilmiş mövzuya aid suallara yazılı cavab tələb olunmalıdır. Qısa vaxt ərzində çox saylı respondentlərdən kifayət qədər suala cavab alınması, onların müqayisəli təhlili,nəticənin çıxarılması tədqiqatçıya nisbətən asan yolla geniş faktlar toplamağa imkan verir. Anket sualları dəqiq olmalı, respondentlərdə çaşqınlıq yaratmamalı və onlara öz təkliflərini vermək üçün şərait yaradılmalıdır. Bunu «Azərbaycan Respublikasının fiziki coğrafiyası» kursunda «Praktik təlim metodlarından istifadənin təşkili» mövzusunda tədqiqat işinə aid aparılan analitik-sorğusunun nümunəsində göstərmək mümkündür. (Cədvəl 2)

Müxtəlif ünvanlardan (şagird, müəllim, valideyn) toplanmış anket-sorğular yeni ideyaların yaranmasına səbəb olur.

Cədvəl 2

Şagirdlər üçün anket-cədvəl

	Suallar	Bəli	Xeyir
	Mövzunun praktik metodlarla öyrənilməsini necə başa düşürsünüz? A) müəllimin köməyi ilə dərslik mətninin öyrənilməsi B) müəllimin köməyi olmadan mövzunun dərsliyə əsasən öyrənilməsi		
	Yeni materialı hansı halda daha çox mənimsəyirsiniz? A) müəllimin mühazirəsi ilə B) özünüz dərslikdən oxumaqla C) praktik olaraq əldə etməklə		
	Yeni mövzuya aid suallara cavab verərkən hansı formada işləməyə üstünlük verirsiniz? A) fərdi B) qrup		
	Mövzuya aid məlumatları əldə etmək üçün hansı mənbə sizi daha çox cəlb edir? A) dərslik B) xəritə C) videofilm D) internet		
	Keçmiş mövzunu təqdim edərkən hansı metoda üstünlük verirsiniz? A) şifahi nitqlə cavabı B) evdə hazırladığınız vəsaitə əsasən		
	Keçmiş mövzunun sorğusu zamanı müəllim və şagird praktik işinə dair nə təklif edə bilərsiniz		
	Yeni mövzunun izahı və möhkəmləndirilməsi prosesini necə görmək istəyirsiniz		

Müsahibə metodu əslində anket-sorğusunun şifahi variantıdır. Lakin müsahibə zamanı tədqiqatçı qarşısındakına onun verdiyi cavabdan asılı olaraq yeni suallar vermək imkanına malik olur. Cavabların yalnız «bəli» və «xeyir»-dən olmaması, daha ətraflı qeyd edilməsi də müsahibə metodunun üstünlüyünü göstərir.

Tədqiqat metodlarından biri kimi **məktəb sənədlərinin öyrənilməsi** mühüm rola malikdir. Tədqiqat, sinif jurnalını, müəllimin dərs planı, hesabatı, şagirdlərin gündəlikləri, coğrafiya dəftərləri, kontur xəritə, iş dəftərləri, hava müşahidəsinə aid qeydləri, topoqrafik planı, ekskursiya hesabatlarını, mövzulara aid hazırladığı referat və digər işçi vərəqlərini – bir sözlə şagird «portofolosunu» araşdırmağa istiqamətlənir.

Müəllimin fəaliyyətində dərs planı, icmal-gündəlik, praktik və müstəqil işlərin yerinə yetirilməsinə dair qeydlər, şagirdlərin kontur xəritə və iş dəftərlərində yerinə yetirdikləri tapşırıqların qiymətləndirilməsi və s.nəzərdə tutulur.

Məktəb sənədlərinin öyrənilməsində şagirdlərin hazırladıqları əyani vəsaitlərin siyahısı (vulkan, çay dərəsi, herbari modelləri) məktəb kitabxanasından və internet şəbəkəsindən istifadəsinə də aid faktorların yığılması maraq yaradır.

Azərbaycanın müstəqillik qazanması ilə birgə adı çəkilən test modelinin tətbiqi də hazırda əsas tədqiqat üsullarından biridir. Müxtəlif relevantlıq xüsusiyyətinə malik olan test tapşırıqlarını tətbiq etməklə tədqiqatçı kifayət qədər material toplaya bilər.

Terminoloji və faktiki biliyi üzə çıxaran test nümunələri şagirdlərin coğrafiya fənnindən (tədqiqat mövzusuna aid) ümumi biliklərini hafizəyə əsaslanan məlumatların səviyyəsini yoxlamağa imkan verir.

Ümumiləşdirmə xarakterli test tapşırıqları şagirdlərdən daha geniş dünyagörüş və fənnlər arası əlaqənin

mövcudluğunu üzə çıxarır. Hesablama və təklif olunan fəaliyyətlə bağlı test tapşırıqları bilavasitə nəzəri biliklərin praktik olaraq tətbiq edə bilməsinə yönəlmişdir. Proqnoz xarakterli testlər isə şagirdlərin məntiqi təfəkküründü, idrakının səviyyəsini təyin etməkdə tədqiqatçıya kömək edir.

Emprik metodlar içərisində **yoxlama yazı işlərinin** də əhəmiyyəti böyükdür. Verilmiş problem əsasında respondetlərin hazırlıq səviyyələri daha ətraflı təhlil oluna bilir.

Pedoqoji eksperiment – coğrafiya tədrisi metodikasının ən mühüm tədqiqat metodlarından biridir. Ümumiyyətlə tədris metodikasına aid mövcud olan problemlərin elmi şəkildə tədqiq olunması pedoqoji eksperiment vasitəsi ilə əsaslandırılır. Məhz pedoqoji eksperimentin nəticələri tədqiqat işinə dair-təklifləri üzə çıxarmağa kömək edir. Pedoqoji eksperimentlər təcrübə müddətinə (uzunmüddətli və qısamüddətli), tədqiqedilən məsələnin məzmununa (sadə və mürəkkəb), təşkilat formasına (labaratoriyada, təbiətdə və kompleks); və məqsədinə (müəyyənedici, öyrədici və yoxlayıcı) görə planlaşdırılır. Eksperiment müddətində aşağıdakı tələblər nəzərə alınmalıdır:

a) eksperimentin aparıldığı siniflərdə təlim nəticələri əsasən eyni səviyyədə olmalıdır.

b) eksperimentdə iştirak edən məktəblilərin sayı imkan qədər çox olmalıdır.(500-1000 nəfər)

c) eksperimentə cəlb olunan müəllimlər təcrübəli və eksperiment üçün seçilmiş mövzudan xəbərdar olmalıdır

Emprik metodlar olmadan tədqiqat işini yekunlaşdırmaq, nəticələr vermək, mümkün deyil, çünki ümumi məktəblər üçün təklif olunan metodlar çap olunmazdan əvvəl ilk növbədə təcrübədən keçməlidir.

Son illər metodikaya aid tədqiqat işlərində **sosial** metodlardan da istifadə olunur. Bu metod qeyri ixtisasçılar arasında anket sorğu keçirməklə həyata keçirilir. Məktəb

coğrafiyasının cəmiyyətin inkişafındakı rolunu, tədris olunan mövzuların məzmununu müəyyən etmək məqsədi ilə aparılan sorğular öz orjinallığı ilə seçilir.

1.4. Coğrafiya tədrisi metodikasının digər elmlər ilə əlaqəsi

Coğrafiya tədrisi metodikası coğrafiya və pedoqoji elmlərin sintezi olub, tədris və tərbiyə işinin keyfiyyətinin yüksəlməsinə xidmət edir.

Məktəb coğrafiyasının məzmunu, standartları, məqsədi, strukturu-bilavasitə coğrafiya tədrisi metodikası ilə əlaqədardır. Coğrafiya tədrisi metodikasının coğrafiya elmləri ilə əlaqəsinin bir neçə istiqaməti mövcuddur. Coğrafiyanın fiziki, iqtisadi və sosial bölgüsü, son illərdə bu istiqamətlərin bir-birinə inteqrasiyasından yaranan konstruktiv kompleks coğrafiyanın inkişafı bilavasitə coğrafiya tədrisi metodikasına istinad edir və öz növbəsində bu elm sahələri digər təbiət, texniki və humanitar elmlər ilə sıx əlaqədardır. Məktəb coğrafiyasının tərkibinə habelə modul kurslar, fakultativ, və coğrafiyanın seçmə fənn kimi öyrənilməsi nəzərdə tutulan dərinləşdirilmiş proqramlar (geologiya, topoqrafiya, kartoqrafiya, ekologiya, iqtisadiyyat, ölkəşünaslıq və s.) daxildir.

Coğrafiya tədrisi metodikası didaktikanın tərkib hissəsi kimi digər elmlər ilə sıx əlaqədardır.Təlimin ümumi qanunauyğunluqlarının əks olunduğu coğrafiya tədrisi metodikasının, müasir dövrdə inkişafetdirici xüsusiyyəti və şagird şəxsiyyətinin formalaşdırılmasına önəm verilməsi bu sahənin yaş psixologiyası ilə bilavasitə əlaqədar olunduğunu əks etdirir. **Psixologiya** elmi metodikanı hafizənin özünəməxsusluğunu, idrak səviyyəsinin müxtəlifliyi, nəzəri və faktik materialı yadda saxlamaq xüsusiyyəti və s. aid məlumatlar ilə təmin edir. Bu məlumatlar əsasında şagirdlərin coğrafiya fənninə olan

marağı, dərs prosesində yaradıcı fəaliyyəti, dərsdə motivasiya imkanları, tədris prosesində mövcud olan problemləri görməyə və onlara aid qərarlar çıxarmağa imkan verir. Psixoloji biliklər, «müəllim-şagird» ünsiyyətinin qarşılıqlı əlaqəsini, «şagird-şagird» əməkdaşlığını müəyyən etmək üçün şərait yaradır.

«Müəllim-şagird-şagird». əməkdaşlığına əsaslanan müasir interaktiv təlim metodlarının tətbiq edilməsinin səviyyəsi də məhz metodika və psixologiyanın əlaqəsindən asılıdır. Bundan başqa şagirdlərin idrak fəallığının səviyyəsini artırmaq, müstəqil olaraq, onları fəaliyyətə cəlb etmək, şagirdlərin materialı təhlil etmə, ümumiləşdirmə, onların verilmiş materialları yazılı və ya şifahi surətdə təqdim etmə, şagirdlərin kollektiv, fərdi və ya cütlərlə fəaliyyət göstərmək bacarığını artırmaq, müxtəlif təlim vasitələri ilə işləmək vərdişlərini inkişaf etdirmək, habelə müəllimin şagirdlərlə davranışında onları bərabər hüquqlu subyekti kimi qəbul etməsinə şagirdlərin münasibətini təyin etmək, dərs prosesinin şagirdlərə estetik-emosional təsirini izləmək bacarığı və s. tələb və keyfiyyətlər yalnız yaş psixologiyasının tətbiqinə əsaslanır.

Coğrafi biliklərin ümumiləşdirilməsi və nəzəri biliklərin mənimsənilməsində V.V.Davıdov və D.B.Elkoninin, əqli inkişafın stimullaşdırılmasında M.A.Mençinski və D.N.Boqoyavlenskinin, sorğu prosesində çevikliyin əldə olunmasında L.V.·Zankovun, biliklərin mənimsənilməsinin mərhələ ilə formalaşdırılmasında D.Y.Qalperin və N.F.Talızının, yeniyetmələrin təfəkkürünün inkişafında mürəkkəb əməliyyatların rolunun artırılmasında İ.S.Yakimanskinin, təbiət fənnlərinə dair oxunan materialların qavranılmasında sərbəst yazı işlərinin əhəmiyyətinin əsaslandırılmasında İzabel Bek və Yan Doulun şagirdlərin bilikləri axtarışla əldə etməsində istiqamətləndirilmiş mühazirələrin roluna dair Conson Tomassın, təfəkkürün formalaşdırılmasında sxemlərin

roluna aid Riçard Andersonun və başqa psixoloqların tədqiqatları çox önəmlidir.

Azərbaycan Respublikasında Təhsil Qanunun qəbul edildiyi (19 iyul 2009-cu il) və həyata keçirildiyi yeni islahatlar dövründə respublikada coğrafiya fənnini tədris edən müəllimlərin qarşısında yalnız ixtisas üzrə biliklərə yiyələnmək deyil, məktəb coğrafiyasının tədrisi metodikasının sıx bağlı olduğu **məntiq** elmini dərindən bilməsinin vacibliyi üzə çıxır.

Müstəqillik dövründə əldə edilmiş ən uğurlu qiymətləndirmə və biliklərin yoxlanılması metodu kimi test üsulunun tətbiqi bilavasitə məntiq elmi ilə əlaqədardır. Şagirdlərin coğrafi bilikləri analiz, sintez, təxəyyül, müqayisə, ümumiləşdirmə, qruplaşdırma, səbəb-nəticə əlaqələrinin, məntiqi ardıcıllığı müəyyən etmə və s.xüsusiyyətlərinin inkişafı məhz məntiq elmləri ilə əlaqədardır. Təsadüfi deyil ki, müasir pedaqoqika qarşısında duran ən mühüm suallardan biri artıq «şagirdlər niyə oxumur?» deyil, «şagirdlər niyə düşünmür?» dür. Düşünmək şagirdin öz-özü ilə mübahisə etməsi deməkdir. Bununla da onlar irəli sürdüyü fikirləri (coğrafi bilikləri) müqayisə edir, təhlilini aparır və düzgün fikirləşdiyini əsaslandıra bilir. Şagirdlərdə məhz bu keyfiyyətin inkişafı, yəni düzgün düşünə bilməsi – məntiqin özüdür.


Coğrafiya fənninin tədrisində uğurların qazanılması yalnız məzmunla deyil, metodların tətbiqi ilə ölçülür. Müqayisə və interpretrasiyaların fənnin tədrisinə tətbiqi, iki və daha çox coğrafi anlayış, obyekt, termin və s. arasında olan oxşarlığın və ya fərqli cəhətlərin təyini, onların bir-birinə olan müqayisəsini müəyyən etmək və s. tədris prosesinə son illər daha geniş tətbiq olunmaqdadır. Məntiqi təfəkkürün artırılmasında, düşünən oxucunun yetişdirilməsində, qiymətləndirmə prosesinin aparılmasında uğurlu addımlar atılmışdır. Çarz Templ, Kurt Meredit, Cenni Stilə aid olan və respublikada geniş tətbiq olunan

tədris vəsaitlərində təbiət, xüsusilə coğrafiya fənninə geniş tətbiq oluna bilən metod və texnologiyalar ilə zəngindir.

Coğrafiya tədrisi metodikası pedoqoji elmləri təbiət elmləri ilə əlaqələndirici rola malikdir. Coğrafiya və pedoqoji elmlər arasında körpü rolunda çıxış edən coğrafiya tədrisi metodikası fənninin tədrisində ümumidən xüsusiyə (deduktiv) və ya xüsusidən ümumiyə (induktiv) prinsiplərini həyata keçirməklə şagirdlərdə coğrafi qanunauyğunluqları dərk etmək, coğrafi təsəvvürlər yaratmaq, coğrafi anlayışları tətbiq etmək imkanı yaradır. Ümumiyə istinad edərək xüsusinin əldə edilməsi şagirdlərin tədqiqatçılıq və axtarış vərdişlərinin inkişafına nail olmaq və beləliklə coğrafiya tədrisi metodikasının ən mühüm vəzifələrindən biri olan praktik yönümlü metodları işləyib hazırlamaq mümkündür. Coğrafi təbəqənin bütövlüyü, geoekoloji baxımdan qiymətləndirilməsi metodları isə induktiv prinsipləri tətbiq etməklə mümkündür.

Pedaqoji prinsip kimi yaxından uzağa (və ya əksinə), coğrafi məkan anlayışının yaraldılması ilə bilavasitə əlaqədardır. Coğrafiya tədrisi metodikasının ən mühüm nəaliyyəti, onun tərbiyəedici və inkişafetdirici rola malik olan metodları tətbiq edə bilməsindədir. Didaktikanın tərkib hissəsi kimi, metodikanın pedaqoji (və eləcə də psixoloji) elmlər ilə əlaqəsi təkcə fənnin məzmununda deyil, biliklərin qiymətləndirmə standartlarında, şagirdlərin əyani vasitələrlə işinin təşkil edilməsində, coğrafiya fənni üzrə dərsdən kənar tədbirlərin (coğrafi dərnək, fakültativ, muzey, klub, olimpiada, gecələr, viktorina və oyunlar, coğrafiya həftəsi, coğrafi nəşrlər və s.) həyata keçirilməsi və s.proseslərdə tərbiyəedici və inkişafetdirici rolu ilə müəyyən edilir.Nəzəri biliklərin tətbiq edilməsi baxımından coğrafiya tədrisi metodikası birləşdirici – mərkəz rola malikdir (Sxem 4).

Coğrafiya tədrisi metodikasının digər elmlər ilə əlaqəsi.
Sxem 4



Coğrafiya tədrisi metodikasının pedaqogika, psixologiya, məntiq elmləri ilə əlaqəsi yalnız coğrafi elmlərin məzmununda verilə bilər. Bu isə tədris metodikasının bilavasitə coğrafi elmlərə əsaslandığını sübut edir. Coğrafi elmlər ilə coğrafiya tədrisi metodikasının əlaqəsi üç istiqamətdədir:

- Fənnin strukturunda
- Fənnin məzmununda
- Tətbiq olunan metodlarda

Struktur baxımından hazırda məktəb coğrafiyasının fiziki və iqtisadi istiqamətləri mövcuddur. Pedaqoji və psixoloji baxımından – fiziki coğrafi biliklər məktəblilərin aşağı yaş mərhələsində verilməsi məqsədə uyğun hesab olunur. Fiziki coğrafi biliklərin bünövrə kimi qəbul edildiyi lakin, insanın təsərrüfat fəaliyyətinin tətbiqini tələb edən iqtisadi coğrafiya isə, ikinci yaş pilləsi üçün qəbul

edilmişdir. Bu həm də coğrafiya fənninin ümumi prinsipi olan «təbiət insan» sisteminə uyğun gəlir. Lakin ümumtəhsil məktəblərinin əsas və orta pillədən ibarət olması, məktəb coğrafiyasında birləşdirici rola malik ümumi coğrafiya – «Yerşünaslıq»ın yaranmasına və tədris edilməsinə əsas vermişdir. Coğrafiyanın təbiət, texniki və humanitar elmlərin birləşdiricisi rolunda olması məhz «Yerşünaslıq»da əks olunur. Müasir məktəb coğrafiyasının bütövlüyü, regional coğrafiyanın tətbiqindən çox asılıdır. Orta məktəblərdə tədris olunan «Türk dünyası coğrafiyası» kursu bu baxımdan yüksək qiymətləndirilə bilər.

Coğrafiya tədrisi metodikasının coğrafiya elmləri ilə əlaqəsi əsasən məktəb coğrafiyasının məzmununda özünü göstərir. Fənnin məzmunu coğrafi elmləri əks etdirmək və elmin əsas istsqamətlərini şagirdlərə çatdırmaqdadır.

Tədris metodları və təlim vasitələrinin tətbiq edilməsi üsulları coğrafiya tədrisi metodikası ilə bilavasitə əlaqədardır.

1.5. Coğrafiya tədrisi metodikasında aparılan müasir elmi- metodiki işlərin əsas istiqamətləri

Müstəqilliyin əldə edilməsi respublikanın təhsil sisteminin bütün sahələrində o cümlədən coğrafiya fənninin struktur, məzmun və metodikasında köklü islahatların aparılmasını tələb etmişdir. Məktəb coğrafiyasının məzmununun yeniləşməsi – geoekologiyanın önəmli yerə çıxması, milli kurrikulumun tətbiqi tədris metodikasında tədqiqatların istiqamətinin dəyişməsinə səbəb olur. Hazırda coğrafiya tədrisi metodikası məktəb coğrafiyasının təlim istiqaməti (bu istiqamət milli kurrikuluma görə – «Coğrafi məkan», «Təbiət» və «Cəmiyyət»-dir) təlim nəticələri, əsas və orta məktəb bazasında coğrafiyasının məzmunu, qiymətləndirmənin test forması, tədris prosesində qruplarla iş, şagird «portofolosu»nun tərtib edilməsi, tədris prosesinə

kompüter texnologiyasının tətbiqi, elektron dərsliklərin hazırlanması, yeni təlim texnologiyaları, fəal təlimin tətbiqini və s.əhatə edir. Tətbiqi elmlər sisteminə daxil olan coğrafiya tədrisi metodikası müasir dövrdə pedaqoji və coğrafi elmlərin sintezini yaradaraq coğrafiya tədrisinin məzmun və məqsədini istiqamətləndirir, şəxsiyyətyönümlü, inkişaf etdirici, istiqaməti müəyyən edərək nəzəri və emprik metodların köməyi ilə inkişaf edir.

Hazırda, coğrafiya elminin inkişafı üçün tətbiq olunan tədqiqat metodları aşağıdakılardır:

Müşahidə – sahəvi və marşurut növləri vardır. Tədqiqatlar dövrü və fasiləsiz aparılır.

Kartoqrafik– coğrafi qanunauyğunluqların öyrənilməsində xəritələrdən istifadə olunur.

Statistik -- rəqəm materiallarına əsasən nəticələr çıxarılır.

Sistemli – coğrafi obyektin sistemli şəkildə öyrənməsi.

Tarixi -- obyektin keçmişini öyrənmək və keçmişə əsasən gələcək haqqında proqnoz vermək.

Müqayisəli -- bir neçə coğrafi obyektin məlumatına əsasən qiymətləndirməsi.

Aerokosmik - kosmik aparatlar, geofiziki və aerokosmik metodların tətbiqi.

Modelləşdirmə - modelləşmənin tətbiqi qrafik, riyazi üsullarla öyrənilməsi.

Geoekoloji monitorinq- informasiya sisteminə əsasən təbii ehtiyatların vəziyyəti, yerli, regional və qlobal monitorinqlərin aparılması və s. ilə inkişaf etdirilir.

Coğrafiya tədrisi metodikasının elm kimi inkişafı müasir dövrdə bir neçə istiqamətdə aparılır.

Belə ki, bu sahədə yalnız tədqiqatçı alimlər, metodist – pedaqoqlar deyil, orta ümumitəhsil məktəblərində coğrafiya fənnini tədris edən yaradıcı müəllimlər öz zəngin təcrübələri ilə, habelə universitet və pedaqoji institutlarda coğrafiya fakültələrinin tələbələri hazırladığı kurs və diplom işlərinin

vasitəsi ilə iştirak edə bilirlər. Xüsusilə, uzun müddət ərzində diqqətdən kənarda qalan Azərbaycan Respublikasının fiziki və iqtisadi sosial coğrafiyası kurslarının tədrisi üzrə tədqiqat işlərinə böyük ehtiyac vardır.

Bunun üçün ilk növbədə tədqiqat mövzusunun seçilməsi və onun aktuallığının əsaslandırılması tələb olunur. Azərbaycan coğrafiyasının tədrisinin şagirdlərin şəxsiyyət kimi formalaşmasındakı rolu, onların intellektual səviyyəsinin artırılmasında fənnin mövqeyi təhlil edilməlidir.

Tədqiqat işində problemin qoyulması növbəti mərhələ olub, dərslik və proqramın məzmununun təhlilini tələb edir ki, bu da orta məktəbin coğrafiya tədrisinin obyekti olaraq seçim kimi qəbul edir. Tədqiqat işinə dair fərziyyənin irəli sürülməsində Azərbaycan coğrafiyasının digər fənnlər ilə inteqrasiyası ön plana çəkilir. Tədqiqatın məqsədinin aydınlaşdırılması və iş metodlarının seçilməsi (tarixi-coğrafi, psixoloji pedaqoji və s.) pedaqoji eksperimentin (müəyyənedici, formalaşdırıcı, qiymətləndirici) həyata keçirilməsi, tədqiqatda nəticələrin formalaşdırılması və onların praktiki əhəmiyyətinin göstərilməsi hər hansı tədqiqat işinin yerinə yetirilməsini əsas istiqamətləndirir.

Bilavasitə pedaqoji fəaliyyətlə məşğul olan coğrafiya müəllimləri dərs prosesində tətbiq etdiyi texnologiyaları təkmilləşdirməklə dərsin səmərəliliyinin artmasını müşahidə edir və təcrübədə qazandığı yeniliklər qabaqcıl təcrübə olaraq yayılır. Metodist və digər pedaqoji fəaliyyətə nəzarət edən şəxslərin köməyi ilə yaradıcı müəllimin işi qiymətləndirilir (açıq dərslər, konfrans, seminar, müsabiqə və s. köməyi ilə). Təcrübələr göstərir ki, mühüm elmi-metodik tədqiqatların əsası bilavasitə pedaqoqların təcrübəsindən mənbə alır.

Çünki, pedaqoji fəaliyyətdə yeknəsəklik və şablonun qəbul edilməzliyi müəllim yaradıcılığına təkan verərək, yeniliklərin yaranmasına səbəb olur.

Tələbələrin elmi tədqiqat işlərində iştirakı, onların mütəxəssis kimi formalaşmasına imkan verir. Son illər ali məktəblərdə tələbələrə təqdim olunan tədqiqat işləri kifayət qədər mürəkkəbliyi ilə fərqlənir. Bu coğrafiya fənninin müxtəlif tipli məktəblərdə fərqli proqramlarla tədris edilməsi yeni təlim texnologiyalarının tətbtq edilməsinin labüdlüyü çox variantlı proqram və dərsliklərin tətbiq edilməsinə olan tələb, coğrafiya tədrisində kompüter texnologiyalarının geniş imkanları (elektron dərsliklər, mövzunun animasiya ilə izahı və s.) və s.ilə əlaqədardır. Tələbələrin elmi tədqiqat işlərinə cəlb edilməsi, kurs və diplom (buraxılış) işlərində əksini tapır. Coğrafiya tədrisi metodikası üzrə buraxılış işinə cəlb edilən tələbələrin ilk növbədə bu problemə aid fərdi və kurs işlərinin yazmaları məqsədə uyğundur.

Kurs və diplom işləri, tədris prosesində – təlim vasitələri, dərsliklər, tədris xəritələri, təlim texnologiyaları, təlim nəticələrinin yoxlanılması, coğrafi biliklərin (hər hansı komponent üzrə) bacarıqların formalaşdırılması, xarici ölkələrin məktəblərində, coğrafiya tədrisi dərsdənkənar və məktəbdənkənar coğrafiyaya aid sualları əhatə edir.

Tədris metodikasına aid kurs və və diplom işləri, məktəb olimpiadası, ekskursiya, coğrafiya həftəsi, viktorinalara da aid ola bilər.

Nümunələr:

Coğrafiya tədrisi metodikası üzrə buraxlış və kurs işlərinə aid tədqiqat mövzuları.

1. Coğrafiya fənni üzrə multimedia (elektron vəsaitlərin) tətbiqi.
2. Azərbaycan Respublikasının iqtisadi və sosial coğrafiyası kursunda statistik materiallar coğrafi bilik mənbəyi kimi.

3. İqtisadi coğrafi biliklərin formalaşdırılmasında cədvəl və diaqramlardan istifadə yolları

4. Fiziki coğrafi biliklərin yaradılmasında VI sinif «Fiziki coğrafiya» dərsliyinin (digər variantlarda «Yerşünaslıq», «Azərbaycan fiziki coğrafiyası», «Materiklərin və okeanların fiziki coğrafiyası» və s.) imkanları

5. Coğrafiya dərsliklərdə (ayrı-ayrı siniflər üzrə) mövcud olan xəritələr üzərində işin təşkili

6. «Coğrafiya» (ayrı-ayrı siniflər üzrə) kurslarında şagirdlərin fəallığının artırılması yolları

7. Qeyri-ənənəvi təlim metodlarının coğrafiya (fiziki və iqtisadi coğrafiya kursları (ayrı-ayrılıqda) dərslərinə tətbiqi

8. Azərbaycan Respublikasının fiziki (iqtisadi-sosial) coğrafiyasının tədrisində diskusiya və rollu oyunların tətbiqi (habelə digər kursların tədrisində)

9. Coğrafi anlayışların formalaşdırılması metodları

10. Coğrafi nomenklaturanın öyrədilməsi yolları

11. Coğrafiya dərslərində işgüzar oyunlardan istifadə yolları

12. Coğrafiya fənninin tədrisində şagirdlərə fərdi yanaşma imkanları (ayrı-ayrı kurslar üzrə)

13. Azərbaycan Respublikasının əhalisinə dair coğrafi biliklərin formalaşdırılması (habelə relyefi, geoloji quruluşu, iqlimi, landşaftları, sənayesi, təbii ehtiyatları, kənd təsərrüfatı, çayları və s.mövzulara aid)

14. Fiziki coğrafiya kurslarının tədrisində praktik işlərin rolu (İqtisadi və sosial coğrafiya, Türk dünyası coğrafiyası, habelə Azərbaycan Respublikası fiziki və iqtisadi coğrafiya kurslarında)

15. Xəritə və atlas üzərində coğrafi biliklərin formalaşdırılması yolları (Materik və okeanlar, Dünyanın siyasi xəritəsi, Azərbaycan Respublikasının fiziki və iqtisadi siyasi xəritələri ayrı-ayrılıqda)

16. Coğrafi biliklərin yoxlanılmasında test üsulunun tətbiqi

17. Coğrafiya fənninin tədrisində sorğu metodlarının müxtəlifliyi

18. Türkiyə məktəblərində coğrafiya fənninin tədrisi (istənilən dövlət ola bilər)

19. Coğrafi dərnəklərinin təşkili

20. Coğrafiya meydançası və onun tədris prosesində rolu

21. Coğrafiya kabineti və onun təşkili

22.Coğrafiya fənni üzrə ekskursiyalar və tədris prosesinin inkişafı üçün onun rolu

23. Coğrafiya dərslərində motivasiya imkanları

24. Coğrafiya dərslərində üç mərhələli dərslərin təşkili metodikası

25. Coğrafiya dərslərində ümumiləşdirilmiş təkrar dərslərindən istifadə

26. Coğrafiya dərslərində məhəlşünaslıq prinsipinin tətbiqi

27. Məktəb coğrafiyasında riyazi hesablamalar və onların öyrədilməsi yolları

28. Coğrafiya dərslərində problem situasiyasının yaradılması imkanları (ayrı-ayrı kurslar üzrə)

29. Coğrafiya fənni üzrə şagird portfolosunun hazırlanmasına olan tələblər (eləcə də müəllimin portfolosu)

30. Coğrafiya dərslərində modul texnologiyasının tətbiqi və s.

31. Milli kurrikulumda coğrafiya fənninin yeri

32. Coğrafiya fənninin strukturunda məzmun xətlərinin varisliyi

33. Atmosfer mövzusunun tədrisində IX-XI siniflər üzrə biliklərin varisliyi (plan, xəritə, litosfer, biosfer, hidrosfer və s.) seçilə bilər

34. Coğrafiya dərslərində şagirdlərin kiçik qruplarla və cütlərlə işinin təşkili

35. Coğrafi biliklərin formalaşdırılmasında qrafik sxemlərin (məntiqi istinad konspektləri) rolu (ayrı-ayrı kurslar üzrə).

Tədqiqat mövzuları içərisində bir sıra mövzu magistr tələbələrin buraxılış işi kimi təqdim oluna bilər:

1. Orta ümumitəhsil məktəblərində coğrafiya fənninin tədrisi prosesində şagirdlərin psixomotor fəaliyyətinin təşkilinin yeni istiqamətləri
2. Orta ümumitəhsil məktəblərində coğrafiya fənninin tədrisində fəal təlim metodlarının tətbiqinin yolları
3. Orta ümumitəhsil məktəblərində coğrafiya fənninin tədrisi prosesində şagirdlərin biliklərinin obyektiv və sürətli yoxlanılması monitorinqi və özünü qiymətləndirilməsi
4. Orta ümumitəhsil məktəblərində coğrafiya fənninin tədrisi prosesində müasir sorğu üsullarının tətbiqinin təşkili
5. Orta ümumitəhsil məktəblərində iqtisadi və sosial coğrafiya fənninin (VIII, IX, XI siniflər) tədrisində praktik təlim metodlarının istifadəsinin təşkili
6. Orta ümumitəhsil məktəblərində Azərbaycan Respublikasının coğrafiyası kursunun (fiziki və iqtisadi-sosial coğrafiyası) tədrisində fəal təlim metodlarından istifadənin yolları
7. Orta ümumitəhsil məktəblərində şagirdlərin kompleks coğrafi biliklərinin formalaşdırılmasında konstruktiv coğrafiya fənninin tədrisinin zəruriliyi
8. Orta ümumitəhsil məktəblərində coğrafiya şagirdlərin müstəqil işinin təşkili metodikası
9. Orta ümumitəhsil məktəblərində coğrafiya fənninin tədrisində üfüqi və şaquli inteqrasiyanın tətbiq edilməsi yolları
10. Birgə təhsil və onun şagirdlərin coğrafi düşüncəsinin formalaşdırılmasında rolu
11. Orta ümumitəhsil məktəblərində coğrafiya fənninin tədrisində əyani metodların tətbiq edilməsinin təşkili

12. Orta ümumitəhsil məktəblərində coğrafiya fənninin tədrisində əyani metodların tətbiqi yolları

13. Orta ümumitəhsil məktəblərin yeni kurrikulum lahiyəsində coğrafiya fənni üzrə təlim nəticələrinin varislik dinamikası

14. Orta ümumitəhsil məktəblərdə şagirdlərin coğrafiya fənninə olan maraqlarının istiqamətlənməsinin təşkili

15. Coğrafiya fənni üzrə məzmun standartlardan fəaliyyət xəttlərinin dinamikası

16. Orta ümumitəhsil məktəblərində coğrafiya fənninin tədrisində inteqrativ dərs modellərinin təşkilinin zəruriliyi

17. Orta ümumitəhsil məktəblərində coğrafiya fənninin tədrisində şifahi şərh metodlarının tətbiq edilməsi imkanları

18. Coğrafiya fənninin tədrisində fəal öyrənmə prosesinin təşkili

19. Orta ümumitəhsil məktəblərində coğrafiya fənninin tədrisində nəzəri biliklərin həyatla əlaqələndirilməsi prinsipinin əhəmiyyəti və təşkili

20. Orta ümumitəhsil məktəblərində coğrafiya fənninin tədrisində yeni təlim texnologiyalarının tətbiqi imkanları

Orta ümumitəhsil məktəblərində coğrafiya fənninin öyrənilməsinin əsas komponentləri proqram, dərslik, iş dəftəri, atlas və kontur xəritə, habelə test kitablarıdır. Tədris prosesinin işinin inkişafı üçün tədqiqatçı, müəllim və xüsusilə tələbələrin onlara münasibəti müəyyən edilməlidir.

Bunun üçün ali məktəbdə tələbələrə fərdi iş kimi aşağıdakı mövzular təqdim oluna bilər:

1. VI sinif «Ümumi fiziki coğrafiya» dərsliyinin təhlili

2. VII sinif «Materik və okeanların coğrafiyası» dərsliyinin təhlili

3. VIII sinif «Azərbaycan Respublikasının fiziki coğrafiyası» dərsliyinin təhlili

4. VIII sinif «Azərbaycan Respublikasının iqtisadi və sosial coğrafiyası» dərsliyinin təhlili

5. IX sinif «Dünyanın iqtisadi və sosial coğrafiyası» dərsliyinin təhlili

6. X sinif «Coğrafiya Yerşünaslıq» dərsliyinin təhlili

7. XI sinif «Türk dünyası coğrafiyası» dərsliyinin təhlili

8. Coğrafiyanın tədrisində iş dəftərlərinin rolu

9. Coğrafiyanın tədrisində praktiki işlərin rolu

10. Sorğu prosesinin obyektiv və sürətli aparılması yolları (nümunələr əsasında).

11. Kartoqrafik təsvir vasitələrindən istifadənin istiqamətləri

12. Orta ümumtəhsil məktəblərdə coğrafiya fənninin strukturu və məzmunu

13. Xəritə üzərində didaktik oyun nümunələrinin tətbiqi

14. Orta ümumtəhsil məktəblərdə tədris olunan fiziki coğrafiya kurslarının ümumi məzmunu və varisliyi

15. VI, VII, X siniflərdə «Coğrafiya» fənni termin anlayışlarının varisliyi

16. VI, VII, X siniflərdə «Coğrafiya» fənni üzrə «Plan və xəritə» mövzularının varislik dinamikası

17. VI, VII, X siniflərdə «Coğrafiya» fənni üzrə «Litosfer» mövzularının varislik dinamikası

18. VI, VII, X siniflərdə «Coğrafiya» fənni üzrə «Atmosfer» mövzularının varislik dinamikası

19. VI, VII, X siniflərdə «Coğrafiya» fənni üzrə «Hidrosfer» mövzularının varislik dinamikası

20. VI, VII, X siniflərdə «coğrafiya» fənni üzrə «Biosfer» mövzularının varislik dinamikası

21. «Azərbaycan Respublikasının fiziki coğrafiyası» proqramında ümumi təlim nəticələri

22. «Azərbaycan Respublikasının iqtisadi və sosial coğrafiyası» proqramında ümumi təlim nəticələri

23. «Türk dünyası coğrafiyası» proqramında ümumi təlim nəticələri

24. Coğrafiya dərslərində motivasiya imkanlarının genişliyi

25. Coğrafiya dərslikləri və onlarla işinin təşkili (ayrı-ayrı siniflər üzrə)

MÖVZU II. ORTA ÜMUMTƏHSİL MƏKTƏBLƏRİNDƏ COĞRAFİYA FƏNNİNİN TƏDRİSİ

2.1. Orta ümumtəhsil məktəblərinin tədris planında coğrafiyanın yeri və strukturu

Məktəb coğrafiyasının məzmunu, strukturu və metodikası müəyyən edilərkən, ilk növbədə tədris planında fənnin yeri müəyyən olunmalıdır. Bəs tədris planı nədir? Tədris planı – dövlətin təhsil strukturlarının ən mühüm elementlərindən biri olub, ümumtəhsil məktəblərində, sinif dərs sistemində fənnlərin komplekşləşdirilməsinə aid sənəddir. Bu sənədə əsasən hər hansı fənnin siniflər üzrə həftəlik yükü müəyyən olunur, tədris proqramının və tədris-metodiki vasitələrin təhlili planlaşdırılır, ümumtəhsil məktəblərinin kadr və maliyyə baxımından təhciz edilməsi müəyyənləşdirilir.

Azərbaycan Respublikasının təhsil sistemindəki bütün müəssisələr, müstəqillik qazanana qədərki dövrdə mərkəzdən idarə olunan tədris planları ilə fəaliyyət göstərmişlər. Müstəqillik qazanıldıqdan sonra qəbul edilən və hazırda orta ümumtəhsil məktəblərində istifadə olunan tədris planları ibtidai, əsas və orta təhsil olmaqla üç pillədən ibarətdir. Coğrafiya fənni əsas və orta təhsil pilləsində özünə yer almışdır.

Azərbaycanda məktəb coğrafiyasının inkişafına nəzər saldıqda, onun zaman-zaman dəyişdiyi aydın görünür.

Coğrafiya fənni 1919-cu il ADR yarandıqdan sonra məktəblərdə daha geniş tədris edilməyə başladı. Sovet

hakimiyyəti yarandıqdan sonra məktəb coğrafiyasına diqqət daha artırıldı. 1927-1928-ci illər üçün qəbul edilmiş tədris planında 5-6-7 siniflərdə coğrafiya müstəqil fənn kimi tədris olunmağa başlandı. Lakin, müstəqillik qazanana qədər orta təhsilin buraxılış sinifində coğrafiya fənni tədris olunmamışdır. Məktəb coğrafiyası 10 illik bazada 9-cu sinifə qədər tədris edilirdi. 1964-cü ildən 1990-cu ilə qədərki dövrdə Azərbaycanda coğrafiya fənninin tədris planlarında ümumi mənzərəsi aşağıdakı kimi olmuşdur:

1. V sinif "Ümumi fiziki coğrafiya"(68 saat),
2. VI sinif "Qitələrin coğrafiyası" (105 saat),
3. VII sinif "SSRİ-nin fiziki coğrafiyası"(68 saat), o cümlədən ilin sonunda 8 saat, «Azərbaycan SSR-in fiziki coğrafiyası»,
4. VIII sinif "SSR iqtisadi coğrafiyası"(68saast) o cümlədən «Azərbaycan SSR-in iqtisadi coğrafiyası» 4 saat,
5. IX sinif "Xarici ölkələrin iqtisadi coğrafiyası" (68saat),

1990-cı ildən sonra məktəb coğrafiyasının struktur və məzmununda köklü dəyişikliklər edildi. Belə ki,

V sinif "Təbiətşünaslıq" (34 saat),

VI sinif "Ümumi fiziki coğrafiya" (68 saat),

VII sinif "Materik və okeanların coğrafiyası" (105 saat),

VIII sinif "Azərbaycanın fiziki və iqtisadi coğrafiyası" (105 saat),

IX sinif "Xarici ölkələrin iqtisadi və sosial coğrafiyası" (68saat),

X sinif "Yerşünaslıq" (68saat),

XI sinif "Türk dünyasının coğrafiyası" (34saat)

Təəssüf ki, 1999-cu ildən çox variantlı tədris proqramlarına keçid ilə əlaqədar olaraq bazis proqramında coğrafiya fənnlərinə ayrılan saatların miqdarı azaldıldı və «Təbiətşünaslıq» kursu sərbəst fənn kimi coğrafiyadan

ayrıldı. Hazırda istifadə olunan tədris planında coğrafiyanın yeri aşağıdakı kimidir:

VI sinif "Ümumi fiziki coğrafiya" (64 saat),

VII sinif "Materik və okeanların coğrafiyası" (64 saat);

VIII sinif "Azərbaycanın fiziki coğrafiyası" (32 saat) "Azərbaycanın iqtisadi coğrafiyası"(17 saat)

IX sinif "Xarici ölkələrin iqtisadi və sosial coğrafiyası" (64 saat),

X sinif "Yerşünaslıq" (32 saat),

XI sinif "Türk dünyasının coğrafiyası" (32 saat)

Məktəb coğrafiyasının sturukturu, məzmunu, tədris planında fənnə ayrılan saatların miqdarı metodistlər tərəfindən daima izlənilən başlıca məsələlərdir. Azərbaycan Respublikasının təhsil sistemində orta ümumtəhsil məktəbləri üçün tərtib olunan tədris planlarının, uzun müddət Rusiyada hazırlanması bu sahədə milli kadrların azlığına səbəb olmuşdur. İttifaq miqyasında 1940-cı ildə qəbul edilən tədris planlarının 1991-ci ilədək dəyişməməsi, bu sahədə böyük bir durğunluğun mövcud olduğunu aydın şəkildə göstərir.

1991-ci ilə qədərki dövrdə ölkənin hər tərəfində tətbiq olunan vahid tədris planı, eyni standart məzmun və saatların həcmi-idarəetmə üçün əlverişli şərait yaradırdı, bütün şagirdlərə eyni səviyyədə bilik almaq imkanı verirdi. Lakin yerli xüsusiyyətlərin, şagirdlərin maraq dairəsinin və əqli qabiliyyətinin, peşə yönümünün nəzərə alınmaması, müəllim yaradıcılığının qarşısının alınması baxımından – vahid tədris planının tətbiqi mütəxəssislər tərəfindən səhv addım kimi qiymətləndirilir.

1992-ci ilə qədər respublikada istifadə olunan vahid tədris planına görə coğrafiya və təbiətşünaslıq fənnlərinə ayrılan saatların illik ümumi miqdarı 394 saat olmuşdur.

Cədvəl 3.

Bazis tədris planında coğrafiyanın yeri (1992-ci ildək)

Tədris fənni	Saatların miqdarı												
	IV sinif		V sinif		VI sinif		VII sinif		VIII sinif		IX sinif		Cəmi
	həftə	illik	həftə	illik	həftə	İllik	həftə	illik	həftə	İllik	həftə	illik	illik
Coğrafiya	-	-	2	68		105	2	68		8	½	51	-
Təbiətşünaslıq	1	34											

SSRİ-nin dağılması, ittifaqa daxil olan respublikaların, o cümlədən Azərbaycan Respublikasının mərkəzdən ayrılması, ilk növbədə orta məktəbin tədris planında VII və VIII siniflərdə tədris olunan «SSRİ-nin fiziki və iqtisadi coğrafiya» kurslarının öz əhəmiyyətini itirməsi ilə nəticələndi, coğrafiya fənninin ayrı-ayrı kursları üzrə proqramlarda məzmun dəyişikliyinə tələb artdı, belə ki, xarici ölkələrin iqtisadi və sosial coğrafiyası kursunun məzmununun əsas hissəsini təşkil edən sosialist ölkələrinin (o cümlədən Şərqi Avropanın ayrı-ayrı ölkələri) ümumi coğrafiyasının tədrisi öz mənəvi hüquqlarını itirdi.

1990-1991- ci tədris illərində sadalanan məsələlərlə bağlı nisbi dəyişiklikdər edilsə də Azərbaycan Respublikasının tədris proqramlarında, o cümlədən

coğrafiya fənninin məzmununda və strukturunda əsaslı dəyişikliklər 1992-ci ildən başlamışdır. Bu dəyişikliklər ilk növbədə coğrafiya fənninə ayrılan saatların miqdarının 431 saata çatdırılması ilə müəyyən olunur.

- Azərbaycan Respublikasının coğrafiyasına ayrılan saatların miqdarı əvvəlki illə müqayisə edilməyəcək dərəcədə artırıldı;

-Coğrafiya fənninin strukturu ümumtəhsil məktəblərinin əsas və orta təhsil pilləsinə uyğunlaşdırıldı.

- Ümumtəhsil məktəblərin orta təhsil pilləsində yeni kurs «Yerşünaslıq» ın tədrisi başladı;

-Şagirdlərin özünün millidərki, soykökünə qayıtma məqsədi ilə orta məktəbin buraxılış sinifində yeni «Türk dünyası coğrafiyası» kursu əlavə edildi.

Coğrafiya fənninin buraxılış siniflərində tədris edilməsi, az sonra ali məktəblərə qəbul imtahanlarına seçim fənnlərinin siyahısında özünü əks etdirdi. 1993-cü ildən ali məktəblərə tələbə qəbulunun xüsusi komissiya (TQDK) tərəfindən aparılması, II (iqtisadiyyat və coğrafiya) və III (dil, tarix, hüquq, politologiya) ixtisas qruplarında coğrafiya fənn blokundan test tapşırıqlarının təqdim edilməsi, fənnin inkişafına təkan verdi. (Təəssüf ki, 2005-ci ildən sonra III ixtisas qrupu üçün qəbul imtahanları fənn blokundan coğrafiya fənni çıxarıldı).

1993-94-cü tədris ilində ümumtəhsil məktəblərində təbiətşünaslıq və coğrafiya fənninə ayrılan saatlarının bölgüsü aşağıdakı kimi idi (Cədvəl 4).

Cədvəl 4.

Bazis tədris planında coğrafiyanın yeri (1993-1994).

Tədris fənni	Saatların miqdarı													
	V sinif		VI sinif		VII sinif		VIII sinif		IX sinif		X sinif		XI sinif	
	həftə	illik	həftə	illik	həftə	İllik	həftə	illik	həftə	İllik	həftə	illik	həftə	illik
Coğrafiya	-	-	2	68	3	105	2	68	2	68	1/2	51	1	34
Təbiətş.	1	34												

Təhsil sistemində aparılan islahatlar, çoxvariantlı tədris planlarının tətbiq edilməsi və ən nəhayət həftəlik dərs yüklərini azaltmaq məqsədi ilə görülən tədbirlər coğrafiya fənninin strukturuna ayrılan saatların miqdarına və siniflər üzrə tədris olunan kursların məzmununa təsirini göstərdi. 2002-ci ildən bəri orta ümumitəhsil məktəblərinin bazis tədris planında coğrafiya fənninin tədrisinə 307 saat həcmində vaxt ayrılır (cədvəl 5).

Cədvəl 5

Bazis tədris planında coğrafiyanın yeri (1999-cu ildən bəri)

Tədris Fənni	Saatların miqdarı											
	VI sinif		VII sinif		VIII sinif		IX sinif		X sinif		XI sinif	
	Həftə	illik	həftə	illik	həftə	illik	həftə	illik	həftə	İllik	həftə	illik
Coğrafiya	2	64	2	64	1/2	51	2	64	1	34	1	34

2.2. Məktəb coğrafiyasının məzmunu və məqsədi

Məqsəd- fəaliyyətin qabaqcadan düşünülmüş ideal nəticəsidir və ya

Məqsəd- insanın nəticəyə yönəlmiş sistemli və tənzimlənmiş fəaliyyətidir

Bəşəriyyət tarixinin bütün inkişaf mərhələlərində məktəb cəmiyyətin vəziyyətini və inkişafının istiqamətlərini əks etdirmişdir. İdeologiyanın, dəyərlər sisteminin, cəmiyyətin əxlaqi baxışlarının dəyişməsi, məktəblərin də öz iş sistemlərinin dəyişməsinə səbəb olmuşdur.

Müasir məktəb coğrafiyasının əsası ilk olaraq 1710-cu ildə Avropadan Rusiyaya gətirilmiş və dəniz akademiyasında tədris olunmuşdur. Holland dilindən tərcümə edilmiş proqram dünyanı ayrı-ayrı ölkələrinin təsvirindən ibarət olmuşdur. Rusiyanın Qərbi Avropa ilə əlaqələrinin artması I Pyotrın rəsmən imzaladığı "Dünya fənnlərinin tədrisi" ilə nəticələnmişdir. Məktəblərdə əsasən riyazi coğrafiya, hesablamalar tədris edilməyə başlanılmışdır. Coğrafiyanın fənn kimi inkişafı M.Lomonosovun adı ilə bağlıdır. Həmin vaxtlar Azərbaycanda mövcud olmuş rus-tatar məktəblərində fiziki və iqtisadi coğrafiyanın bəsit formada proqramı olmuşdur. Eyni zamanda Almaniya və İsveçdə vətən coğrafiyasına verilən üstünlük pedaqoq K.Uşinskinin diqqətini cəlb etmiş və məktəblərdə rus dili, rus coğrafiyası, rus tarixi aparıcı fənnə çevrilmişdir. Bu istiqamət Azərbaycan məktəblərində də yerinə yetirilirdi.

Lakin, müstəqilliyin qazanılması cəmiyyətinin bütün sahələrində demokratik proseslərin inkişafı, cəmiyyətin həyatının humanistləşməsində dönüş yaratdı, inkişaf edən nəslin tədris sistemini dəyişdi. Məktəb illərində cəmiyyətin ümummədəni, intelektual, dünyagörünüşlü ideyalarının təsiri nəticəsində prinsiplərin, baxışların, insanın davranış qaydaları normalarının formalaşmasına diqqət artırıldı.

Bu həm məktəbin, həm də tədris planına daxil olan fənnlərin funksiyasının dəyişməsinə təsir etdi. Dərsliyin məzmunu tədris vasitəsi kimi qalmaqla bərabər, həm də məktəblinin tərbiyyəsi və inkişafında böyük rolu olmalı, həmçinin onun dünyagörüşünün zənginləşdirilməsi üçün bir vasitə kimi qəbul edildi.

Ümumiyyətlə, məktəb tarixin bütün zamanlarında cəmiyyətin inkişafının vəziyyətini və istiqamətini əks etdirmişdir. Cəmiyyətdə ideologiyanın, dəyərlər sisteminin

və onun ənənəvi ideyalarının dəyişməsi məktəbin də öz iş sisteminə səbəb olur.

Dünyada və eləcə də Azərbaycanda baş verən demokratik proseslərin inkişafı ictimai həyatda humanist dəyişikliyə gətirib çıxarmış, böyüməkdə olan nəslin təhsil məqsədini dəyişmişdir.

Hazırda təhsilin məqsədini - təşkil edən məktəb funksiyaları və tədris fənnləri dəyişir.

Bəs tədrisin məqsədi nədir? Əksər pedaqoqların fikrinə görə tədrisin məqsədi – şagirdlərdə formalaşdırılması tələb olunan dəyərlər sistemidir. Bu dəyərlər və onların yaradanların özləri xüsusi məzmun kimi çıxış edir. Bu da emosiya-dəyər fəaliyyətində özünü göstərir.

Müasir məktəbin vəzifəsi insanı həyatda, təbii və sosial mühitdə özünü düzgün aparmasına, vətəndaş və sosial funksiyaların yerinə yetirilməsinə hazırlamaqdır. O, şagirddə özünü inkişaf, özünü göstərmək üçün inkişaf etdirməyə istiqamətləndirməlidir. Belə nəticəyə gəlmək olar ki, məktəbin məqsədi – fəal, təşəbbüskar və yaradıcı şəxsiyyət tərbiyə etməkdir.

Cəmiyyətin tarixində, məktəb-inkişafetdirici fəaliyyəti ilə fərqlənən mərkəz kimi daima bütün sahələrə nüfuz etmişdir.

İdeologiyaların dəyişməsi eyni zamanda məktəb sistemində öz əksini tapmış, proqram və dərsliklərdə, tərbiyə sistemində həyata keçirilmişdir.

Məktəb təhsilinin əsas vəzifəsinin-dialektik-materialist dünyagörüşünün formalaşdırılmasında, coğrafiya fənninin qarşısında duran ən mühüm vəzifələr –şagirdlərdə yaşadıqları ərazinin təbiəti, əhalisi və təsərrüfatı haqqında biliklər sistemi yaratmaq və onu praktikaya tətbiq etməkdən ibarətdir.

XX əsrin sonunda cəmiyyətdə baş verən dəyişiklər təhsil sistemində öz əksini tapmaya bilməzdi. Təhsil insanlara nəsillər boyu əldə edilən bilik və təcrübələrin bir

neçə il ərzində yiyələnməyə imkan verir. Müstəqilliyin əldə edilməsi digər sahələrdə olduğu kimi təhsildə, o cümlədən, fənnlərin tədrisində də köklü dəyişikliklərin vacib olduğunu qarşıya qoydu. Təhsil Qanunda «Azərbaycan Respublikasının təhsil sistemi milli zəminə, ümumbəşəri dəyərlərə əsaslanır, demokratik xarakter daşıyır» maddəsi ümumi təhsilin əsas istiqamətini verə bilir.

Cəmiyyətdə baş verən demokratik islahatlar, məktəb sisteminin humanistləşdirilməsinə olan meylin artmasına səbəb olmuş və məktəbin rolu dəyişmişdir. Belə ki, bu gün məktəb:

- insanın intellektinə xüsusi tələblərin meydana çıxdığını;
- sənaye cəmiyyətinin informasiya cəmiyyətinə doğru inkişaf etdiyini;
- maarifçilik missiyasını yerinə yetirməklə məşğul olan hafizə (yaddaş) məktəblərinin, ağıl və hissin fəallığına əsaslanan təfəkkür məktəblərinə çevrildiyini;
- milli mentalitetin inkişafında oynayacağı rolu dərk edir.

Müasir təhsil konsepsiyasına görə təhsil sistemi öz vəzifələrini yalnız-şagird şəxsiyyətinin formalaşdırılması yolu ilə həyata keçirə bilər.

Şəxsiyyətin formalaşdırılmasının qarşısında isə

- intellektual aktivliyə malik olmaq;
- dürüst və ədalətli olmaq;
- həqiqətpərəst və ləyaqətli olmaq;
-özünün və ətrafdakıların sağlamlığına məsuliyyət daşımaq;
- səriştəli və ixtisaşçı olmaq;
-doğma vətəninin təbiətinə və xalqının mədəniyyətinə hörmətlə yanaşmaq tələbləri qoyulur.

Təhsil məktəb şagirdlərini yaradıcı, təşəbbüskar və müstəqil düşüncəyə qadir olan şəxsiyyət kimi yetişdirməyi qarşıya qoyur. Bu məqsəd və vəzifələrin həyata keçirilməsi,

tədris olunan fənnlərin, o cümlədən, coğrafiyanın vasitəsi ilə həyata keçirilir.

Məktəb coğrafiyası şəxsiyyətin formalaşdırılmasında:

- təsəvvür və dərk etmək bacarığını;
- nitq və ünsiyyət vərdişlərini;
- həqiqəti dərk etmək üçün marağın yaradılmasını;
- təşəbbüskarlığa meyli;
- asudə vaxtın keçirilməsini;
- estetik və ekoloji cəhətdən qiymətləndirmə vərdişlərini inkişaf etdirmək imkanlarına malikdir.

Məhz bu baxımdan məktəb coğrafiyasını dünyagörüş fənni kimi qəbul etmək mümkündür.

Coğrafiya fənni cəmiyyətin həyatında bir sıra problemlərin öyrənilməsində aktiv iştirak edir; siyasi, iqtisadi, sosial və ekoloji, ən başlıca cəhət ondan ibarətdir ki, bu problemlər yerli, lokal və qlobal səviyyədə öyrənilə bilir.

Şagird şəxsiyyətinin inkişafında coğrafiya tədrisinin qarşısında duran ən mühüm vəzifə ətraf mühitin dərk edilməsi vasitəsi ilə coğrafi mədəniyyətin yaradılması coğrafi düşüncə tərzinin formalaşdırılmasına nail olmaqdır.

Coğrafi düşüncə tərzi və ya coğrafi təfəkkürün formalaşması müasir məktəbin qarşısında duran ən mühüm vəzifə olub müxtəlif ideyaları birləşdirir:

A) Coğrafi təbəqənin inkişaf qanunauyğunluqları baxımından dünyanın dərk edilməsi ideyası:

- coğrafi təbəqə geosferin (atmosfer, litosferin, hidrosfer və biosfer) bir-biri ilə qarşılıqlı əlaqədə olan təbəqələri arasında olan maddələr və enerji dövranının sistemidir.
- coğrafi təbəqə yekcins deyil və zonal-vilayət dəyişikliyinə malikdir.
- coğrafi təbəqə müəyyən vaxt ərzində endogen və ekzogen proseslər nəticəsində dəyişən və inkişaf edən bir sistemdir.

B) Əhali və təsərrüfatın yerləşməsi və inkişafının dialektik qanunlara tabe olması ideyası
- təsərrüfat mürəkkəb və bir-biri ilə qarşılıqlı əlaqədə olan sistem kimi məkan və zaman daxilində inkişaf edir.
- təbii şərait və təbii ehtiyatların iqtisadiyyatın inkişafında önəmli yer tutması, lakin təyinedici rola malik olmamasını qəbul edir.
- əhalinin yerləşməsinə təbii və tarixi faktorlar təsir edir.

C) Təbiət və cəmiyyətin qarşılıqlı əlaqədə olması ideyası
- insan təbiətin tərkib hissəsi kimi daima ona təsir edir;
- təbii şərait və ehtiyatlar müxtəlif regionlarda təsərrüfatın yerləşməsində bilavasitə rol oynayır;
- təsərrüfatın tarixən inkişafı və yerləşməsində təbii şəraitin rolu böyükdür.

Sadalanan məqsədlər orta təhsilin müasir fəlsəfəsinə uyğun gəlir. Bu məqsədlərin həyata keçirilməsində məktəb coğrafiyasının rolu nədədir? İlk növbədə bu coğrafiya elminin müasir vəziyyəti ilə müəyyən edilə bilər.

XX əsrin ikinci yarısında elmin fundamental qanunları qəbul edildi, təbiət və cəmiyyətin qarşılıqlı əlaqəsi qoyulmuşdur. O, coğrafi mühit daxilində müəyyən zaman və məkanda təbiət və cəmiyyət hadisələri və proseslər kompleksləri arasındakı əlaqələri öyrənməyə başladı Ümumiyyətlə, coğrafiyaçılar cəmiyyətin həyatında bir çox problemlərin (siyasi, iqtisadi, sosial, ekoloji) həllində aktiv iştirak edirlər. Onlar bir çox problemləri qlobal, regional və lokal səviyyədə həll edirlər.

Məhz bununla əlaqədar olaraq hər bir kəsin coğrafi təbəqənin inkişaf qanunauyğunluqlarını bilməsi kompleks coğrafi düşüncə və ekoloji cəhətdən düzgün hərəkət etməsi – insanın ümumi mədəniyyətinin əsas elementidir. Buna görə də coğrafiya tədrisi üçün: «Nəyə görə şagirdə coğrafiyanı öyrətmək lazımdır?» sualına cavab vermək vacibdir. Bu sualın cavabı fənnin ümumtəhsil müəssisələrinin tədris

planında vəziyyəti, onun məzmunu, strukturu, tədris prosesində təlim vasitələrinin və yeni texnologiyalarının tətbiqi, şagirdlərin təlim və tədris, fəaliyyətinin təşkilinin formalaşması ilə sıx bağlıdır.

Şagirdlərin coğrafi təhsilinin məqsədini müəyyən edərkən fənnin şəxsiyyətin özünü dərk etmək və düşüncə, ünsiyyət qurmaq və danışmaq bacarığı, həqiqəti dərk etmək və estetik və etik dəyərləri qəbul etmək bacarığı, öz səhhətinin və ətrafdakıların sağlamlığını qorumaq, asudə vaxtın təşkili, özünü təqdim etmək bacarığı kimi keyfiyyətlərin inkişafına səbəb ola biləcəyini nəzərə almaq vacibdir. Qeyd etmək lazımdır ki, coğrafiya insanların planeti olan Yer haqda tam təsəvvür yaradan yeganə məktəb fənnidir. Fənnin tərkibinə təbii (təbiət) və ictimai (əhali, sosial məsələlər, təsərrüfat) obyekt və hadisələr daxildir. Məhz buna görə də coğrafiya tədrisinin məqsədi xüsusi genişliyi ilə fərqlənir. Bu isə məzmunun tərtib olunması zamanı nəzərə alınmalıdır.

Ümumi şəkildə coğrafiya fənninin tədrisinin məqsədi şagirdlərin düşüncəsində yanaşma prinsiplərini formalaşdırmaqdır. Şagirdlərin coğrafi mühitdə davranışı, onun şəxsiyyət kimi formalaşmasına məktəb coğrafiyasının təsiri təbiət və cəmiyyətin qarşılıqlı əlaqəsinin müasir mərhələləri ilə müəyyən edilir. Şəxsiyyətin fəaliyyəti insan və təbiətin qarşılıqlı əlaqəsində əsas amil olur.

Şəxsiyyətin inkişafında məktəb coğrafiyasının rolu aşağıdakılarla müəyyən edilir:

- coğrafiyanın öyrənilməsi məkan düşüncəsinin əsasını qoyur, «məhəl», «rayon», «ərazi» anlayışlarından istifadə etməyə imkan verir, bunların köməyi ilə də təbiətin, əhalinin, təsərrüfatın inkişafının məkan aspektləri başa düşülür;

- fənnin öyrənilməsi hər bir insanda ətraf mühitin qorunması üçün pozitiv hiss oyadır, ekoloji mədəniyyəti formalaşdırır;

- coğrafiya bəzi iqtisadi biliklərin əsasını açıqlayır, şagirdlərin sosial mövqeyinin formalaşmasına səbəb olur, «mən vətəndaşam», «mən işçiyəm», «mən tədqiqatçıyam» və s bu da aktiv əmək bacarığına malik düşüncəli cəmiyyət üzvünü tərbiyə edir;

Fənnin öyrənilməsi prosesinə yerin müasir quruluşu, coğrafi təbəqənin uzun müddətli inkişaf prosesinin nəticəsi kimi qəbul edilir və inkişafın müasir mərhələsində bəşəriyyətin fəaliyyətinin geoloji qüvvə xüsusiyyətinə malik aşağıdakı kimi olmasına əsaslandırılır;

- şagirdlər yalnız coğrafiya fənninin tədrisində xüsusi universal ünsiyyət dilinə malik olurlar ki, bu coğrafiya xəritəsindən istifadə bacarığıdır. Xəritədən istifadə etmək xüsusi mədəniyyət elementləri səviyyəsinə daxildir. Xəritəni bilmək, qrammatika və riyaziyyatı bilmək kimi vacibdir. Pedaqoqların fikrincə coğrafi xəritələr düşüncənin kompleks şəkildə inkişafına imkan verir, insanın dünyaya xüsusi baxışını formalaşdırır, müxtəlif təsəvvürlərin yaradılmasına şərait yaradır, həmçinin coğrafi biliklərinin fənlərarası koordinasiyasına və inteqrasiyasına səbəb olur.

Coğrafiyanın özünəməxsus ünsiyyət funksiyası vardır. Bu fənni bilmək şagirdlərdə insanlarla ünsiyyət yaratmağa, kütləvi informasiya vasitələrini başa düşməyə, turizmin inkişafına və müxtəlif regionlarda yaşayan insanlar arasında əlaqənin yaranmasına imkan verir.

Şagirdlərin coğrafi təhsilinin ümumi məqsədi-hərtərəfli təhsilə malik olan təşəbbüskar şəxsiyyətlər formalaşdırmaqdadır.

Daha geniş mənada coğrafiyanın məqsədi coğrafi məkanın inkişafının əsaslarını anlayan və bu məkanda düzgün hərəkət edə bilən, onun inkişafını görən, proqnozlaşdırmağı bacaran şəxsiyyətin formalaşdırılmasına yönəldilməlidir.

Fənnin məzmunu dar mənada məktəb coğrafiyasının məqsədini əks etdirir: coğrafi bilikləri sisteminin şagirdlər

tərəfindən mənimsənilməsi və praktik olaraq ondan istifadə edilməsidir.

Uzun illər coğrafiya fənni üzrə orta təhsilin əsas məqsədi-şagirdlərə ətraf mühiti haqqında elmi bilik vermək, həmçinin şagirdlərə ondan asılı olmayan qanunları başa salmağa kömək etmək üçün məsələlər qoymaq, canlı və cansız təbiət olduğunu qəbul etmək olmşdur. Son vaxtlara qədər məktəb coğrafiyasının məqsədi yalnız elmin əsasları haqda biliklərin formalaşmasına yönəldilmişdi. Fənnin elmi səviyyəsi hər zaman artırılır, akademikləşdirilirdi. Fənnin artıq dərəcədə yüklənməsi onun mənimsənilməsini çətinləşdirmiş və nəticədə şagirdlərə coğrafiyanı öyrənməyə maraq azalmışdı. Məlumdur ki, coğrafi orta təhsilin digər məqsədləri coğrafiya elminin əsasları ilə yanaşı, tərbiyəedici və inkişafetdirici məqsədlərinə nail olmaqdır. Coğrafiya məktəblilərin mənəvi tərbiyəsinə səbəb olmalı, vətənə məhəbbət, dünyaya və digər xalqların adət-ənənəsinə tolerant yanaşma və öz milli soy kökünə sevgi oyatmalıdır.

Coğrafi təhsilin məktəblilərə müxtəlif coğrafi məlumatlarından istifadə verməyə, bu məlumatları inteqrasiya etməyə, onu xəritə üzərinə «köçürməyə», ərazidə müşahidə aparmağa, öz regionlarında diyarşünaslıq materiallarını öyrənməyə imkan verir. Bu fənn şagirdlərin əmək tərbiyəsinə və peşə yönümünə, o cümlədən «insan-təbiət» «insan-insan» «insan-işarələr sistemi» xarakterli peşə istiqamətlərində öz tövsiyələrini verir, həyat yolunu seçməklə yanaşı, ətraf aləmin dərk edilməsində inkişaf edən şəxsiyyətin maraqlarını və tələbatını ödəməyə kömək edir.

Coğrafi təhsilin digər məqsədlərindən biri coğrafi tapşırıqları təhlil etməkdən ibarətdir. Onların həlli məqsədə çatmağa kömək edir. Tapşırıqlar geniş və müxtəlifdir: coğrafiya hər hansı məkanın rəngarəngliyini müxtəlif səviyyədə şagirdlər tərəfindən mənimsənilməsini təmin edir və coğrafi düşüncə yaradır. Eyni zamanda:

- coğrafi təbəqədə baş verən təbii, ekoloji, iqtisadi, sosial, geosiyasi və digər proseslərin xüsusiyyəti və dinamikası haqda təsəvvür yaradır;

- məktəblilərin Azərbaycanın, öz rayonunun, dünya ölkələri və regionlarının təsərrüfatı haqda bilik sisteminin mənimisənilməsini təmin edir;

- təbiət və cəmiyyətin qarşılıqlı əlaqəsinin müasir mərhələsinin xüsusiyyətini, ətraf mühitin qorunmasında və təbiətdən istifadə olunmasında səmərəlilik mahiyyətini açıqlayır;

- təbii komponentlərin inkişafına və quruluşuna, təbii komplekslərə xas olan qanunauyğunluqları, həmçinin təbii, sosial və istehsal amilləri ilə əlaqədar olaraq əhalinin yerləşmə qanunauyğunluqlarını aşkar edir;

-məktəblilərdə coğrafi məlumatların müxtəlif mənbələrdən toplamaq, onlar ilə sərbəst işləmək, təbiətdə və istehsalatda müşahidə aparmaq bacarığı inkişaf etdirilir;

- şagirdləri coğrafiya elminin əsasları ilə tanış etmək, onların yaş səviyyəsinə uyğun olan bilik və praktiki bacarıqları (müşahidə etmək, ərazinin təsəvvürünü yaratmaq, ətrafdakı landşaftı estetik qəbul etmək və s.) formalaşdırır.

Beləliklə orta məktəblərdə coğrafi təhsil çox əhəmiyyətli olub, məqsədi geniş, məsələləri isə müxtəlifdir.

Coğrafi təhsil-öz ölkəsi və bəşəriyyətin ümumi evi olan Yer kürəsi üçün bilik və bacarıqlara malik olan insanın tərbiyəsində etibarlı mənbədir.

2.3.Milli kurrikulumda coğrafiya fənninin tədrisi

«Kurrikulum» geniş termin olub Azərbaycan dilində ekvivalenti yoxdur. Lakin beynəlxalq təhsil termin antologiyasında –kurrikulum, təlim prosesi ilə bağlı bütün fəaliyyətlərin təşkilini əks etdirən sənəd anlamında qəbul edilir. «Kurrikulum» geniş termindir, milli təhsil

məqsədlərindən başlayaraq şagirdlərin gündəlik fəaliyyətinə kimi olan prosesləri əhatə edir. Kurrikulum mahiyyət etibarı ilə nəticə deyil, konsepsiyadır, eyni zamanda bir-birilə bağlı olan nəticələrdən (sənədlərdən) ibarətdir. Kurrikulum ayrı-ayrı fənnlər o cümlədən coğrafiyanın tədrisində aparıcı olan bütün sahələri əhatə edir: a) coğrafiya fənni üzrə kurrikulum siyasətini, b) coğrafiya fənni üzrə təlim nəticələrini c) coğrafiya üzrə təlim nəticələrini əks etdirən məzmunu, d) tədris, təlim, qiymətləndirmə metodları, üsullar, fənnin tədrisinə ayrılan vaxt bölgüsünü, tədris vəsaitlərini, dərslikləri və s. əhatə edir.

Kurrikulumun qəbul edilməsi coğrafi təhsil vasitəsilə şagirdlərin tətqiqatçılıq qabiliyyətini artırmaq, inteqrativ və çətinlik səviyyəsinə görə artan coğrafi bilikləri sistemli şəkildə proqramlaşdırmaqdan ibarətdir.

Yeni kurrikulumda orta məktəb məzunlarının son nəticədə malik olacaqları keyfiyyətlər, bacarıqlar əvvəlcədən müəyyən edilir, onların reallaşdırılması istiqamətində qarşıya qoyulan məqsədlər və buna çatmağın yolları müəyyənləşdirilir. Məzmun islahatlarının ən vacib sahəsi bundan ibarətdir ki, burada «hafizə məktəbi» modelindən imtina edilir, biliklərin mexaniki şəkildə əzbərlənməsinə deyil, şagirdlərdə məntiqi təfəkkürə əsaslanan inkişafetdirici və tətbiqetmə bacarıqları əsas götürülür.

Əlbəttə, bilik inkişafın hərəkətverici qüvvəsidir, bunu heç kim inkar edə bilməz. Lakin şagirdə məhz elə bacarıqlar aşılanmalıdır ki, gələcək həyatında ona lazım olsun. Bu məqsədlə inkişaf etmiş ölkələrin təcrübəsi öyrənilmiş, «Ümumi təhsilin konsepsiyası (Milli Kurrikulum)» sənədi hazırlanaraq hökumət tərəfindən təsdiq edilmişdir. Bu sənəd əsasında ibtidai təhsil pilləsi üçün fənn kurrikulumları hazırlanmışdır. Kurrikulumun tətbiqinə 2008-2009-cu dərs ilindən ölkənin bütün ümumtəhsil məktəblərinin 1

siniflərindən başlanmış, bununla da orta təhsil sistemi yeni bir dövrə qədəm qoymuşdur. Artıq kurrikulum ibtidai siniflərdə tətbiq olunur və pillələrlə yuxarı sinifə ötürülməkdədir.

Təlimin məzmununun müasir yanaşmaları özündə əks etdirən yeni fənn kurrikulumlarının tətbiqi ilə təhsilin keyfiyyətində xeyli müsbət irəliləyişlərin əldə olunacağına böyük ümidlər bəslənilir. Bu kurrikumlar konseptual xarakter daşıyır və onların didaktik əsasını tələbyönümlülük, nəticəyönümlülük, şəxsiyyətyönümlülük, inkişafyönümlülük təşkil edir. Bu konsepsiyanın ənənəvidən əsas fərqi ondan ibarətdir ki, burada hər bir fənn üzrə təlim nəticələri əvvəlcədən müəyyənləşdirilir.

Bütün söylənənlər kurrikulum haqqında ümumiləşdirilmiş bir fikri söyləməyə imkan verir ki, «kurrikulum məktəb və təhsillə bağlı olan bütün sahələri reallaşdırması, öyrənmə nəzəriyyəsini və idarəetməni» əhatə edir.

Fənnlər üzrə hazırlanan kurrikulumun birinci mərhələsi coğrafiya fənnini əsas və orta təhsil pilləsində əsaslandırmasından başlayır.

İkinci mərhələdə fənnin məzmun xətləri müəyyən edilməli, hər bir məzmunu xətti əsaslandırılmalı, məzmun xəttinə uyğun üst və alt komponentlər, siniflər üzrə təlim nəticələri və qiymətləndirmə standartları müəyyən olunur.

Coğrafiya fənninin məqsəd və vəzifələrinə uyğun olaraq, məzmun xətləri təhsilin bütün pillələri üzrə aşagıdakı kimi təyin edilmişdir: *1.Coğrafi məkan 2.Təbiət 3.Cəmiyyət.*

Coğrafi məkan-coğrafiyanın tədrisində «coğrafi məkan» məzmun xətti şagirdlərdə qlobal, regional və lokal miqyasda məkan anlayışını formalaşdırır. Günəş sistemində Yer planetinin tutduğu vəziyyət və bununla bağlı baş verən hadisələrin təhlilini aparmağa imkan

yaradır. Onlarda Yer kürəsində coğrafi obyektlərin yerləşməsinə dair əhatəli və dəqiq məlumat almağa, ayrı-ayrı əraziləri təsvir etmək qabiliyyətinə yiyələnməyə kömək edir. Mövqeyə dair qazanılan biliklər məhəldə cəhətləri təyin etmək, istənilən məntəqəyə qədər olan məsafələri ölçmək, onları kartoqrafik təsvirlər vasitəsi ilə təqdim etmək, tələb olunan ərazilərin səth quruluşunu, coğrafi xüsusiyyətlərini müqayisəli təhlil etmək, hər hansı əraziyə dair əlavə məlumat toplamaq bacarığını formalaşdıraraq, şagirdlərdə idrak fəaliyyətinin inkişafına, nəzəri bilikləri praktik olaraq tətbiq etmək vərdişinin yaranmasına səbəb olur.

Təbiət- orta məktəblərdə coğrafi hadisə və prosesləriə əks etdirən məzmun xətti, şagirdlərdə Yer kürəsini vahid təbii sistem kimi qavramağa, təbii hadisələrin inkişaf qanunauyğunluğunu dərk etməyə imkan yaradır, onlar təbii proseslərin səbəblərini təhlil edir ,onların nəticələrini şərh edir,gələcək inkişafının proqnozunu verirlər. Yer təbəqələrinə aid biliklər , şagirdlərdə ekstremal, təbii dağıdıcı hadisələr zamanı davranış qaydalarına yiyələnməyə kömək edir. Təbii komplekslərin yaranması mexanizmini dərk etməklə, onların müxtəlif coğrafi amillərdən asılı olaraq ayrı-ayrı materik və okeanlar daxilində coğrafi paylanma qanunauyğunluğunu izah edirlər. Onlar Yer kürəsini təşkil edən iri təbii komplekslərin (materik və okeanların) özünəməxsus coğrafi xüsusiyyətlərini mənimsəməklə müasir qloballaşma şəraitində gərginləşən ekoloji problemlərin səbəb və nəticələrini şərh edir və respublikanın ,eləcə də onu əhatə edən ətraf mühitdə yaranmış ekoloji vəziyyəti qiymətləndirərək ,onun həlli yollarına dair təkliflər verə bilir.

Cəmiyyət- orta məktəblərdə yer kürəsində bəşəriyyətə dair biliklər şagirdlərdə dünya əhalisinin irqi, milli, dini, etnik tərkibinin müxtəlifliyini dərk etməyə, və digər xalqların həyat tərzi və maraq dairəsi ilə tanış olmağa imkan yaradır. Bu biliklər onlarda xalqların adət-ənənələrinə, özünəməxsus xüsusiyyətlətlərinə tolerant yanaşma hissini yaradır və onun əsasında milli şüuru formalaşdırır.

Şagirdlərə təbii amillər ilə, əhalinin yerləşməsi və onun sosial- iqtisadi fəaliyyəti arasındakı qanunuyğunluğu başa düşməyə, təbii və sosial amillərin iqtisadiyyatın inkişafında rolunu təhlil etməyə, elmi nailiyyətlərin tətbiqi nəticəsində insanın təbiətdən asılılığının azalma dinamikasını dərk etməyə imkan verir.

Onlar ölkə daxili və beynəlxalq siyasi iqtisadi münasibətlərin insanların həyat səviyyəsinə təsirini başa düşür, iqtisadi inkişafın yaratdığı ekoloji problemlərin baş vermə səbəblərini müəyyən edərək, təbii tarazlığın saxlanılmasında qlobal layihələrin tətbiqini, və hər bir fərdin iştirakının vacibliyini qiymətləndirir, dünyada münaqişə zonalarının yaranma səbəblərini və onların həllində beynəlxalq təşkilatların rolunu dərk edir.

Yer kürəsində bəşəriyyətə dair biliklər şagirdləri gələcəkdə əməkdaşlıq etmək, mədəni, iqtisadi əlaqələr qurmaq bacarığına istiqamətləndirir.

MÖVZU III. COĞRAFİYANIN TƏDRİSİNİN PEDAQOJİ PSİXOLOJİ ƏSASLARI

«Yaşlıların rəhbərliyi ilə uşaqlar inkişaf edir, təlim alır- uşağın psixoloji hazırlığının əsas qanunu budur».
S.L.Rubinşteyn

3.1.Coğrafi təhsilin psixoloji təhlili

Müasir təlim prosesinin əsas cəhətlərindən biri olan inkişafetdirici təlimin getdikcə daha çox əhəmiyyət kəsb etməsi, coğrafiya fənninin tədrisində nəzəri biliklərin praktik olaraq tətbiq edilməsinin vacibliyi ilə əlaqədardır. Tədris prosesinin keyfiyyətinə yüksək təsir edən, inkişafetdirici təlim nəzəriyyəsinə dair ilk tədqiqat işləri XVIII-XIX əsrlərdə İ.Q.Pestaloççi, A.Disterveq, K.Uşinskiyə məxsusdur. Xüsusilə K.Q.Uşinski bu sahədə daha irəli getmiş, təlim prosesində şagirdlərin inkişafına dair yeni ideyalar irəli sürmüşdür. Müəllimlər qarşısında «öyrənməyi öyrətmək» tələbini qoyaraq onu uşaqların gələcək həyatda sərbəst fəaliyyətinə təsir edən ən mühüm proses hesab etmişdir. Məlumdur ki, «bir şeyi öyrənməyin ən yaxşı yolu həmin şeyi öyrətməkdir» ideyasının tərəfdarları günbəgün artmaqdadır.

Ötən əsrin 30-cu illərində L.C.Viqotskinin fikirləri də bu baxımdan yüksək qiymətləndirilir. Tədqiqatçının fikrinə görə şagirdlərin istiqamətləndirici və inkişafetdirici tərbiyəsində təlimin prosesinin əsas nəticə kimi bilik deyil, şagirdin psixoloji inkişafı durur.

İnkişafetdirici təlim prosesində idrak və fəaliyyətin labüdliyi prinsipi kimi qiymətləndirən A.Leontiyev və C.P.Rubinşteynin fikrincə insan psixikası onun əmək, tədris və oyun fəaliyyəti ilə formalaşır. Hər hansı tapşırığı həll etmək üçün konkret olaraq xəritə üzərində işləmək, digər xəritələrdən istifadə etmək onlarda inkişafa səbəb olur.

Pedaqoji-psixoloji ədəbiyyatda inkişafetdirici təlim bilavasitə əqli inkişaf ölçülərini əks etdirir.

İdrak proseslərinin – yəni təfəkkür və təxəyyülün inkişafı, tədris əməliyyatları və intellektual bacarıqların formalaşdırılması təlim məqsədinin əsas istiqamətləri kimi qəbul edilir.

Müxtəlif inkişafetdirici təlim nəzəriyyələri əsasında Azərbaycan pedaqoji psixologiyasında təlim prosesinin idrak emosional və psixomotor sahələrini əhatə etməsi qəbul edilmiş və təlimin təhsil, inkişafetdirici və tərbiyəedici istiqamətləri qəbul edilmişdir. Bütün fənnlərin o cümlədən coğrafiyanın təlim məqsədlərinin bu istiqamətlərdə təsnifatı müəyyən edilməlidir.

I. Təhsilverici xüsusiyyətlərin qısa səciyyəsi:

- coğrafi informasiyalar bilmək
- coğrafi faktları bilmək
- coğrafi termin və anlayışların tərifini bilmək
- şərti işarələri bilmək
- səbəb-nəticə əlaqələrini bilmək
- coğrafi hadisə və prosesləri şərh etmək və s.

II. İnkişafetdirici vahidlərin qısa səciyyəsi

- coğrafi hadisə və prosesləri təhlil etmək
- hadisə və proseslər arasında qarşılıqlı əlaqəni müəyyən etmək
- coğrafi proseslər arasında ümumiləşmələr aparmaq
- coğrafi hadisə və prosesləri, coğrafi mənalarının təbiətini müqayisə etmək
- coğrafi məlumatların müvafiq vəziyyəti əsasında proqnoz vermək
- coğrafi-statistik məlumatlar əsasında vəziyyəti təhlil etmək və təkliflər vermək və s.

III. Tərbiyəedici təlim prinsipinin qısa səciyyəsi coğrafiya fənninin:

- vətənpərvərlik hisslərini formalaşdırmaq,

- estetik hissləri inkişaf etdirmək,
- təbiətə məhəbbət yaratmaq
- ətraf mühitə qayğılı münasibət göstərmək və s.

Müasir pedaqoji psixologiyada şəxsiyyətin formalaşmasının çoxcəhətli proses olduğunu bütün tədqiqatçılar qəbul edir və onun müxtəlifliyini və mürəkkəbliyini başa düşürlər.

Görkəmli pedaqoq L.Zankov inkişafetdirici təlim sistemində-əsas məqsəd kimi şəxsiyyətin ümumi inkişafı kimi-ağıl, iradə və hissiyyatın inkişafı hesab edir və bu zaman şagirdin müstəqil təhlil etmək qabiliyyətini, hər hansı mövzuya alternativ axtarmaq prinsipini əsas hesab edirdi. Şəxsiyyətin tərbiyə edilməsi prosesinin mürəkkəb və həssas sahə kimi qəbul edən pedaqoq, şagirdlərin birgə müzakirəsini başlıca vasitə kimi qəbul edir, onların qərar vermək, müqayisə və təsnifat etmək, kollektiv axtarış aparmaq və s. fəaliyyət növlərini inkişafın əsası hesab edirdi və mövzuya aid problem sualların ortaya qoyulmasını müəllimin işi kimi təklif edirdi.

Şagird şəxsiyyətinin inkişafında biliyin əsas məqsəd olmadığı, sadəcə inkişaf üçün vasitə olması fərziyyəsini irəli sürən L.S.Viqotski hesab edirdi ki, təlim şagirdin müstəqil surətdə əldə edə bilmədiklərini müəllimlərin köməyi ilə həyata keçirməsidir.

Hər hansı fənnin öyrədilməsi zamanı müəllim öz işini tam və ya qismən dərk edərək müəyyən məqsədə uyğun olaraq qurur. Çox zaman müəllim qarşısına qoyduğu məqsədini bir ideal kimi bəyan edir, faktiki fəaliyyətini isə tamamilə digər məqsədlə və ya sadəcə olaraq mövcud şəraitə uyğun qurur. Lakin, müəllimin müvəffəqiyyətli fəaliyyətinin əsas şərtlərindən biri- öz işinin dəqiq məqsədini anlamaqdan ibarətdir.

Şəxsiyyətin formalaşdırılmasında məktəb qarşısında iki əsas məqsəd ola bilər:

1) Bütün məktəblilərin elmin əsaslarına yiyələnməsi, onlarda biliklər sistemi, qabiliyyət və bacarıqlarının təmin olunmasının əldə edilməsi, fiziki və əmək bacarıqlarının , zehni qabiliyyətlərinin inkişaf etdirilməsi, dərk etmə maraqlarının və meyllərinin təmin edilməsi;

2) Hər bir şagirdin mədəni, yüksək əxlaqi, fəal yaradıcı və sosial bacarıqlara malik olan şəxsiyyət kimi tərbiyə edilməsi.

Hazırki vəziyyətdə məktəb, şagirdlərin bir sıra bilik və bacarıqlara yiyələnməsini özünün əsas məqsədi hesab edir. Müəllimlərin bütün fəaliyyəti- gündəlik sorğu prosesi, dərəcəli qiymətləndirmə və yekun imtahan sisteminə hazırlıq istiqamətlərə yönəldilmişdir. Göründüyü kimi, bu zaman şagirdlərin digər şəxsi xüsusiyyətləri formalaşdırılmır və onların tədris fəaliyyətinin son qiymətinə təsiri əks olunmur. Əgər əvvəllər məktəbin əsas tədris prinsipi tərbiyəedici təlim əsasında qurulurdusa, yəni, əsas məqsəd təhsil vermə idisə, indi bu prinsipin digər formada rellaşdırılması lazımdır, yəni müasir məktəbin əsas məqsədi tədris nəticəsində həyata keçirilən şagirdlərin şəxsiyyət kimi tərbiyyə edilməsidir (***Sxem 5***).


Müasir anlamda təhsil məqsəd kimi deyil, məktəblinin şəxsiyyət kimi tərbiyyə olunmasında vasitə və üsul kimi irəli sürülür.

Dərs haqqında müasir anlayışlar vahid tədris, tərbiyyə və inkişaf ideyasından irəli gəlir ki, bu da ölkəmizin tədris və tərbiyyə nəzəriyyəsinin uzun müddətli tarixi nəticəsində formalaşmışdır. Ümumiləşdirmələrə görə dərsin əsas funksiyası- şagirdlərdə şəxsiyyətinin formalaşması və inkişafını nəzərdə tutur. Belə hesab etmək olar ki; 1) şagirdlərin şəxsiyyətinin hərtərəfli inkişafına imkan yaradan dərin və dərk oluna biləcək biliklərlə yaraqlandırılması; 2) biliklərə yiyələnmək üçün fəaliyyət mexinizminin

öyrədilməsi; 3) daimi özünütərbiyyəetmə, öyrənmə həvəsinin formalaşdırılması; 4) dərsin mahiyyətinin şagirdlərin əqli inkişafına təsiri; 5) şagirdlərin iradəsi , davranış təcrübəsi və özünü aparmaq qabiliyyətini tərbiyə edilməsi; 6) şagirdlərin şəxsiyyətinin ümumbəşəri dəyərlərə yönəlmiş əxlaqi normalarla formalaşdırılması; 7) şagirdlərin mədəni davranış qabiliyyətinin tərbiyə edilməsi və s. fəaliyyətlər müasir təhsilin əsas funksiyalarıdır.

Müasir məktəbin əsas məqsədləri

Sxem 5



Lakin, coğrafiya müəllimi yalnız məktəbin əsas məqsədi kimi şagirdlərdə şəxsiyyətin inkişafını formalaşdırmalı deyil, o həmçinin, şagirdlərin müvəffəqiyyətli təhsili, dərk etmə qabiliyyətinin inkişaf etdirilməsi ilə də məşğul olmalıdır. Coğrafiya müəllimi eyni

zamanda şagirdlərdə tərbiyəetmə özünüinkişaf, özünütərbiyələndirməyə imkan, şərait yaratmağı da bacarmalıdır.

Çox zaman müəllimlər konkret bir dərsin məqsədini ifadə etməkdə çətinlik çəkirlər, və ya, ümumi şəkildə müəyyənləşdirirlər. 9-cu sinif « Dünyanın iqtisadi və sosial coğrafiyası» kursunda "Heyvandarlıq. Kənd təsərrüfatının zonalar üzrə ixtisaslaşması" mövzusu üzrə nümunəyə diqqət yetirək. Dərsin məqsədində aparıcı üçlük nəzərdə tutulmuşdur: təhsilverici, inkişafetdirici və tərbiyəedici.

Dərsin məqsədinin idraki nöqteyi-nəzərdən reallaşdırmaq üçün növbəti tələbləri yerinə yetirmək lazımdır:

1) hər bir şagirdi müstəqil olaraq dolğun , dərin, dərk olunmuş, operativ və davamlı məlumat toplamağa öyrətmək;

2) şagirdlərdə topladığı materialları sistemləşdirmək üçün bacarıq və qabiliyyətləri formalaşdırmaq .

Bununla bağlı dərsin təhsilverici məqsədini: "Yeni anlayış və təsəvvürlər formalaşdırmaq (əmtəəlik heyvandarlıq, səmərəlilik, heyvandarlığın əsas istiqamətləri və s.) və kənd təsərrüfatının zonalar üzrə xüsusiyyətlərinin və coğrafi yerləşməsini anlatmaq qabiliyyəti" kimi qarşıya qoyulmuş proqram tələbləri kifayət deyildir. Müvafiq dərsdə şagirdlərin hansı bilik və qabiliyyətlər səviyyəsinə nail olmasını göstərmək məqsədəuyğun olardı. Məsələn, verilən dərsin ilkin təhsilverici məqsədi aşağıdakı kimi formalaşdırıla bilər:

-"Əmtəəlik heyvandarlıq və onun yerləşdirilməsinin əsas faktoru haqqında anlayış yaratmaq,

-"məhsulun maya dəyəri"anlayışını formalaşdırmaq,

- yem bazası və təbii şəraitindən asılı olaraq reproduktiv səviyyədə heyvandarlığın əsas istiqamətləri

haqqında anlayış yaratmaq" və yaxud digər təhsilverici məqsəd: "Təsərrüfatın inkişafı üçün "Azərbaycanda olan mövcud şəraiti qiymətləndirmək» və "Heyvandarlıq" (və ya "Kənd təsərrüfatı rayonları") xəritəsi əsasında iqtisadi rayonlar üzrə ixtisaslaşmasını formalaşdırmaq".

Dərsin inkişafetdirici məqsədinin müəyyən edilməsi ən böyük çətinliklər törədir. Belə ki, ilk növbədə hər bir dərs üçün yeni inkişafetdirici təlim məqsədini müəyyən etməli, daha sonra isə şagird şəxsiyyətinin xarakterini və onun inkişaf etdirilməsinə təsir edən faktorları lazımi dərəcədə təsəvvür etməlidir. Məlumdur ki, uşağın inkişafı təlim və tərbiyəsinə nisbətən daha ləng baş verir, buna görə də inkişafetdirici təlim məqsədi üçün nəzərdə tutulmuş aspekt bir neçə dərs üçün və ya bütün mövzu üzrə olan dərslərdə tətbiq ola bilər. Texniki çətinlik ondan ibarətdir ki, müəllim növbəti dərsdə şagirdin hansı sahə üzrə (nitq, düşüncə və s) inkişaf etdirilməsini təyin edə bilməlidir. Məsələn, coğrafiya müəllimi kənd təsərrüfatı və aqrosənaye kompleksi üzrə silsilə dərslər üçün aşağıdakı fəaliyyət tapşırığı təyin etmişdir: "Müqayisə etmək bacarığını formalaşdırmaq". Müəllim təlim materialları əsasında şagirdlərin idrak prosesində, 3-4 dərs ərzində, müqayisə obyektlərini müəyyən etmək bacarığını, müqayisə parametrlərini seçmə qabiliyyətini, məlumatları bir-biri ilə əlaqələndirmək, müqayisə etmək, qarşı-qarşıya qoymaq, oxşar və fərqli cizgilərini müəyyən etmək bacarığını formalaşdırmalıdır.

Dərsin məqsədinin tərbiyəedici istiqamətində, tədris materialının məzmunu, tədris metodu, idraki fəaliyyətin təşkili formaları, şagirdin şəxsi əxlaqi, estetik, vətənpərvərlik və digər xüsusiyyətlərin yaradılmasını nəzərə alınmalıdır. Əxlaqi tərbiyəni həyata keçirtmək üçün müəllim şagirdin dərs zamanı hansı obyektlərlə təmasda olmasını (digər insanlar, cəmiyyət, kollektiv və s.) müəyyən etməlidir,

və bu zaman yadda saxlamalıdır ki, tərbiyə texnologiyası aşağıdakı ünsürləri ehtimal edir:
- birincisi, şagirdi obyekt kimi deyil, özünün şəxsi tələbatlar strukturuna malik şəxsiyyət kimi anlamaq,
- ikincisi, onun gələcək sosial məqsədlərini müvəffəqiyyətlə təmin edə biləcək biliklər ilə təmin etmək;
- üçüncüsü, sosial həyatda öz məqsədlərninin təmin olunması üçün real köməyin vacibliyini anlamaq;
- nəticə etibarı ilə tərbiyə hərəkət və davranışlarda normalara əməl edilməsinii təbliğ edir.

Müasir məktəbin əsas məqsədlərinin ənənəvi pedaqogika sistemi şəraitində həyata keçirilməsi qeyri mümkündür. Bunu müasir pedaqoji praktika göstərir. Ənənəvi məktəbdə olan frontal və fərdi tədrisi-idraki fəaliyyət üsulları ilə, tədrisdə izahedici, əyaniliyin üstünlüyü metodu ilə fəaliyyətə əsaslanan təhsil arasında ziddiyyətlər hələ də qalmaqdadır.

Göstərilən problemlərin aradan qaldırılmasında əsas yol uyğunlaşdırılmış pedaqoji sistem modelinə keçiddir. Belə keçid iki mərhələdə həyata keçirilə bilər. Birinci mərhələdə hər bir şagirdin fərdi xüsusiyyətlərinə uyğunlaşdırılmış şəxsiyyətyönümlü tədris texnologiyalarını tətbiq etmək lazımdır. Ikinci mərhələdə şəxsiyyətin özünün inkişafına yönəlmiş texnologiyalara keçid mümkündür.

Uyğunlaşdırılmış məktəb modelininin yaradılması nəinki şagirdlərin yeni tədris üsullarına psixoloji hazırlığını, həmçinin müəllimin xüsusi hazırlığını da tələb edir. Belə ki, uyğunlaşdırılmış təhsil müəllim şagird arasındakı münasibətlərin dəyişməsini müəyyən edir ki, bu zaman, şagird özü oxuyur, müəllim isə tədris zamanı onu yönəldir, istiqamətləndirir, məsləhət verir, fəaliyyətinin nəticələrini təşkil edir. Ənənəvi və uyğunlaşdırılmış tədris modellərinin zəruri cizgiləri aşağıdakı cədvəldə göstərildiyi kimidir (cədvəl 6).

Cədvəl 6.

Ənənəvi və uyğunlaşdırılmış tədris modelləri.

Göstərici	Ənənəvi model	Uyğunlaşdırılmış keçid modeli
Məqsəd (fəaliyyət nəticəsində əldə edilmiş və dərk olunmuş) nəticə	Müəllim tərəfindən verilir	Şagirdlər tərəfindən problemin təlim prosesində qəbul edilir
Səbəblər(şagirdi fəaliyyətə təhrik edən tələblərin təzahürü)	Fəaliyyətlə bağlı xarici səbəblərdən istifadə edilməsi	İdrak prosesinə istinad
Fəaliyyət üsulları	Müəllim tərəfindən seçilir	Müəllim və şagird tərəfindən məqsəd uyğun olaraq seçilir
Hərəkət (fəaliyyətin əsas elementi)	Müəllim tərəfindən təklif olunur	Variantlar şagirdlər tərəfindən onların imkanlarına uyğun olaraq seçilir.
Fəaliyyətin nəticəsi (şagirdin əldə etdiyi material)	Əsasən biliklərin qavranılması və bacarıqlarda özünü göstərir	Şəxsiyyətdə tədris prosesi zamanı baş verən pozitiv dəyişikliklərdə özünü biruzə verir
Qiymətləndirmə (məqsədə nail olmaq meyarı)	Alınan nəticənin hamı tərəfindən qəbul edilmiş meyarların müqayisəsi nəticəsində aparılır	Fərdi nailiyyət meyarlarının tətbiqi zamanı özünüqiymətləndirmə kimi ifadə olunur.

Şagirdlərin fərdi psixofizioloji xüsusiyyətlərinə uyğunlaşdırılmış təlim və tərbiyə prosesi XV əsrdə Y.A. Komenski tərəfindən elan edilmiş prinsipə uyğundur. Müasir dövrün uyğunlaşdırılmış tədris modeli insanın – özünü inkişaf etdirən sistemə əsaslanır, belə ki, o ətrafdan qəbul etdiyi hər şeyi öz hisslərindən və şüurundan keçirir. Uyğünlaşdırılmış məktəb elə bir tədris prosesidir ki, bu zaman bütün yaş səviyyəsinə uyğun olaraq şagirdlərin tipoloji və fərdi xüsusiyyətləri nəzərə alınır.

Tədris prosesində şagirdlərin yaş hədlərindəki psixoloji inkişafında, yerli psixologiya və pedaqogikanın əsas prinsipləri öz əksini tapır. " L.S.Vıqotskiy yazırdı- tədris prosesləri, inkişaf prosesləri ilə üst-üstə düşmür. Lakin şagirdin inkişafı onu yaradan tədris proseslərinin arxasınca gəlir". Buna görə də tədrisin məzmunu nəinki elmin və cəmiyyətin inkişafını əks etdirməli, həmçinin uşağın şəxsiyyətinin daha effektiv inkişafına imkan yaratmalıdır. Bu o zaman baş verə bilər ki, tədris və tərbiyənin vasitəsi, məzmunu və metodu, psixoloji, yaş və fərdi qanunauyğunluqları nəzərə alaraq işləyib hazırlansın, və həmçinin şagirdlərin sonrakı inkişaf perspektivlərinə təkan versin. Uşağın psixi inkişafında əsas rol tədris fəaliyyətinə aiddir, tədris fəaliyyəti - əqli fəaliyyətin, bacarıqların və əsasların inkişaf etdirilməsinə, məktəbə və tədrisə münasibəti dəyişə bilir.

Psixoloji araşdırmalar göstərir ki, tədris fəaliyyəti birinci növbədə şagirdlərin şəxsiyyətinin intellektual inkişafına şərait yaradır. Belə çıxır ki, məktəblilərin tədris fəaliyyəti fərqli olmalıdır. Bəs onda yeniyetmə (13-15 yaş) və gənc (15-17 yaş) şagirdlərin inkişafının əsas xüsusiyyətləri hansılardır?

Məlumdur ki, yeniyetməlik dövrü uşaqlıqdan böyüklüyə doğru kəskin keçidlə xarakterizə olunur.

Yeniyetmənin şəxsiyyəti disharmoniyadır yəni, anlaşılmazdır ki, bu da, onun özündən böyüklərə qarşı kəskin etirazedici davranışı ilə xarakterizə olunur. Yeniyetmə yeni sosial səviyyəyə çıxır, onun özünə qarşı cəmiyyətin bir nümayəndəsi kimi münasibəti yaranır, böyüklərin, (yalnız müəllimin deyil) onu qiymətləndirilməsindən özünüqiymətləndirməyə doğru gedir, özünü dərketmə baş verir. Yeniyetmənin özünüdərketməsinin əsas forması- özünü başqa insanlarla: böyüklərlə, yaşıdları ilə müqayisə etməkdir.

Yeniyetməlik dövründə əsas əhəmiyyət onların yaşıdları ilə ünsiyyətlərinə verilir. Dostları ilə ünsiyyət zamanı yeniyetmələr cəmiyyətdəki davranış qaydalarına yiyələnir, özünü və başqalarını qiymətləndirməyi öyrənirlər. Yeniyetmə üçün qiymət yalnız sinifdə daha yüksək mövqedə olmaq imkanı yaratdığı üçün vacib sayılır. Lakin yüksək səviyyədə olmaq başqa ünsürlərin sayəsində mümkün olursa, bu zaman qiymət öz mənasını itirir.

16-17 yaş dövrünü psixoloqlar yeniyetməlikdən erkən gənclik dövrünə keçid kimi qiymətləndirirlər. Bu dövrdə yeniyetmələrdə olmayan özünütəkmilləşdirmə üçün səbəb yaranır ki, bu da məktəbə bağlılığı artırır, şüurun daha yüksək keyfiyyətə nail olmasına gətirir. Özünüdərketmə emosional gərginliyini itirir. Əsas məqamlardan biri kimi özünü artıq böyümüş hesab etmək, müəyyən cinsə mənsub olmaq, qız və oğlanlara aid olan spesifik tələbatları olmaq, əks cinslə münasibət və müvafiq davranış qaydalarına mənsub olmaqdır.

Erkən gənclik dövrünün əsas psixoloji nəaliyyəti-özünün daxili dünyasının aşkar edilməsidir. Özünədalma, öz hisslərinə qapılma qabiliyyətini əldə edərək, qızlar və oğlanlar yeni bir emosiyalar dünyasını kəşf edirlər. Özünün nadirliyini dərk etməsi ilə yanaşı tənhalıq hissi də yaranır

ki, bu da tez ünsiyyətdə olmaq istəyi və eyni zamanda tənhalıq ehtiyacı yaranır. Vaxt və düşüncənin əsas meyarı kimi qız və ya oğlanların hisslərinin əsas hissəsi olan gələcək arzular tutur.

Ənənəvi pedaqogika müəllim və şagird arasında subyekt-obyekt münasibətləri modelində reallaşır. Belə pedaqoji sistemdə şagirdlər müəllimlərin biliklərini ötürdüyü obyekt kimi qəbul olunur. Müasir pedaqogika isə artıq uşağa tədris fəaliyyətinin bərabərhüquqlu subyekti kimi, öz müqəddaratını təyin edə bilən, özünü reallaşdıran şəxsiyyət hesab edir. Şagirdləri subyekt kimi qəbul edən pedaqoqlar daha çox tərəfdaşlar yığmaqdadırlar və bütün qabaqcıl tədris texnologiyaları az və ya çox dərəcədə uyğunlaşdırılmış yeni məktəb ideyalarını da bu münasibətlərin həyata keçirilməsin dərk edirlər.

Müasir dövrdə şəxsiyyət yönümlü tədris texnologiyalarının tərkibi təyin olunmamışdır. Bəzi müəlliflər şəxsiyyət yönümlü təlimi biliklərin tam mənimsənilməsi kimi, müxtəlif səviyyəli təhsil, kollektiv və qarşılıqlı öyrətəmə texnologiyası, modul təhsil texnologiyası adlandırır, digərləri isə əməkdaşlıq pedaqogikası və s. adlandırırlar. Sadalanan texnologiyalar tədris prosesini maksimal dərəcədə şagirdlərin imkan və tələblərinə uyğunlaşdırmağa imkan verir. Onların reallaşdırılması zamanı şagirdlərin yaddaşının, iradəsinin, hisslərinin kommunikativ bacarıqların, müstəqilliyinin inkişafı baş verir, lakin şəxsiyyət yönümlü texnologiyalar inkişafetdirici təhsilin məqsədi kimi onun tərkibinə daxil olmalıdır..

Azərbaycan Respublikasının Təhsil Qanunun 4-cü maddəsində təhsilin əsas məqsədlərini

-Azərbaycan dövləti qarşısında öz məsuliyyətini dərk edən, xalqının milli ənənələrinə və demokratiya prinsiplərinə, insan hüquqları və azadlıqlarına hörmət edən, vətənpərvərlik və azərbaycançılıq ideyalarına sadiq olan

müstəqil və yaradıcı düşünən vətəndaş və şəxsiyyət yetişdirmək;

- milli-mənəvi və ümumbəşəri dəyərləri qoruyan və inkişaf etdirən, geniş dünyagörüşə malik olan, təşəbbüsləri və yenilikləri qiymətləndirməyi bacaran, nəzəri və praktiki biliklərə yiyələnən, müasir təfəkkürlü və rəqabət qabiliyyətli mütəxəssis kadrlar hazırlamaq və- bu prosesin təşkil olunmasının və aparılmasının müəyyən prinsiplərinin reallaşdırılmasını təmin edən tədris-tərbiyə hesab olunur.

Təlim- tərbiyə prosesinin təşkili dedikdə müəllimlə şagird arasında və şagirdlərin öz aralarında qarşılıqlı münasibət və qarşılıqlı təsir sistemi, həmçinin bu sistemə uyğun olan təhsil materialının qurulması müəllimin təhsil, şagirdin isə tədris fəaliyyəti nəzərdə tutur. Tədris- tərbiyə prosesinin təşkil edilməsindən, onun bütün iştirakçılarının qarşılıqlı münasibətindən, hər bir şagirddə hansı fikir və hissləri doğurduğundan, onun son nəticədə tərbiyəvi effekti asılıdır.


Verilmiş sxemdə tədris prosesinin psixoloji prinsiplərini aydın təsviri verilmişdir (Sxem 6).

Şəxsiyyət yönümlü texnologiyalar fəlsəfə, psixologiya və pedaqogikanın humanizm ideyalarını həyata keçirir. Onlardan istifadə şəxsiyyətin sifarişlə inkişafına deyil, təbii bacarıqlarına uyğun olaraq formalaşmasına təkan verir. Təhsilin məzmunu məktəblinin şəxsiyyətinin inkişafı və təşəkkül şəraitindən asılı olaraq qəbul edilir.

Şagirdlərin tədris prosesində **müstəqillik** pinsipi insanın məcbur edilmədən gördüyü işləri nəzərdə tutur. Belə fəaliyyət nəticəsində insan özünün dərin tələbatlarının təmin edilməsinə nail olur ki, bu da ona daha çox sevinc və zövq verir. Özfəaliyyət prinsipi tədris- tərbiyə prosesinin təşkilinin motiv (maraq)-tələbat tərəfini müəyyən edir.

Tədris-tərbiyə prosesinin psixoloji prinsipləri

Sxem 6



Özünü təşkil prinsipinə- hər hansı tədris fənninin öyrədilməsini şagirdlərin öz fəaliyyətlərini qavraması və ona yiyələnməsi kimi baxmaq lazımdır. Bu prinsip haqqında görkəmli pedaqoq-psixoloq S.L.Rubinşteyn belə yazırdı: "Tərbiyəçi- müəllimin uşağa dərk etmə və əxlaq normalarını "qəbul etdirmək" üçün əl atdığı hər bir təşəbbüs- yol verilməzdir. Bu barədə hələ XIX əsrdə K.Uşinskini yazırdı: «tərbiyəçinin zor gücünə verdiyi bilik -uşağın sağlam əqli və mənəvi inkişafını, tərbiyəsini və şəxsi xüsusiyyətlərini və keyfiyyətlərini sarsıdır".

Özünü təşkil prinsipi sistematik, xarici nəzarət olmadan tədris fəaliyyətini təşkilini nəzərdə tutaraq, tədris-tərbiyə prosesinin əməliyyat- fəaliyyət tərəfini müəyyən edir.

Kollektivçilik prinsipi şagirdlərin müəllimin müdaxiləsi olmadan öz aralarında ünsiyyəti və əməkdaşlığını nəzərdə tutur . Bu prinsip cəmiyyətin inkişafının ümumi genetik qanunauyğunluqlarına əsaslanır. Pedaqoq-psixoloq prof. Ə.Əlizadə kollektivçilik prinsipinin təhlilini belə formalaşdırmışdır "Hər bir görülən iş uşağın inkişafında 2 dəfə, 2 planda meydana çıxır: əvvəl – sosial, sonra-psixoloji; əvvəl insanlar arasında interpsixi kateqoriya kimi, sonra isə uşağın daxilində intrepsixi kateqoriya kimi". Bundan belə çıxır ki, uşağın şəxsi xüsusiyyətlərinin formalaşması (düşüncəsi, diqqəti, iradəsi və s.) onun fərdi fəaliyyəti nəticəsində mümkün deyil, həmçinin uşağın öz yaşıdları və böyüklərlə (müəllimlərlə) birgə, kollektiv fəaliyyəti nəticəsində formalaşır. Coğrafiya fənninin tədrisində kollektivçilik prinsiplərinin həyata keçirilməsi üçün geniş imkanlar vardır. Məhəldə aparılan praktik işlər, təbiətə və istehsalata aparılan ekskursiyalar, digər tədbirlərdə bu prinsip tətbiq olunur.

Aparıcılıq prinsipi və ya liderlik- şagirdlərin təhsil-tərbiyə prosesindəki kollektiv fəaliyyətində, onun ayrı-ayrılıqdakı çıxışları, iştirakçılar arasında fəaliyyətini nəzərdə tutur. Bu zaman şagirdlərə uzun müddət ərzində yerinə yetirilməsi tələb olunan (tədris rübü, tədris ili) ayrı-ayrı rollar, vəzifələr paylanır. Tarixi və iqtisadi sosial coğrafiya proqramında və hazırda istifadə olunan dərsliklərdə şagirdlərin aparıcı kimi rollarda iştirak etməsinə imkan çoxdur. Təyin edilmiş dövr üçün şagirdlər «Hava haqqında proqnozları işləyən», «Beynəlxalq icmalçı», «Ölkədə ən son xəbər» və s. fəaliyyəti ilə seçilə bilər.

Məsuliyyətlilik prinsipi- şəxsiyyətin öz davranışında hamı tərəfindən qəbul olunmuş normalara riayət etməyə meylli olması, iştirakçı vəzifələrini yerinə yetirmək və öz hərəkətlərinə cavabdeh olmaqda özünü göstərir.Prof.

Ə.Əlizadənin fikrinə görə şagirdlərdə məsuliyyətlik hisslərini onlara məsul bir işin tapşırılması, avtoritet kimi qəbul edilməsi, «ideal-mən»-in inkişafı ilə yüksəltmək məqsədə uyğundur.

Tədris prosesinini psixoloji təchizat prinsipi- o deməkdir ki, tədris-tərbiyə prosesi elə təşkil olunmalıdır ki, təlimin vacibliyinin düzgün əsaslandırılması təmin olunsun və hər bir şagirddə ona qarşı müsbət münasibət formalaşdırılsın.

«Şagird obyekt deyil, subyektdir» yeni pedaqoji təfəkkürün əsas tələbi budur. Fundamental şəkildə bu ideyanı G.Russo, A.S.Makarenko, K.Rocers, E.Bern kimi məşhur pedaqoq və psixoloqlar əsaslandırmışlar. Onların fikrinə görə:

- şagird şəxsiyyət kimi təlim –tərbiyə prosesinin mərkəzindədir.
- təlimin məzmunu məqsəd deyil, şagird şəxsiyyətinin inkişafı üçün vasitədir;
- müəllim şagird şəxsiyyətinə hörmət etməli və ona inanmalıdır.
- şagirdin maraqları, qabiliyyəti, inkişaf istiqaməti pedaqoji kollektiv tərəfindən izlənilməli və istiqamətlənməlidir.
-şagirdin özünüreallaşdırması üçün məktəbdə mühit yaradılmalıdır.

Sadalanan şərtlərin reallaşması üçün məktəbdə şagirdin təlim uğurları əldə etməsinə mühit, tədris fəaliyyətinə maraq yaratmaq və müəllim-şagird münasibətlərində düzgün əməkdaşlıq və demokratik dəyərlərə söykənən harmoniyanı saxlamaq tələb olunur.

3.2.Coğrafiyanın tədrisi prosesində müəllim şagird münasibətləri

Tədris-tərbiyə prosesinin başlıca vəzifələrindən biri qarşılıqlı sosial əlaqə (müəllimlə şagirdlər arasında) formalaşdırmaqdır. Müəllim (öyrədən) və şagird (öyrənən) tərəfləri arasında sosial əlaqə şəxsi və fərdi biliklər, ictimai-mədəni normalar, yaradıcı və emosional-dəyər təcrübələri ilə bölüşmə prosesi zamanı yaranır. Müasir şəraitdə tədris-tərbiyə prosesinə şagirdlərin həyata hazırlıq sisteminin bir hissəsi kimi, qarşılıqlı sosial- pedaqoji əlaqə kimi baxıla bilər.Bu əlaqə zəmnində şəxsiyyətin inkişafı, lazımi biliklərin formalaşması adekvat hərəkət və vərdişlər, ətraf mühit və ictimai həyatda mövcudluğunun qavranılması baş verir. Bu zaman müəllim şagirdlərə qarşı ikili mövqedə durur: ümumi qrupla birgə və ya hər biri ilə ayrı- ayrılıqda işləyərək idrakı fəaliyyətinə, ünsiyyətinə və birgə əməyinə təsir göstərir. Ənənəvi pedaqogikada müəllimin vəzifəsini tədris-tərbiyə işinin qurulması, maarifləndirmə prosesinin düzəldilməsi və şagirdlərin idrakı fəaliyyətinin yönəldilməsi ilə əlaqələndirirdilər, həmçinin tədrisin gediş və nəticəsinə nəzarəti həyata keçirməklə bağlayırdılar.

Nəticə olaraq ümumiləşdirmək olar ki, ənənəvi təlimdə müəllim sinifdə üç funksiyanı yerinə yetirməli idi:

- məlumat-informasiyaları ötürmək
- şagirdlərə nəzarət etmək
- şagirdlərin biliklərini yoxlamaq

Müasir zamanda isə müəllimin sosial rolu dəyişmiş və çətinləşmişdir, müəllimin peşəkar hazırlığına tələbat durmadan artır. Dövlət və cəmiyyətə şagirdin şəxsiyyətini inkişaf etdirə biləcək, ictimai mühitə rahat uyğunlaşa bilən, yaradıcı fəaliyyəti ilə prosesləri həyata keçirə biləcək müəllimlər tələb olunur. Müasir müəllimin əsas

xüsusiyyətləri aşağıdakılar olmalıdır: səriştəlik, peşəkar davranış, emosional çeviklik, peşəkar özünüqavrama.

Bu keyfiyyətlər müasir coğrafiya müəllimi üçün tələb olunan əsas xüsusiyyətləri əks etdirir. Səriştəli müəllimin əsas göstəriciləri:

-yeni konsepsiyada tərtib olunmuş fənnin mənimsəmək qabiliyyətinə malik olmalıdır;

- yeni pedaqoji texnologiyaları tətbiq etməyi bacarmalıdır;

- çox variantlı proqram və dərsliklər arasında adekvat olanı müəyyən etməli və onu metodiki cəhətdən qiymətləndirməyi bacarmalıdır;

- işlədiyi müəssisəni maddi imkanları və şagird kontingentinə müvafiq seçim etməyi bacarmalıdır.

Müasir coğrafiya müəllimi geniş dünyagörüşə, fənnin məzmun və metodikasına onun tədrisini bacarmalı, tədqiqat işləri aparmağı və xarici ölkələrin təcrübəsi ilə tanış olmalıdır.

Məktəb coğrafiyası müəllimdən digər bir keyfiyyətlərin olmasını da tələb edir. Bunlar aşağıdakılardır:

- coğrafi hadisə və proseslər əsasında şagirdlərdə coğrafi təxəyyül formalaşdırmaq;

- şagirdlərdə coğrafi mədəniyyət və düşüncə tərzi yaratmaq;

- ətraf aləmdə və dünyada baş verən gündəlik coğrafi məlumatların təhlinini vermək, gələcək üçün proqnozlar verməkdir.

Görkəmli coğrafiyaçı-metodistlərin fikrinə görə coğrafiya müəllimi ilk növbədə tədris materialını seçib ümumiləşdirmək, məntiqi əsaslandırmaq, vahid sistem yaratmaq qabiliyyətinə malik olmalıdır. Ümumiləşdirmənin əsas tələbi- obyektin bütün xüsusiyyətlərini aydınlaşdırmaq, onun əyani obrazını yaradaraq təsvirini konkretləşdirməkdir. Konkretləşmə əyani vəsaitlərin

köməyi ilə həyata keçirilir: müxtəlif xəritələr, rəsmlər, şəkillər, fotoşəkillər, mətni təsvirlər və s. coğrafiya müəlliminin həmçinin aydın şəkil və sxemlərin düzəldilməsi, əyani vəsaitlərin hazırlanması (divar xəritələri, həcmli modellər, paylanma üçün vəsaitlər) kimi peşəkar- pedaqoji səriştəsi də olmalıdır.

Coğrafiya müəllimi coğrafiya elminin bütün tədqiqat metodlarından xəbərdar olmalıdır.(müqayisəli, kartoqrafik, statistik, və s.). O, diyarşünas, ölkəşünas-tədqiqatçı olmalıdır. Yaşadığı yerin coğrafiyasını bilməli, ərazidə praktiki işlərin və ekskursiyaların aparılması zamanı daha çox mənalı yerlərin seçilməsində kömək etməyi bacarmalıdır. Coğrafiyanın öyrənilməsində diyarşünaslıq prinsipinin həyata keçirilməsi öyrənilən mövzunun məzmununun həyatla daima əlaqələndirilməsinə köməklik edir. Bununla belə diyarşünaslıq mövzusu ilə bağlı dərsdənkənar məşğələlər və tədbirlərə başçılıq etmək bacarığı- coğrafiya müəlliminin hazırlanmasının, onun peşəkar səriştəsinin artırılmasının özünəməxsus tələblərindən biridir. Geniş dünyagörünüşünə malik, öz ərazisinin təbii xüsusiyyətlərini, regional problemlərini bilən coğrafiya müəllimi digər müəllimlərlə müqayisədə maarifləndirmə, yaşadığı yerə, rayona, ölkəyə, məhəbbətin tərbiyə edilməsi, başqa xalq və millətlərlə qarşılıqlı tolerant yanaşmanın, ekoloji mədəniyətin yaradılmasını və s. daha yaxşı tədris etmək qabiliyyətinə malik olur.

Müəllimin peşəkarlığı onun (nəinki dərk etmə fəaliyyətinin subyekti kimi, həmçinin ünsiyyət obyekti kimi) davranışında əks olunur. Pedaqoji ünsiyyət müəllimlə şagirdlər arasındakı birgə fəaliyyətin məqsəd və məzmunları əsasında qurulmuş qarşılıqlı təsir prosesini özündə əks etdirir. Onun əsas əlamətləri aşağıdakılardır: 1) müəllimlə şagirdin fənnə aid olan məlumatları bölüşməsi; 2) tərbiyəvi

təsir göstərməsi; 3) qarşılıqlı münasibətlərin qurulması; 4) müxtəlif əlaqə vasitələrinin yaradılması.

Pedaqoji ünsiyyət şagirdlərin fəaliyyətini yönəltmək və onların vəziyyətini anlamaqda özünü göstərir. Real şəraitdə müəllim çox tez bir zamanda vəziyyəti qiymətləndirməli, təşkil etməli və optimal variantı seçməlidir. Tədris vəziyyətini dərk etmə iki səviyyədə baş verir: rasional və emosional. Sonuncu, uşağı daha düzgün başa düşməyə kömək edir, müəllimin əvvəlcədən qiymətləndirmə meylinin qarşısını alır, uşaqla özünün müqayisəsinə qəti yol verməməyə imkan verir.

Pedaqoji ünsiyyətin əsasında pedaqoji tapşırıq durur ki, onun həlli zamanı məlumat ötürülməsi, şagirdlərin onu qavramaq və dərk etməyə sövq edilməsi, onların emosional dəyərlərinin yaradılması və fəaliyyətlərinin qurulması baş verir.

Motivasiya (maraqlandırma və ya təhrik etmə) – şagird fəaliyyətinin psixoloji baxımdan təmin etməklə onun hər hansı problemin açılmasına yönəldilməsidir. Motiv - insanı fəaliyyətə sövq edən daxili gücdür. Tədris fəaliyyətində bu, şagirdlərin öyrənmək səyləri, istəkləridir. Öyrənmə uşaqlar üçün müxtəlif mənalar kəsb edə bilər: onun idraki tələblərinə cavab vermək istəyi - digər məqsədlərə nail olmaq vasitəsi və s. Şagirdlərin idraki fəaliyyətinin motivasiyası uğurlu təhsilin əsas şərti və hər bir coğrafiya dərsinin əsas mərhələsi olmalıdır.

Motivasiyanın bəzi pedaqoqlar problemin qoyuluşu kimi qəbul edir. Hər hansı halda motivasiya psixoloji amil olub şagirdin təlim fəaliyyətinin mexanizmini hərəkətə gətirən qüvvədir. Tədris olunan mövzuda aparıcı ideya motivasiya şəklində ortaya gətirildikdə \ şagirdin idrak fəallığı artır, o, müstəqil olaraq mövzuya uyğun bəzi ideyalarını, fikirlərini söyləyir « mənim fikrimə görə», «güman edirəm ki», «zənnimcə» və s. ifadələrlə münasibətini

söyləyir. Müasir məktəbin məqsədlərini reallaşdırmaq üçün tədris fəaliyyəti və materialları ilə bağlı daxili şəxsi idraki-tədris səbəblərini formalaşdırmaq lazımdır. Tədris fəaliyyətinin motivasiyası aşağıdakılara yönəldilmişdir: 1)əldə olunmuş bilik, bacarıq və yaradıcı fəaliyyət təcrübəsinin qiymətləndirilməsi (şagird bunların hamısının onun nəyinə lazım olduğunu dərk etməlidir); 2) onların mənimsənilməsinə olan şüurlu münasibəti (əsas diqqət mənimsəmə qabiliyyətinə, öyrənilən məlumatların dərk etmək və yadda saxlamaq kimi psixoloji faktorlara yönəldilmişdir); 3) müsbət emosional fonun yaradılması; 4) şagirdlərin idrakı maraqlarının formalaşdırılması.

Idraki fəaliyyətin motivasiya növləri çoxdur. Fəaliyyətə başlamazdan əvvəl şagirdlər fiziki cəhətdən biliklərin mənimsənilməsinə hazır olmalıdırlar. Bu məqsədlə şagird üçün yerin hazır olması, onda coğrafi məlumat mənbələrinin olmasına (dərsliklər, xəritələr və s.) diqqət verilməlidir.

Motivasiya adətən dərsin (mövzu, bölmə) əvvəlində təqdim olunur. O, müəllimin emosional, mənalı giriş sözündə verilməlidir. Maraqlı, obrazlı danışmaq qabiliyyəti coğrafiya müəlliminin əsas peşəkarlıq xüsusiyyəti olmalıdır. Müəllim qısa, lakin eyni zamanda canlı, obrazlı şəkildə səciyyəvi landşaftlar, təbiətin maraqlı hadisələri və istehsal formaları haqqında danışmaq qabiliyyətinə malik olmalıdır...". Çünki şagird sosial varlıq kimi başqa insanlarla, məktəb məkanında, ilk növbədə müəllimlər və sinif şagirdləri ilə görünən və görünməyən yüzlərlə əlaqə sisteminə daxildir. Məktəblinin daxilində fərdi və sosial «mən» vardır. Mənlik şüuru məhz həmin «mən»-lərdən qaynaqlanır. Dərsin hər bir prosesində müəllim şagirddə formalaşmaqda olan «mən»-dən istifadə etməyi bacarmalıdır.

Motivasiyanın əsasında şagirdlərin öyrənmək vəzifəsi durur. Şagirdlərə bölmənin, mövzunun və ya ayrı –ayrı dərslərin öyrənilməsinə başlayarkən verilən *məqsədli sualların qoyuluşu böyük* əhəmiyyət daşıyır. Əslində bu, şagirdlər üçün müəllimin formasını dəyişmiş məqsədidir. Onlar tədrisin konkret nəticəsini özündə əks etdirir: hər hansı anlayışların, terminlərin qısa ifadəsini bilmək, səbəb-nəticə əlaqələrini başa salmaq bacarığına malik olmaq, faktları və nomenklaturaları bilmək və s. məqsədlər cədvəl, plan, lövhədə qurulmuş sxem, plakat, tematik stendlər şəklində təqdim oluna bilər. İşin müəyyən mərhələlərində şagirdlər bu vəsaitlərə müraciət edərək öz fəaliyyətlərini nizama sala bilərlər.

Şagirdlərin dərketmə fəaliyyətinin ən vacib elementlərindən biri, *coğrafiyanın məzmunu*dur ki, burada dünyanın və Azərbaycanın müxtəlif, məzmunlu coğrafi xəritələri, onun təbiətləri, əhali və əhalinin təsərrüfat fəaliyyətlərinin və s. açıq şəkildə göstərilməsidir.

Məktəb coğrafiyasının məzmunu çox saylı məlumat və maraqli faktlar, müasir həyat hadisələrinin təsvirləri ilə zəngindir.(məsələn, vulkan püskürmələri, su basmaları, dünyanın siyasi xəritəsində dəyişiklikləri və s. əks olunur). Belə məlumatların istifadə olunması şagirdlərdə böyük maraq yaradır ki, bu da tədrisin səbəblərinin əsasında durur.

Motivasiyanın məqsədlərindən biri şagirdlərin *coğrafi bilik və bacarıqların təcrübi və ictimai əhəmiyyəti* ilə tanışlıqdır. Əsas diqqəti coğrafi biliklərin gündəlik həyatda, ətraf mühitin qorunmasında olan roluna, müəyyən ərazilərdə yaşayış şəraitinə uyğunlaşmaya, havanın proqnozlaşdırılmasına, hər hansı ərazidə səmti tapmaq bacarığına, təbii fəlakələr zamanı düzgün davranmaq bacarığına, coğrafi xəritəni beynəlxalq ünsiyyət vasitəsi kimi

istifadə etmək qabiliyyətinə və s. yönəltmək lazımdır. Coğrafiya müəllimlərinin iş təcrübəsində şagirdlərin coğrafyanın tələb olunduğu peşələrlə (geoloq, nəqliyyat işçisi, iqtisadçı və s.) tanışlığı üçün zəngin materiallar tapmaq olar. Motivasiya yollarından biri isə şagirdlərin həyatda qazandığı təcrübəyə, bilik və bacarığına *söykənərək* (kənddə istirahət, yürüş, turizm xarakterli gəzintilər və s.) onları cəlb etməkdir.

Motivasiyanın digər məqsədi *coğrafiya dərslərinin məzmununa ayrı- ayrı fənnlərdən biliklər daxil etmək* (tarix, iqtisadiyyat, ekologiya, təsviri- incəsənət, poeziya və s.), coğrafiyanın məlumat həcmini artırmaqdan ibarətdir. Məsələn, 7-ci sinifdə Braziliyanı öyrənən zaman şagirdlər yalnız onun təsvirini öyrənmirlər, onlar həmçinin ölkənin formalaşma tarixi, əhalisinin xüsusiyyətləri ilə də tanış olurlar. Bu zaman müəllim ölkənin görünüşünü musiqi, təsviri- incəsənət, poeziya əsərlərindən istifadə edərək yarada bilər.

Motivasiya prosesində *müxtəlif coğrafi məlumat mənbələri ilə sistematik iş,* əyani və audiovizual vasitələrdən istifadə, və əlbəttdə ki, maraqlı metodik aparat, internet, elektron vəsaitlər və s. eləcə də, coğrafiya dərsliklərindən istifadə oluna bilər.

Tədris fəaliyyətinin müvəffəqiyyətinə həmçinin *dərsin təlim formalarının təşkili* də böyük təsir göstərir. Əsas vacib rolu qeyri- ənənəvi dərslər (oyunlar, müzakirələr, konfranslar və s.) oynayır ki, bu zaman şagirdlər qrup və ya cütlər şəklində işləyərək, axtarış, tədqiqat, layihə və s.kimi *fəal tədris metodlarından* istifadə edirlər: Müasir dərsin vacib əlaməti *problemli tədrisdir* ki, bu da tədris fəaliyyətinin müsbət motivlərinin formalaşmasının bir üsuludur.

Tədris nəticələrinin *qeyri- standart, maraqlı nəzarət formalarının tətbiq edilməsi* də şagirdlərin tədris fəaliyyətində motivasiya vasitəsi kimi xidmət edir.

Şagirdlərlə düzgün aparılan motivasiya, onlarda dərketmə marağının yaradılması və formalaşmasına səbəb olur və coğrafi bilik və bacarıqların qavranmasına imkan verir. Şagirdlərin motivləşdirilməsində aparıcı rol müəllimin şəxsiyyətinə verilir. Müəllim şagirdin dərsə, fənnə olan *marağını stimullaşdıraraq* onun intelektual imkanlarının genişləndirilməsi, özünü reallaşdırması, ümumən tədris prosesinin keyfiyyətinin yaxşılaşdırılmasına olan münasibəti, onun peşəkarlığının mühüm *qiymətləndirmə göstəricilərindən biridir.*


Tədris fəaliyyətində mövcud olan motivasiyalar şagirdin *idrakı maraqlarını* biruzə verir və inkişaf edir. Idrakı marağın meyarları aşağıdakılardır:

- şagirdlərin davranış xüsusiyyətləri;
- onların tədris fəaliyyətindəki aktivliyi,
- tədris fəaliyyətində diqqətliliyinin dərəcəsi,
- şagirdlərdə müəllimə olan sualların yaranması.

Şagirdlərin dərk etmə marağının formalaşması üçün dərsdə müəllimin şagirdlə olan ünsiyyət *üsulu*-ndan asılı olan müsbət emosional fonun olması vacibdir. Müsbət emosiyalarla müşayət olunan tədris fəaliyyəti şagirdlərə sevinc gətirir və onlar yüksək nəticələr göstərirlər. Müəllimlə şagirdin qarşılıqlı təsir tərzi ünsiyyət göstəricilərindən biridir. Bunda müəllimin emosional çevikliyini və kommunikativlik bacarıqlarını, onun şagirlərlə olan münasibətini, yaradıcı fərdiyyəti, şagirdlərin psixoloji və yaş xüsusiyyətlirini nəzərə almaq qabiliyyəti özündə əks etdirir (Sxem 7).

Tədris fənninə marağın yaradılması

Sxem 7



Müəllimin şagirdlərə olan ünsiyyətinin 3 növ qəbul edilmişdir: 1) avtoritar; 2) səhlənkar; 3) demokratik.

Pedaqoqlar tərəfindən birmənalı qarşılanmayan **avtoritar** üslub müəllimin təkbaşına şagirdlərlə olan münasibətini təyin edir və onların işini subyektiv olaraq qiymətləndirməsini əks etdirir. Bu zaman şagirdlərin rolu passivdir: onlar problemlərin müzakirəsində iştirak etmirlər, fəaliyyətləri sakitliyə riayət edərək, müəllimin

dediklərini yerinə yetirməkdən ibarət olur.Bu ünsiyyət monoloji forma adlanır. Müəllim şagirdlərin cəhdlərini ya rədd edir, ya da onları mənfi qiymətləndirir. Çox zaman şagirdlərin müəllimin bu avtoritar üslubuna qarşı çıxması konflikt vəziyyətin yaranmasına gətirib çıxarır. Xarici görünüşünə görə belə müəllimlərin fəaliyyəti müvəffəqiyyətli görünür (davamiyyət, dərsdəki intizam və s.), lakin sinifdə olan sosial- psixoloji mühit çox pis olur. Belə vəziyyətin nəticəsi: müəllimlə şagird arasında psixoloji maneənin yaranması; qeyri adekvat özünü dəyərləndirmə və şagirdlərin iddialıq səviyyəsi; şagirdlərdə nevrozların yaranması; müəllimin bu və ya digər şəkildə qəbul edilməməsi və ya dərsə qarşı laqeyidlik hökm sürür

Avtoritar müəllimin nəzərində şagird sadəcə öyrətmə «obyekti» kimi çıxış edir. Şagirdin yaxşı oxuya bilməsi üçün, onların diqqətli və çalışqan olmasını ən vacib element sayırlar. Belə müəllimlərə görə şagirdlər 4 tipə ayrılır: yaxşı oxuyanlar-intizamlı; yaxşı oxuyan-intizamsız; pis oxuyan-intizamlı; pis oxuyan-intizamsız. Onların təlim materiallarının mənimsəməsi səviyyəsi və qiymətləndirmə də bu tiplərdən asılı olaraq verilir. Onlar üçün şagirdin yaxşı danışmağı öyrəndiyi materialı başa düşməsi ilə eyniləşir. Avtoritar müəllimlər «qabiliyyətli» hesab etdikləri şagirdlərdən çox şey gözləyir, onlara qayğı göstərir, sinifdə fərqləndirirlər. Lakin «qabiliyyətsiz» hesab etdikləri şagirdlərdən «əllərini üzür», şübhə ilə yanaşırlar, onların «yararsız» olduğunu sübut etməyə çalışaraq hətta bunu açıq şəkildə bəyan edirlər.

Səhlənkar ünsiyyət forması müəllimin peşəkarlıq fəaliyyətindən boyun qaçırması ilə, öz üzərindən məsuliyyəti atması ilə xarakterizə olunur. Belə müəllimlər öz fəaliyyətlərini sadəcə dərs deməklə yeni mövzunu izah etməklə, şablon dərs planına riayət etməklə məhdudlaşaraq, öz vəzifələrini formal olaraq yerinə yetirirlər. Onlar

məktəblə şagirdlərin problemlərinə qarşı laqeyiddirlər. Bunun nəticəsində, şagirdlərin fəaliyyətinin və onların şəxsiyyətinin inkişaf dinamikası üzərindəki nəzarətin olmaması kimi ünsürlər irəli gəlir. Səhlənkar müəllimlərin dərslərində davamiyyət və intizam çox zaman qeyri kafi olur Belə müəllimlər dərsin gedişində yalnız qabiliyyətli şagirdlər ilə işləyir, dərsə laqeyd olanları isə heç elə bir «görmürlər».

Demokratik ünsiyyət vasitəsi zamanı müəllim şagirdlərlə şəxsi ünsiyyətdə olur, onların bu qarşılıqlı münasibətdəki subyekt rolunu artırır və şagirdlərin qəlbinə asanlıqla yol tapır, onlara «böyük yoldaş» kimi münasibət saxlayır. Bu ünsiyyət formasında, şagirdlər tədrisi-idrakı fəaliyyətində araşdırmalara qoşulurlar ki, bu zaman öyrədən və öyrənənlər arasında əməkdaşlıq münasibətləri, müəllimlə şagird, və həmçinin şagirdlərin özləri arasında yeni biliklərin araşdırılması zamanı ortaya çıxan dialoji ünsiyyət yaranır. Bu ünsiyyətdə insani münasibətlər xüsusi yer tutur. Müəllim hər bir şagirdə hörmətlə yanaşır, onun insani keyfiyyətlərini yüksək qiymətləndirir; şagirdlərin taleyi ilə şəxsi problemləri ilə maraqlanır, onların qabiliyyətinə və istedadına nikbin baxır. Şagirdləri özünə əməkdaş, eyni müstəvidə dayanan partnyor kimi qəbul edir, onları stimullaşdırmaq üçün daxili motiv yaradır, şagirdlərin nöqsanlarına dözümlü olur, onların hər birinə qarşı ünsiyyəti fərqlidir.

Müəllim şagird arasında sərt ölçülü səddin aradan qalxması onların arasında demokratik, bərabər hüquqlu əməkdaşlığın yaranmasına səbəb olur. Demokratik ünsiyyət formasının əsas xüsusiyyətləri qarşılıqlı qəbul etmə və qarşılıqlı dinləmədir. Şagirdlər, yaranmış problemlərinin müəllimlə açıq və azad müzakirəsi zamanı fəal hərəkətlərə, əməkdəşlığa və yaradıcılığa sövq edən qarşılıqlı razılaşmaya gəlirlər. Nəticədə demokratik ünsiyyət forması mövcud

pedaqoji sistemin şəxsiyyətə yönəlmiş və inkişaf etdirən tədris texnologiyaları ilə zəngin, çox mühüm yenidənqurmasına gətirib çıxarır. Demokratik ünsiyyət forması müasir coğrafiya dərsinin ənənəvidən ən vacib fərqindən biri olub, şagirdin şəxsiyyət kimi formalaşması üçün əsas formadır.

Müəliim şagird ünsiyyətinin demokratik dəyərləri aşağıdakılar ilə təyin edilir:

- istiqamətləndirmək olar, qadağan etmək olmaz;
- birgə idarə etmək olar, təkbaşına idarə etmək olmaz;
-inandırmaq olar, məcbur etmək olmaz;
- təşkil etmək olar, əmr etmək olmaz;
- sərbəstlik vermək olar, məhdudlaşdırmaq olmaz və s.

Bu qaydalar müasir məktəbdə arzu edilən coğrafiya müəlliminin əsas cəhətlərindəndir.

Müəllimin peşəkarlığının ən mühüm hissəsi onun peşəkarlıq etika normalarına riayət etməsidir. Bir çox mədəni ölkələrdə müəllimə dahi bir şəxsiyyət kimi, mənəvi, əxlaqi biliklərin bəxş edicisi, bənzətmə etalonu, sosial davranış nümunəsi kimi baxırlar.


Beləliklə, müəllimin şəxsiyyəti, emosional çevikliyi, tədris etdiyi fənnlə ruhlanması, məktəblilərin fənnə olan idrakı həvəsin formalaşmasının əsas şərtlərindən biridir. (Sxem 8)

Müəllim hər .zaman öz nəzəri bilikləri və təcrübi bacarıqlarını təkmilləşdirməli, yaradıcılıq nümayiş etdirməlidir. Müəllimin yaradıcılığına olan əsas diqqət müasir məktəbin hər bir şagirdinin şəxsiyyətinin inkişafına yönəlmiş məqsədləri ilə bağlıdır. Demokratik müəllimin fikrincə, «bilik ancaq o zaman bilik ola bilər ki, hafizə ilə deyil, fikrin öz səyi ilə mənimsənilsin». Ü.Hacıbəyov hələ 1909-cü ildə öz məqalələrinin birində göstərirdi ki, «dərs elə yolla başa salınmalıdır ki, şagirdlərin özü həmin qaydanı

kəşf etsinlər ».Çünki kəşf insana sevinc gətirir. Yalnız hafizə ilə bilikləri mənimsəmək şagirdlərdə yaradıcılığı zəiflədir.

Müəllim və şagird ünsiyyətinin üsulları

Sxem 8




Müəllimin yaradıcılığı- bilik və səriştənin təmsil olunduğu pedaqoji fəaliyyətin tərkib hissəsidir. Müəllim üçün yaradıcılıq mənbəyi- şagirdlərlə ünsiyyət, şəxsi və digər müəllimlərin pedaqoji təcrübəsi, ümumi mədəniyyət, həyati və peşəkar mövqedir.

Tədris- tərbiyə prosesi zamanı müəllim stimullaşdırıcı, nəzarət edici, təşkil edici funksiyaları yerinə yetirir. Bu zaman o *peşəkarlıq xüsusiyyətinə* əsaslanaraq tədris məsələlərinin həllini, pedaqoji vasitələrin seçimini (tədrisin motivasiya üsulları, formaları, metodları), müəllimin fərdi ünsiyyət üsulu və özünütəkmilləşdirməyə olan münasibətini müəyyən edir (Sxem 9).

Peşəkar müəlimin əsas xüsusiyyətləri

Sxem 9



Müəllimin peşəkarlığı onun prosesləri çətinlik çəkmədən –qeyri-iradi və ya refleksasiya eləmək qabiliyyətində özünü göstərir: özünü kənardan qiymətləndirmə, özünə suallar vermə, müstəqil olaraq onlara cavab vermək, pedaqoji özünütəhsilə olan tələbatı inkişaf etdirmək və s.

3.3.Coğrafiya müəlliminin əsas vəzifələri

Tədris olunan fənnin məzmunundan asılı olmayaraq müəllim təhsil sahəsində hazırda qəbul olunan dövlət siyasətinin əsas prinsiplərini – humanistlik, demokratiklik, bərabərlik, millilik və dünyəvilik, keyfiyyətlilik, səmərəlilik, fasiləsizlik, vəhdətlik, daimilik, varislik, inteqrasiyanı rəhbər tutaraq təlim fəaliyyətini planlaşdırmalıdır. Sadalanan prinsiplərin hər birinin yerinə yetirilməsi; müəllimdən pedaqoji ustalıq, fərdi yaradıcılıq və özünəməxsus təhsil mədəniyyəti tələb edir. Təhsil mədəniyyəti tarixi dövrün tələblərindən asılı olaraq dəyişir və bu mənada müəllimin rolu və vəzifələri də dəyişkəndir. Məlumdur ki, XX əsrin ortalarına qədərki təhsil mədəniyyəti monoloji xarakter daşıyırdı. Müəllim sinifdə dominant rolunda çıxış edir, şagirdi maarifləndirir, şagird müəllimdən eşitdiklərini təkrarlayır və tədricən obyektə çevrilirdi. Məlumatın belə «ötürmə» yolu ilə verilməsi şəraitində şagirdin düşünmə qabiliyyətinin inkişaf etdirilməsi öz əhəmiyyətini itirir, əksinə təşəbbüskarlıq və sərbəstlik kütləşir Bu model reproduktiv model adlanır

Müasir təhsil mədəniyyəti dialoji mədəniyyətdir. Dialoq –başqasının münasibətlər aləminə daxil olmaq, subyekt-subyekt münasibətlərinin qarşılıqlı formasıdır. Dialoq prosesində insan başqa adamın şəxsiyyətinə və onun vəsitəsi ilə öz şəxsiyyətinə nüfuz edir. Əslində, monoloji yanaşma prosesində xüsusilə yaxşı oxuyan, çalışqan

şagirdlər müəlliminin ona obyekt kimi baxdığını başa düşmür.


Dərslərinə qarşı laqeyd olan şagirdlər isə müəllimin onlara soyuq münasibətlərindən bezir və təlim prosesində geri qalmaqları ilə müşayiət olunur. Xüsusilə, ikinci qrup şagirdlərə olan münasibətdə monoloji modelin tətbiqi yaramır. Produktiv təlim modeli adlanan dioloji münasibət formasında isə şagirdlərə verilən biliklər «hazır» şəkildə verilmir, onların müstəqil öyrənilməsi prosesində mənimsənilir, yəni proses passiv yox, aktiv xarakter daşıyır (Sxem 10 a,b).

Produktiv təlim modeli

Sxem 10.a

1.Məsələlərin həlli prosesində mənimsəmə

2.Yeni biliklərin alınması



3. Tətbiq

Sxem 10.b

Reproduktiv modelin quruluşu

1.Ötürmə

2.Mənimsəmə




3.Biliklərin təkrarı

Produktiv yanaşmanın əsas cəhəti öyrənmə fəaliyyəti prosesində düşünmə qabiliyyətinin inkişafı, qazanılan biliklərin tətbiq olunmasına imkan yaratmasıdır.

Produktiv modeldə müəllim istiqamətləndirici, şagird tətqiqatçı və tətbiq edən şəxs kimi çıxış edir. Müəllim şagird ünsiyyəti ən mühüm psixoloji xüsusiyyətlərin tətbiqini tələb edir. Bu müəllimin sosial formada (adi insandan yüksəyə qalxmaq) bir fərd olaraq şəxsiyyətə çevrilməsi və yaradıcılığı, emosiyası, fərdliliyi ilə şagirdi arxasınca aparan bir subyektə çevrilir (Sxem 11).

Müəllim və şagird işinin müqayisəsi

Sxem11



Ənənəvi olaraq müəllimin üç vəzifəsi vardır:

1. İnformasiya verən
2. Bilikləri yoxlayan
3. Qiymətləndirən

İstər ənənəvi və ya müasir tədris prosesi olsun, bu prosesin əsas subyekti müəllim və şagirddir. Lakin, müasir dövrdə müəllim fəaliyyəti əvvəlkindən xeyli mürəkkəbləşmişdir. Şagird şəxsiyyətinin inkişafı şagird yaradıcılığının artırılması prosesini sürətləndirirməsi şagirdin müstəqil fəaliyyətinə verilməsi tolerantlıq

(dözümlülük) demokratik əhval-ruhiyyənin və obyektivliyin gözlənilməsi və digər tədris tərbiyə vəzifələri müəllimin əsas vəzifələridir. Coğrafiya müəllimi material və mövzu seçimində, onun ümumiləşdirilməsində, məntiqi ardıcıllıqla onun tədrisində sərbəstdir. Müəllim dərs prosesinə müəyyən hazırlıqla gəlməli, şagirdlərdə öyrənmə həvəsini yaratmalı (motivasiya yaratmalı), dərs prosesində tempi tənzimləməli, bütün şagirdlərə tələbkarlıq səviyyəsini müəyyən etməli, sualların cavablandırılmasını təmin etməli, sinifdə **öyrənmə, informasiya və əşyavi** mühit yaradaraq ümumi təlim prosesini nizamlamalıdır.

Pedaqoji əsas kimi müasir məktəb coğrafiyası tədrisində ilk növbədə şagirdlərin idraki fəaliyyətini təşkil edilməsi, müəllimin sinifdə *öyrədici* mühit yaratması (öyrədici, əyani, yaradıcı) və onu istiqamətləndirmək bacarığının olması önəmli cəhətdir. Tədris prosesində ikinci mühüm cəhət müəllimin əyanilik tətbiq etmək bacarığı, yəni *əşyavi* mühitin yaratması qəbul edilir. Bu zaman izahlı illustrativ mühit yaranır ki, bu şagirdlərin müşahidəçilik qabiliyyətini artırır. Şəxsi fikrini söyləməyə imkan yaradır. Təlim prosesində üçüncü pedaqoji prinsip şagirdlər qarşısında *problem stuatsiya* yaratmaq, bacarığını qoymaq onları fəallaşdırmaq və onları obyektdən subyektə çevirmək prinsipidir.

Müəllimin əsas vəzifəsi- elmi nəzəri bilikləri artırmaqdır.bunun üçün hər bir müəllim ilk növbədə:

- hər bir dərsin məqsədini müəyyən etməli,
-sinfi təşkil etməyi bacarmalı,
-keçirilmiş dərslərin sorğusunu özünə məxsus şəkildə aparmalı,
-şagirdləri iş prosesinə daha çox cəlb etməli və onun müxtəlifliyinə nail olmalı,
-dərsliklə işi təşkil etməli,

-müəllim şagird ünsiyyətini düzgün qurmalı,

-əyani və kütləvi informasiya vasitələrdən istifadə etməli,

-daha çox praktik metodlarla işləməli,

-bilikləri qiymətləndirərkən obyektiv olmalı,


-fənlərarası və fənndaxili əlaqəni düzgün qurmalı,

-vaxt intervalını nəzərə almalı,

Bir sözlə şagirdləri "öz arxasınca" aparmağı bacarmalı və şagirdlərin fənnə marağını artırmalıdır (Sxem 12).

Şagirdlərin fənnə olan marağının artırılması yolları

Sxem 12



Müəllimlərin pedaqoji fəaliyyəti 3 səviyyədə qiymətləndirilir.

a) Sənətkar b) usta s) yaradıcı

Bu səviyyələrə görə müəllimləri 2 qrupa ayırmaq mümkündür: kütləvi və qabaqcıl.

Kütləvi müəllim kriteriyaları digərlərindən seçilməyən və onun arzusunda olmayan müəllimlərdir.Onlar nəzərdə

tutulmuş tədris prqramına müvafiq şəkildə öz işlərini qurur, kənara çıxmağa səy göstərmirlər.

Qabaqcıl müəllim kriteriyalarına daxil olanlar isə daha çox aktual problemləri üzə çıxarmaları, problemə elmi cəhətdən yanaşmaları, yüksək nəticələr əldə etmələri, fənnə yaradıcı münasibət göstərmələri ilə fərqlənirlər.Onlar adətən yaradıcı statusuna malikdirlər.

Yaradıcı müəllimlər proqram və dərsliyin seçimində təlim metodlarının tətbiqində dərsin quruluşunun seçimində daha fərdi çıxış edir və onları üzə çıxara bilir və yeni pedaqoji texnologiyaları tətbiq edir.

Müasir pedaqoji texnologiya dedikdə hər bir şagirdin yüksək nəticələr əldə etməsi üçün təlim prosesinin layihələşdirilməsi, təşkili və həyata keçirilməsi üçün müəllimin pedaqoji fəaliyyətini əks etdirir.Bu məqsədlə aşağıdakı tələblər ödənilməlidir:

1. Dərs prosesində müasir pedaqoji texnologiyaların müxtəlif formalarından istifadə edilməlidir (konseptual, qabaqlayıcı, problemli, dialoqlu və s.)

2.Təlimin aktiv formalarının həyata keçirilməsi (problemli, oyunlarla, didaktik vasitələrin tətbiqi, işarələrlə və s.).

3. Şagirdlərin idrak fəaliyyətinimn təşkiletmə qabiliyyəti: (cütlərlə dinamik təlim, qruplarla təlim, qarşılıqlı rəy vermək, fərdi işlər və s.)

4. Təlim axtarış və tədqiqat xarakterli olmalıdır (axtarış xarakterli praktik işlər, tədqiqat xarakterli seminar məşğələləri, problemli və tədqiqat tipli məsələlər və s.)

5. Şagirdlərin sərbəst idrak fəaliyyəti təşkil edilməlidir (dərsliklə iş, didaktik materiallardan istifadə, rəylərin verilməsi, verilməsi, cədvəllərlə iş və s.).

6. Şagirdlərin biliklərinə nəzarət təşkil olunmalıdır (nəzarətin biliklərin məzmununa uyğunluğu, qiymətləndirilmənin obyektivliyi, nəzarətdə şagirdlərin

əhatə olunması, biliklərin yoxlanılmasının və nəzarətin metod və üsullarının rəngarəngliyi: öyrədici, tərbiyəedici, inkişafetdirici, stimullaşdırıcı, qiymətləndirmələrin tətbiqi və s.).

Müəllim təlim məşğələlərinin əyani və texniki cəhətdən təmin etməyə borcludur. Bunun üçün o ilk növbədə, tədris prosesini lazımi texniki təlim vasitələri ilə təmin etməli və TTV-dən səmərəli istifadə etməyi, onlardan məşğələlərdə yerində və müəyyən vaxtda pedaqoji cəhətdən düzgün qoyulmağı, şagirdləri bu işə fəal cəlb edə bilməli və maraqlandırmağı bacarmalıdır.

3.4.Coğrafiya tədrisinin başlıca prinsipləri

Coğrafi təlim-tədris materialını, məzmunu və onun qarşısında qoyulmuş təlim və tərbiyə vəzifələrini həyata keçirməyi nəzərdə tutur. Şagirdlərin bilik, bacarıq və vərdişlərinin formalaşdırılmasında coğrafi təlim vasitələri, dərslik, xəritə, xəritə-sxem, şəkil, dağ süxurları, coğrafi cihazlar, multimedia və s. məcburi komponent kimi çıxış edir. Coğrafiya fənninin tədrisində 3 pedaqoji vəzifə mövcuddur.

Bu ilk növbədə dərin və təsirli bilik verməklə şagirdlərdə coğrafi düşüncə tərzinin formalaşdırılmasıdır. Bu proses **koqnitiv** standart adlanır.

Digər vəzifə şagirdlərdə coğrafi əməliyyatları yerinə yetirmək, coğrafi çalışmalar, diaqramlar qurmağı öyrətməkdir. və s. Bu proses **sanator** standart adlanır.

Üçüncü vəzifə şagirdlərin zehni inkişafı təmin etmək və coğrafi dünyagörüş formalaşdırmaqdır ki, bu isə **affektiv emosional** standart adlanır.

Tədqiqata əsaslanan müasir coğrafi təlim müstəqil və praktik işlərin sistem şəklində tətbiq olunmasını tələb edir.

Bu prinsip pedaqogikada *məlumdan məhcula* doğru adlanır. Şagirdlərədn bacarıq və vərdişlərin inkişafını təmin edən induktiv prinsip (xüsusidən ümumiyə) doğru aparan yol və ya əksinə deduktiv prinsip (ümumidən xüsusiyə) tətbiq olunmalıdır. Pedaqoji prinsiplər əsasında XXI əsrin təhsil sistemi aşağıdakı kriteriyalara malik olan şəxsiyyəti yetişdirməyi qarşıya məqsəd qoyur.

- Yaradıcı və müstəqil düşünmə qabilliyəti olan
- Fəal və ətrafa maraq göstərən
- Müstəqil olaraq biliklərə yiyələnmək bacarığı olan
- Təşəbbüskar olan şəxsiyyətlər yetişdirməkdir


Təhsil sisteminin psixoloji prinsip əsasında şəxsiyyət yönümlü istiqamət əsas yer tutur. Məhz bu şərt müəllim və şagird ünsiyyətini formalaşdırmalıdır. Psixoloji biliklərdən istifadə edən müəllim şəxsiyyət yönümlü istiqaməti bilik və tərbiyə kontekstində istiqamətləndirməlidir.

Dərs prosesində nəticə yönümlü prinsip ön plana şıxır. Fənnin məzmununda «Niyə öyrənmək?» daha qabarıq şəkil alır və coğrafi qanunauyğunluqların cəmiyyətdəki inikası rolu araşdırılır. Yəni səbəb – nəticə əlaqələri dərsin məzmun xəttinə çevrilir. Şagirdlərin biliklərin qavraması zamanı eşitmə və ya göz yaddaşını, əyani vəsaitləri və s. rolu müəllim tərəfindən müəyyən edilir. Müasir təlimdə məhşur fransız pedaqoqu Jan Piaja məxsus olan təlim "Piramida"-sı qəbul edilir.Tədqiqatçının minlərlə şagird üzərində apardığı müşahidələrin nəticəsi olaraq aşağıdakı sxemi qurmaq mümkün olmuşdur (sxem 13).

Psixoloji cəhətdən şagirdin məntiqi, yaradıcı və tənqidi təfəkkürün inkişafı metodikada önəmli yer tutur. Coğrafiya tədrisində vərdiş yəni – hərəkətlərin qısa avtomatlaşdırılmış, gərgin zəhmət çəkmədən yerinə yetirilən əməliyyatları və bacarıq- yəni şagirdlərin mənimsədiyi müxtəlif üsulların daha mürəkkəb tətbiqi fəaliyyətə nail olmaq mümkündür.

«Təlim piramidası»

Sxem 13



Məktəb coğrafiyasında ***məhəlşünaslıq*** (diyarşünaslıq) prinsipi şagirdləri öz doğma diyarını müntəzəm surətdə öyrənməyə istinad edir. Məhəlşünaslığın vəzifəsi bilavasitə müşahidələr əsasında şagirdlərə doğma olan mühitin öyrətməkdir. Rayon, kənd, qəsəbə, məhəllə və s. mühitlər şagird üçün obyektdir. Onlara sevgi və qayğı məhəllin öyrədilməsindən asılıdır. Məktəbin həyatla əlaqəsini təmin etməyin ən mühüm vasitəsi məhəlşunaslıq prinsipinin tətbiq edilməsidir. Şagirdlərin əməyə olan münasibətində əsas rol məhəlşünaslığın üzərinə düşür. Təbiətin mühafizəsi, vətənə sevgi, ekoloji tərbiyə prosesində də bu prinsipin rolu böyükdür. Məhəlşünaslığın qarşısında duran vəzifələr çoxdur. Lakin onları iki əsas qrupda birləşdirmək olar:

- Məhəllin hər tərəfli öyrənilməsi
- Öyrənilən materialların tədris prosesinə tətbiqi

Tədqiqat xarakterli tapşırıqlar şagirdlərin cəmiyyətlə əlaqəsini artırır. Məkan anlayışını formalaşdırır. Əlaqədar təşkilatlardan intervyülar götürülür, arxiv materialları yığılır, yaşlı adamlarla müsahibələr aparılır. Bunlar əsasında bülleten, foto və digər dizayn fəaliyyəti kompleks halda təqdim olunur. Məktəb muzeyi və ya fənn guşəsi yaradılır.

Coğrafiya tədrisində **ekoloji** prinsip şagirdlərin ekoloji bilikləri əsasında qurulur. İlk növbədə yaxından uzağa prinsipi gözlənilir. Məktəbə yaxın istehsal müəssisələrinin ətraf mühitə vurduğu ziyan müəyyən edilir. Müxtəlif tədbirlər (yaşıl cığırlar, təbiəti sevənlər dəstəsi və s) yaradılır. Onlar aksiyalar keçirir, müzakirələr aparır, şikayət və təkliflərini əlaqədar təşkilatlara təqdim edir.

Coğrafiya tədrisində **iqtisadi** prinsip şagirdlərin iqtisadi qənaətçilik, ehtiyyatlardan səmərəli istifadə, tullantısız texnologiya və s. yəni iqtisadi təfəkkürün inkişaf etdirmək anlamında olur. Tədris prosesində iqtisadi prinsip yalnız iqtisadi və sosial coğrafiya kurslarında deyil, fiziki coğrafiyanın tədrisində də yerinə yetirilir.

Coğrafiya tədrisində **peşə yönümü prinsip** coğrafiyanın tələb olduğu peşələrin qabardılması ilə xarakterizə olunur. Məlumdur ki, peşə növləri «insan-təbiət», «insan-insan», «insan-texnika», «insan- işarələr sistemi» və s.-dir. Coğrafiya fənninin üçlü xüsusiyyəti – fiziki coğrafiya , iqtisadi və sosial coğrafiya və kartoqrafik təsvirlərdən istifadə olunması, şagirdlərin peşəyönümünə güclü təsir edir. Hələ, məktəbdə ikən onlarda «geoloq», «okeanoloq», «ekoloq», «biznesmen», «fermer», «bank işçisi», «kartoqraf», «istehsalçı», «turbaza işçisi» və peşələrinə maraq yaradılması mümkündür.

Kollektivçilik prinsipi isə şagirdlərin birgə öyrənilməsinə xidmət edir ki, bunun haqqında dərsin təşkilat formaları mövzusunda məlumat veriləcəkdir.

Coğrafiya dərsləri çox asanlıqla digər fənnlərə inteqrasiya oluna bilir.Bu tədrisdə fənlərarası prinsipin yerinə yetirilməsi ilə nəticələnir. İnteqrativ dərslər eyni zamanda bir sıra tələblərə malikdir.Onlar aşağıdakılardır:

1.İnteqrativ dərsin mövzusu tədris kurslarını ümumiləşdirici roluna malik olmalıdır.

2. İnteqrasiyanın əsas prinsipi dərsin tədris –tərbiyəvi tapşırığına əsasən formalaşdırılmasıdır

3. İnteqrativ dərsin quruluşu fənnlər arasında əlaqələndirici tapşırığa olmaları və aşağıdakı mərhələləri əks etdirmələridir.

A) dərsin mövzusunda fənnlər arası əlqənin mövcudluğu aydın görünməlidir;

B) bilik və bacarıqların bir neçə fənni əhatə etməsi hiss olunmalıdır;

C) müəyyən bilik və bacarıqlardan digərinə keçid qeyri-ənənəvi yollarla təmin olunmalıdır

D) inteqrasiya nəticəsində bilik, bacarıq və vərdişlərin sintezi hiss olunmalıdır;

E) nitq və yeni tipli tapşırıqların həlli vasitəsi ilə yeni inteqrativ biliklər möhkəmləndirilməlidir.

4. İnteqrativ dərslərdə yeni fəal təlim metodlarını tətbiq etmək,bilikləri sistemləşdirmək və ümumiləşdirmək məqsədi ilə şagirdlərdə yaradıcılıq fəaliyyətini inkişaf etdirmək tələb olunur.

5. İnteqrativ dərslər bir neçə tədris fənni üzrə didaktik vəsaitlərdən kompleks istifadə etməyin metodikasını təmin etməlidir.

6. İnteqrativ dərsləri qeyri-ənənəvi metodlarla-kompleks ekskursiya dərsi, konfrans-dərs, emalatxana,səyahət, konkurs-dərs, oyun-dərs və s formasında həyata keçirmək məqsədə uyğundur.

7. İnteqaritv dərslərin aparılması fənn müəllimlərinin əməkdaşlığı tələb olunur.

8. İnteqrativ dərslərin nəticələrini yoxlamaq üçün xüsusi diaqnostik vasitələrdən- mətn, yoxlama yazı, esse, çalışma və s-dən istifadə olunmalıdır.

MÖVZU IV. COĞRAFİ BİLİKLƏRİN FORMALAŞDIRILMASI METODİKASI

4.1.Coğrafi biliklər təlim prosesinin əsası kimi

Hər hansı şəxsiyyətin formalaşmasına genetik qalibiyyətləri ilə yanaşı onların təhsili, daxili yetkinliyi, kamillik səviyyəsi və eləcə də onu əhatə edən sosial mühit və cəmiyyət təsir edir. Şəxsiyyətin həyatda tutduğu mövqeyin formalaşması «ailə - məktəb-cəmiyyət» xətti üzrə fasiləsiz davam edir. Təhsil sistemində fənlərin tədrisinin tərbiyəedici və inkişafetdirici məqsədləri də məhz şəxsiyyətin formalaşmasına xidmət edir.

Danılmaz faktdır ki, şagird də şəxsiyyətdir. Lakin yetkin şəxsiyyətə nisbətən şagird formalaşmaqda olan şəxsiyyətdir. Şagird şəxsiyyətinin formalaşması və ona təsir edən amillər onun gələcək həyatında ən mühüm mərhələdir. Müasir dövrün təhsil sistemində şagird şəxsiyyətinin qabarıq halda üzə çıxması, yeni pedaqoji təfəkkürdə şəxsiyyətyönümlü təlimin tətbiq edilməsinə qoyulmuş tələblər, məhz formalaşmaqda olan şagird şəxsiyyəti ilə müəllim (ümumilikdə onu əhatə edən cəmiyyət) arasında əlaqənin aktuallığını artırır. Şəxsiyyətin inkişaf etdirilməsi cəmiyyətin bütün dövrlərində aktual olmuşdur.

Pedaqoqların fikrincə «şəxsiyyət problemi o zaman həll edilə bilər ki, hər bir adamın şəxsiyyət olduğunu qəbul edəsən. Əgər şəxsiyyət seçmə yolla bəzi adamlara aid edilərsə, şəxsiyyət problemi yoxa çıxar». Nəticə olaraq belə

bir fikir formalaşır ki, şəxsiyyətin aktiv mövqeyinin formalaşdırılması təkcə yetkinləşmə dövründə deyil, uşaq yaşlarından başlanmalıdır. «Aktivlik» şagird fəaliyyəti olub, onun qüvvə və qabiliyyətlərinin səfərbər edilməsini əks etdirir. Şagird aktivliyi ayrı-ayrı fənlərin tədrisində müxtəlif səviyyədə olur. Dərs prosesində şagirdləri aktiv mövqeyə çıxaran bir sıra fəaliyyət növləri vardır:

- Şagirdin öz fikrini müdafiə etməsi, onu əsaslandırmaq üçün faktlar gətirməsi;
- Şagirdin digər şagirdlərə və müəllimə sual verməsi və ya verilmiş cavablara əlavə etməsi;
- Digər şagirdlərin fikrinə öz münasibətini bildirməsi;
- Yoldaşları ilə ünsiyyət qurmaq, onlarla birgə işləmək və ya onlara yardım göstərməyi bacarmaq və s.

Şagird şəxsiyyətinin formalaşdırılmasında « tərbiyəni» ön plana çəkən V.İ.Suxomlinski – onu ilk növbədə fəaliyyət kimi qiymətləndirir və gərgin zehni, fiziki, emosional mənəvi xassələri: temperament və istedadların nəzərə alınmasını tələb edir. Tərbiyə prosesinin ziddiyyətlərin mübarizəsində həyata keçirilməsi nəzərə alınarsa, bu işin nə qədər mürəkkəb olduğu aydın görünür. Şəxsiyyətin aktivliyinin sürəti müxtəlif yaş səviyyələrində fərqli olur. Bu həm də müxtəlif dövrlərdə fərqlidir prof. Ə. Əlizadənin məlumatına görə 30-40 il bundan əvvəl 9-10 yaşlı uşaqlar arasında aparılmış təcrübə eyni ilə indiki dövrdə həyatə keçirildikdə, əvvəl müşahidə olunmayan nəticələr alınır. Bunu «zamanə uşaqları» kimi əsaslandıran alim, biliklərin təqdim olunmasında inkişafın və müxtəlifliyin vacibliyinin nəzərə alınmasını qeyd edir.

Bəzi tədqiqatçılar insanın həyatdakı fəaliyyətini onun tələbatı ilə əlaqələndirir (S.L.Rubinşteyn) və hesab edir ki, insan tələbatına uyğun qarşısına məqsəd qoyur, məqsədə çatmaq üçün aktiv fəaliyyət göstərir və nəticədə şəxsiyyəti formalaşır. Şəxsiyyətin formalaşmasında şagirdin fəallığını şərti olaraq üç qrupa ayırmaq mümkündür:

a) idrak fəallığı
b) ictimai siyasi fəallıq
c) əmək fəallığı

Şagirdlərin idrak fəallığının artırılmasında, orta məktəb təlim-tərbiyə sistemi, o cümlədən, coğrafiya fənnin tədrisi böyük rol oynayır.

İdrak fəallığı mühüm bir problem olaraq didaktikanın tərkib hissəsidir. Təfəkkürün obyektə daim yaxınlaşmasıdır. Təbiət – insan təfəkküründə «cansız» və «mücərrəd» halda deyil, «hərəkətdə» və «coğrafi qanunauyğunluqların» kontekstində, təbiətdəki əksliklərin bir-birinə zidd olan münasibətində dərk olunur.

Şagirdlərin həqiqəti dərk etməsi üçün onların canlı müşahidəsindən mücərrəd təfəkkürə doğru istiqamətləndirilməsi – coğrafiya tədrisində müasir dövrün ən aktual problemlərindən biri olmalıdır.

İdrak fəallığının artırılması şagirdlərin təlimə olan münasibətinin fəallaşmasına səbəb olur. İlk olaraq idrak fəallığı – reproduktiv – yəni təqlidedici, mənimsənilmiş biliklərin təkrarlanması səviyyəsində özünü göstərir. Daha yüksək səviyyəli idrak fəallığı – şagirdin daha müstəqil fəaliyyətinə əsaslanan – onun axtarış – və icraedici fəallığıdır. Şagird öyrəndiklərini möhkəmləndirmək üçün onu tətbiq edə bilir. İdrak fəallığının daha yüksək səviyyəsi-şagirdin yaradıcı fəallığına əsaslanır, onların qarşısına hər hansı məqsəd qoyur, məqsədə çatmaq üçün sərbəst olaraq yollar axtarır və fəaliyyət göstərir. Coğrafiya fənni üzrə hər hansı mövzunun mənimsənilməsində idrak fəallığının üç səviyyəsinə dair aşağıdakı nümunələrlə əsaslandırmaq olar:

1.Coğrafi termin və anlayışların təkrarlanması, xəritə üzərində coğrafi obyektin göstərilməsi və tapşırıqlar idrak fəallığının birinci – aşağı səviyyəsini əks etdirir. Şagirdlər passiv dinləyici rolunda çıxış edir, hazır verilmiş bilikləri mənimsəməyə çalışır, mənimsəmə səviyyəsi – bilikləri təkrarlamaqla tamamlanır. Cəmiyyətin inkişafının müəyyən

dövründə, bu səviyyə qənaətbəxş sayılırdısa, hazırda bununla kifayətlənmək qeyri mümkündür.

II. Coğrafi hadisələrin başvermə səbəblərini və yaxud səbəb nəticə əlaqələri arasında asılılığı müqayisə və təhlil edir. (gecə və gündüzün əmələ gəlməsi ilə yerin öz oxu ətrafında hərəkəti və günəşin yer kürəsinin bir hissəsini işıqlandırması arasında; geoloji dövrdə yaranmış faydalı qazıntıların həmin dövr üçün baş verən təbiət hadisələri ilə əlaqələndirilməsi və s.).

III. Şagirdlərin idrak fəallığını yüksək səviyyəsi fiziki və iqtisadi coğrafi mövzular arasında əlaqənin müəyyən edilməsi, hesablamalar aparmaqla əhalinin sıxlığı, faydalı qazıntıların çatacaq illərin hesablanması, suvarma əkinçiliyinin yaratdığı ekoloji problemləri və s. təhlil etməsini əks etdirir. Göründüyü kimi, coğrafi biliklərin mənimsənilməsinin tamamilə yeni istiqaməti meydana gəlmişdir.

Şagirdlərdə idrak fəallığı kortəbii deyil, təlim prosesində müxtəlif metodları tətbiq etməklə, təşkilat formalarının yüksək səviyyədə və sistemli olaraq həyata keçirilməsi prosesində, nəzəri biliklərin praktiki olaraq tətbiqi nəticəsində və eyni zamanda şagirdlərin maraqlarının və tələbatlarından, istifadə etməklə formalaşdırılır. İdrak prosesinin aktivləşdirilməsi mürəkkəb bir problem olub, təlimin səmərəliliyinə güclü təsir edən amillərdən biridir. Hər hansı ölkədə ictimai-siyasi vəziyyətin dəyişməsi ilk növbədə cəmiyyətdə təlim və tərbiyənin məqsəd və vəzifələrinə təsir edir. Sovetlər ittifaqının dağılması, Azərbaycanda digər sahələrdə olduğu kimi təhsil sahəsində dünyaya inteqrasiyasına şərait yaratdı. İlk növbədə, böyüməkdə olan şagirdlərin şəxsiyyətinin əsas keyfiyyətlərinə, cəmiyyətin tələbi müəyyən edildi, yəni;

yaradıcı və müstəqil düşünmə qabiliyyətə malik biliklərə yiyələnmək marağında olan

fəal və təşəbbüskarlığı ilə seçilən şəxsiyyətin formalaşdırılmasının tərbiyəsi üçün, müasir dövrdə əvvəlkindən fərqli təlim vəzifələri müəyyən edildi. Təlim vəzifələri, şagirdlərdən fənnlər üzrə tələb edilən bilik və bacarıqlar vasitəsi ilə həyata keçirilə bilər. Coğrafiya fənninin tədrisində hansı təlim vəzifələri şəxsiyyətin formalaşdırılmasına təsir edir:

1. Şagirdlər coğrafi məlumatları müstəqil olaraq toplamaqla (onlar hansı məlumatı dərslikdən, atlasdan və ya statistik cədvəllərdən əldə etməyi müəyyən edə bilir).

2.Coğrafi məlumatarı məntiqi təhlil etmək, tənqidi qiymətləndirmək və təcrübədə istifadə etməklə (məsələn, şagirdlər səhra və yarımsəhralarda əkinçiliyi suvarma aparmadan mümkün olmadığını təhlil edib burada artezian quyularının qazılmasını və ya suvarma kanallarının çəkilməsinin labüdlüyünün olmasını təyin edir.

3. Coğrafi məlumatları yaradıcı surətdə dərk etmək və yəni şəraitdə tətbiq etməklə (yuxarıdakı nümunədə – şagirdlər quraq ərazilərdə şoranlıqların yaranması labudlyünü qəbul edərək, vəziyyətdən çıxış yollarına-aid tədbirlər və təkliflər verir).

4.Təbiətdə və cəmiyyətdə baş verən ümumi qanunauyğunluqları müəyyən etməklə

5. Müxtəlif kommunikasiya vasitələrindən, coğrafi vasitə, alət və cihazlardan istifadə etməklə və s. həyata keçirilir.

Şagird şəxsiyyətinin formalaşdırılması yalnız təlim fəaliyyəti ilə deyil, tərbiyə prosesində də aparılır. Coğrafiya müəllimi tədris prosesində aşağıdakı məsələləri diqqət mərkəzinə gətirməklə, şagirdlərin şəxsiyyətinin formalaşmasında iştirak edir:

1.Vətəndaşlıq və vətənpərvərlik hisslərinin inkişaf etdirilməsi

2. Demokratik cəmiyyətin dəyərlərinə hörmət etdirilməsi

3. Şagirdlərin öz xalqını mənəvi və maddi sərvətlərinə, mədəniyyət və milli –adət ənənələrinə dəyər verməsi, digər xalqlarda bu keyfiyyətlərə tolerant yanaşması

4. Müstəqil düşüncənin sərbəst fikir və hərəkətləri təşəbbüskar və liderlik qabiliyyətlərinin, eyni zamanda mədəni davranış bacarığının mütəşəkkil və intizamlı olmaq bacarığının yaradılması

5. Təbiət və ətraf mühitə sevgi, təbiətdəki bütövlüyün və ahəngdarlığın qorunması və ona ehtiyatlı yanaşma tərbiyəsi ilə müəyyən olunur.

Təlim-tərbiyə prosesinin keyfiyyətcə dəyişməsi onun «şagirdyönümlü» olmasıdır ki, bunun mahiyyəti şagirdi təlim prosesinin mərkəzinə gətirmək, onu obyekt kimi qəbul etmək, şagirdin imkan və qabiliyyətlərinə görə ondan tələb etmək və fənnə maraq və tələbatına görə rəftar etməkdir.

Şagirdə istiqamətlənmiş təlim prosesi müəllim qarşısında real vəzifələr qoyur. İlk növbədə müəllim sinifdə özünün bilikvermə qabiliyyətini əks etdirmir- yalnız axtarış və tədqiqatçılıq qabiliyyətlərini nümayiş etdirməlidir. Müxtəlif nümunələr gətirməklə şagirdləri düşünməyə sövq edir. Müəllim öyrənmək, təhlil etmək, nəticə çıxarmaq yollarını axtarmaq xarakterli suallar verməklə istiqamətləndirici rolunda çıxış edir. Şəxsiyyətin inkişafının formalaşdırılmasında müəllim üçün , şagirdlər bilikləri yükləmək üçün mənbə rolundan öz mühakimə və təsəvvürlərinə malik olan varlıq kimi qəbul edilməlidir. Pedaqoji ədəbiyyatda bu konstruktivizm adlanır və müasir pedaqoji fikirlərdə ən düzgün təlim hesab olunur. (Konstruktivizm – şagirdlərin öz axtarış, tədqiqat və mühakimələrindən fəal surətdə bilik yaratmaq qabiliyyətini nəzərdə tutur). Ənənəvi olaraq qəbul edilmişdir ki, təlim prosesi yaşlı nəslin təcrübəsinin gənc nəslə ötürülməsi prosesi olub, bəşəriyyətin tarixi inkişafı boyu təkmilləşmişdir. Təlim prosesində şagirdlərin idrakı üç

mənbədən qidalana bilər: **təsviretmə, şifahi nitq (söz) və təcrübə.** Orta məktəblərdə coğrafiya fənninin məzmunu məhz sadalanan komponentlər üzərində qurulmuş və coğrafi bilik, bacarıq və vərdişlərin formalaşmasına xidmət edir.

Bilik – coğrafi təhsilin başlıca elementi olub, orta məktəb coğrafiya kursunun bütün mərhələlərində aparıcı xətdir. Onun məzmunu və sistemi tədris proqramında istiqamətləndirilir, orta məktəb dərsliklərində əks olunur. Coğrafi biliklərin əldə edilməsini təcrübi və məntiqi dərk etmə yolları vardır (Cədvəl 7).

Coğrafi biliklərin mənimsənilməsi yolları

Cədvəl 7

BİLİK NÖVLƏRİ	
Emprik	Nəzəri
Təcrübi yolla dərketmə	Məntiqi dərketmə


4.2. Nəzəri coğrafi biliklərin formalaşdırılmasının metodikası

Nəzəri biliklər öz quruluşuna görə yekcins deyillər. Onların tərkibinə coğrafi anlayışların formalaşdırılması prosesinin xüsusiyyətləri, səbəb- nəticə əlaqələri və coğrafi qanunauyğunluqların təhlili daxildir. Nəzəriyyə və anlayışların təhlili əsasən izahedici əyani üsullar ilə həyata keçirilir və xüsusi araşdırmaya ehtiyacı olmur (Sxem 14).

Nəzəri biliklərin quruluşuna həmçinin metodoloji biliklər də daxildir, onların hər biri şagird fəaliyyətinin (bacarıqlarının) əsası sayılır. Bu zaman empirik və nəzəri bilikləri müqayisə etmək məntiqə uyğun deyil.

Coğrafi nəzəri biliklərin tərkibi

Sxem 14



Coğrafi anlayışların formalaşdırılması Coğrafi anlayışlar hansı bilik qrupuna aiddir? Proqram və digər normativ sənədlərdə, dərslik və metodik vəsaitlərdə nəzəri biliklər- coğrafiya elminin əsasları kimi qeyd olunmuşdur. Coğrafiya dərslərində obyekt və hadisələr (dağlar, çaylar, dənizlər, millət və ölkələr), həmçinin onların əsas əlamətləri öyrənilir. Yəni şagirdlərdə ümumi anlayışlar formalaşır ki, onların köməyi ilə elmdə əlaqələrin dərk edilmə nəticələri, obyekt və hadisələr arasındakı asılılıq qeyd edilir. Anlayışların təhlilini bilmək - tədrisin vacib vəzifəsidir. Belə ki, elmin bütün sahələrində məntiqi düşünmək bacarığı sayına görə az, məzmununa görə isə dolğun fundamental əsas olan anlayışların dəqiq başa düşülməsi ilə nail olunur.

Beləliklə, elmin əsaslarının mənimsənilməsi bu elmin anlayışlarına yiyələnmək deməkdir. Onsuz şagirdlərdə elmi dünya görünüşünü formalaşdırmaq, onların düşüncəsini inkişaf etdirmək, hər bir coğrafiya kursunun aparıcı ideyasını çatdırmaq mümkün deyil.

Anlayışlar- nəzəri biliklərin nüvəsi, təməlidirlər. Məktəb coğrafiyasında- mənimsəmənin əsas meyarı və

coğrafi mədəniyyətin vacib hissəsidir. Anlayışları aşağıdakı kımı müəyyən etmək olar: 1) onlar məntiqi düşüncənin proses və hadisələrinin əlaqə və münasibətlərinin xüsusiyyətlərini əks etdirən formasıdır; 2) onlar gerçəklik, onun əksi və s. haqqında ümumiləşdirilmiş biliklərdir ki, obyekt və hadisələrin məcmusudur; 3) onlar əlamətlərin tam bir vahiddə uyğunlaşdırılmasıdır ki, hər biri ayrı-ayrılıqda vacibdir, lakin, ümumilikdə götürüldükdə bir fənni digərindən ayırmaq üçün kifayətdir. Anlayışların dərk edilməsi ilə şagirdlər fənnin istiqamətini müəyyən edir. Əslində isə anlayışların dərk edilməsi " fənnin dayaq-istinad nöqtələridir".

Anlayışları digər düşüncə formalarından-mülahizə,termin və nəticələrdən ayırmaq vacibdir. Mülahizə- dünyanın obyekt və hadisələrini, xüsusiyyətlərini, əlaqə və münasibətlərini əks etdirən fikirlərdir. Nəticələr isə mülahizə sistemlərindən ibarətdir. Mülahizələrə anlayışların formalaşma proseslərinin ilkin mərhələsi kimi baxmaq olar.

Mülahizələrdən fərqli olaraq anlayışların ciddi məntiqi tərifi var. Onları özlərinə aid sözlər və əlamətlər mənsubluğuna görə müəyyən edilirlər. Məsələn, hava-atmosferin aşagı qatının müəyyən vaxt və yerdəki vəziyyətidir. Relyef- yer səthinin kələ- kötürlüklərinin məcmusudur. Hava kütləsi- troposferin müəyyən xüsusiyyətlərə malik böyük hava kütləsidir. Günəş radiasiyası- günəşdən gələn işıq və istilik şüalarının cəmidir. Ümumi radiasiya- Yer səthinə çatan günəş enerjisinin ümumi miqdarıdır və s..

Anlayışlar məzmun və həcminə görə xarakterizə olunurlar. Anlayışın məzmunu- verilən anlayışa aid olan bütün cisimlərə məxsus əhəmiyyətli əlamətlərin cəmidir. Predmet və hadisələrin ümumi və mühüm xassələrinin, əlaqə münasibətlərinin şüurlu əks olunmasıdır. Coğrafi anlayışlar *ümumi və xüsusi* olmaqla iki qrupa ayrılır. Anlayışın həcmi-

anlayışın məzmununa aid edilən cisimlərin sayıdır. Məsələn, "ekvator" anlayışının həcmi kiçikdir, "çay" anlayışı isə böyükdür, çünki, çayların sayı çoxdur. Anlayışların aparıcılıq xüsusiyyəti fərqlidir. Məsələn, "külək" anlayışı "passat", "musson" və s. anlayışlarla nisbətdə aparıcı rol oynayır. Baxmayaraq ki, hər bir anlayış mücərrəddir, mücərədlik dərəcəsinə görə onları iki qrupa ayırmaq olar. Ən çox mücərrəd olan anlayışlar, "coğrafi örtük", "iqlim", "atmosfer sirkulyasiyası", "siklon", "antisiklon", və s.; az mücərrəd (abstrakt) olan anlayışlar "çay", "göl", "atmosfer yağıntıları", "düzənlik" və s. ümumi coğrafi anlayışlarıdır. Hər bir ümumi coğrafi anlayışın tərkibində özünəməxsus cəhətlərə malik olan xüsusi coğrafi anlayışlar vardır. Məsələn Nil çayı, Baykal gölü, Abşeron yarımadası və s.

Məktəb coğrafiyası proqramın müəllifləri qavrama vahidləri kimi anlayışları xüsusi olaraq ayırırlar. Bu anlayışlar fənnin məzmunun mənimsənilmə nəticələrinə əsasən, proqram tələbi kimi diqqətlə seçilərək sadalanırlar. Dərsliklərdə anlayışları ifadə edən terminlər adətən mətndə qalın şriftlə seçilir, bəzən isə kənarlara çıxarılırlar, yaxıd altından xətt çəkilir.

Məktəb proqramındakı anlayışların ümumi sayı təqribən 55-60-a bərabərdir. Siniflər üzrə onlar təqribi olaraq belə paylanırlar: 6-cı sinif- 22, 7-ci- 12 , 8-ci- 14, 9-cu- 12. Coğrafiya proqramında aşağı və yuxarı yaş səviyyəsinə görə anlayışların yerləşdirilməsində az və çox mücərrəd olan anlayışlar nəzərə alınmalıdır. Mənimsəmə üçün vacib olan anlayışların sayı dəyişkəndir, lakin nəzərə çarpacaq dərəcədə çox artmır, əks halda şagirdlər daha çox yüklənmiş olardı. Bax buna görə, bir çox terminlərin anlayış kimi qələmə verilməsi böyük metodiki cəhətdən səhv sayılır. Bir çox coğrafi biliklər şagirdlərdə təsəvvür səviyyəsində formalaşır ki, bunların əsasında anlayışlar yaranır.

Bəzi müəllimlər əsas və köməkçi materiallar arasında dəqiq sərhəd çəkə bilmirlər. Bunun nəticəsində, məsələn, 6-cı sinif dərsliyində 100-ə qədər termini anlayışlar kimi qəbul edirlər. Lakin, 6-cı sinifdə coğrafiyanın elmi əsaslarına yiyələnmək üçün şagirdlərə 20-ə qədər anlayış (plan, xəritə, relyef, çay, göl, dəniz, külək, atmosfer yağıntıları, hava, və s.) öyrətmək kifayətdir.

Bəzən müəllimlər anlayışların mücərrəd tərifini verir, şagirdlərdən onları yazmağı və əzbərləməyi tələb edirlər. Digər qrup müəllimlər isə anlayışlara əhəmiyyət vermir və bütün məzmunu təsvirlər səviyyəsində anlatmağa çalışır. Məhz buna görə şagirdlərin coğrafiyanı öyrənmə prosesi zamanı elmi anlayışların metodikasını bilmək vacibdir.

Tədris prosesində hər bir anlayış şagirdlərin şüurunda mürəkkəb inkişaf yolu keçir. Anlayışların formalaşması üçün məqsədyönlü təhlil (analiz və sintez), əlamət və hadisələrin əhəmiyyətli cəhətləri öyrənilən materialın hissələrə parçalanması, bu hissələrin bütöv olanla münasibətinin dərk edilməsi və s. vacibdir.

Psixoloq, müəllim və metodistlərin araşdırmaları ilə müəyyən olunmuşdur ki, anlayışların mənimsənilməsi bir neçə mərhələdə baş verir: 1) şagirdlər tərəfindən mövzu və hadisələrin şifahi təsvirinin verilməsi ilə təsəvvürlərin formalaşması; 2) cism və hadisələrin müşahidəsi və onların xüsusiyyətlərinin, quruluş, əlaqə və fəaliyyətlərinin ayrılması; 3) müqayisə, qeyd olunan xüsusiyyətlərin oxşar və fərqli cəhətlərinin ayırd edilməsi; 4) qeyd olunmuş xüsusiyyətlərin terminlərlə möhkəmləndirilməsi yolu ilə onun mücərrədləşdirilməsi; 5) terminin tətbiq olunma üsulunun hadisələrə tətbiq olunması ilə anlayışların həcminin genişləndirilməsi; 6) anlayışın müəyyən sistemə qoşulması, və onlar arasında əlaqələrin yaradılması; 7)

tədris və təcrübi məsələlərin həlli üçün anlayışların tətbiq edilməsi.

Beləliklə, şagirdlər tərəfindən anlayışların formalaşması heç də passiv mənimsəmə deyil, və idrakı məsələlərin həllinə yönəldilmiş aktiv fəaliyyətini təşkil edir. Əgər müəllim bir sıra metodik şərtlərə riayət edirsə anlayışların formalaşdırılması müvəffəqiyyətlə gedir.

Şagirdlərdə anlayışları formalaşdırmaq idrakı bacarıqlarla müşayiət olunur. İdrakı bacarıqlar, təfəkkürün inkişaf mərhələləri ilə müəyyən olunur ki, bu da aşağıdakı kimi qruplaşdırıla bilər:

1) Bilmək –idrakı bacarığı xatırlamaq, tanımaq, adlandırmaq kimi fəaliyyət növlərini əhatə edir və bundan aşağı sinif şagirdlərinə tətbiq olunur.

2) Anlama-idrakı bacarıq növünə-izah etmək, fərqləndirmək, öz sözü ilə təsvir etməkdən ibarətdir.

3) Tətbiq etmək – istifadə etmək, həll etmək, fikrini çatdırmaq bacarığını əhatə edir.

4) Təhlil etmə – mətni hissələrə ayırmaq, quruluşunu müəyyən etmək, onları digərləri ilə müqayisə etmək bacarığını əks etdirir.

5) Sintez etmə - şagirdlərdən planlaşdırmaq, tərtib etmək, özü yaratmağı tələb edir.

6) Dəyərləndirmək- işə hər hansı mövzuya münasibət bildirməyi, qərar qəbul etməyi şagirdlərdən tələb edir.

Şagirdləri idrakı fəaliyyət bacarıqlarına öyrətmək lazımdır, yəni, onlarda məntiqi düşüncəni formalaşdırmaq, məntiqi əməliyyatları aparmağı öyrətmək vacibdir. Əqli fəaliyyət üsulları- şagirdlərin onu həyata keçirdiyi vasitələrdir. Psixoloqlar əsas üsullara analiz, sintez, abstraktlaşdırma, müqayisə, səbəb- nəticə əlaqələrinin qurulması, ümumiləşdirməni aid edirlər. Bu şərtə riayət olunma çox vaxt müxtəlif məntiqi tərif və anlayışların tərtib edilməsi zamanı lazım olur.

Anlayışların formalaşmasının əsas hissəsini onların təməli kimi qəbul edilən təsəvvürlərin yaranması təşkil edir. Məhz buna görə anlayışların formalaşması zamanı əyani materiallarını tətbiq etmək, onlara istinad etmək lazımdır. Təsəvvürlər- ətraf aləmin hal- hazırda dərk olunmayan cisim və hadisələrin duyulan- əyani obrazlarıdır.

Anlayışları müşayiət edən təsəvvürlər dərk olunma prosesində vacib yer tutur. Onlar hər anlayışdan əvvəl məlumdan –məchula, doğru "pilləkən" rolunu oynayır. Anlayışlar təsvirlərdən olan bədii geyimə bürünürlər. Mücərrədləşmə yolu ümumiləşmiş olur, anlayışlar üçün istinad rolunu oynayır: Məsələn, "hava" anlayışının formalaşması zamanı müəllim uzun müddətli müşahidələr və onların nəticələrini işləyən (hava müşahidəsini aparmaq) zaman yaranmış hava haqqında təsəvvürlərə istinad edir.

Anlayışların formalaşmasının əsas şərti- artıq mənimsənilmiş biliklərlə yenilərinin arasında əlaqəni saxlamaqdir ki, bu da sistemlik- biliklərin ayrı-ayrı elementləri arasında əlaqələrin yaradılmasıdır. Psixoloq və didaktiklərin fikrinə görə, əgər biliklərin toplanması və genişlənməsi sistematik deyilsə, demək onlar əlaqəsiz xarakter daşıyırlar, səthidirlər, formaldırlar. Yalnız məlum ilə məchul arasında əlaqələr qurmaqla anlayışların formalaşmasına müvəffəqiyyətə nail olmaq olar. Buna görə də hər bir yeni anlayışı məktəblilərin artıq bildiyi digərləri ilə birləşdirmək məqsədə uyğundur. Müəllimin vəzifəsi ayrı-ayrı anlayışları deyil, onların sistemlərini formalaşdıqmaqdır. Məsələn, hidroloji anlayışlar sisteminə "çay", "çay hövzəsi", "suayrıcı", "çay sistemi", "çayın qidalanması", "çayın rejimi", "illik axın" və s.daxildir.

Anlayışların formalaşmasının əsas şərtlərindən biri cnların mövzudan mövzuya, kursdan kursa ardıcıl inkişafı, genişlənməsi və dərinləşməsidir və eyni zamanda

varisliyidir. Inkişaf zamanı anlayışın məzmunu zənginləşir, o daha çox ümumiləşmiş olur.

Anlayışların formalaşma prosesi aşağıdakı kimi pillə və ya mərhələlərə bölünür:

a) Yeni anlayışın daxil edilməsi (ilkin formalaşma), onun əhəmiyyət və əlamətlərinin izahı;

b) Anlayışın məzmununun genişləndirilməsi və dərinləşdirilməsi, sonrakı mövzuların öyrənilməsi zamanı onun tətbiqi;

c) Mənimsənilmiş anlayışların müəyyən sistemə gətirilməsi, qanunauyğunluqları müəyyən etmək üçün biliklərin ümumiləşdirilməsi, yəni, anlayışların yeni biliklər əldə edilməsi üçün istifadə edilməsi.

Geoloji, geomorfoloji, iqlim, hidroloji və başqa anlayış sistemləri bütün sayılan mərhələləri 6-cı sinifdən 7-ə və daha genişləndirilmiş formada 10-cu sinifə qədər tədris olunur.

Didaktik prinsiplərə uyğun olaraq anlayışların formalaşmasının iki yolu var- induktiv və deduktiv. Birinci yol o deməkdir ki, anlayışların formalaşması xüsusidən ümumiyə doğru gedir, yəni, cismani obrazdan –təsəvvürlər, əhəmiyyətli və dəyişkən əlamətlərin analizi, əsas terminin ayrılması və tərifin formalaşmasından başlayır. Bu yolla daha mücərrəd ("dağ", "düzən", "çay" və b.) anlayışı formalaşır. Deduktiv yol- ümumidən xüsusiyə gedən yol- müəyyən anlayışdan başlayır ki, bundan sonra onun əhəmiyyətli əlamətləri qeyd olunur və həcmi genişləndirilir. Bu yolla 7-8 və 9-cu siniflərdə bir çoxu, 10 və 11 siniflərdə isə bütün coğrafiya kursunu əhatə edən anlayışlar formalaşır.

Anlayışların formalaşması və mənimsənilməsinin induktiv yolu deduktivdən davamlıdır. Lakin, şagirdlər

davamlı bilikləri anlayışların induktiv yolla əldə olunanların tətbiqi zamanı əldə edirlər.

Coğrafi anlayışların formalaşdırılması şifahi və əyani metodlardan həmçinin, idrak fəaliyyətini aktivləşdirən müxtəlif metodlardan istifadə etmək vacibdir. Çox zaman izahlı- əyani və reproduktiv üsullardan istifadə olunur. Lakin ən yüksək nəticəyə qismən-axtarış və tədqiqat üsullarından istifadə etdikdə nail olunur. Məsələn, şagirdlər "hava" anlayışını sərbəst olaraq, öz müşahidələrinə əsaslanaraq ifadə edə bilərlər, "platforma" anlayışını isə- müəllimin izahı, lövhədəki təsvirin bu anlayışın əsas əlamətlərinin qeyd olunduğu sxemlərə əsasən anlaya bilərlər.

Bəs şagirdlərin coğrafi anlayışı mənimsədiyini təyin etmək olarmı? Bunu təyin etməyin bir sıra əlamətləri mövcuddur: 1) anlayışın əsas əlamətlərinə aid bilikləri təhlil etməklə 2) anlayışa aid olan obyekt və hadisələrin obrazlı təsəvvür etməklə ; 3) tədris prosesində anlayışın tətbiqi, ondan yeni mövzunun öyrənilməsi zamanı istifadə etməklə müəyyən etmək olar. Məsələn, şagirdlər hər hansı bir ərazinin təbiətinin xarakteristikasını tərtib etmək üçün tapşırıq alırlar. Bu zaman onlar "ərazinin coğrafi mövqeyi", "relyef", "iqlim", "hava" və b. anlayışlarından istifadə edirlər. "Hava" anlayışının əsas əlamətlərindən isə müxtəlif təbii zonaları öyrənərkən və s.-də ilin müxtəlif fəsillərində hava şəraiti haqqında hekayə tərtib edən zaman istifadə edirlər.

Coğrafi anlayışların formalaşması- idrak prosesinin vacib hissəsidir. Anlayışların formalaşmasının əsas şərti, kəmiyyət təsəvvürlərin yaradılmasıdır: bədii, ərazi , kartoqrafik, zaman və s. İkinci vacib şərt isə sistemlik, yəni anlayışlar arasında əlaqələrin qurulmasıdır.

Səbəb- nəticə əlaqələri və coğrafi qanunauyğunluqların formalaşdırılması metodikası. Nəzəri biliklər sisteminə coğrafi elmi anlayışlarla bərabər səbəb- nəticə əlaqələri və coğrafi qanunauyğunluqları da aiddir. Səbəb- hadisələrlə ətraf aləmin əlaqəsinin xüsusi formasıdır. Hələ tarixin ibtidai dövründən insanlar müşahidə edirdi ki, bir əlamətlərin məhv olması və ya dəyişməsi, digər hadisələrin təhlili və ya yaranmasına səbəb olur.

Müxtəlif səbəb-nəticə əlaqələrinin öyrənilməsi müasir coğrafiya elminin əsas məzmunu təşkil edir. Onları bilmək nəinki təbiətdə və cəmiyyətdə baş verən proses və anlayışları izah edir, həmçinin gələcəyi proqnozlaşdırmağa imkan verir.

Pedaqoji ədəbiyyatda, səbəb- nəticə əlaqələrinin mənimsənilməsi şagirdlərin əqli inkişafının əsas şərtlərindən biri sayılır.

Səbəb- nəticə əlaqələrinin mənimsənilməsini yoxlamaq üçün normativ sənədlərdə şagirdlərin hazırlığına "izah etmək" sözü ilə başlayan tələblər tətbiq edilmişdir. Belə ki, hər hansı coğrafi proses və ya hadisənin səbəbini (atmosfer yağıntılarının yaranması, demoqrafik partlayışın baş verməsini ayrı- ayrı ərazilərdə iqlim dəyişikliklərinin baş verməsini və s.) izah etmək tələb olunur, digərlərində- bir obyekt və ya anlayışın (Yer kürəsinin təbiətinə buzlaşmanın təsiri, okeanın insanların həyat və təsərrüfat fəaliyyətinə təsiri, miqrasiya prosesinin əhalinin xüsusiyyətlərinə və s.) digərlərinə təsirinin izahı soruşulur. Birinci halda mühakimə səbəbdən nəticəyə doğru, ikincidə isə əks istiqamətdə gedir. Bu zaman ikinci fəaliyyət növü birincidən daha çətin olur, belə ki, nəticəni proqnozlaşdırmaq, səbəbi izah etməkdən çətindir.

Səbəb- nəticə əlaqələri şagirdlər tərəfindən nəinki empirik biliklər kimi, həmçinin digər nəzəri biliklərdən də

pis mənimsənilir: onları məsələn, anlayışın müəyyən edilməsindən, fərqli olaraq əzbərləmək olmur, onları anlamaq lazımdır. Aparılan tədqiqat və sınaqlar şagirdlərin səbəb- nəticə əlaqələrinin mənimsənilməsinin bəzi tipik çatışmazlıqlarının olduğu müəyyən olunmuşdur: 1) şagirdlər səbəb ilə nəticəni çaşdırırlar; 2) əlaqələrin izah edilməsi çox vaxt faktların sadalanması ilə əvəz olunur; 3) şagirdlər hər hansı hadisənin baş verməsində yalnız bir səbəbinin adını çəkirlər (lakin, o adətən hadisənin baş verməsində kompleks səbəblərlə müəyyən olunur; 4) səbəb- nəticə əlaqədərinin zəncirində ayrı- ayrı həlqələrın ardıcıllığı pozulur, bunun nəticəsində də, mühakimənin müntəzəmliliyi və məntiqliyi, bəzi vaxtlarda isə mənası itir.

Səbəb- nəticə əlaqələrinin daha da yaxşı mənimsənilməsi və əks olunması üçün onları lövhədə sxematik təsvirdə əks etmək məqsədəuyğundur. Bu zaman şagirdlərin sxemi dəftərə sadəcə olaraq çəkməsi yox, həmçinin onun mənasını izah edə bilməsi daha vacibdir. Məsələn: "Daimi küləklərin fəaliyyəti okeanda səth axınlarının yaranmasına səbəb olur" və ya "Okeanda səth axınları daimi küləklərin nəticəsidir".


Əsasən coğrafi proses və hadisələr bir deyil, bir neçə səbəblərdən asılı olur (Sxem 15 a,b,c,d)

Səbəb- nəticə əlaqələrinin yaradılması


Sxem 15 .A




Sxem 15. B



Sxem 15.C



Sxem 15.D



Hər iki halda olduğu kimi, şagirdlərdən yalnız səbəbin *adını çəkmək* deyil, həmçinin onların fəaliyyətini *izah etmək* tələb olunur.

Səbəb- nəticə əlaqələrini əks etdirən sxemlər şagirdlərin məntiqinin güclənməsinə təsir edir. Belə sxemlərin tərtib edilməsi zamanı ox işarələrindən istifadə olunur. Sxemlərdəki ox işarələrinə əsasən, bu və ya digər subyekt və ya hadisənin təsirini vermək mümkündür.


Müasir tədris materiallarında səbəb- nəticə əlaqələri şagirdlərə çox vaxt hazır şəkildə verilir və asanlıqla mənimsənilir (müəllimin izahı, dərslik mətini) . Lakin tədris prosesini elə təşkil etmək lazımdır ki,, şagirdlər səbəb-nəticə əlaqələrini özləri müəyyən edə bilsinlər.

Hazırda, istifadə olunan müasir dərsliklərin didaktik aparatında, müxtəlif metodik vəsaitlərdə kifayət qədər səbəb- nəticə əlaqələrinin mənimsənilməsinə aid mövzu və tapşırıqlar vardır. Nümunə üçün küləyin yaranma prosesini izah etmək, Cənubi Amerikanın iqliminin əsas xüsusiyyətini başa salmaq, yüngül əlvan və ağır əlvan metallurgiyanın yerləşməsini şərh etmək, əhali artımının yaş-cins strukturuna təsirini izah etmək və s. şagirdlərə verilmiş sualın cavabını sxem şəklində təqdim etməyi təklif etmək daha məqsədəuyğudur. Aşağıdakı nümunədə "Amazon nəyə görə Cənubi Amerikanın ən bol sulu çayıdır?» sualının çavabı sxematik olaraq göstərilmişdir (Sxem 15 e).

Hazırda, istifadə olunan müasir dərsliklərin didaktik aparatında, müxtəlif metodik vəsaitlərdə kifayət qədər səbəb- nəticə əlaqələrinin mənimsənilməsinə aid mövzu və tapşırıqlar vardır. Nümunə üçün küləyin yaranma prosesini izah etmək, Cənubi Amerikanın iqliminin əsas xüsusiyyətini başa salmaq, yüngül əlvan və ağır əlvan metallurgiyanın yerləşməsini şərh etmək, əhali artımının yaş-cins strukturuna təsirini izah etmək və s. şagirdlərə verilmiş


sualın cavabını sxem şəklində təqdim etməyi təklif etmək daha məqsədəuyğudur. Aşağıdakı nümunədə "Amazon nəyə görə Cənubi Amerikanın ən bol sulu çayıdır?» sualının çavabı sxematik olaraq göstərilmişdir (Sxem 15 e).

Sxem 15 .E



Oxların müəyyən istiqamətlərdə çəkilməsi ilə tələb olunan tapşırıqların şagirdlər tərəfindən səbəb və nəticəni ayırmağa kömək etməsini asanlaşdırmaq olar Digər sxemdə (Sxem 15 k) ümumi anlayışların təhlili verilmişdir. Coğrafi anlayışlar arasında mövcud əlaqə və münasibətlərin cəminin coğrafi qanunauyğunluq olduğu da məhz bu yolla izah edilə bilər.


Sxem 15 K



Bəzi vaxtlar səbəb- nəticə əlaqələrinin müəyyən olunmasına yönəlmiş tapşırıqlar sxemlərdəki boş yerləri doldurmağı və ya «tamamla» tapşırığı ilə ifadə edilməsini ehtimal edir (Sxem 15 t).

Bu vəziyyətdə söhbət, Yerin xəyali oxunun onun orbit müstəvisinə olan meyilliyindən gedir. Bu meyillik olmasaydı, planetin orbit üzrə hərəkət olsaydı belə, Yer üzərində ilin fəsillərinin dəyilməsi baş verməzdi.

Sxem 15 .T



Əlaqələrin qurulmasını güman edən məsələlərin cavabları iki sütünlu cədvəl formasında ola bilər, belə ki, birində bu va ya digər obyekt və ya hadisənin xüsusiyyətləri sadalanır, digərində isə ondan asılı olan səbəblər yazılır (Cədvəl 8).

Cədvəl 8


Avstraliyanın çay sistemi

Çay şəbəkəsinin xüsusuiyyətləri	Xüsusiyyətlərin səbəbləri
Iri bolsulu çayların olmaması	Materikin kiçik ölçüdə olması
Materik ərazisinin yarıdan çoxu daxili axarlı hövzəyə aiddir	Materikin çox hissəsində yağıntıların miqdarının az olması
Quruyan çayların mövcudluğu	Materik ərazisində yağıntının buxarlanmadan az olması
Materikin şərq hissəsində çaylar il boyu bol suludur	Passatların təsir etdiyi ərazidə yerləşən Böyük Suayırıcı dağ silsiləsi sədd rolunu oynayır və küləkdöyən yamaclarında yağıntılar bərabər paylanır
Çayların qidalanması nda yalnız yağış və qrunt suları iştirak edir	Subekvatorial, tropik və subtropik iqlim qurşaqlarında materiklərin yerləşməsi.
Çayların çoxu gəmiçiliyə yararsızdır	Çayların azsulu olması

Avstraliyanın çay sisteminin xüsusiyyətləri şagirdlər tərəfindən dərsliyin mətninə əsasən təyin oluna bilər, səbəbləri isə müstəqil şəkildə müəyyən olunur.

Sxemdə təsvir olunan əlaqələrin şagirdlər tərəfindən konkretləşməsini tələb olunan tapşırıqlar daha maraqlı olur. Belə tapşırıqların yerinə yetirilməsi zamanı uşaqlar nəinki torpağın torpaq əmələ gətirən süxurlardan asılılığını deməli, həmçinin uyğun faktları söyləməlidirlər, məsələn, torpağın tərkibi torpaq əmələ gətirən süxurların xüsusiyyətindən asılıdır (qumluqlarda qum torpaqlar əmələ gəlir, gil ilə örtülü ərazilərdə - gilli və s.); eyni zamanda torpağın mexaniki tərkibi onun strukturuna və bir neçə digər xüsusiyyətlərinə təsir göstərir (Sxem 15 F).

Sxem 15. F



Çay şəbəkəsinin sıxlığına və ya okean axınlarının xüsusiyyətlərinə görə əraziyə düşən yağıntıların miqdarı haqqında, coğrafi mövqeyinə və dağ sisteminin hündürlüyünə görə- hündürlük qurşağının xarakteri haqqında, təbii ehtiyyatların mövcudluğuna görə- təsərrüfatın strukturu haqqında və s. mühakimə yürütmək mümkündür.

Şagirdlərə məlum olan səbəb- nəticə əlaqələrinin təhlil prosesində ziddiyyətlərlə müşayiət olunan problemli sual və tapşırıqlar yaranır və dərk etmə mərhələsində problem-situasiya vəziyyətləri qurmaq mümkündür. Belə suallara misal olaraq: 1)Nəyə görə həmişəyaşıl cod yarpaqlı meşə və kol bitkiləri , yağıntının azlığına uyğunlaşa bilir, bu ərazidə orta illik yağıntıların miqdarı 600-800 mm xarakterizə olunur? 2)Bakıda martın və sentyabrın sonlarında günəş şüalarının yer səthinə düşmə bucağı təqribən bərabərdir və bu o deməkdir ki, ərazinin aldığı günəş istiliyi də eynidir. Lakin sentyabrda mart ayına nisbətən havanın temperaturu istidir. Bunun hansı səbəbləri vardır?

Beləliklə, səbəb- nəticə əlaqələrinin öyrənmə üsullarının müxtəlifdir. Onlar şagirdlər tərəfindən hazır vəziyyətdə, problemli sual və tapşırıqların həlli kimi və ya müstəqil təyin olunmasına qədər metodları vardır. Sonuncu üsul böyük didaktik dəyərə malikdir, belə ki, onun istifadəsi zamanı əlaqələr haqqında öz biliklərindən savayı, şagirdlərdən bədii yaradıcı fəaliyyəti tələb olunur.

Şagirdlər səbəb-nəticə əlaqələrini dərk etdikdən sonra onların coğrafi qanunauyğunluqları izah etməsi mümkündür. Çünki qanunauyğunluq proses və hadisələrin təkrarlanmasıdır. Məktəb coğrafiyasının müxtəlif bölmələrindəki coğrafi anlayışlar arasındakı əlaqələri öyrənməklə, şagirdlər coğrafi qanunauyğunluqların mahiyyətini dərk edir, onların baş verdiyi şərait və mühiti şərh etmək təfəkkürün inkişaf üçün baza yaradırlar.

Coğrafi bacarıq və vərdişlərin formalaşdırılması metodları pedaqoji ədəbiyyatda bacarıqların mənimsənilməsi fəaliyyəti kimi başa düşülür.

«Bacarıq» anlayışı ilə birgə çox vaxt «vərdiş» anlayışı da qeyd olunur. «Vərdiş» termini ilə, şagirdlər tərəfindən qısaldılmış, aralıq mərhələləri keçərək, avtomatik yerinə yetirilən hərəkətlər nəzərdə tutulur. Başqa sözlə, vərdiş – fəaliyyətlərin mənimsənilməsinin yüksək pilləsi və ya avtomatikliyə çatdırılmış bacarıqdır.

Bəzi pedaqoqlar bacarığı mədəniyyət elementi kimi qiymətləndirərək, onları şagirdlərə məlum fəaliyyət üsullarınının həyata keçirilməsi kimi qeyd edir. Yadda saxlamaq lazımdır ki, bacarıqlar- fənnin məzmununun müstəqil elementidir: yəni, bilmək bacarmaq demək deyil. Bundan belə nəticə çıxır ki, bacarıqları formalaşdırmaq üçün istifadə olunan metod və üsulları biliklər üçün tətbiq olunanlardan fərqlidir. Fənnin məzmununda tələb olunan bacarıqlara hər hansı hərəkətin təkrarlanması yəni bir neçə dəfə həyata keçirilməsindən sonra nail olmaq olar. Təcrübə aparmadan ərazidə istiqamətin təyin olunması, xəritə üzərində və coğrafi koordinatların müəyyən olunması və s. bu hərəkətlərin həyata keçirilməsi yalnız praktik metodlarla mümkündür. Şagirdlərin müxtəlif tədris fənnlərində əldə etdikləri bacarıqlar eyni deyil. Coğrafiya fənnindən onların əldə etdiyi bacarıqlar isə özünəməxsusluğu ilə fərqlənir. Bunlar məhəldə, təbiətdə, xəritə və digər kartoqrafik təsvirlər üzərində olduğuna görə, onların formalaşdırılması da xüsusi metodika tələb edir.


Təkrar və tapşırıqlar- tədrisin reproduktiv üsuludur. Lakin, onlar bacarıqların formalaşmasında aparıcı rol oynayır lakin, onlardan sui- istifadə etmək olmaz. Çoxlu sayda eyni tipli tapşırıqların yerinə yetirilməsi şagirdlərin dərk etmə marağını kütləşdirir, hər hansı bacarığın mənimsənilməsinin möhkəmliyini zəiflədir. Tapşırıqların

yerinə yetirilməsi şərtləri dəyişkən olduqda, onların effekti daha yüksək olur.

Əksər pedaqoqların qəbul etdiyi bacarıqların ümumi təsnifatı aşağıdakı sxemdə olduğu kimi göstərilmişdir (Sxem 16).

Bacarıq tipləri

Sxem 16



Bəzən bu yanaşma empirik və nəzəri biliklər ilə eyniləşdirilir. Bu zaman praktiki bacarıqlar (məsələn, müşahidə etmək) empirik biliklərin, intelektualı isə (məsələn, nəticə çıxarmaq) nəzəri biliklərin yaranmasına səbəb olur. İntelektual bacarıqlara məntiqi əməliyyatların həyata keçirilməsi- analiz, sintez, müqayisə, ümumiləşdirmə, nəticə çıxarma və s. aid edilir. Bu bacarıqlar yaradıcı fəaliyyətin məzmunudur, onların cavablarını hazır şəkildə tədris materiallarından tapmaq qeyri-mümkündür. Cavablar şagirdlərin məntiqi nəticələrində üzə çıxır.

Bir çox xüsusi coğrafi bacarıqlar praktiki bacarıqlara aiddirlər. Müxtəlif mənbələrdən coğrafi məlumatların əldə olunması da praktiki bacarıqlar hesab olunur. Belə mənbələr ilə iş müxtəlif istiqamətli bacarıqların formalaşmasına səbəb olur (Cədvəl 9).

Bacarıqların formalaşdırılmasının yolları

Cədvəl 9

Məlumat mənbəyi	Bacarıq
Ətraf mühit	Təbii obyektləri, əhali və onun təsərrüfat fəaliyyətini müşahidə etmək və qeyd etmək; ərazidə aparılan tətqiqatlar (ərazinin planını qurmaq,havanın orta temperaturu hesablamaq və s.) nəticələrini təhlil etmək
Kartoqrafik təsvirlər	Obyektlərin coğrafi mövqeyinin xüsusiyyətlərini müəyyən etmək, istiqamət, məsafə, coğrafi koordinatlar (xəritəni bilmək ; keyfiyyət və kəmiyyət göstəricilərini müəyyən etmək (xəritəni bilmək, xəritəni başa düşmək, xəritəni oxumaq)
Statistik materiallar	Qrafiklərin, diaqramların, statistik cədvəllərin təhlil edilməsi

Məlumatların müxtəlif mənbələrdən əldə edilməsi səbəb-nəticə əlaqələrinin müəyyən olunmasını təmin edir, yəni bacarıq formalaşır, yalnız praktiki deyil, eyni zamanda intelektual bacarıqlar sayılır.

Metodiki ədəbiyyatda, praktiki bacarıqların formalaşması prosesində bir neçə mərhələnin mövcudluğu qeyd edilir: 1) tələb olunan biliklərin təqdim olunması (fəaliyyətin istiqamətləndirici rolu formalaşdırılır);

2) müəllim tərəfindən yerinə yetirilmiş fəaliyyətin nümunəsinin nümayişi və izahı; 3) müəllimin rəhbərliyi ilə

şagirdlər tərəfindən işin həyata keçirilmə prosesi; 4) şagirdlər tərəfindən işin müstəqil surətdə yerinə yetirilməsi; 5) bacarıqların biliklərə keçirilməsi. Məsələn: Miqyasın köməyi ilə məsafəni təyin etmək bacarığının formalaşması nümunəsində hər bir mərhələni nəzərdən keçirək. Verilən bacarıq ümumi fiziki coğrafiya kursunun öyrənilməsi zamanı formalaşdırır ("Yer səthiñin təsvir edilməsi" bölməsində).

Birinci mərhələdə müəllim istiqamətləndirici rolu ilə şagirdlərdə ilkin bilikləri formalaşdırır, onlara hətta ən kiçik ərazilərin təsirinin öz ölçüsündə kağızda çəkməyin mümkün olmadığını əsaslandırır. Ərazinin təsvirini vermək üçün onu kiçiltmək lazımdır. Bu isə miqyasın köməkliyi ilə ola bilər. Miqyas- ərazinin plan və ya xəritədə ölçüsünün nə dərəcədə kiçildiyini göstərən kəsr ədədidir (obyektin xətti ölçüləridir). Beləliklə, 1:15000 miqyas o deməkdir ki, bütün xətti ölçülər 21 min dəfə kiçildilmiş və 1 sm-də 15 min sm (və ya 150 m) ərazi "yerləşdirilmişdir". Plan və ya xəritədə miqyasa görə hesablama apararaq ərazidəki məsafəni təyin etmək olar. Bununla da birinci mərhələdə miqyasın köməyi ilə məsafəni təyin etmək bacarığının formalaşmasını bitmiş hesab etmək olar. Müəllim ikinci mərhələdə plan və ya xəritə üzərində məsafələrin təyin edilməsi ilə əlaqədar tapşırıqlara və onların həyata keçirilməsinə aid nümunə göstərir. Məsələn, nümunədə, ərazinin planından istifadə edərək dəmir yolunu körpüdən stansiyaya qədər olan uzunluğunu təyin etmək vacibdir. Plana görə verilən kəsiyin uzunluğunu təyin edək. O, 3,5 sm-ə bərabərdir. Miqyasdan görünür ki, planın hər santimetrində 150 m məsafə "yerləşir". Deməli, dəmir yolunun nöqtələrlə göstərilən əsl uzunluğu 525 m-ə bərabərdir . Üçüncü mərhələdə şagirdlər müəllimin rəhbərliyi ilə praktik işi həyata keçirməlidir. Tutaq ki, dəmir yol stansiyasından kəndə qədər olan

məsafəni təyin etmək lazımdır. Şagirdlərdən biri plana görə məsafəni müəyyən etməli, digəri planın miqyasını, üçüncü göstəriciləri hesablayaraq ərazidəki məsafəni təyin edir. Dördüncü mərhələdə, şagirdlər müəllimin tapşırığını yerinə yetirərək müstəqil olaraq plana görə ərazidəki məsafəni təyin edirlər. Beşinci mərhələdə bacarıqlar əks məsələlərinin köməyi ilə həyata keçirilə bilər.


Bacarıqların digər formada həyata keçirilməsinə aid tapşırıqlara nümunə olaraq Azərbaycan Respublikasının divar xəritəsinə görə Bakı ilə Gəncə şəhərləri arasında məsafəni təyin etmək tapşırığı verir. Onu ölçən zaman, şagirdlər xətkeşlə adı çəkilən məntəqələr arasındakı məsafəni ölçərək xəritənin miqyasına (1:600000) vurmaqla uzunluğu tapa bilərlər. Əgər şagirdlər ölçmə zamanı divar xəritəsindəki miqyasdan istifadə etsələr, demək bu artıq, bacarığın digər tapşırıqlara tətbiqi olacaqdır

Ətraf aləmə qayğılı münasibət və yaradıcı fəaliyyətin inkişaf etdirilməsi və formalaşdırılması tədrisin məzmunun əsas tərkib hissələrindən biridir. Böyüməkdə olan nəslin yaradıcı fəaliyyəti nəzəri bilikləri tətbiq etmək qabiliyyəti cəmiyyətin sosial mədəniyyətinin inkişafını təmin edir. Təcrübə- praktikaya əsaslanan gerçəkliyin emosional dəyərlərinin dərk edilməsidir. Fəaliyyət isə ətraf mühitdə baş verənlərə insanın məqsədyönlü münasibətindən ibarətdir. Qabaqcıl pedaqoqların fikrincə, son nəticəsi yaradıcı mənimsənilməyə və şəxsiyyətin inkişafına nail olunmayan tədris mövcud olmamalıdır.

Yaradıcılıq- insan fəaliyyətində keyfiyyətli yeni dəyərlərin, ideyaların yaradılması, hər hansı məsələnin həllində prinsipial təkmilləşdirilmiş təfəkkür formasıdır. Yaradıcı düşüncə insanın müstəqil fəaliyyəti əsasında inkişaf edir.(Sxem 17).

Yaradıcı düşüncənin formalaşması sxemi

Sxem 17



Şagirdlərdə yaradıcı fəaliyyət və düşüncənin formalaşdırılmasına, tədris prosesində yaradıcı praktik iş və tapşırıqları həll etməklə nail olmaq mümkündür. Bunun üçün tədris fəaliyyətinin tədqiqat xarakterli olması tələb olunur. Tədris prosesi Yaradıcılıq fəaliyyəti aşağıdakı xüsusiyyətlərə malikdir:

1) müstəqil olaraq toplanan bilik və bacarıqları yeni mövzunun öyrənilməsində tətbiq etmək qabiliyyətində;

2) yeni tədris materialında problem tapşırıqları həll etmək üçün ona tanış olan (məsələn Lənkəran rayonunda endemik bitkilərin üstünlüyünü) digər amillərlə əlaqələndirmək qabiliyyətində;

3) coğrafi elementin (obyektin) yeni funksiyalarını görmək qabiliyyətində (məsələn, kimya sənayesini öyrənən zaman azot gübrələrinin xammalının müəyyən edilməsi);

4) öyrənilən coğrafi hadisə və prosesin strukturunu görmək qabiliyyətində (məsələn, təbii kompleksin komponentlərinin əlaqələri);

5) məlum və məchul bilikləri müstəqil olaraq kombinə etmək bacarığında (məsələn, məlum coğrafi inteqrasiyalara əsasən hər hansı ölkələri qruplaşdıraraq, fərqli və oxşar əlamətlərin müəyyən olunması);

6) coğrafi məlumatların yeni həll üsulların qurulmasında (məsələn, şaquli qurşaqlığın tərtib edilməsi isə).

Yaradıcı fəaliyyəti anlayış və bacarıqların formalaşmasında olduğu kimi mərhələlərə ayırmaq olmaz. Yaradıcı fəaliyyətdə hərəkətlər sistemi şagirdin özü tərəfindən yaradılır. Yaradıcı fəaliyyət, hazır biliklər və kimi mənimsənilmir, onlar dəyişir, təkmilləşir, yenidən işləyir. Yaradıcı fəaliyyətin qabaqcadan həlli olmur.

Yaradıcı fəaliyyət- fənnin əsas məzmununa daxildir. Onun formalaşdırılması üçün tapşırıqlar tədris vasitələrinin izahedici qeydlərdə əks olunmuşdur. Tapşırıqlar coğrafiya proqram və dərsliklərinin müəllifləri tərəfindən bölmənin, mövzunun, ayrı- ayrı paraqraflarının əvvəlində yerləşdirilir və mövzudakı problem situasiya şəklində suallar kimi qoyulur. Dərsliklərdə yaradıcı fəaliyyətin formalaşdırılması xüsusi metodiki aparat əsasında yəni, sual və tapşırıq şəklində təqdim olunur. Sual və tapşırıqlar tədris materialında problemlərin və dərketmə məsələlərinin həllinə

uyğunlaşdırılmışdır və çox vaxt bu sual və tapşırıqlar xüsusi simvolla qeyd olunur.

Tədris prosesinin şagirdlərin yaradıcı fəaliyyətinin inkişaf etdirilməsinə yönəldilməsi üçün hansı metodiki şərtlərə riayət etmək məqsədə uyğundur? Uşaqlarda əqli fəaliyyət və məntiqi düşüncəni təkcə reproduktiv üsullarla deyil, həmçinin yaradıcı, produktiv fəaliyyətilə öyrətmək vacibdir. Bunun üçün ilk növbədə dərslikdəki mətn təhlil olunmalıdır. Şagirdlər dərsliklərdə məntiqi ardıcıllığı, əhəmiyyətli anlayışların xüsusi əlamətlərinə görə ayrılmasını müəyyən etmək, səbəb və nəticə əlaqələrini ayırmağı bacarmalıdırlar. Coğrafi vəsaitlərinin köməyi ilə məntiqi əməliyyatların analizini, sintezini, təcrid edilməsini, təsnifatını, ümumiləşdirməsini öyrənmək vacibdir. Tədris prosesində uşaqların idrakı marağını saxlamaq və davam etdirmək və yeni biliklərin və idrak fəaliyyətinin atmosferini saxlamaq və tənzimləmək lazımdır.

Şagirdlərin yaradıcı fəaliyyətinin inkişafının əsas vasitəsi- problemli təlim texnologiyalarının tətbiq edilməsi, yəni, şagirdlərin dərketmə fəaliyyətinin təşkil edilməsi üsullarıdır. Onlara müstəqil fəaliyyət göstərməyi öyrətmək lazımdır. Çünki onlar kəşf etməkdən sevinc duyduqları zaman yaradıcılığa meyl edirlər. Yaradıcılıq isə düşüncənin inkişafının - təminatçısıdır. Bu prosesə əlavə şərt kimi maddi-texniki bazanı aid etmək olar (bütün tədris vasitələri, sual və tapşırıqlardan ibarət didaktik materiallar, əlavə coğrafi məlumat mənbələri və s.).

Yaradıcı fəaliyyətin formalaşmasında müəllimin şəxsiyyəti, onun fənnə maraq yaratmaq istəyi, nitq qabiliyyəti, tədris materiallarına məntiqi yanaşması, coğrafiyadan dərsdənkənar məşğələlərin təşkili də böyük rola malikdir. Coğrafiya müəlliminin öz kolleqaları, valideynlər ilə əməkdaşlığı, şagirdlərlə sıx ünsiyyəti də əsas

tələblərdən biridir. Yaradıcı fəaliyyət təcrübəsinin inkişafı üçün kompleks iş sistemi yaradılmalıdır.

Ətraf aləmə qayğılı münasibət və yaradıcı fəaliyyət – nəhayət ki, təhsilin ən çətin məzmun komponentidir. O şagirdin tədris fəaliyyətinə, seçim münasibətini müəyyən edir, şagird fəallığını stimullaşdırır, digər tədris komponentlərin məzmununun daha da yaxşı mənimsəməsinə kömək edir. Idealda hər bir şagird öyrənilən mövzunu şəxsi maraq kimi qəbul etməli və dərk etməlidir. Bu mənada coğrafiyanın öyrənilməsi , dərk olunan, estetik və sosial xarakterlidir.

Ətraf aləmə qayğılı münasibət və yaradıcı fəaliyyətin əsasında həqiqətə meyl, biliklərin mənasını anlamaq, bacarıq və istedadlar, sosial fəallıq, doğruçuluq əxlaqi dəyərlərin qorunması, xeyirxahlıq, humanist münasibət, təbiətin qorunmasında fəallıq və onun gözəlliyini görmək, özünün və ətrafındakıların sağlamlığını qorumağa məsuliyyət, şəxsiyyətin dəyərləndirilməsi, digər millətlərə, onların mədəniyyətinə hörmət etmək kimi dəyərlərin cəmi durur . Beləliklə, ətraf aləmə qayğılı münasibət və yaradıcı fəaliyyət dünyagörüşünün bütün hissələrini - baxışlar, dəlillər, ideyalar, coğrafiyadan elmi biliklərin konkret ümumiləşməsinin əxlaqi prinsiplərini əhatə edir və onlar belə müəyyən olunur: 1) tədris materiallarının məzmununda (irqi, ekoloji, milli problemlərin və s. əxlaqi aspektləri); 2) tədris prosesindəki (qrup işinin gedişi zamanı şəxsi və kollektiv maraqlar arasında seçim məcburiyyəti, müvəffəqiyyəti aşağı olan yoldaşlarına kömək və s.). Bu komponentləri mənimsəməklə, şagirdlər məlum bilikləri məchula tətbiq etməyi, real həyatda baş verənlərin dərk edilməsi üçün müxtəlif mövqelərdən çıxış etməyi bacarırlar. Bir sözlə, dünyaya baxış ideyaları ilə şəxsiyyətin qiymətləndirilməsi arasında əlaqələr mövcuddur.

Ətraf aləmə qayğılı münasibət və yaradıcı fəaliyyət təhsilin məzmununda, münasibətlər, davranış normalarında, şagirdlərin dünyagörüşünün formalaşmasında özünü aydın göstərən vacib və kifayət qədər çətin komponentidir. Şagirdlərdə bu komponentin inkişaf etdirilməsi üçün normativ sənədlərdə müəyyən məqsədlər qoyulmuşdur. Dərsliklərdə bu məsələlər şagirdlərin şəxsiyyətinin inkişafına yönəlmiş mətndənkənar komponent əlavə və təsvir edici materialın daxil edilməsi (məsələn, orta məktəb dərsliklərində "Siz necə hesab edirsiz?", " Maraqlıdır», "Düşüncəniz üçün» və s. kimi sual və tapşırıqlar təqdim olunur. Təlim nəticələrinə olan proqram tələblərində bu komponentlər, yaradıcı fəaliyyətin, "sadə proqnozlar vermək və qiymətləndirmək bacarığı" şəklində ifadə olunur.

Orta ümumtəhsil məktəblərində müəllimlər əsas diqqəti bilik və bacarıqların formalaşmasına yönəldirlər və elə hesab edirlər ki, yaradıcı fəaliyyət və ətraf mühitə qayğılı münasibətlərin inkişafı paralel olaraq öz özünə gedir. Lakin, bu komponentlərin inkişafı üçün xüsusi metodik şərait, emosional mühit yaratmaq lazımdır. Müəllim şagirdlərə yeni mövzunu öyrədərkən, onun praktiki əhəmiyyəti və elmdəki rolunu izah etməli, öyrənilən materialın mənasını hər bir şagirdə açıqlamalıdır. Şagirdlər coğrafiya fənninə aid biliklərin özləri üçün vacib olduğunu anlamalıdır. Bu isə onların tədris fəaliyyətində daha aktiv olmasını stimullaşdırır və fənnin də yüksək qavranilmasına təkan verir.

Digər vacib şərt - müəllimin tədris materialında emosiya oyadan bu və ya digər mövzuların ayırmasıdır. Bu coğrafi kəşf və tədqiqatları tarixin, dünyada və ölkədəki siyasi hadisələrə aid məlumatlarda, iqtisadiyyatın vəziyyəti, təbii fəlakət və texnogen xarakterli qəzaların, ekoloji

problemlərin yaranması və onların həlli yollarına aid mövzularda və s. ola bilər. Coğrafiya tədrisində müxtəlif ölkələrdə yaşayan xalqların həyat tərzi haqqındakı söhbətlər, landşaftların təsviri və yaxud şifahi nəql edilməsi, musiqi əsərlərinin dinlənilməsi, ədəbi əsərlərdən parçaların oxunması və s. dərslərə emosional rəng verə bilər.

Özünə inam hissi, digərlərini dinləmək və davranış qaydaları normalarına əməl edilməsi üçün diskusiya - müzakirə dərslərində (məsələn, "Aral dənizini qurutmaq lazımdırmı?"), hər hansı mənəvi-əxlaqi problemin müzakirəsində (məsələn, " Afrika ölkələrində demoqrafik problemləri necə həll etmək olar?"), tədris layihələrinin yerinə yetirilməsində (öz rayonunun, şəhərin, kəndin inkişafına istiqamətləndirilmiş) və s. geniş imkanlar vardır. Ətraf aləmə qayğılı münasibətlərin inkişaf etdirilməsi şagirdlərin müstəqil surətdə fəaliyyətinin təşkilində, qeyri-ənənəvi dərslərin aparılmasında (səyahətlər, oyunlar, yarışlar), tədrisin təşkilat formalarının müxtəlifliyində stimulaşdırıcı rola malikdir.

Ətraf aləmə qayğılı münasibətlərin formalaşdırılmasının əhəmiyyətli şərtlərindən biri-şagirdlərdə qiymətləndirmə bacarığını öyrətməkdən ibarətdir. Psixoloqlar hesab edirlər ki, hisslərin biruzə verilməsi fəaliyyətin özünəməxsus qiymətləndirilməsidir. Buna görə də tədrisin emosional tərəfi qiymətləndirmə ilə sıx əlaqədardır. Qiymətləndirmə hər hansı hadisə və ya prosesin səviyyəsi, əhəmiyyəti haqqında fikirlərdir. Bir qayda olaraq, qiymətləndirməni müəllim öz mülahizələri əsasında irəli sürür. Lakin, əsas məsələ ondan ibarətdir ki, bu çox dəqiq və entinasız aparılmalıdır ki, şagirdlər özləri öyrəndiyi materiala obyektiv qiymət verməyi öyrənsinlər.

Qiymətləndirməyə aid fikirlər şagirdlərin etik davranış normalarının, inamlarının formalaşması üçün çox vacibdir. Qiymətləndirmə fəaliyyəti nəticəsində həm cəmiyyət üçün, həm də onun ayrı- ayrı fərdləri üçün vacib olan sərvətlərin dərk olunması baş verir. Qiymətləndirmə fəaliyyətinin ümumi mənzərəsinə aşağıdakılar daxildir: 1) məqsəd- təbiət və cəmiyyətdə baş verən müxtəlif proses və hadisələri qiymətləndirməyi öyrətmək; 2) qiymətləndirmənin əhəmiyyətini başa salmaq (qiymətləndirmək- öyrənilən hadisə və proseslərin müəyyən meyarlar və etalonlar ilə xüsusiyyətlərini təyin etmək deməkdir); 3) öyrənilən materialın nümunəsində qiymətləndirmə üsulunu öyrətmək (materikin, ölkənin və s.coğrafi mövqeyini dəyərləndirmək); 4) dərslik mətnində qiymətləndirmə ilə əlaqəli mülahizələrə aid çalışma və tapşırıqlar, dərs materialının kiçik bir hissəsinin xülasəsi (insanların həyat və təsərrüfat fəaliyyəti baxımından iqlim qurşaqlarının dəyərləndirilməsi).

Qiymətləndirmə mülahizələrinin emosionallığı onun obyektiv olmasının qarşısını ala bilməz. Bu obyektivlik elmdə qəbul edilmiş meyarların, təsnifat haqqında biliklərin istifadəsində özünü göstərir. Məsələn, O.Alxasov , U.Qəribovun "Dünyanın iqtisadi və sosial coğrafiyası" dərsliyində əhalinin adambaşına düşən gəlirlərinə görə dövlətlər qrupunun ayrılması meyarları qeyd olunmuşdur. Statistik cədvəllərə uyğun olaraq bu meyarlar şagirdlər tərəfindən təyin edilir və ölkənin iqtisadi səviyyəsi haqqında mülahizə sürülür.

Ətraf aləmə qayğılı münasibətlərin mövcudluğu şagirdlərin davranışı, onların mülahizə və qiymətləndirmələri, dünyagörünüşü, onlara verilən suallara olan cavablarının səviyyəsində əks olunur. Bu vacib komponentlərin mənimsənilməsi, yoxlanılması üçün tərib

olunan tapşırıqlar şagird şəxsiyyətinin inkişafına yönəlməlidir.

4.3. Empirik (təcrübi) biliklərin formalaşması metodikası

Empirik biliklər ümumi coğrafi biliklər sisteminin mərkəzi hesab olunmur. Lakin emprik biliklər olmadan növbəti nəzəri biliklərə yiyələnmək mümkün deyil. Empirik biliklər nəzəri biliklər sistemi üçün qurulan bünövrə rolunu oynayır. Belə biliklər tədqiqatlar və təcrübə əsasında əldə edilir.

Empirik biliklərin tərkibinə coğrafi faktlar (həmçinin rəqəm göstəriciləri, tarixi illər), coğrafi nomenklatura və təsəvvürlər daxildir.

Coğrafi faktların təhlili və nizamlanması, onların ümumiləşdirilməsi, müqayisə olunması, coğrafi biliklərin sonraki inkişafına şərait yaradır, coğrafi hadisə və proseslərin hər hansı məkanda qarşılıqlı yerləşməsi haqqında biliklərin formalaşmasına imkan verir.

Coğrafi faktların öyrənilməsi. (Fakt sözü latınca *factum-* törədilmiş, həyata keçirilmiş) empirik-təcrübi biliklərin mühüm hissəsi sayılır. Fakt- maddi və ya mənəvi dünyanın təzahürüdür ki, bizim düşüncəmizin bir hissəsi, hər hansı bir cismin , hadisənin, xüsusiyyətin və ya münasibətin təsbit edilməsidir.

Məktəb coğrafiyasının məzmununa müxtəlif faktlar daxildir: coğrafi ərazilərin (materik, ada və s.) ilk kəşf edənlərin adları, səyahət zamanı onların gəmilərinin adları və ekspedisiyalarının nəticələri, atmosfer qatları, havanın tərkibi, buludların növləri, dağ süxurlarının mənşəyi, regionların ixtisaslaşdığı sahələr və b.

Faktlar rəqəm göstəriciləri kimi (yüksəkliklər və dərinliklər, materiklərin kənar nöqtələrinin coğrafi

uzunluqları və enlikləri, yağıntıların miqdarı,havanın ayrı-ayrı ərazilərdəki temperaturu və s. haqqında məlumatlar). Yerin təbiətinin formalaşmasının, coğrafi ideya və kəşflərin, ərazilərin mənimsənilməsi və məskunlaşmasının, ərazi və regionların formalaşması və inkişafı tarixinin və s. öyrənilməsi zamanı mühüm olur. Faktlar olmadan illər boyu baş vermiş iqlim göstəricilərinin dəyişilməsi, əhalinin sayının, ölkələrin geosiyasi vəziyyətinin öyrənilməsini təsəvvür etmək mümkün deyil. Bəzən tarixlər cədvəllə ifadə olunur: geoxronoloji, ölkənin geopolitik vəziyyətinin dəyişməsi cədvəli və s.. Bəzi tarixlər o qədər vacibdir ki, onları yalnız coğrafiyaçılar deyil, hər bir savadlı adam bilməlidir.

Tədris prosesindəki yerinə görə faktlar iki qrupa ayrılır: əyani və təlimatlandırıcı.


Əksər faktik məlumatlar- əyanidirlər. Onlar ayrı-ayrı vəziyyətlərin təsdiqlənməsinə və ya konkretləşməsinə xidmət edir. Belə məlumatlar şagirdlərə ya yeni ya da əvvəlki məktəb coğrafiyası kurslarından və ya digər məktəb fənnlərindən tanış ola bilər. Lakin, ümumilikdə onlar yardımcı rolunu oynayırlar. Əyani faktlara- Kür çaynın uzunluğu, Amerikada Böyük göllərinin dərinliyi, Dünya okeanının səthindəki orta illik temperatur və s. haqqındakı məlumatlar aid oluna bilər.

Təlimatlandırıcı faktları bilmək məzunların hazırlığına olan, normativ sənədlərdə müəyyən olunmuş (standartlarla, proqramlarla) tələblərin tərkibinə daxildir və ümumi coğrafi mədəniyyətin bir hissəsini təşkil edir. Təlimatlandırıcı məna kəsb edən faktlara misal olaraq, bunları qeyd etmək olar: coğrafi nomenklatura, coğrafi kəşflərin tarixindəki faktlar, coğrafi obyekt və hadisələrə aid rəqəm göstəriciləri və s.

Coğrafi faktların digər təsnifatı da mövcuddur. Tətbiq edilmə məqsədindən asılı olaraq coğrafi faktları bir neçə hissəyə bölmək olar. (Sxem 18).

Coğrafi faktların təsnifatı

Sxem 18



Coğrafiyanın başlanğıc kursunda atmosfer təzyiqini *induktiv üsulla* aşağıdakı kimi izah etmək mümkündür.

Hündürlüklərə nisbətən atmosfer təzyiqinin dəyişməsi haqqında təsəvvürlərin formalaşması zamanı müəllim, dəniz səviyyəsindəki atmosfer təzyiqinin (760mm civə süt.), hündürlüyə doğru azalmasını bildirir və alpinistlərin yüksəkliklərdə qarşılaşdığı çətinliklər haqqında danışır. Sonra lövhədə və ya hər hansı divar şəkillərində o, əyani olaraq atmosfer təzyiqinin hündürlüklə nisbətinin fərqini göstərərək, müxtəlif mütləq hündürlüklərdə onun göstəricilərini qeyd edir. Nəticədə şagirdlər təzyiqlə

hündürlüyün nisbətinin qanunauyğunluğunu çıxarırlar: 1mm civə sütununun. düşməsi üçün 10m qalxmaq tələb olunur.

Nəzəri biliklərin deduktiv üsullarla formalaşdırılması zamanı faktlar anlayışların, səbəb və nəticə, coğrafi, qanunauyğunluqların təsdiqlənməsinə xidmət edir. Məsələn, "Azərbaycanın iqtisadi və sosial coğrafiyası" kursunu öyrənən zaman müəllim şagirdlər üçün ilk dəfə səslənən "miqrasiya" anlayışını daxil edəndə, müxtəlif miqrasiya növlərinin adını çəkir, xəritə üzrə daxili və xarici miqrasıyaların istiqamətini göstərir, şagirdlər isə müxtəlif illərdə şəhər əhalisisnin artımının miqrasiya göstəricilərini öyrənir, və s.

Faktlar həmçinin, öyrənilən *coğrafi obyekt və amillərin səciyyəvi* xüsusiyyətlərini tərtib etməyə xidmət edir. Məsələn, Azərbaycanın landşaftlarının öyrənilməsi zamanı şagirdlər xəritələrin analizi əsasında cədvəl doldururlar ki, onun daxilinə landşaftları səciyyələndirən müxtəlif faktlar daxil edilir: coğrafi mövqeyi, yanvar və iyul aylarınınn orta temperaturu, düşən yağıntıların miqdarı və rejimi, torpaq tipləri , bitki və heyvanat aləminin özünə məxsus xüsusiyyətləri və s.

Faktlar həmçinin öyrənilən coğrafi hadisə və ya anlayış haqqında tam dolğun məlumatlar əldə etmək üçün lazımdırlar. Belə ki, dünya əhalisini öyrənən zaman şagirdlər onun sayını, ən böyük dil ailələri və millətlərini, müxtəlif sıxlıqlığa malik əhali regionlarını, əhalinin sayına və orta illik əhali artımına görə olan qabaqcıl ölkələri, ən böyük şəhər aqlomerasiyalarını, meqalopolisləri, metropolisləri və s. nəzərdən keçirirlər.

Faktların mənimsənilməsinin təşkil edilməsi mürəkkəb metodika tələb etmir. Bu, əsasən tədris mateterialının yadda

saxlanılması və sonradan təkrar olunması ilə kifayətlənə bilər.

Lakin, tədris prosesində faktik materiallardan istifadənin üsulları müxtəlifdir:

1) seçim (dərsə hazırlaşan zaman müəllim dərsin elmi ideyalarını və əsas anlayışlarını müəyyən edir ki, bunlara da sonradan faktlar seçir; bu zaman tədris materialları arasında birinci və ikinci dərəcəli faktları qeyd etmək vacibdir)

2) izah edilmə -faktların dərk olunmasına- öyrənilən nəzəri materialların bazası əsasında nail olunur;

3) müqayisə olunma- şagirdlər üçün bu üsulun tətbiq edilməsi faktiki materialı daha da aydın və mənalı edir; bu zaman həm də eyni mövzuya aid faktları müqayisə etmək olar, məsələn, materikin ayrı-ayrı hissələrindəki yağıntıların miqdarını, həm də tamamilə başqa bir nümunə isə , məsələn, 12000 mm yağıntı dörd mərtəbəli evlə müqayisə edilə bilər;

4) qruplaşdırma və ümumiləşdirmə təhlil üçün əsas istiqaməti əks etdirən tək bir fakt yox, bir çox faktlar götürülür; yalnız qarşılıqlı əlaqə və bütövlüyündə faktlar nəzəri ümumiləşmənin əsası ola bilər ki, bu da əsasən cədvəllər hesabına həyata keçirilir; faktların ümumiləşdirilməsi zamanı nəticə çıxarılır, hər hansı bir fərziyə irəli sürülür;

5) əlaqələndirmə və anlayışlara əsasən qanunauyğunluqlar məsələn, havanın temperaturunun hündürlükdən asılı olaraq dəyişməsini bir çox amillərlə təsdiq etmək olar: temperatur təcrübi üsulla termometrlə ölçülür, dağlarda yuxarı qalxdıqca hündürlük qurşaqlarının dəyişməsi baş verir, dağların başında buzlaqlar ola bilər, və s.);

6) təcrübə nümayişi (empirik biliklərin ən qədim və ən əyani formalaşdırılması üsuludur; təcrübənin əsasında

sayəsində şagirdlər bildikləri qanunauyğunluqları təstiq edə bilərlər, məsələn, məktəbin, yuxarı və aşağı mərtəbələrin barometrin köməyi ilə atmosfer təzyiqini ölçməklə);

7) müstəqil iş (faktiki materialın böyük hissəsi şagirdlər tərəfindən müstəqil olaraq əldə edilə bilər; bu zaman mənimsənilmə daha yüksək olur).

Coğrafi nomenklaturanın öyrənilməsi metodikası. Coğrafi nomenklaturanın öyrənilmə səviyyəsi bir çox hallarda şagirdlərin coğrafi mədəniyyətinin səviyyəsini müəyyən edir və orta məktəb məzunlarının hazırlığına olan proqram tələblərindən biridir.

Metodik ədəbiyyatda coğrafi adla birlikdə kartoqrafik obyektin xəritədə yerləşməsinin mənimsəmə və möhkəmləndirmə üzrə işi «coğrafi nomenklaturanın öyrənilməsi (tədqiqatı)» adlandırmağı qəbul edilmişdir. O adətən ondan başlanır ki, müəllim və şagirdlər xəritədə tapırlar, uyğun olan kartoqrafik təsvirləri göstərirlər və adlandırırlar.

Coğrafi nomenklaturanın öyrənilməsi prosesində müəllimin qarşısında üç pedaqoji məsələ durur:

1) ad düzgün ifadə olunmalıdır
2) hansı obyektlərin göstərilməsi müəyyən edilməlidir
3) obyektlər xəritədə düzgün axtarılmalıdır.

İşin təşkili yaddaşın bütün növlərininn istifadəsinə əsaslanır – vizual, eşitmə, hərəkətedici və s.

Coğrafi adın mənimsəməsi üçün müəllim müxtəlif üsullardan istifadə edir – adı tələffüz edir və bəzi hallarda onu lövhədə yazır, diqqəti ona yönəldir. Aşağı siniflərdə coğrafi obyektlərin adı hecalar üzrə təkrarlanır, dəftərlərdə yazılır.

Şagirdlərin diqqəti onu başqalardan ayıran xüsusiyyətlərinə cəlb edilir, xüsusilə onun formasına, ölçüsünə, rənginə və s. məsələn, bu hallarda appliksiyalardan tez-tez istifadə olunur.

Müəllim qabaqcadan rəngli kağızdan öyrənilən (araşdırılan) obyektlərin konturunu kəsir və onları hər hansı fiqurlarla müqayisə edir: Abşeron yarmadası quşun dimdiyini, Qara dəniz ağ lobyanı, Appenin yarımadası – uzunboğaz çəkməni, Skandinaviya –uzanan şirin fiqurunu və s. xatırladır.

Adi mənimsəmək və öyrənilmiş obyektin kartoqrafik təsvirini göstərmək lazımdır ki, şagird xatırlasın və xəritədə bu obyekti tez tapa bilsin. Bunun üçün coğrafi obyekti əhatə edən təsvirlərinin qarşılıqlı münasibətini yadda saxlamaq tələb olunur. Məsələn, şagird möhkəm yadda saxlayır ki, Aralıq dənizini Avopa və Afrikanın arasında axtarmaq lazımdır. İstiqamətlərin düzgün şəklində istifadəsi bacarıqların möhkəmləndirilməsinə xidmət edir.

Eyni zamanda müəllim şagirdi danışmağa məcbur edir. Şagirdlər coğrafi mövqeyin təyin edilməsini dərk edir, kartoqrafik mətninin məntiqi oxumasının bacarıqlarını əldə edir və düşüncə inkişaf edir. Müəllimin xəritədə obyektin yadda saxlamasının sadələşdirilməsi üçün müxtəlif didaktik vasitələr mövcuddur.

Kontur xəritədə aparılan işlər möhkəmləndirməyə imkan verir. Şagirdlər kontur xəritədə lazımi obyektlərin yerində coğrafi adları qeyd edirlər və yazırlar. Həmçinin şagirdlərin biliklərinin yoxlanması üçün bu xəritələrin tətbiqi əhəmiyyət kəsb edir.

Yer kürəsində olan coğrafi obyektlərin sayı sonsuz dərəcədə çoxdur. Müasir məktəb coğrafiyasının məzmununda olan nomenklaturanın sayı normativ sənədlərə əsasən (sonuncu proqram sənədi 2002-ci ildə) təsdiqlənmişdir.

Coğrafi nomenklatura əyani və nəzəri biliklərin konkretləşməsi və bütün məktəb coğrafiya kursunun məkan ilə əlaqəsi üçün istifadə olunur. Bundan başqa, bir çox coğrafi adlar özlərində xarici görünüş, obyektlərin

əlamət və xüsusiyyətləri, kəşf olunma tarixləri, ərazilərdə məskunlaşma və təsərrüfatın mənimsənilməsi haqqında informasiyaları özündə cəmləşdirirlər.

Bu xüsusiyyətinə görə coğrafi adların mənası şəffaf, yarımşəffaf və qaranlıq olaraq qruplara bölünür.

Məsələn, Qobustan adı- «Qobular ölkəsi» mənasını daşıyır, yəni xarici görünüşündə qobu və eləcə də yarğanların olması haqqında müəyyən məlumat verir. Təcrübə göstərdiyi kimi, toponimlərlə iş şagirdlərdə böyük maraq doğurur və onların əsaslandırılması üçün yaxşı vasitədir.

Xəritələrlə, həmçinin kontur xəritələr ilə iş, şagirdlərin görmə yaddaşının aktivləşdirilməsinə əsaslanmış, coğrafi nomenklaturanın ənənəvi öyrənilmə üsuludur. Coğrafi biliklərin möhkəmləndirilməsində kontur xəritələrlə iş yüksək nəticələr verir. Bu zaman dərslər maraqlı və əyləndirici olur.

Ənənəvi tədris sistemi çərçivəsində faktlara aid biliklərin, həmçinin, coğrafi nomenklaturanın formalaşması, möhkəmləndirilməsi çox vaxt reproduktiv səviyyədə aparılır. Lakin bu prosesi xüsusi üsulların tətbiq edilməsi ilə aparmaq olar ki, bu da şagirdlərin şəxsiyyətlərinin yaradıcı və əqli xüsusiyyətlərinin, coğrafiyaya olan marağının inkişaf etdirilməsinə imkan yaradır.

Belə üsullardan – tapmaq, aşkar etmək, siyahını yaratmaq, sadalamaq və s. nümunə göstərmək olar. Bu tapşırıqlar avtomatik yaddaşa yönəldilməyib və yadda saxlanılan materialda diqqətin cəlb edilməsini tələb edir. Bundan başqa, müəllim tədris materialını elə təşkil edir ki, o şagirdlərin yaddaşında düzgün qruplaşmış formada qalsın.

Məqsədyönlü yadda saxlamanın üsullarına misal olaraq, coğrafi adların və ya faktların hər hansı əlamətlərə uyğun olaraq təsnif edilməsini göstərmək olar. Belə ki, Dünya okeanının dənizlərini öyrənən zaman, onları

aşagıdakı qruplara bölmək olar: 1) "rəngli" dəniz adları (Qırmızı, Sarı, Ağ, Qara); 2) sakinlərinin adlarına uyğun olan dənizlər (Mərcan, Sarqas); 3) coğrafi yerləşməsinə uyğun olaraq adlandırılan dənizlər (Şimal, Şərqi- Sibir, Cənubi- Çin); 4) səyyahların adına uyğun olaraq adlandırılan dənizlər (Bofort, Berinq, Baffin). 5) materiklərin- şimalında şərqində, cənubunda, qərbində) yerləşən dənizlər; 6) ayrı-ayrı okeanlara aid dənizlər; 7) sahilində yaşayan xalqların adı ilə adlandırılan dənizlər (Çukot, Yapon və s.); 8) Qış aylarında donan (donmayan) dənizlər; 9) ekvator xəttindən şimalda (cənubda) yerləşən dənizlər; 10) Şərq (qərb) yarımkürəsində yerləşən dənizlər və s.

Coğrafi nomenklatura digər üsullarla da öyrənilə bilər. Şagirdlər aşağı siniflərdən onlara tanış olan şer, yanıltmac, qafiyə üsulları ilə adların öyrəndikdə yüksək nəticə verməklə yanaşı öyrənmə prosesində «yüngüllük», xoş əhval-ruhiyyə yaradır. Məsələn:

- Kamanın nizəsi yoxdur, Araza axan oxdur (Oxçuçay)
- Gözləri görmür, axır gəlib mənbəyə çatır (Kor çay)
- Xəzər dənizinə doğru irəliləyən «valideynlərdən» biri (Ataçay)
- Suyunun sürəti ilə ən ağır metalları aparır (Dəmiraparan) və s.

Belə tapşırıqlar şagirdləri cəlb edir və onlar şer və tapmacaları düşünüb tapırlar.

Akronim üsulu- sözlərin ilk hərflərindən qısa adların tərtib edilməsi- coğrafiya sahəsində geniş yayılmışdır. Çox zaman təşkilat, ölkə, obyekt və s. adları, akronimlərdir (məsələn, BMT, NATO, KNDR və s.). Şagirdlərə yaradıcı tapşırıqlar təklif etmək olar. Müstəqil olaraq belə qısa adları fikirləşib tapmaq. Bu üsul çox vaxt yuxarı siniflərdə qısaldılmış məntiqi konspektlər və ya sxemlərinin tərtib edilməsi zamanı istifadə olunur. Məsələn, şagirdlərə AKAS,

KABAB və s. akronimlər verilir və müəyyən vaxt ərzində hərflərə uyğun çay adlarının müəyyən edilməsi tapşırılır. Akronimlərin digər növü hər hansı coğrafi adın tərkibində olan hərflərdən istifadə etməklə digər adların müəyyən edilməsidir. Məsələn şagirdlərə tapşırılır ki, Kalimantan sözündəki hərflərdən istifadə etməklə daha çox coğrafi ad çıxaran şagird qiymətləndirilir.

Onlar daha çox coğrafi ad «çıxarmağa» çalışır: Atakama, Lima, Kama, Milan, Alma-ata, Tallin, Kann, Mil, İli, Tana, Kolima,Taman və s.

İkinci mərhələdə yığılmış coğrafi adlar qruplaşdırılır: çay adları, göllər, şəhərlər və s. Üçüncü mərhələ həmin adların xəritə üzərində göstərilməsi, dördüncü mərhələ xəritə üzərində göstərilmiş adların yerləşməsinə görə qruplaşdırılması (hansı yarımkürədə, hansı materikdə və s) kimi praktik tapşırıqları silsilə kimi uzatmaq olar.

Coğrafi nomenklaturanın öyrənilməsi müxtəlif tədbirlərdə və dərs prosesində «bliç-turnir» kimi təqdim oluna bilər. Əsas şərt adın tez və düzgün tapılmasıdır.

Digər əməliyyatda coğrafi adlar verilir və şərt elan edilir.

1. «Verilmiş sözlərin birinci (ikincisi, sonuncu, üçüncü, dördüncü) hərflərindən ibarət coğrafi obyekt adı düzəldin.

Və ya

II. «Verilmiş sözlərdən birincisinin ikinci hərfi, birincisinin birinci hərfi, üçüncüsündə ikinci, dördüncüdən üçüncü, beşincidən hərfi seçərək yeni bir coğrafi obyekt adı yazın.

1. İkinci hərfləri yığın və «şəhər» yaradın

Amazon- Reyn-Axaqqar-Visla- Ekibastuz-Don (Mexiko)

II. Sonuncu hərfləri yığın çaylardan dövlət düzəldin.

İli, Amur, Anhel, Parana, Don, Hind Missipi, Dunay , Dvina (İrlandiya).

Coğrafiya tədbirlərində və məşğələlərdə digər tapşırıq növü də əyləncə ilə yanaşı bilik yaradır. Məsələn, əsas tələb kimi verilmiş sözdə hər bir hərfə aid coğrafi obyekti tapmaqdır.

A – And, Atlas, Atabaska, Alyaska
Z- Zambezi, Zimbabve, Zond, Zair
Ə- Əlcəzair, Ərəbistan, Əfqanıstan, Əndəlüs
R-Reyn, Riqa, Roman-Koş,Roreyma
B- Baykal, Bakı, Bolqarstan
A- Amerika, Amazon, Antil, Anhel
Y- Yava,Yuqoslaviya, Yəmən, York
C- Comolunqma, Cəbəltariq, Cibuti, CAR
A- Almaniya, Amur, Araz, Argentina
N-Nyufandlend, Nil, Nigeriya, Naqasaki

Bəzi hallarda adlar eyni obyekti (dağ, düzənlik, şəhər, ölkə, dəniz və s. əks etdirə bilər.Digər nümunədə tapşırıq aşağıdakı kimi verilir:

Coğrafi obyektlər Bakıdan hansı istiqamətdədir?

1.Şərqdə
II. Şimal- qərbdə
III. Qərbdə
IV. Cənub-şərqdə
V. Şimalda
VI. Cənub-qərbdə
VII.Şimal -şərqdə
VIII. Cənubda

1.Qrenlandiya 2. Yapon 3. Baykal 4.Konqo 5. Yeni Zenlandiya 6. Baltik 7. Şri-Lanka 8.Çukot 9. Florida 10. Somali, 11. Yaşıl Burun 12. Amazon 13. Madaqaskar 14. Priney 15. Karib16.İslandiya 17. Missisipi 18.And 19. Kordilyer, 20. Brazsaya,21. Volqa 22. Aral 23. Xəzər 24. Aralıq 25. Hudzon 26. Skandinaviya 27. Mesopotamiya 28. Meksika 29. Qanq 30. Tyan-şan 31. Atlas 32. Ladoqa 33.Saxara 34. Tasman 35. Lena, 36. Appenin. 37. Pamir

38. Yukatan 39. Yeni Qvineya . 40. Koreya 41. Kola. 42. Dreyk 43. Cəbəltariq 44. Himalay 45. Şimal 46. Odlu torpaq 47. Florida 48. Ural 49. Alp 50. Taymır

Verilmiş obyektləri qruplaşdırın:

1.Dəniz
II.Dağ
III. Boğaz
IV. Düzənlik
V. Ada
VI. Səhra
VII Yarımada
VIII.Körfəz

Göründüyü kimi, şagirdlər çoxlu sayda (50) coğrafi adın mahiyyətini (hansı obyekti əks etdirdiyini) və coğrafi mövqeyini müəyyən edə bilirlər.

Akroşer- hər sətrin və ya sözün ilkin hərflərinin hər hansı bir söz və ya cümlə təşkil edən şerlərdir.Akroşerin müəyyən edilməsi üsulu əvvəlkilərdən çətindir. Bunun üçün şerin birinci hərflərini yığır və hər hansı coğrafi adı üzrə çıxarır. Lakin şer parçasında hər hansı coğrafi ifadə təqdim olunmur. Şagirdlər həmən ifadəni müəyyən etməli və şer parçasında yazılmayan ifadənin başlanğıc hərfinə uyğun coğrafi adı tapırlar.

Şagirdlərin coğrafi adlar və faktlar haqqındakı biliklərini möhkəmləndirmək üçün müxtəlif tipli stolüstü oyunlardan istifadə olunur: krosvordlar, coğrafi imlalar, xəritə üzrə səyahətlər, "silueti tanı", "poçta", "düzgün seç", " coğrafi zəncir", "mətndəki səhfləri tap» və. Şagirdlər coğrafiyaya marağı, yaradıcılıq qabiliyyətini, düşüncə və təxəyyülü inkişaf etdirən oyunların tərtib olunmasında fəal iştirak edə bilərlər.

Coğrafi təsəvvürlərin formalaşdırılması Məktəb coğrafiyasının ən vacib elementlərindən biri *təsəvvürlər*-yəni müxtəlif coğrafi obyektlərin müşahidə obrazlarını

yaratmaq tələbi durur (xəyali təsfirlər). Təsəvvürlərün iştirakı olmadan *tədqiq olunan ərazilərin surətini yaratmaq* (regionların, dağın, çayın və s. ölkələrin) mümkün deyil. Təsəvvürlər nəinki müstəqil məna daşıyır, həmçinin anlayışların formalaşması üçün bünövrə təşkil edir.

Elmi biliklər sistemində təsəvvürlər empirik və nəzəri biliklər arasında sərhəd mövqedə dururlar. Bir tərəfdən, təsəvvürlər- əyani obraz olub, təcrübi mənimsənilmənin köməyi ilə formalaşır (vizual, akustik, toxunulmaqla duyulan, hesablamaqla müəyyən olunan) Digər tərəfdən, təsəvvürlər mühim və fərdi əlamətlərlə (xüsusiyyətlər, tərəflər) xarakterizə olunur, yəni, öz məzmununda səmərəli komponent var. Beləliklə, təsəvvürlərin tam şəkildə formalaşması üçün hissi və məntiqi dərk etmə yollarının uyğunlaşdırılması lazımdır.

Təsəvvürlərin yaradılması üçün istifadə olunan metodik üsullardan asılı olaraq, onları hafizəyə əsaslanan təsəvvürlərə (bilavasitə obyektlərin mənimsənilməsi nəticəsində yaranan) və təxəyyül təsəvvürlərinə (obyektin bilavasitə mənimsəməsi olmadan) ayırmaq olar, lakin bu təsəvvürlər arasında aydın sərhəd çəkmək olmaz.

Təsəvvürlərin formalaşdırılmasında hissi mənimsəmə əsas bünövrə olduğuna görə, onların yaradılması müxtəlif əyani vasitələrin köməyi ilə həyata keçirilir. Əyaniliyin əsas vasitəsi real gerçəklikdir. Buna görə də 6-cı sinifdə coğrafiyanın öyrənilməsinə şagird payız ekskursiyaları və təcrübi işlərlə başlaması məqsədəuyğundur. Belə üsul bilavasitə coğrafi obyektlərin xarici görünüşünü görməyə (çay, yarğan, təpə, süni göl və b.), xüsusiyyətlərini tədqiq etməyə (torpağın rəngi, çayda suyun axmasını), proses və hadisələri müşahidə etməyə (külək, yarpaqların rənginin dəyişməsi və s.) imkan verir. Bütün obrazlar şagirdlərin

yaddaşında gələcək anlayışların formalaşması üçün bünövrə yaradır.

Məhəldəki coğrafi ekskursiyalar zamanı məkan təsəvvürləri və obyektlərin ölçüləri haqqında təsəvvürlər (ağacların hündürlüyü haqqında, yer səthindəki məsafələr, günəşin üfüqdəki hündürlüyü) formalaşır ki, onlar da, gerçək coğrafi obyektlərə adekvat (uyğun) olan təsəvvür və anlayışların yaranması üçün vacibdir.

Coğrafiya dərslərində təsəvvürlərin yaradılması üçün müxtəlif əyani və audiovizual tədris vasitələrindən istifadə olunur: şəkillər, rəsmlər, slaydlar, videofilmlər və s. Bu zaman şagirdlərdə nəinki eşitmə və görməni, həmçinin digər hissləri də orqanlarını aktivləşdirmək lazımdır. Məsələn, dərslərdə dağ süxurları və minerallardan ibarət kolleksiyalardan, bitki herbarilərindən, həcmli modellərdən, torpaq nümunələrindən, kiçik heyvanların müqəvvalarından, canlı bitkilərdən və s. istifadə etmək, toxunma hissinin güclənməsinə kömək edir və şagirdlərin idrakı maraqlarını stimullaşdırır.

Təsəvvürlərin yaradılmasının digər mənbəyi də - coğrafi xəritələrdir. Onların köməyi ilə coğrafi obyektlərin qarşılıqlı yerləşməsi, onların cizgiləri, formaları və s. şagird təsəvvürünün formalaşmasına səbəb olur. Kartoqrafik təsəvvürlərin yaradılması üçün kontur xəritələr və sxem xəritələr ilə iş də vacibdir.

Digər proseslərin formalaşmasında olduğu kimi coğrafi təsəvvürlərin formalaşmasının da əsas mənbə müəllimin canlı sözüdür. Bu üsul müəllimdən jest göstərmək, canlı çıxış, intonasiya tələb edir, bunun üçün müəllim "sözlərlə təsvir etmək" qabiliyyətinə malik olmalıdır. Müəllim hər hansı coğrafi hadisə və prosesi təsvir edərkən şəxsi təəssüratlarından, məşhur coğrafi alimlərin və səyahətçilərin gündəliklərindən, jurnalistlərin

reportajlarından, poetik əsərlərdən parçalardan və s. istifadə edə bilər.

Psixoloji- pedaqoji araşdırmalar göstərir ki, ən dolğun və möhkəm təsəvvürlər tədrisin müxtəlif üsullar və əyani vasitələrinin uyğunlaşdırılması zamanı formalaşır. Məsələn, səhra təbii zonası haqqındakı təsəvvürlərin formalaşması zamanı müxtəlif xəritələrdən, ilin müxtəlif fəsillərində landşaft görüntülərinin şəkillərindən, bu təbii zonanın fotoşəkilləri və slaydlardan, herbari və heyvanların təsvirlərindən, səhranın haqqında videofilmlərdən, müəllimin yerli əhalinin bu ağır təbii şəraitə uyğunlaşması haqqında söhbətlərindən istifadə etmək vacibdir.

Şagirdlərdə lazımi təsəvvürlər öz- özünə yaranmır. Onlar müəllimin məqsədyönlü iş fəaliyyəti nəticəsində formalaşır, və bu özündə bir neçə mərhələləri cəmləşdirir: 1) tədris tapşırıqlarının müəyyən edilməsi (ekskursiya zamanı nəyə fikir vermək lazımdır, tədris üçün təqdim olunan təsvirdə nəyi "görmək" lazımdır və b.); 2) şagirdlər tərəfindən obyektin hissi qavranması və ardınca onun ayrı-ayrı əlamət və xüsusiyyətlərinin təhlili (bu mərhələdə şagirdlər nə gördükləri haqqında danışmalıdırlar; bu obraz və sözlər arasında əlaqələrin yaradılması üçün vacibdir və həmçinin nitqi inkişaf etdirir); 3) obyektlər haqqında təsəvvürlərin qavranılması (bu mərhələdə müəllim şagirdlərə onların analiz- sintez fəaliyyəti kömək edir, yəni, başa salan zaman və ya ünsiyyət zamanı yaradılan təsəvvürlərin əlamətlərini ayırır); 4) təsəvvürlərin möhkəmləndirilməsi (tədris tapşırıqlarının həlli üçün biliklərin tətbiq edilməsi, məsələn, kontur xəritəsinin üzərində çalışma həll edərkən, sxemlərin çəkilməsi prosesində, qısa təsvirlərin tərtib edilməsi və s.).

Öyrənilən ərazi haqqında təsəvvürlərin (təbii zona, region, rayon) möhkəmləndirilməsi üçün şagirdlərdə maraq

yarada biləcək tapşırıq verilə bilər, bu əraziyə xəyali səyahəti təsvir edən dosta məktub, ya da hər hansı bir qəzetə ünvanlanmış məqalələri misal göstərmək olar. Belə halda tarix və gün göstərilir, yəni, ilin fəsli və onunla bağlı havanın xüsusiyyətləri, təbiətin təsviri verilir, tarixi- mədəni, kənd təsərrüfatı, sənaye obyektlərinin, yerli əhalinin xüsusiyyətləri və s., və əlavə olaraq digər fənlərdən biliklərin istifadə olunması daha yüksək səmərə verir.

İllər keçdikcə şagirdlərin topladığı coğrafi biliklərin ehtiyatı da artır. Təsəvvürlərin kiçik bir hissəsi dəyişilməz vəziyyətdə qalır (məsələn, şagirdlərin ekskursiyaları zamanı gördükləri mədəni- tarixi abidələr). Digər təsəvvürlər onlarla tədris prosesi zamanı ümumiləşdirilir və sxemləşdirilir. Adətən yaddaşda obyektin əhəmiyyətli xüsusiyyətləri (məsələn, şəlalə- yuxarıdan tökulən su axını, səhra-bitki örtüyünün kasıb olduğu landşaft və s.) qalır. Tədris prosesində tez-tez təkrarlanan təsəvvürlər vaxt getdikcə zənginləşir, genişlənir və konkretləşir, möhkəmlənir. Belə ki, məsələn, 10-cu sinif şagirdlərinin Şimali Afrika haqqındakı təsəvvürləri 6-cı sinifdən fərqli olaraq daha da dərin və zəngindir.

Təsəvvürlərin formalaşması prosesi zamanı coğrafi obyektlərin və onların xəritədəki işarələrin şərti təsvir üsulları, məntiq sxemləri və s. haqqında biliklər toplanılır. Bununla əlaqədar olaraq belə təsvirlərdən (sxemlər, diaqramlar, hidroqraflar və s.) istifadə etmək vacibdir. Lakin, şərti əyanilikdən yalnız şagirdlərdə öyrənilən obrazlara aid lazımi təsəvvürləri formalaşan zaman tətbiq etmək olar.

Təsəvvürlərin yaradılması prosesləri coğrafi nomenklatura və faktlar haqqında biliklərin formalaşması ilə sıx əlaqədədir. Belə ki, məsələn, Qafqazı öyrənən zaman şagirdlər bu dağ sisteminin xarici görünüşü, orta və

maksimal hündürlükləri, Qafqazın ayrı ayrı hissələrinin qarşılıqlı yerləşməsi, Qafqaz dağlarının digər coğrafi obyektlərlə nisbətən yerləşməsini, mineral sərvətləri, toponimikası və b. haqqında təsəvvürlər əldə edirlər. Digər tərəfdən, təsəvvürlərin formalaşması anlayışların formalaşması ilə sıx əlaqədardır. Təsəvvürlər və anlayışlar bir- biri ilə qarşılıqlı təsirdə olaraq demək olar ki, eyni zamanda formalaşırlar, belə ki, obyektin obraz və əlamətləri- obyekt haqqında anlayışlarının formalaşmasının əsasıdır.

Beləliklə, empirik biliklərin formalaşması şagirdlərin ətraf aləmi dərk etməsinin ən mühüm tərəflərindən biridir. Məktəb coğrafiyasında empirik biliklər vacib yer tutur: bir tərəfdən, onlar fənnin məzmununun müstəqil tərkib hissəsidir, digər tərəfdən- empirik biliklər olmadan nəzəri biliklərin formalaşması mümkün deyil.

MÖVZU V.
COĞRAFİYA TƏLİMİNİN METODLARI

5.1. Təlim metodları anlayışı

Məktəb təcrübəsində "metodik üsul" termini istifadə olunur və bu da metodun tərkib hissəsi kimi şərh edilir. Pedaqoq və metodistlər metod və üsulu aşağıdakı kimi ayırmağa cəhd edirlər: idrak fəaliyyətinin xarakterinə görə aparılan işlər - metod, xəritə və digər kartoqrafik təsvirlər, o cümlədən , dərsliyin mətni üzərindəki aparılan işlər isə üsul hesab edilə bilər.


Bütün metodlar üsullardan ibarətdir. Əgər metodlar idrak fəaliyyətinin xarakterini göstərirsə, metodlar isə müxtəlif bilik mənbələri üzərindəki fəaliyyəti əks etdirir. Məsələn, izahedici- əyani metodun tərkibinə aid olan

müşahidə üsulu - sualların qoyulmasından, şagirdlərin cavablarının təhlilindən nəticələrin çıxarılmasından ibarətdir. Bilik mənbələrinə görə fərqlənən metodlar şagirdlərin müstəqillik səviyyələrinin müxtəlifliyini qeyd edirlər. Bəzi müəllimlər şagirdlərin fəaliyyətinə tamamilə rəhbərlik edir: tapşırıq verir, onları necə yerinə yetirməyi izah edir, nümunə göstərir, düzəlişlər edərək işin gedişini müşahidə edir. Digər hallarda müəllim tapşırıq verir və onun yerinə yetirilmə üsullarını yada salır. Üçüncü halda isə müəllim məsələnin qoyuluşu ilə kifayətlənə bilər.


Şagirdlərin yaradıcı fəaliyyətinin müəllim tərəfindən idarə edilməsi müxtəlif metodları vasitəsi ilə həyata keçirilə bilər (Sxem 19).

Təlim metodlarında müəllim-şagird fəaliyyəti

Sxem 19



İnteraktiv metod



Sxemdən göründüyü kimi, aktiv və interaktiv metodlar bir-birindən müəyyən mənada fərqlənirlər. Bəzi pedaqoji ədəbiyyatlarda onların sinonim kimi istifadəsi düzgün deyil. Lakin, aktiv və interaktiv tədris metodları dərketmə fəaliyyətinin təşkili və idarəetmənin xüsusiyyətinə görə oxşar olub, aşağıdakıları əhatə edir:

- müəllimin dərketmə üçün problemli vəziyyət yaratması;
- problemli vəziyyətin həll edilməsində şagirdlərin aktivliyinin yaradılması və saxlanılması;
- yeni biliklərin şagirdlər tərəfindən sərbəst şəkildə əldə edilməsi və mənimsənilməsi üçün şəraitin yaradılması.

Belə yanaşma, şagirdlərin yaddaşının deyil, düşünmə qabiliyyətinin və müstəqil olaraq bilik əldə etmək və onu tətbiq etmək bacarığını yarada bilir.

Aktiv və interaktiv metodlarının həyata keçirilməsi-tələb olunan məqsədə çatmaq üçün, şagirdləri qərar verməyə təhrik edən, zehni gərginlik şəraitinin müəllim tərəfindən şüurlu surətdə yaradılmasına əsaslanır.

Bu prosesdə, **şagirdin mövqeyi**– «kəşf edən – tədqiqatçının» mövqeyidir. Təlimin məqsədini şagird aydın surətdə seçə bilmir, lakin hansı vasitələrlə öyrənməli, necə

öyrənməli və niyə öyrənməli prinsipi ilə axtarış edir, suallara cavab verir.

Müəllimin mövqeyi - «aparıcı istiqamətləndirici»-dir, o, problemli vəziyyəti planlı surətdə təşkil edir, şagirdlərin qarşısına tədqiqat məsələlərin çıxmasına şərait yaradır.

Tədrisin vəzifəsi – tədris prosesinin əsas komponentlərinin mənimsəməyi - öyrətmək dərsin mövzusunun tədqiq edilməsi üçün düşünmə üsullarına yiyələnməyə kömək etməkdir.

Beləliklə, tədris metodları - mürəkkəb didaktik kateqoriyadır. Onlar məktəb coğrafiyasının məqsəd və məzmunu ilə sıx əlaqədardır və məzmun və məqsədlərin dəyişməsi onların da dəyişməsinə səbəb olur.

Coğrafiya fənninin tədrisində tətbiq olunan hər hansı metod şagirdlərlə idrakı fəaliyyətin müxtəlif növlərini aktivləşdirir, buna görə də onlardan heç biri tədris- tərbiyə prosesindən onun məqsəd və məsələlərinə zərər vermədən çıxarıla bilməz. Bütün metodlar effektiv olaraq bir-biri ilə qarşılıqlı təsirdə və bir-birinə dayaq olaraq istifadə oluna bilərlər. Tədris metodlarının gələcəkdə təkmilləşdirilməsi geniş yayılmış qismən- axtarış və tədqiqat üsulların təcrübi, əyani və şifahi üsulları ilə uyğunlaşdırılmasıyla həyata keçirilməlidir, bu zaman yaddan çıxartmaq olmaz ki, şagirdlər məlumatın çoxunu informasiya mənbələrindən (televizor, kompyuter və s.) əldə edirlər.

Son olaraq qeyd etmək lazımdır ki, məktəb coğrafiyasının tədris və tərbiyə potensialı, metodların köməyi ilə şagirdlərdə idrakı fəallığın artırılması üçün coğrafi mənbələr, dərslik, xəritə və s. vəsaitlərin olması əsas şərtlərdən biridir.

Metod – qarşıya qoyulan məqsədə çatmaq üçün istifadə olunan fənn və üsullarların məcmusudur. Son vaxtlar təlim metodları təlim texnologiyaları termini ilə əvəz olunmuşdur.

Texnologiya təlim-tərbiyə prosesinin lahiləşdirilməsinin sistemli metodudur. Metodların məqsədi müasir dövrdə dəyişmiş və öyrənməyi öyrətmək prinsipinə istiqamətlənmişdir. Coğrafiya tədrisinin metodları əsas fəaliyyət yollarına görə iki qrupa ayrılır:

-Bilik mənbələrinə görə;

-Şagirdlərin dərketmə fəaliyyətinə görə

5.2. Bilik mənbələrinə görə təlim metodları

Bilik mənbələrinə görə olan metodlar 3 qrupa bölünür:

Şifahi şərh metodları dedikdə dərsdə müəllimin materialı nəql etməsi; izahi və mühazirəsi, habelə müsahibə və s. ucadan oxu nəzərdə tutulur. Təlim prosesində əyani və praktik metodlardan istifadə etdikdə belə, müəllim istər-istəməz canlı nitqə əl atmalı olur. Şifahi şərh metodlarının əsasını canlı nitq təşkil edir. Bu metodların təlim-tərbiyə əhəmiyyəti böyükdür. Müəllim bu metodlardan istifadə edərək nisbətən qısa vaxt ərzində (15-20 dəqiqə), öyrədilən mövzunu ətraflı aydınlaşdırır, diyarşünaslıq materialları və müasir həyatdan götürülmüş inandırıcı faktlar əsasında şagirdlərdə dünyagörüş formalaşdırır.

Şifahi şərh metodlarının düzgün tətbiq edilməsi sayəsində şagirdlərdə şifahi nitqdən bilik əldə etmək və başqasının danışığını dinləmək qabiliyyəti inkişaf edir. Müəllimin şifahi nitqi şagirdlər üçün coğrafi materialın ardıcıl və məntiqi izahı nümunəsi rolunu oynayır. Canlı nitq dərsdə yüksək emosional əhval-ruhiyyə yaradır.

Şifahi şərh metodları orta məktəbdə tədrisin vəzifələrinə uyğun olan məqsədləri həyata keçirir. Belə ki, şifahi şərh şagirdlərdə

- başqasının fikrini diqqətlə izləmək qabiliyyətini
- şifahi nitq vasitəsi ilə yeni bilik əldə etmək bacarığını

-materialı müəyyən ardıcıllıqla sistemləşdirmək qabiliyyətini yaradır.

Şifahi şərh metodları o zaman müvəffəqiyyət qazanır ki, müəllim onu dinləyən şagirdlərin dərketmə fəaliyyətinə bacarıqla rəhbərlik edə bilsin. Şagirdlərin maraqlı dərketmə fəaliyyətinə rəhbərlik etmək üçün xeyli müddətdir şərhin forması və məzmunu və ya ona rəhbərlik etməyi üsulları tədqiq olunur.

Şərhin forması ilə əlaqədar olaraq şagirdlərin dərketmə fəaliyyətinə rəhbərlik üçün aşağıdakı üsullar tətbiq edilir. Şagirdlərə dərsin mövzusu elan edilir, coğrafi xarakteristikaların (məs: çayın, dağın, dənizin, coğrafi mövqeyin, ölkənin, şəhərin rayonun və s.) tipik planları verilir, dərindən və möhkəm mənimsənilməsi tələb olunan əsas fakt və anlayışlar dəqiq surətdə müəyyən edilir, izah onunan material məntiqi hisslərə bölünür, problem situasiya yaradılır, yəni müvafiq olaraq problemli suallar qoyulur, müqayisədən istifadə edilir.

Tədris materiallarının məzmunu ilə əlaqədar olaraq şagirdlərin dərketmə fəaliyyətinə rəhbərlik etmək üçün aşağıdakı priyomlar tətbiq olunur: öyrənilən biliklərin praktik əhəmiyyəti qabarıq surətdə qeyd edilir, diyarşünaslıq prinsipi həyâta keçirilir, ölkənin həyatında və beynəlxalq aləmdə baş verən ən mühüm hadisələr haqqında yeni materiallardan istifadə edilir, şagirdlərin əvvəlki biliklərinə istinad,əyləncəli və emosiyalara təsir edən faktlardan istifadə olunur.

Şifahi şərhi dinləmə vərdişi şagirdlərdə tədricən yaranır. Buna görə də müəllimin şərhinin müddəti siniflərdən asılıdır. Şagirdlərin diqqəti mütəhərrik olan 5-6-cı siniflərdə şərhin müddəti təqribən 5-10 dəqiqə olduğu halda, yuxarı siniflərdə bu dərsin yarısından çox çəkir. Şifahi şərhin qavıranılmasını asanlaşdırmaq üçün müəllimin canlı mitqin şagirdlərin psixoloji fəaliyyət dairəsini

genişləndirən digər metodlarla uyğunlaşdırılması olduqca məqsədə uyğundur.

Uyğunlaşdırmanın xarakteri tədris materialının məzmunundan asılıdır. Təcrübədə aşağıdakı uyğunlaşdırmadan daha çox istifadə edilir, şifahi şərh və xəritə üzərində iş; şifahi şərh və əyani vasitələrlə iş; şifahi şərh və statistik materiallarla, qrafik və diaqramlarla iş; şifahi şərh və dərslik üzərində iş; şifahi şərh və müxtəlif coğrafi bilik mənbələri üzərində şagirdlərin müstəqil işi və s. Coğrafiyanın tədrisində şifahi şərhin xəritə və ya hər hansı digər bilik mənbəyi üzərində müstəqil iş metodu ilə uyğunlaşdırması daha tipikdir. Şifahi şərhin göstərilən metodlarla uyğunlaşdırılması şagirdlərin yaradıcı fəallığı üçün şərait yaradıldığı hallarda daha yaxşı nəticə verir.

«Dağın yamacı nə qədər dik olarsa səth sularının surəti artar» səbəb-nəticə əlaqələrinin nümunəsində təhlil üsulunu müqayisə etmək maraqlıdır.

Birinci halda müəllim hadisələri nağıl edir, nəticələri çıxarır və bu nəticələri şagirdlər dəftərə yazır. Şagirdlər müəllimin dediklərini başa düşməli və yadda saxlamalıdırlar. Burada bilik nəql etmək vasitəsilə şifahi üsulla öyrədilir.

Bu üsulun müsbət cəhəti orasındadır ki, müəllim qısa bir vaxt ərzində bir çox fakt haqqında danışdı və bunu eyni zamanda 40-45 şagird dinlədi.

Lakin, müəllimin dediklərini ancaq yağış sellərini və bu sellərin müxtəlif yamacları yuduğunu bundan əvvəl görmüş olanlar başa düşə bilərlər. Qalan şagirdlər isə qeyd edilmiş faktları və çıxarılmış nəticələri başa düşməyə də bilərlər. Bütün şagirdlər bu faktları heç bir tənqid etmədən qəbul edirdilər. Müəllimin dediklərini şagirdlər necə deyərlər passiv dərk edirdilər. Onlarda idrak fəaliyyəti yalnız hadisə əsasında aktivləşir. Lakin yeni pedaqoji texnologiyaları prinsiplərinə görə müəllim sinifdə az danışmalıdır ki, şagirdlər çox öyrənə bilsinlər.

Şifahi şərtin tərkibinə aşağıdakı üsullar daxildir:

Verbal (söz) – izahat xarakterlidir. İnsanlar arasında (müəllim-müəllim, şagird-şagird, müəllim-şagird) ən vacib ünsiyyət vasitəsidir. Yeni biliklərin ötürülməsində, nəticənin üzə çıxarılmasında, tədris materialının ümumiləşdirilməsində və sistemləşdirilməsində əvəz edilməz rola malikdir. Ən qədim zamanlardan istifadə edilən bu metod bu gün də öz əhəmiyyətini itirməmişdir. Söz metodu şəxsiyyətin formalaşdırılmasında, şagirdlərin təfəkküründün inkişafında əhəmiyyətli yer tutur. Müəllimin monoloji nitqindən ibarət (hekayə, söhbət, məktəb mühazirəsi və s.) olan bu metodun tətbiq olunmasında dərslik və dərs vəsaitlərindən istifadə olunur. Söz metodunun əsasında:

- yeni bilikləri şagirdlərə hazır şəkildə vermək:
- dərsin məqsədini formalaşdırmaq;
- dayaq bilikləri aktuallaşdırmaq;
- tədris materiallarını sistemləşdirmək;
- təqdim olunan mövzunu ümumiləşdirməkdən ibarətdir.

Emosiya vasitəsi ilə hər hansı məlumatın çatdırılması,əslində şaigrdlər üçün çox qiymətlidir. İlk baxışda görünür ki, şagirdlər heç bir zəhmət çəkmədən hazır bilikləri, sistemli şəkildə qəbul edir. Lakin, şagirdin aktivliyinin aşağı göstəricisi, mənimsəmənin az olmasına səbəb olur. Çünki, pedaqoji ədəbiyyatda tədris prosesində mənimsəmə iki tərəfli fəaliyyətin (müəllim = şagird) olması ilə ölçülür.

Nəqletmə (bəzi ədəbiyyatlarda nağıl etmə) hər hansı bir fənn üzrə biliklərin öyrənilməsinin ən başlıca üsullarından biri olub, canlı (yəni səslənən) insan nitqindən ibarətdir. Biliklərin canlı insan nitqi vasitsilə öyrədilməsi şifahi öyrədilməsi adlanır. Orta ümumtəhsil məktəblərində bütün fənlərin tədrisində bu üsul geniş tətbiq edilir. Biliklərin şifahi öyrədilməsinin ən sadə forması mövzu haqqında adi nağıletmədir. İbtidai məktəbdə bu çox vaxt aydın və sadəcə

ifadə edilən qısaca nağıl təşkil edir. Orta məktəbdə bu yuxarı siniflərdə bəzən mühazirə xarakterli daha uzun bir hekayəyə bənzəyir. (Bu mühazirə adətən 15-20 dəqiqədən çox çəkmir). Burada da ifadə səlis və dinləyicilər tərəfindən maraqla dərk edilən bir şəkil alaraq aydın və anlaşılan olmalıdır. «Maraqla» sözündə xüsusilə qeyd olunmalıdır, çünki darıxdırıcı, maraqsız uzun-uzadı nağıletmə,yaxşı halda, dinləyicinin diqqətini korlayır və bəzən nizam-intizamın pozulmasına səbəb olur.

Bir çox hallarda müəllim materialı nəql etdiyi zaman müxtəlif mənbələrdən, qəzet və jurnal məqalələrindən uşaqlara parçalar oxumalı olur.

Biliklərin şifahi öyrədilməsinin bu iki ən tipik forması arasında bir sıra keçid mərhələləri vardır. Bəzi hallarda müəllim əvvəlcə nəql edib sonra şagirdlərə sual verir və lazımi cavablar aldıqdan sonra yenidən nəqlə keçir. Başqa hallarda müəllimin söhbətdən başlayıb sonra naqletməyə keçə bilər. Hazırda çox vaxt məhz bu qarışıq üsul tətbiq edilir. Biliklərin şifahi öyrədilməsində nəzərə alınması vacib olan iki şərt mövcuddur.

Birinci şərt müəllimin nitqinin xasiyyətinə verilən tələbərdir. Bu tələbləri qısa şəkildə belə ifadə etmək olar: müəlllimin nitqi sadə və aydın, dürust və ədəbi dildə, hər bir dialekt və fraza, yerli şivələrdən azad olmalıdır. Bu tələblərin mənası tamamilə aydındır: şagirdlər müəllimin nitqini heç bir çətinlik çəkmədən başa düşməlidirlər. Bundan əlavə, şagirdlər müəllimdən düzgün danışıq dili öyrənirlər ki, bu da müəllimi öz nitqinin ədəbi düzgünlüyünə fikir verməyə məcbur edir.

Çox mühüm olan ikinci şərt –müəllimin öz nitq orqanlarından düzgün istiifadə etməsidir. Adətən, cavan müəllimlər fəaliyyətinin ilk illərində səsini «pozur». Öz nitq orqanlarından düzgün istifadə etməməsi nəticəsində onlar, boğaz və ya qırtlaq xəstəliyinə tutulur. Bu arzu olunmaz haldan gözləmək üçün səsin düzgun «qoyuluşuna» hələ

müəllimlik fəaliyyətinin ilk illərindən ciddi surətdə fikir verilməlidir.

Coğrafiya müəllimi adətən təbiət hadisələrini, təbiətin mənzərələrini və müxtəlif ölkələrin həyat mənzərələrini çox tez-tez təsvir etməli olur. Bunların hamısı coğrafiya müəllimindən yalnız sadə, aydın, dürüst və ədəbi nitq deyil, habelə bədii və maraqlı şəkildə danışmağı da tələb edir. Materialı bilmək hələ yaxşı nəql etməyi təmin etmir. Materialı bilmək ancaq birinci və ən zəruri şərtdir. Bilməkdən başqa nəql etməyi də bacarmaq lazımdır.

Müəllim haqqında danışdığı hadisə və ya prosesə dair dərs kitabından başqa heç bir şey oxumuş olmasa onun danışığı sönük və az maraqlı olar. Müəllim bir az bundan əvvəl həmin şey haqqında bir məqalə yaxud kitab oxumuşsa, onun bu barədə nəql etməsi xeyli mükəmməl, parlaq və ruh yüksəkliyi ilə nəql edə bilər ki, bütün şagirdlərin diqqətini dərindən cəlb edər. Müəllim bir şey haqqında nə qədər çox bilərsə bu barədə bir o qədər də maraqlı nağıl edə bilər. Başqa sözlə maraqlı nəql etmədən ötrü birinci və ən zəruri şərt- müəllimin nəql etmək istədiyini yaxşı bilməsidir. Şagirdlərinin xatırladığına görə, bir dəfə 39 saylı məktəbin qabaqcıl coğrafiya müəllimi Məmmədəli müəllim dərs prosesində, rütubətli ekvatorial meşə və kolluqlar barəsində o qəqər canlı danışmışdı ki, uşaqlar heyrətlə «müəllim bəs siz oradan necə xilas ola bildiniz?» deyə sual vermişdilər.

Yaxşı nəqledici hətta az maraqlı olan materialı da elə nəql edə bilər ki, hamı maraqlı qulaq asar. Pis nəqledici isə yaxşı materialı darıxdırıcı və maraqsız bir tərzdə nəql edər. Müəllim bu vəziyyəti də nəzərə almalıdır ki, bəzi adamlar təbiətən yaxşı nəqledici olurlar. Yeknəsək, anlaşılmaz danışan, cümlənin sonunu deməyən və ya bir sözü «çeynəyən» adam öz nitqindəki bu nöqsanları dərhal aradan qaldırmağa başlamalıdır.

Maraqlı nəqletmədən ötrü hər hansı şəxsdən aşağıdakılar tələb olunur:

1.Tələffüzün açıq və aydın olması;

2.Lazım olan yerlərə dinləyicinin diqqətinin səs tonu ilə cəlb edilməsi;

3. Nəqletmənin digər başqa üsullarla növbələşməsi. Belə olmasa, ən yaxşı nağıletmə insanı usandıra bilər. Coğrafiyada bu işi sinif lövhəsinə, müxtəlif xəritələrə, markerlə yazı və ya təsvirə və s. əl ataraq etmək daha əlverişlidir. Bunların hamısı təəssüratı bir qədər də dəyişir və sonra hekayənin davamına daha artıq diqqətlə qulaq asmağa vadar edir.

4.Şagirdlərin artmaqda olan diqqətindən vaxtında istifadə etmək yaxud, əksinə, yorğunluq və darıxmalarının qarşısını almaq məqsədilə onlara diqqətlə göz yetirilməsi. Qeyd etmək lazımdır ki, nəqletməni uşaqlar üçün kitablardan yaxşı parçaları oxumaqla əlaqələndirmək coğrafiyada xüsusilə yüksək nəticə verir.

Lakin, hansı halda olursa olsun uzun-uzadı nəqletmə zərərdir. Nəqletmə uzun müddətli olduqda dinləyicinin passivliyini artırır. Buna görə də faktı təcrübədə və ya şəkildə göstərmək üçün imkan olmadığı hallarda müfəssəl nəql etmək lazımdır. Lakin nəqletmədən ancaq əldə daha mükəmməl və daha əlverişli üsul olmadığı hallarda istifadə etmək məqsədəuyğundur.

Nəqletmə çox mühüm bir işdir. Rəsmə, şəkil çəkməyə, mahnı oxumağa və s. təkcə mühazirələr vasitəsilə öyrətmək mümkün ola bilmədiyi kimi, bu işi təkcə mühazirə yolu ilə də etmək olmaz. Ən optimal yollardan biri çalışmaların verilməsidir. Məsələn: müəllim coğrafiya üzrə bir sıra kiçik mövzu seçir və hər bir şagirdə bir mövzu verir. Bu mövzular çətinlik etibarilə müxtəlif səviyyədə olmalıdır. Ən sadə mövzular hər hansı bir hadisənin (vulkanların püskurməsi, dağların uçması, su daşqını) təsviridir. Obyektlərin (dağların, düzənliklərin, meşələrin, vadilərin, çayların və s.)

təsvirini vermək çətindir. Hər hansı bir hadisənin səbəblərini izah etmək daha çətindir.

Çalışmalar şagirdlərin fərdi xüsusiyyətləri nəzərə almaqla verilməlidir. Məsələn, ifadəsi və ya intonasiyası pis olana çətin mövzu vermək düzgün deyil.

Şagirdlər mövzuları dərs kitabları və başqa vəsait üzrə təhlil edir, ətraflı düşünür və nəhayət bir ifadə şəklində yazırlar. Bu halda bu işləri əvvəlcə gözdən keçirib müvəffəqiyyət və səhvlər etibarilə ən diqqətəlayiq olanlardan 3-4-nü seçməli və bunların müəlliflərindən bu yazıları şifahi surətdə ifadə etməyi xahiş etməlidir. Bu halda, bəllidir ki, müəlliflər öz yazdıqlarını yaxşı bilməli və dəftərdən oxumamalıdırlar. Bu kimi şifahi ifadələr əməli məşğələ saatlarında keçirilir. İfadə (3-5 dəqiqə) qurtardıqdan sonra şagirdlər onu müzakirə edir və dərs konfrans xarakterini alır (hətta protokol da yazılır).

«Konfransın» əvvəlində oxunan müzakirələr daha maraqlı xarakter daşıyır. Xeyli səhvlər tapılır. Buna görə də birinci məruzəçi hamıdan çox tənqid edilir. Ekspert fikri lüzumsuz yerə deyilən səhvləri rədd edərək əvvəlcə səhvləri (faktların düzgün işıqlandırılması), sonra metodiki səhvləri (ifadənin dolğunluğu, aydınlığı, bədiiliyi və s.) nəzərə alaraq qiymət verir.

Nəqletməyə çox yaxın olan cəhət müəllimin müxtəlif vəsaitlərdən, səyahətnamələrdən, gündəliklərdən və bədii ədəbi əsərlərdən müxtəlif parçaları ucadan oxunasıdır. Bu parçalar başlıca olaraq müəllimin nəqlnini təsirini daha da qüvvətləndirmək və daxili həyəcanın artırılması (yəni dinləyicilərin hissiyatına daha qüvvəli təsir etməsi) üçün oxunur. Nümunə olaraq, məsələn tutaq ki, müəllim Antarktidanın iqlimindən söhbət açarkən, orada havadakı 70-80°C şaxtadan danışır. Lakin, Rual Amidsenin gündəliyindən aşağıdakı parçanı oxumaqda şagirdlərin mövzuya marağının artırmağa müvəffəq olmaq mümkündür: «*Dəmir kövrəkləşir, vuranda şüşə kimi*

parçalanıb dağılır, rütubətin çox və ya azlığından asılı olaraq ağac dəmirdən bərk olur və vurduqda balta geriyə qayıdır. Xırıldayan qarda atılan addımların səsi uzaqdan eşidilir. Burada xüsusi isindirici cihazların olmadığı geyimdə yarım saat qalmaq kifayətdir ki, insanın ağ ciyərləri buz bağlasın, göz bəbəyi partlasın, bədəninin müxtəlif hissələri (burun, qulaq, barmaq və s.) qopsun....».

Bu göstərilən parça oxunduqdan sonra şagirdlərdə cənub materikinin şaxtaları haqqında şübhəsiz aydın təsəvvür əmələ gələr.

İzahlı oxu zamanı bü kimi parçaların oxunması prosesində şagirdlər sanki müəllimə deyil, səyahətçinin özünə qulaq asırlar. Ustalıqla seçilib bacarıqla oxunan mətn parçası, yuxarıda deyildiyi kimi, lazımi bilik verməklə bərabər daxili həyəcan oyadır, şagirdlərin fənnə olan marağını artırır və onlar özlərini müəyyən qədər istirahət etmiş kimi hiss edirlər. Bundan əlavə, uşaqlar və yeniyetmələr ucadan oxunmanı çox xoşlayırlar. Coğrafiya fənnin tədrisində təbiət təsirlərinə böyük yer verilir. Çox parlaq təsvirlər, bəzən uzun zaman unudulmayan bir təsəvvür əmələ gətirir. Misal üçün, Orta Asiyada yayın istisinin hiss edildiyini göstərən 3-4 sətir: «*Dəhşətli yol və avqust ayında günəşin qabağında termometrlər parlayır. Hətta kobud çəkmə geymiş insanın ayağı qumların amansız qızmasına dözə bilmir*».

Və ya dağlarda yağan gur yağışlar haqqında da bir neçə sətri obrazlı şəkildə göstərək: «*..İsti birdən-birə sındı, hər tərəf bozardı. Ara vermədən ətrafı qaranlıq basdı. Qaralmış göydən sellər töküldü. Bu, yağış deyildi, guruldayan, insanı yıxan, fırlanan qaranlığı dəhşətli su qasırğası ilə dolduran su idi. Su hər tərəfdən: yuxarıdan, aşağıdan, yanlardan gəlirdi*».

Digər, təbii mühit olan bataqlıq haqqında qısaca bir parçanı aşağıdakı kimi təsvir etmək mümkündür: «*Kəsəklər ayaq altında həmən an «əriyir»və batır yumşalmayıb*

yarımsıyıq olurdu. Ayağını, guya, bir bərk şeyin üstünə qoyursan, ayaq isə batır və adamın ürəyi qopur ki, batıb gedəcək. Ayağını qoymağa yer axtarırsan... Bu hərəkət edən torpaq üzərində, bitkilərin bir-birinə dolaşmış nazik kökləri və saplaqları üzərində seyrək, alçaq, əyri-üyrü və tozağacı açağları bitmişdir. Turşumuş bataqlıq torpağı bunların boy atmasına imkan vermir, lakin kiçikboylu ağacların yüz, bəlkə daha çox yaşı vardır».

Bu və ya başqa bir parçanın ucadan oxunması prosesinin özü o qədər də çətin deyildir. Lazım olan materialı seçmək bundan daha çətindir. Dərs vəsaitlərinin mövcud olmadığı və ya çatışmadığı bir vaxtda bu daha problemdir.

Oxumaq üçün seçilmiş parçanı müəllim əvvəlcədən mütləq təhlil edir. Parçada artıq, yaxud hər hansı bir səbəbə görə təhlil olunan mövzu üçün yaramayan yerlər ola bilər. Əksinə, həmin parçada xüsusilə qiymətli yerlər olur ki, oxuyan zaman bu yerlərə diqqət verilməlidir.

Beləliklə, ucadan oxu nəqletmə yaxud söhbət üzərində qurulmuş dərsin ayrılmaz bir hissəsi kimidir. Oxunan parçalar və məqalələr müəllimin canlı sözü üçün aydınlaşdırıcı və təkmilləşdirici bir əlavədir.

Müsahibə. Bilikləri öyrənmənin ikinci, daha çox yayılmış növü müsahibədir. Zahiri cəhətdən müsahibə müəllimin nəql etməsindən onunla fərqlidir ki, burada müəllim şagirdlərə sual verir, şagirdlər cavab verirlər, sonra müəllim yenə də sual verir və s. Axırda, bir sıra sual-cavabdan sonra bir və ya bir sıra nəticə əldə edilir.

Müsahibə biliklərin şifahi öyrədilməsinin elə bir üsuludur ki, bu zaman əsas yeri müəllimin sualları və şagirdlərin cavabları tutur. Burada müəllimin suallarına şagirdlər qrupla, cütlərlə yaxud tək-tək cavab verirlər. Müəllim sualları elə bir mülahizə ilə verir ki, bu sualların cavabı müsahibəni ya davam etdirsin, yaxud təsdiq etsin.

Belə iş üsulunda şagirdlər passiv dinləyici olmayıb dərs prosesində fəal surətdə iştirak edirlər.

Bu metod dialoji bilik ötürmə modelidir. Müsahibədə müəllim və şagirdin qarşılıqlı fəaliyyəti tarazlaşmalıdır. Müsahibə zamanı müəllimin verdiyi suallar katexisis və evristik olmaqla qrupa ayırırlar.

Katexisis – Sual və cavab qısa faktik materiallara əsaslanır. Coğrafi obyektin yalnız bir əlaməti soruşulur və şagirdlər konkret cavab verir.

Məsələn: 1,Qütb dairəsi hansı coğrafi enliyi göstərir?

2.Avstraliyada hansı iqlim qurşaqları var?

3.Mussonun brizdən fərqi nədir?

4.Barens dənizinin temperaturu Qara dənizindən nə üçün istidir?

5. Xəritədə Konqo çayını göstərin və s.

Göründüyü kimi, sualların xarakteri fərqlidir. Birinci sual faktiki materialın soruşulmasına, ikinci sual durust cavabı, üçüncü sual müqayisə etməyə, dördüncü sual səbəbləri bildirməyə, beşinci sual xəritə üzərində tapşırığa istiqamətlənmişdir.

Formasından asılı olmayaraq suallar aydın şəkildə ifadə olunmalıdır. Bəzən müəllimlər katexisis suallarını uğursuz yerinə yetirirlər. Məsələn:

1.Çayın mənbəyində nə olur?

2. Meşədə ağaclar nə üçün olur?

3.Bataqlıqlar haradadır? Və s.

Lakin eyni mövzuya aid sualları uğurlu şəkildə belə təqdim etmək olar.

1.Hansı sututarlar çaylara mənbə ola bilər?

2.Meşədə ağac örtüyünün sıxlığı hansı amillərdən asılıdır?

3.Yer kürəsinin ən böyük bataqlıqları hansılardır?

Sualların seçilməsi hər şeydən əvvəl dərsin qarşısında qoyulan vəzifələrə təyin edilir. Yuxarıda

təqdim olunan sualların məqsədi şagirdlərin biliklərini yoxlamaqdan ibarətdir. Lakin bəzən suallar yeni bir mövzu haqqında giriş müsahibəsi keçirilən zaman verilir. Bu sualların məqsədi yeni bir mövzunun təhlil edilməsi üçün əsas olan zəruri bilikləri səfərbərliyə almaqdan ibarətdir. Daha sonra yeni mövzu təhlil edilir. Burada müəllimin nəql etməsindən əlavə çox vaxt müsahibədə müəllim köməkçi suallar verir ki, bu suallara əsasən şagirdlər müstəqil nəticəyə gəlirlə. Misal göstərək.

Müəllim istəyir ki, nə üçün Talış dağlarının ətəkləri demək olar ki, hər tərəfi meşələrlə, uca zirvələrində yarımsəhraların olması haqqında onun köməyi ilə şagirdlərin özləri nəticə çıxarsınlar.

Bu məqsədlə müəllim bir sıra köməkçi suallar verir.

Sual 1. Təbii rayonun şimal düzənlik hissələrində quru çöllük, dağətəyi yerləri isə meşəlikdir?

Cavab 1. Yağıntı az olan yerlər çöllük, çox olan yerlər isə meşəlikdir.

Sual 2. Bəs nə üçün dağların ətəklərində demək olar ki, hər tərəf meşə, zirvələrdə isə yarımsəhradır.

Cavab 2. Talış dağlarında yağıntı çox düşür.

Sual 3. Bu yağıntılar hansı, yamacda daha çox düşür?

Şagirdlər xəritəyə baxıb diqqətlə fikirləşir və belə cavab verirlər: rütubətli küləklər şimal-şərqdən əsib yağıntı gətirir.

Sual 4. Bəs nə üçün bu yağıntılar Salyan düzünə daha əvvəl gəldiyi halda bura tökülmür, Talış dağlarına yağır?

Cavab 4. Şimal-şərq külәkləri Xəzərin üzərindən gəlir və rütubət gətirir. Yağışın isti Salyan düzənliyinə yağması üçün bu rütubət kifayət deyildir. Çünki Salyan düzündə havanın temperaturunun yüksək olması onun doyma həddini uzaqlaşdırır. Lakin, bu küləklər Talış

dağlarının ətəklərinə çatıb dağların yamacları ilə yuxarıya qalxdıqda hava soyuyur. Hava soyuduqda, yağış buludları (topa buludlar) əmələ gəlir və bol yağış yağır. Lakin, zirvələrdə cənubdan gələn tropik hava kütləsi mümkün buxarlanmanın kəmiyyətini qaldırır. Problemin mahiyyəti ondan ibarətdir ki, şagirdlər müəllimin yaxşı düşünülmüş sualları vasitəsi ilə tapşırığı müstəqil surətdə həll edə bilirlər.

Şagirdlərin müstəqil surətdə müsahibəyə (sanki səbəblərin üstünü müstəqil açmağa) gətirib çıxaran bu kimi üsula *evristik üsul* deyilir

Müsahibə evrika şəklində olduqda şagirdlər burada sual-cavab şəklində olan müsahibədən daha çox fəallıq göstərirlər. Lakin müsahibə evrika şəklində olduqda da şagirdlər tam aktivlik göstərmirlər. Şagirdlərin biliklərini yoxlamaq məqsədilə aparılan müsahibəni evristik üsulu ilə tətbiq edilən müsahibə ilə müqayisəsi göstərir ki, ikinci üsul birincisindən xeyli çətindir. Burada sualın yalnız düzgün ifadə edilməsi deyil, sualların ardıcıllığı da əhəmiyyətlidir. Müsahibənin evristik üsulla aparılması müəllimdən yüksək hazırlıq tələb edir.

Müəllim öz əməli fəaliyyətində adətən həm bu, həm də digər üsulu tətbiq etməlidir. Çünki, müsahibə orta məktəblərdə tədris prosesinin ən zəruri bir hissəsidir.

Didaktik məqsədinə görə müsahibənnin 3 növü var:

1.Bərpaedici və ya giriş müsahibəsi – əsasən yeni mövzunun əvvəlində aparılır. Əsasən əvvəlki biliklər ilə əlaqələndirmək, keçmiş bilikləri yada salmağa xidmət edir.

2.Şərhedici və ya izahedici müsahibə-yeni bilikləri izah etmək, şagirdləri yeni informasiya ilə tanış etmək məqsədi daşıyır.

3. *Ümumiləşdirici müsahibə* də şagirdlərin bilikləri sistemləşdirilir, möhkəmləndirilir. Mövzunun təkrarlandığı zaman belə müsahibə forması yararlıdır.

Müsahibənin gedişində dialoqun mərkəzində müəllim durur. Deməli, şagirdlərin ənənəvi qaydada olduğu kimi obyekt rolunda çıxış etməsi aydın görünsə də bu metod daima müasirdir. Beləliklə müsahibənin rolunun böyük olması onun hələ də üzərində tədqiq etməyi tələb edir.

Mühazirə – müəllimin nitqindən ibarətdir. Əsasən orta məktəblərin yuxarıf sinif şagirdləri üçün istifadə olunur.

Bu metod monoloji bilik ötürmə modelidir. Müsahibədə müəllim və şagirdin qarşılıqlı fəaliyyəti tarazlaşmalıdır.

Mühazirə, yuxarı siniflərdə, bölmə və ya fəsillərə giriş mövzularının tədrisində 25-30 dəqiqə uzana bilər. Mühazirələr şagirdlərin təfəkkür və məntiqi hafizəsinin güclü surətdə inkişafına imkan verir. Lakin, yeni pedaqoji təfəkkür baxımından belə mühazirələrin tətbiq edilməsi məqsədəuyğun deyil. Çünki, müəllimin tam aktivliyi şəraitində keçən dərsləri metodik baxımdan qiymətli deyil. Artıq bütün dünya pedaqoqları tərəfindən qəbul edilmişdir ki, öyrətmə prosesi öyrənən tərəfin istəkdən doğan aktivliyi hesabına tətbiq edilməlidir. Mühazirə dərslərini maraqlı keçmək üçün bəzi pedaqoqlar əvvəlcə, onun planını yazmağı, bəziləri sxemini qurmağı təklif edirlər. Hazırda məktəb mühazirələri digər metodlarla kombinasiya edilmiş vəziyyətdə tədris olunur. Mühazirələrin müxtəlif yeni metodları, yeni pedaqoji texnologiyalar mövzusunda izah olunacaqdır.

Əyani metodlar – Coğrafiya tədrisinin digər forması əyani metodlardır.Tədris prosesinin əsasında illustrativ və digər əyani materiallar üzərində coğrafi biliklərin verilməsi durur. Əyani metodlar xəritə, şəkil, cədvəl, maket, ekran vasitələri, sxemlər, qrafiklərdən və s. istifadə etməklə tətbiq

olunur. Şagirdlərin təfəkkürlərinin formalaşdırılmasında, məlumatı müşahidəçilik vaitəsilə qəbul edilməsində, göz yaddaşının inkişafında əyani metodlar önəmlidir. Bu metodlar şifahi şərh metodları sıx bağlıdır. Məsələn: Göllərin yaranmasına aid divari şəkillər göl anlayışı ilə birgə verilir. Adətən əyani vasitədən istifadə edərkən onun nədən hazırlanması, ona əsasən hansı biliyin əldə edilməsinin mümkünlüyü əvvəlcədən elan edilməlidir. Əyani metodların əsas funksiyası- hər hansı öyrənilən obyekt və hadisənin obrazının yaradılması, nəzəri biliklərin formalaşdırılmasıdır. Müəllim əyani vəsaiti nümayiş etdirməklə şagirdlərdə mənimsəməni təşkil edir, əqli fəaliyyətinə rəhbərlik edir, hər hansı coğrafi informasiya mənbələri ilə işləməyin qaydalarını öyrədir. Əyani metodların tətbiq edilməsi şagirdlərin əyani-obrazlı təfəkkürünün inkişafında, müşahidəçilik qabiliyyətinin formalaşdırılmasında, görmə yaddaşında, əməyə, təbiətə, öz doğma diyarına, yer kürəsinə məhəbbət hissinin yaradılmasında əsas rola malikdir.

Əyani metodlar çox vaxt şifahi şərt metodları ilə eyni vaxtda tətbiq olunuur. Məsələn hər hansı «dağ» maketini nümayiş etdirməklə zirvə, yamac, ətək, meyillik və s.coğrafi ifadələr təhlil olunur. Belə demək mümkündürsə –əyani metodlar şifahi metodlar üçün dayaq rolunu oynayır.

Tədris şəkillərinin, videofraqmentlərin, bitki herbarilərinin, süxur nümunələrinə, heyvanat aləminə aid şəkillərin və kiçik ölçülü heyvan fiqurlarının sistemləşdirilməsi, onların müzakirəsini təşkil etməklə təbii zonalara aid mövzuların tədris edilməsi mümkündür. Belə, əyani vəsaitləri digər dərslərə tətbiq etmək mümkündür.

Şəkil-sxemlər, mulyaj və digər kənd təsərrüfatı bitkilərinin fiqurlarının köməyi ilə Azərbaycan iqtisadi rayonlaşmasına aid mövzuları, rayonların ixtisaslaşmasına dair təsəvvürləri dərinləşdirmək mümkündür.

Hazırda əyani vəsaitlərin modernləşdirilməsi, elektron vəsaitlərin hazırlanması, animasiyaların yaradılması, transparantlar, kompyuter proqramlarının tətbiqi və s. ilə səciyyələnir. Belə vəsaitləri istifadə etməklə, şagirdlər yeni biliklərin öyrənilməsi məntiqi-abstrakt xarakterə malik olur. Onlar mövzunu müstəqil surətdə dərk etməyə çalışırlar. Bəzi kompyuter proqramlarında mövzunun izah edilməsinə aid hazır (səsli və ya yazılı) çıxışlar, möhkəmləndirmə məqsədi ilə sual və tapşırıqlar verilir.

Azərbaycan Respublikasının inzibati rayonlarının öyrənilməsinə aid kompyuter oyunu nümunəsində əyani metodların tətbiq edilməsinin üstün cəhətləri aydın surətdə görünür (məs: «Azərbaycanı tanı» kompyuter oyunu). Şagirdlərin geniş marağına səbəb olan bu «oyunun» qaydaları ilə tanışlıq aparıldıqdan sonra, onlar xəritə üzərində sərhəd daxilində inzibati rayonun üzərini «nişan» alır və təsvir edilən yaxındakı distrakt cavablar arasında düzgün variantı seçir. Düzgün cavab, yeni bir sualın meydanına çıxmasına, şagirdin oyunu davam etdirməsinə imkan verir. Bu isə şagirdlərdə öyrənmə üçün motivin yaranmasına kifayətdir.

Əyani metodlar kimi sxemlər üzərində aparılan təhlillər də önəmlidir. Azərbaycan məktəblərinin istifadəsinə verilən şəkil plakatlar bu baxımdan əhəmiyyətlidir. Əyani vəsaitlərin sayı 29 ədəd olub, orta məktəbin coğrafiya kurslarını əsasən əhatə edir. Bu vəsaitlərin üstünlüyü ondan ibarətdir ki, plakatların hərəsi bir deyil, eyni bölməyə aid bir neçə coğrafi anlayış və terminin, o cümlədən coğrafi mövzunu əhatə edə bilir. Məsələn « Qurunun su hövzələri»-nə aid plakatda göl təsvirləri mənşəyinə görə qruplaşdırılmış və onların hər birinin yaranma sxemi ilə birgə, eyni zamanda bataqlıq, yeraltı su, buzlaq təsvir və sxemləri təqdim olunmuşdur. Şagirdlər yalnız şəkil və ya sxemləri obrazlaşdırmaqla adətən çətinlik çəkir. Lakin, plakatlarda (onların ölçüləri 70x90 sm-dir) şəkil-sxemlərin verilməsi,

onlarda tam təsəvvürün yaranmasına imkan verir. Və yaxud torpaqlara həsr olunmuş plakatda dünyanın mövcud olan torpaq tipləri iqlim qurşaqlarına uyğun qruplaşdırılmışdır. Torpaq profilləri və onların üzərindəki bitki örtüyü təbii zona haqqında şagirdlərdə bununla belə, demək olar ki, torpağa aid natural vəsaitlər, yəni torpaq nümunələri ilə tanış olmaq, şagirdlərin idrak fəaliyyətində daha güclü təsəvvür yarada bilər. Təsəvvür edin ki, Avrasiyanın (və ya digər materiklərin, yaxud Azərbaycanın landşaftı) təbii zonalar xəritəsi üzərində, torpaq nümunələrini yerləşdirmək tapşırığını yerinə yetirən şagirdlər nə qədər məsuliyyətlə əyani vəsaitdən istifadə edir, eyni zamanda nəzəri bilikləri praktik olaraq tətbiq edirlər. Onlar eyni zamanda torpaqların rəngi, strukturu, mexaniki tərkibi, humus ilə təmin olunması, rütubətlik vəziyyəti və s.-ə aid biliklər toplayırlar.

Son illər hərəkətdə olan maket və modellərin istehsalına maraq artmışdır. Məsələn, vulkan mövzusunun tədrisində müəllim ilk növbədə vulkanın təsvirini şifahi nitqi ilə izah edir, ikinci halda vulkanın təsviri şəkil sxem üzərində göstərilir, üçüncü halda vulkan kəsiyi maketlərdə təhlil olunur, dördüncü halda vulkanın fəaliyyəti animasiya kimi nümayiş etdirilir, sonuncu halda isə vulkan modelinin fəaliyyətdə olan variantı nümayiş etdirilir. Əminliklə demək olar ki, sonuncu model şagirdlərin təsəvvüründə vulkan obrazının daha dərindən yaranmasına imkan verəcəkdir.

Sxemlərin təhlili zamanı şagirdlər ilk növbədə sxemin adi və özünə məxsus quruluşunu müəyyən etməli; sxemdə obyekt, hadisə və təsvirlər arasında əlaqə məlumatı əldə etməyin mümkünlüyünü təyin etməlidir.

Əyani metodların təkmilləşdirilməsi ən vacib məsələlərdən biridir. Coğrafiya fənninin tədris proqramına və dərslik mövzularına uyğun əyani vəsaitlərin hazırlanması, onların sistemli şəkildə istehsalına nail olmaqdır.

Şagirdlərin yaradıcı təfəkkürünün inkişafına müsbət təsir göstərməsinə baxmayaraq, yalnız əyani vəsaitlərin nümayişi; onların tədrisdə istifadəsi kifayət deyil. Mövzunun təhlili, izahı, tətbiqi, proqnozlaşması, coğrafi paylanması, yaranan problemlər, qurğudakı perspektivlər baxımından əyani vəsaitlər şagirdlərdə canlı obraz yaratmır. Onlar yalnız bilik mənbələridir.

Praktik metodlar – Bu metodların tətbiqində şagird iştirakçı roldadır. Bu prosesdə əsas şərt işin məzmununun və bilik mənbələrinin müəyyən olunmasıdır(Cədvəl 10).

Cədvəl 10

Praktik işlərin məzmunu

İşin məzmunu	Bilik mənbələri
1. Həyata keçirilən praktik işin məqsədi 2. İşin həyata keçirilməsi üçün təlimat a) plan b) görülən işlərin məzmunu c) işin mərhələləri	1. Dərslik (şəkil, sxem, xəritə, cədvəl və s.) 2. Atlas (xəritə kəsiyi) 3. Digər mənbələr

Praktik metodlar hava üzərində müşahidələr, məhəldə cəhət təyini, azimut və məsafələrin ölçülməsi kontur xəritə üzərində aparılan tapşırıqlar, məhəlin planı, torpaq profili, çayda sürətin təyin olunması və s.dir.

Praktik metodların yerinə yetirilməsində əsas bilik mənbəyi coğrafi hadisə və proseslər, onların modelləri-xəritələr, modellər, qrafiklərdir ki, onlardan coğrafi qanunauyğunluqların, nəzəriyyə və fəaliyyətlərin əsaslandırılmasında istifadə olunur. Tədris prosesinin səviyyəsini yüksəltmək üçün müxtəlif vasitələr

hazırlanmışdır. Lakin, coğrafiya dərslərində şagirdlər özləri də bir sıra modelləri hazırlayırlar – onlar məhəllin planını çəkir, qrafiklər qurur, hava üzərində müşahidələr apararaq iqlim qrafiklərini qurur, çayın en kəsiyindən axan suyun həcmini hesablayaraq hidroqraflar tərtib edir. Statistik rəqəmlər əsasında əhalinin ümumi sayı, təbii artıma görə, iqtisadiyyatın inkişafına görə diaqramlar qurur, kontur xəritələr üzərində tapşırıqları həll edir.

Praktik metodlar müəllim və şagirdlərin qarşılıqlı fəaliyyəti nəticəsində həyata keçirilir. Belə ki:

1) müəllim tapşırığı verir, coğrafi hadisə və prosesi əks etdirən obyekt və ya model üzərində şagirdlərin fəaliyətini təşkil edir.

2) Müəllim şagirdlərə, onlara təqdim olunan model və ya obyektdən istifadə etməklə yeni biliklərin əldə edilməsinə istiqamətlənmiş sual və tapşırıqlar verir.

Məsələn: «tektonik xəritəni oxumaq, təhlil etmək fiziki xəritədə olan oroqrafik vahidləri ərazinin geoloji quruluşu ilə əlaqələndirmək» və s.aid yeni bilikləri əldə etmək üçün müəllim tapşırıqlar sistemini təşkil etməlidir.

Praktik metodların tərkibinə təbiət hadisələri və obyektləri, eyni zamanda istehsal və qeyri-istehsal sahələrində aparılan müşahidələr, xəritə, sxem, profil statistik göstəricilər əsasında aparılan işlər də daxildir. Bu metodları tətbiq etmək üçün şagirdlərdən dərin coğrafi biliklər tələb olunur. Praktik metodlar şagirdlərin peşəyönümünü istiqamətləndirir (ehtiyatların axtarışı, ekoloji gərginliyin qiymətləndirilməsi, təbiətin mühafizəsi və s.).

Praktik işlərin bəziləri sinif şəraitində, digərləri isə məhəldə yerinə yetirilir. Praktik işlər məktəb proqramında əks olunur. Həyata keçirilən xüsusiyyətinə görə praktik işləri müxtəlif qruplara ayırmaq olar:

Təlimatverici - müəllim şagirdlərə görəcəyi işləri başa salır, onlara tapşırıqlar verir, nəticənin üzə çıxarılması üçün nümunələr göstərir və s.

Məşqedici- biliklərin təkmilləşdirilməsi, onların bacarıqlara çevrilməsi üçün məqsədyönlü işlərin aparılmasına xidmət edir. Praktik metodları yerinə yetirərkən, şagirdlər müxtəlif cihaz, alət və digər vasitələrdən istifadə etməyi öyrənir.

Yekunlaşdırıcı praktiki işlər də şagirdlərə verilən tapşırıqlar onların əvvəlki biliklərini yeni şəraitə tətbiq edə bilmək imkanlarının üzə çıxarılmasına istiqamətləndirilir. Məsələn, Abşeron iqtisadi rayonunun tipik plan üzrə öyrənilməsi şagirdlərə digər iqtisadi rayonlara tətbiq etməyə imkan verir.

Praktik metodların tətbiq edilməsinin səviyyəsi şagirdlərin coğrafi bilik və bacarıqlarının mənimsəmə səviyyəsindən asılıdır.

Məsələn, xəritə üzərində aparılan tapşırıqların səviyyəsi şagirdin xəritənin özünün hansı səviyyədə mənimsənilməsindən asılıdır. Belə nəticəyə gəlmək olar ki, xəritənin özü ilk növbədə öyrənilmə obyekti, ikinci mərhələdə isə bilik mənbəyidir.

Praktiki metodların həyata keçirilməsi əyani və şifahi metodlarla eyni zamanda yerinə yetirilir.

Bu metodların tətbiq edilməsi, tədris ilinin sonuna doğru daha da asanlaşır. Belə ki, vərdiş əldə edən şagirdlərə yalnız nəzarət və qiymətləndirmə müəllimin üzərinə düşür. Nəzəri biliklərin praktiki olaraq tətbiq edilməsi probleminin daima aktual olması, praktik metodların tədris prosesində əhəmiyyətinin artırmasına imkan yaradır.

Şagirdlərin idrak və fiziki fəallığının yaradılması və dərs prosesində saxlanılması üçün bu metodlar əvəzedilməz potensiala malikdir.

Praktik metodlar içərisində **müşahidələrin** rolu çox böyükdür. Onların əhəmiyyəti şagirdlərin bilavasitə

gerçəkliyin özü ilə qarşılaşmasındadır. Coğrafi müşahidələrin təşkil edilməsi üçün ilk növbədə məqsədin qoyulması, şagirdlərin üzərinə düşən vəzifələr, onların əməl edəcəyi qaydaları müzakirə etmək lazımdır. İlk növbədə:

a) müşahidə olunacaq obyekt və hadisə seçilməlidir.

b) müşahidə ediləcək obyekt və hadisələrin özünəməxsus cəhətləri aşkar edilməlidir;

c) müşahidə qaydası və ardıcıllığı təyin edilməlidir;

k) nəticələr üzə çıxarılmalı, ümumiləşdirilməli və təqdimat etmək üçün sistemləşdirilməlidir.

Müşahidə zamanı istifadə olunacaq alət və cihazların gigiyenik təmizliyi də nəzərə alınmalıdır. (təbiətdə müşahidə aparmaq üçün qnomon, termometr, flüger, kompas və s.) istifadə olunur. Xüsusilə hava üzərində aparılan müşahidələrə məsuliyyətlə yanaşmaq lazımdır. Belə müşahidələr uzunmuddətli aparılır və əsasən 4 mərhələdən ibarət olur.

I. Cihazların modelləri üzərində məşq etmək

II. Cihazların özü ilə davranış qaydalarının təşkil etmək

III. İşarə və simvolların oxuması, hava elementlərinin qrafiklərinin təsvir etmək

IV Hava üzərində müşahidələrin müstəqil şəkildə həyata keçirmək

Hava üzərində müşahidə zamanı şagirdlər;

– havanın temperaturunu;

- küləyin istiqamətini;

- küləyin gücünü;

- buludluq dərəcəsini;

- buludun tiplərini;

- yağıntının növlərini;

- yağıntının miqdarının ölçülməsi;

- atmosfer təzyiqi;


- havanın rütubətliyi;

- qar örtüyünün qalınlığını və s təyin etməyi bacarmalıdırlar.

Praktik metodlar şagirdlərin apardıqları **təcrübələr** ilə də xarakterizə olunur. Atmosfer təzyiqinin havanın temperaturunun, səthin istilik tutumları arasında fərqin üzə çıxalması məqsədi ilə aparılan təcrübələri təbiətdə aparmaq, xüsusən şəhərlərdə çətindir. Lakin, qum və su səthinin istilik udmasına aid təcrübə maraqlıdır. Adi elektrik lampası, içərisində qum olan yeşik, içərisində su olan qab, su və torpaq termometrlərinin köməyi ilə bu təcrübəni aparmaq olar. (təcrübənin əvvəlində qum və suyun temperaturu ölçülür və qeyd olunur, hər iki səthi eyni dərəcədə qızdıran lampa yandırılır. 30 dəqiqə sonra su və qumm səthinin temperaturu yenidən ölçülür və yazılır. Rəqəmlər müqayisə edilir, qumm çox istiliyə malikdir»-nəticəsinə əsasən coğrafi qanunauyğunluq çıxarılır-« hava səthdən qızır, ona görə də suyun üzərindəki hava daha soyuq olacaqdır.Külək mövzusunun tədrisində aparılan təcrübə də xüsusilə, aşağı sinif şagirdləri üçün maraqlıdır (Sxem 20).

Təzyiq fərqinə görə küləyin yaranması sxemi

Sxem 20



Sinifin azacıq açıq olan qapısı önündə 3 yanar şam tutulur. Onlardan biri açıq qapının aşağı hissəsində, ikincisi ortada, üçüncüsü isə yuxarı hissədədir. Şamlarda alovun fərqli istiqamətlərə meyl etdiyini müşahidə edirlər;

yuxarıdakı şamın alovu dəhlizə tərəf yönəlir, aşağıdakı şamın alovu sinifə tərəf yönəlir, ortadakı isə tərpənməz şəkildə yanır. Müşahidənin nəticələri ümumiləşdirilir: Sinifdə isinmiş hava yuxarı qalxır, qapının üst tərəfindən dəhlizə axır və bu zaman şamın alovu dəhlizə meyl edir.

Dəhlizdəki soyuq hava ağır olduğuna görə döşəməyə daha yaxın cəmlənir, qapının alt tərəfindən içəriyə daxil olur və bu zaman alovu içəriyə doğru istiqamətləndirir.

Təcrübələr illustrativ xarakterli də ola bilərlər – mineralların təyin edilməsi, torpağın rütubətliyinin təyin edilməsi, qızdırıldıqda cisimlərin genişlənməsi nəticəsində qapalı şüşə qabın sınması və s.

Təcrübələr zamanı şagirdlərin passiv müşahidəsinin qarşısını almaq üçün onlara sual və tapşırıqlar verilirsə belə təcrübələr evristik təcrübə adlanır.

5.3. Şagirdlərin idrakı fəaliyyətinin xarakterinə görə tədris üsullarının təsnifatı

Bu təsnifat müəyyən mənada tədris prosesinin təşkilinə olan müasir tələbləri əks etdirir. Hazırda tədris prosesində, şagirdlərin müstəqil fəaliyyət göstərməsinə sövq edən, dəyərləndirmək və proqnozlaşdırmaq qabiliyyətinin inkişafına imkan verən, öz movqeyini bildirən və müdafiə cəhdlərinə malik olmağı formalaşdıran təşkilat formalarına üstünlük verilir.

Şagirdlərin idrak fəaliyyətinin xarakterinə görə tədris üsullarının təsnifatının əsasında tədris materiallarının mənimsənilmə səviyyəsi durur. Bu baxımdan onları üç qrupa ayırmaq olar:


1) biliklər hazır halda mənimsənilir və yadda saxlanılır;

2) tanış situasiyalarda nümunələr tətbiq edilir;

3) yeni şəraitdə qəbul edilir. İdrak fəaliyyətinə görə tədris metodları daima pedaqoqları, o cümlədən coğrafiya fənni üzrə metodist və qabaqcıl müəllimləri cəlb etmişdir. Çünki bu metodlar müasir dövrün tələblərinə, yeni pedaqoji təfəkkürün ideyalarına uyğun gəlir. Hazırda müəllim-şagird münasibətlərinin əsas subyekti kimi iştirak etdiyi 5 metod ayırmışlar. (Sxem 21).

İdrak fəaliyyətinin xarakterinə görə metodlar

Sxem 21



1.Əyani - izahedici metod Tədris materiallarını müəllimin əyani vəsaitlərdən istifadə edərək hekəyə, izahat, mühazirələr şəklində biliklərin ötürülməsidir. Bu metodun köməyi ilə şagirdlərdə əsas bilik ehtiyatı toplanılır ki, bunun da əsasında gələcək müstəqil işləri təşkil etmək mümkündür. Müəllim bilikləri ötürür, şagirdlər yeni məlumatları mənimsəyirlər- dinləyir, oxuyur, müşahidə edir və yadda saxlayırlar. Lakin şagirdlər passiv dinləmə mövqeyindədirlər. Onların fəaliyyəti yalnız birinci mərhələdə gedir, onlar hazır məlumatı qavrayır və təkrar edirlər. Şagirdlərin tədris fəaliyyətindəki müstəqilliyi çox aşağıdır.

Əyani izahedici metoddan ümumi anlayışların öyrənilməsində ("iqlim qurşağı", "günəş radiasiyası", "ixtisaslaşma" və s.), mənimsənilməsi üçün faktların çatışmadığı və ya tədris üçün bazası zəif təchiz olunan nəzəri biliklərin açılmasında (məsələn, atmosferin dövr etməsi, litosfer tavalarının hərəkəti, urbanizasiya növləri və formaları və s.) istifadə olunur.

Əyani izahedici metod-biliklərin ötürülməsinin ən qənaətedici üsuludur: Belə ki, az vaxt ərzində iri həcmdə biliklər ötürmək mümkündür. Iqtisadi və sosial coğrafiya kurslarında bu metodu ümumiləşdirici xarakterə malik mövzuların tədrisi zamanı tətbiq edirlər, məsələn, "Qərbi Avropanın iqtisadi coğrafi xarakteristikası" və s.

Tədris materiallarının ötürülməsi təkcə müəllim tərəfindən deyil, müasir texniki üsullarla da ötürülə bilər- maqnitofon, kompyuter, televiziya verilişləri, videofilmlər və s.

Izahlar elmi cəhətdən əsaslandırılmış məntiqlə nümayiş etdirilməli, ziddiyyət yaratmamalı, sübutlarla təsdiq olmalıdır. Müasir şəraitdə coğrafi hadisə və proseslərin izah edilməsində məktəb müəlliminin rolu artır. Çünki izahedici-əyani materialların köməyi ilə təbiət və təbii hadisələri

deyil, ölkələrin siyasi xarakteristikası, əhali və onun təsərrüfat fəaliyyəti haqqında biliklər də edilə bilər. Bu metodun tətbiqi ilə coğrafiya üçün xarakter olan praktiki bacarıqlar formalaşdırılır. Məhz bu metodun köməyi ilə müəllim şagirdlərə xəritəni necə oxumaq, diaqramları necə analiz etmək, profili necə çəkmək, coğrafi təsviri və xarakteristikaları necə tərtib etmək və s. bacarıqların yaranması haqqında izah verir. Lakin, bu materialları izah edərkən işin qaydasını müəllim göstərə biləcək nümunə planı, sxem, cədvəllərdən istifadə etməlidir.

2.Reproduktiv metod Təkrarlama, möhkəmlətmə və biliklərin ümumiləşdirilməsinə xidmət edir. Şagirdlər yalnız eşitdikləri, gördükləri, oxuduqları, sürətini çıxardıqlarını mənimsəyə bilirlər. Bu metodun əsas əlaməti-müəllimin tapşırığı şagirdlərdə bilikləri təkrarlamaqdır. Reproduktiv metod özünəməxsus coğrafi bacarıqların formalaşmasını da təmin edir. Belə ki, müəllim şagirdlər qarşısında xüsusi tapşırıqlar verir, onların biliklərinin və fəaliyyət üsullarının dəfələrlə təkrarlanması fəaliyyətini təşkil edə bilər. Məsələn, Dünya okeanında səthi axınlarının sxemini öyrənən zaman, müəllimin suyun dövranını izah edəndən sonra şagirdlərə proqramda tələb olunan cərəyanları xəritədə göstərməklə təkrar etmək təklif olunur. Bu metoddan istifadə edərək şagirdlər tələb olunan nümunələri yerinə yetirirlər, onların düşüncələrinin səviyyəsi gördükləri işin planla, təlimatla, işin mərhələlərinin uyğun gəlməsi ilə müəyyən olunur. Buna göra də şagirdləri obyektlərin (dağ, çay, relyef, iqlim və s.) və ərazilərin (iri regonları, ölkələri, rayonları) tipik planlarına əsasən işləməyi öyrətmək lazımdır. Reproduktiv üsulun tətbiqinə misal olaraq 9-cu sinif şagirdlərinə verilən dünya ölkələrinin əhali artımı, şəhər əhalisinin faizlə göstəricisi, millioner-şəhərlərin statistik cədvəllərinin müəyyən edilməsini

göstərmək olar. Mövzuya aid çalışmalar dünya əhalisi haqqında biliklərin möhkəmləndirilməsi məqsədi ilə yerinə yetirilir.

Reproduktiv metod şagirdləri onlara tanış olan tədris vəziyyətində bilik və bacarıqları tətbiq etmək, göstərilən nümunəyə uyğun olaraq hərəkət etməyi öyrədir.

3. Problemli şərh metodu - Bu metodun mahiyyəti- şagirdlərə dərk etmənin gerçəkliyə doğru hərəkəti, hər hansı sualın çətinliyini dəlillərlə əsaslandırılmasını nümayiş etməyi göstərməkdən ibarətdir. Müəllim özü problemi qoyur və onu tədqiqatçının mühakimələrinə əsasən açaraq həll edir. Şagirdlər mühakimələrin gedişini izləyir, problemlərin həllinə kömək edən məntiqi əməliyyatları öyrənir.

Problem situasiya problemdən başlayır. Problem suallar öz funksiyasına görə iki yerə bölünür.

1.İdrakı, problemli və tədqiqedici – suallar yeni biliyin tədqiqinə yönəldilmiş, başqa sözlə cavabı və ya həllinin üsulu məlum olmayan suallardır.

2.Kommunikativ və ya informasion suallar – məlumatın bir şəxsdən başqasına ötürülməsinə yönəldilmiş suallardır.

Elmi problemlərdən fərqli olaraq tədris problemi ancaq şagird üçün problem (gizli) olaraq qalır. Əslində yaranan problem elmdə çoxdan məlumdur, lakin şagird məlum olanı yalnız özü üçün «kəşf edir».

Coğrafiya fənninin tədrisində yüzlərlə problem, sual vermək mümkündür. Lakin, problem sutuasiyanı yaratmaq üçün müəllimdən ustalıq tələb olunur.

4. Qismən- axtarış metodu Bu üsulun məqsədi- şagirdləri tədricən yaradıcı fəaliyyətə cəlb etməkdir. Məlumdur ki, izahedici- əyani və reproduktiv metodlarda şagirdlərin yaradıcı düşüncəsinin formalaşması nəzərdə tutulmurdu. Qismən- axtarış metodu şagirdlərin əvvəlki

kurslardan və mövzulardan eyni zamanda digər fənlərindən öyrəndikləri bilik və bacarıqlara dayaqlanaraq tətbiq olunur. Çox vaxt bu metod problemli mövzularda yaradıcı biliklərin, şagirdlərə əvvəllər məlum olmayan üsulların köməyi ilə həyata keçirilir.

Qismən- axtarış metodunu tətbiq etməklə, müəllim şagirdləri tədris prosesinin dərk edilməsində müstəqil olaraq addım atmağa öyrədərək, tədris materialını sərbəst surətdə həll etməyi təklif edir. Qismən- axtarış metoduna nümunə olaraq, müəllimin istifadə etdiyi tədris rəsmlərinə, tədris materiallarına qoyduğu sual və tapşırıqlar, istifadə olunan xəritələrin müqayisəsi, nəticələrin ,çıxarılması obyektlərin müqayisəsi, öyrənilən faktların əsasında fərziyyələrin irəli sürülməsini aid etmək olar. Məsələn, şagidlərə təklif etmək olar ki, Böyük Qafqazda və Ural dağlarında hündürlüyə doğru təbiətin dəyişməsinin öyrənilməsi əsasında "şaquli qurşaqlıq" anlayışına tərifi formalaşdırsınlar. Tapşırığı yerinə yetirən 7-ci sinif şagirdləri riyazi bacarıqlarını tətbiq etməklə « Şaquli qurşaqlıq- dağın hündürlüyünün coğrafi en dairəsinə olan törəməsidir» tərifini formalaşdırmışdıra bilər.

Qismən- axtarış metodunun tətbiq edilməsi zamanı müəllimin məqsədi- şagirdləri əldə edilən bilikləri sərbəst şəkildə tətbiq etmək, həmçinnin yeni axtarışlara doğru yönəltməkdir .

Qismən- axtarış metodunda ən böyük rolu bir -biri ilə əlaqəli olan suallardan ibarət evristik müşahidə oynayır. Şagirdlərin müstəqil olaraq təklif olunan məntiqi məsələləri həll etməsi üçün onun məzmunu və sualların ardıcıllığı müəllim tərəfindən düzgün düşünülməlidir. Müşahidəyə misal olaraq 6-cı sinifdə daxili və xarici proseslərin təsiri nəticəsində düzənliklərin dəyişilməsini göstərmək olar ki, bunun gedişi nəticəsində şagirdlər təbiətşünaslıq kursunda

və əvvəlki "Dağlar" mövzusunda əldə etdikləri aşınma proseslərinə, axar suların işi, külək haqqında biliklərə əsaslanaraq müəllimin suallarına cavab verir.

7-ci sinif kursunda tipik nümunəvi plana əsasən materiklərin coğrafi tərifi, onun relyef xüsusiyyətləri, iqlim, daxili sular və s.-nin müəyyən olunması üçün müstəqil işlərin aparılmasının təşkil etmək olar. Qismən- axtarış metodunun materiklərin, ölkələrinin öyrənilməsi zamanı istifadə etmək məqsədəuyğundur. Dünyanın iqtisadi və sosial coğrafiyası kursunda qismən axtarış üsulunun köməyi ilə suallar dairəsi genişlənir.

Evristik müşahidə xəritə, cədvəl, dərslik mətni ilə əvvəldən tanışlıq əsasında, tədris kinofilminə baxdıqda və s. praktik işlərin aparılmasında da aparıla bilər.

Bütün müsbət cəhətlərinə baxmayaraq qismən- axtarış metodu şagirdləri tam idrakı prosesə daxil etmir, çünki, onların şüurunda bu prosesin ayrı- ayrı mərhələləri arasında əlaqə itir. Nəticədə isə şagirdlər müstəqil yaradıcı fəaliyyətə hazırlanmır.

5.Tədqiqat metodu Tədqiqat metodu şagirdlərə müstəqil olaraq yeni materialı öyrənmək imkanı verir. Müəllimin istiqamətləndirici fəaliyyəti ilə şagirdlər, ardıcıl və düşünülmüş şəkildə coğrafiya fənni üçün səciyyəvi olan fəaliyyət üsullarını tətbiq edir. Şagirdlərin yeni materialı tədqiqat şəkildə öyrənməsi onların yaradıcılıq fəaliyyətini aktivləşdirir.

Əslində tədqiqat metodu çox az tətbiq olunur. Bu da bir sıra səbəblərlə izah olunur: a) Digər metodların vasitəsi ilə hazır biliyin mənimsənilməsi daha az, tədqiqat metodu isə daha çox vaxt tələb edir; b) Tədqiqat metodunun tətbiq olunması üçün xüsusi tədris avadanlığı - sorğu kitabları, xəritələr, şagirdlər üçün coğrafi ədəbiyyat və s. lazımdır. Məhz bu səbəblər tədqiqat metodunun hələ zəif tətbiq

olunmasına və yaxın gələcəkdə onların tədris prosesinə daxil olmasına zəmanət vermir.

Çətinliklərə baxmayaraq, coğrafiya tədrisində tədqiqat metodunun dərs prosesinə tətbiq olunması üçün bəzi imkanlar var. Bu imkan ilk növbədə ümumiləşdirmə dərslərində, ümumi icmalın və ya hər hansı bir regionun tədrisinin sonunda ola bilər.

Çox zaman tədqiqat metodu coğrafiyanın tədrisində diyarşünaslıq prinsipinlərinin reallaşdırılması zamanı tətbiq olunur. O həmçinin regional coğrafiyanın öyrənilməsi zamanı da istifadə oluna bilər. Bu metod təbiətdə və ya istehsalatda əvvəlcədən maddi və qeyri-maddi müəssisələrdə faktlranı yığılmasını və onun təhlil edilməsini növbəti dərsdə tələb edir.Müəllim şagirdlərə tapşırıqları əvvəldən yazdırır, onlara məsləhət verir, işlərini planlaşdırır. Tədqiqat tapşırıqları yerinə yetirən şagirdlər əldə etdikləri nəticə və məlumatlarla çıxış edir, müəllim isə müzakirələrə rəhbərlik edərək ümumi nəticə çıxarır.

Müasir məktəbdə tədris vəzifələrin həlli və şagirdlərin müstəqil həyata hazırlığın təmin edilməsi tədris prosesində əsas diqqətin şagirdlərin idrakı fəaliyyətinə yönəldilməsini tələb edir;

Beləliklə, coğrafiya tədrisində şagirdlərin idrak fəaliyyətin düzgün qurulması biliklərin çıxarılması səciyyəvidir, bu isə təfəkkür prosesinin sərbəst fəaliyyətinə imkan verir. Belə nəticəyə gəlmək olar ki, şagirdin idrakının formalaşdırılması hər hansı bir metodla deyil, müəllimin məqsədyönlü və uzun müddətli fəaliyyətinin köməyi ilə həyata keçir.

5.4. Coğrafiyanın tədrisində yeni pedaqoji texnologiyaların tətbiqi

XX əsrin ikinci yarısında elmi pedaqoji mühitə yeni «texnologiya» termini daxil oldu və ilk növbədə Amerika və Avropa məktəblərində təlimin texniki vasitələrinin geniş tətbiq olunması ilə müşayiət edildi. Tədris prosesinə texnikanın tətbiqi təlimin texnologiyası anlayışının meydana gəlməsinə səbəb oldu. Bu onların müəyyən vaxtdan sonra təhsil- tərbiyə sahəsinə də nüfuz etdi və «pedaqoji texnologiya» adı ilə xüsusi yer aldı.

Bəzi pedaqoqlar «tədris metodikası» anlayışını olduğu halda, yeni «pedaqoji texnologiyanın» meydana çıxmasına etiraz etsələr də, digərləri buna texnoloji inqilabın məktəbə təsiri kimi qiymətləndirir. İlk növbədə texnologiyanın mənası maraq doğurur. Texnologiya yunan dilində «techne-sənət, peşə, elm, loqos-isə anlayış» təlim deməkdir. Əslində texnologiya-istehsalat proseslərinin, məsələn kimyəvi texnologiyanın üsul və vasitələri haqqında biliklərin cəmidir. Bu termin texnikanın inkişafı zəminində yaranıb. Lakin, hazırda pedaqoji texnologiyanın xeyli sayda tərifi olsa da (məzmunla texnika, birgə fəaliyyət modeli; prosesin təsviri və s.), mahiyyət etibarilə təlim-tərbiyə prosesinin layihələşdirilməsinin sistemli metodu kimi səciyyələndirilir.

Pedaqoji texnologiyada təlim (və tərbiyə) prosesi ayrı-ayrılıqda ayırd edilir, onların məqsədyönlüyü və optimallığı müəyyən edilir, bütün metodik vasitələr kompleks şəkildə dəyərənləndirilir, onların təhsilin məzmununa və şagird kontingentinin səviyyəsinə uyğunluğu açıqlanır.

Pedaqoji texnologiyanın strukturu, onun

- konseptual əsasından
- təlimin məzmunundan
- texnoloji prosesdən (təlimin təşkili, müəllim və şagird fəaliyyətinin formaları, tədris prosesinin diaqnostikası)- ibarətdir.

İstehsalat prosesləri kimi pedaqoji proseslərin də həmişə özünəməxsus texnologiyası olub. Bəzi pedaqoqlar problemli təlim, işgüzar oyunları, modul təlimi, və s. təlim texnologiyası kimi təhlil etmişlər. Ənənəvi təlim prosesində də özünəməxsus texnologiya olub. Lakin onlar hazırda yeni texnologiyalar adı altında birləşən texnologiyalardan fərqli olmuşdur.

Pedaqoji texnologiyalar öz səviyyəsinə görə

a) ümumpedaqoji

b) xüsusi fənlər üzrə

c) lokal səviyyədə ola bilər

Təlim-tərbiyə prosesinin müəyyən tərkib hissəsi (hər hansı dərsin, anlayışların formalaşması, yeni biliklərin mənimsənilməsi, keçmiş biliklərin təkrarlanması və s.) lokal səviyyəli texnologiyaların tətbiqi ilə mümkündür.

Yeni pedaqoji texnologiyalar hələ ki, axtarışlar mərhələsini yaşayır –qabaqcıl müəllimlərin yaradıcılığında meydana gələn yeni texnologiyalar eksperimental məktəblərdə təhlil olunur və kütləvi məktəblərə yol verir. Coğrafiya fənninin tədrisində yeni pedaqoji texnologiyalar yaratmaq və ya mövcud olanları tətbiq etmək üçün geniş imkanlar vardır.

Pedaqoji texnologiyalar dərsin hər hansı mərhələsində tətbiq olunur və pedaqoji metoddan bəzi xüsusiyyətlərinə görə fərqlənir, eyni zamanda innovasiyaların meydana gəlməsinə səbəb olur. Lakin, qeyd etmək lazımdır ki, pedaqoji texnologiyaların özünəməxsus çatışmazlığı vardır. Belə ki, bu ilk növbədə şagirdlərin fəaliyyətinə daha çox vaxtın ayrılması, lakin onların yaradıcılığına diqqətin kənarda qalması ilə ifadə olunur.

Pedaqoji texnologiyanın əsas xüsusiyyətləri konseptuallıq, sistemlik, idarə oluna bilmək, yenidən təkrar olunmaq və effektivlikdir.

Konseptuallıq. Hər bir pedaqoji texnologiya elmi konsepsiyaya arxalanmalı (fəlsəfi, psixoloji, didaktik və

sosial-pedaqoji əsası olmalıdır) və konkret pedaqoji fikirə uyğun olaraq tərtib olunmalıdır. Lakin qeyd etmək lazımdır ki, ənənəvi üsuldan fərqli olaraq pedaqoji texnologiyaların məqsədi daha dar istiqamətdə gedir. Məsələn, kommunikativ- dialoq texnologiyasının məqsədi- şagirdlərin şəxsiyyətinin kommunikativ xüsusiyyətlərinin inkişaf etdirilməsidir. Məhz bu məqsədə bütün tədris prosesi tabedir; digər məqsədlər şəxsi xarakter daşıyır.

Sistemlik. Pedaqoji texnologiyanın strukturu üç ölçülü olub, sistem yaradır:

1.Pedaqoji texnologiyanın konseptual əsası.

2. Təlimin məzmunu;

- təlimin məqsədləri- ümumi və konkret
- təlim materialının məntiqi

3. Prosesual hissə – texnoloji proses

- təlim prosesinin təşkili
- şagirdlərin tədris fəaliyyətinin forma və metodları
- materialın mənimsənilməsi prosesinin idarə edilməsində müəl limin fəaliyyəti
- tədrim prosesinin diaqnostikası

Pedaqoji texnologiyanın struktur blokları bir-biri ilə sıx əlaqədardır və bütöv sistem təşkil edir. Bloklardan biri mövcud olmasa və ya tam hazır deyilsə, onda layihəni pedaqoji texnologiya səviyyəsinə çatmış hesab etmək olmaz.

Pedaqoji texnologiyalarla məqsədə çatma vasitələri effektiv olmalı və bütün şagirdlərə dövlət tədris standartında nəzərdə tutulan mənimsənilməsinə zəmanət verməlidir. Bu zaman tədrisin ibtidai mərhələsində tətbiq olunan texnologiyalar orta və yuxarı siniflərdə tətbiq olunan texnologiyalarla uyğun gəlməlidir.

Təlim texnologiyalarının əsas əlamətləri aşağıdakılardır: 1) şagirdlərə onlardan tələb olunan təlim məqsədlərini dəqiq bilməli, öyrənilən materialın əhəmiyyətini dərk etməlidir. 2) tədris vasaitlərinin, tədris

fəaliyyətinin, aktiv metod və formalarının təşkil edilməsi ilə qoyulan məqsədə nail olmaq ardıcıl qurulmalıdır; 3) nümunələr əsasında təlim (tədris dəftərləri), şagirdlər müəllimlər tərəfindən müəllimin qoyulmuş göstərişləri yerinə yetirir. 4) şagirdlərin problem və tapşırıqları həll etməsi üçün müstəqil işi təşkil edilir; 5) təlim nəticələrinin yoxlanılması məqsədi ilə test tapşırıqları formaları geniş tətbiq edilir.

Pedaqoji texnologiyanın növləri çoxdur və onlar müxtəlif meyarlara görə təsnif olunur. Pedaqoqlar texnologiya qruplarını 3 yerə ayırırlar:

1) izahedici- əyani təlim texnologiyası, (əsasında məlumatlandırma, şagirdlərin maarifləndirilməsi və onların reproduktiv fəaliyyətinin həm ümumtəhsil (təşkilati, intelektual, məlumati və b.), həm də xüsusi (mövzuya aid) bacarıqların təşkili durur;

2) şəxsiyyət yönümlü təlim metodu şagirdlərin fərdi tədris fəaliyyəti təmin edilir, onların özünəməxsus xüsusiyyətləri nəzərə alınır və inkişafı üçün şərait yaradır;

3) inkişafetdirici təlim texnologiyası (əsasında şagirdlərin şəxsiyyətinin daxili .inkişaf mexanizmlərinin birinci növbədə intelektual bacarıqlarının tnkişafına yönəldilir).

Bu qrupların hər birinə bir neçə təlim texnologiyaları daxildir. Belə ki, şəxsiyyət yönümlü təlim texnologiyalarına biliklərin tam mənimsənilməsi, müxtəlif səviyyəli (differensial) tədris, kollektiv qarşılıqlı tədris, modul tədris və s. daxildir. Bu texnologiyalar şagirdlərin fərdi xüsusiyyətlərini nəzərə almağa, müəllimlə şagird münasibətinin təkmilləşməsinə imkan verir.

Şəxsiyyətyönümlü təlim texnologiyalarından biri olan biliklərin tam mənimsənilmə texnologiyası amerika psixoloqları C.Kerrol və B.Blum tərəfindən hazırlanmışdır.

Bu texnologiyanın mahiyyəti ondan ibarətdir ki, bütün öyrənənlər müəyyən vaxt ərzində, yəni, düzgün seçilmiş tədris şəraitlərində lazımi tədris materialın tam mənimsəmək qabiliyyətinə malik olduğunu nümayiş etdirə bilir. Aydındır ki, bu texnologiyanın həyata keçirilməsi üçün bütün şagirdlərə eyni tədris vaxtı və fəaliyyət üçün şərait verilir ki, bu da ənənəvi sinif- dərs sisteminin əhəmiyyətli dərəcədə yenidən qurulmasını tələb edir. Hazırda biliklərin tam mənimsənilməsi texnologiyalarının əsasında sinif- dərs sistemi şəraitinə uyğunlaşmış differensial tədris texnologiyası hazırlanmışdır.

Şəxsiyyətyönümlü təlim texnologiyalarına kollektiv tədris üsulu texnologiyaları aiddir. Bu texnologiyanın əsas əlaməti şagirdlərin qrup və ya cütlər şəklində işinin təşkilidir ki, bu da onlarda müstəqil və kommunikativ bacarıqların formalaşmasına səbəb olur.

Sadalanan şəxsiyyətyönümlü texnologiyalarının elementləri *modul tədris texnologiyasına* inteqrasiya olmuşdur, bunun mahiyyəti də ondan ibarətdir ki, şagird tam sərbəst və ya müəllimin müəyyən köməyi ilə xüsusi olaraq işlənmiş üsulları ilə tədrisini konkret məqsədlərinə nail olur.

Şəxsiyyətyönümlü təlim texnologiyasının həyata keçirilməsi prosesi zamanı aşağıdakı şərtləri yerinə yetirmək lazımdır: 1) tədris materiallarını mənasına görə bloklara ayırmaq və onlara məntiq tələb edən problem xarakterli tədris məsələləri qoymaq); 2) şagirdlərdə dərketmə motivlərini formalaşdırmaq, tədrisin əsl mənasının məzmunun öyrənilməsi ilə deyil, fənnə olan münasibəti olduğunu başa salmaq; 3) şagirdlərin fəaliyyətində yeni fəaliyyət üsullarının tətbiq edilməsi və mənimsənilmə səviyyəsini müəyyən edən idrakı tədris məsələlərini

qurmaq; 4) tədris məsələlərini problem situasiya şəklində təqdim etmək.

İzahedici- əyani və şəxsiyyətyönümlü yeni texnologoyaların ən geniş yayılmış *tədris işlərinin formalaşdırılması metodikasdır* ki, bura qaydalar, nümunələr, alqoritmlər, təsvir planları və coğrafi obyektlərin səciyyəsi şəklində ifadə olunur. Bu texnologiya bir sıra coğrafiya dərsliklərinin metodik aparatında kifayət qədər geniş yer tutur.

Differensial tədris texnologiyalarının tətbiqi şagirdlərin öz tipoloji xüsusiyyətlərinə görə şərti qruplara bölünməsini tələb edir. Qrupların formalaşması zamanı şagirdlərin dərsə olan münasibəti, öyrənmə səviyyəsi öyrətmə dərəcəsi (şəxsiyyətin fərdi keyfiyyəti), fənnə olan maraq, müəllimin şəxsiyyəti nəzərə alınır. Məzmununa, həcminə, mürəkkəbliyinə, məsələlərin həll olunma üsul və metodlarına görə fərqlənən müxtəlif səviyyəli proqramlar, didaktik materiallar seçilir və tədrisin nəticələrinin diaqnostikası üçün baza yaradılır. Beləliklə tədris materialı və onun öyrədilməsi metodikası hər bir şagird qrupuna uyğunlaşdırılır.

Texnologiya metoddan daha əhatəli olub materialın necə öyrədilməsinə, sorğusuna istiqamətlənir.

Aşağıda yeni pedaqoji texnologiyalardan nümunələr verilmişdir:

Problemli təlim texnologiyası

Problemli təlim texnologiyası inkişafetdirici təlim texnologiyaları arasında özünəməxsus yer tutur.

İnkişafetdirici təlim dedikdə tədris materialının mənimsənilməsi, şagirdlərin əqli inkişafı və mədəni tərbiyyəsinin yüksəlməsinə yönəlmiş tədris sistemi başa düşülür.Bu zaman, biliklərin mənimsənilməsi əsas məqsədlərə nail olmaq üçün bir vasitəyə çevrilir. Əsas məqsədlər isə yaradıcı münasibətlərin inkişaf etdirilməsi,


ümumtəhsil bacarıqlarının formalaşdırılması, məntiqi, tənqidi, yaradıcı təfəkkürün inkişaf etdirilməsi, şagirdlərin şəxsiyyət kimi formalaşdırılması, onların, təxəyyülünün, yaddaşının, iradəsinin, ünsiyyət mədəniyyətinin inkişafı və s-dir. Texnologiyanın mənası şagirdlərin problemli məsələlərin müstəqil həllinin öyrədilməsindədir ki, bu zaman müəllim tərəfindən tapşırılan hazır nümunələrin verilməsi deyil, biliklərin müstəqil şəkildə əldə olunması baş verir. Məktəb coğrafiyası kursunun demək olar ki, bütün mövzu və bölmələrinin məzmununda çoxlu miqdarda məntiqi və elmi problemlər mövcud olur ki, bunlar problemli tədrisin təşkilinə şərait yaradır.

Beləliklə, müəllimin peşəkar fəaliyyətində həm ənənəvi metodika, həm də texnologiyalar baxımından geniş imkanlar var. Problemli təlim texnologiyası tamamilə yeni pedaqoji texnologiya deyil. Ötən əsrdə tətbiq edilən əsas texnologiyalardan biri olmuşdur. Problemli təlimin mahiyyətində idrak prosesinin aktivləşdirilməsi, şagirdin tədqiqatçı fəaliyyətinin stimullaşdırıcısı, yaradıcı düşüncəsinin göstəricisi durur. Son vaxtlar problemli yanaşma proqressiv tədris metodu kimi, müasir coğrafiya dərsinin xarakterik xüsusiyyətlərindən biri kimi qiymətləndirilir.

Problemli təlimi müxtəlif mövqelərdən qiymətləndirmək olar. Bəziləri onu yeni tədris tipi kimi ; digərləri tədris metodu kimi və ya tədrisin prinsipi və ya yanaşması kimi; bir qrupu isə yeni didaktik texnologiya kimi əhəmiyyətli olduğunu qeyd edir. Ümumi cəhəti ondan ibarətdir ki, problemli təlim çərçivəsində şagirdlər müəllimlə birlikdə sistematik olaraq problemli vəziyyətlərin və problemlərin həllinə qoşulurlar. (Sxem 22).

Problemli təlimin struktur sxemi

Sxem 22



Psixoloji tədqiqatlar təsdiq edir ki, təfəkkür problemli vəziyyətdə yaranır və onun həllinə yönəlir. Problemli vəziyyət əslində, insanın öz fəaliyyəti nəticəsində ona məlum olmayana rast gəlməsi deməkdir. Lazım olan məlumat əldə edildikdə və çətinlik yaradan səbəb dərk olunduqda, problemli vəziyyət problemin özünə çevrilir. Beləliklə, problemli vəziyyətin əsas elementi- məchul, fəaliyyət göstərmək düzgün və olanı təyin etmək üçün açıq olmalıdır.

Heç də hər bir problemli situasiya təfəkkür fəaliyyətini aktivləşdirmir. Belə ki, əgər subyektdə problemli situasiya daxil olmaq üçün tələbat olmasa və ya axtarışın aparılması üçün ilkin biliklər olmasa, situasiyanı yaratmaq mümkün deyil.

Problemli təlimin hərəkətverici qüvvəsi dərketmədə obyekt və subyektlər arasındakı ziddiyyətdir. Əksər metodistlər problemli təlimi "şagirdin əvvəlki bilikləri ilə yeni fakt, hadisələrin arasındakı ziddiyyət və ya əvvəlki biliklərini yeniləri izah etmək üçün kifayət olmaması və bunun üçün yenilərinin lazım olduğu bir situasiya kimi qiymətləndirir.

Problemli təlimdə müəllim dərs prosesində müxtəlif problemli vəziyyətlər yaradır, şagirdlərin təhlil etmək üçün hazırlayır, ziddiyyətləri görmək bacarıqlarını formalaşdırır, problemi ifadə etmək və onları problemin həll yollarını öyrədir. Problemli sual və ya tapşırığın həlli şagirdləri yeni biliklərin əldə edilməsinə imkan yaradır.

Tədris problemlərinin ifadə olunma formaları müxtəlif ola bilər (problemli suallar, məsələlər, tapşırıqlar), lakin onların hamısı ümumi xüsusiyyətə malikdirlər: onların məzmununda problemli vəziyyətlərin yaranması üçün potensial imkanlar qoyulmuşdur.

Problemli təlim ilk növbədə problemli şərh ilə başlayır və aşağıdakı tələblərə cavab verməlidir:

1. Material kifayət qədər zəngin olmalıdır.
2. Faktiki materialların ixtisar edilməsi mümkün olmalıdır.
3. Tədim-tərbiyə nöqteyi nəzərdən əhəmiyyətli və maraqlı olmalıdır.
4. Tapşırıq çətin olmalı, lakin şagirdlərin baza bilikləri nəzərə alınmalıdır.
5. Tapşırıq dəqiq ifadə olunmalıdır.

6. Problemli tapşırığın verilməsi vaxtı düzgün seçilməlidir.

7. Tapşırığın yoxlanılması dəqiq və obyektiv aparılmalıdır.

8. Tapşırığın yerinə yetirilməsində keçmiş biliklərə istinad edilməsinin vacibliyi nəzərə alınmalıdır.

Problemli təlim texnologiyasının xarakterik əlaməti şagirdlərin müstəqil dərketmə fəaliyyətidir. Lakin, problem situasiyalardan müstəqil çıxmaq üçün şagirdlərdə belə halların oxşar nümunələrini tətbiq etmək və onları tədricən formalaşdırmaq lazımdır.

Problemli məsələlərin həll olunmasında şagirdlər yaradıcı fəaliyyət təcrübəsinə yiyələnirlər. Lakin tədris prosesində hiss olunan nəticələri əldə etmək üçün vəziyyətləri sistemli şəkildə yaratmaq lazımdır. Didaktikada problemli məsələlərin qurulması üçün müxtəlif yanaşmalar mövcuddur. Lakin, bütün hallarda problemli məsələlər tərtib edilərkən aşağıdakı şərtləri nəzərə almaq lazımdır: 1) sual və ya tapşırığının məzmunu coğrafiya elminin aparıcı ideya, anlayış və qanunauyğunluqları ilə əlaqəli olmalıdır; 2) problemin həll edilməsində coğrafiya elminin imkanları; 3) şagirdlərin əqli inkişafı məsələlərin həlli üçün kifayət etməlidir; 4) problemin həlli üçün tədris materialı və faktlar toplanmalıdır.


Coğrafiya tədrisində aşagıdakı problemli məsələ növlərindən istifadə olunur: 1) əsasında elmi fərziyyə olan tapşırıqlar (məsələn, çoxillik buzlaqların təbiətə təsiri, Yerin iqlim dəyişmələrinin yaratdığı dəyişiklər); 2) Məlum biliklərlə məsələnin həlli arasında problemin mövcudluğu (məsələn, Afrikanın ekvatorial və tropik qurşaqlarının yay və qış temperaturlarını müqayisə etdikdə şagirdlər müəyyən etməlidirlər ki, ekvatordan daha uzaqa yerləşməsinə baxmayaraq tropik qurşaqda iyul ayında temperatur ekvatorialdan yüksəkdir); 3) elmi və tarixi təsəvvürlərə zidd

olan fakt və tapşırıqlar. Məsələn, İran körfəzi əslində dənizdir, lakin, o körfəz olaraq qəbul edilmişdir. 4) səbəb-nəticə əlaqələrinin təyin olunmasına yönəldilmiş məsələlər (məsələn, Amazoniyada selva meşələri məhv olarsa ərazidə hansı dəyişikliklər baş verər); 5) dialektik ziddiyyətlərin dərk edilməsini tələb edən tapşırıqlar və s.

Problemli təlimin effektivliyi onun sistematikliyi ilə müəyyən olunur. Dərsi planlaşdıran zaman müəllim mövzunun və ayrı- ayrı dərslərə problemli təlimi tətbiq etmək üçün olan imkanlarını müəyyən etməli, problemli yanaşmanı həyata keçirmə yollarını tərtib etməlidir. (Sxem 23).

Problemli təlimin səbəb-nəticə əlaqələri

Sxem 23



Müəllim üçün əsas çətinlik müxtəlif növ problemli vəziyyətlərin yaradılmasındadır: müəllim şagirdlərin mövcud bilikləri ilə və hər hansı bir məsələ və ya suala cavab tapmaq üçün bilik seçimi qarşısında qalmalarını və ya məlum biliklərin tətbiq edə bilməsinə nail olmalıdır.

Adətən, sinifdə problemli sualın həllinə yalnız bir neçə güclü şagird maraq göstərir. Digərləri isə ən yaxşı vəziyyətdə, cavabı yadda saxlayır, bu zaman, cavabın necə tapıldığını ya başa düşmür, ya da bilmir. Bununla belə şagirdlər yaradıcı təfəkkür fəaliyyətinə qoşulmalıdırlar. Bunun üçün onları, problemli tapşırıqların həlli üçün mövcud olan əsas mərhələlərlə tanış etmək lazımdır. (Cədvəl 11).

Cədvəl 11

Problemin həlli mərhələləri

Mərhələnin adı	Mərhələnin mahiyyəti	Tədris işinin üsulu
Problemin dərk olunması, ziddiyyətlərin açıqlanması	Şagirdin, təəccüblənməsi və ya məsələnin yerinə yetirilməyəcəyinə görə çətinlik hissi.	Səbəb- nəticə əlaqalərnin müəyyən edilməsi, və uyğunsuzluğun tapılması.
Fərziyyənin qısa ifadəsi	Fərziyyənin köməyi ilə cavabın axtarılmasının əsas istiqamətinin qeyd edilməsi	Fərziyyənin irəli sürülməsi
Fərziyyənin sübut edilməsi	Fərziyyədə söylənən ehtimalın sübut və ya təkzib edilməsi	Cavabın bilavasitə təcrübədə yoxlanılması nəticələrin nəzəri mühakimələrlə əsaslandırılması
Ümumi nəticə	Mövcud səbəb-nəticə əlaqələrinin yeni məzmunla zənginləşdirilməsi	Səbəb- nəticə əlaqələrinin müəyyən edilməsi

Problemli məsələnin mərkəzində fərziyyənin sübut olunması və onu dürüst olaraq ifadə etmək durur. 7-ci sinif şagirdlərinə təqdim olunan "Xəritələrdən istifadə edərək axarı olmayan Çad gölündə suyun nəyə görə ilin müəyyən vaxtında şirin olmasını təyin edin" tapşırığı əsasında mühakimələrini izləmək maraqlı ola bilər (Cədvəl 12).

Cədvəl 12

Çad gölünə aid səbəb-nəticə əlaqələrinin təhlili

Səbəb	*Nəticə*
Səth axınlarının olmaması	Göldə duzlu suyun duzluluğu
Səth axınlarının olması	Göldə suyun içməli olması
Səth axınlarının olmaması	Çad gölündə demək olar ki, suyun içməli olması

Birinci mərhələ (problemin dərk olunması, ziddiyyətlərin müəyyən olunması). Əvvəlki coğrafiya kursundan şagirdlərə, axarlı göllərin şirin sulu, axarsızların isə şor olması məlumdur. Mövcud biliklər ilə yeni faktlar arasındakı ziddiyyət şagirdləri zehni çətinliyə salır, çaşdırır, yəni problemli vəziyyət yaradır. Səbəb- nəticə əlaqələrinin qeyd edilməsi şagirdlərdə çətinlik yaradan amilləri dərk etməyə kömək edir.

Beləliklə, səbəb nəticə əlaqələrinin təhlili nəticəsində şagirdlər yaranmış təsəvvürlərlə yeni faktlar arasında ziddiyyətləri müəyyən edirlər. Məhz bu ziddiyyət və onun həll olunası problem deməkdir.

Ikinci mərhələ (fərziyyənin qisa ifadəsi). Müəllim şagirdlərdən Çad gölündən axının olmasına aid məlumat toplamağı tapşırır. Şagirdlərin cavabları əsasında fərziyyə ifadə olunur; səth axarının olmaması suyun duzlaşmasına əsas verir, lakin bu baş vermir, görünür Çad gölünün axarı var.

Üçüncü mərhələ (fərziyyənin sübut olunması). Fərziyyənin sübut olunması problemli tapşırığın

dəyişməsini tələb edir. Belə olan halda şagirdlər bu suala cavab verməlidirlər: "Çad gölündən suyun axması necə baş verir?". Bu sualın cavabı əvvəlki baza biliklərin yada salınmasını tələb edir. Şagirdlər yada salmalıdırlar ki, axınlar yerüstü, yeraltı ola bilər və eyni zamanda müvəqqəti və daimi ola bilər. Fərziyyə aşağıdakı kimi möhkəmləndirilir: 1) çaydan yağışlar vaxtı müvəqqəti yerüstü axarların olması mümkündür; 2) çaydan müvəqqəti və ya daimi yeraltı axar ola bilər; 3) bunların hər ikisi eyni zamanda baş verə bilər.

Həll olunan problemin çətinlik səviyyəsindən asılı olaraq, sübut, müəllim, yaxud şagirdlərin özləri tərəfindən oluna bilər. Bütün hallarda şagirdlərin mülahizələri müəllimin rəyləri ilə tamamlanmalıdır. Çünki şagirdlərdə suala cavab vermək üçün kifayət qədər bilik yoxdur. Təqdim olunan nümunədə Çad gölünün- şirin olmasının izahı isə belə ola bilər: ilkin ehtimala görə yeraltı axarlar əvvəllər bundan da böyük olan və Çad gölünün hüdudlarına daxil olan Bodele çuxuruna tökülür; digər fərziyyəyə görə Niger çayının hövzəsinə aid olan quru çay dərəsiylə axın baş verə bilər. Dəlillərin subut olunması üçün şagirdlərlə birlikdə çayın axarının yağışlar zamanı baş verdiyinə dair məlumat təqdim etmək mümkündür.

Dördüncü mərhələ (ümumi nəticə). Problemin həlli nəticə ilə bitir ki, şagirdlər, göl sularında duzluluğun səbəbləri haqqında bilikləri genişlənir və dərinləşir.

Problemli tapşırıqların geniş müzakirəsini tədris ilində bir neçə dəfə aparmaq lazımır.

Problemli təlim texnologiyalarının tətbiq olunmasının əhəmiyyəti böyükdür . Belə ki:1) şagirdlər əqli fəaliyyətin xarakterini dəyişir; 2) onlarda yaradıcı düşünmək qabiliyyəti formalaşır, fərziyyələri irəli sürmək və onu

yoxlamaq bacarığı yaranır; 3) şagirdlərin əksəriyyəti problemin həlli prosesinə cəlb olunur.

Psixoloqların araşdırmaları göstərir ki, şagirdlərin əqli inkişafı üçün müstəqil olaraq qeyri standart sualların tərtib olunması müəllim tərəfindən verilən problemlərin hazır həllindən daha effektivdir. Buna görə, şagirdləri dərslikdə birbaşa cavabı olmayan qeyri standart sual və tapşırıqları haqqında fikirləşməyə hələ coğrafiyanın başlanğıc kursundan öyrətmək lazımdır. Qeyd etmək lazımdır ki, şagirdlər belə tapşırıqları böyük maraqla yerinə yetirirlər.

Dünya təcrübəsi göstərir ki, indiki zamanda problemli təlim çərçivəsində şagirdlərin imkanlarına uyğunlaşdırılmış və elmi cəhətdən, yüksək səviyyəli problemli suallardan istifadə edilməsi kifayət deyil. Şagirdlərə bilavasitə şəxsən tanış olan, onların maraqları çərçivəsində yerləşən problemli vəziyyətlə qarşılaşmasına ehtiyac böyükdür. Belə problemlər real problemlər adlanır, onlardan istifadə olan problemli təlim- real problemli təlim adlanır.

Xarici metodik ədəbiyyatda real təlim problemlərinin qiymətləndirmə meyarları müəyyən olunmuşdur: 1) problemlər konkret şagirdlər qrupunun tələb və maraqlarına uyğun olmalıdır; 2) problemlər şagirdlərin yaş xüsusiyyətlərinə uyğun olmalıdır; 3) tədris probleminin seçilməsi zamanı şagirdlərin ilkin hazırlıq və təcrübəsi nəzərə alınmalıdır; 4) tədris probleminin seçərkən fəaliyyət planı və onların həlli üsulların tərtib olunarkən şagirdlər özləri iştirak etməlidirlər; 5) problem qərarvermə mexanizmini aktivləşdirərək həll yollarının seçiminə imkan verməlidir; 6) seçilən problem sadə və təkrarlanan olmalıdır ki, bütün sinifin və ya böyük bir şagirdlər qrupun onun həllinə sərf etdiyi cəhdləri doğrultmalıdır 7) tədris probllemləri kifayət qədər ciddi olmalıdır ki, bütün sinifin maraqlanmasına zəmanət versin; 8) problemlərin seçilməsi

zamanı onların təhlili üçün lazım olan məlumat mənbələri nəzərə alınmalıdır; 9) seçilən real problemlərin həlli zamanı yalnız fənni deyil, digər fənnarası əlaqələrə ehtiyac ola bilər.

ABŞ məktəblərinin nümunəsində real problemin həll olunmasına misal göstərək. Bu tapşırıq «Necə getmək olar» adlanır. Ənənəvi problemin həllində olduğu kimi, real problemlərin həlli metodikası da bir neçə mərhələdən ibarətdir.

Birinci mərhələ (problemin qoyuluşu). Müəllim şagirdlərə tapşırıq verir ki, ucuz və təhlükəsiz olaraq bir yerdən başqa yerə getməyin mümkün olduğunu müəyyən etsinlər. Təklif olunan problemin həll edilməsi üçün şagirdlər coğrafiya ilə bağlı bir çox anlayışlarla tanış olurlar: "nəqliyyat qovşağı", "nəqliyyat şəbəkəsi", "nəqliyyat axını", "ictimai nəqliyyat", "şəxsi nəqliyyat"və s. Bu zaman bir sinifdə evdən məktəbə və əksinə getmək probleminin öyrənmək, digərində öyrənilən rayonun tədris və mədəni müəssisələrinə getmək problemi ilə məşğul olmaq tapşırığı verilir. Yuxarı sinif şagirdlərini kənd yerindən şəhərə və ya ölkənin bir yerindən digər yerinə gediş problemi ilə maraqlandırmaq olar.

Ikinci mərhələ (məsləhət olunan tədris növləri). Məlumatların yığılması və sistemləşdirilməsi fəaliyyəti çöl tədqiqat üçün böyük imkanlar yaradır. Məktəblilər bir neçə qrupda birləşərək yerli nəqliyyat vasitələri haqqında məlumatlar toplamağa başlayırlar. Onlar yerli əhalidən müsahibələr götürür və anketləşdirir, avtobusların marşrutlarını öyrənir, günün müxtəlif saatlarında dayanacaqdakı insanların sayının dəyişməsini müşahidə edir, gedişə sərf olunan vaxtı təyin edir və s. yığılmış məlumatları şagirdlər diaqram, kartoşxem, qrafik, şəkilləri hesabata daxil edərək təqdim edirlər. Bu material sinifdə yeni müzakirələrin əsasını təşkil edir. Şagirdlər nəqliyyatda

əhaliyə xidməti yaxşılaşdırmaq üçün ictimai nəqliyyatın yeni sxemlərini tərtib edirlər.

Üçüncü mərhələ (təkliflərin praktikaya tətbiql edilməsi). Əldə edilmiş təkliflər müxtəlif üsullarla həyata keçirilir: yerli idarəetmə orqanlarına məktubla müraciət etmək, bu ideyaların tərəfdarı olan şəxsləri axtarmaq, əhalidən imzalar toplamaq və s. Yuxarıda göstərilən məsələnin həllindən sonra siniflərdən biri yerli hakimiyyətə şagirdlər üçün velosiped yolunun tikilməsi üçün müraciət edir, digər sinif nəqliyyat axınlarını dəyişməyi və məktəbin yanındakı nəqliyyat xəttini şagirdlər üçün təhlükəsiz etmək üçün birtərəfli etməyi təklif etdilər; Başqa bir sinif isə öyrənilən rayonun bəzi avtobusların hərəkət cədvəlini və marşrutunu sərnişinlərin xidmətini yaxşılaşdırılması məqsədi ilə dəyişdirilməsini təklif edirlər.

Beləliklə, real problemlərin mövcudluğu göz önündədir. Onlar şagirdlərin ehtiyaclarını əks etdirir, onların tədqiqatçılıq üsullarına yiyələnməsinə kömək edir, coğrafiya və tədris fəaliyyətinə bütövlükdə olan müsbət motivasiyanı formalaşdırır. Çox zaman real problemlər diyarşunaslıq xarakteri daşıyır və kiçik qruplar şəklində həyata keçirilir.

«BİBÖ» texnologiyası (ingilis dilindən tərcümədə: Know-want to know –learned). BİBÖ- fəal təlim metodlarından biridir. Hərfi mənada «Bilirk» -«İstəyirik bilək»- «Öyrəndik» kimi ifadə olunur. Bu metod şagirdlərin dərs boyu fəallığını təmin edir, birgə öyrənmənin yüksək mərhələsini yaradır. Metodun birinci «Biz nəyi bilirik?» mərhələsində şagirdlərin dünyagörüşü, onların müstəqil öyrənmə qabiliyyəti, mövzuları əlaqələndirmə imkanları və hafizəsi təyin olunur. İkinci «Nəyi bilmək istəyirik?» mərhələsində isə artıq şagirdlərin təfəkkür tərzi, onların coğrafi düşüncə səviyyəsi, elmi fantaziyaları, əqli qabiliyyəti və istəklərinin əhatə dairəsi üzə çıxır. Müəllim şagird ehtiyaclarını nəzərə almaqla onları passiv dinləyicidən aktiv

iştirakçıya sadəcə öyrənən obyektdən öyrətmək istəyən subyektə çevirir.Şagirdlərin öyrənmək istədikləri müəllim və şagirdlərin iştirakı ilə tədqiqat nəticəsində birgə öyrənilir. Bu metodun sonuncu, daha vacib «Biz nəyi öyrəndik» mərhələsinin həyata keçirilməsinə imkan yaradır. Biliklərin möhkəmləndirilməsi, qoyulmuş sualların cavablandırılması, yeni biliklərin üzə çıxması mövzunun öyrənilməsində məqsədə xidmət edir.

Coğrafiya fənni üzrə Azərbaycanın iqtisadi rayonlarının öyrənilməsində BİBÖ metodu aşağıdakı nümunədə göstərilə bilər (Şəki-Zaqatala iqtisadi rayonu üzrə) (Cədvəl 13)

Cədvəl 13

BİBÖ

Bildiklərimiz	İstəyirik bilmək	Öyrəndiklərimiz
- Böyük Qafqazın cənub yamacında yerləşir - Bol su ehtiyatı, normal rütubət balasnı, məhsuldar torpaqlar, meşələr, alp və subalp çəmənləri. Acınohur qış otlaqları əkinçiliyin və heyvandarlığın i nkişafını təmin edir. -Faydalı qazıntılarla	- rayonda əsasən yeyinti və yüngül sənayenin inkişafına səbəb olan amillər hansılardır? -Təsərrüfatının ixtisaslaşdırılmış sahələri hansılardır? -Metallurgiya sənayenin inkişaf etməmsinin səbəbi? - Əhalinin (xüsusən gənclərin)	- Sənaye müəssisələri əsasən yerli kənd təsərrüfatı xammalı hesabına işləyir. -İqtisadi rayon respublika kənd təsərrüfatı əmək bölgüsündə tütünçülük, baramaçılıq, meyvəçilik, xüsusən də qərzəkli meyvələr, taxılçılıq, üzümçülük, ət-süd və ət-yun

zəngindir. -Çoxmillətli rayondur -Rayon istirahət-turizm zonası kimi tanınır.	çoxunun iqtisadi rayondan kənara çıxmasının nəticəsi?	təmayüllü qoyunçuluqda təmsil olunur. -Polimetal –filiz yataqlarına böyük təkan verə bilər. - Orta respublika səviyyəsi ilə rayonda əhali çox seyrək məskunlaşmışdır.

«Venn diaqramı» Hər hansı iki mövzunun (informasiyanın, coğrafi məlumatın, anlayışın, obyektin və s.) müqayisəli səciyyəsini əks etdirən mövzularda «Venn diaqramı»nın tətbiq edilməsi tədris baxımından çox maraqlıdır. İki mövzunun oxşar və fərdi cəhətlərinin üzə çıxarılmasına həsr olunan bu metod şagirdləri alternativ düşüncəyə cəlb edir, onlarda qoyulmuş məsələnin daha çox cəhətli müzakirəsini tələb edir. Yuxarı Qarabağ və Dağlıq Şirvan, iqtisadi coğrafi rayonun müqayisəsini Venn diaqramına əsasən verək. (O cümlədən Abşeron və Gəncə-Qazax, Lənkəran və Quba-Xaçmaz, Aran və Şəki-Zaqatala və s.). (Cədvəl14)

Cədvəl 14

Venn diaqramı

Yuxarı Qarabağ rayonunun fərdi cəhətləri	Yuxarı Qarabağ və dağlıq Şirvan iqtisadi rayonlarının oxşar cəhətləri	Dağlıq Şirvan iqtisadi rayonlarının fərdi cəhətləri
1.Tərkibində respublika tabeli iki şəhər var.	1.Dağ rayondur	1.Respublika tabeli şəhəri


2.Xarici ölkə ilə (İran) sərhəddə malikdir. 3. iqtisadi rayonla həmsərhəddir 4. Polimetal filiz yataqları var 5.Ərazisi Ermənistan ordusu tərəfindən işğal olunub	2. Meşələr geniş yayılmışdır 3.Tikinti materialları ilə zəngindir 4.Müalicəvi mineral bulaqlar var 5.Ağac emalı inkişaf edib 6.Üzümçülük, heyvandarlıq ixtisaslaşıb 7.Əsas sənaye sahələri yüngül və yeyinti sənayesidir 8.Hər ikisində toxuculuq inkişaf edib. 9. Turizm potensialı yüksəkdir.	yoxdur 2. 4 iqtisadi rayonla həmsərhəddir 3. Neft-qaz aşkar edilib 4. Taxılçılıq inkişaf edib 5. Gərgin seysmik zonadır.

«Metaforik düşüncə» texnologiyası

Şagirdlərə təqdim olunan iki məhfum arasında oxşar cəhətlərin müəyyən edilməsinə xidmət edir. Şagirdlərin bilik səviyyəsi həmin cəhətlərin təyin edilməsindəki say çoxluğunun üzə çıxarılmasına və bununla da onların idrak səviyyəsinin aşkar edilməsinə əsaslanır. Metaforik düşüncə texnologiyasını coğrafiyanın əksər mövzularında tətbiq etmək olar. Məntiqi və tənqidi təfəkkürün inkişafına müsbət təsir edən bu texnologiya şagirdin praktik bilik qazanmasına xidmət edir. (Sxem 24)

Qərb və passat küləklərinin müqayisəsi

Sxem 24



Metaforik düşüncəni daha dərinləşdirmək olar. Belə ki, iki məhfum deyil daha çox məhfumların oxşar əlamətlərini cəmləmək mümkündür.

«Klaster» texnologiyası – şaxələnmə deməkdir. Hər hansı mövzuya dair şagirdləri açıq və müstəqil düşüncəyə istiqamətləndirilən metoddur. Beyin həmləsinin qeyri-səlist xətt üzrə işləmə vəziyyətidir. Mövzunun öyrənilməsindən əvvəl şagird təfəkkürünə təkan vermək, onu düşüncəyə cəlb etmək, onlarda mövzuya dair maraq yaratmaq, digər fənnlər və ya şagirdin dünyagörüşünün hüdudlarını üzə çıxarmaq, biliklər arasında əlaqə yaratmaq və s. fəaliyyətlərə xidmət edir. Şaxələndirmə tətbiq etmək üçün ilk növbədə mövzunun öyrənilməsinə hazırlıq zamanı ideyaların toplanması tələb olunur.

Klasterlər şagirdlərin mövzuya aid sərbəst düşüncəsinə kömək edir.

İş, ona ayrılan vaxt ərzində davam edir. Klaster keçilmiş mövzuların təkrarı üçün bir vasitədir. Bu strategiya mətnin oxunulması zamanı və ya mühazirənin dinlənilməsi zamanı da tərtib oluna bilər.

Şaxələndirmə, şagirdləri mövzu haqqında açıq və sərbəst düşünməyə sövq edən pedaqoji strategiyadır. O,

yalnız ideyalararası informasiyalar barədə düşünməyə təkan verən birləşmələr yaradır.

Şaxələndirmədən müasir dərsin həm düşünməyə yönəlmə, həm də düşünmə mərhələsində istifadə oluna bilər. Ondan, mövzu ətraflı öyrənilməzdən əvvəl, təfəkkürə təkan vermək üçün də istifadə edilə bilər. O, həmçinin öyrənilənləri yekunlaşdırma vasitəsi; yeni assosiasiyaların meydana gəlməsinin stimullaşdırılması üsulu və ya yeni təsəvvürlərin qrafik metodu kimi istifadə oluna bilər. Bu, fəaliyyətin yazılı nitq təliminin başlanğıc mərhələsində, xüsusilə könülsüz yazanlardan ötrü qüvvətli vasitə kimi xidmət edə bilən yazılı növüdür. Əksər hallarda bu, kiminsə mövzu haqqında biliyinə, təsəvvür və qənaətlərinə nüfuz etməyə imkan verən strategiyadır. Bu, yazı ilə əlaqədar fəaliyyət olduğuna görə, yazanı elə məlumat və əlaqələrdən xəbərdar edir ki, onlara şüurlu surətdə malik olduğunu, yazan özü də bilməyə bilər.

Şaxələndirməni təqdim etmək üçün aşağıdakı 5 bəndi yerinə yetirmək vacibdir:

1.Bu prosesi təsvir etmək və şaxələndirmənin mərhələlərini göstərmək;.

2. İştirakçılar üçün maraqlı olan mövzu seçmək və prosesi bir qrup prosesi kimi modelləşdirmək;

3. Qrup üçün maraqlı olan ikinci mövzu seçib, mövzü çərçivəsində fərdi şaxələndirmə aparılması üçün vaxt ayırmaq.

4. Beş və ya dörd iştirakçının öz şaxələndirmələrini qrupla bölüşmələri üçün vaxt ayırmaq;

5. Qruplarda, ya da konkret cütlərdə, iştirakçıların hazırladıqları şaxələndirmələrindən əvvəl sinifdə necə istifadə edəcəkləri barədə müzakirə aparmaq

Şaxələndirmənin mərhələləri sadə və asan yadda qalandır.

1. Əsas sözü və ya ifadəni kağızın, lövhənin və ya başqa yazı müstəvisinin ortasına yazmaq.

2. Seçilmiş mövzu ilə əlaqəli ağla gələn söz və ya fikirləri yazmaq.

3.Fikirlər yada düşüb yazıldıqca, onların arasında əlaqəli görünənləri xətlərlə birləşdirmək.

4. Vaxt bitənə və ya bütün fikirləri bilənə qədər ağla gələn fikirləri mümkün qədər çox yazmaq.

Şaxələndirmənin tətbiqi zamanı əməl edilməli olan yalnız bir neçə əsas qayda var:

- Ağıla gələn hər şeyi yazmaq, fikirlərin «keyfiyyəti» haqqında nəticə çıxarmağa çəhd etməmək, sadəcə olaraq, onları yazmaq:

- Bütün fikirlərin ifadə olunması üçün ayrılmış vaxt bitənə qədər yazmağı dayandırmaq.

- Mümkün qədər çox əlaqələr çəkmək. Fikirlərin sayını, axınını və ya əlaqələri məhdudlaşdırmaq.


Hər kəsin öz marağında olan mövzuya aid şaxələndirmə qırmağa cəlb olunması, adətən, müvəffəqiyyətli olur. İştirakçılar valideynlərinə, bacı-qardaşlarına və ya dostlarına, yaşadığı rayon, kənd, getdikləri ölkəyə aid şaxələndirmə qurmağı seçə bilərlər.

Şaxələndirmə üçün coğrafiya kurslarında sonsuz miqdarda imkanlar vardır. (Sxem 25).

Şaxələndirmə texnologiyasının təhlilini verən, görkəmli pedaqoq Cenni Stilin (1991) təsvir etdiyi kimi, şaxələndirmə çevik strategiyadır. Pedaqoqun fikrincə qrup fəaliyyəti zamanı, o, qrupun ideyaları üçün karkas rolunu oynaya bilər ki, bu da şagirdlərə, digərlərinin ötəri təsəvvürləri və yaratdıqları əlaqələrin nümayiş etdirilməsini, habelə onlardan hər birinə qoşulmaları təmin edir. Şaxələndirmənin qrupla və ya fərdi şəkildə həyata keçirilməsindən asılı olmayaraq, müəllimlər üçün aşağıdakı üç qaydanı saxlamaq vacibdir.

Klasterin (şaxələndirmənin) quruluşu sxemi

Sxem 25



a) verilən müddət ərzində yazmağı heç vaxt dayandırmaq olmaz;;

b) şagirdlərin düşündükləri barədə nəticə çıxarmağa cəhd etmək lazım deyil;

c) hərf səhvləri barədə narahat olmağa dəyməz;

Fərdi şaxələndirmə, qrup halında beyin həmləsindən sonra xoş bir istirahət ola bilər.

«Əqli hücum» texnologiyası

«Əqli hücum» - yaradıcı təfəkkürün inkişaf etdirilməsi məqsədi daşıyır. Əqli hücum və ya «Beyin həmləsi» prosesini aparmaq üçün:

- sinif qruplara bölünür;
- aparıcı seçilir;
-şagirdlərin bir-birini tənqid etməsinin qəti qadağan olması haqqında onlara təlimat verilir;
- qrupda vaxta nəzarət edən şagird seçilir;
- hücum mərhələləri arasında şagirdlərə qısa fasilələr verilir;

- müzakirə başlayır.

Hər hansı problem üzərində «Əqli hücum»-un aparılması üç mərhələdə keçirilir:

İlk növbədə birinci mərhələ yəni ideya bankı yaradılır. Bu mərhələdə əsas məqsəd –mövzuya aid təsadüfi, qeyri-real, tamamlanmamış fikirlər yığılır. İdeyalar aydın şəkildə verilərsə, aparıcılar bu mərhələni daha tez yekunlaşdıra bilirlər.

İkinci mərhələdə ideyalar analiz olunur – qrup üzvləri yığılmış ideyaları tənqidi araşdırır. Lakin, bu zaman əsas qaydalardan biri əsas götürülür: hər bir ideya müsbət tərəfdən analiz olunmalı, təkmilləşdirilərək digər şəraitə tətbiq olunmalıdır.

Üçüncü mərhələdə nəticələr araşdırılır. Qrup üzvləri sinif qarşısında təqdim etmək üçün verilmiş ideyalardan ən maraqlı olanlarını (2-5 -ni) seçir. Bu mərhələdə ən vacib şərt daha çox qərar təqdim etməkdir.

«Əqli hücum» texnologiyası

- qısa vaxt ərzində çoxlu ideyaların yığılmasına imkan verir
- hər hansı yeni mövzunun öyrənilməsinə başlayarkən daha böyük effekt verir
- həllində daha çox ideyaların mövcud olduğu problemlərin (mövzu və tapşırığın) həllində «əqli hücümün» tətbiq edilməsi onun daha maraqlı olmasına imkan verir.
- «Hücum» mərhələləri arasında şagirdlərə qısa fasilələr verilməlidir.

Nümunə üçün aşağıda verilmiş mövzu əsasında «Əqli hücum» texnologiyası tətbiq oluna bilər:

«Su ən geniş yayılmış vacib mineral olub, dünya okeanında, dənizlərdə, çay və göllərdə, su anbarlarında, buzlaqlarda yayılmışdır. Suyun keyfiyyəti vacibdir. Suyun keyfiyyətini yaxşılaşdırmaq üçün hansı tədbirlər görmək lazımdır?

- müəssisələr- yəni tələbatçılar nə etməlidir?

- əhalinin fəaliyyəti necə olmalıdır?
- hökumət hansı tədbirləri yerinə yetirməlidir?
- jurnalistlərin fəaliyyəti necə olmalıdır?
- su təhcizat idarəsinin işi necə olmalıdır?
-nəzarət orqanlarının vəzifələri nədən ibarət olmalıdır?
- səhiyyənin hansı vəzifələr durur?

«Əqli hücum» bəzən bir dərs müddətinə sığmadığı vaxt onu tələsdirmək lazım deyil. Qrupların dərsdənkənar fəaliyyətinə imkan vermək lazımdır.


«Əqli hücum» texnologiyasına bəzən «beyin həmləsi» də deyilir. Ümumiyyətlə bu texnologiya XX əsrin ikinci yarısından ABŞ-da tətbiq olunmağa başlanmışdır.

«Fikrimdə nəyi tutmuşam» Müəllim şagirdlərdə maraq yaratmaq üçün dərsin motivasiya mərhələsində müxtəlif üsullardan – şəkil, krossvord, problem sual və s.-dən istifadə edə bilər. Bu üsullardan biri də «Fikrimdə nəyi tutmuşam»-dır. Yeni mövzunun əvvəlində şagirdlərin həmin mövzuya aid biliklərini əldə etmək «məlumdan-məchula» prinsipinin tətbiqinə əsaslanır. Konvertdəki vərəqələr çıxarılır və oradan ayrı-ayrı cümlələri şagirdlər «oxuyur» «Yayda şərq küləkləri hakim olur», «Qırmızı, sarı torpaqlar geniş yayılmışdır», «2000 ildən çoxdur ki, əkinçilik mövcuddur», «Əhalisinin sayı çox və sıxdır», «Dünyada çəltik əkinlərinin ən böyük massivlərindən biridir» və s. Açar «cümlələr» əsasında şagirdlər soruşulan ərazinin «Şərqi Çin düzənliyi» olduğunu müəyyən edə bilir.

Digər nümunə qrafik formada aparılır. Lövhədə aşağıdakı sxem çəkilir. Bəzən müəllimlər sxemi vatman kağızında (elektron tabloda daha çox effekt verir) çəkir və yazıları üstünü örtülü saxlayır. İfadələr mövzuya «açar» rolunu oynayır.(Sxem 26)

«Fikrimdə nəyi tutmuşam» sxematik təsviri

Sxem 26



Verilmiş nümunədə, şagirdlər ifadələrin külək hadisəsinə aid olduğunu müəyyən edə bilirlər.

«Tədris diskussiya və dialoqları»

Diskussiya –latın sözü olub «tədqiq etmək» deməkdir.

Bu texnologiyaları yuxarı sinif şagirdləri arasında keçirmək məqsədə uyğundar. Çünki diskussiya və dialoqlar daha çox bilik və onların əsaslandırılmasını tələb edir ki, şagirdlər bunun nəticəsində öz mövqeyini açıqlayır və arqumentlər gətirərək, onun tərəfində durur.

Diskussiyanın gedişində ən mühüm tələblərdən biri şagirdlərdə başqalarının fikirlərini dinləməkdir.

Proses zamanı müəllimin istiqamətləndirici fəaliyyəti nəticəsində mübahisəli sual irəli sürülür, şagirdlər öz aralarında disskussiya edir və problem situasiya yaranır.

Diskussiyanın bir neçə növü vardır.

1. Qəfildən yaranan diskussiya-hər hansı problemin həlli siniflə və ya sinif daxili hər hansı qrup içərisində etiraza səbəb olduqda baş verir.

2. Planlaşdırılmış diskussiya-mübahisə predmeti əvvəlcədən şagirdlərə çatdırılır və diskussiyaya «hazırlıq» görülür.

Şagirdlərin iştirakına görə diskussiyalar üç qrupa bölünür:

a) cütlüklər arasında –iki şagirdin iştirakı ilə həyata keçirilir, belə diskussiya, dialoq-diskusiya adlanır.

b) qrup diskussiyalar –hər hansı sual və tapşırığın həlli qrup daxilində aparıldıqda yaranır.

c) kütləvi diskussiya-hər hansı mübahisəli məsələnin həllində bütün sinif iştirak etdikdə yaranır.

Diskusisiyanın həyata keçirilməsi mərhələləri:

1) Motivasiya-diskussiyaya hazırlıq mərhələsidir.

Bu mərhələnin əsas məqsədi diskussiya üçün nəzərdə tutulmuş suala şagirdlər arasında maraq yaratmaq və problemi üzə çıxarmaqdır.

2. Diskussiyanın özü -bilavasitə diskussiya

3. Diskussiya nəticələrinin yekunlaşdırılması

Diskussiyanın həyata keçirilməsində aşağıdakı tələblər qəbul edilmişdir.

- Diskussiya mövzusu şagirdlərin yaş səviyyəsinə uyğun olmalıdır.

- Diskussiya mövzusu şaigrdlərin bilik, bacarıq, vərdişlərinin, yaradıcı fəaliyyətinə uyğun seçilməlidir.

-Diskussiya üçün elə suallar seçilməlidir ki, onları təkzib edən yəni əksi olan faktorlar çox olsun və mübahisə

nəticəsində aparıcı ideyalar üzə çıxara bilsin. Diskussiyanın məzmunu və ssenarisinin hazırlanması diskussiyanın mükəmməl olması üçün əlavə coğrafi məlumatlar cəlb edilməlidir, həmçinin şagirdlərin diskussiya aparmaq qaydalarına əməl etməsinin təşkil edilməsi müəllimin əsas vəzifələri sayılır. Məktəb coğrafiyasında diskusiyaların tətbiq edilməsi üçün geniş imkanları var. Fənnin tərkibinə daxil olan mövzularda tədris mübahisələrinin təşkili edilməsi üçün kifayət qədər problemli suallar var, məsələn, «Küləyin insana xeyri çoxdur, yoxsa zərəri?», «Qızılağac qoruğunda bataqlıqları qurutmaq lazımdırmı» və s. Dialoq texnologiyasını və ya diskusiyanı tətbiq edərkən müəllimə coğrafiya dərsliklərindəki zəngin metodik aparatdan istifadə edə bilər.

« Konseptual cədvəl»

Şagirdlərin sərbəst olaraq müəyyən edidlmiş suallara cavab yazmasına xidmət edir. «Konseptual cədvəl» – mövzu daxilində olan əsas termin və anlayışların təhlilinə əsaslanır.

Konseptual cədvəlin quruluşu

Termin	Əlamətlər
Təzyiq	
Flüger	
Barometr	

«Tədris- oyun» texnologiyası

Tədris prosesində oyun təcrübəsindən istifadənin tarixi xeyli əvvələ gedib çıxır. Lakin, psixologiya, didaktika və metodikada «oyun» anlayışına vahid yanaşma olmasa da bu oyunlar «işguzar oyun» kimi qəbul edilir. Tədrisdə oyuna müxtəlif baxışlar mövcuddur:

1) fəaliyyət modelinə istiqamətlənmiş tədris üsulu kimi;

2) tədris fəaliyyətinin motivasiyasına yönəlmiş tədris üsulu kimi;

3) tədris fəaliyyətinin yeni bir forması kimi (qeyri ənənəvi dərs forması kimi);

4) tədris fəaliyyətinin təşkilat forması kimi (kollektiv dərsin növü kimi);

5) tədrisin yeni texnologiyası kimi.

Oyun dərsləri (didaktik oyunlar) – İşgüzar oyunların dərsin müxtəlif mərhələlərinə təqdim edilməsidir. (rollu oyunlar, sujetli oyunlar və s.). Coğrafiya müəllimlərinin iş təcrübəsində *tədris-işgüzar oyun texnologiyası* geniş yayılmışdır. Lakin onların həyata keçirilməsi epizodikdir. Tədris oyunları yalnız şagird və müəllimlərin ciddi hazırlığı və fəallığı işgüzar oyunların nəticələri əvvəlcədən yazılmış ssenari ilə həyata keçirildikdə, yaranа bilən mürəkkəb situasiyaları qabaqcadan nəzərə aldıqda və həmən vəziyyətlərdən çıxış yollarını müəyyən etdikdə daha yüksək nəticələr verə bilər.

Şagird şəxsiyyətinin inkişaf olunmasında işgüzar oyunlar böyük potensiala malikdir:

1. Oyunlar şagirdlərdə motivasiya üçün tələbat mühiti yaradır.

2. Xudbinlik hisslərini aradan qaldırır (hər hansı personaji ifa edən şagird özünü cəmiyyətdə ona oxşadır).


3. Şagirdlərin düşüncə və hərəkətlərində sərbəstlik inkişaf edir .

4. Oyunlar şagirdlərə sistemlilik, məsuliyyətlilik, kollektivçilik xüsusiyyətlərini formalaşdırılmasında rol oynayır.

Oyunların təsnifat növləri çoxdur. Aparılmasına görə oyunlar dərs və dərsdən kənar vaxtlarda yerinə yetirilir; didaktik məqsədinə görə- onlar yeni materialın öyrənilməsi, bilik və bacarıqların yoxlanılması, möhkəmləndirmə və ümumiləşdirməsi və s zamanı yerinə yetirilir. Tədris fəaliyyətinin təşkilat formasına görə isə oyunlar- fərdi və kollektiv olurlar. (Sxem27).

Oyunların təsnifatı

Sxem 27



Fəaliyyət sahəsinə görə oyunlar-fiziki, intellektual, sosial və psixoloji xüsusiyyətlərə malik olur.

Pedaqoji xarakterinə görə oyunlar stolüstü, məhəldə, otaq şəraitində; kompyuter və ya televiziya vasitəsi ilə; təlimin digər texniki vasitələri ilə aparıla bilər.

Oyunların həyata keçirilməsi müxtəlif fənnlər üzrə fərqlidir.Fənn qruplaşmasına görə oyunlar aşağıdakı kimi qruplaşdırıla bilər:

1. Riyaziyyat, kimya, biologiya, ekologiya və s
2. Musiqi, ədəbiyyat, teatr
3. Əmək təlimi və texniki təlim
4. İdman, bədən tərbiyəsi və turizm
5. İdarəetmə, iqtisadi, kommersiya və s

Təşkil edilməsi metodlarına görə oyunlar fənn, süjetli, rollu, işgüzar, təqlidedici, dramlaşdırılmış ola bilər.

Bəzi oyun növlərinin metodik xüsusiyyətlərini nəzərdən keçirək:

Təqlidedici (rollu) oyunlar şagirdlərdən rolların yerinə yetirilməsi üçün xüsusi hazırlıq tələb edir. Ən mühüm rollu oyun növləri aşağıdakılardır:

1) ədəbiyyat və mətbuatda təsvir olunan hər hansı bir hadisənin səhnələşdirməsi;

2) "başqasını ifadə etmək": digər insanın hərəkət motivlərinin (məsələn, zavod direktorunun) təqlid etdirilməsi;

3) tarixi hadisələrin müasirləşdirilməsi;

4) müəyyən ssenari üzrə hər hansı konkret sualın həllinin hərəkətlər vasitəsilə oynanılması;

5) ümumi mövzular

6) sosial vəziyyətlərin (qadağan lövhəsi qarşısında bitkilərin qoparılması, ovçunun ov etməsi, və s.) və bu vəziyyətə düşmüş insanların hərəkətlərinin təqlid edilməsi;

7) digərlərinin rolunda çıxış etməklə (məsələn, brakonyerlərin tutulması zamanı onların hərəkətləri və s.).

Rollu oyunlar təkcə fənn üzrə biliklərin yüksəldilməsinə deyil, eləcə də öyrənmə zamanı özünü ifadə etmək bacarığının əldə edilməsinə və digər ətrafdakıların onu başa düşülməsinə yönəldir. Təlim prosesinin real həyatı əks etdirən rollar vasitəsi ilə həyata keçirilməsi müsbət nəticə verir..

Sərbəst rolların oynanılması mühitini yaratmaq üçün mühüm faktorları yadda saxlamaq lazımdır. İlk növbədə qınaq və tənqid istisna edilməlidir. Rolların oynanılması zamanı "düzgün" və "səhv", "yaxşı" və "pis" münasibətə yol vermək olmaz. Müəllim auditoriyada kiməsə gülməyin qarşısını vaxtında almalıdır. Ikincisi, müəllimin oyunda tam iştirakı vacibdir. Bu zaman o ikili rol oynamalıdır: bir tərəfdən rolun bilavasitə ifaçısı olmalıdır, digər tərəfdən-kənardan nə baş verdiyini, şagirdlər arasında qarşılıqlı münasibətlərə düzəlişlər etməlidir.

Təqlidedici oyunları- rollu oyunlarun fərdi, daha təkmilləşmiş növüdür. O, əsasən qrup şəklində və ifa edilən tədris formasıdır. Təqlid oyunda iştirakçıların hərəkətləri sosial gerçəkliyə uyğun ssenariyə müvafiq olur. Ayrılıqda oyunçular öz məqsədlərinə çata bilmir və iştirakçılar əhəmiyyətli məqsədlərə çatmaq üçün səy və imkanlarını birləşdirməlidirlər. Oyunun gedişi zamanı iştirakçılar öz üzərinə , real gerçəkliyə uyğun olan rolları götürürlər. Təqlidedici oyunların əhəmiyyəti ondan ibarətdir ki, onlar fənnin məzmununun mənimsənilməsinə imkan verməklə yanaşı, həmçinin, qərarların kollektiv qəbul edilməsi təcrübəsinə yiyələnməyə şərait yaradır. Oyunlarda qrup üzvlərinin məqsədlərinə nail olması hər bir iştirakçının fəallığından, onların bir-biri ilə və müəllimlə qarşılıqlı münasibətini planlaşdırmasından və həyata keçirtmək bacarığından asılıdır.


Əslində, rollu oyunların aparılmasına hazırlıq qrup iştirakçıları arasında oynanılacaq problemə tələb yarandıqdan sonra baş verir və aparıcı ideya dərk olunur. Bu ideyanın dolğun şəkildə oynanılması üçün yararlı olmasına qədər işlənib hazırlanması bir neçə mərhələdə gedir

. *Hazırlıq mərhələsi-* rollu oyunun planlaşdırılması. Bu mərhələdə konkret olaraq aparıcı ideya müəyyən edilir və seçilən rollara qərar verilir. Bunun üçün oyunun təşkilatçısı aşağıdakı işləri görür: 1) oynanılacaq səhnəcik üçün material seçilir, lazımi paylama materiallar hazırlanır, iştirakçılar üçün metodik tövsiyələr, sorğu materialları və cədvəllər tərtib edir (rollu oyun üçün materiallar şagirdlərə dərs vaxtı və əsasən də əvvəldən verilə bilər, çünki dərsdə vaxt itirmək məqsədə uyğun deyil)); 2) rolları paylayır və ya şagirdləri qruplara bölür; 3) "rekvizit"materialları tapır; 4) oyunun başlamağın və bitirməyin vaxtı müəyyən edilir 5) oyunun nəticələrinin necə ifadə etmək haqqında düşünmək; 6) səhnənin oynanılması üçün əlverişli olana (şagirdlərin rahat hərəkətinə imkan verən) və şagirdlərin hamısı üçün uyğun olan vaxtın və yerin seçilməsi (adətən oyunun keçirilməsi üçün bir dərs kifayət deyil, təqlidedici rollu oyunlar iki qoşa dərs müddətində aparılmalıdır).

Təşkilati mərhələ. Bu mərhələdə şagirdlərə oyunun məqsədi formalaşdırılır, onlar oyun keçirilməsi barədə lazımi məlumatları alırlar. Müəllim oyunun iştirakçılarına onun xüsusiyyətlərini, kompleks xarakterini, aparılma və müzakirə qaydasını izah etməli, işin əsasən kiçik qruplarda aparılmasını, oyunun mübahisəli və praktik xarakter daşıdığını nəzərə çatdırır, onların diqqətini oyunun nəticələrinin qiymətləndirmə meyarlarına yönəltməyə çalışır. Əksər oyunların ssenarisi şagirdlərin qrup şəklində fəaliyyəti nəzərdə tutur, buna görə də müəllim qrupların formalaşmasına xüsusi diqqət ayırmalıdır (Sxem 28).

Oyun dərsinin sxematik planı

Sxem 28



Şagirdlərin kiçik qruplarda müstəqil işi. Problemin və ya məsələnin həllinə başlayan zaman, işgüzar oyunun iştirakçıları problemin həlli üzrə kifayət qədər bilik və bacarıqlara malik olmurlar. Lakin, onlar müəllimin köməyi ilə problemə diqqət yetirməli və problemli vəziyyəti təhlil etmək təcrübəsini qazanmalıdır. Problemi kollektiv müzakirəsi onun həllində müxtəlif yanaşmaların olduğunu müəyyən etməyə kömək edir. Oyunun bu mərhələsində bütün iştirakçıların təcrübəsindən istifadə olunur, iştirakçılar arasında belə problem və məsələlərin həlli ilə bağlı təcrübə mübadiləsi gedir. Qrupun üzvləri öz dəlil və mövqelərini dəqiqləşdirir, digər qrupların təqdim etdikləri faktlara qarşı sübutlar düşünürlər və yazılı və ya şifahi şəkildə təqdim edirlər.

Son mərhələ- qruplar arası müzakirədir. Hər bir kiçik qrupun nümayəndəsi çıxış edərək, bu qrupda baxılan məsələnin hazırlıq səviyyəsinə dair məlumat verir. Digər qrupların itirakçıları opponent kimi çıxış edir, suallar verir, tənqidi qeydlərini söyləyirlər.

Qərb mütəxəssislərin araşdırmalarında işguzar oyunların aparılma metodikasına böyük diqqət ayrılır . Pedaqoqlar onları üç əsas oyun qrupuna ayırırlar: 1) tədris (krossvordlar); 2) rollu; 3) təqlidedici

Metodistlər coğrafiyanın öyrənilməsində rollu oyunların əhəmiyyətini qiymətləndirərkən şagirdlərin komunikativ bacarıqlarının formalaşdırılması üçün ilk növbədə rollu və təqlidedici oyunlara üstünlük verirlər. Təqlidedici və rollu oyunların mövzusu onlar tərəfindən geniş şərh edilir. O, ekoloji aspektlərə, təbiətdən səmərəli istifadə problemlərinə, məskunlaşma məsələlərinə ayrı -ayrı ərazilərin sosial-iqtisadi inkişafına və s. toxuna bilər.

Xüsusilə tətbiqi xarakterli oyunlardan qərb metodikəsında geniş istifadə olunur. Məsələn, alman

məktəbliləri üçün hazırlanmış "Piyada zonası" oyununun gedişi zamanı, şagirdlər öz şəhərlərində yol hərəkətinin yaxşılaşdırılmasını nəzərdə tutan konkret plan təklif etməlidirlər. Hər bir qrupun təkliflərinin müzakirəsindən və qalib qrupun müəyyən olunmasından sonra onların planını şəhər hakimiyyətinə təklif edilir.

Oyun texnologiyasının aşağıdakı səciyyəvi xüsusiyyətləri müəyyən olunur:

- *fəallıq* (oyuna hazırlıqdan başlayaraq alınan nəticələrin müzakirəsi ilə bitən və insanın intelektual fəallığını əhatə edən əsas prinsip);
- oyunun *sadəliyi və əlverişliliyi* onun aydınlığından ibarət olur;
- oyunun *qrup xarakteri* o deməkdir ki, oyunun məqsədi yalnız iştirakçıların birgə səyi ilə həyata keçirilə bilər;
- *əyləncəlilik və emosionallıq;*
-oyun iştirakçısının *məqsədyönlülüyü* (onun şəxsi məqsədlərinin qrupun məqsədləri ilə üst- üstə düşməsi);
- *rəqabət və yarış* (şagirdin müstəqil fəaliyyətə sövq edilməsi və onun fiziki, intelektual və ruhən gücünün səfərbər edilməsi);
- *problemlilik* (oyunun gedişi problemli vəziyyətlərini planlaşdırmaq, təşkil və həll etməyi özündə birləşdirir);
- *şagirdlərin peşə yönümünə istiqamətdə yönəldilməsi;*

fərdilik (oyunun gedişi zamanı məktəblilərin şəxsi keyfiyyətləri inkişaf edir);

-oyunun *simvolik xarakteri* iştirakçılara öz bacarıqlarını açmağa imkan verir.

Oyun texnologiyasının qeyd olunan xüsusiyyətləri onu göstərir ki, proses zamanı tədrisin əsas komponentlərinin dördünün də formalaşması baş verir: bilik, bacarıq, yaradıcılıq və ətraf aləmə olan münasibət.

Şagirdlərin işgüzar oyunların bilik və bacarıqların formalaşmasında əhəmiyyəti:

1) şagirdlərin bilik səviyyəsinin müəyyən olunması və onların yeni şəraitə tətbiqi;

2) tədris prosesinin keyfiyyətinin yaxşılaşdırılması və aktivləşdirilməsi (oyunun gedişi zamanı tədris materialının 90%-i mənimsənilir;)

3) şagirdlərin idrak fəaliyyətinin oyun prosesinə daxil edilməsi ilə aktivləşdirilməsi;

4) coğrafiya elminin əsaslarının öyrənilməsinin praktik əhəmiyyətinin üzə çıxarılması;

5) formal biliklərin həqiqi və dayanıqlı bacarıqlara çevrilməsi.

Şagirdlərin yaradıcı fəaliyyətin formalaşdırılmasında işgüzar oyunların əhəmiyyəti:

1) Şagirdlərin tədqiqatçılıq fəaliyyətinə cəlb edilməsi;

2) şəxsiyyətin yaradıcılıq bacarıqlarının üzə çıxarılması və inkişaf etdirilməsi;

3) təsəvvür, polemik və nitq bacarıqlarının inkişaf etdirilməsi ilə ifadə olunur.

İşgüzar oyunların aparılması üçün kompyuter texnologiyasının tətbiqi yeni imkqlar yaradır. Onlarda nəinki müxtəlif mətn, xəritə-sxem, statistik material və s. daxil etmək olar, eləcə də əyani olaraq vaxt və məkanda öyrənilən proses və hadisələri modelləşdirmək, məlumatı izləmək və onu əyani formada təqdim etmək, yekunlaşdırmaq, yəni, oyunun bütün mərhələlərini işləmək olar. Bu müəllimə oyunu hazırlamaqda və onun nəticələrini qiymətləndirməkdə çox kömək edir, şagirdlərin fəaliyyətini daha dolğun edir və onları real həyata yaxınlaşdırır.

İşguzar oyunlar- şagirdlərin eyni zamanda bir neçə fəaliyyət növünü (əməkdaşlıq və yarış və s.) tələb edən xüsusi dərs modelidir. Ötən əsrin sonuna yaxın tədris

prosesinə daxil olan işgüzar oyunlar aşağıdakı xüsusiyyətləri ilə seçilir:

- oyunlar ətraf aləmə xüsusi münasibət formalaşdırır
- şagirdlər subyekt kimi iştirak edirlər
- sosial fəaliyyət növü əmələ gəlir
- mənimsəmənin yeni məzmunu yaranır
- yeni «canlı təsnifat» forması yaranır

Rollu oyunlar-oyun prosesində iştirakçılar real həyatda gördükləri situasiyaları canlandırırlar.

1.**«Yarış-oyun»** kimi «Maraqlı sözlər» geniş yayılmışdır. Bu oyunun motivi mənası Azərbaycan dili üçün aydın olmayan sözlərin müəyyənləşdirilməsidir. Səliqə ilə kiçik və bağlı kağız parçalarında « Savanna», «Anhel», «Krik», «Piqmey», «Preri», «Oazis», «Skreb», «Tundra», «Humus», «Selvas» və s. adları yazılır. Komandaların üzvləri (adətən 2 komanda iştirak edir) ardıcıl olaraq növbə ilə «mücrü»dən «sualı» çıxarır və tez bir zamanda cavab verir. Yoldaşlarından kimsə kömək edirsə, suala düşən bal rəqib komandaya verilir.

2. «İrəli-irəli» oyun yarışması. Komandalardan coğrafiyanı daha çox «bilən» iki nəfər irəli çıxır. Növbə ilə hər birisinə suallar verilir. Ardıcıl olaraq hər bir suala düzgün cavab verən şəxsə bal verilir: 1-ci sual 1 bal, 2-ci sual 2 bal, 3-cü sual-5, 4-cü sual- 8 bal, 5-ci sual 12 bal, 6-cı sual 15 bal, 7-ci sual 18 bal,8-ci sual 21 bal, 9-cu sual 25 bal, 10-cu sual 30 bal və s.

Şagirdlərə oyunu davam etdirmək və balları 50-ə çatdırmaq və ya dayandıraraq əldə etdiyi bal ilə oyunu tərk etmək imkanı verilir. Suallar konkret və mürəkkəblik dərəcəsinin artan sırası ilə düzülməli, bir neçə variantda tərtib edilməlidir. Məsələn:

1.Ekvator xəttinin uzunluğu nə qədərdir?
2. Neçə yarımkürə vardır?
3.Şimal Buzlu okeana çıxışı olan materiklər?
4. Ada nədir?

5.Çayların mənbəyi hansı sututarlar ola bilməz?

6. Oazislərin yaranma səbəbi nədir?

7. Mesopotomiya ovalığından axan çaylar?

8. Amudərya çayının qidası nədi

9. Amur çayı hansı sututara axır?

10. Kanyon əmələ gəlməsi üçün tələb olunan üç şərt hansılardır?

3.«Coğrafi açıqca»lar tərkibi 5 nəfərdən ibarət olan iki komandanın yarışmasıdır. Müəllimin əvvəlcədən hazırladığı kontur vərəqələr üzərində yalnız bir coğrafi obyektin təsviri verilir. Müəyyən edilmiş vaxt ərzində komanda üzvləri onlara çatan (təsadüfi paylanma əsasında) açıqcanın adını deyir və bal əldə edir. Konturu düzgün tapmayanlar komandadan çıxır, nəticədə hər dəfə həmən komandanın balı azalır. (kontur vərəqələr hər şagirdə 2 ədəd verilə bilər).

4. «Brey-Rinq» coğrafi oyunu sualların tərtib olunmasına görə xeyli fərqlənir. Daha çox düşündürücülüyü ilə fərqlənən tapşırıqlara şagirdlər dərhal cavab verməlidir, iki-üç komandanın (3-5 nəfərlik) iştirakı ilə keçirilir. Müəllimin (və ya hər hansı fəal şagirdin) verdiyi suala cavab vermək üçün dərhal «bayraqlarını» qaldıran komanda suala düzgün cavab vermədikdə, digər komandalara müraciət olunur.

Nümunə üçün suallar:

1.Kəşf edənlər siyahısında adının birinci yazılmasına baxmayaraq, öz kəşfindən xəbərsiz səyyah (Kolumb).

2. Sıralamada birinci Amazon, ikinci Konqo, üçüncü – Qanqdır. Çaylar hansı xüsuyyətinə görə sadalanmışdır. (Bol sululuğuna görə).

3. «Yerin qızmar yaraları» hesab olunur (Vulkanlar)

4. Avropa səyyahları onu əvvəlcə əyləncə kimi qəbul etdilər, sonra isə onsuz hərəkət edə bilmədilər. Söhbət nədən gedir? (Kompas)

5. Dünyanın ən «Yaşıl ölkəsi» olsa da yaşıllıqdan əsər əlamət belə yoxdur. (Qrenlandiya)

5. «Coğrafi əlifba» – komandalar qrup şəklində işləyir. Komandalardan 2 dəqiqə ərzində eyni hərflə başlayan coğrafi nomenklaturanın yazılması tələb olunur. Daha çox və düzgün coğrafi ad yazan komanda qalib hesab olunur.

6. «Sözsüz anlat» - sinif iki komandaya bölünür. Eyni vaxtda 4 nəfər işləyir. Hər komandadan iki nəfər irəli çıxır. Onlar bir-birinə arxası tərəfə çevrilir. Digər iki nəfərsə əvvəlcədən, müəllim tərəfindən hazırlanmış şəkillərdən (şəkillər hər hansı coğrafi termin və ya obyekt ola bilər: səyyah şəkli, platforma örtüyü, çay, axarlı və ya axarsız göl, təbii zonalar və s.). təsadüfi yolla (şəkillər üzü aşağı tərəf stolda düzülür) seçir, öz komanda yoldaşına söz demədən, əl işarələri ilə başa salır. Tez və düzgün komanda qalib gəlir, bal qazanır, oyun yenidən digər üzvlər tərəfindən davam etdirilir.

7. «Kor səyyah» - sinif iki komandaya ayrılır. Növbə ilə komanda üzvləri iki nəfərdən ibarət olmaqla divar xəritəsi önündə öz qabiliyyətlərini göstərir. Şagirdlərdən birinin gözlərini örtüklə bağlayırlar. Digər, şagird, «kora» kömək edərək onun barmağını hər hansı regionda (materikin, ada, yarımada və s. sahilində) yerləşən obyektin adına qoyur və onun adını söyləyir. Məsələn, Skandinaviya yarımadasında Nordkin burnu, «Kor» səyyahın əlini xəritə üzərində sürüşdürərək obyektlərin üzərində dayandırır. Xəritədə gözü bağlı halda səyahət edən, (eyni istiqamətə doğru, sahil boyu və s.). Səyyah coğrafi obyektin adını söyləyir. «Mənzil başına» çatmaq düzgün sayılır (maşurut xətti müəllim tərəfindən verilir) və bundan «kor» səyyahın xəbəri olmamalıdır.

8. «Dərəcə toruna görə səyahət» -komandalara təyin olunan vaxt ərzində coğrafi enlik və uzunluqlar qeyd olunmuş (sayları 5,10-a və s. bərabər olmalıdır) coğrafi koordinatda yerləşən obyekti tapmaq tələb olunur.

Xəritədən istifadə etməyərək, obyektləri düzgün tapan komandalar qalib gəlir. Oyun komanda üzvlərinin müzakirəsi şəraitində aparılır:

I qrup	II qrup
1,42°c en 14°ş.u	1.20°C.en.45°S u
(Tasman adası)	(Madaqaskar)
2.8°şm. en 80°ş u	2.15°sm en 80°q.n
(Şri Lanka adası)	(Karib dənizi)
3. 70°şm.en. 40° q.u	3. 50°şm en. O°
(Orenlandiya a.)	(B.Britaniya adası)

9. Konkurs –«Ağıl dəryası»: televiziya oyunlarının prinsiplərinə əsasən tərtib olunmuşdur. Hər hansı kvadrat lövhə üzərində 10 (sayı, şagirdlərin yaş səviyyəsindən asılı olaraq dəyişə bilər) konvert (qutu və s.) yerləşdirilir.

Konvertlərdə eyni mövzuya aid suallar qoyulmuşdur, üzərində isə mövzunun adı yazılmışdır: «Materiklər», «Okeanlar», «Çaylar», «Ölkələr», « Şəhərlər», « Göllər», « Təbii zonalar», «Səhralar» və s. komanda üzvləri növbə ilə istədiyi mövzunu seçir, aparıcılar müvafiq konvertdən gizli sualı çıxararaq, təqdim edir. Düzgün cavab komandaya bal qazandırır.

10. «Coğrafi pazl»

Komanda üzvlərinə içərisində hər hansı regionun «pazl» şəkildə kontur hissələri olan konvert verilir. Müəyyən vaxt ərzində komandalar «pazlları» düzür və adını müəyyən edir.

Pazlları düzmək üçün komandalara sərt kardon və ya taxta parçası verilməli, düzülmüş pazllar müəllimə və ya ekspert qrupuna göstərilməlidir.

11. «Nə və harada» - sinif şagirdləri 5 nəfərdən ibarət komandalara bölünür. Hər komandaya eyni sayda coğrafi (əsasən 10-15) adlar yazılmış siyahı verilir. Şagirdlər 2

dəqiqə ərzində həmin coğrafi obyektlərin nəyi ifadə etdiyini və harada (hansı regionda, istiqamətdə) yerləşdiyini, adların qarşısında yazır və təqdim edir.

Ballar düzgün cavablara əsasən müəyyən olunur- yəni hər düzgün cavab 1 bal. Daha çox bal toplayan komanda qalib olur.

Müəllim coğrafi obyektlərin seçilməsinə xüsusi diqqət verməli və səviyyənin eyni olmasına məsuliyyət daşımalıdır (Cədvəl 15).

Cədvəl 15

12.«Nə və harada» oyunu

1 komanda	II komanda	III komanda
1. Atakama	1.Qobi	1.Alp
2. Ural	2.Appalac	2.Tar
3. Mekonq	3.Orinoko	3.Oxot
4. Dreyk	4. Sumatra	4.Magellan
5. İquasu	5.Volqa	5. Sarı
6. Mozambik	7. Sena	6.Tubkal
7. Lena	7.Cenevrə	7. Tərtər
8. Marakaybo	8.Çakori	8. Ustyurt
9. Mak-Kinli	9.Turfan	9.Qudyal
10. Namib	10. Titikaka	10. Drakon

Cavablar qısa, lakin dolğun olmalı- əlavə vərəqə deyil, bir başa coğrafi adın qarşısında yazılmalıdır. Məs: Atakama-Səhradır, cənubi Amerikanın qərbində və s.

13. «Tərcüməçi –coğraflar» komandalara təqdim olunan vərəqələrdə eyni sayda müxtəlif sözlər yazılmışdır. Təyin olunan vaxt ərzində komanda üzvlərinin müzakirəsi ilə həmin coğrafi ad və terminlərin tərcüməsi yazılır və

təqdim olunur. Düzgün yazılmış tərcümələrin hər biri 1 bal kimi hesablanır. Məsələn:

1.Asiya – (finikilyalıların dilində günçıxan)
2. Selvas – (portuqal dilində meşə)
3. Qrenlandiya (ingilis dilində yaşıl ölkə)
4. Yansizi (çin dilində sarı su)

14. « Çapar coğraflar»

Püşk atma yolu ilə komanda üzvləri hər hansı bir coğrafi obyektin adı yazılmış vərəqi götürür: çay, göl, dağ, ölkə, zirvə, şəhər və s. Bir neçə dəqiqəlik hazırlıqdan sonra komanda üzvləri müəyyən vaxt ərzində, ardıcıl olaraq, yəni fasilə etmədən, həmən coğrafi obyektə uyğun coğrafi nomenklaturaları sayır. (Məsələn: Eyr, Omeqa, Eri, Ladoqa, Çad, Labnor və s.). Fasilə 5 saniyədən çox olduqda komanda uduzur. 2 dəqiqə ərzində ardıcıl olaraq coğrafi adları sadalayan komanda qalib sayılır» (Nəzərə almaq lazımdır ki, komandanın bütün üzvləri iştirak etməlidir).

15. «Sehirli hərflər»

Komandanın püşk ilə seçdiyi hərfə uyğun olaraq coğrafi adların yazılı surətdə təyin olunmuş vaxt ərzində yazılı surətdə verilməsidir. 2 dəqiqə ərzində hərfə uyğun (Məsələn «K» hərfi) coğrafi adı və onun yerləşdiyi ərazini təyin edən komandaların üzvləri divar xəritəsində həmən obyekti göstərməlidir.

* Dəniz -	* Şəhər.–
* Çay	* Göl
* Dağ	* Ada-
* Düzənlik	* Yarmada
* Ölkə	* Səhra

Bütün istiqamətlər üzrə coğrafi ad yazan və onu göstərən komanda qalib hesab olunur. (Bu oyunda eyni coğrafi obyektlər tələb olunur, fərq onların adlarının müxtəlif hərflərlə başlamağındadır).

16. «İntellekt-şou»

Sinif əsasən beş nəfərdən ibarət komandalara bölünür. Kvadrat lövhə üzərində on konvert yapışdırılır. Konvert üzərində yazılan rəqəmlər (2, 5, 10, 20 və s.) içindəki suallar verilən balın göstəricisidir. Konvertlərdə yazılmış sualların səviyyəsi həmən ballara müvafiq tərtib olunur. Aparıcı, komanda liderlərindən hansı səviyyəli sual və onun nömrəsini soruşur. Məsələn: Kapitan 10 ballıq sualın içərisində 6-cı sualı seçir. (hər bal üçün 10 sual tərtib edilir). Aparıcı özündə olan sual siyahısına əsasən həmən sualı səsləndirir. Cavab üçün əlavə vaxt verilmir. Sual səslənən kimi cavab verilməlidir. Növbə ilə komandalar çıxış edir. Nəticələr lövhədə qeyd olunur:

Qruplar	Bal göstəriciləri					
	2	4	6	10	15	20
I						
II						
III						
IV						

Göründüyü kimi, bu oyunun keçirilməsi müəllimdən və onu tərtib edən aparıcı şagirdlərdən xüsusi hazırlıq tələb edir. Müxtəlif səviyyələr nəzərə alınarsa ən azı 60 sual (verilən nümunədə) tərtib olunmalı və onların «yükü» ballara uyğun laşdırılmalıdır.

17.«Axtarış» oyun

Çox variantlıdır. Xəritə biliyinin tətbiq edilməsinə əsaslanır. Matekrik və okeanlara və ya Azərbaycan Respublikasının öyrənilməsinə xidmət edə bilər.

VI sinifdə «Çaylar», «Göllər, «Dağlar», «Düzənliklər», «Ada və yarımadalar» mövzusunun tədrisində istifadə oluna bilər. Oyun dərsi şifahi və əsasən yazılı aparılır. Sinifdə və ev tapşırığı kimi təqdim oluna bilər.

Məs: «Dünyanın gölləri» mövzusunun tədrisində müəllim coğrafiya dəftərlərində şagirdlərə aşağıdakı göllərin adlarını (hər birisi yeni sətirdə) yazdırır:

II variant

	Şimal	**cənub**
1. Xəzər		
2.Çad		
3.Eyr		
4. Titikaka		
5. Huron		
6. Cenevrə		
7.Aral		
8. Miçiqan		
9. Viktoriya		
10. Eri		
11. Baykal		
12. Tanqanika		
13. Hyasa və s.		

Şagirdlərə verilmiş gölləri müxtəlif xüsusiyyətlərinə görə qruplaşdırmaq tapşırığı verilir.

I variant --- şərq və qərb yarımkürəsində yerləşənlər

II variant ---şimal və cənub yarımkürəsində yerləşənlər

III variant ---şirin və ya şor sulu olanlar

IV variant--- hansı materikdə yerləşənlər

Dünyanın dənizləri (körfəzləri, boğazları və s) mövzusunu tədris edərkən onun hansı okeana aid olması, qışda donan və ya donmaması və s tapşırıqları verilə bilər. Bunun üçün proqramda tələb olunan coğrafi adlar şagirdlərin dəftərinə yazdırılmalıdır:

Məsələn:

1.Qırmızı

2. Aralıq

3.Laptevlər

4. Barens

5.Karib

6.Ərəbistan
7.Sarı
8.Berinq
9.Baltik
10. Yapon
11. Şimal
12.Andaman
13. Kara
14.Çukot
15.Qara

Belə metodlar mövzuların sonunda, təkrar dərslərdə öyrənilən materialın və ya okeana aid olan bütün coğrafi nomenklaturanı yazıb sonra müxtəlif variantlar üzrə sorğu keçirmək daha əlverişlidir..

18. «Debat»

Sinif iki rəqib komandaya bölünür. Dəqiq müəyyənləşdirilmiş tezis-sinifə təqdim olunur. Məs: «Vulkanları xeyirli və zərərli cəhətləri»,«Torpaqların istifadə olunması labüddürmü», «Faydalı qazıntıların çıxarılması vacibdirmi?, «Xəzər dənizinin mühafizəsinə bu qədər vəsait ayırması nə qədər vacibdir», «Antarktida materikinin öyrənilməsinə bu qədər diqqət lazımdırmı? Və s.

Göründüyü kimi mövzular zəngindir.

Sinif şagirdlərindən biri aparıcı rolunda çıxış edir. Əlində «30 saniyə» yazılmış lövhə ilə komandalara vaxt işarəsini verir. Şagirdlərin sayından asılı olaraq komandalar bütün sinifi əhatə edə bilər. Lakin yaxşı olar ki, hər komandaya, 2- 3 spiker irəli çıxsın, hər hansı fikiri söyləyən birinci komanda üzvlərinə təsdiq üçün əleyhinə, sualları digər komanda verir. Nəticədə:

Debatın sonunda ifadələr araşdırılır. Vaxt əsas şərtdir, çünki verilən vaxt ərzində qarşı qoyulan suala düzgün cavab tapıb onun əsaslandırmaq lazımdır.

Təsdiqedicilərin dəlilləri	İnkaredicilərin dəlilləri

Konkret, qısa və aydın izahat verən komanda üzvləri-spikerlər dərsin sonunda qiymətləndirilir.

«Modul» texnologiyası.

Tədris prosesinə daxil olmuş yeni texnologiyalardan biri modul tədrisdir. Onun əsas ideyası ondan ibarətdir ki, şagird sərbəst öyrənməli, müəllimin məqsədi isə - onun tədris fəaliyyətinə başçılıq etməkdir. Modul texnolgiyası – şagirdin praktik fəaliyyətinə əsaslanır. Sadə formada modul texnologiyası tədris elementlərinə əsasən dərsi mərhələlərlə öyrənmək anlamındadır.


Modul texnologiyasının əsas anlayışı- moduldur. Modul- tədrisin məzmunu və ona yiyələnmə texnologiyasının birləşdiyi məqsədli funksional əlaqədir. Bu texnologiya fərdi və kollektiv tədris əsasında biliklərin mənimsənilməsidir. Modul təliminin mahiyyəti şagirdin müstəqil və ya müəllimin köməyi ilə modulla iş prosesində tədris- tərbiyə prosesinin konkret məqsədlərinə çatmasıdır. Modul texnologiyasına məzmununa, tədris metodlarına, müstəqillik səviyyəsinə, tədris- idrak fəaliyyətinin tempinə görə fərdiləşdirilmiş tədris proqramı kimi baxmaq olar. Modul daxilində (dərsdə) müəllim şagirdlərin müstəqil işi üçün xüsusi təlimat tərtib edir. Burada mənimsənilməsinin məqsədi, məlumat mənbələri, material əldə etmək üsulları, nəticələrin yoxlanılması meyarlarını göstərir. Bu təlimatlarda yoxlama və özünü yoxlama üçün tapşırıqlar göstərilir .

Hər bir modul proqramın əsasında məqsədlər cəmi durur. Bu porqramda kursun əsas elmi ideyaları, onun daxilində mövzunun və ya ayrı ayrı dərslərin tədqiq edilməsi yolları qeyd olunur.Bu ideyalar müəyyən bloklarla

qruplaşdırılır. Modul proqramını bütövlükdə ağac şəklində təsəvvür etmək olar. (Sxem 29).

Modul texnologiyasının sxematik təsviri

Sxem 29




Ağacın gövdəsi öz məzmununa görə geniş bir mövzuya uyğun gəlir. Mövzunun tədrisi üçün kompleks didaktik məqsədlər (KDM) formalaşır. Ağacın budaqları ayrı -ayrı dərslərə uyğun gəlir ki, onların hər biri üçün inteqrasiya olunan didaktik məqsədlər (İDM) formalaşır. Modul dərsləri tədris elementləri (TE) və ya dərsin mərhələlərinə bölünür. Modul texnologiyasının fərqləndirici xüsusiyyəti ondan ibarətdir ki, hər bir tədris elementi üçün öz fərdi didaktik məqsədləri (FDM) hazırlanır.

Beləliklə, modul proqramı çox mərtəbəli quruluşa malikdir ki, onlar da eyni zamanda müxtəlif dərəcəli modullardan ibarətdir. (Sxem 30)

Mövzunun dərəcəsi ilə məhdudlaşan "üçlaylı" modul proqramı əslində hamı tərəfindən qəbul edilir. Belə proqramda 1, 2, və 3-cü dərəcəli modullar tərtib olunur ki, onlara uyğun məqsədlər aşağıdakılardır: mövzu (KDM), dərs (İDM), tədris elementləri (FDM). (Tədris elementləri *mətn, xəritə, cədvəl, illustrativ materiallar, komputer, audio-vizual ola bilər)*

Modulun proqramlaşması


Sxem 30



Modul blok- zənciri. Mənimsəmə vaxtına görə modul dərsə və ya məşğələyə uyğun gəlməlidir, modul proqramına görə, mövzu, dərs və saatların vaxtı dəqiq və sistemli şəkildə olmalı. Mövzuların daxilində modul dərsləri sərbəstdir və eyni zamanda bir-biri ilə əlaqəli zəncir yaradaraq blok yaradır. (Sxem31)

Modul blok zənciri

Sxem 31



Şagird mövzunun öyrənilməsi və mənimsənilməsinə hər hansısa bir moduldan (dərsdən) başlaya bilər. Modulun məzmununun mənimsənilməsi üçün şagirdlər kiçik qruplara bölünür. Kompyuter, xəritə, lüğət, soraq kitabçası və digər vəsaitlər çatışmadıqda müəllim modulları elə tərtib etməlidir ki, yerinə yetirilən tapşırıqlar modul "paketinə" uyğun gəlsin.

Modul texnologiyaları aşağıdakı xüsusiyyətləri ilə bir-birindən fərqlənir: 1) çeviklik (öyrənilən mövzunun özünəməxsus xüsusiyyətlərinin təyini); 2) dərsin məqsədlərinin kompleks şəkildə planlaşdırılması; 3) dinamiklik (müxtəlif fəaliyyət üsulları və növləri ilə; 4) mobillik (modulların ayrı ayrı mövzu daxilində hərəkətliliyi, qarşılıqlı əlaqəsi və yerdəyişməsi); 5) tədris motivasiyasının möhkəmləndirilməsi; 6) tədris prosesinin müxtəlif mərhələlərində modul dərslərin keçirilməsi imkanı (izah, möhkəmləndirmə, yekunlaşdırma); 7) müəllimin funksiyasının dəyişməsi (məlumat- ötürücü funksiyadan məsləhətverici və idarə ediciliyə doğru dəyişməsi).

«Alqoritmik təlim» texnologiyası

Müəyyən tip məsələlərin həllində standartlaşmış üsullar (alqoritmlər) mövcuddur. Onlar adətən müxtəlif obyektlərin həllində əlaqəni istiqamətləndirir. Belə üsullar sadədən-mürəkkəbə qədər- biliklərin məcmuu olub qeyri-adi problemlərin açılması üçün imkan verir. Tədris-dərketmə fəaliyyətində müvəffəqiyyət əldə etmək üçün fənnin məzmununda olan məsələləri düşüncə və praktik fəaliyyətə yönəltmək lazımdır. Bununla bağlı əməliyyatları S.Rubinşteyn, A.Leontev, P.Anoxin, F.Fonda, U.Kulyutkin və s. aparmışlar.

Alqoritmik təlim prosesinin əsas mahiyyəti ondadır ki, müəllim hər hansı məsələnin planını tərtib edərək hansı əməliyyatları aparmaq lazım olduğunu dəqiq göstərir,

nəticəyə gəlməyin yolunu öyrədir. Təlim prosesinin nəzəri ideyaları aşağıdakılardan ibarətdir.

- tədris dərketmə məsələlərin həllində şagirdlərin fəaliyyətini təşkil etmək;
- tədris dərketmə fəaliyyətinin səmərəliliyini artırmaqla məntiqi təfəkkürü inkişaf etdirmək;.
- şagirdlərdə düşüncələrini idarə etmək və praktiki fəaliyyətini artırmaq refleksini gücləndirmək məqsədi ilə tətbiq olunur.

Təlim prosesini yerinə yetirərkən müəllim fəaliyyəti aşağıdakılardan ibarət olur:

1.Dərkedici məsələləri ardıcıl nəzəri və praktik fəaliyyəti göstərməklə, alqoritm qaydası ilə yazmaq.

2. Şagirdlərə əyani vəsait şəklində (fərdi sorğu, ekran, plakat) nümayiş etdirmək.

Ardıcıllıq aşağıdakı qaydada olmalıdır:

----Şagirdlərdən biri lövhə qarşısında izahat verir, digərləri isə onu təkrarlayır.

----Sərbəst şəkildə nəticələr üzə çıxarılır, alqoritmlə uzlaşdırılır.

---- Alqoritm müstəqil olaraq yerinə yetirilir.

Alqoritmin köməyi ilə sinifdə ümumiləşdirici nəticələr çxarılır.

«Məntiqi istinad konspektlər» texnologiyalarının tətbiqi (MİK)

Coğrafiya müəllimlərinin iş təcrübəsində geniş yayılmış, bu texnologiyanın əsasında şagirdlərin göz yaddaşının inkişaf etdirilməsinə əsaslanan təlim prinsipi durur Coğrafiya dərslərində *şifahi obrazlı hekayələr* (təsvirlər, həmçinin bədii əsərlərdən parçalar), *qrafik təsvirlərdən* (sxemlər, şəkillər, cədvəllər) və *kartoqrafik vərəqlərdən* istifadə olunur.

MİK- kodlaşdırılmış tədris məlumatının xüsusi formasıdır. MİK texnologiyasının tətbiq edilməsi aşağıdakı qaydada aparılır:

1) Öyrənmə materialı mərhələlərə ayrılır;

2) Tədris materialının ifadə edilməsi üçün simvol və şəkillərdən istifadə olunur;

3) Şagirdlərlə fərdi yanaşma formaları müəyyən olunur.

Məntiqi istinad konspektlər müəllimə dəfələrlə və çox variantlı şəkildə material təkrarlanmağa imkan verir ki, bu da onun şagirdlər tərəfindən daha dərin mənimsənilməsinə səbəb olur.

Konspektlər şagirdlərdə müşahidə qabiliyyətini artırır, onların şagirdlərin dəftərlərində təsvir edilməsi, konspekt üzrə şıfahi «hekayələrin qurulması» şagirdlərin yaddaşlarını inkişaf etdirir. MİK-dən istifadə olunması tədris materialının mənimsənilməsinin yoxlanılmasına əlverişli şərait yaradır, hər bir mövzunun mənimsənilməsinin nəticələrinin dəqiq hesabatını aparmağa imkan verir.

MİK-lər tərtib edilərkən bir sıra şərtlərə riayət etmək lazımdır: 1) dərsin yekunu üçün planlaşdırılmış nəticəni dərsin məqsədi kimi qəbul etmək və onun şagirdlər tərəfindən mənimsənilmə səviyyəsini yoxlamaq; 2) tədris materiallarını bloklarına bölmək və hər bir blokun məzmununun necə təsvir olunacağını müəyyən etmək (müəyyən nişanlar, simvollar, şəkillər, yəni, məlumatın sxematik kodlaşdırılma üsullarını seçmək); 3) məzmuna görə blokları bir- biri ilə əlaqələndirmək və tədqiq olunan obyekt və hadisələr arasında səbəb- nəticə əlaqələrinin müəyyən olunması üçün şərait yaratmaq; 4) dərsin məzmununun ümumi sxemini vahid məntiqi konspekti formasında təsvir etmək.

MİK aşağıdakı əsas tələblərə cavab verməlidirlər:

1) *yığcamlıq* (MİK -in daxılında 80-100 işarədən artıq olmamalıdır, çünki, say işarələrini yadda saxlamaq çətindir);

2) *quruluş* (MİK) bir-biri ilə oxlarla əlaqələndirilmiş məntiq bloklardan ibarət olmalıdır);

3) *əsas məqsədin xüsusisiləşdirilməsi* (əsas tədris materialı rənglərlə, müxtəlif formalı xətlərlə, çərçivələrlə, şriftlərlə, müxtəlif söz birləşmələri ilə qeyd olunmalıdır);

4) *şərti işarələrin unifikasiyası* (MİK -ın tərtib olunarkən şagirdlərə artıq tanış kartoqrafik işarələrdən, coğrafiya dərsliklərində və iş dəftərlərində tətbiq olunan siqnal və simvollardan istifadə etmək lazımdır);

5) *orjinallıq (*MİK forma, coğrafi üslub, quruluşuna görə orijinallığı ilə seçilməlidir ki, bu da məlumatın uzun dövrdə yadda qalmasına səbəb olur);

6) dərsliyin mətni ilə əlaqə (MİK-lər dərsliyin mətni ilə sıx əlaqəli olmalıdır ki, şagirdlər materialı daha yaxşı anlasınlar,) bu məqsədlə MİK -də dərsliyin və atlasın səhifələri hətta bəzən paraqrafların nömrələri göstərilir.

6-7-ci sinif şagirdləri MİK-ni tərtib etdikdə çox vaxt rənglərlə qeyd edilmiş şəkillərdən istifadə edə bilər, yuxarı siniflərdə isə onlar çərçivə və xətlərlə kifayətlənə bilər.


Coğrafiyanın tədris metodikasında MİK -in bir neçə növü qeyd olunur:

Mətn MİK-ləri- mövzunun ətraflı, tam açıq planını təşkil edir ki, yeni anlayışlar, terminlər, nümunələr və s. qeyd olunur. Işarələr, simvollar və şəkillər belə MİK- lərdə az miqdarda istifadə olunur.

Qrafik MİK- daha geniş istifadə olunur. Müxtəlif sxemlər şəklində olan *qrafik* konspektlər öyrənilən materialın quruluşunu və məntiqini, və eləcə də coğrafi obyektlər və proseslər arasında səbəb- nəticə əlaqələrini yüksək səviyyədə etdirir (Sxem 32).

Məntiqi istinad konspektinin quruluşu

Sxem 32



Kartoqrafik · MİK-lər öyrənilən mövzu kartoqrafik əsaslar üzərində qurulur. Belə MİK-lər öyrənilən obyekt və hadisələrin məkan və zaman əlaqələrinin qarşılıqlı münasibətlərini əks etdirir. Kartoqrafik konspektlər ərazilərin öyrənilməsi zamanı tətbiq olunur. Belə konspektlərin tərtib olunmasına nümunə olaraq şagirdlər tərəfindən 9-11-cu sinif kurslarında ölkənin "vizit kartoçkasının" hazırlanmasında, 8-cu sinifdə Azərbaycanın iqtisadi rayonlarının tədrisində göstərmək olar.

MİK- lər çox zaman yeni materialın öyrənilməsi zamanı tətbiq olunur. Bu zaman müəllim MİK-ni öz izahının gedişi zamanı lövhədə öz nitqinin məzmununu sxemləşdirir. Şagirdlər müəllimə qulaq asaraq konspekti dəftərə köçürürlər. Yuxarı siniflərdə MİK ilə işin digər üsulları mümkündür. Müəllim hazır MİK-ı lövhədə, ekranda və ya böyük vərəqdə göstərərək mühazirəni danışır. Şagirdlər müəllimi dinləyir, aparıcı materialı müşahidə edərək qavrayırlar.

Yeni materialın öyrənilməsində MİK-lər hər bir şagirdin əqli qabiliyyəti səviyyəsində fərdi iş kimi də aparıla bilər. Məsələn, mühazirənin gedişi zamanı şagirdlərə müstəqil olaraq əlavə hazır MİK-lər verilir. Onlar MİK-ə misallar gətirir, zənginləşdirir (rəqəmlərlə, coğrafi nomenklatura ilə və s.), ona səbəb- nəticə əlaqələrini göstərmək v.s. təklif olunur. Bu məqsədlə hər bir şagirdə işin əsas funksiyasını yerinə yetirən hazır və çap olunmuş MİK paylanır.

Kodlaşdırma və məlumatı yığmaq bacarığına yiyələnmiş şagirdlər, mühazirənin MİK-ni müstəqil şəkildə hazırlaya bilərlər. Belə konspektlər şagirdlərin mühazirədəki işinin qiymətləndirilməsi üçün istifadə olunur.

Konspektlərdən həmçinin özünüyoxlama və ya biliklərin qiymətləndirilməsində istifadə olunur, məsələn, MİK-lərin yaddaşa görə şagirdlər tərəfindən təkrarlanması; lövhədə cavab verdikdə MİK-lər özünəməxsus açıq plan rolunu oynaya bilərlər. Qrup şəklində işin tətbiqi zamanı MİK-lər özünüidarəetmə məqsədi ilə istifadə edilə bilər.

MİK ilə iş şagirdlərin səbəb- nəticə əlaqələrinin dərk edilməsinə kömək edir, məntiqi düşüncəni mükəmməlləşdirir, özünüidarəetməni həyata keçirtməyə imkan verir, bu zaman konspektlər bilik və bacarıqların möhkəmləndirmə və ümumiləşməsi üçün vacibdir. MİK-in

texnologiyasının tətbiqi hər bir mövzunun məzmunun öyrənilməsi, yekunlaşdırılması zamanı şagirdə dayaq konspektini həyata keçirməklə, bu da müəllimə təhsilin səviyyəsini müəyyən etməyə imkan verir. Coğrafiya müəllimləri MİK-ləri tətbiq etməklə zaçot və ya yekun dərsləri də keçirilə bilərlər.

«Layihə texnologiyası».

Son illər məktəb təcrübəsində çoxdan unudulmuş tədris metodlarına böyük diqqət verilir. Əgər ən böyük yeniliyin « unudulmuş köhnəlik» olduğu ideyası qəbul olunarsa layihə texnologiyasının da əhəmiyyəti aydın görünər. Layihə texnologiyası prinsipcə yeni deyildir. O, XX əsrin 20-ci illərində ABŞ-da yaradılmışdır və problem metodu kimi adlandırılmışdır. Onun müəlliflərindən biri C.Dyu olmuşdur. C.Dyu tədrisi şagirdin məqsədyönlü fəaliyyətindən deyil, onun məhz bu bilikdə şəxsi maraqları ilə uyğunlaşaraq fəal özüldə qurmağı təklif edir.

Layihə texnologiyası hələ XX əsrdə rus pedaqoqlarının diqqətini cəlb etmişdi. Bu tədris ideyaları Rusiyada demək olr ki, amerika pedaqoqlarının layihələri ilə paralel yaranmışdır. Lakin, 1931-ci ildə təhsili idarə edən sovet hakimiyyəti rəhbərləri tərəfindən layihə metodu pislənmiş və o təbii ki, Azərbaycanda da inkişafı ləngimişdir və uzun muddət onu yenidən dirçəltmək cəhdləri göstərilməmişdir. Xaricdə isə layihə texnologiyası öz ardıcıllarını tapmışdır. Hazırda onun ən yüksək inkişafı ABŞ, Böyük Britaniya, Belçika və İsraildədir.

Respublikada aparılan təhsil islahatları tədris prosesində layihə texnologiyasına yenidən yanaşmağı tələb edir.

Layihə metodu - təlim-tərbiyə üsullarının bir hissəsi olub, alınan nəticələri nümayiş etdirməklə şagirdlərin bu və ya digər problem üzərində müstəqil fəaliyyətini nəzərdə

tutur. Layihə texnologiyası isə daha geniş anlayış olub, məqsədlər, metodlar (axtarış, tədqiqat və problemli), tədris vasitələri, şagirdlərin fəalliyyətinin qiymətləndirilməsi meyarını özündə birləşdiririr.

Bu baxımdan coğrafiya müəllimlərini layihə metodu cəlb etmişdir. Bu texnologiyanın əsasında ölkəşünaslıq işlərinin aparılması durur. Belə ki, ilk növbədə şagirdlər tədqiqatçılıq fəaliyyətinə cəlb olunur məsələn, şagirdlərin olduğu şəhərlərin, məktəbin, mikrorayonun yaşıllıq zonalarının inkişaf layihəsini və s. tərtib edə bilir.

Texnologiyanın mahiyyətində şəxsiyyətyönümlü tədris məqsədi durur ki, bu da müstəqil olaraq şagirdlərin məlumatı toplanma bacarığının, regional və hətta qlobal problemlərin inkişafının qeyri- standart və alternativ həllərini tapmağı nəzərdə tutur. Layihə texnologiyası şagirdlərdə səmərəli düşüncənin, yaradıcı fəaliyyətin, ətraf aləmə emosional, nəzəri və praktiki düşüncəsinin inkişafına geniş imkanlar yaradır.

Məktəb coğrafiyasının məzmununda layihə texnologiyalarının tətbiq olunması üçün geniş imkanlar vardır, bu isə əsas və orta məktəb məzunlarının hazırlıq səviyyəsinə olan tələblərə uyğun gəlir. Bu tələblər şagirdlərin proqnozlaşdırma bacarığını nəzərdə tutur. Ümumtəhsil müəssisələri üçün coğrafiya proqramlarında şagirdlərin qarşısında insanın təsiri ilə təbii obyektlərin (məsələn, çaylar, göllər, bataqlıqlar, yeraltı sular) dəyişməsinin müsbət və mənfi nəticələrinə, əhali artımına, şəhər və kənd əhalisinin dəyişməsinə, ölkənin, regionun və ya ayrı-ayrı rayonların təsərrüfatının dəyişməsinə aid problemlər üzrə çıxarması qarşılarına məqsəd kimi qoyulmuşdur.

Layihənin sonunda maketlər, xəritələr, sxemlər, obyektlərin təsviri və s. hazırlanır və nəticədə

texnologiyanın əsasında proqmatiklik üzə çıxır. Layihələrin yerinə yetirilmə konkret olmalıdır: - yəni nəzəri problemin həlli və ya tətbiq edilmək üçün hazır olmalıdır. Bu zaman şagirdlərin tənqidi təfəkkürünün və idrakı bacarıqlarının inkişafı, onların müstəqil olaraq bilikləri təşkil etmək və məlumat toplamağa istiqamətlənmək bacarığı formalaşır.

Şagirdlərin layihə fəaliyyətinin təşkili üçün coğrafiya tədrisində dərsliklər, xəritə və atlaslar, iş dəftərləri və digər aktiv tədris vasitələrindən istifadə olunur. Axtarış xarakterli sual və tapşırıqlar da böyük əhəmiyyətə malikdir.Belə sual və tapşırıqların sayı aşağı siniflərdən yuxarıya doğru artır.

Layihə texnologiyasından hələ 6-cı sinifdə, coğrafiyanın başlanğıc kursunun tədrisi zamanı tətbiq etmək məqsədəuyğundur. Şagirdlərə sadə layihə-proqnozlarını tərtib etməyi təklif etmək olar Məsələn, onlar atlasda göstərilən plana görə ərazilərin mənimsənilməsinə dair öz layihəsini təqdim edə bilərlər.

«Materik və okeanların coğrafiyası» kursunun tədrisi prosesində layihə dərslərinin təşkili üçün imkanlar daha çoxdur. Məsələn, litosfer tavalarının təsvir olunduğu xəritəyə görə uzaq gələcəkdə materiklərin xarıcı görünüşünün dəyişməsi (layihə litosfer tavalarının hərəkətinin nəzəri əsasları haqqında biliklərə görə tərtib olunur). Kontur xəritəsindən kəsilən parçalara əsasən şagirdlər yerin milyon illərdən sonra fərz olunan görünüşünün layihəsini tərtib edirlər. Yerin təbii zonalarının və ayrı-ayrı materiklərin öyrənilməsi uşaqlara coğrafiya kabinetinin və ya məktəb binasının bütün mərtəbə və otaqların yaşıllaşdırılması layihəsini tərtib etmə tapşırığını vermək məqsədəuyğun olardı. Məlumdur ki, bir çox otaq bitkilərinin vətəni- subtropik, tropik və ekvatorial iqlim qurşaqlarıdır. Beləliklə, məktəbin hər bir

mərtəbəsindəki otaqları ayrı-ayrı iqlim qurşaqlar və ya təbii zonaların bitkiləri ilə yaşılaşdırmaq olar. Digər variant da mövcuddur- bitkiləri ərazi əlamətlərinə görə yerləşdirmək: Afrika bitkiləri, Cənubi Amerika bitkiləri və s.

Layihələr mövzu baxımından müxtəlif ola bilər. Çox vaxt müəllimlər fənnə uyğun olan tədris vəsaitlərini nəzərə alaraq mövzuları seçirlər. Layihənin mövzusu məktəb coğrafiyasının hər hansı nəzəri sualına da aid ola bilər (meqapolisin ekoloji problemləri, qorunan ərazilərdə bitki və heyvanların vəziyyəti və s.). Bəzən isə layihənin mövzusu şagirdlərin şəxsi maraqlarının və eləcə də tətbiqi xarakterli ola bilər. Bu zaman layihə məktəb proqramından kənara çıxaraq sinifdənkənar xarakter daşıyır. Layihələrdə həmçinin müxtəlif fənlərə aid biliklərin tətbiqini tələb edən inteqrasiya olunmuş mövzular da hazırlana bilər. Məktəb təcrübəsi göstərir ki, şagirdlər daha çox ərazilərin kompleks xarakteristikasına, ekoloji təhlilinə, təbiətin qorunmasına aid olan tədbilərlə əlaqəli layihələrə maraq göstərir.

Layihə texnologiyasının əsas xüsusiyyəti reallığa maksimal yaxın olan nəticələrin alınmasıdır. Buna görə də ənənəvi tədris vasitələri ilə yanaşı (dərsliklər, şagirdlər üçün vəsaitlər, sorğu ədəbiyyatı, video yazılar və s.) təlimin müasir vasitələrindən də istifadə etmək vacibdir (elektron dərsliklər, virtual kitabxanalar, interaktiv televiziya, multimedia vasitələri və s.).

Layihə texnologiyası müəllimlərdən şagirdlərin xüsusi hazırlanmasını-onlara tapşırıqların başa salınması, yerinə yetirilmə üsulları, nəticələrə verilən tələbləri, təqdim etmə yollarını izah etməyi tələb edir.

Layihənin yerinə yetirilməsinə adətən, çox vaxt ayrılır (işin həcmindən asılı olaraq bir neçə həftədən aya qədər, və hətta daha çox), buna görə də layihələrin sayı çox olmamalıdır (tədris ili ərzində 2-3 layihə). Layihə üzərində

işin təşkili zamanı müəllim aşağıdakı tələbləri nəzərə almalıdır: 1) layihə inteqrativ biliklər tələb edən əhəmiyyətli problemə və ya məsələyə həsr olunmalıdır; 2) layihə ehtimal olunan nəticələri praktik, nəzəri və idrakı əhəmiyyətə malik olmalıdır (regionun demoqrafik vəziyyəti, ona təsir edən faktorlar və s.); 3)şagirdlər müvafiq bilik və bacarıqlara, şəxsi təcrübəyə malik olmalıdırlar; ;) şagirdlərin fəaliyyəti müstəqil olmalıdır (fərdi, cütlər, qrup); 4) layihənin hazırlanmasını bir neşə şagirdin birləşdiyi kiçik qrupa tapşırmaq məqsədəuyğundur; 5) layihənin məzmun hissəsi strukturlaşdırılmış olmalıdır; 6) layihə üzərində işin aparılması zamanı tədqiqat metodundan istifadə etmək lazımdır, bu zaman şagirdlər həm coğrafi metod və tədris vasitələrini, həm də müxtəlif elm, texnika, incəsənət sahələrindən olan inteqrasiya olunmuş bilik və bacarıqları tətbiq etməlidirlər.

Layihə işi bir neçə mərhələdə aparılır.

Birinci mərhələ- hazırlıqdır. Bu mərhələdə müəllim uşaqlara tədqiqatın əsas istiqamətlərini əks etdirən layihənin mövzusunu, məqsəd və vəzifələri müəyyən edir, müsbət motivasiya formalaşdırır, tədqiq olunan mövzuya aid nəticələrin alınmasına maraq oyadır. Daha sonra fəaliyyət istiqamətlərinə görə qrupları formalaşdırır, qrupda hər bir şagirdin yeri müəyyən olunur, mümkün tədqiqat metodları, məlumat mənbələri, nəticələrin təqdim edilməsi üsulları müzakirə olunur.

Ikinci mərhələ- tədqiqatdır. Bu mərhələnin gedişi zamanı layihənin iştirakçılarının müstəqil olaraq fərdi və qrup şəklində işi həyata keçirilir: axtarış, məlumatın yığılması və hazırlanması, nəticələrin təhlili, materialların təqdimata hazırlanması və s. müəllim nəzarətedici və istiqamətləndirici funksiyanı yerinə yetirir: müşahidə edir, qrupda alınan məlumatların müzakirəsini təşkil edir,

məsləhət verir. Tədqiqatçılıq mərhələsində şagirdlərin işinin təşkilinin dəqiqliyi layihə işinin qoyulan məsələlərinin müvəffəqiyyətlə yerinə yetirilməsinin əsas şərtidir.

Üçüncü mərhələ- yekun mərhələsidir, müəllim bu mərhələdə görülən işi təhlil etməyə, nəticələrini ümumiləşdirməyə, tövsiyyə və nəticələri formlaşdırmağa kömək edir, qiymətləri elan edir. Layihə üzrə iş bitdikdən sonra şagirdlər onu müdafiə etməlidirlər. Dolğun müzakirənin təşkili üçün qrupun layihə üzərində işini qiymətləndirə bilən oponentlər və ya ekspertlər qrupu seçilir. Qeyd etmək lazımdır ki, layihə işləri nəinki müvafiq vaxtda, həmçinin dərsdən kənar formalarda da həyata keçirilir (dərnəklər, fakultativlər, cəmiyyətlər və s.). Bu halda layihənin müdafiəsi «coğrafiya günü» və «coğrafiya həftəsində» və ya məktəbdəki hər hansı bayram tədbirində həyata keçirilə bilər.

«Semantik əlamətlərin təhlili» texnologiyası

Semantika fransızca (smantuqie, yunanca – smentikos-işarə edən) işarə deməkdir.

Bu strategiya şagirdlərdə əsas biliklərin formalaşdırılması və inkişafı üçün istifadə oluna bilər. Semantik əlamətlərin təhlili metodu şagirdlər üçün tanış olmayan mövzunun tədrisi zamanı daha əhəmiyyətlidir.

Bu fəaliyyəti həyata keçirmək üçün müəllim əvvəlcədən iri bir kağızda və ya yazı lövhəsində sxem çəkir. Sxemin sol tərəfində yuxarıdan aşağıya üç müqayisə olunacaq obyektin adı yazılır. Kağızın yuxarı hissəsində soldan sağa müqayisə olunan xüsusiyyətlər yazılır.

Şagirdlər də bunu özləri üçün qeyd edirlər. Şagirdlər ilk hazırlıq fəaliyyəti kimi iki tanış obyekti müqayisə və müzakirə edir, semantik əlamətlərin altında hər bir obyektə müvafiq.işarə və qeydlər qoyurlar. Sonra şagirdlər mövzunu öyrənərkən mətni oxumazdan və mühazirəni dinləməzdən

əvvəl həmin mövzu ilə bağlı semantik əlamətlərə aid uyğun işarələr qoyurlar.

Şagirdlər sonrakı fəaliyyət növü kimi sxem üzərinə qayıdır, ilk hazırlıq fəaliyyətində qeyd etdikləri işarələri təsdiq edir.

Semantik əlamətlər coğrafiya fənninin bəzi mövzularının tədrisində müxtəlif cür tətbiq oluna bilər.

	Qidalanma			**Daşqın növləri**		
	Yağış	Qar	Buzlaq suları ilə	yaz	yay	qış
Turyançay						
Katexçay						
Qudyalçay						

Tərtib edilmiş semantik cədvəl şagirdlərin yaddaşını möhkəmlətdirməyə deyil, onların biliklərinin inkişafına kömək edir. Şərti işarələr ilə bağlı olan mövzularda tətbiq olunur. Mineral ehtiyatlar Azərbaycanın və hər hansı materikin faydalı qazıntıları və sair mövzuların tədrisində istifadə oluna bilər.

Ölkələr	Yanar	Filiz
Azərbaycan	△▲	▲■○
Fransa	■	■▲
Almaniya	□	
Böyük Britaniya	▲△□■	
Rusiya	■▲△□	■○▲
Avstraliya	■	○●▲
Yapaniya		

1. Cədvəl üzrə yanar, filiz, qeyri filiz faydalı qazıntıların yayılmasınnı təhlil etmək olar. Ölkələrin faydalı qazıntıları ilə təmin olunmasını təhlil etmək onların ixrac və idxalında olan ehtiyatları müəyyən etmək, və s tapşırıqları həll etmək olar.

2. Hər hansı faydalı qazıntı növü əsas plana çəkilir. Onun ölkələr üzrə yayılması təyin edilir. Yəni sual birincinin əksinə olaraq.

Ölkələr	Harada yerləşir			Sərvətlər			Konsor-siuma qoşul-ması
	Avropa	Asiya	Afrika	Neft	Qızıl	Kömür	
Azərbaycan	-	+	-	+	+	-	+
Türkiyə	+	+	-	-	?	?	+
Norveç	+	-	-	+	?	?	+

«Beşlik» texnologiyası (Sankveyn-5 sətirli şer deməkdir)

Xüsusilə, fiziki coğrafiya kurslarının tədrisində bu texnologiyanın imkanları böyükdür. Hər hansı məlumatı yekunlaşdırmağa, mövzuya aid fikirləri ardıcıl, yığcam verməklə onun əsas hissəsini əks etdirir. Beşliklərin tərtib edilməsi ev tapşırığı, yeni mövzunun sorğusu və möhkəmləndirilməsi mərhələlərində verilə bilər. Beşlik yazılmasının əsas prinsipləri şagirdlərə başa salınmalıdır. Bu mövzunun ana dili və ədəbiyyatla əlaqəsini tələb edir. Beşliyin tərtib olunması aşağıdakı kimi qəbul edilmişdir:

- ilk sətir mövzunun bir sözlə ifadəsi olur, adətən isimdən ibarət olur.
- ikinci sətir həmən mövzunun iki sözlə təsviridir.
- üçüncü sətir üç sözlə ifadə edilir. Mövzu ilə bağlı hərəkəti əks etdirir.

- dördüncü sətir 4 sözdən ibarət olub həmən mövzuya aid münasibətini göstərir.

- beşinci sətir 1 sözdən ibarət olub mövzunun mahiyyətini obrazlı bəyan edir.

Beşliklər fərdi, qrup və cütlərin fəaliyyəti ilə təqdim edilə bilər. Şagirdlərdən dərin düşüncə və yaradıcılıq tələb edir. Məs:

Vulkanlar (Nə?)
Qırmızı, isti (Necə?)
İçindən od püskürən (Nə edir?)
Təbiətin od alov sobası (Nədir?)
Cəhənnəm
Və ya
Zəlzələ
Dağıntı, titrəyişli
İçində suxurlar qıvrılan təbiətin göstərdiyi dəhşətli qorxu
Xarabalıq

Göründüyü kimi «beşliklər» şagirdlərin bədii yaradıcılığına əsaslanır.


MÖVZU VI.COĞRAFİYA TƏDRİSİNİN TƏŞKİLAT FORMALARI

Məktəb coğrafiyasının məqsədi, məzmunu, vasitələri, təlimin metod və üsulları, şagirdlərin yaş səviyyəsi təlimin təşkilat formalarına uyğunlaşdırılır.

Təlimin təşkilat formaları qəbul edilmiş qaydalara əsasən, müəyyən vaxt ərzində müəllim və şagirdin fəaliyyətinə əsaslanır. Tədrisin təşkilat formalarının nümunəvi təsnifatına görə bu formalar müxtəlifdir (Sxem 33).

Təşkilat formalarının təsnifatı

Sxem 33



Lakin, tədris prosesi ilk növbədə dərs və dərsdənkənar qruplara bölünür.

Təşkilat formalarının müxtəlifliyinə baxmayaraq dərs təlimdə əsas forma olaraq. qalır. Bu ənənəvi formadır – tədris üçün stimul yaratdığı kimi, şagirdlərin inkişafını formalandıra bilir. Təhsildə aparılan islahatlar dərsə xüsusi diqqət verməyi tələb edir.

6.1. Dərs - pedaqoji prosesin əsası kimi

Tədris prosesinin təşkili ən vacib proses olub, şagirdlərin tədris tapşırıqlarının yerinə yetirilməsi vasitəsilə, biliklərin mənimsənilməsi fəaliyyətinə istiqamətlənməlidir. Məktəb coğrafiyasının məzmunu, məqsədi, istifadə olunan vəsaitlər, tətbiq olunan metodlar və üsullar, şagirdlərin yaş xüsusiyyəti və s. tədris təşkilat formalarında öz əksini tapır.

Təlim prosesinin əsasında- **dərs** durur. Dərs-təlimin hüceyrəsi olub, dinamik və variantlığı ilə seçilir. Dərsin müəllifi müəllimdir. Öz istedadından asılı olaraq müəllim dərsdə ustalıq göstərir, yaradıcılıq tətbiq edir. Dərs həmçinin şagird şəxsiyyətin formalaşmasında əvəzsiz rol oynayır. Dərsə verilən tələblər zaman-zaman dəyişmişdir.

Hazırda, təhsil islahatlarının həyata keçirildiyi bir zamanda dərs prosesinin yenidən təkmilləşdirilməsi vəzifəsi öz əhəmiyyətini artırmaqdadır ki, bunun da ilk növbədə müəllimlərin peşə hazırlığını artırmaqla yerinə yetirmək mümkündür. Dərsin alınması müəllim yaradıcılığından tamamilə asılıdır. Yaradıcılıq isə dərsin normativlərinə aid biliklərin müəllim tərəfindən mənimsənilməsini əks etdirir.

Dərs özündə iki elementi birləşdirir: normativlər və yaradıcılıq. Dərsin məhsuldarlığı dərsin qiymətləndirilməsinin əsas göstəricisidir.

Onu təlimin səmərəliliyi kimi də qəbul etmək olar. Bu hər hansı tapşırığın icrası zamanı prosesə cəlb olunan şagirdlərin sayı ilə ölçülür və

$$T.S=\frac{Ş \cdot S}{V}$$ düsturu ilə ifadə olunur (T.S - təlimin səmərəliliyi, Ş –şagirdlərin sayı, S- sual və ya tapşırıqların sayı, V- tapşırığın (problemin həllinin) həyata keçirildiyi vaxt).

Orta məktəb təhsilinin yenidən qurulması, dərsdə müəllimin pedaqoji ustalığının nümayiş etdirilməsi üçün geniş imkanlar yaradır. Bunun üçün müəllim məktəbin yeni məqsədlərini başa düşməli, tədris-tərbiyə prosesində həyata keçirilən tapşırıqların daima yeniləşməsini tələb edir. Çünki, şagirdlərin şəxsiyyətinin formalaşmasında əsas rol dərs prosesinin üzərinə düşür. (Tədris ili ərzində hər hansı şagird orta hesabla 2000-dən çox dərsdə iştirak edir).

Dərsin müxtəlif aspektləri vardır: dərsin məqsədi, vəzifələri, məzmunu, təlimin vasitə və metodları, tədris fəaliyyətinin təşkilat formaları və s. Lakin dərsin əsasında – tədris fənnlərinin məzmunun vasitəsi ilə şəxsiyyətin inkişaf prosesini təmin etmək durur ki, bu da müəllim və şagirdlərin birgə fəaliyyəti nəticəsində həyata keçirilir. Ənənəvi təlim prosesində tədris - prosesinin aparıcısı müəllimdir, şagirdlər yalnız onlara verilən tələb və göstəricilərə əməl edirlər.

Müasir dərsin tələbləri isə fərqli metodikaya malikdir. Onun əsasında müəllim tərəfindən şagirdlərin idrak fəaliyyətinin təşkil edilməsi durur ki, bu da onların intellektual və praktiki bacarıqlarının formalaşdırılmasına təhrik etməkdən ibarətdir.

Ənənəvi dərsin elementləri sadə və dəyişməzdir. Müəllim dərs vaxtında aşağıdakıları yerinə yetirməlidir:

1.Şagirdlərin bilik və bacarıqlarının yoxlanılması.

2. Yeni materialların təqdim olunması

3.Yeni mövzunun ümumiləşdirilməsi və möhkəmləndirilməsi

4. Ev tapşırığının verilməsi

Ənənəvi təlimdə təlim prosesi aşağıdakı mərhələləri əhatə edir:

1.Ev tapşırıqlarının yoxlanılması

2. Öyrənilən mövzunun sorğusu (əsasən fərdi qaydada)

3.Keçmiş və yeni dərs arasında əlaqənin yaradılması

4.Yeni dərsin izahı (əsasən müəllimnin mühazirəsindən ibarətdir)

5. Yeni dərsin möhkəmləndirilməsi

6. Biliklərin qiymətləndirilməsi

7. Ev tapşırığının verilməsi

Aydın görünür ki, ənənəvi təlimdə müəllimlərin yaradıcılığı və şagirdlərin müstəqil fəaliyyətinə imkan yoxdur. Cəmiyyətdə baş verən demokratik proseslər müstəqil düşünmə bacarığına malik şagirdlər tələb edir ki,

bunun da mühüm yolu dərs mərhələsindən gedir. Bu baxımdan coğrafiya dərsləri yalnız biliklərin ötürülməsi üçün forma kimi qiymətləndirmək düzgün olmaz. Çünki, coğrafiya dərsləri şagirdlərin inkişafı üçün mənbə və müəllim və şagirdlərin birgə fəaliyyəti üçün əsas vasitədir.

Müasir coğrafiya dərsinə verilən tələblər ənənəvidən xeyli fərqlənsə də, şagirdlərin praktik fəaliyyətinə verilən biliklər baxımından (məhəldə, coğrafiya meydançasında aparılan işlər, kontur xəritə üzərndə çalışmalar və s.) müəyyən oxşarlıq mövcuddur. Müasir dərsin mərhələləri müəllim və şagirdlərin birgə fəaliyyəti ilə yanaşı şagirdlərin də qarşılıqlı əlaqəsini nəzərdə tutur (Cədvəl 16).

Cədvəl 16

Müasir dərsin mərhələləri

Mərhələ	Nəticə
1.Motivasiya və tədqiqatın aparılması (problem qoyulur, tədqiqat sualı qoymaq üçün təcrübə aparılır və tədqiqat sualı yaranır)	Yeni faktlar, tədqiqatlar və tədqiqat üçün sual qoyulur.
2.İnformasiya mübadiləsi (ayrı-ayrı fərdlərin aldıqları informasiyalar əsasında)	Kiçik qruplarda müzakirə aparmaq üçün yeni informasiya
3.İnformasiyanın müzakirəsi və təşkili(qruplar dərslik mətnindən özlərinin təqdim etdiyi informasiyaların təsdiqini tapırlar)	Sistemləşdirilmiş məlumatlar
4.Ümumilləşdirmə və nəticə (tədqiqat sualına cavab vermək üçün əldə edilən biliklər ümumiləşdirilir)	Yeni biliklər əldə edilir

5. Yaradıcı tətbiqetmə (qazanılmış biliklərin tətbiq edilməsi)	Təcrübə və biliklərin tətbiqi yolları araşdırılır.
6. Özünüqiymətləndirmə və refleksiya (fərdi fəaliyyətin əks etdirilməsi və qiymətləndirilməsi, sonda və ya hər mərhələdən sonra keçirilə bilər.	Özünüqiymətləndirmə vərdişləri, müstəqil, təlim bacarığı yaradılır.

Müasir dərsin ən vacib göstəricilərindən biri dərsin məqsədinin qoyuluşudur. Dərsin məqsədi coğrafiyanın məzmununa dair bilik və bacarıqları əsasında şagird şəxsiyyətinin formalaşdırılmasına istiqamətlənir(Cədvəl 17).

Cədvəl 17

Müasir dərsin məqsədləri

Öyrədici	Tərbiyəedici	İnkişafetdirici
Tədqiqat aparılması imkanı	Əməkdaşlıq	Fəallıq
Müxtəlif iş formalarından istifadə imkanı	Bir-birini dinləmək bacarığı	Adaptasiya qabiliyyəti
Vaxta qənaət	Bir-birinin fikrinə hörmətlə yanaşmaq	Yaradıcılıq
Təhliletmə və nəticə çıxarma bacarığı		Müstəqil tədqiqat aparmaq
Qısa müddətdə daha çox materialın öyrənilməsi imkanı		Təfəkkürün 3 növünün inkişafı

Müasir dərsin məqsədləri aşağıdakı suallara cavab verməyi tələb edir:

1.Şagirdlər dərs prosesində nələri mənimsəməlidirlər?


2.Mənimsənilən materiallar şəxsiyyətin formalaşmasını təmin edirmi?
3.Fənnin məzmunu hansı dəyərlərin əldə edilməsinə istiqamətləndirilmişdir?

Əslində müasir dərsin məqsədi – dəyərlər sistemi olub şagirdlərdə

- sosial aktivlik;
-intkellekt və yaradıcılıq;
- öz diyarına, vətəninə, ölkəsinə məhəbbət;
- ətraf mühitdə baş verən hadisə və prosesləri başa düşmək;
- coğrafi bilik və bacarıqları həyatla əlaqələndirmək;
- müstəqil olaraq qərar verməyi və s. formalaşdırmaqdır (Sxem 34)

Müasir coğrafiya dərsinin əsas əlamətləri

Sxem 34



Müasir dərsin əsas göstəricisi dərs prosesində *müəllimin funksiyasının* dəyişməsidir. Ənənəvi dərsdə müəllimin əsas vəzifəsi coğrafi informasiyanı ötürməkdən və mənimsəmə səviyyəsini yoxlamaqdan ibarət idisə, müasir dərsdə müəllim məsləhətçi, tədris fəaliyyətinin təşkilatçısı rolunu yerinə yetirir. Şagirdlərin coğrafi informasiya mənbələrindən istifadə edərək (dərslik, dərs vəsaiti, atlas, xəritə, lüğət və s.) tədris tapşırığı və problemlərini müstəqil şəkildə yerinə yetirilməsində, müəllim yalnız istiqamətləndirici rolda iştirak edir.

Müasir dərsin digər bir göstəricisi isə təlim prosesinin *məntiqi quruluşunun əvvəlkindən* fərqli olmasıdır. Belə ki, dərsin müxtəlif mərhələləri birləşdirilərək, yeni mövzunun izahının dərsin ən məhsuldar mərhələsində –yəni dərsin əvvəlində aparılmasıdır.

Müasir dərs üçün özünəməxsus cəhətlərindən biri *müəllim şagird əməkdaşlığı* xarakterli olmasıdır.

Ənənəvi təlimdə mövcud olan avtoritar rejim stili aradan götürülür və şagird fəaliyyətinin motivasiyasına diqqət artırılır. Müasir dərslərdə şagirdlərin fənnə münasibəti əsas götürür.

Müasir dərsdə müəllimin şagirdlər ilə əməkdaşlığı çox funksiyalı xarakterə malikdir: şagird məntiqinin aktivləşdirmək məqsədi ilə problem yaratmaq bilik və bacarıqları yoxlamaq zəif oxuyan şagirdlərə məsləhət vermək və s.

Müasir dərs prosesinin həyata keçirilməsində *kollektiv tədris fəaliyyəti* xarakterikdir. Ənənəvi təlimdə yanaşı oturan lakin, bir-biri ilə ünsiyyət qurmayan şagirdlər, müasir təlimdə fəallaşır, onlar qrup və cütlər formasında fəaliyyət göstərir, fərdi bacarıqlarını nümayiş etdirmək imkanlarına malik olurlar.

Müasir coğrafiya dərsinin daha bir xarakterik cəhəti *geniş fənnlərarası əlaqəyə* malik olmasıdır. Xüsusilə, sinif otağı hüdudlarından kənarda aparılan ekskursiya, yürüş,

kitabxana, ekoloji cığır və s. dərsdənkənar təşkilat formalarında coğrafiya fənnin biologiya, kimya, fizika və s. fənnlərilə inteqrasiyası mümkündür.

Müasir coğrafiya dərslərinin digər xarakterik cəhəti *təşkilat formalarının* ənənəvindən fərqli olmasıdır. Təşklat formalarının bir-birindən fərqli olması, şagirdlərdə özünə inam hissinin yaranmasına imkan verir, onlar müxtəlif vəziyyətlərdə özlərini sınayır, informasiyaları toplamaq, onları təhlil etmək, təqdim etmə prosesini seçmək və nəhayət onu nümayiş etdirmək mərhələlərini yerinə yetirməklə sərbəst öyrənmənin tələblərini öyrənirlər. Müasir dərslərin quruluşunun xeyli fərqli olması eyni zamanda müəllimdən də xüsusi bacarıqlar tələb edir. Müəllim şagird münasibələrinin yeni müstəvidə qurulmasına olan tələblərə cavab vermədən müasir dərslərin təşkil edilməsi mümkün deyil. Müasir dərslər tədris oyunları, mühazirə, konfrans, qiyabi səyahət, disput, zaçot və s formasında keçirilir.

Şərh olunanlar müasir coğrafiya dərslərinə verilən tələblərin aşağıdakılardan ibarət olmasını üzə çıxarır:

1. Tədris-tərbiyə prosesinin-inkişafetdirici, təhsilverici, tərbyiəedici məqsədlərinin aydın şəkildə qoyulması.

2. Dərsliyin mətni ilə müəllimin şərhinin müəyyən dərəcədə uyğun gəlməsi, lakin müəllimin izahı zamanı coğrafi qanunauyğunluq və proseslərin gedişinə diqqət verməsi;

3. Mövzunun şərhində vacib, aparıcı ideyaların seçilməsi

4. Tədris prosesində diyarşunaslıq prisnpinin əsas istiqamət kimi qəbul edilməsi

5.Tədris materialında yeni elmi məlumatlar və statistik rəqəmlərin yer tutması.

6. Məktəb coğrafiyasında ekoloji istiqamətin əsas götürülməsi

7. Dərs prosesində didaktik tapşırıqların yerinə yetirilməsi

8. Şagirdlərin yaş xüsusiyyətlərinin nəzərə alınması (Məsələn, aşağı siniflərdə xəritə üzərində aparılan işlərin xarakteri yuxarı siniflərdə aparılanlardan fərqlidir).

Nəzərə almaq lazımdır ki, coğrafiya dərslərində dövrü mətbuatdan istifadə olunması da dərsə verilən müasir tələblər sırasındadır.

Müasir dərs bir-birindən fərqli olan üç mərhələdən ibarətdir.

1.İlk mərhələ **düşünməyə yönəltmə** adlanır. Bu mərhələdə şagirdlər «Beyin həmləsi» (əqli hücum) yolu ilə mövzuya aid olan və şagirdlərə məlum bilikləri yada salırlar. Beyin həmləsi fərqli, cütlər və ya qruplar şəklində həyata keçirilir. Şagirdlərdən biri «əqli hücum» zamanı toplanın bilikləri lövhəyə yazır, «ideyalar bankı» yaradılır. Toxunulmayan məsələlərə müəllim aydınlıq gətirir. Düşünməyə yönəltmə prosesində müəllim şagirdləri daha çox fəallaşdırır, onların öz fikirlərini söyləməyə şərait yaradır. Bu mərhələdə bir neçə idrak fəaliyyəti yerinə yetirilir. Şagirdlər mövzuya aid biliklərini yada salmaqla özlərinin mövzu ilə əlaqəli daha geniş düşüncələrini üzə çıxarırlar. Sonrakı mərhələ üçün düşünməyə yönəltmənin əhəmiyyəti daha çoxdur. Bu yeni bilikilə keçmiş biliklər arasında əlaqə yaratmaqla izah olunur.

Düşünməyə yönəltmənin ikinci məqsədi şagirdləri fəallaşdırmaq və mövzuya istək yaratmaqdır.Görkəmli professor Harri A.Overstrit «İnsan hərəkətlərinin motivasiyası» əsərində istək barədə yazır «İnsanın bütün hərəkətləri istəkdən doğur...kimisə hansı işə cəlb etmək istədikdə ona ən yaxşı məsləhət, onda bu işi görmək üçün istək oyatmaqdır.....» Şagirdlər dərsə söq edildikdə Onlar dinləmə prosesində aktiv fəaliyyətdə olurlar. Aktiv dinləmə şagirdlərin nə düşündüyünü bilmələri və onu öz sözləri ilə ifadə etmələridir.

Şagirdlərin coğrafiya dərslərində aktiv fəaliyyəti üçün müəllimin motivasiya yaratması ən önəmli prosesdir.
İlk növbədə motiv nə deməkdir? – Şəxsiyyətin tələbatları ilə onun fəaliyyətinin məqsədi arasında əlaqə psixoloji aspektdə motivlər vasitəsilə yaranır. Motiv (latınca movere-hərəkətə gətirmək, itələmək və ya təhrik etmək deməkdir) dedikdə tələbatların təmin olunması ilə əlaqədar olaraq insanı fəaliyyətə təhrik edən amillər nəzərdə tutulur.
Motivlərin bir-birilə vəhdət təşkil edən 3 əsas funksiyası vardır.

-təhriketmə
-istiqamətləndirmə
-mənalandırma və ya mənavermə

İnsanı fəaliyyətə təhrik edən müxtəlif hadisə və hallar motiv kimi özünü göstərir: əqidə və dünyagörüşü, maraqlar və emosiyalar, həvəs, yönəliş, ideallar və s. buna misal ola bilər. İlk öncə müəllim şagirdin həyatında coğrafiyanın yerini bildirməli və o yerin boş olduğunu, o yerin doldurulmasının vacibliyini şagirdə izah etməlidir. Bu prosesi müəllim ancaq öz pedaqoji ustalığı ilə edə bilər. Şagirdin həyatında bu boşluğun yaranması və bu boşluğun doldurulmasının onun beynində formalaşdırılması şagirddə tələbat yaradır. Tələbatı yaratmaq tədris prosesində olduqca vacibdir. Çünki, coğrafiya həyatımızın hər pilləsində mövcuddur və danılmazdır. Tələbatı yaratmaq hələ işi həll etmək demək deyil. Tələbat məqsədə xidmət etməlidir. Bunun üçün əsas vəzifə bu tələbatın məqsədini yaratmaqdır. Müəllim fənninə maraq yaratmaq və şagirdlərdə yaratdığı tələbatı məqsədə çevirmək üçün aktyora çevrilməlidir. Coğrafiya fənnini öyrənməkdə məqsəd isə bizi əhatə edən təbii aləmi dərk etmək və onu xəritə üzərində təsvir etməkdən ibarət olduğuna görə məqsədi müəyyən etmək daha asandır.
Şagirdlər nə düşündüklərini yazmaq və ya danışmaqla ifadə edir və bu yolla mövzu və ideya yaxud problemin həlli

məqsədi ilə beyinlərində «sxem» qurur, nəticədə onlar məlum bilikləri tətbiq edərək məchula doğru hərəkət edir. Düşünməyə yönəltmə mərhələsində müəllimin vəzifəsi, şagirdlərin bildikikləri haqqında düşünmək üçün maraq oyatmaq, uzun müddət yadda qalan bilik yaratmaq üçün məqsədli öyrətmə mühitini saxlamaqdan ibarətdir. Maraq və məqsəd şagirdlərin davamlı fəal məşğuliyyəti üçün vacib şərtdir.

Bu mərhələdə ortaya çıxan məqsəd müəllimin və şəxsin özünün olmaqla iki qrupa ayrılır. Məsələn: «Avrasiyanın iqliminə təsir edən amillər» mövzusunda şagirdlərin marağını son illərdə Avropada yayın isti, qışın kəskin soyuqlarda müşayiət olunduğu fakt kimi gətirmək və Avropanın istilik radiatoru olan; Holfstrım cərəyanında baş verən dəyişiklər bununla bağlı söz-söhbətləri dərsin düşünməyə yönəltmə mərhələsində diqqət mərkəzinə çəkmək lazımdır.

Dərsin ikinci- **dərketmə** mərhələsi şagirdlərin təfəkkürünün inkişafına və yeni materialı öyrənməsinə xidmət edir. Bu mərhələdə şagird yeni mövzuya aid informasiyaları qəbul edir. Müəllimin istiqamətləndirici kimi iştirakı bu mərhələdə daha aydın hiss olunur. Şagirdlərin mövzunu sərbəst şəkildə öyrənməsinə daha az müdaxillə etməklə müəllim əslində onların dərk etməklə öyrənməsinə şərait yaradır. Mövzunun mənasını dərk edərək yaranan bilik şagirddə ikinci vəzifəni – özünüyoxlama funksiyasını formalaşdırır. Çünki, passiv şəkildə yeni informasiya qəbul edən şagird başa düşmədiyi halda sual verir və ya üstündən keçir. Lakin, müstəqil öyrənmə prosesində bu vəzifəni özü yerinə yetirir.

Müasir dərsin üçüncü mərhələsi **düşünmə** adlanır. Şagirdlərin yeni anlayışları əldə etməsi, yeni biliyin möhkəmlənditrilməsi bu mərhələdə həyata keçirilir. Yeni biliklərin mənimsənilməsi səviyyəsi, şagirdlərin həmən informasiyanı öz sözləri ilə ifadə etmək bacarığı ilə ifadə

olunur. Öyrənmə fərdi formada yerinə yetirilir. Şagirdləri müzakirəyə cəlb etməklə, müəllim onlarda alternativ variantlara baxmaq imkanı yaradır.

Şagirdlərin isə eyni zamanda

- öyrənmə üçün məqsədlər yaranır;
-fəal müzakirəyə qoşulur;
- təlim üçün motivasiya yaranır;
-fikir müxtəlifliyinə alışdırılır;
-özünümüdafaə üçün imkan yaranır;
- tənqidi,məntiqi və yaradıcı təfəkkurü formalaşır.

Beləliklə, müəllim şagirdləri təlim prosesinə cəlb edir və onların özlərinin təsəvvür etdiklərini öyrədə bilir. Göründüyü kimi, müasir dərslərdə şagirdlərin aktivlik dərəcəsi artır və müəllim istiqamətləndirici, şagird isə tədqiqedici kimi çıxış edir.

Müasir dərsin düzgün qurulması üçün müəllimin hazırlıq səviyyəsi əsas şərtdir. Müəllim şagirdlərin bilik səviyyəsini onların öyrənə biləcəkləri üçün təməl olduğunu əsas götürərək gündəlik icmal tərtib edir.

Dərsin vaxt bölgüsü Kolba prinsipi əsasında qəbul edilir. Bu prinsipə görə, dərsə ayrılan vaxtın faizlə göstəriciləri aşağıdakı kimidir:

Motivasiya – 10%

Keçmiş mövzuların təkrarlanması – 20%

Yeni materialların öyrənilməsi və nəitəcinin çıxarılması – 50%

Qiymətləndirmə – 10%

Refleksiya – 10%

Refleksiya dərsin sonunda müəllimin həmin dərsə aid şagirdlərin rəylərini öyrənməsidir.Refleksiya şagirdlərdə özünü obyektiv qiymətləndirməyə geniş imkan yaradır ki, bu da dərsin tərbiyəedici əhəmiyyətini artırır.

Nümunə:


REFLEKSİYA

Mən_____bu gün coğrafiya dərsində

1. Öz fərziyyəmi, ideyamı irəli sürdüm;
2. Müzakirədə fəal iştirak etdim;
3. Mətn üzərində işlədim;
4. Problemlərin həllində iştirak etdim
5. Materialı təhlil etdim;
6. Ümumiləşdirərək nəticə çıxartdım;
7. Qrupun işini təşkil etdim;
8. Qrup işinin nəticələrini təqdim etdim

MƏNİM QİYMƏTİM _____

Dərs prosesi bütöv, vahid, səhnələşdirilmiş prosesdir. Burada şagird və müəllimlərin fəaliyyəti bərabər paylanmışdır. Müəllimin (◍) və şagirdin (○) fəaliyyəti ənənəvi və müasir dərsdə eyni deyil.



Göründüyü kimi, müasir dərslərdə şagirdlərin aktivlik dərəcəsi artır və müəllim-istiqamətləndirici, şagird isə – tədqiqatçı kimi çıxış edir. Müəllimin dərsi dərsə hazırlıqdan başlanır. Dərsə hazırlıq isə dərs planının tərtib olunması ilə birbaşa əlaqədardır. **Dərs planı** – tematik. plan əsasında

tərtib olunur. Dərs planı müəllimin yaradıcı fəaliyyətini-ustalığını, cəsaraitini, manevr etmək qabiliyyətini, elmi və metodiki ideyalarını, fənnə aid bilik səviyyəsini əks etdirir. Dərs planları çoxvariantlıdır. Lakin, onun ümumi formasını aşağıdakı kimi qəbul etmək olar (Cədvəl 18).

Cədvəl18 **Dərs planının quruluşu**

Məzmun və təlim-tərbiyə məqsədləri	Bilik mənbələri və təlim metodları	Fəaliyyət		Şagirdlərin idrak fəaliyyətinin səviyyəsi
		müəllim	şagird	

Müəllimlərin xüsusilə, gənc coğrafiya müəllimlərinin qarşısında duran ən çətin vəzifələrdən biri dərsə hazırlıq prosesində mövzunun məqsədinin təyin edilməsidir. Dərsin məqsədi xeyli suallara cavab verir:

- şəxsiyyətin inkişafında dərsin rolu nədir?
- hansı biliklər şagirdin inkişafında baza rolunu oynaya bilər?
- dərsdə hansı bacarıqlar formalaşdırılmalıdır?və s.

Bilik və bacarıqlara verilən tələblər hər hansı dərsin əsas məqsədlərindən biridir:

Məsələn, VII sinif «Materik və okeanlar coğrafiyası» kursunda müəllim «Avrasiya materikinin coğrafi mövqeyi» mövzusu üzrə dərsin məqsədlərini aşağıdakı kimi müəyyən edə bilər:

- şagirdləri materikin öyrənilməsi planı ilə tanış etmək
- «materikin coğrafi mövqeyi» anlayışını təhlil etmək
- materikin coğrafi mövqeyini təyin etməyi öyrətmək

- Avrasyanın coğrafi mövqeyinin materikin təbiətinə təsirinə dair nəticə çıxartmaq.

Müasir dərsin planlaşdırılmasında tərbiyəedici məqsədlər aydın şəkildə özünü göstərməlidir.

Dərsin əsas şərtlərindən biri də təqvim, tematik dərs planlarının tərtib edilməsidir. Bu planları tərtib etmək üçün müəllim tədris proqramını, metodik vəsaitləri, dərslikləri və digər vəsaitləri dərindən bilməli və qarşıya qoyulan məqsədləri planlaşdırmağı bacarmalıdır.

Tematik plan tədris prosesinin ssenarisi hesab oluna bilər. Burada dərslərarası əlaqə, şagirdlərin müstəqil fəaliyyətinin təşkil edilməsi məsələləri işıqlandırılır. Tematik plana aşağıdakılar daxildir:

1.Dərsin mövzusu, tipi, yerinə yetirilmə formaları, vaxt.
2. Dərsin məqsədi və vəzifələri
3.Dərsin əsas məzmunu (analayışlar, prinsiplər, qanunauyğunluqlar)
4. Dayaq biliklər və fənlərarası əlaqə
5. Tədris vəsaitləri (nümayişetdirici, paylayıcı)
6. Şagirdlərin dərs prosesində tədris fəaliyyəti
7.Praktik və müstəqil işlər
8. Öyrənilmiş materiala aid sual və tapşırıqlar
9. Dərsin nəticələri
10. Ev tapşırığı (müxtəlif variantlarda).

Dərsin qiymətləndirilməsində bir sıra meyarlar nəzərə alınır.Bunlar aşağıdakılardır:

1.Dərsin elmi səviyyəsi, elmilik prinsiplərinin göslənilməsi və yeniliklər.
2. Elmi anlayışlar və qanunauyğunluqlarla aparılan iş, çıxarılan nəticələrin məzmuna və məqsədə yaxınlığı.
3. Təlimin inkişafetdirici funksiyalarının səviyyəsi
4. Bilik, bacarıq və vərdişlərin şagirdlərə aşılanması səviyyəsi

5. Fəndaxili, fənlərarası və sistemlərarası əlaqələrin həyata keçirilməsi sahəsində işlərin aparılması
6. Təlim metodlarının və üsullarının şagirdlərin yaşına və inkişaf səviyyəsinə uyğun olaraq düzgün seçilməsi
7. Dərsin yerinin və mövzusunun dəqiq təyin edilməsi ilə şagirdlərin sistemli, əsaslı biliklərə yiyələnməsinə nail olmaq
8. Dərsdə təlim vərdişlərinin aşılanması, dərsin öyrənməyi öyrənmək texnologiyası əsəsında qurulması
9. Dərsdə şagirdlərin təfəkkür imkanlarının nəzərə alınması
10. Pedaqoji prosesin, şagird üçün tədqiqatçılıq və araşdırmalar sahəsində, təcrübə meydanına çevrilməsi istiqamətində aparılan işlər.
11. Dərsdə yeni pedaqoji metod və üsulların tətbiqi və dərsin (məşğələnin) şagirdin daha əhəmiyyətli və maraqlı fəaliyyət sahəsinə çevrilməsi, fəallığın maksimum artması

6.2. Coğrafiya dərslərinin tipləri

Hər bir dərsin özünə məxsus məzmunu vardır ki, bu onun digər dərslərdən fərqləndirir. Hər bir dərsin məqsədi onun tipini müəyyən edilməsidir. Didaktikada dərslər məqsədlərinə, təlim metodlarına, tədris fəaliyyətinin təşkilat formalarına görə qruplaşdırılır.

Didaktik məqsədlərinə görə dərslərin təsnifatına diqqət daha böyükdür. Dərsin elementləri müxtəlif dərs tiplərində fərqli olub, müəllim yaradıcılığı və dərs normativlərindən asılıdır. (Cədvəl 19)

Giriş dərsi – tədris ilinin və ya kursun,iri bölmə və ya fəsilin əvvəlində həyata keçirilir. Belə dərslərin məqsədi təkcə tədris tapşırığını yerinə yetirmək deyil, bütövlükdə təlim vasitələri ilə (dərslik, atlas, iş dəftəri və s.) şagirdləri tanış etmək, onlardan istifadə etməyin başa salmaqdır.

Cədvəl 19

Dərs tipləri

Dərs tipləri	Dərsin elementləri				
	Təşkilat	Biliklərin yoxlanılması	Yeni biliklərin izahı	Möhkəmləndirmə və ümumiləşdirmə	Ev tapşırığı
Giriş dərs	+	+	+	+	+
Yeni bilik verən dərs	+		+	+	+
Kombinə edilmiş	+	+	+	+	+
Bacarıqların formalaşdırılması	+		+	+	+
Biliklərin yoxlanılması və uçotu	+	+		+	+
Təkrar dərs	+	+		+	+
Biliklərin ümumiləşdirilməsi	+			+	+

Kombinə edilmiş dərslər. Bu dərs tipii müəllimlər tərəfindən praktikada daha çox istifadə olunur.

Kombinə edilmiş dərslər dayaq biliklərin təkrarı ilə başlayır, yeni və keçmiş biliklərin arasında əlaqələrin yaradılması ilə yeni biliyin möhkəmləndirməsi ilə nəticələnir, yoxlanılır və qiymətləndirilir.Kombinə edilmiş dərslərdə dərsin hər bir elementinə müxtəlif metodlar tətbiq etmək və təşkilat formalarından istifadə etmək imkanı vardır. Lakin, belə dərslər şagirdləri yorur, onların idrak fəallığını aşağı salır.Ona görə də kombinə edilmiş dərslərin müxtəlif mərhələlərinə yeni pedaqoji texnologiyalar tətbiq olunur. Dərs prosesində motivasiya yaratmaq, keçmiş

dərsin sorğusunda qrup təşkilat formasından istifadə etmək, yeni mövzunun izahı prosesinə fəal şağirdləri cəlb etmək və s. lazımdır. Kombinə edilmiş dərslərdə dərslik və xəritə üzərində aparılan işlər şagirdlərin müstəqil fəaliyyətinə geniş imkanlar yarada bilər.

Yeni bilik verən dərs tipindən daha az istifadə olunur.Bu tipdə keçmiş biliklərin yoxlanılması mərhələsi tətbiq olunmur və yaxud yuxarı siniflərdə istifadə edilir.Yeni biliklərin verilməsi dərs tipində şifahi şərh metodları daha çox tətbiq edilir. Lakin, bura əyani metodlar tətbiq olunduqda dərsin səviyyəsi yüksəlir. Bu dərs tipinin həyata keçirilməsində mühazirə, müsahibə, nəqletmə,şagirdlərin dərslik və digər dərs vəsaitləri üzərində müstəqil işləri, paylama materiallarından istifadə və s bu dərslərin effektivliyini artırır.Ayrı-ayrı dərslərdə metodların tətbiqi zamanı problemin qoyuluşu üçün sualların verilməsi, əyani vəsaitlərin tətbiqi, plan və icmal, sxem, cədvəl hazırlanması və s.işləri yerinə yetirilə bilər.

Təkrar və ümumiləşdirilmiş təkrar dərslərin əsasında biliklərin təkrarı durur. Məqsəd biliklərin təkrarlanması və yoxlanmasıdır. Şagirdlərin bilik səviyyəsini yoxlamaq üçün müxtəlif sorğu vərəqləri xəritə üzərində işlər və digər praktiki metodlar tətbiq olunur. Belə tip dərslərdə bacarıq və vərdişlərin tətbiq edilməsini əsas götürür. Məhəldə cəhət təyini, istiqamətin ölçülməsi, məsafələrin miqyasa uyğunlaşdırılması, hava müşahidələrinin aparılması və s.

Müstəqil və praktik iş dərs tipi – müəllimin rəhbərliyi ilə şagird bacarıqlarının formalaşdırılmasıdır. Sual və tapşırıqlar biliklərin yoxlanılması məqsədinə yönəldilir. Belə dərslər xüsusilə, aşağı siniflərdə, xəritə üzərində bacarıq və vərdişlərin formalaşdırmaq məqsədi tətbiq olunur. Coğrafi koordinatların təyini, horizontallara əsasən planda nöqtələrin nisbi və mütləq hündürlüyünün təyin olunması və s.

Ümumiləşdirici təkrar dərs tipində müxtəlif metodlar tətbiq etmək mümkündür. Paylama materialları üzərində aparılan işlər (kontur xəritə vərəqləri, sorğu vərəqləri və s.),l məsələ həlli, yoxlama yazı işləri, qrafik sorğular, sual və tapşırıqların cavablandırılması və s. işləri yerinə yetirməklə bu dərs tipini maraqlı təşkil etmək mümkündür.

Adətən ümumiləşdirici təkrar dərslərin geniş həcmli mövzuların sonunda tətbiq etmək daha məqsədə uyğundur.

Didaktik məqsədlərə görə dərs tipləri müasir coğrafiya dərslərinə verilən tələbləri əks etdirə bilmir. Orta məktəb təhsilinin yeni məqsədinin şəxsiyyətin inkişafına yönəlməsi, yeni aktiv pedaqoji texnologiyaların tətbiqini tələb edir. Hazırda dərs tiplərinə yeni çalarlar verməklə müəllimlər qeyri-ənənəvi dərs formalarından istifadə edir. (Cədvəl 20).

Cədvəl 20

Qeyri-ənənəvi dərslərin təsnifatı


	Dərs tipləri		
Yeni bilik verən dərs	Bacarıqların formalaşdırılması	Biliklərin təkrarı və ümumləşdirilməsi	Yoxlama və biliklərin uçotu
Mühazirə Səyahət Tədqiqat Konfrans Səhnələşdirilmiş-oyunlar	Praktiki iş, Dialoq rolu və işguzar oyunlar, inşa	Seminar, siniflər- xaric oxu, disput,tədris oyunu, məhkəmə dərs, konkurs yarış	Zaçot viktorina konkurs yaradıcılıq işinin müdafiəsi,yaradıcı hesabat, layihə işi və s.

6.3. Coğrafiya tədrisinin təşkili formaları

Yuxarı siniflərdə coğrafiyanın öyrənilməsi zamanı mühazirə, seminar və zaçot tədris formalarından istifadə etmək məqsədəuyğundur. Məhz bu formalar şagirdlərə müstəqil fəaliyyət göstərməyi, biliklərin əldə edilməsinə yaradıcı yanaşmağı öyrədir və bununla da ali məktəb təhsilinə hazırlaşdırır. Mühazirə, seminar, zaçot dərsləri müəyyən məqsəd naminə vəhdət yaradır (Sxem 35).

Dərsin təşkilat formalarının sxematik təsviri

Sxem 35



M-mühazirə
Z-zaçot
S-seminar
M-məsləhət
P-praktikum

Coğrafiya tədrisinin metodikasında, mühazirə-seminar-praktikum - zaçot sistemində aşağıdakı elementlərin olması qəbul edilmişdir: mühazirə, praktikum, dialoq-dərs, məsləhət saatı, seminar və zaçot. Bu formalar tədris prosesində

- tədris prosesinin dəqiq planlaşdırmasını ,yəni birinci məşğələdən sonuncuya qədər sistemləşdirməyi;
- təlim elementlərinin bir-biri ilə sıx əlaqəsini;
- şagirdlərin vaxtaşırı qiymətləndirilməsini tələb edir.

Bu sistemdə başlıca yer **mühazirə** dərslərinə məxsusdur. Kursun, bölmənin, mövzunun başlanğıcında

tətbiq olunan bu forma, nəzəri materialların sistemli şəkildə öyrədilməsinə xidmət edir. Mühazirələr şagirdlərdə hər hansı mövzuya aid elmi məlumatları birləşdirməyə imkan verir. Əslində mühazirə dinləmə mürəkkəb yaradıcı prosesdir.

Bu prosesdə şagirdlərin üzərinə mühazirənin məzmununu başa düşmək, yadda saxlamaq, əsas anlayışları seçmək, eşitdiklərini sürətlə və şüurlu şəkildə təsəvvür etmək vəzifələri düşür.

Orta məktəbdə tətbiq olunan mühazirələr əyani vəsaitlərdən daha çox (qrafik, xəritə, kinofilm, kompyüter təqdimatı və s.) istifadə edilməsinə, mühazirənin daha qısa müddətli olmasına, şagirdlərdə motiv yaratmaq məqsədinə görə ali məktəb mühazirələrindən fərqlənir.

Məktəb mühazirələrini şagirdlərə daha az tanış olan mövzuların tədrisində istifadə etmək məqsədəuyğundur. Yaxşı olar ki, coğrafiya kabinetində «Mühazirə dərsləri üçün yaddaş» adlanan qeyd vərəqi asılsın və burada şagirdlər üçün gümumi qaydalar yazılsın:

1.Müəllimin təqdim edəcəyi mühazirənin adını, məqsədini, aparılması vaxtını, tapşırıqların xarakterini qeyd etmək.

2. Mühazirənin məzmunun da aparıcı ideyaları, məntiqi ardıcıllığa aid fikirləri qısa fikirlərlə ifadə etmək

3. Aparılan qeydlərin yoxlanılması və nəticələrin çıxarılmasını təmin etmək

4. Aparılmış qeydləri sonradan bir daha araşdırmaq, korrektə etmək

5. Mühazirə deyərkən müəllimin sözünü kəsmək düzgün deyil, butun suallar mühazirənin sonunda verilməlidir.

Orta məktəbin yuxarı siniflərində, təlim-tərbiyə prosesinin aktiv formalarından biri **seminar** məşğələləridir. Seminar, şagirdlərin müstəqil işləmək qabiliyyətini əhəmiyyətli dərəcədə artırır və yaradıcı, effektli olmasına imkan verir.

Seminar qrup fəaliyyətinin xususi formasıdır. İlk əvvəllər seminar hər hansı elmi problemin müzakirəsinə həsr olunurdu. Sonralar isə ali və orta məktəblərdə özünə yer aldı. Seminarlar uyğun olan ümumiləşdirici dərslərdə tətbiq olunur. Bu dərslərə hazırlaşarkən, şagirdlər özlərinə lazım olan bilikləri sərbəst şəkildə toplayır, təqdim etmək üçün tərtibat verir. Seminarlar

- tədris ədəbiyyatından istifadə edərək onu daha dərindən öyrənmək;
- seçilmiş mövzunu təqdim etmək üçün yazılı və ya şifahi şəkildə hazırlamaq;
- sualı müzakirə etmək üçün şagirdlərin kollektiv şəkildə işləməsi üçün imkan yaradır.

Seminar dərslərinin mövzusunu seçərkən bir sıra metodik şərtlərə əməl etmək lazımdır. İlk növbədə seminar dərslərin tədris proşesində yeri düzgün seçilməlidir. Bu dərslər yeni materiallar ilə tanışlıq və ya öyrəniləndən sonrakı dərslərdə tətbiq oluna bilər.

Daha sonra, şagirdlərin müstəqil öyrənəcəyi coğrafi materialın səviyyəsi nəzərə alınmalıdır. Belə ki, öyrəniləcək materialda təhsilverici və tərbyiəedici tapşırıqlar önəmli yer tutmalıdır.

Seminar dərslərində şagirdlərin lazımı ədəbiyyatla təmin olunması seminar dərslərinin üçüncü şərtidir.

Digər şərt şagirdlərdə dövrü material və coğrafi ədəbiyyatdan müstəqil surətdə istifadə etmək bacarığını formalaşdırmaqdır.

Beşinci şərt seminarlarda digər dərs formalarını (məktəb mühazirəsi, praktikum, məsləhət, zaçot) uyğunlaşdırmaqdır.

Sonuncu şərt isə şagirdlərin yüklənməsinin qarşısını almaq və yarım ildə iki-üç seminardan çox olmayaraq onları təşkil etməkdir.

Seminar dərslərinə hazırlıq bir neçə mərhələni əhatə edir:

1.İri mövzuların tərkibində seminar dərsinin yerini müəyyən etmək, şagirdlərlə sualları və istifadə edə biləcəkləri ədəbiyyat siyahısı ilə tanış etmək (2-3 həftə əməl)

2. Dərsdənkənar vaxtda qrup və fərdi şəkildə məsləhət saatı ayırmaq

3. 2-3 şagirdi müəllimə kömək etmək məqsədi ilə xüsusi hazırlamaq

4. Öyrənilən mövzuya aid aparıcı sualların üzə çıxarılmasına, hadisə və proseslərin izahına müxtəlif baxışların yaradılmasına, yeni ədəbiyyatdan istifadə edilməsinə nəzarət etmək və seminar dərslərində müəllimlərin əsas çətinliyi şagirdlər arasında diskussiya yaratmaq, onları aktivləşdirmək və qiymətləndirməkdir.

Bu məqsədlə müəllim verdiyi əlavə sual və ya «atmacaları» ilə şagirdlərin mübahisələrini «qızışdırır», «problemləri» ortaya gətirir. Dərs prosesinə daha çox şagirdi cəlb etmək üçün onların bəzilərinə «opponent», « ekspert», «jurnalist», «müşahidəçi» kimi «vəzifələr» vermək və sonda onları qiymətləndirmək mümkündür.

Coğrafiya dərslərində seminar dərslərinin seminar - hesabat, seminar-disput, seminar-müzakirə və s.tiplərini tətbiq etmək olar. Mühazirə dərslərində olduğu kimi, seminar dərslərinə verilən tələblər də ayrıca vərəqdə yazılmalı və hətta sinif divarında asılmalıdır. «Şagirdlər üçün yaddaşa» aşağıdakılar daxildir:

1.Seminarın başlıca qaydası hazırlanan materialın oxunması deyil, onun danışılmasıdır. (bəzi rəqəm materiallarına baxaraq onları lövhəyə yazmaq olar).

2. Çıxışlar əsaslandırılmış, dəqiq, qısa, konkret olmalıdır.

3. Şagirdlər bir-birinin çıxışlarını diqqətlə dinləməli, tənqidi yanaşmalı, müzakirəyə qoşulmalıdırlar.

4. Seminarın gedişində şagirdlər qısa qeydlər apararaq nəticələrin üzə çıxarılmasına kömək etməlidirlər.

Coğrafiya fənninin tədrisində ən mühüm dərs formalarından biri **təcrübə və ya praktika** dərslərinin həyata keçirilməsidir. Emprik biliklərin verilməsində- faktların təhlili, qrafiklərin qurulması, ərazilərin təsvir edilməsi, hadisə və proseslərin ərazilər üzrə yerləşdirilməsi, coğrafi nomenklaturanın öyrənilməsi, coğrafi obyektlər arasında müqayisələrin aparılması, tematik xəritələr üzərində tapşırıqların həll edilməsi, iqlim diaqramlarının, çay, hidroqraflarının, coğrafi hesablamaların həll edilməsi praktikum-dəsrlərdə həyata keçirilir. Belə dərs formaları nəzəri bilikləri tətbiq etməyə imkan verir, xüsusi (xəritə üzərində aparılan işlər, statistik materiallar əsasında qrafiklər qurmaq və s.) və ümumi (ümumiləşdirmək, müqayisə etmək və s.) bacarıqların formalaşdırılmasına geniş imkanlar yaradır.

Praktikum-dərslər müxtəlif formalarda – fərdi, cütlər və qruplar şəklində aparıla bilər. Belə dərslərdə oyun cizgilərinin olması dərsin daha maraqlı olmasına imkan verir. Dərsə ayrılan vaxtın çox hissəsini əlavə edən praktikum-dərslərdən əvvəl, şagirdlərə informasiya verilməlidir. Sinif tələb olunan vəsaitlərlə təchiz edilməlidir, qrafik işlərin görülməsi ağ kağız və ya üç ölçülü xəritələrin tərtib edilməsi üçün (relyefin qabarıq formasını əks etdirən maketlər) hər hansı hazır maddə (gips, gil və s.) olmalıdır.

Belə dərslərin digər cəhəti müəllimdən tədris materialını, kabinetin təchizatını, sinifdə şagirdlərin özünəməxsus xarakterini dəqiq bilməyi tələb edir.

Coğrafiya tədrisində istifadə olunan **zaçot** dərsləri seminar və praktikum məşğələlərində şagirdlərin üzə çıxmayan biliklərini yoxlamaq üçün tətbiq olunur. Yoxlama özündə tədrisin təhsilverici, inkişafetdirici, tərbiyəedici funksiyalarını özündə birləşdirir. Coğrafiya müəllimi məhz zaçot dərslərinin köməyi ilə öz işinin nəticələrini görə bilir.

Obyektiv qiymətləndirmə tədris işinin səviyyəsini bilavasitə əks etdirir.

Həyata keçirilmə vaxtından və məzmunundan asılı olaraq, yoxlamanın müxtəlif növləri vardır: cari, tematik, yekunlaşdırıcı. Adətən tematik-yekunlaşdırıcı yoxlamalar eyni vaxtda tətbiq olunur.

Zaçot dərslər müəllim və şagirdlərdən xüsusi hazırlıq tələb edir. Seçilmiş aktiv şagirdlərlə birlikdə birgə zaçot verəcək şagirdlərin sayı müəyyən edilir, suallar tərtib olunur və kabinetdən asılır, zaçot vərəqləri hazırlanır. Fəal şagirdlər zaçotu sinifdəkilərdən əvvəl verirlər.

Zaçot verilməsi vaxtı müəllim hakim rolunu oynayır. Artıq zaçot vermiş şagirdlər isə öz yoldaşlarından zaçot götürür.

Yekun yoxlamalar təkcə imtahan xarakterli olmur, onlar referat müdafiəsi şəklində də ola bilər.

6.4. Coğrafiya dərslərində şagird fəaliyyətinin təşkili formaları

Tədris prosesinin qurulması, təlim nəticələrinin əldə edilməsi şagirdlərin fəaliyyətinin təşkilindən çox asılıdır. Pedaqoji ədəbiyyatda coğrafiya dərslərinin təşkil edilməsi üçün üç forma əsas götürülür: frontal, fərdi və kollektiv.

Frontal forma– müəllim və şagirdlərin eyni səviyyədə fəallığına əsaslanır. Şagird eyni vaxt ərzində müəyyən bir tapşırığı icra edir. Frontal sorğu bitdikdən sonra onlar məsələləri müzakirə edir, ümumiləşdirir, müqayisə edirlər. Əvvəllər olduğu kimi hazırda da frontal sorğular əvəzedilməz forma kimi tətbiq olunur. Xüsusilə, əyani vəsaitlər, o cümlədən xəritə üzərində aparılan işlərdə frontal təşkilat forması böyük üstünlüyə malikdir. Eyni zamanda frontal forma –əyani izahedici, problemli şərh, reproduktiv və yaradıcı tapşırıqlarla birgə müşayət olunur. Bu formanın həyata keçirilməsinin səviyyəsi müəllimin ustalığından, enerjisindən asılıdır. Çünki prosesi tənzimləmək, sinif şagirdlərini əhatə etmək, sualları məzmuna və şagirdlərin

əqli səviyyəsinə uyğun şəkildə qurmaq və s. üçün müəllim xüsusi hazırlaşmalıdır. Frontal formanın bir sıra çatışmazlığı vardır. Belə ki, orta səviyyəli şagirdlər üçün hesablanmışdır. Proses zamanı zəif və ya güclü şagirdlərin marağını saxlamaq çox zaman alınmır. Ona görə də frontal forma daima təzələnməli, kollektiv və fərdi istiqamətə meyl etməlidir.

Tədris fəaliyyətinin fərdi forması hər bir şagirdə müstəqil işləmək, digərlərinin köməyi olmadan tapşırıqları həll etmək imkanı yaradır.

Fərdi forma dərslik ilə iş, müxtəlif mənbələrdən istifadəyə (ekskursiya, xəritə və s.) əsaslanır və referat, müşahidə, kontur xəritə üzərində işlər, tapşırıqların həlli, diaqramların, hidroqrafların çəkilməsi (habelə klasterin qurulması, Venn diaqramı, T-Sxemlərin tərtib olunması və s.), profilin tərtib olunması ilə ifadə olunur.

Fərdi işlərdən dərsin bütün mərhələlərində istifadə oluna bilər.

Bu forma aşağıdakı didaktik tapşırıqların həll olunmasına imkan verir:

1. Yeni nəzəri biliklərin mənimsənilməsi və möhkəmləndirilməsi
2. Bacarıqların formalaşdırılması və möhkəmləndirilməsi
3. Nəzəri materialın təkrarı və ümumiləşdirilməsi
4. Bilik, bacarıq və vərdişlərin yoxlanılması və qiymətləndirilməsi

Fərdi tapşırıqlar eyni mövzuya aid və ya müxtəlif variantlarda tərtib olunur. Bəzən hər bir şagird üçün ayrı tapşırıq verilir. Bunun üçün sorğu vərəqləri hazırlanır. Xüsusilə xəritə (kontur xəritə və ya atlas üzrə) və digər qrafik mənbələr üzərində hazırlanan fərdi tapşırıqlar şagirdlərin bilik səviyyəsinin yaradıcılıq qabiliyyətinin dəqiq üzə çıxarılmasına imkan verir.

Müsbət tərəflərinə baxmayaraq fərdi forma, yeniləşmə tələb edir. Çünki sinifdə vaxtın bölüşdürülməsi baxımından, bu forma əlverişli deyil, ona görə də çox vaxt fərdi-frontal təşkilat forması tətbiq olunur.

Tədris fəaliyyətinin kollektiv (cütlər və qrup) forması şagirdlərin əqli inkişafını stimullaşdırır.

Müasir coğrafiya dərslərinə verilən tələblər əsasən işin kollektiv şəkildə aparılmasını tələb edir. İnteraktiv təlim metodlarının tətbiq edilməsi məhz təlimin qrup formasında mümkündür.

Qrup təşkilat forması müasir dərsin məqsədlərinə uyğun şəkildə əsaslandırılır. Müasir dərsin öyrədici (təhsilverici), tərbiyəedici və inkişafetdiricisi məqsədlərinin həyata keçirilməsi üçün geniş imkanlara malikdir.

Kollektiv işin aşağıdakı əlamətləri vardır:

1. Hər hansı tapşırığın yerinə yetirilməsi üçün, sinif şagirdləri qruplara bölünür.

2. Hər bir qrup fərdi tapşırıq alır (tapşırıqlar bütün qruplar üçün eyni və ya müxtəlif ola bilər) və seçilmiş liderin başçılığı ilə onu həll edir.

3. Tapşırığın həllində qrup üzvlərinin hər birinin işi nəzərə alınmalıdır.

Qruplar şagirdlərin arzusundan asılı olaraq müvəqqəti (bir dərs müddətində) və ya daimi yaradılır. Qruplar təsadüfi (bunun üçün müxtəlif yə əyləncəli yollar mövcuddur) seçilmirsə, müəllim qrupun təşkili zamanı onun tərkibə nəzarət etməlidir ki, «yaxşı» və ya «pis» oxuyanlar eyni qrupda cəmlənməsin. Müəllimin qrup fəaliyyətini təşkil etməsi mürəkkəb və çox zəhmət tələb edir. Kollektiv (briqada, cütlər, kiçik qruplar rollu oyunlar və s.) formada dərsin təşkili bir neçə mərhələdən ibarətdir:

1. Şagirdlər qruplara bölünür, lider seçilir, tapşırıqlar verilir. (tapşırıqlar daha çox axtarış və bir neçə nəfərin tədqiqatını tələb edən xarakterli olmalıdır. Məs: turist

marşrutu ilə Bakıdan Göygölə hərəkət zamanı təbii şəraitin dəyişməsinin təhlili və s.).

2. İkinci mərhələdə qrup üzvləri arasında iş bölgüsü aparılır, nəticələr müzakirə olunur və ilkin hesabat aparılır.

3. Üçüncü mərhələdə ayrı-ayrı qrupların işi müzakirə olunur, digər qrupların suallarına cavab verilir, çıxışlar haqqında rəy bildirilir.

4. Dördüncü mərhələdə isə müəllim qrupların işini ümumiləşdirir, tapşırığın yerinə yetirilməsi səviyyəsini qiymətləndirir.

Qrup işinin əhəmiyyəti:

- şagirdləri problemin birgə həll edilməsinə öyrədir
- hər kəsə fikrini söyləmək və dinləmək bacarığı imkanı yaradır
- digərlərinin mövqelərinə hörmətlə yanaşmağı öyrədir
- şagirdlərin fərdi inkişafları üçün imkan yaradır
- şagirdlərdə müstəqil öyrənmə bacarığı formalaşdırılır
- təlimin fərdiləşməsinə imkan yaranır

Qrup işinin əsas prinsipləri aşağıdakılardan ibarətdir:

- qrup işini təşkil etmək üçün bütün mərhələlər dəqiq hesablanmalıdır
- qrupda rolların paylaşdırılması, düzgün qurulmalıdır
- qaydalar başa salınmalı və qabaqcadan lövhəyə vurulmalıdır
- qarşıya qoyulan məqsədlər tam şəkildə təsəvvür edilməli
- işlərin görülməsi üçün əyani vəsaitlər, müxtəlif materiallar əvvəlcədən paylanmalıdır
- qrupların qaydalara və vaxt çərçivəsinə riayət olunmalıdır.

Qruplara verilən tapşırıqlar müxtəlif xarakterli ola bilər:

a) Bütün qruplar eyni mövzu ətrafında, eyni tapşırıqlar əsasında çalışır. Məs: «Böyük Qafqazın landşaftları» mövzusunda beş qrupa ayrılmış şagirdlər ayrı-ayrı

tapşırıqları «yarımsəhra və quru çöl, dağ-meşələri, dağ çölləri, dağ çəmənlikləri, qayalı-nival-buzlaq laqdşaftlarının yayılması və təbiətinə aid «məruzə» hazırlayır.

b) Bütün qruplar eyni mövzu ətrafında müxtəlif tapşırığı həll edir. Məsələn: beş qrupa ayrılmış sinifdə hər bir qrup «Böyük Qafqazın landşaftları» mövzusunda məruzə hazırlayır, birinci növ qrup işinin müsbət cəhəti, müəllimin onları müqayisə edərək qiymətləndirə bilməsidir. Lakin, ikinci halda şagirdlərin yaradıcılıq və axtarış təşəbbüsləri daha yüksək olur.

Qrupda təhsilin müxtəlif formaları mövcuddur. Bir halda sinif hər biri dərs materialını müxtəlif üsullarla mənimsəyən dəyişən heyətli kiçik qruplara bölünür. İkinci halda qruplar eyni problemi başqa-başqa material əsasında öyrənir, ona müxtəlif nöqteyi-nəzərdən baxır.

Qrup işinin təşkilinin 3 variantını ayırmaq olar:

1.Bütün qruplar verilmiş mövzuda müxtəlif tədris materialı ilə işləyir.

2. Material çox vacib və ya qruplara bölünmək üçün kifayət qədər böyük deyildirsə, bütün qruplar onunla eyni zamanda məşğul olur.

3. Eyni materiallar üzərində növbə ilə hər bir qrup işləyir (rotasiya üsulu).

Qrup işinin gedişində şagirdlərin fəaliyyətinin birgə xarakteri onları nəinki müxtəlif problemlərin birgə həllinə öyrədir, eyni zamanda hər şagirdin öyrənmə prosesinə cəlb olunmasını təmin edir, hər uşağa öz fikrini söyləməyə və başqalarını dinləməyə, başqa nöqteyi-nəzərlərin, yanaşmaların və problemin həlli yollarının mövcudluğunu dərk etməyə, öz bacarığını və qrupun üzvlərinin bacarığını qiymətləndirməyə imkan verir. Bu da öz növbəsində bütün uşaqların tədris prosesində imkanlarını nümayiş etdirməsi, özünə inam hissi əldə etməsi, özünü tam mənada şəxsiyyət hiss etməsi, problemlərin həlli üçün vacib olan fərd və

qrupun bir-birini tamamlaması prinsipini dərk etməsi hesabına uşağın şəxsiyyət kimi böyüməsini təmin edir.

Bu prosesin ən mühüm nailiyyətlərindən biri düşünmə qabiliyyətinin sərbəstliyi və müstəqilliyidir: uşaq öz fikrini «Zənnimcə...», «Mənə belə gəlir ki,...», «Mən belə hesab edirəm ki,...» sözlərindən istifadə etməklə ifadə edir».

Qrup işi eyni zamanda biliyi sərbəst əldə etmək bacarıqlarının inkişaf etməsi üçün şərait yaradır. Təlim-tərbiyə prosesinin təşkilinin bu forması daha bir fərdiləşmiş tədris formasıdır.

Kollektiv təşkilat formasını *cütlər* şəklində həyata keçirmək mümkündür. Cütlər ilə iş adətən şagirdlərin özünü yoxlamasına xidmət edir. Adətən zəif oxuyan şagirdlərə kömək məqsədi ilə müəllim onu (zəif oxuyan) digər daha güclü şagird ilə «birləşdirir». Tapşırığın izahının zəif oxuyan tərəfindən təqdim olunacağı tələb olunur. Beləliklə, yaxşı oxuyan şagird bilik və ya bacarığı zəif oxuyana öyrədir və bu halda o özü daha təkmilləşir. Məhşur pedaqoqların fikrinə görə «bir şeyi öyrənməyin ən yaxşı yolu onu öyrətməkdir», zəif oxuyan digər şagird isə öz yaşıdının izahından «məmnun» qalır, onu asanlıqla başa düşür və cavab verir.

Şagirdlərin müstəqil fəaliyyəti- bu təlim metodlarının əhəmiyyətli xarakteristikasıdır. Şagird fəaliyyəti, tədris metodlarının əsas hissəsidir "Şagirdlərin müstəqil fəaliyyəti" və " ya müstəqil iş" terminləri də çox vaxt tədris metodları ilə uzlaşır. Coğrafiya tədrisi metodikasında müstəqil iş termini tədrisin təşkili forması kimi başa düşülür. Belə çıxır ki, şagirdlər müəyyən müddət ərzində müəllimin köməyi olmadan məsələləri həll etməli müəllimlər isə yalnız cavabları yoxlamalıdırlar. Lakin şagirdlərin müstəqil işi onların tapşırıqları sərbəst şəkildə həll etməsi ilə bitmir.

Şagirdlərin müstəqil fəaliyyətinin əsas əlaməti ondan, sözün hərfi mənası kimi başqalarının, yəni müəllimin

köməyi olmadan çalışmasından ibarət deyil, onların öz fəaliyyətlərinin məqsədini dərk etməklərindən ibarətdir. Şagirdlərin müstəqil tədris fəaliyyəti bütün tədris prosesini əhatə etməlidir və reproduktiv (təkrar etmək) və tədqiqatçı fəaliyyətinin müxtəlif səviyyələrində həyata keçirilməlidir. Bütün dövrlərdə ən geniş yayılmış müstəqil iş forması dərsdə alınmış biliklərin, bacarıqların və vərdişlərin möhkəmləndirilməsi məqsədini güdən ev tapşırıqlarıdır. Lakin ev tapşırıqlarının reproduktiv (təkrar) xarakter daşıması, yəni onlarda müstəqil tədqiqat və yaradıcılıq xarakterinin olmaması nəticəsində onlardan istifadə lazım olan sərbəst və yaradıcı düşünmə qabiliyyəti keyfiyyətlərini inkişaf etdirməyə imkan vermir. Bir qayda olaraq özünütəhsil vərdişləri kortəbii yaranır və bir çox hallarda fraqment xarakteri daşıyır və onların tədris prosesində xüsusi çəkisi çox kiçik olur.

Bununla belə əgər məqsəd yaradıcı, inkişaf edən şəxsiyyət tərbiyə etməkdirsə, təlimin sərbəst, fərdi formasının əhəmiyyəti danılmazdır. Bu məqsədlə təlimin bu formasına münasibət aşağıdakı kimi dəyişməlidir.

- ev tapşırıqlarının xarakteri tədqiqat və yaradıcılıq elementləri (müxtəlif yaradıcı işlər, referatlar, layihələr, tədqiqatlar, modelləşdirmə və s.) ilə zənginləşdirilməlidir.
- lazım olan hallarda müstəqil mənimsənilmək üçün fərdi maraqları və tələbləri nəzərə alan fərdi proqramların tərtib edilməsini və tətbiqini daha geniş istifadə etmək lazımdır.
- şagirdlər yuxarı siniflərə keçdikcə müstəqil iş üçün ayrılan dərs vaxtının faizi artırılmalıdır.

Müasir təhsil konsepsiyasına görə şəxsiyyətin inkişafı onun müstəqil və yaradıcı fəaliyyətinin təşkil edilməsindədir. Bu baxımdan yaradıcı metodlar ilk növbədə təfəkkürü inkişaf etdirir. Təfəkkürü inkişaf etdirmək- aşağıdakı şərtləri yerinə yetirmək deməkdir: 1) dərketmənin bütün forma və

tiplərini inkişaf etdirmək- empirik və nəzəri, produktiv və reproduktiv; bunun üçün tədris prosesində həm yaradıcı, həm də izahedici- əyani metodlarından istifadə etmək olar; 2) şagirdlərdə dərketmənin inkişaf etdirilməsi ,onlarda müxtəlif təfəkkür əməliyyatlarını aparmaq qabiliyyətini təkmilləşdirmək və formalaşdırmaq deməkdir (analiz, sintez müqayisə, ümumiləşmə, qruplaşdırmaq, əhəmiyyətli xüsusiyyətlərin ayrılması və s.); bu bacarların formalaşdırılması məntiqi- psixoloji qanunauyğunluqlar ilə müəyyən edilir.

6.5. Coğrafiya tədrisində dərsdənkənar (sinifdənxaric) təşkilat formalarının aparılması

Pedaqoqlar şəxsiyyətin inkişafında dərsdənkənar formaların rolunu daima yüksək qiymətləndirmiş və bu formanın şagirdlərdə fəallıq, yaradıcılıq, təşəbbüskarlıq, şəxsi təhsil, inkişaf və tərbiyə xüsusiyyətlərinin formalaşdırdığını elan etmişdir.

Təhsil islahatları tədrisin bütün sahələrində, eləcə də dərsdənkənar təşkilat formalarında dəyişikliklərin baş verməsini tələb edir.

Dərsdənkənar tədbirlər təlim-tərbiyənin tərkib hissəsidir və coğrafiya fənnu bu işlərin həyata keçirilməsində böyük imkanlara malikdir. Çünki, coğrafiyanın məzmunu bilavasitə ətraf mühit və əhalinin təsərrüfat fəaliyyəti ilə əlaqədardır. Şagirdlərin yaşadığı məhəllə dair fiziki, iqtisadi, sosial coğrafi biliklərin əsasən dərsdənkənar təşkilat formalarında- ekskursiya, təbiətdə aparılan müşahidələr zamanı əldə edilməsi sinifdənxaric işlərin əhəmiyyətini göstərir.

Sinifdənxaric işlər məzmununa, təşkilat formalarına və həyata keçirilmə metodlarına görə dərsin məqsədlərindən fərqlənir. Müəllimin bilavasitə rəhbərliyi ilə həyata keçirilən

dərsdənkənar formalar-ekskursiyalar, müşahidələr, təcrübələr, məhəll və məktəbyanı sahədə və ya coğrafiya meydançasında aparılan praktiki işlərdən ibarətdir.

Ekskursiya – məktəb təlim-tərbiyə prosesinin ən mühüm dərsdənkənar təşkilat formalarından biri olub, şagirdlərə bilikləri bilavasitə coğrafi obyektlərdən əldə etməyə imkan verir. Öyrənmə obyekti təbii kompleks və eyni zamanda hər hansı komponent (yarğan- qobu, çay dərəsi və s.) ola bilər.

Ekskursiyaların dinamik təşkilat forması olması, müəllim və şagirdlərdən xüsusi hazırlıq tələb edir. Ekskursiya işi şagirdlərə tədris prosesi ilə real həyatı birləşdirməyə imkan yaradır. Ekskursiyalar zamanı şagirdlərdə təbii, təsərrüfat obyekt və hadisələrə aid xeyli miqdarda təsəvvürlər yaranır ki, bunlar da şagirdlərdə əsas coğrafi anlayışların formalaşmasına təsir edir. Hər hansı ekskursiya və ya digər sinifdənxaric tədris təşkilat formasının dərs ilə ümumi və fərqli cəhəti vardır.

Ekskursiyalar zamanı da dərsdə olduğu kimi müxtəlif metod və üsullardan (söhbət, nəqletmə və s.) istifadə olunur, praktik tapşırıqlar verilir, tədris vəsaitlərindən istifadə olunur. Lakin, ekskursiyaların özünəməxsus xüsusiyyətləri də vardır: ekskursiyalar məktəbdənkənar mühitdə bilavasitə öyrənilən obyektin yanında aparılır, ekskursiyaların müddəti dərsdə olduğu kimi 45 dəqiqə deyil, daha uzun 1,5-2 saat və daha çox ola bilir.

Ekskursiyalar coğrafiya dərslərinə verilən tələblərdə olduğu kimi, təhsilverici, tərbiyəedici və inkişafetdirici xüsusiyyətlərə malikdir və bu təşkilat formasının ən əhəmiyyətli cəhəti ondan ibarətdir ki, şagirdlər nəzəri bilikləri praktik olaraq real həyatda tətbiq etmək imkanına malik olur, tədqiqat bacarığı əldə edir, coğrafi bilikləri (relyefin meyilliyi, onun dərəsinin quruluşu, suyun axın istiqaməti, çayda suyun sürəti, günəşin düşmə bucağı və ya üfüqdə yüksəkliyini təyin etmək və s.) əldə etmək bacarığı

formalaşır. Ətraf mühitə qayğılı münasibətin formalaşmasında ekskursiyaların rolu həddən artıq böyükdür. Çünki, ekskursiyalar zamanı şagirdlər təbiətdən istifadə və insanın təbiətə təsirini bilavasitə müşahidə edə bilir.

Ekskursiyalar mövzusuna, məqsədinə, həyata keçirilməsi vaxtına, şagirdlərin sayına, müəllimin hazırlıq səviyyəsinə görə bir-birindən fərqlənir. Adətən tədris ekskursiyaları dərs ilinin əvvəlində planlaşdırılır və qeyri-tədris ekskursiyaları isə sinif rəhbəriinin təşəbbüsü ilə həyata keçirilir. Lakin, hər bir ekskursiya müəyyən məqsədə xidmət edir. Onlar yeni biliyin öyrənilməsinə, verilmiş mövzunun möhkəmləndirilməsinə və ya müəyyən dövrdə öyrənilmiş mövzunun təkrarlanmasına xidmət edə bilər.

Coğrafi ekskursiyaların əsas əlaməti onların məzmununa görə fərqlənməsidir. Lakin coğrafiya fənni üzrə həyata keçirilən ekskusiyaların özünəməxsus xüsusiyyətindən biridə şagirdlərin ekskursiya vaxtı plan, xəritə, coğrafi cihaz və alətlər ilə eləcə də qrafik materiallar üzərindəki verilən tapşırıqları yerinə yetirməsidir.

Ekskursiyaların təsnifatında onların növləri və məqsədləri əsas meyardır.

1.Tədris planındakı yerinə görə ekskursiyalar 2 qrupa ayrılır:

a) Proqram tələblərinə olan-- proqramda tələb olunan tədris tapşırıqları yerinə yetirilir.

b) proqramdan kənar- ərazinin özünəməxsus cəhətlərini öyrənmək məqsədi ilə yerinə yetirilir.

2. Məzmununa görə ekskursiyalar:

a) mövzu üzrə-yəni hər hansı konkret mövzunun (diyarşünaslıq, tarixi coğrafi, istehsalat və s.) təhlil edilməsi məqsədi daşıyır.

b) icmal-öyrənilən əraziyə aid kompleks təsəvvürlərin formalaşdırılmasına xidmət edir.

3) Həyata keçirilməsi vəzifələrinə görə:

a) nümayiş- ətrafda mövcud olan coğrafi obyektləri göstərmək məqsədi ilə

b) əyani- coğrafiya dərslərində tədris olunan obyekt və hadisələrə aid müəllimin izahı ilə

c) tədqiqat –obyekt və hadisələri bilavasitə tənqid etməklə

4. Didaktik məqsədinə görə:

a) giriş ekskursiyaları –yeni materialı öyrənməzdən əvvəl, şagirdlərin idrak fəaliyyətləri aktivləşdirmək üçün

b) cari-öyrənilən nəzəri materialın əyaniləşdirilməsi üçün

c) yekun-öyrənilən materialın möhkəmləndirilməsi və yoxlanılması məqsədi ilə həyata keçirilir.

Məktəb ekskursiyaları **təbitədə və istehsalatda** həyata keçirilə bilər.

Təbiətdə ekskursiyalar – ayrı-ayrı coğrafi elementləri daha dərindən öyrənməyə xidmət edir (relyef, torpaq, bitki aləmi, heyvanat aləmi və s.).

Belə ekskursiyalarda əsas məqsəd təbii komplekslərdən insanın təsərürfat məqsədi ilə istifadəsi əsas götürülür. Adətən, belə ekskursiyalar zamanı şagirdlər məktəbin diyarşunaslıq muzeyi və ya guşəsi üçün material toplayırlar.

İstehsalat ekskursiyaları –sənaye və ya kənd təsərrüfatı müəssisələrinə, xidmət sahələri müəssisələrinə, sərgiyə və ya diyarşunaslıq muzeyinə aparıla bilər.Belə ekskursiyalarda şagirdlər müəssisənin əlaqələri ilə tanış olur, onun xammal təhcizatı, enerji bazasını təhlil edir, istehsal olunan məhsulun tələbatçıları haqqında məlumat toplayır.

Məktəb praktikasında son vaxtlar qiyabi ekskursiyalar-kino, video-ekskursiyalar, son vaxtlar isə kompyuter texnologiyasından istifadə etməklə həyata keçirilən interaktiv ekskursiyalara geniş yer verilir.

Bu məqsədlə dünya praktikasında maraqlı multimediya vəsaitləri hazırlanmaqdadır.

Ekskursiyaların təşkil edilməsində əsas meyarlardan biri, onun hansı didaktik məqsədlə həyata keçirilməsidir.

Təbiətdə keçirilən ekskursiyalar verilən tələblər baxımından daha mürəkkəbdir. Belə ki, coğrafiya müəllimi ekskursiya məkanı seçərkən, oradan daha çox material əldə etmək üçün bazaya malik olması nəzərə alımalıdır:

- ərazidə mövcud təbii zonanı əks etdirən landşaft aydın olmalıdır.

-dağ süxurları, torpaq örtüyü, su mənbələri, relyefin rəngarəngliyi əks olunmalıdır.

- ərazi məktəbə yaxın məsafədə olmalıdır ki, vaxta qənaət etmək mümkün olsun və s.

İstehsalatda aparılan ekskursiyalara verilən tələblər də özünəməxsusdur və həyata keçirilməsi müəllim və şagirdlərdən xüsusi bacarıqlar tələb edir. Ekskursiya üçün müəssisə seçilərkən:

- müəssisənin iqtisadi-coğrafi əhəmiyyəti olması;
- iqtisadi rayonun (şəhərin) ixtisaslaşmasında müəssisənin rolu olması;
- istehsal prosesinin şagirdlər tərəfindən müşahidə edilməsi tələbləri nəzərə alınmalıdır.

Ekskursiyalar həyata keçirilməzdən qabaq iş planı tərtib edilməli, şagirdlər qruplara ayrılmalı, onların görəcəkləri işlər qabaqcadan planlaşdırılmalıdır. Təbiət ekskursiyalarında şagirdlər, «geoloqlar», «torpaqşünaslar», «botaniklər», «hidroloqlar» və s. istehsalatda aparılan ekskursiyalarda isə «təhcizatçılar», « energetiklər», «maliyyə işçiləri» və s. olmaqla qruplaşdırılır.

Şagirdlər xüsusilə istehsalatda aparılan ekskursiyalarda müsahibələr aparmalı, məlumat toplamaq üçün müxtəlif metodlardan istifadə etməlidirlər.

Coğrafiya tədrisinin ən vacib təşkilat formalarından biri olan ekskursiyaların təşkil edilməsi aşağıdakı mərhələlərdən ibarətdir:

1.Ekskursiyanın həyata keçirilməsi üçün dərs prosesində aparılan hazırlıq işləri

2. Öyrənilən obyektdə ekskursiyanın təşkili (tədris proqramına uyğun mövzuya aid material toplanması)

3. Toplanmış ekskursiya materiallarının təhlili, dərs prosesində yekunlaşdırılması.

Təbiətdə aparılan ekskursiyalar VI sinifdə adətən dərs ilinin sonunda, biliklərin yekunlaşdırılması məqsədi ilə aparılır.

Hər hansı halda şagirdlər eskursiyaya dair ilkin biliklərə malik olmalıdırlar.

Müşahidə- coğrafiya proqramında nəzərdə tutulan tədris fəaliyyətinin ən mühüm təşkilat formalarından biridir. Müşahidələr hava üzərində, günəşin üfüq üzərində yüksəkliyinin müəyyən edilməsində, su hövzələrinin donması və ya buzdan azad olması, çayda suyun səviyyəsinin artıb, azalması və s. üzərində aparılır. Müşahidələr də ekskursiyalar kimi müəllimin rəhbərliyi ilə həyata keçirilir, lakin, müşahidələrə daha çox vaxt sərf olunur.

Müşahidə prosesində şagirdlər bilavasitə tədqiqatçı rolunda çıxış edir, onlar dərs prosesində əldə etdikləri nəzəri bilikləri təbiətdə tətbiq edirlər.

Müşahidələrin tədris prosesində əhəmiyyəti çox böyükdür. Belə ki, şagirdlər:

- ətraf mühitdə əsas hadisə və predmetləri ayırırlar;
- hadisə və elementlərin əsas əlamətlərini müəyyənləşdirirlər;
-coğrafi anlayış və qanunauyğunluqların formalaşmasında hadisə və elementlərin rolunu müəyyən edirlər;
- hadisə və elementlərin oxşar və fərqli əlamətlərini, onların qarşılıqlı əlaqələrini müəyyən edirlər.

Müşahidələrin təşkil edilməsi şagirdlərdə verilmiş tapşırıqları sistemli şəkildə yerinə yetirmək vərdişləri yaradır.

Müşahidələrin aparılması ona hazırlıqdan başlayır. Müşahidələr dərs və dəsdənkənar vaxtlarda aparıla bilər. (məktəb həyətində, coğrafiya meydançasında və s.).

Müəllim müşahidəçilərin qarşısında məqsəd və vəzifələr qoyur və onları aşağıdakılara diqqət yetirməyə istiqamətləndirir:

- müşahidə edilən hadisə və elementlər
- müşahidənin aparılması qaydaları
- müşahidə nəticələrinin araşdırılması
- toplanan materialların siyahısı təqdim olunmalıdır.

Məktəb coğrafiyasında müşahidələrin aparılmasına başlanğıc kursdan (VI sinif) başlayır. Bu xüsusilə gündəlikdə aparılan meteoroloji müşahidələrdir. Müşahidə materiallarından atmosfer, hidrosfer və biosferə aid nəzəri materialların öyrənilməsi prosesində istifadə olunur. Toplanan materiallar əsasında temperaturun aylıq və illik gedişi, külək gülü, yağıntı diaqramı və s. qrafiklər tərtib olunur. Şagirdlərin topladığı və sistemləşdirdiyi materiallar coğrafiyadan praktik işlərin yerinə yetirilməsində istifadə olunmaqla yanaşı, məktəb diyarşünaslıq muzeyi üçün qiymətli vəsaitə çevrilir.

Nümunə:

Hava üzərində müşahidənin aparılması.

Tədris və praktiki baxımdan çox əhəmiyyətə malik olan bu müşahidə forması şagirdlərdə güclü maraq oyadır, sistemli fəaliyyət və təşkilatçılıq qabiliyyəti formalaşdırır. Bu müşahidəni şagirdlərlə coğrafiyanın başlanğıc kursundan həyata keçirmək mümkündür. Hava üzərində müşahidəni düzgün həyata keçirmək üçün vahid tələblər təqdim olunur (Cədvəl 21)

Cədvəl 21

Hava üzərində müşahidə

Tarix	Temperatur C °-ilə	Təzyiq c.s.	Küləyin istiqaməti	Buludluluq	Yağıntı növü	Günəşin üfüqdə yüksəkliyi (sm-lə)	Havanın təsviri
1.10	+14°	759	▼	-		38	Payızın nəfəsi hiss olunur.Havas ərinləşir

Hava üzərində müşahidə hər ayın ən azı 24 günü üçün tərtib olunur. Bu zaman şagirdlər müxtəlif cihazlarla (termometr, barometr, fluger və s.) işləmək bacarığı qazanırlar. Şərti işarələri tətbiq etmək vərdişi əldə edirlər. Meteoroloji elementlər arasında qarşılıqlı əlaqəni müəyyən edərək nəticə çıxara bilirlər.

Təcrübə - coğrafiya tədrisində aktiv təşkilat formasından biri dir. Təcrübələr əsasən fiziki coğrafiya kurslarında və eyni zamanda coğrafiya, fizika və yə kimya kabinetində həyata keçirilir. Tədris təcrübələrinin təşkil edilməsi bir sıra tələblərə müşaiyət olunur:

- təcrübədə istifadə olunan cihazlar mürəkkəb olmamalıdır;
- təcrübədən əvvəl şagirdlərə , onun məqsədi, qarşıya qoyulan sual elan edilməlidir;
- təcrübə prosesində şagirdlərə vaxtaşırı suallar verməklə, onlar tapşırığın əsas məqsədinə istiqamətləndirilməlidir;
- təcrübənin sonunda şagirdlər öz müşahidələrini yazılı və ya şifaşi şərh edir, onu qrafik təsvir edirlər;

Məktəb coğrafiyasının tədrisində aşağıdakı təcrübələri həyata keçirmək mümkündür:

1.Süxurların su keçirən və su keçirməyən xüsusiyyətinin və eləcə də su keçirmə sürətinin üzə çıxarılması.

2. Sinif otağının açıq qapısı önündə müxtəlif hündürlükdə yanan şamlar əsasında yaranan təzyiq fərqlərinə əsasən küləyin yaranması.

3. Şəlalənin əmələ gəlməsi

4. Vulkanın əmələ gəlməsi (xüsusi maddə əsasında)

5. Dalğanın sahili parçalaması

6. Temperaturun artması ilə havanın yuxarıya qalxması və s.

Məhəldə aparılan praktik işlər

Coğrafiya fənniinin öyrənilməsində-məhəldə sistemli şəkildə aparılan praktik işlərin əhəmiyyəti böyükdür.

Praktik işlər nəzəri biliklərin möhkəmləndirilməsi və coğrafi bacarıqların (təyin etmək, məsafələrin ölçülməsi, məhəllin planının çəkilməsi və ya məhəllin hazır planı üzərində iş və s.) formalaşdırılması məqsədi ilə yerinə yetirilir. Praktik işləri yerinə yetirməklə şagirdlər səbəb-nəticə əlaqələrini müəyyən edir, təbii kompleks daxilindəki komponentlər arasında qarşılıqlı əlaqəni təyin edir.

Praktik işlər müşahidələr ilə bilavasitə əlaqədar olub, diyarşünaslıq materiallarının toplanmasında mühüm rol oynayır.

Tədris prosesində məhəldə aparılan praktik işlərin yetirilməsinin əsas məqsədi nəzəri materialların mənimsənilməsinə xidmət etməkdir.

Məhəldə aparılan praktik işlər:

- meteocihazların köməyi ilə hava üzərində aparılan müşahidələr;
- su hövzələrində dərinliklərin ölçülməsi;

- yarğan və qobunun eni və dərinliyinin təyin edilməsi;
- torpaq kəsiyi horizontlarında humusun miqdarının təyini.

MÖVZU VII. COĞRAFİYA TƏDRİSİNDƏ İSTİFADƏ OLUNAN ƏYANİ VƏSAİTLƏR

7.1.Tədris vəsaitlərinin əhəmiyyəti

Təlim –tərbiyə prosesində istifadə olunan tədris vəsaitləri (tədris avadanlıqları, didaktik vasitələr, tədris və tədris-əyani vasitələr) məktəbdə şagirdlərin biliklərinin qazanılması və möhkəmləndirilməsinə xidmət edən xüsusi hazırlanmış əyani vəsaitləri nəzərdə tutur. Didaktikada əyanilik prinsipinin elmi cəhətdən əsaslandırılması görkəmli pedaqoq U.Komenskinin adı ilə bağlıdır. Əyaniliyi coğrafiyanın tədrisində əsas prinsiplərdən biri hesab edən, pedaqoq onlarsız tədris prosesinin keyfiyyətinin yüksək ola bilməsi ehtimalının az olduğunu əsaslandırır. Hazırki vəziyyətdə vəsaitlərin seçilməsi daima artmaqdadır. Məktəb coğrafiyası xəritə, qrafik, diaqram, maket, model ,cihaz əvə xüsusi alətlər olmadan tədris oluna bilməz. Vəsaitlər dərsin tədris oluna bilməz. Vəsaitlər dərsin bütün mərhələlərində istifadə oluna bilər. Əyani vəsaitlərin coğrafiya tədrisində roluna dair K.D.Uşinskinin fikirləri də maraq doğurur. Pedaqoq əyani vəsaitlərin əhəmiyyətini şagirdlərin təsəvvürlərinin forma, rəng, səs maket və s. ilə daha möhkəm olması ilə əlaqələndirir.

Görkəmli pedaqoq N.Piroqov isə əyani vəsaitlərlə təlimi sənətkarlıq-incəsənət adlandırır. Əyani vəsaitlər məktəbdə təlim –tərbiyənin həyata keçirilməsində mühüm rola malikdir. Əyani vəsaitlər tədris kompleksi və təlimin texniki vasitələrindən ibarətdir

Tədris kompleksinin tərkibinə- dərslik, tədris xəritələri, diafilm, diapozitiv, kinofilm , kinofraqment, şəkil,

xristomatiya, cihazlar daxildir: İkinci qrup vasitələrə isə kompyuter proqramları, dərs vəsaitləri və s. digər müasir avadanlıqlar aiddir.

Coğrafiya fənni üzrə tədris vəsaitlərinin təyinatına görə müxtəlif təsnifatı mövcuddur:

Coğrafi tədris vəsaitləri

1.Natural obyektlər
- faydalı qazıntı kolleksiyası
- dağ süxurları, mineral kolleksiya
- herbari

2. Coğrafi obyekt və hadisələrin təsviri:
- modellər
-şəkil, rəsm, portretlər
-fotoşəkillər
- diafilm və diapozitivlər
- kinofilm və kinofraqmentlər

3. Coğrafi obyekt və hadisələrin şərti işarələrin simvolik təsvirləri:
- verbal (dərslik, iş dəftəri, məlumat kitabçası,
- kartoqrafik vəsaitlər (xəritə, xəritə-sxem)
-qrafik təsvirlər (qrafiklər, diaqramlar)

1. Coğrafi avadanlıqlar (coğrafi obyekt və hadisələrin təyin edilməsi və analizi üçün avadanlıq)
- cihazlar
- alətlər
- müşahidə üçün modellər.

Əyani vəsaitlər tədrisdə əşyavi mühiti yaratmaqla yanaşı informasiya mühitini və eləcə də motivasiya funksiyasını yerinə yetirilməsində iştirak edir.

Əyani vəsaitlər və ondan istifadə – coğrafiya fənninin tədrisində ən mühüm prinsiplərdən biri kimi, tədrisin keyfiyyətinə güclü təsir edir. Lakin, əyani vəsaitlərdən düzgün istifadə edilmədikdə, bu proses ciddi nöqsanların yaranmasına, yəni, şagirdlərdə yalnız konkret təsəvvürlərin yaranmasına səbəb olur. Əyani vəsaitlərdən istifadənin əsas

məqsədi şagirdlərdə təsəvvürlər deyil, ümumi anlayışlar yaratmaqdır. Əyani vəsaitlərin köməyi ilə konkret fakt və hadisələr arasında oxşar və fərqli əlamətlər müəyyən olunur, ümumiləşdirilərək, anlayışlar şəklində formalaşdırılır.

Təlimin qarşıya qoyduğu vəzifələrin yerinə yetirilməsində əyani vəsaitlərin rolu çox böyükdür. Belə mühit «əşyavi mühit» adlanır.

Əşyavi mühit təlimin bütün maddi-texniki təminatı kompleksini özündə birləşdirir:

- məktəb maddi mühiti- dərsliklər, lövhələr, didaktik oyun vəsaitləri; texniki avadanlıq, laboratoriyalar, məktəb ləvazimatı və s.

- təbii mühit – canlı və cansız təbiətin bilavasitə müşahidə oluna bilən əşyaları yaşayış mühiti – ev, ətraf mühit maddi və mədəniyyət əşyaları, ictimai və mədəni idarələr və s.

Coğrafiya tədrisinin keyfiyyətli təşkili üçün sadalanan əşyavi mühit amillərinin rolu daha böyükdür.

Əyanilik coğrafiya tədrisində şagirdlərin təfəkküründün fəallaşdırmaq üçün yüksək dərəcədə şərait yaradır. Vəsaitlər vizual, audiovizual, kinestetik və yazı sistemində olur (Sxem 36).

Adətən pedaqoji ədəbiyyatda coğrafiya fənni üzrə istifadə olunan əyani vəsaitləri dörd qrupa ayırırlar:

1.Təbii əyani vəsaitlər – öyrənilən obyektlər, təcrübələr, maketlər

2. Təsviri əyani vəsaitlər – plakatlar, şəkillər, fotoşəkillər


3. Sxematik vəsaitlər – blok sxemlər

4. Simvolik vəsaitlər – şərti işarələr, qrafiklər

Birinci qrupa - natural vəsaitlər daxildir. Natural vəsaitlərə:

Əyani vəsaitlərin təsnifatı

Sxem 36



Adətən pedaqoji ədəbiyyatda coğrafiya fənni üzrə istifadə olunan əyani vəsaitləri dörd qrupa ayırırlar:

1.Təbii əyani vəsaitlər – öyrənilən obyektlər, təcrübələr, maketlər

2. Təsviri əyani vəsaitlər – plakatlar, şəkillər, fotoşəkillər

3. Sxematik vəsaitlər – blok sxemlər

4. Simvolik vəsaitlər – şərti işarələr, qrafiklər

Birinci qrupa - natural vəsaitlər daxildir. Natural vəsaitlərə:

a) bilavasitə təibətə mövcud olan və tədris prosesində istifadə olunan elementlər - mineral nümunələri, dağ süxurları, faydalı qazıntı nümunələri, torpaq nümunələri; bitki herbariləri, canlı müqəvvaları və s.

b) Təbiət hadisələrinin nümayişi və laboratoriya şəraitində təqdim edilməsi üçün istifadə olunan natural elementlər

c) Material və texniki avadanlıq –ölçü cihazları, maşın, cihaz, dəzgah çertyoj çəkmək üçün avadanlıqlar və s.

İkinci qrupa təsvir obyektləri daxil edilir ki, bunun tərkibinə

a) həcmli vəsaitlər – model, qlobus, mulyaj və maketlər daxildir.

b) səthi hamar vəsaitlərə cədvəl, şəkil, fotoqrafiya, xəritə və sxemlər daxildir.

c) audiovizual vəsaitlərə isə kinofilmlər videofilmlər, animasiya və digər elektron vəsaitlər daxildir.

Əyani vəsaitlərin üçüncü qrupuna –təbiət hadisə və elementlərinin yazıl təsviri aid olub , iki yarımqrupa ayrılır:

a) dərslik, test kitabları, praktiki iş dəftərləri, çalışma və tapşırıq kitabları.

b) elmi ədəbiyyat, ensiklopediya, sorğu-məlumat kitabları, dərs vəsaitləri.

Digər əyani vəsaitlər qrupu coğrafiya fənni üzrə elmi məlumatları nümayiş etdirmək üçün texniki avadanlıq daxildir. Bu qrupa aid olan vəsaitlər dörd yarımqrupa ayrılır.

a) məlumatverici – kinoaparatlar, diaproyektorlar, videomaqnitofonlar, telluri cihazları

b) yoxlayıcı – perfokartlar, perfoplastinkalar

c) trenajorlar

d) universal avadanlıqlar-təlim maşınları, linqafon aparatlar və əsasən kompyuter avadanlığı daxildir.

Əyani vəsaitlərin təsnifatında digər qruplaşma onların təlim prosesində istifadəsinə görə aparılır.Bu baxımdan onlar:

1.Şagirdlərin tədris fəaliyyətinin təşkil edilməsi üçün əyani vəsaitlər –nümayişetdirici və paylayıcı qruplara ayrılır.

2. Mənimsənilmə vasitələrinə görə-vizual, aidio, audio vizual, kinestetik.

3. Şagirdlər ilə qarşılıqlı əlaqə baxımından əyani vəziyyətlər-interaktiv və qeyri-interavtik olur.

4. Dərketmə fəaliyyətinin təşkil edilməsi baxımından-fərdi , müstəqil , kollektiv işlər üçün (cütlər, qrup) və s.təşkil edilə bilər.

Əyani vəsaitlərin nümayişi tədris prosesində müəllimdən xüsusi peşə hazırlığı tələb edir.

Natural vəsaitlərə canlı və cansız təbiətdə olan obyektlər aiddir və şagirdlər onlarla nümyaiş və paylama materialı kimi tanış olurlar. Nümayiş üçün, müəllim daha iri nümunələrdən istifadə edir; mineral və faydalı qazıntı nümunələri; hazır filiz kolleksiyaları, bitki herbarilərindən nümunələr, torpaq nümunələri eksponatları və s. şagirdlərə paylanılır. Onlar həmin nümunələri ələ götürür, toxunur, bərkliyi, rəngi və s. aid hiss etdiklərini tipik plan üzrə yazırlar.

Nümayiş prosesində real obyektlərdən istifadə edərkən problem sualların qoymaqla,müəllim dərsin tədqiqatyönümlü istiqamətini artırmış olur. Əyani vəsaitlər isçərisində real obyektlərə model və mulyajlar da daxildir.

Model mövcud olan obyektin orjinallığını saxlamaqla yeni informasiya vermək imkanına malikdir.

Mulyaj –isə təbii obyektə çox bənzəyən, lakin süni şəkildə hazırlanmış vəsaitdir.

Əyani vəsaitlər içərisində divar şəkillərinin rolu böyükdür. Şəkillər təsviri əyani vəsait olub əsasən məlumatverici xarakterə malikdir. Vəsaitlərdən istifadə edərkən müəllim şagirdlərə idrak fəaliyyətini fəallaşdıran suallar verir və onların maraqlarını artırır.

Əyani vəsaitlər içərisində **cədvəllərin** rolu artmaqdadır. İqlim elementləri, əhalinin say dinamikası; ümumi milli məhsulun həcminin dəyişməsi, çayda suyun səviyyəsinə aid

göstəricilər və s. aid cədvəllərin təhlili şagirdlərə müxtəlif qrafiklərin tərtib edilməsinə imkan yaradır.

Tədris prosesində istifadə olunan cədvəllər müxtəlif xüsusiyyətinə görə təsnif olunurlar:

a) Pedaqoji təyinatına görə (əsas anlayış və qanunauyğunluqların formalaşdırılması üçün, öyrənilən materialın sistemləşdirilməsi üçün və s.).

b) təqdim etmə xarakterinə görə (daima istifadə olunan cədvəllərin nümayişi və ara-sıra nümayiş olunan cədvəllərdən istifadə).

c) təsvir edilmə vasitələrinə görə (obyektin real təsviri, simvolik təsvirlər) şərti işarələrlə təsviri, qarışıq təsvir və s.) .

Coğrafi şəkillər –şagirdlərdə görmə obrazını formalaşdırır.Adətən şəkillər xəritəni və coğrafi təsviri tamamlayır.Coğrafi obyektlərin ölçüsü böyük olduğuna görə onları təbii halda nümayiş etdirmək mümkün deyil. Əyanilik vasitəsi kimi əhəmiyyətli olan coğrafi şəkillər təbii və iqtisadi obyektlərin və ya təbii hadisələrin bilavasitə müşahidəsindən geri qalsa da, tədris prosesində şəkillər çox qiymətli əyani vasitədir.Şəkillərin yığcam təhlilini vermək üçün ilk növbədə şagirdlər hazırlanmalıdır. Bunun üçün müəllim şağirdlərdə şəklin təhlili üçün maraq yaratmalı, şəkli təhlil etmək üçün vaxt ayrılmalıdır.Bir dərs müddətində 2-3 dən artıq şəkil təhlili etmək metodik cəhətdən düzgün deyil. Coğrafi şəkilin təhlili aşağıdakı ardıcıllıqla aparılır:şəklin adı və hansı mövzuya uyğun olması elan edilir, əsas və arxa planda təsvir edilmiş məzmun müəyyən olunur, şəkil müəyyən hissələrə ayrılır, harada olmasına aid fərziyyələr irəli sürülür.Coğrafi şəkil üzərində dayanıqlı bilik əldə etməyin ən mühüm yollarından biri müqayisədir.

Plakatlar qrafik vəsaitlərin bir növü olub, daha iri vərəq üzərində təsvir olunur. Plakatlar üzərində bir deyil, bir neçə mövzuya aid təsvirlər ola bilər ki, bu da şagirdlərdə

mövzu haqqında daha geniş təsəvvür əldə etməyə imkan verir.

Qrafiklər ən sadə əyani vəsaitlərdən biridir. Tədris də nəticələrin ümumiləşdirilməsi məqsədi daşıyır. Bəzi qrafiklər bir neçə məlumatın daşıyıcısı rolunda çıxış edir (müxtəlif cizgilər ilə ayrı-ayrı şəhərlərdə, iqtisadi rayonlarda əhalinin artımı və s.). Qrafiklərə əsasən proqnoz xarakterli suallar tərtib edərək, mövcud vəziyyəti təhlil etmək, tələb olunan informasiyanın dinamikasını müəyyən etmək mümkündür. Xüsusilə, son illərdə daha çox tətbiq olunan krossvord, çaynvord, rebuslar da qrafik təsairlər kimi istifadə olunur. Krossvordlar hər hansı mövzunun, bölmənin, yarımilliyin sonunda və ya coğrafiya kurslarının əhatə edə bilər. Krossvordlar şagirdlərdə coğrafiya fənninə marağın artmasına səbəb olur. Belə qrafik formalar şagirdlərin özləri tərəfindən də tərtib oluna bilər.

1. Ən son kəşf olunmuş materik.(Antarktida)
2. Ekvatoru iki dəfə kəsib keçən çay. (Konqo)
3. Skandinaviya ölkələrindən biri. (Norveç)
4. Ən çox yağıntının düşdüyü məntəqə. (Çerapunci)
5. Afrikada göl. (Nyasa)
6. Hind okeanında ada. (Maldiv)
7. Avstraliyanın ən alçaq nöqtəsi.(Eyr gölü)
8. Sahəsinə görə 3-cü böyük ada. (Kalimantan)
9. Laqun mənşəli göl. (Marakaybo)

Diaqramlar isə – şərti əyani vəsatlər içərisində ən geniş yayılmışdır. Diaqramların əsas təyinatı hər hansı məsələyə dair rəqəm materiallarının əyani göstəricisidir. Diaqramlar -dirəkvari, kvadratşəkilli, çox bucaqlı, kub, dairəvi, fiqurlu və s. görünüşə malik ola bilər.

Profil qrafik əyani vəsaitlərdən bir növü olub əsasən relyefə aid mövzuların tədrisində istifadə olunur.VI və X siniflərdə horizontolların təhlilinə aid mövzuların tədrisi, VII, VIII və X siniflərdə torpaq kəsiminə aid mövzular profil olmadan mümkün deyil. Profilin köməyi ilə şagirdlər

öyrəndikləri məsələni ümumiləşdirilmiş şəkildə təsəvvür edə bilirlər.

Sxem-təsvirlər digər təsvirlərə-profillərə, fiqurlu diaqramlara nisbətən daha geniş tətbiq olunur. Sxem təsvirlərdə bilavasitə tədris üçün tələb olunan material çəkilir, şəkillərdə olan ikinci dərəcəli informasiya onlarda olmur. Çox hallarda sxem-təsvirlərdə obyektin daxili hissəsi kəsim şəklində verilir. Məsələn, vulkan kəsiyi, zəlzələ, platformanın daxili quruluşu, dağın quruluşu və s. –bu isə daha şagirdlərə daha dolğun məlumat verməyə imkan verir.

Blok-diaqramların əyaniliyi digər təsvirlərə nisbətən daha yüksəkdir. Hər hansı səthin eninə və uzununa şaqulu kəsilişlərini əks etdirən üçölçülü təsvirdir. Xüsusilə ərazinin geoloji quruluşu ilə landşaftın digər komponentləri arasında əlaqələr belə əyani vəsatlərdə müvəffəqiyyətlə tətbiq olunur. Səthin xarici görünüşü ilə daxili quruluşu arasındakı əlaqə blok-diaqramlarda aydın əks olunur. Hazırda blok-diaqramlar elektron hesablayıcı maşınların köməkliyi ilə xüsusi proqramlara əsasən qurulur.

Məktəb coğrafiyasında geniş yayılmış əyani vəsaitlər içərisində oyun **kartoqrafik materiallarının** rolu daha böyükdür. Coğrafi loto, viktorina, əyləncəli suallar, tapmacalar, yaddaş kartları və digər sorğu vərəqləri tədrisin canlanmasına səbəb olur.

Sorğu vərəqələri xüsusilə şagirdlərlə fərdi yanaşma metodlarının tətbiqinə geniş imkanlar verir.

Coğrafi biliklərin tədrisi prosesində fərdi yanaşma təlim texnologiyasının əsas istiqamətlərindən biri kimi sorğu vərəqələrinin rolu böyükdür. Sorğu vərəqələrinin hazırlanması zamanı şagirdlərin əqli qabiliyyəti, meyl və maraqları, psixoloji hazırlığı nəzərə alınmalıdır. Onlar siniflər, mövzular, qruplar üzrə qruplaşdırılmalı və hər hansı məqsədə xidmət etməlidir.

Tədris prosesi üçün nəzərdə tutulan sorğu vərəqələrinin bəzi nümunələri:

1. Öyrədici sorğu vərəqləri- mövzuya aid olan material qısa şəkildə yazılır. Belə vərəqələr iki istiqamətdə hazırlanır: zəif qavramaya malik olan şagirdlər üçün minimum bilik mənbəyi və əqli cəhətdən daha qabiliyyətli olan şagirdlər üçün əlavə məlumat mənbəyi kimi.

2. Düşündürücü sorğu vərəqələri - nə üçün və niyə suallarına cavab tələb edir. Məlumdan məchula prisnipi saxlanılmaqla verilən sual şagirdi təəcübləmə və əvvəlki bilikləri tətbiq edərək cavabı tapmağa məcbur edir. Məsələn: yay fəslində səma buludla örtülü olduqda, nə üçün hava sərin olur? Və yaxud nə üçün Avrasiyanın daxili rayonlarına doğru iqlim kontinentallaşır?

3. Təlimatlandırıcı sorğu vərəqləri –cavabın bir hissəsini özündə «gizlədir», şagirdə istiqamət verir. Belə sorğu vərəqələri sxem, daiqram, cədvəl şəklində də ola bilər. Məsələn, geoloji inkişaf tarixində ən qədim eranın arxey olduğunu bilərək sonrakı eraları müəyyən edin.

4. Maraqlandırıcı sorğu vərəqələri – fənnə marağı artırmaq məqsədi daşıyır. Şagirdlərin dünyagörüşünü artırmaq, müəyyən mövzuya aid krossvord, əyləncə xarakterli məlumat və s. Məsələn: hansı çayın istiqaməti əksinə dəyişir və nə üçün?

5. Tədqiqedici sorğu vərəqələri – çay, təbii zona, dağ, düzənlik və s. şəkli üzərində qoyulan suallar, obyektin harada yerləşməsini, necə istifadə edilməsini soruşur.

6. Axtarış adlı sorğu vərəqələri- ərazinin konturu üzərində bir neçə sual verilir: rəqəmlərin hansı obyekti göstərdiyi, ərazidə hansı dövlətlərin yerləşdiyini ,üstün relyef formasını və s. soruşulur.

7. Yaradıcı sorğu vərəqələri – coğrafi adların öyrənilməsinə xidmət edir. Məsələn, Kalimantan sözündə coğrafi obyektlərin «çıxarın» (Mil, Liman, Kil, Milan və s.)

8. Nəzarət sorğu vərəqələri- diqqətin inkişafına yönəlmişdir. Hər hansı qısa coğrafi məlumatda kiçik elmi səhv yazılır. Şagird mətnə nəzarət edir. Məsələn,

«ekspedisiya üzvləri Novosibirsk adalarında tətqiqat aparır, dreyf edən buzların qalınlığını ölçürdü. Çox vaxt buraların sahibi olan pinqvinlər onlardan qorxaraq uzaqlaşırdı.» (şagird pinqvinin harada yaşadığını nəzərdən qaçırmamalıdır).

9. Seçki adlı vərəqələrdə – qarışıq halda coğrafi adlar yazının ilkin mərhələdə şagirdə müxtəlif coğrafi obyektləri seçmək dağları, düzənlikləri, çayları və s. təklif olunur.

10. Əlaqəni qurun sorğu vərəqlərində – verilmiş coğrafi adlar arasında əlaqənin tapılmasına dair tapşırıq verilir. Məs:

1. İslandiya 2. Yantsızı 3. Atlantik 4.Volqa 5. Böyük Çin 6.Xəzər bir-biri ilə əlaqəsi olan coğrafi obyektləri qruplaşdırın. (Cavab: 1-3, 2-5, 4-6).

Coğrafi cihaz və alətlər - coğrafi hadisə və obyektləri müşahidə etmək, ölçmək, planlaşdırmaq və s. üçün tələb olunan mürəkkəb və sadə alətlər nəzərdə tutulur.

Audivizual vəsaitlər- tədris vəsaiti kimi təlimin texniki vəsaitləri mühüm rol oynayır. Canlandırma xüsusiyyətinə görə audivizual vəsaitlər –ekran vasitələri, səsli və ekran-səsli vəsaitlərə ayrılır. Müəllim film nümayiş etdirərkən ilk növbədə kinofilmin nümayişinə əyani vəsait kimi yanaşmağın vacibliyini başa düşməlidir. Dərs prosesində film göstərmək mövzunun mənimsənilməsinə xidmət edən vasitə kimi qəbul edilməlidir. Film dərsin məqsədinə uyğun olmalıdır, dərsin müəyyən hissəsini əhatə etməlidir.Filmlərdən yeni materialın öyrənilməsi prosesində giriş məqsdi ilə tətbiq edilməlidir.

Təlim texniki vasitələri informasiya avadanlığı ilə yəni diaproyektor, kinoproyektor, televizor, epiproyektor, videomaqnitofonlardan istifadə olunur.

Müasir komputer avadanlığının köməyilə coğrafiya dərslərində multimedia istifadə ən mühüm problemdir. Elektron dərsliklər mahiyyətində coğrafi hadisələrin

animasiyaları ilə təqdim edilməsi mümkündür. Texniki vasitələr kimi interaktiv layihələrində əhəmiyyəti böyükdür.

Digər vəsaitlər – slayd, diapozitiv, transparant, diafilm və s multimediya vəsaitlərinin şagirdlərə keçdikləri informasiya onlarda daha sabit biliklərin yaranmasına imkan verir. Çünki bu vəsaitlər vizual olmaqla bərabər, həm də səslidir.

Əyani vəsaitlər xüsusi təşkilat və tədris istehsalat müəssisələri tərəfindən hazırlanmaqla bərabər, müəllimin rəhbərliyi ilə şagirdlərin öz tərəfindən də hazırlana bilər.

7.2. Dərslik ən mühüm tədris vəsaitidir.

Coğrafiya fənninin tədrisində ən mühüm vasitə dərslikdir. Dərslik ən mühüm bilik mənbəyi olub, fənnin elmi əsaslarını müəyyən edilən sistemdə və həcmdə şagirdlərə təqdim edir. Lakin dərsliyin əsas məqsəd və vəzifəsi fənnin proqramına uyğun gəlir. Dərsliyin lahiyələşdirilməsində tədris planı fənn proqramı ayrılan vəsait, müəllif qrupu müəyyən olunur. Dərsliyin yazılmasına verilən tələblər müəllif heyətinə təqdim olunur. Şagirdlərin yaş xüsusiyyətindən asılı olaraq şəkillərin miqdarı, mətn, mətnin həcmi, kitabın formatı, şriftlər əvvəlcədən qəbul edilmiş qaydada təqdim olunur. Dərslik ilk növbədə yeni mözunun öyrənilməsinə, yeni vərdişlərin qazanılmasına xidmət edir. Coğrafiya dərsliklərinin məzmununda 2 istiqamət mövcuddur.

Tədris mətni və mətndənkənar komponentlər

1. Tədris mətnlərinin tərkibinə -

a) əsas mətn- elmin əsaslarının izahı, nəzəriyyə, qanunauyğunluq və anlayışların şərhi.

b) izahedici mətn-coğrafi fakt, proses hadisələrin şərh edilməsi, terminlər lüğəti və s.

c) əlavə mətn – izahedici mətn daxildir.

2. Mətndənkənar komponentlərin tərkibinə

a) istiqamətləndirici elementlər - başlıqlar, siqnallar,simvollar, rubrkiasının göstəriciləri, şriftlərin petit və ya kursivlə yazılması

b) bilik və bacarıqların mənimsənilməsinin təşkili aparatı-sual və tapşırıqlar sistemi.

c) illüstrasiyalar – xəritə, sxem, şəkil, foto, rəsm, cədvəl, diaqram və s.

Dərsliyin mətn və mətndənkənar komponentlərinin nisbəti siniflər üzrə, şagirdlərin yaş səviyyəsinə uyğun olaraq dəyişir. Pedaqoq, metodist və qabaqcıl coğrafiya müəllimlərinin rəylərinə görə dərsliklərdə mətn və mətndənkənar komponentlərin nisbəti müvafiq olaraq 66% və 34%-dən, hazırda 56 % və 44%-ə çatdırılmışdır.

Hazırda orta ümumtəhsil məktəblərində istfiadə olunan coğrafiya dərslikləri əvvəlcədən məzmununa, illüstrasiya materiallarına və s-ə görə kəskin fərqlənir. Xüsusilə, mətndənkənar komponentlərin rolu dəyişir, dərsin təhsilverici, inkişafetdirici və tərbyiəedici funksiyasında daha güclü təsir edir.

Mənimsəmə səviyyəsinin təyin edilməsi üçün tərtib olunan sual və tapşırıqların xarakteri də xeyli dəyişmişdir.

Dərsliyin əsas mətninin başlanğıcında təqdim olunan sual və tapşırıqlar motivasiya xarakterli olması ilə yanaşı, əvvəlki biliklərin yada salınmasına xidmət edir. Mətndə hər hansı izahat və ya anlayışın şərhi edilməsi prosesində «Nə üçün?», «Səbəbini izah edin» və s. istiqamətli suallara cavab verən şagirdin müstəqil surətdə öyrənmə fəaliyyəti artır, mətnin passiv şəkildə deyil anlaqlı, qeydetmə sisteminə əsasən izahlı oxumasına imkan yaranır.

Bilik, bacarıq və vərdişlərin yoxlanılmasına istiqamətlənmiş suallar xarakterinə görə fərqlənir:

a) bilik -nəzəri, metodoloji və emprik.

b) bacarıq və vərdiş - ümumtəhsil, xüsusi və coğrafi

c) yaradıcı fəaliyyət- problemlərin həll edilməsi

d) ətraf aləmə qayğılı münasibət - şəxsiyyətə istiqamətlənmiş ola bilərlər.

Dərslikdə təqdim olunan suallar aşağıdakı kimi paylanmışdır:

a) mövzuların əvvəlində

b) mətnin içərisində

c) mövzunun sonunda .

d) bölmə və fəsillərin sonunda

Hazırda orta məktəblərdə istifadə olunan coğrafiya dərsliklərinin müəllifləri aşağıdakılardır: E.Əlizadə, N. Seyfullayeva «Ümumi fiziki coğrafiya» (VI sinif), O.Alxasov, Y.Qəribov , R.Məmmədov «Materik və okeanların fiziki coğrafiyası» (VII sinif); B.Budaqov, Y.Qəribov, Ş.Hümmətova «Azərbaycan Respublikasının fiziki coğrafiyası» (VII sinif), N.Əyyubov, M.Babayeva «Azərbaycan Respublkasının iqtisadi və sosial coğrafiyası» (VIII sinif); O.Alxasov, Y.Qəribov,A.Bağmanlı «Dünyanın iqtisadi və sosial coğrafiyası» (IX sinif); M.Müseyibov,E.Əlizadə, N.Seyfullayeva «Yerşunaslıq» (X sinif); M.Museyibov, V.Əfəndiyev, N.Seyfullayeva «Türk dünyasının coğrafiyası» (XI sinif). Bu dərsliklər:

- məktəblərdə coğrafi mədəniyyət və düşüncənin formalaşdırılmasında,
- elmin fundamental əsaslarının təqdim edilməsində;
- problemli təlim prinsiplərinin realizə edilməsində;
- nəzəri biliklərin praktik olaraq tətbiq edilməsində;
- fərdi və diferensial təlimin təhciz edilməsində və s.

mühüm rola malikdir.

Dərsliklər ilin əvvəlində təqdim olunur. Coğrafiya müəllimləri ilk növbədə şagirdlərə dərsliyin həcmi, istifadə qaydaları, iş prinsipləri və s. aid məlumat verir. Dünyanın əksər ölkələrində dərsliklər müəllim və şagird üçün vəsaitlərlə birgə təqdim olunur.

Dərsliyin qiymətləndirilməsi zamanı aşağıdakılar nəzərə alınmalıdır.

1.Kurrikulumun tətbiqi – Materialların məzmun xəttinə uyğunluğu

2.Məzmun – Mövzuların faktiki dəqiqliyi, müxtəlifliyin saxlanması, sadədədn mürəkkəbə doğru ardıcıllığı, mövzular arasındakı inteqrasiya

3.Dil və yazı üslubu – Şagirdlərin yaş səviyyəsinə uyğunluq yeni söz və terminlərinin izahı cümlələrin oroqrafik və qramatik baxımdan qüsurluğu, materialların, şagirdlərin söz ehtiyyatına və nitq mədəniyyətinə təsiri

4.Pedaqoji metod – Yəni metodların tətbiqi müstəqil təlimə imkan, dərsin bütün mərhələlərində dərsliyə müraciətin nəzərə alınması

5.Dizayn və tərtibat – İllustrasiyaların, mətnlə uyğunluğu, əsas mətnin mənimsənilməsinə təsir ölçüsü, səhifədəki şəklin yeri və şəklə müraciətin forması

6.İllustrasiyalar – Keyfiyyətli peşəkarlıq baxımdan səviyyəsi, cəlbediciliyi, material ilə uyğunluğu

Mövzularda gender, irq, etnik, din məsələlərinə tolerant(dözümlü) yanaşma və s prinsiplər nəzərə alınmalıdır.

Dərsliyiyn mətni üzərində aparılan işlər səviyyəsinə görə 4 mərhələdə aparıla bilər:

1. Sadə oxunuşu – oxunan mətnin şərh edilməsi; obyektlərin siyahiləşdirilməsi; sualların cavablandırılması və əsaslandırılması- əsasən aşağı siniflərdə yerinə yetirilir.

2. Mətnin məntiqi analizi – ən vacib olanları ayırmaq, mətnin məntiqi hissəsini seçmək; mətni əsas, əlavə izahedici hissələrə ayırmaq; anlayış və prinsipləri təyin etmək; mətnin planını (sadə və mürəkkəb) tərtib etmək-əsasən aşağı siniflərdə yerinə yetirilir.

3. İzahatların axtarışı – səbəb-nəticə əlaqələrinin ayırd edilməsi; ümumi və fərqli cəhətlərin müəyyən edilməsi; - əsasən yuxarı siniflərdə tətbiq olunur.

4. Yaradıcı fəaliyyət – mətnin analizi əsasında sxem, cədvəl və şəkillərin tərtib edilməsi; mətn və digər bilik mənbələr əsasında təsvirlərin tərtib edilməsi; mətnin qısa xülasəsini və ya tezisinin tərtib edilməsi – əsasən yuxarı siniflərdə həyata keçirilir.

İzahlı oxu -Xüsusən aşağı siniflərdə dərsin mövzu müəllim və ya şagird həmin hissəni aramla oxuyur və öz sözləri ilə izahat verir.

Mətnin planın tərtib edilməsi – Şagirdlərə mövzunun ardıcıl və sistemli şəkildə öyrənməyə imkan verir. Müstəqil şəkildə mövzunu oxuyan şagirdlər əsas başlıqları ayıraraq mövzunun planını verir

Seçilmiş oxu (çeşidlənmiş) -Coğrafi anlayış və qanunauyğunluqların mətndən seçilməsi və onun izahının verilməsi.

Müqayisələrin verilməsi – Müqayisə coğrafiyanın nüvəsidir. Hər hansı iki, obyekt arasında aparılan müqayisələr, onların oxşar və fərqli cəhətlərini müəyyən etməyə kömək edir və fərqləndirici cəhətin səbəbləri izah olunur.

Mətnin xəritə-sxemlər ilə uzlaşdırılması -Xüsusilə ayrı-ayrı mövzulardakı tematik xəritə-sxemlər üzərində təhlillərin aparılması tədrisin keyfiyyətini yüksəldir. Məsələn: Avstraliyanın relyefi mövzusunda mətn oxunduqdan sonra xəritə üzərində, həmin ifadələri əsaslandırılmalıdır.

Coğrafi lüğətlərin tərtib edilməsi – Dərsliklərə əsasən coğrafi lüğətin hazırlanması sınanmış tədris metodlarından biridir. İlin əvvəllərindən başlayaraq şagirdlər mövzularda rast gəldiyi bütün coğrafi adların, terminlərin, anlayışların lüğətini hazırlayır.

Dərsliyin sual və tapşırıqları ilə aparılan işlər – Şifahi və yazılı da ola bilər. Mətn daxili, sonu və əvvəllərində verilmiş sualların cavablarının coğrafiya dəftərində yazılması fənnin mənimsənilməsini artırır.

Dərslikdəki xəritə, şəkil və rəqəmlərlə aparılan işlər – Əlavə sualların köməyi ilə xəritə üzərində tapşırıqlar, rəqəmlər əsasında qrafiklər və şəkillərin görünməyən tərəfləri təhlil olunur.

Dərslikdə ev tapşırıqlarının verilməsi . Davamlı, ardıcıl və müxtəlif səviyyəli olmalı, çox variantlı prinsipə əsaslanmalıdır.

Dərsliyin tədris prosesində 2 funksiyası var:

1.Yeni mövzunun öyrənilməsinə xidmət etmək

2.Yeni vərdişlərin qazanmasına imkan yaratmaq

Dərslikdən aşağıdakı vərdişlər əldə etmək mümkündür :

- Repetitiv – yəni mətndə məna təhrifinə yol vermədən öz sözlərlə təkrarlamaq və ya qrafik formada tərtib etmək.

- İmitasiya – yəni, hər hansı anlayışların mexaniki şəkildə təkrar etmək.

- Koqnitiv – Əsas və ikinci dərəcəli anlayışları fərqləndirmək, mətnin planını tərtib etmək, məlumatları müqayisə etmək və nəticə çıxarmaq vərdişləri.

- Əməli vərdiş – Hər hansı əməliyyatı yerinə yetirmək və cihazlardan istifadə etmək vərdişi.

- Davranış vərdişləri – Hər hansı lahiyəni planlaşdırmaq, onun üzərində müstəqil şəkildə işləmək bacarığını formalaşdırır.

Dərslik metodoloji cəhətdən 4 əsas fəaliyyətə əsaslanır.

-Təsəvvür yaratmaq

-İnkişaf etdirmək

-Bilikləri tətbiq etmək

-İnteqrasiya etmək bacarığı


Dərslik-təlim məqsədlərinin reallaşdırılması üçün, müəyyən olunmuş proqram əsasında fənnin elmi əsaslarının şərh

edildiyi kitabdır. Dərslikdə proqram materiallarının məzmunu bilik, bacarıq və vərdişləri olmaqla sistemli şəkildə təqdim olunur.

Dəpsliyin məzmunu digər vəsaitlərdən məzmunun daha mükəmməl olması ilə seçilir. Hazırki dövrdə dərsliklərin funksiyası mürəkkəbləşir və təlim prosesində rolu artır. (Sxem 37).

Coğrafiya dərsliyinin quruluşu

Sxem 37



Dərsliyin funksiyası çox cəhətlidir.

1.Transformasiya (tədris materialında elmi məlumatların uyğun şəkildə dəyişdirilməsi)

2. Məlumatverici (fənnin məzmunun və fəaliyyət növlərinin əks olunması)

3. Təlimedici (müstəqil işlərin yerinə yetirilməsinin formalaşdırılması)

4. Sistemləşdirici (öyrənilən materiallarda ardıcıllığa ciddi şəkildə əməl edilməsi)

5. Möhkəmləndirmə və özünənəzarət (tədris materiallarının mənimsənilməsinə kömək)

6. Əlaqələndirici (digər təlim vasitələrindən tənzimlənmiş vəziyyətdə istifadə)

7. İnkişafetdirici və tərbiyəedici (şagirdlərin müəllimdən asılılığının azaldılması)

Coğrafiya dərslikləri üzərində aparılan işlərə verilən metodik tələblər aşağıdakılar kimi ümumiləşdirmək olar:

1. Dərslikdə iş məqsədyönlü şəkildə planlaşdırılmalı və hər mərhələdə şagirdlərin fəaliyyəti idarə edilməlidir.

2. Dərslik üzərində işləmək bütün dərs vaxtını əhatə etməməlidir, digər vasitələr – xəritə, tədris şəkilləri, cədvəl, ekran vasitələri, dövrü mətbuat, sinifdənxaric oxu və s. ilə uyğunlaşdırılmalıdır.

3. Şagirdlərə evdə dərslik üzərində işləmək üçün təlimat verilməlidir.

4. Dərslik üzərində işlər dərsin bütün mərhələlərində keçmiş dərsin sorğusunda, yeni dərsin izahında, yeni dərsin möhkəmləndirilməsində və nəticələrin yoxlanılmasında tətbiq edilməlidir.

5. Dərslik üzərində iş şagirdlərin müstəqil fəaliyyəti üçün əsas mənbə olmalıdır.

6. Dərslik üzərində işin təşkil edilməsində bütün komponentlər (mətn, mətndənkənar) nəzərə alınmalıdır.

7. Şagirdlərin yaş və əqli səviyyəsindən asılı olaraq dərslik üzərində onlara verilən tapşırıqlar da fərqli olmalıdır.

8. Yuxarı siniflərə doğru, dərslik üzərində verilən tapşırıqlar mürəkkəbləşməlidir.

7.3. Xəritə və digər kartoqrafik təsvirlər üzərində aparılan işlər

Coğrafiya elə bir fənndir ki, onun öyrənilməsi digərlərindən fərqli olaraq bir neçə qayda-qanunu öyrənməklə bitmir. Coğrayiya özü təbiəti öyrəndiyi kimi, özünün öyrədilməsində də təbiiliyi tələb edir. Məşhur çex pedaqoqu Yan Amos Komenski deyirdi ki, tədris əyani olmalıdır, uşaqları sözlərlə deyil, əyani vasitələrlə öyrətmək

lazımdır. Coğrafiyanın tədrisi dedikdə ilk yada düşən vəsaitlər-xəritə, qlobus, plan və digər köməkçi avadanlıqlar, alətlər başa düşülür.

Coğrafiya fənni əgər təbiətdən, təbiətdə baş verən proseslərdən bəhs edirsə, bu fənn ilk növbədə məktəb divarları arasında keçirilməməlidir. Tədris prosesində coğrafiyanın ikinci dili hesab olunan xəritə isə dərsliklərlə yanaşı olan informasiya mənbəyidir.

Xəritəni dərindən bilən hər bir şagird sanki dünyaya qiyabi səyahət etmiş kimidir. Əlifbanı bilmədən yazmaq mümkün olmadığı kimi xəritəni, onun miqyasını, şərti işarələrini bilmədən coğrafiyanı bilmək qeyri-mümkündür. Təbii ki, xəritəni də şagirdlərə sevdirmək müəllimin istedadından, biliyi uşaqlara sevdirə-sevdirə çatdırmaq qabiliyyətindən asılıdır. Hər hansı mövzu keçilən zaman onu xəritə ilə əlaqələndirməlidir. Xəritədə hansı coğrafi obyekti göstərirsə, onun bəzi xüsusiyyətlərini izah etməlidir. Bütün mövzuları bir-biri ilə əlaqəli şəkildə keçməlidir. Xəritə, onun üzərində aparılan tapşırıqlar şagirdləri fəallaşdırmaq, onların göz yaddaşlarını itiləmək, uşaqların zehni fəaliyyətini gücləndirmək işində əvəzsiz vəsaitdir. Şagird psixologiyasına yaxşı bələd olan müəllim bilməlidir ki, belə bir vasitə şagirdlərdə xüsusi bir maraq oyadır.

Coğrafiya fəninin tədrisində xəritələrdən istifadənin əhəmiyyəti ölçüyəgəlməz dərəcədədir. Xəritələrin tədris prosesində roluna dair tədqiqatlar alimləri daima cəlb etmişdir. Azərbaycanda bu sahədə R.Piriyevin, A.Hüseynovun, D.Ələsgərovun xidmətləri böyükdür. Xüsusilə, «coğrafi xəritəni spesifik dərs vəsaiti» hesab edən A.Hüseynov Azərbaycan məktəblərində istifadə olunan atlas və xəritələrin eləcə də planın metodik təhlilini, onlardan istifadə yollarını və eyni zamanda onlara aid nümunələr verməklə-kartoqrafik vasitələrdən istifadənin tədqiq etmişdir.

Tədris prosesində xəritələr iki mühüm- öyrənmə obyekti və coğrafi informasiyalar mənbəyi kimi funksiyanı yerinə yetirir.

Xəritələri digər tədris təsvirlərdən fərqləndirən bir sıra əlamətlər vardır: Xəritə riyazi təsvirdir, xəritə şərti işarəli-obrazlı təsvirdir, xəritə generalizasiya olunmuş (ümumiləşdirilmiş) təsvirdir Xəritənin mücərrədləşdirilmiş, əlaqəli təsvir olunması şagirdlərin inkişafetdirici tərbiyəsində güclü təsirə malikdir. Əgər coğrafiya dərslikləri yalnız sözün (verbal) köməyi ilə anlayış və qanunauyğunluqları izah etmək imkanına malikdirsə, xəritələr həm də işarəli simvolik sistemin köməyi ilə daha geniş dünyagörüş yaratmağa qabildir. Xəritələr coğrafiyanın ikinci dilidir. Xəritələr maddi olduğu qədər ideal mövcudluqdur. Çünki xəritədəki işarələr insan şüurunda kənarda mövcuddur, lakin ona təsir etdiyi üçün xəritənin ifadə planı maddi xarakter daşıyır.

İşarələr – -nəyi isə əvəz edən maddi predmetdir-yəni işarə işarəliyindən (məsələn içi qara rəngli üçbucaq təsviri) və işarələnəndən (yəni neft) ibarətdir. Xəritə üzərində aparılan işləri didaktik funksiyaların yerinə yetirilməsinə görə üç qrüpa bölmək olar:

1.Təhsilverici məqsədi

- şagirdlərə xəritəni oxumağı, xəritə üzərində ölçü və hesablama işlərinin aparılmasının üsul və metodlarını öyrənmək.
- xəritəyə əsasən hər hansı obyektlərin (təbii şərait, sənaye oaylnları və s.) səciyyəsin verməyi öyrətmək.

2. Tərbiyəedici məqsəd

- xəritəyə əsasən coğrafi hadisə, proses və faktlar arasında olan münasibətləri, asılılıqları, səbəb-nəticə əlaqələrini açmaq və şagirdlərdə «təbiət və təsərrüfat», «cəmiyyət və təbiət», «təbiət-insan təsərrüfatı» dünyagörüşünü yaratmaq.

- təbii şərait və ehtiyatlardan səmərəli istifadə və onların ərazinin iqtisadi potensialı ilə əlaqələndirilməsi, vətənə məhəbbət, ideyaların aşılaması.

3. İnkişafetdirici məqsəd

- şagirdlərdə coğrafi və kartoqrafik bilik və problemlərə maraq oyatmaq

- xəritələrdə hissi olaraq qavranılan hadisə və proseslərin mahiyyətinə nüfuz etmək, məntiqi əlaqə qurmaq

- şagirdlərin təxəyyül, təfəkkür, nitq qabiliyytini, məkan və zaman təsəvvürlərini inkişaf etdirmək və s.

Xəritə və digər kartoqrafik təsir vasitələrindən və digər kartoqrafik təsir vasitələrindən istifadə etmək bacarığı şagirdlərin yaş səviyyəsindən asılı olaraq idraki inişaf səviyyəsini əks etdirir. Şagirdlərin xəritə üzərində apardığı əməliyyatlar aşağıdakı kimi qəbul edilmişdir:

1.Konkret obyektlərin əks olunduğu plan, ümumcoğrafi və fiziki xəritələrlə vizual tanışlıq (VI sinif).

2.Şəkil, aerofotoşəkil və planın müqayisəli dərk ediləsinin ilkin mərhələsi. Şagirdlərə miqyas, şərti işarə, məhəldə və planda cəhətlərin, istiqamətlərin təyin edilməsi. Şərti işarələr ilə tanışlıq (VI sinif).

3. Şagirdlərin miqyasa əsasən məsafələrin ölçülməsin öyrətmək (VI sinif)

4. Məktəbin yerləşdiyi ərazinin planının oxunması (VI sinif)

5.Hər hansı ərazinin topoqrafik xəritəsinin oxunması (VII –X sinif)

6.Fiziki xəritənin oxunması, rənglərə əsasən hündürlük və dərinliklərin təyin edilməsi (VI, VII,VIII,X sinif),

7. Geoloji və fiziki xəritələr arasında əlaqəni müəyyən etmək (VII sinif)

8. Tematik xəritələrin təhlili və qiymətləndirilməsi. İqtisadi xəritələrin təsvir edilməsi üsulları (VIII-IX sinif).

9.Sənaye və kənd təsərrüfat sahələri xəritələrə əsasən təsvir etmək (IX-XI sinif)

10.Hər hansı ərazinin kompleks coğrafi səciyyəsini tərtib etmək (IX-XI sinif).

11.Təbii ehtiyatların mövcudluğu ilə əhalinin sıxlığı və yerləşməsi arasında uyğunluğun müəyyən edilməsi, nəticələrin çıxarılması, proqnozların verilməsi (IX-XI siniflər).

Xəritə və digər kartoqrafik təsvir vasitələri coğrafiya fənninin tədrisində «tədris dili» hesab olunur. Çünki, xəritə öyrənilən hadisə və proseslərin qarşılıqlı əlaqəsini görmək, onların yerləşməsini göstərmək, onların bir-birinə və digər koordinatlara əsasən coğrafi mövqeyini izah etmək və onları şərh edənin nitqi ilə birləşdirmək məqsədi daşıyır.

Xəritə üzərində işlərin müxtəlif səviyyələri mövcuddur. Xəritədə təsvir olunan hadisə və prosesləri, onların inkişafını dərk etmək üçün xəritələrdən istifadə kartoqrafik tədqiqat metodları üç qrupa ayrılır:

1.Vizual təhlil-görmə qavranışına əsaslanır, şifahi və yazılı təsvirlə yekunlaşır. Vizual təhlil xəritə ilə tanış olmaq –yəni ötəri oxu və xəritənin şərti işarələri, əlavə məlumatlar, təchiz elementləri, xəritənin əhatə etdiyi ərazini və s.-i təhlil edən bələd olmaqla oxudan ibarətdir.

Lakin vizual təhlilin ən yüksək səviyyəsi xəritənin məzmunu bütövlükdə dərk etməklə oxuda əks olunur.

Təhlilin bu forması hadisə və proseslər arasında olan səbəb-nəticə əlaqələrinin aşkar edilməsinə və oxunun nəticələrinin üzə çıxarılmasına imkan verir. Məsələn: 8-ci sinfin dərsliyində əldə olunan «Azəraycan Respublikasının atlasında» verilən xəritələrə əsasən Azərbaycanın kənd təsərrüfatının ixtisaslaşmasına və onun coğrafiyasına təbii şəraitinin təsirini izah edin.

Bu məqsədlə lazım olan xəritələri şagirdlər seçirlər. Xəritələrlə tanış olduqdan sonra şvgirdlər kənd təsərrüfatı bitkilərinin suya, temperatura və torpağa olan tələbini yada salırlar və bunun üçün «kənd təsərrüfatı bitkilərinin bəzi göstəricilərini nəzərdən keçirirlər. Şagirdlər əvvəl

dərsliklərdəki və «Azərbaycan atlasın»dakı xəritələri oxuyurlar, sonra həmin xəritələrə əsasən əldə etdikləri məlumatları xəyalən 8-ci sinif atlasındakı fiziki xəritənin üzərinə gətirirlər və öz fikirlərini təxminən aşağıdakı kimi ifadə edirlər.

1.Azərbaycanda kənd təsərrüfatının ixtisaslaşmasına təbii şəraitin yüksəkliyə görə dəyişməsi güclü təsir göstərir.

2. Kür-Araz ovalığının relyefi hamar düzənlikdən, torpağı boz torpaqlardan ibarətdir, vegetasiya dövründə ümumi temperatur (+10° C- dən yuxarı) 3000-4000 dərəcədir, orta illik yağıntının miqdarı 200-400 mm-dir.

3. Kür-Araz ovalığından, eləcə də Xəzərin sahillərindən dağlara doğru getdikcə temperaturun illik miqdarı azalır, yağıntının miqdarı artır; boz torpaqlar tədricən boz-qonur, açıq şabalıdı, tünd şabalıdı, qəhvəyi dağ-meşə, qonur dağ-meşə və s. torpaqları ilə əvəz olunur. Kənd təsərrüfatının ixtisaslaşması təbii şəraitlə şərtlənir. Respublkamızda təbii şəraitin şaquli zonalar üzrə dəyişməsi kənd təsərrüfatının zonal ixtisaslaşmasına səbəb olmuşdur. Belə ki, Kür-Araz ovalığında suvarma əkinçiliyi şəraitində pambıqçılıq, taxılçılıq və yemçilik geniş inkişaf etdirilmişdir. Dağətəyi və alçaq dağlıq zona meyvəçilik, üzümçülük, tütünçülük, kartofçuluq, heyvandarlıq, dəmyə taxılçılıq üzrə ixtisaslaşmışdır. Yüksək dağlıq zonadan otlaqları, düzənliklərdən isə qış otlaqları kimi istifadə olunur. Lənkəran-Astara zonası subtropik bitkilər, çayçılıq və farş tərəvəzçilik rayonu, Quba-Xaçmaz isə meyvəçilik və farş tərəvəzçilik rayonları kimi ixtisaslaşmışdır.Abşeron şəhərətrafı tərəvəzçilik-südçülük və meyvəçilik, Naxçıvan Muxtar Respublikası isə tərəvəzçilik-üzümçülük-heyvandarlıq-taxılçılıq rayonu kimi ixtisaslaşmışdır. Kiçik Qafqazın təbii şəhərətrafı tərəvəzçilik-südçülük-meyvəçilik, üzümçülük və tütünçülük üçün çox əlverişlidir. İpəkçilik Azərbaycanın ən çox düzənlik və dağətəyi rayonlarında inkişaf etdirilir. Azərbaycanın təbii şəraitinin rəngarəngliyi

kənd təsərrüfatının bir çox, hətta nadir, (zəfəran, zeytun, arıçılıq, gülçülük) sahələrini inkişaf etdirməyə imkan veri

2.Qrafik təhlil – təcrübədə ən çox istifadə olunur, profillər, diaqramlar, blok-diaqramlar və s. Məktəb təcrübəsində ən çox relyef, geoloji və kompleks profillərdən istifadə olunur.

Blok – diaqramlar hər hansı səthin eninə və uzununa şaquli kəsilişləri ilə birlikdə perspektiv təsvirindən ibarət olub üçölçülü şəkildir.

3.Kartometrik təhlil – xəritə üzərində koordinatların yüksəkliklərin, məsafələrin, sahələrin həcmlərin, istiqamətlərin ölçülməsi və hesablanması üsullarını nəzərdə tutur, kartoqrafik üsul şagirdlərin riyazi hesablama qabiliyyətinin coğrafiyaya tətbiqini tələb edir Birmənalı şəkildə kartometrik ilə təyin olunur. Ümumiyyətlə isə uşaqların xəritələri yaxşı bilmələri üçün onlar keçdikləri yeni mövzuda öyrəndikləri coğrafi adları, bilik və məlumatları özləri həmin mövzuya uyğun xəritədə axtarıb tapmaları daha yaxşı olar.

Xəritə üzərində aparılan –«Bakı şəhəri ilə şimal qütbü arasında məsafəni hesablayın», «Azərbaycanda örüş və biçənəklərin sahəsini hesablayın»; «İqlim xəritəsinə əsasən Avstraliyada yağıntının miqdarının dəyişməsini» hesablayın və s. tapşırıqlar kartometrik üsullardır.

Xəritə üzərində müəllimin apardığı işlər metodik təyinatına görə üç səviyyədə müəyyən olunur:

Xəritəni başa düşmək – kartoqrafik biliklərə malik olmaq deməkdir, yəni xəritənin nə olmasını, onun xassələrinin, məzmunun, vəzifəsinin nədən ibarət olduğunu, xəritə üzərindəki hər bir şərti işarənin nə demək olduğunu, xəritələrdən necə istifadə etmək lazım gəldiyini və bundan nə kimi fayda əldə etmək mümkün olduğunu bilmək deməkdir. Xəritəni başa düşmək kartoqrafiyanın predmetini təşkil edir.

Təbiidir ki, xəritədən savadlı surətdə istifadə etmək üçün, birinci növbədə onu başa düşməyi öyrənmək lazımdır. Bunun üçün isə müəyyən kartoqrafik bilik və bacarıq lazımdır. Bu vəzifəni başa düşməmək və ya onu şişirtmək olmaz. Hətta elementar kartoqrafik bilik və bacarıqlar onların mənimsənilməsi üçün müəyyən vaxt və səy tələb edir. Kartoqrafik bilik və bacarıqların müəyyən inkişaf sistemi olmalıdır.

Xəritədən istifadənin səmərəliliyi onu başa düşməkdən asılı olur. Xəritəni başa düşməyin öyrədilməsi – kartoqrafik biliklərin toplanılması, genişləndirilməsi və dərinləşdirilməsi coğrafi materialların öyrədilməsi ilə paralel aparılmalıdır. Kartoqrafik təsvir anlayışı şagirdlərə giriş planlarının tərtib edilməsi başlayır. Onlar üfüqin cəhətlərinin istiqamətlərini; miqyas üzrə məsafələri təyin edir, dərslik və ya atlasda təsvir olunmuş planlarla tanış olurlar. Xəritənin miqyaslı şərti işarəli, ümumiləşdirilmiş olması, xəritədə cəhətlərin təyin edilməsi xüsusiyyətləri və s. bacarıqlar-xəritənin başa düşmək təliminin əsas elementləridir.

- Miqyas nədir? Miqyasın hansı növləri var, xəritələr miqyasına görə hansı qruplara ayrılır?
- 1:600000 miqyaslı xəritədə ərazilər neçə dəfə kiçildilmişdir?
- Xəritədə təsvir olunan ərazilərin təsviri ilə xəritənin miqyası arasında hansı əlaqə vardır?
- Ərazinin planı ilə xəritə arasında oxşar və fərqi cəhətlər hansılardır?
- Xəritədən istifadə etməklə (miqyas göstərilir) iki məntəqə arasında (xəritə üzərində məsafə göstərilir) həqiqi məsafə nə qədərdir?
- Murov dağları hansı istiqamətdə uzanır?
- Hər hansı məntəqədən (coğrafi koordinat verilir) ekvatora, başlanğıc meridiana, şimal qütbünə və s. qədər

məsafənin meridian və paralel qövsünün uzunluğuna görə hesablayın (paralel qövsün uzunluğu verilir).

Göründüyü kimi xəritədən istifadə nəzəri biliklərə əsaslanır, şagirdlərdən praktik fəaliyyət tələb edir, xəritə üzərində aparılan hər hansı tapşırıq şagirdlərdə məkan təsəvvürünün formalaşmasına imkan verir. Xəritəni başa düşməyin formalaşdırılması bir neçə mərhələdə həyata keçirilir: birinci mərhələ « Ümumi fiziki coğrafiya»-nın «Plan və xəritə» mövzusunda verilən ilkin anlayışlar şəklində, ikinci məhələ -digər siniflər üçün tərtib olunmuş dərsliklərdəki mövzuların təhlilində, üçüncü mərhələ isə müəllimin şagirdlərlə apardığı praktik işlərdə .

Xəritə üzərində şagirdlərin iş fəaliyyəti xarakterinə, idrak səviyyəsinə, tapşırıqların xüsusiyyətinə görə müxtəlif olur.

Xəritəni oxumaq – xəritənin məzmununun qavranılmasına və dərk olunmasına yönəldilmişdir. Şərti işarələrin məcmusundan istifadə edərək nəzərdən keçirilən hər hansı ərazinin coğrafi xüsusiyyətləri haqqında düzgün nəticə çıxarmaq, xəritələrin köməyi ilə təbii və ictimai obyektlərin, təbiət hadisələrinin və əhalinin və təsərrüfatın fəaliyyətinin yerləşməsi, müasir vəziyyətin qarşılıqlı əlaqələrini başa düşməyi və öyrənməyi bacarmaq deməkdir. Xəritəni oxumaq xəritəni başa düşməyin bilməyin daha yüksək mərhələsi olub işarələrin sbzlərlə ifadə olunmasıdır. Xəritəni oxumaq üçün təkcə onun əlifbasını – şərti işarələrini, miqyasını, proyeksiyasını və s. bilmək kifayət deyildir. Bundan ötrü kartoqrafik və coğrafi biliklərlə yanaşı xəritələrin oxunması üzərində çoxlu çalışmaların aparılması zəruridir. Hər bir bacarıq kimi xəritəni oxumaq bacarığı da, ancaq çalışmalar hesabına yaradılır.

Xəritəni oxumaq bacarığı birdən-birə yaranmır. Şagirdlər həmin bacarığı tədricən, məktəb coğrafiya kursunun tədrisi müddətində müvafiq materialların

öyrənilməsi ilə paralel surətdə yiyələnirlər. Təlim prosesində coğrafi biliklərin genişlənməsi və dərinləşməsi ilə yanaşı, xəritəni oxumaq bacarığı da təkmilləşib inkişaf etməlidir.

Xəritənin oxunması dedikdə aşağıdakılar nəzərdə tutulur:

1. Şərti işarələrdən – legendadan istifadə edərək xəritədə təsvir edilmiş ayrı-ayrı obyekt və hadisələrin aydınlaşdırılması.

2. Həmin obyekt və hadisələrin mövqeyi və qarşılıqlı yerləşməsi haqqında müvafiq məkan təsəvvürünün əldə edilməsi.

3. Öyrənilən ərazinin bu və ya digər xüsusiyyətləri haqqında ümumi məlumat əldə etmək, onun xəritədə əks olunmayan digər əlamətlərini aydınlaşdırmaq, buradakı dinamik sistemlərin inkişafı, yerləşməsi və qarşılıqlı asılılıq və səbəbiyyətlərinin aşkara çıxarmaq məqsədilə obyekt və hadisələrin məkanda tutuşdurulması.

Çətinlik dərəcəsinə görə xəritə oxunuşunu coğrafiyaçı –metodistlər 3 qrupa ayırır.

Xəritənin elementar oxunuşu (nəzərdən keçirməklə oxu) – zahiri görünüşünə görə obyektin xassələrinin aydınlaşdırılmasından ibarətdir. Məsələn, "Bu Qafqazdır", "Bu Samur çayıdır" və s. Bu oxunuş çox sadə görünsə də, bunsuz mürəkkəb oxunuşu başa düşmək mümkün deyil.

Mürəkkəb oxunuş (bələd olmaqla oxu) – xəritə əsasında obyekt və hadisələrin burada əks olunmuş xassələri haqqında mühakimə yürütmək bacarığıdır. Belə oxunuş xeyli çətindir, şagirdlərdən kifayət qədər coğrafi bilik və sadə oxu vərdişləri tələb edir. Məsələn, Samur çayı respublikamızın şimal-şərq hissəsindən Rusiya ilə sərhəddən axır. Samur çayı Xəzər dənizinə tökülür, Samur-Abşeron kanalı bu çaydan başlayır.

Xəritənin oxunuşunun nəticə və yekunlaşdırıcı mərhələsi (öyrənməklə oxu) – coğrafi bilik, bacarıq və vərdişlər xəritələrdə təsvir edilmiş faktların müqayisə və tutuşdurulmasından istifadə edərək, burada bilavasitə əks etdirilməyən məlumatları əldə etmək üçün məntiqi mühakimələr yürüdülməsi və əqli nəticələr çıxarılmasıdır. Məsələn, fiziki xəritələr əsasında Abşeron ərazisində olan qumluqlar, şor göllər çay şəbəkəsinin zəif inkişafına görə şagirdlər ərazinin iqlimi, səth örtüyü haqqında müəyyən fikirlər yürütmüş olurlar.

Xəritəni oxumaq xəritədəki təsvirə əsasən məhəllini olduğu kimi göz önündə canlandırmaq deməkdir. Yer səthində yaşayan insanlar məhəllini yandan görüb qavramağa vərdiş etdikləri halda, xəritə məhəllin quşbaxışı görüntüsünün təsviridir. Xəritədəki təsviri ilə onların yandan görünüşlərini şagirdlərə müqayisə etdirmək və bu əsasda onlarla xəritəyə əsasən məhəlli olduğu kimi görmək bacarığı formalaşdırmaqdan ibarətdir. Daha sonra müəllim fiziki xəritə üzərində şagirdlərdə aşağıdakı qaydada iş aparır:

1.Müəllim subyektləri, iqlim, qrunt, relyef və bitki örtüyü arasındakı əlaqələrdən danışır və şagirdlərə onlara məlum olan belə əlaqələrə dair misallar gətirməyi təklif edir.

2. Obyektlər arasında olan səbəb-nəticə əlaqələrinə əsasən əvvəl dənizləri, dağları, ovalıqları, sonra isə bataqlıq və buzlaqların, quruyan çay və göllərin, acı və şirin sulu göllərin şərti işarələrini xəritədə tapmaq üzrə yarış keçirir.

3. Qərbi Sibir, Turan və Kür-Araz ovalıqlarını xəritədə tapıb göstərməyi və onların təbiətini göz önündə canlandırmağı şagirdlərə təklif edir.

Xəritənin oxunması və onun məzmununun qavranılması tədris və ünsiyyət yolu ilə formalaşan xüsusi bacarıq forması olduğu üçün xəritəni oxumaq heç vaxt vərdiş halına keçmir. Belə ki, hətta kartoqrafiya sahəsində

mütəxəssis olan oxucular belə onlara tanış olmayan ərazinin tematik xəritəsini oxuyarkən xəritənin leqendasına müraciət edirlər. Bu onunla izah olunur ki, müxtəlif xəritələrdə eyni obyekti müxtəlif işarələrlə və ya əksinə müxtəlif obyektləri müxtəlif xəritələrdə eyni işarələrlə təsvir edirlər.

Müxtəlif əlaqə və münasibətlərə daxil olduqda işarə müxtəlif mənalar alır. Məsələn, punson (yaşayış məntəqəsinin işarəsi) digər işarələrlə əlaqəsindən asılı olaraq liman, dəmiryol, nəqliyyat və ya sənaye qovşağı kimi funksional mənalar kəsb edir.

Xəritədə məzmunun açılması zamanı şagird çatışmayan informasiyanı hafizədən götürür və onu xəyalən xəritəyə köçürür.

Şagirdlərin xəritələrdə apardığı müstəqil praktiki işlər xəritə oxumağı öyrənməyin ən mühüm vasitəsidir. Müəllimin vəzifəsi tapşırıqların metodik cəhətdən münasib seçilməsi üçün şagirdlərə istiqamət verməkdən ibarətdir. Coğrafiyada şagirdlərin müvəffəqiyyəti xəritə oxunuşunun düzgün təşkil edilməsindən ibarətdir. Xəritəni oxumağa yönəldilmiş çalışmalar iki qrupa bölünür:

1) Xəritənin dilinin öyrədilməsinə yönəldilmiş çalışmalar;

2) Xəritədəki informasiyanın mənimsənilməsinə yönəldilmiş çalışmalar.

Birinci qrup çalışmalardan ən çox kartoqrafik, ikinci qrup çalışmalardan isə coğrafi bilik verən dərslərdə istifadə olunur. Birinci qrup çalışmalara xəritədə relyefin təsviri üsullarının, xəritənin təhlilinin, şərti işarələrin və s. öyrənilməsi ilə əlaqədar olan çalışmaları, ikinci qrup çalışmalara isə xəritəyə əsasən düzənliyi, dağı, su obyektlərini, ərazinin relyefini, iqlimini, kompleks fiziki – coğrafi səciyyəni və s. təsvir etməyi tələb edən çalışmaları misal göstərmək olar.

Xəritəni bilmək – proqram həcmində olan coğrafi obyektlərin adlarını, formalarını yadda saxlayıb onların qarşılıqlı yerləşmələri haqqında məkan təsəvvürünə malik olmaq, həmin obyektlərin xarici görünüşünü xəyalən təsvir etmək deməkdir. Şəgirdlər xəritədə ən mühüm obyektlərin bir-birinə nisbətən tutduğu yerini, nisbi ölçüsünü ,formasını və adını hafizəyə nisbətən yadda saxlamaq aydın surətdə təsəvvür etmək deməkdir. Əgər şagird respublikamızın sərhədlərini, iri çaylarını, göllərini, dağlarını, dağ zirvələrini, ovalıqlarını, şəhərlərini, rayonlarını və s. xəritədə adlarını deyib göstərə bilirsə, deməli, Azərbaycan Respublikasının xəritəsini bilir. Məktəb proqramında xəritəni bilməyi təmin etməyə dair kifayət qədər tapşırıqlar nəzərdə tutulmuşdur.

Xəritəni bilməyin metodikasına coğrafi adların yadda yaxşı saxlanılıb düzgün tələffüz edilməsi, xəritədəki yerlərin tez tapılıb dəqiq göstərilməsinə nail olmaq üçün müxtəlif üsülları daxildir. Xəritədə coğrafi obyektlərin yerləşməsi, onları müxtəlif adlarla mənimsətmək və hafizədə möhkəmləndirmək işi adətən ondan başlanılır ki, müəllim və sonra isə şagirdlər müxtəlif kartoqrafik təsvirləri xəritədə tapırlar, göstərirlər və adlarını deyirlər. Aşağı siniflərdə adlar hecalara bölünüb təkrar etdirilir, dəfələrə yazdırılır, şagirdin həmin adları stolüstü xəritədə tapıb oxuyur. Öyrədilən ,coğrafi toponimin adı ilə onun kartoqrafik obrazının əlaqələndirilməsi olduqca mühümdür. Bunu üçün adlar mənimsənildikcə xəritə üzərində iş daha da gücləndirilir. Bu mərhələdə obyektin adının, zahiri əlamətlərinin (forması, böyüklüyü, rənginin) mənimsənilməsinə və xəritədə düzgün göstərilməsinə xüsusi diqqət verilir. Bir sıra bilik və bacarıqların mənimsənilməsi üçün tədris metodikasının aşağıdakı priyomlarından istifadə etmək olar:

- toponomik lüğətlərin tərtibi,

-obyektlərin forma və böyüklüyünün hər hansı başqa fiqurlarla müqayisə edilməsinin tətbiqi,

-xəritədə aplikasiyaların yerləşdirilməsi,

- adların mənşəyi haqqında məlumat,

- həmin obyektə aid hər hansı bir hadisə,

- maraqlı faktlar haqqında məlumat toplamaq və s.

Xəritə üzərində didaktik oyunlar

Xəritə üzərində didaktik oyun nümunələrinin tətbiqinin özəlliyi ondadır ki, az vaxt aparır, qısa zaman kəsiyində uşaqlar çox məlumat əldə edir, bütün sinifdə fəallaşma baş verir və hər bir uşağın bilik səviyyəsini açıqlayır, eyni vaxtda bir neçə şagirdi eyni vaxtda qiymətləndirmək mümkün olur.

Bu oyunların uğurlu alınması üçün onu bir neçə dərsdən bir aparılması zəruridir. Yəni bir oyunda bir neçə mövzu öz əksini əlaqəli şəkildə tapa bilər. Məsələn- Afrikanın geoloji quruluşu, relyefi, iqlimi, çayları, gölləri, bilgi və heyvanat aləmi və s. Bu mövzuları bir-biri ilə sıx əlaqəlidir. Geoloji quruluşuna uyğun relyef, iqlimə əsasən (yağıntıların miqdarı, temperatur, rütubət əmsalı və s.) çay şəbəkələri, iqlimə görə flora və faunası formalaşır və s.

Coğrafi adın aid olduğu obyektin kartoqrafik obrazı haqqında düzgün təsəvvür yaratmaq üçün aplikasiyadan da istifadə edilir. Bu priyomun mahiyyəti ondan ibarətdir ki, müəllim qabaqcadan öyrənilən obyektlərin konturlarını rəngli kağızdan kəsir və onları müəyyən fiqurlarla müqayisə edir. Məsələn, Abşeron yarımadası qartal quşunun dimdiyinə bənzəyir, Appenin yarımadası uzunboğaz çəkməni xatırladır...

Belə müqayisələr dəqiq olmasalar da, şagirdlərin müvafiq obyektləri xəritədə tez tapıb möhkəm yadda saxlamalarına kömək edir. Digər aplikasiya vasitələrindən knopka ilə xəritəyə bərkidilən qırmızı bayraqcıqları (keçilən fiziki, iqtisadi, inzibati rayonu ayırmaq üçün), rəngli sapları,

oxları (məsələn, hakim küləklərin istiqamətini və yük daşımaların istiqamətini göstərmək üçün) və s. qeyd etmək olar.

Divar xəritəsində obyektlər göstərilən zaman aşağıdakı qaydalara əməl etmək tələb olunur: göstərici çubuqdan istifadə olunmalı və bu zaman həmin obyektin qarşısı kəsilməməli, üzü işığa doğru durmaq lazımdır, göstərici çubuq coğrafi adın deyil, şərti işarənin üstünə qoyulmalıdır; sahəni kontur üzrə dolanmaq lazımdır, xətti obyektlər isə (yollar, çaylar) onların gedişi boyunca göstərici çubuğun hərəkət etdirmək tələb olunur. Belə bir qaydaya həmişə riayət edilməlidir –«hər nə dedinsə göstərilməlidir göstər, hər nə göstərdinsə adını söylə» tələb olunmalıdır.

Xəritə üzərində tapşırıqlar şagirdlərin müstəqil «tədqiqat»ına əsaslandıqda daha səmərəli olur. Məsələn, şagirdlərə hazır cədvəllər (belə cədvəllər komyuterdə, ümumi lövhədə, ayrıca vərəq üzərində və s. ola bilər) verilir və onlar verilən tapşırığa müvafiq fəaliyyət göstərir və xəritəni bildiyini əsaslandırır (Cədvəl 22a).

Variant 1. İnzibati rayonları Azərbaycanın təbii rayonlarına görə qruplaşdırın

Cədvəl 22 a

№	Obyektlər	Böyük Qafqaz	Kiçik Qafqaz	Kür Dağarası çökəkliyi	Orta Araz	Lənkəran
1	Gədəbəy		+			
2	Qusar	+				
3	Yardımlı					+
4	Ağcabəd			+		

	i					
5	Şərur				+	
6	Qax	+				
7	Ordubad				+	
8	Lerik					+
9	Salyan			+		
10	Daşkəsən		+			
11	Qubadlı		+			
12	Ucar			+		
13	Astara					+
14	Xaçmaz	+				
15	Saatlı			+		
16	Şuşa		+			
17	Bərdə	+	+			
18	İsmayıllı					
19	Şahbuz				+	
20	Kəlbəcər		+			

Şagirdlər xəritədən istifadə etməklə inzibati rayonları – yerləşdikləri təbii vilayətlərə uyğun qruplaşdırır və işarələr qoyulur. Onlar coğrafiya fənninin ən mühüm problem-

lərindən biri olan fiziki və iqtisadi coğrafiyanın sintezini yaradaraq konstruktiv tədrisə doğru istiqamətlənirlər.

Digər qrup şagirdlərə həmin rayonların digər xüsusiyyətinə görə qruplaşdırmaq tapşırığı verilir. Bu üsulla şagirdlər inzibati və fiziki xəritə üzərində eyni tapşırığı həll etməyə müvəffəq olurlar (cədvəl 22 b).

Variant 2. İnzibati rayonları yerləşdiyi ərazinin relyefinə görə qruplaşdırın:

Cədvəl 22 b

№	İnzibati rayonlar	Dağlıq	Düzənlik
1	Gədəbəy	+	
2	Qusar	+	
3	Yardımlı	+	
4	Ağcabədi		+
5	Şərur	+	
6	Qax	+	
7	Ordubad		+
8	Lerik	+	
9	Salyan		+
10	Daşkəsən	+	
11	Qubadlı	+	
12	Ucar		+
13	Astara		+
14	Xaçmaz	+	
15	Hacıqabul		+
16	Xocavənd	+	
17	Bərdə		+
18	İsmayıllı	+	
19	Şahbuz	+	

Şagirdlər Azərbaycanın sərhədlərində yerləşən obyektlər və ya inzibati rayonları da yuxarıda təqdim olunan metodla öyrənə bilərlər.

Hər hansı, xüsusilə Azərbaycan Respublikasının sərhədlərinin dəqiq öyrənilməsi vətənpərvərlik, diyarşünaslıq tərbiyəsi olmaqla yanaşı həm də proqram tələbidir. Aşağıda verilmiş variantda dövlət sərhədlərinin öyrənilməsi asan və olduqca az vaxt tələb edir.(Cədvəl 22 c).

Variant 3. Obyekt və ya inzibati rayonların sərhədlərini aşağıdakı sxemə görə qruplaşdırın:

Cədvəl 22 c

	Coğrafi obyektlər	Sərhəd ölkələri				
		İran	Rusiya Federasiyası	Ermənistan	Gürcüstan	Türkiyə
	Sudur silsiləsi		+			
	Araz çayı					
	Talış dağları					
	Baş Suayrıcı		+		+	
	Mazımçay					
	Dərələyəz			+		+
	Şah dağ					
	Qanıx çay				+	
	Astara çay					
	Samur çay		+			
	Qabırrı çay				+	
	Samur-		+			

	Dəvəçi					
	Lənkəran ovalığı					
	Zəngəzur			+		
	Ceyrançöl			+	+	

"Azərbaycan relyefin" mövzusunu öyrənərkən müxtəlif istiqamətli metodlar tətbiq etmək mümkündür.

Variant 4. Relyef formalarını qruplaşdırın:

1.Qapıcıq; 2.Talış; 3.Ələt; 4.Tufandağ; 5. Ləngəbiz; 6.Ceyrançöl 7.Şirvan; 8.Burovar; 9.Zod; 10.Bazaryurd; 11.Salavat; 12.Xunam; 13.Mil; 14.Murov; 15.Camış; 16.Muğan; 17.Böyük Kirs; 18.Peştəsər; 19.Daşüz; 20.Qızyurdu; 21.Murquz; 22.Ağsu; 23.İncə; 24.Dübrar; 25.Sudur və s.

Şagirdlər verilmiş relyef adlarını müxtəlif variantlarda «tədqiq» edə bilərlər. İlk növbədə onlar təqdim olunmuş adları hansı coğrafi obyekt olduğuna görə qruplaşdırırlar:

a) Silsilə - 2,3,5,8,14,18,19,21,25.

b) Zirvə - 1,4,10,15,17,20,24.

c) Düzənlik – 7,12,13,16,23.

d) Aşırım – 9,11,22.

Digər variantda həmin relyef formaları aşağıdakı kimi qruplaşdırıla bilər. Bu variantda şagirdlər daha mükəmməl işləmək qabiliyyəti əldə edirlər (Cədvəl 22 d).

Şagirdlərin digər qrupu təqdim olunan coğrafi toponimləri adlarının mənasının şəffaf, yarmşəffaf və ya qeyri-şəffaf olmasına görə qruplaşdıra bilər.

"Azərbaycan Respublikasının faydalı qazıntıları" mövzusunun tədrisində şərti işarələr və mineral yataqlarının sintezini yaratmaqla coğrafi bilikləri möhkəmləndirmək mümkündür.

Cədvəl 22d

Təbii rayonlar	Coğrafi obyektlər
Böyük Qafqaz	3,4,5, 10,11,19,24,25
Kiçik Qafqaz	9,14,15, 17,21,22,23
Kür-Araz	6,7,12,13,16,19,
Lənkəran	2,8,20
Orta Araz	1

Variant 5. Faydalı qazıntı işarələri və mineral ehtiyatların yataqlarını əlaqələndirin.

1.Vecnəli;	6. Löhçay;	11.Qaradağ;
2.Gədəbəy;	7. Gürgan;	12. Azəri;
3.Çıraq;	8. Filizçay;	13. Zəylik;
4.Nehrəm;	9. Mehman;	14. Masazır
5. Daşkəsən;	10. Ağyataq;	15. Kəlbəcər

Göründüyü kimi mineral yataq adları şagirdlərin xəritə üzərində təhlilindən sonra faydalı qazıntı işarələrinə əsasən qruplaşdırılır. Bu yataqlar yerləşdiyi inzibati, iqtisadi və təbii rayonlar üzrə qruplaşdırıla bilər.

"Azərbaycan çayları" mövzusunun tədrisində yeni interaktiv metodların tətbiq edilməsində imkanlar böyükdür. Şagirdlər qrup, cütlər, fərdi formada verilən tapşırığı variantlar üzrə həll edə bilirlər. Belə tapşırıqlar kompyuter texnologiyası ilə də təklif oluna bilər.Lakin əsasən təlimin texniki vəsaitlərinin köməyilə nümayiş

etdirilən coğrafi adları xəritə üzərində təhlil edərkən qruplaşdırır. Bunun üçün ilk növbədə ən mühüm çay adları xüsusi vərəqdə yazılır.

Variant 6.

1.Samur 2.Ağstafa 3.Viləş 4.Xaçın 5.Arpaçay 6.Kür 7.Qudyal 8.Qanıx 9.Ata 10.Bolqar 11.Əyriçay 12.Köndələn 13.Dəmiraparan 14.Qusar 15.Qabırrı 16.Vəlvələ 17.Pirsaat 18.Astara 19. Ceyrankeçməz 20.Tərtər 21.Araz 22.Həkəri 23.Zəyəm 24.Ağsu 25.Lənkəran 26.Katexçay 27.Tovuz 28.Qarqar 29.Girdiman 30.Bərgüşad 31.Kiş 32.Şin 33.Türyan 34.Göyçay 35.Talaçay 36.Əlican 37.Əlincə 38.Gilan 39.Bazarçay 40.Kürəkçay.

Çaylar müxtəlif xüsusiyyətlərinə görə qruplaşdırırlar:

Variant 6.a. Çayları mənsəbinə görə qruplaşdırın:

Okean səviyyəsindən yuxarıda yerləşən	Okean səviyyəsindən aşağıda yerləşən

Varinat 6.b. Axın rejiminə görə çayları qruplaşdırın:

Daimi axara malik çaylar	Quruyan çaylar

Variant 6.c. Töküldüyü hövzəyə görə çayları qruplaşdırın:

Mənsəb	Çaylar
Xəzərə birbaşa tökülən çaylar	

Kür çayına tökülən çaylar	sağ	
	sol	
Araz çayına tökülən çaylar		
Heç bir hövzəyə tökülməyən çaylar		

Variant 6. d. Axın surətinə görə çayları qruplaşdırın:

Sakit axan çaylar	Sürətlə axan çaylar

Variant 6.e. Qidalanmasına görə çayları qruplaşdırın:

Qida mənbəyi	Çaylar
Yağış suları ilə	
Qar suları ilə	
Buzlaqların ərinti suları ilə	
Yeraltı sularla	


Variant 6.f. Formalaşmasına görə çayları qruplaşdırın:

Tranzit çaylar	Respublikada formalaşan çaylar

Variant 6.k. İstifadəsinə görə çayları qruplaşdırın:

Təsərrüfat əhəmiyyəti	Çaylar
Suvarma	
Elektrik enerjisi	
Gəmiçilik	
İstifadəsiz	

Variant 6.t. Krassovord. Hərflərin yerini elə dəyişin ki, çay adları yaransın:



Coğrafiyanın tədrisində xəritə üzərində praktik metodlardan düzgün istifadə edilməsi formalizmi aradan qaldırır, şagirdlər aldıqları bilikləri müxtəlif sahələrə tətbiq etməklə real nəticələr əldə edirlər. Bu cəhətin nəzərə alınmasının faydası onun təlim əhəmiyyəti ilə məhdudlaşmır, həm də şagirdlərin xarakterinə güclü təsir göstərir. Onlar müstəqil idraki qabiliyyətə malik olan, nəzəri bilikləri praktik məsələlərə tətbiq edən və müstəqil surətdə öyrənməyi bacaran, yaradıcı biliyə malik olan və s. yüksək şəxsi keyfiyyətlərə yiyələnirlər.Xəritə üzərində aparılan praktik işlər maraq və məsuliyyətlə yerinə yetirildiyi təqdirdə fənnin şüurlu mənimsənilməsi yüksəlir və şagirdlərdə yaradıcı və tənqidi təfəkkür inkişaf edir. Sadalananlar onu deməyə əsas verir ki, tədris prosesinin çox mühüm hissəsi xəritə üzərində

praktik işlərə ayrılmalı və bu metodlar müəllimin dərsin gedişində qarşıya qoyduğu məqsədin (xüsusilə inkişafetdirici məqsəd) əsas tərkib hissəsi olmalıdır. Praktik fəaliyyət dərs prosesində, sinifdənxaric və məktəbdənkənar tədbirlərdə şagirdlərin şəxsi yaradıcılığına çevrilməlidir.

Müəllimlərin bir qrupu isə yalnız kartoqrafik təsvir vasitələrindən istifadəyə (kontur xəritələrin rənglənməsinə) həddindən çox yer ayırır, şagirdlərin dayaq biliklərini nəzərə almırlar, nəticədə praktik metodların didaktik dəyəri öz əhəmiyyətini itirir. Coğrafiyanın tədrisindəki bu çatışmazlığın əsas səbəbi , son illər bu problemlə bağlı sanballı qəzet, jurnal məqaləsi, kitab, metodik tövsiyyə, vəsait və s. nəşr olunmayıb, problemlə əlaqədar sistemli elmi axtarışları dərin tədqiqat işləri aparılmayıb.

Xəritə üzərində coğrafi adların öyrənilməsinin digər növləri də mövcuddur.

Variant 6 r. Digər didaktik oyun xarakterli krassvord mürəkkəb pisoxoloji- pedoqoji əhəmiyyətə malikdir. Məsələn, aşağıda verilmiş kriptoqramda verilmiş çin atalar sözünün tapılmasına yönəlmişdir.

Göründüyü kimi bu metodun tətbiq edilməsindən məqsəd fənnlərarası əlaqədir.

1	2	3	4	5	6	7	8	9	10
m	ə	n	e	ş	i	d	u	r	a
11	12	13	14	15	16	17	18	19	20
g	ı	y	s	x	i	ı	z	ü	k

Kriptoqramın tələblərinə görə 20 (istənilən qədər ola bilər) xanada yazılmış hərflər əsasnda hər hansı coğrafi fikir və ya digər ifadə verilir. Daha maraqlı olsun deyə sual da verilə bilər. Əsas məqsəd şagirdlərin axtarmış bacarığını inkişaf

etdirməkdir. Verilən nümunədə kriptoqramın açılışı aşağıdakı kimidir: **«Mən eşidəndə unuduram, Görəndə yadda saxlayıram, Özüm yaradanda dərk edirəm. »**

1	2	3					
4	5	6	7	2	3	7	2
8	3	8	7	8	9	10	1
11	12	9	2	3	7	2	
13	10	7	7	10			

14	10	15	16	10	13	17	9	10	1
12	18	19	1						
13	10	9	10	7	10	3	7	10	
7	2	9	20						
4	7	6	9	2	1				

Suallar

1. Kürün sağ sahilində düz: 1-6-16
2. Ən uzun çay: 20-19-9
3. Ovalıq, şəhər: 16-2-3-20-2-9-10-3
4. Göl: 11-12-13-11-12-16
5. Bakıda rayon: 14-8-9-10-15-10-3-17
6. Cənub rayonu: 16-4-9-6-20
7. Silsilə: 7-10-5-19-18
8. Rayon: 15-17-18-17

Düzgün cavablar

1. Mil
2. Kür
3. Lənkəran
4. Göygöl
5. Suraxanı
6. Lerik
7. Daşüz
8. Xızı

Variant 7.

A) Beşlikdən kənar olanı seçin:

1. Qudyal

Variant 7

A) Beşlikdən kənar olanı seçin:

1.Qudyal 4.Araz

2. Viləş 5.Samur

3. Kür 6. Astara

Bu nümunədə şagird Araz çayını seçir, çünkü o birbaşa Xəzərə tökülmür.

B) 1. Qazax 4. Zərdab

2. Bərdə 5. İmişli

3. Ağcabədi 6. Saatlı

"Beşlikdən kənar olanı seçin" sualında şagird Zərdab rayonu seçir. Çünkü Zərdab Kür çayının sol sahilində, digər rayonlar isə sağ sahilində yerləşir. Göründüyü kimi belə tip çalışmalarda güclü məntiq və dəqiq xəritə biliyi tələb olunur.

C)"Çatışmayanı müəyyən edin" xaraterli tapşırıqlar isə şagirddən daha dəqiq coğrafi bilik tələb edir.

c) 1. Quton

2. Şahdili

3.Candar göl

4.----------

Nümunədə çatışmayan coğrafi ad "Astara çay" olmalıdır. Çünki digər coğrafi adlar Azərbaycanın ucqar nöqtələrini əks etdirir.

Azərbaycanda sosial-iqtisadi və mənəvi siyasi həyatında baş verən yeniliklər, tədris ləvazimatlarında özünü göstərir. Əyani vəsaitlərin keyfiyyətinin artırılması hazırda önəmli vəzifələrdən biridir. Bu baxımdan yeni tipli xəritələr istehsal olunur ki, onların istifadəsi müəllim və

şagirdlərdən yeni bacarıqlar tələb edir. Real əyaniliyini artırılması üçün aşağıdakı xəritələr mövcuddur:

1.Fizioqrafik – ayrı-ayrı obyektlərin şəkilləri konturların planlı təsviri ilə birgə keçilir, relyefin həqiqi yayılma sərhədləri çəkilir.

2. Panoramlı xəritələr – təsvir elə qurulur ki, məhəll planda deyil yandan və yuxarıdan görünür.

3. Anaqrafik xəritələr – mavi-qırmızı eynəklərdən istifadə etməklə görünür. Bu zaman əmələ gələn stereoskopik görünüş effekti məhəllin relyefinin plastikasını verən həcmli təsvir yaradır.

4. Relyefli xəritə-müvafiq ərazinin relyefinin həcmli modulu olub, ərazi haqqında real təsəvvür yaradır.

Kontur xəritələr üzərində iş. Şagirdlərin sinifdə və evdə çalışmalarını təşkil etmək və onların biliklərini yoxlayıb qiymətləndirmək məqsədilə kontur xəritələrdən geniş istifadə edilir. Kontur xəritələr tək-tək vərəqələr halında və bəzən isə ayrı-ayrı siniflər üçün kompleks halda nəşr olunur. Onların məzmunu siniflər üzrə dərsliklərin və atlasların məzmununa.

Şagirdlər kontur xəritələr üzərində işləri sinifdə müəllim tərəfindən yeni materialların şərhi, praktik məşğələlərdə yeni biliklərin möhkəmləndirilməsi və yoxlanılması zamanı, habelə ev tapşırıqlarını icra edərkən yerinə yetirirlər. Əksər hallarda şagirdlər stolüstü xəritəyə əsasən müvafiq obyektlərin yerlərini kontur xəritədə tapıb qeyd edir və adlarını yazırlar.

Bu xəritələrdə öyrənilən bölmələrə, mövzulara və yarımmövzulara aid bir sıra obyektlər qeyd edilmişdir. Şagirdlərin əsas vəzifəsi kontur xəritələrdə tələb olunan obyektlərin yerini, konturunu və şərti işarəsini düzgün tapıb adi karandaşla qeyd edərək yazmaqdan ibarətdir. Şagirdlər adları düzgün yazmaq vərdişi əldə etdikdən sonra kontur xəritədəki bütün yazıları (xırda çap şriftləri ilə, aydın və

səliqəli) birbaşa mürəkkəblə yazmaq olar. Hər bir kontur xəritənin sağ tərəfində, yuxarı küncündə şagird öz soyadını, sinfini, sol küncündə isə hazırlanacaq xəritənin adını yazır. Kontur xəritə üzrə iş icra edilən ilk tapşırıqlar hər bir sinifdə bir qayda olaraq müəllimin bilavasitə rəhbərliyi və müşahidəsi altında yerinə yetirilir. Sinifdə işin icrasına 10-15 dəqiqə vaxt vermək kifayətdir. Şagirdlərin müstəqilliyi artdıqca kontur xəritə üzrə aparılan işlərin məzmununu, formasını zənginləşdirmək, tərtibata (rənglərdən, şərti işarələrəndən istifadə) və s. olan tələbatı artırmaq zəruridir.

Coğrafi obyektlərin adlarının və xəritədəki yerlərin adlarının yadda möhkəm qalmasının təmin olunmasında, obyekt və hadisələrin məkanda tutduğu mövqeyinin düzgün qavranılmasında kontur xəritələrin rolu böyükdür. Coğrafi adların düzgün yazılış və tələffüz edilməsinin təmin olunmasında da bunlarla aparılan iş olduqca əhəmiyyətlidir. Adətən kontur xəritələrdən dərsin möhkəmləndirilməsi mərhələsində istifadə edilir.

Kontur xəritələrdən istifadənin dərslərə tətbiq edilməsi müəllimə imkan verir ki, şagirdlərin hamısını işə cəlb etsin və öyrənilən materialın daha dəqiq, möhkəm və şüurlu surətdə mənimsənilməsinə nail olunsun. Məlumdur ki, bir sıra coğrafi adların ifadəsi, yazılışı şagirdlər üçün çətinlik yaradır. Buna görə də, mövzunun izahı zamanı bir qayda olaraq coğrafiya müəllimlərinin əksəriyyəti həmin adları yazı taxtasına yazır, şagirdlərə isə coğrafiya dəftərlərinə köçürtdürürlər. Halbuki, belə adları kontur xəritənin həmin obyektlər olan yerində yazmaq daha düzgündür. Eyni zamanda yeni dərsin izahı zamanı şagirdlər kontur xəritələrdə digər qeydlər də aparırlar: dağların adlarını, zirvələrini, onların hündürlüklərini, digər obyektlərin ucqar nöqtələrinin adlarını, koordinatlarını, sahəsini, şimaldan cənuba və şərqdən qərbə olan uzunluqları və s. məlumatlar

da yazılır. Belə olduqda kontur xəritə bir növ əlavə məlumat sorğu mənbəyinə çevrilir. Nəhayət kontur xəritələrlə aparılan və getdikcə mürəkkəbləşən işlər şagirdləri sadə xəritələr tərtib etməyə alışdırır.

Kontur xəritə üzərində hər dəfə, yeni iş başlayanda müəllim şərti işarələri, onların tərtibi və yazılma qaydalarını izah edir. Sonra sinifdə bir neçə nümunə çalışma yerinə yetirilir. Kontur xəritə ilə yeni iş qaydası mənimsənildikdən sonra onun üzərində şagirdlər frontal işə cəlb edilir və görülən işlər əsasında onlara ev tapşırığı verilir.

Kartoqrafik təsvirlər – plan, xəritə, atlas, qlobus, profil və s şagirdlərin dərk etməsi üçün, onlara hər şeydən əvvəl kartoqrafik təsvirin dili, şərti işarələri, riyazi əsası (miqyas, koordinat sistemləri, planalma, kartoqrafik və kartoqrafik təsvirin üsulları, kartoqrafik generalizasiya (ümumiləşdirmə), plan, xəritə və atlasın əhəmiyyəti haqqında müəyyən bilik vermək lazımdır.

Kartoqrafik təsvirlər ilə tanışlığın ilkin mərhələsi ibtidai siniflərdən başlayır. V sinifdə tədris olunan «Təbiətşünaslıq» kursunda şagirdlərə üfüqün cəhətləri, məhəldə cəhətin təyin olunması yolları; cismin, sinfin, məktəbin məhəllin planı haqqında şagirdlərə şəkillərin və qrafikanın dili ilə ilk sadə məlumatlar verilir. Bu zaman cisimlərin və obyektlərin yandan görünüşü, onların üfüqi proyeksiyası (quşbaxışı təsviri) ilə müqayisə olunur. Bu zaman şagirdlərə aydın olur ki, yandan görünüşə əsasən cisimləri tanımaq çox asandır, lakin bu zaman hündür obyektlər arxadakı obyektləri görməyə mane olur.

VI sinifdə şagirdlər yer üzərində bir sıra ölçmə işləri, cəhət təyini (cisimlərə, kompasa, Günəşə əsasən), üfüqi və şaquli planalma, qlobus və xəritə haqqında; VII sinifdə kartoqrafik proyeksiyalar, xəritədə olan təhriflər, xəritələrin təsnifatı və onlar üzərində iş, X sinifdə kartoqrafik generalizasiya, obyekt və hadisələrin xəritələrdə təsvir

edilmə üsulları, topoqrafik xəritələr və nisbətən geniş məzmunda kartoqrafik proyeksiyalar və s. haqqında məlumat alırlar.

IX sinifdə iqtisadi xəritələr, onlarda obyekt və hadisələrin təsviredilmə üsulları, bu xəritələrdən istifadə edilməsi və s. materiallar öz əsasını tapmışdır.

Göstərilən materialların proqram və dərsliklərə daxil edilməsi təsadüfi deyildir. Belə ki, xəritəni bilmədən və ondan istifadə etməyi bacarmadan coğrafiyanı müvəffəqiyyətlə öyrənmək mümkün deyil. Şagirdlərdə coğrafi dünyagörüşün formalaşması üçün xəritə və atlasların əhəmiyyəti olduqca böyükdür.

Kartoqrafik təsvirin dərk olunmasının əsas mərhələsi fiziki coğrafiyanın «Plan və xəritə» bölməsində verilən anlayışlar ilə başlayır. Çünki kartoqrafik təsvir coğrafiyanın dilidir və hər bir fənnin tədrisi onun dilindən, anlayışlarından, üsullarından başlayır; plan və xəritə ilə tədris işi priyomları coğrafi biliyin əldə edilməsinin ən vacib üsuludur.

Fiziki coğrafiyanın başlanğıc kursunda kartoqrafik təsvirin dərk olunması plan və onunla əlaqədar olan anlayışların –miqyas, planalma (istiqamətlərin və məsafələrin ölçülməsi), istiqamət bucaqları, şərti işarələr və plan üzərində tədris işi priyomlarının formalaşdırılmasından başlayır.

Kartoqrafik təsvirlər üzərində hər hansı praktik işin aparılması ilk növbədə şagirdlərin istifadə olunan kartoqrafik şərti işarələri tanımaqdan, onları tətbiq etməkdən başlayır.

Müəllim şagirdlərin beynində şərti işarələrin təsəvvürünün dolğun əks olunması üçün bir neçə obyektin şərti işarəsi yazılmış vərəqi şagirdlərə paylayır və onlar şərti işarələrin altından haradansa həmin obyektlərin adını yazır və ya əksinə.

«Məhəlldəki nöqtələrin mütləq və nisbi yüksəkliyi», «relyefin horizontlarla təsviri» -mövzusunu keçərkən, müəllim rəngli plakatlardan, relyef modellərindən, lövhədə çəkdiyi şəkillərdən istifadə etməklə relyef, nisbi və mütləq yüksəklik, horizontal anlayışlarını, planda relyefin horizontal və yüksəklik nöqtələri ilə təsviri üsulunu izah edir; ayrı-ayrı relyef formalarının (təpə, tirə, çökəklik, silsilə, dərə və s.) horizontallarla təsvirinə dair nümunələr göstərir; berqştrixin səth sularının axını istiqamətini göstərən xətt olmasını başa salır; səth sularının axını istiqaməti, çay və göllərin relyefdən asılılığına dair sadə nümunələr gətirməyi şagirdlərə təklif edir.

Planın miqyası, şərti işarələri ilə tanışlıqdan sonra, müəllim şagirdlərə aşağıdakı məzmunda tapşırıq verir:

a) təpələrin zirvəsinin yüksəkliyini, göldə və çayda suyun səviyyəsini göstərən rəqəmləri tapıb oxuyun b) planda su obyektlərini tapıb göstərin; c) çayların axın istiqamətini izləyin; d) su obyektlərinə, yüksəklik rəqəmlərinə, horizontlalların üzərindəki rəqəmlərə əsasən məhəllin relyefini təsəvvürünüzdə canlandırın.

Müəllim şagirdlərə atlasda verilmiş məhəllin görünüşünü (rəngli şəklini), fiziki xəritəsini, həmin məhəllin ortasından keçən AB xəttinin profilini və yüksəkliklər və dərinliklər şkalası» nı rənglərinə, rəqəmlərinə və yazılarına görə tutuşdurmağı təklif edir. Sonra şagirdlərə aşağıdakı sualları verir:

1. Məhəllin ümumi görünüşündə (rəngli şəkildə) relyef formalarının adını və sağ tərəfdəki şkalada onların mütləq yüksəkliyini göstərən rəqəmləri oxuyun: sahildən başlayaraq zirvəyə doğru getdikcə relyef formalarının növbələşməsini və onların rənglərinin dəyişməsini diqqətlə nəzərdən keçirin.

2. Məhəllin görünüşünü onun aşağısındakı fiziki xəritədə tapın.

3. Fiziki xəritədə ixtiyari AB xəttini çəkin. Həmin xəttin profilini diqqətlə nəzərdən keçirin, profilin üzərində yazılmış relyef formalarının adını və onların mütləq yüksəkliyini göstərən rəqəmləri oxuyun.

4. Profildə adların oxuduğunuz relyef formasına mütləq yüksəkliyinə və səthinin görünüşünə görə tərif verin. Bunun üçün həm də məhəllin yandan görünüşünə nəzər yetirin. Məs: «mütləq yüksəkliyi dəniz səviyyəsindən 200 m-ə qədər olan düzən ərazidir».

5. Profilin sağ tərəfindəki şaquli şkalada yüksəklikdən və dərinlikdən asılı olaraq qəhvəyi və mavi rənginin tündlüyünün dəyişməsini diqqətlə nəzərdən keçirirn;

6. Profilin və fiziki xəritənin « yüksəkliklər və dərinliklər şkalası»nın rənglərini bir-biri ilə müqayisə edin.

7. Fiziki xəritədə üzərində mütləq yüksəkliyi yazılmış horizontalları tapın.

Bundan sonra müəllim qeyd edir ki, fiziki xəritədə relyef horzontallar və rənglərlə təsvir olunur ki, buna da hipsometrik üsul deyilir.

«Məhəllin planı» mövzusunu keçərkən şagirdlər evdə şərti işarələri dəftərlərində çəkirlər, məhəllin planı üzrə xəyalən səyahətə çıxırlar, topoqrafik planalma üçün yer üzərində aparılan ölçüu işlərinə dair kinofilmlər və tablolara baxırlar.

«Məhəllin planı» üzrə bilik və bacarıqların ümumiləşdirilməsinə həsr olunmuş dərsdə isə müəllim çalışır ki, şagirdlər yəqin etsinlər planda obyektlərin özləri yox, onların yeri, aralarındakı məsafələr eyni dərəcədə kiçildilərək təsvir olunur, obyektlərin məzmunu isə işarələrin dili ilə ümumiləşdirilərək göstərir.

Planalma prosesini həyata keçirərkən müəllim şagirdləri bir sıra coğrafi cihaz və alətlərə - ekker, bussol ,teodolitlə və menzula ilə tanış edir, onlardan istifadə qaydasını başa salır və yerüstü planalma yerinə yetirilir.

Eyni zamanda şagirdlər məhəldə cəhət təyini, plan, miqyas ümumiləşdirmə, üfüqi proyeksiya və s.kimi anlayışları öyrənirlər.

Topoqrafik xəritələrdən istifadə hər hansı ərazini coğrafi cəhətdən öyrənmək üçün istifadəyə yaramır. Belə xəritələrdən istifadə vərdişləri qazanmaqla gənclərin praktiki həyatda, xüsusilə hərbi çağırışa qədərki gənclər üçün hazırlıq məqsədi daşıyır.

Topoqrafik xəritələrə əsasən relyefin horizontallar üzrə oxunması, hündürlüklərin müəyyən edilməsi, yamacların s.meyilliyinin təyin edilməsində istifadə olunur.

Qlobus - coğrafiya tədrisində əsas və zəruri əyani vəsaitlərdən biridir. Fiziki və siyasi qlobuslardan başqa xüsusi tədris qlobusları da vardır:

1.Qara induksiya qlobusları- üzərində xüsusi marketlə yazmaq mümkündür.

Dərəcə toru, coğrafi koordinatları öyrənərkən-qara induksiya qlobuslarından istifadə olunur. Çünki, şagirdlər, onun üzərində paralel meridianları çəkir, nöqtələri coğrafi koordinatlarına uyğun yaza bilir.

2. Proyeksiya qlobusları – meridian və paralelləri aydın seçilir. Şüşə və ya məftildən düzəldilir. Dərəcə torunun elementlərini kürədən müstəviyə açmaq məqsədi ilə nümayiş etdirilir.

3. Relyefli qlobuslar – xüsusi sənaye üsulu ilə hazırlanmış, relyefin əyani surətdə təsvir edildiyi qlobuslardır. Relyeflə olan hündürlükləri şaquli miqyas ilə təsvir olunur. Onun çökəklikləri, materik qalxmaları, relyefin quruluşunu tədrisində istifadə olunur.

Sadalanan qlobus növləri tədris vəsaiti əhəmiyyətli olsa da, hazırki dövrdə onların sayı çox azdır. Lakin, məktəb qlobusu kimi tanınan fiziki qlobuslardan istifadə geniş yayılmışdır.

Belə qlobuslar miqyasına görə üç ölçüdə buraxılır: 1:30000000 (diametri 42 sm), 1:50000000 (diametri 25,55 sm) və 1:83000000 (diametri 15,5 sm).

Məktəb qlobusları özünəməxsus xüsusiyyətləri ilə tədris prosesinin səviyyəsinə müsbət təsir edir.

1.Qlobus səthində bütün istiqamətlər üzrə miqyas eyni qalır, yəni dəyişmir. Buna uzunluq miqyası deyilir. Bu xüsusiyyət Yer səthində hər hansı 2 nöqtə arasındakı məsafəni qlobus üzrə tez və düzgün təyin etməyə imkan verir.

2. Qlobus səthində təsvir edilən hər bir coğrafi obyektin sahəsi öz ölçülərini saxlayır, yəni uzunluqda olduğu kimi, burada da sahələr təhrif olunmur. Xəritələrdə isə belə təhriflər hökmən olmalıdır. Qlobusun bu 2-ci xüsusiyyəti əslində birincidən meydana gəlir.

3. Qlobus səthində bütün istiqamətlər arasındakı bucaqlar Yer səthindəki həmin istiqamətlər arasındakı bucaqlara bərabərdir, yəni qlobus səthində bucaqlar təhrif edilmir.

4. Qlobus səthində təsvir edilən hər bir obyekt eonformdur. Yəni onlar Yer səthindəki öz həqiqi formalarına oxşardır.

Deməli, qlobus səthində təsvir edilən coğrafi obyektlər (materiklər, okeanlar, dənizlər, çaylar və s.) öz coğrafi vəziyyətinə, ölçülərinə və formasına görə düzgün göstərilir. Bu deyilənlərə görə qlobusu Yerin modeli hesab edə bilərik.

«Qlobusda və xəritədə dərəcə toru» dərsində müəllim yarımkürələr və dünyanın xəritələri ilə qlobusu – daha doğrusu onların dərəcə torunu müqayisə edir. Müqayisə müəllimin aşağıdakı giriş söhbətindən başlayır. Qlobus üç ölçülü (həcmli), xəritə isə iki ölçülü (müstəvi) təsvirdir. Meridian və paralellərin qlobusda əmələ gətirdiyi şəbəkəyə coğrafi şəbəkə, xəritədə əmələ gətirdiyi şəbəkəyə isə kartoqrafik şəbəkə deyilir. Bundan sonra müəllim üzərində materiklərin konturu, meridian, paralellər çəkilmiş çıxıntılı

topuilimlər (zolaqlar) və sıralar üzrə müstəviyə açır, onların arasında qalan boşluqları dartıb doldurur. Sonra müəllim şagirdlərin diqqətini qlobusda meridianların uzunluqlarının eyni, yarımkürələr xəritəsində isə müxtəlif olması, qlobusda eyni paralellər arasında qalan zolaqlar üzrə trapesiyaların sahələrinin bərabər, xəritələrdə isə qeyri-bərabər olması faktına yönəldir.

Bu zaman müəllim qeyd edir ki, əgər qlobus Yerin təhrifsiz təsviridirsə, xəritə təhrifli təsvirdir.

Qlobus səthində bir neçə mühüm nöqtə və xətt vardır ki, onlar haqqında şagirdlərdə təsəvvür yaratmaq lazımdır; Yerin qütbləri yaxud coğrafi qütblər, meridianlar, ekvator, paralellər, tropiklər, qütb dairələri kimi anlayışları izah edir.

COĞRAFİYA ATLASI

Kartoqrafik təsvir vasitələrindən olan məktəb coğrafiya atlaslarının məzmununu əsasən ayrı-ayrı siniflər üçün coğrafiya proqramları və dərsliklərin məzmunu ilə müəyyən edilir. Atlaslar sinifdə, evdə şagirdlərin sərbəst işləmələri üçün əsas vəsait sayılır. Məktəb coğrafiya xəritələri qarşısında qoyulan metodik tələblər məktəb atlasına da aiddir. Məktəb atlaslarında xəritələrdən əlavə bir sıra cədvəl, qrafik, diaqram və bəzi şəkillər də verilir. Atlasda olan bütün xəritə və əlavə materialların yerləşməsi coğrafiya dərsliklərindəki materialların ardıcıllığına və metodik tələbata uyğun olur.

Məktəb atlasında olan bütün xəritələr bir-biri ilə uyğunlaşdırılır. Belə ki, hər bir obyekt və hadisənin şərti işarələri atlasın bütün xəritələri üçün eyni olmalı, atlasın müxtəlif xəritələrində təkrar olunan eyni məzmunlu ərazi bir qaydada təsvir edilməli, eyni coğrafi obyektlərin adları bir cür yazılmalıdır və s.

Məktəb atlasları kompleks olur; yanlarda həm ümumi coğrafi, həm də müxtəlif xüsusi xəritələr verilir.

Məktəb atlaslarının strukturu adətən 3 bölmədən ibarət olur:

1.Giriş bölməsi –burada şəkillər, cədvəllər, şərti işarələr, kartoqrafik təsvirin üsulları və s.verilir.

2. Xəritələr bölməsi – burada istifadə üçün əlverişli formatda tərtib edilmiş xəritələr verilir.

3. Məlumat bölməsi –statistik məlumatlar verilir.

Azərbaycan Respublikasında məktəb xəritələri və atlasları Bakı Xəritəçəkmə fabrikində hazırlanır. Hazırda bu müəssisədə «Yarımkürələrin fiziki xəritəsi», «Dünyanın siyasi xəritəsi», «Coğrafi qurşaqlar», « Yer qabığını quruluşu», «Dünyanın iqlim qurşaqları» (1:22000000 miqyasda), Azərbaycan Respublikasının oroqrafik, fiziki, iqlim tipləri, torpaq örtüyü, landşaft və s (1:600000) xəritələri nəşr olunur.Coğrafiya atlaslarının hazırlanmasında sistemsizlik mövcuddur. Belə ki, hələlik yalnız 6,7,8 və 9 –cu siniflər üçün atlaslar nəşr edilmişdir.

7.4.Coğrafiya tədrisində kompyuter texnologiyasının tətbiqi

Müasir cəmiyyətin bütün sahələri informasiyalaşma prosesi ilə sıx surətdə bağlıdır. Kompyuter texnologiyalarının bütün sahələrdə tətbiqi baş verməkdə olub, ən maraqlı xüsusiyyətlərdən biri yeni informasiyalaşdırma texnologiyalarının təhsil sisitemində tətbiqidir.

Hal-hazırda tədrisin kompyuterləşdirilməsi prosesində iki istiqamət mövcuddur:

Birinci istiqamət- bilik, vərdiş və bacarıqların mənimsənilməsini nəzərdə tutur. Onlar müxtəlif tapşırıqları yerinə yetirəndə kompyuterdən uğurla istifadə etməyə imkan verir, yəni başqa cür ifadə edilərsə, kompyuter savadının aşılanmasını nəzərdə tutur.

İkinci istiqamət – kompyuter texnologiyalarını tədrisin səmərəsini artıra bilən qüdrətli tədris vasitəsi hesab edilməsidir. Bu halda kompyuterləri və bir sıra tədris proqramlarını tədrisin universal vasitələri adlandırmaq olar. Çünki, komputerdə icra olunan iş şagirdlərdə böyük maraq doğurur və onların motivasiyalarını artırır. Kompyuter texnologiyasından istifadə etmək əvvəllər əlçatmaz görünən yeni geniş informasiya mənbələrinə "qapılar açır", informasiya mənbələri ilə "dialoq" qurmağa imkanlar yaradır.

Göründüyü kimi kompyuter informasiyalarının işlənməsi, saxlanması və təqdimatına xidmət edən bir universal vasitə kimi təhsil sisteminə daxil olmuşdur. Sürətlə genişlənən informasiya axını yeni materialların dərk edilməsi üçün müxtəlif metodlar tələb edir, onun təqdimatı üçün sürətli və səmərəli üsullar axtarır.

Coğrafiya fənninin tədrisində «Microsoft Office»-dən tədris metodiki kompleksi kimi istifadə edirlər. Onun tərkibinə: coğrafiya dərsliyi, elektron multimedia nəşri, müəllim üçün metodik vəsait, şagird üçün iş dəftəri və s.daxildir.

Rənglərin, multiplikasiyaların, musiqinin, səslənən nitqin, dinamik modellərin və s. nin bir-birilə birləşməsi tədris informasiyası haqqında təsəvvürləri genişləndirir Eyni zamanda nümayiş edilən əyani vasitələrin böyük bir qismi (divarda asılan plakatlar, şəkillər, xəritələr, slaydlar, videofraqmentlər, animasion sxemlər və s.) rəqəmsal variantda (yeri və ya müəllimin dərsə hazırlığı vaxtını qənaət məqsədilə) saxlamaq olur, və yaxud lazım gəldikdə ekrana çıxarmaq olur. kompyuterlərin tədris prosesində tətbiqi məktəblilərin dərketmə fəaliyyətini idarə etməyə imkan yaradır. Bu halda tədris prosesi fərdi model əsasında qurulur, yəni fərdi bilik və bacarıqların, mürəkkəblik səviyyəsi, maraqları və s. nəzərə alınaraq qurulur. Əsas

informasiya sahəsi slaydlar, video – audio materiallarla, canlı əyaniliklə doldurulur.

Coğrafiya dərslərində interaktiv və audio-vizual vasitələr dərsin müxtəlif mərhələlərində tətbiq olunur.

- **yeni materialın təqdim edilməsində** –hazırlanan mövzular ekranda və ya monitorda nümayiş etdirilir. Kompyuter mühazirəsinin əsas vəzifəsi də mühazirənin əsas vəzifəsi kimi –yəni yeni materialın izahıdır.

Lakin ənənəvi mühazirədən fərqli olaraq, kompyuter mühazirəsinin daha geniş imkanları vardır. Buna görə də kompyuter mühazirəsi yeni, əvvəllər mövcud olmamış bir vasitə kimi hesab olunur. Coğrafiya müəllimləri ondan əyani və dərslərin informasiya bolluğunu təmin edən bir vəsait kimi istifadə edir. Kompyuter mühazirəsi zamanı nümayiş etdirilən informasiya obyektləri təsvirlərdən (slaydlardan), səs və videogörüntülərdən ibarət olur. Öyrənilən bir sıra coğrafi obyektlər, o cümlədən düzənliklər və dağ silsilələri, dənizlər və okeanlar, nəhəng sənaye müəssisələri və geniş kənd təsərrüfatı sahələri öyrənicilərə bir başa göstərilə bilməz. Buna görə də dərslərdə nümayiş etdirilən vasitələr (slaydlar, xəritələr, canlı görüntülər, videoyazılar) uşaqlarda obrazlı təsəvvürlərin formalaşdırılmasına kömək edir və onların əsasında yeni anlayışlar yaranır. Həm də slaydlarla, xəritələrlə və başqa əyani materiallarla işin səmərəsi daha böyük olur. Onların sxem, cədvəl və s. əlavə olunarsa, həmin səmərə daha güclü olar. Təqdimatların «Power Point» və «Microsoft Office» tərkibində işlənib hazırlanması dərsə daha yaxşı hazırlaşmağa imkan yaradır. Bu zaman müxtəlif əyani vasitələri kombinə etmək, hər birinin üstün cəhətlərindən maksimum istifadə etmək və qüsurların üzə çıxarmaq tələb olunur. «Excel» elektron cədvəllri dərsə hazırlaşmaqda kömək edir, onun sayəsində son statistik məlumatlar əsasında iqlim diaqramları, kartoqram və kartodiaqramlar qurmaq və onlardan yeni materialın izah edərkən istifadə

edilə bilər. Bu, coğrafiya müəllimləri üçün çox əhəmiyyətlidir. Çünki, kompyuter texnologiyalarının tətbiqi ilə mülahizələrə bir yığın əyani vəsaitlərin daşınmasına ehtiyac qalmır.

- **sərbəst işlərin təşkilində**. Kompyuterlə sərbəst iş informatika və coğrafiya üzrə inteqrativ dərslərdə təşkil olunur. Həmin dərslərdə şagirdlər proqram üzrə, praktiki işləri bilavasitə kompyuterdə yerinə yetirirlər. Excel elektron cədvəlləri diaqrama və kardioqramları qurmağa praktik işi təşkil etməyə kömək edir. Bu halda diaqram və kartodiaqramlar yalnız əyani vəsaitlərin deyil, həm də coğrafi biliklərin mənbəyi funksiyasını yerinə yetirirlər. Dərsdə tədris işinin təşkilinin ən geniş yayılmış formalarından biri, şagirdlərin müstəqil fərdi işinin təşkilidir. Bu, şagirdlərin bilik və vərdişlərinin təkmilləşdirilməsində, yaradıcılıq fəaliyyətinin inkişaf etdirilməsində çox önəmlidir. Bu məruzələrin hazırlanması qrafiklərin, diaqramların, məlumatların, təqdimatların tərtibindən ibarətdir.

Son on illikdə tədris fəaliyyətinin fərdi formasınnın təşkili coğrafiya dərslərində daha geniş vüsət almışdır. Lakin, məntiqi, tənqidi və yaradıcı təfəkkür tələb edən problemli çalışmaların sayı reproduktiv çalışmaların sayı ilə müqayisədə bio o qədər də çox deyil. Bu qüsurui «Microsoft Word 2007 mətn redaktoru» aradan qaldırmağa kömək edir.

- **keçmiş materialın möhkəmləndirilməsi** üçün mətnlərdən, praktik çalışmalardan, müxtəlif səviyyəli suallardan, yaradıcı işlərdən istifadə edilir. Müxtəlif istiqamətli test tapşırıqlarının köməyi ilə keçilmiş mövzuların təkrarlanması və möhkəmləndirilməsi proseslərin uğurla həyata keçirmək mümkündür.

-dərslərə hazırlaşma prosesində çox vaxt tədris-metodiki sənədlər· (tematik və dərs planları) və sorğu vərəqləri (çalışma açıqcaları, yoxlama testlər, kross'vordlar və s.)

hazırlanır. «Microsoft Word 2007» köməyi ilə bu iş tez və heç bir səhv olmadan yerinə yetirilir, sənədlər keyfiyyətli şəkildə tərtib edilir. Paylanan materialın yüksək estetik tələblərə cavab verməsi tədris prosesinə yalnız müsbət təsir edə bilər.

Coğrafiya fənninin tədrisində kompyuter texnologiyasının tətbiqi .göründüyü kimi müxtəlif istiqamətlərdə aparılır(Sxem 38).

Multimedia dərslikləri əsasən iki vəzifəni yerinə yetirir:

Mətn – elektron tədris vəsaitinin ayrılmaz hissəsidir. Tədris vəsaiti bu və ya digər mövzu üzrə əyani və anlaşılan formada təsəvvür yaradaraq onun məzmununun başlıca elementlərini qabardir. Tədris məzmununu əyani və ifadəli şəkildə, şəkillər, animasiyalar, videofraqmentlər, hipermətn (diktor mətn) vasitəsilə tanış olmaq mümkündür.


Annotasiya- Bu tədqiqat işi məktəbdə coğrafiyanın öyrənilməsində kompyuter texnologiyalarının tətbiqi məsələlərinə həsr olunur. Müxtəlif media texnologiyalarının üstünlükləri və imkanları kifayət qədər müfəssəl təsvir olunmuşlar. Multimedianın təhsil prosesində tətbiqi qüsurları xüsusilə diqqətlə araşdırılmışdır. Virtual xəritələrlə, coğrafi təsvirlərlə və animasiyalarla əsas iş metodları təsvir edilmişdir. Məktəbdə coğrafiyanın tədrisi prosesinin optimallaşdırılması məqsədilə novator ideyalarını tövsiyə etmək olar:

- IMAX coğrafiyasının tədrisində yeni IMAX texnologiyası bütün cəmiyyətin fəal köməyi vasitəsilə həyata keçirilən nəhəng proqramdır.

- IMAX dünyada böyük format halında xüsusi məkanlarda təqdim edilən ən müvəffəqiyyətli film izləmə sistemidir. Bəzi mənfi xüsusiyyətləri də vardır. Məsələn, IMAX çəkilişi edən kameralar çoxdur.

Multimedia dərsliklərinin coğrafiyanın tədrisində tətbiqinin əsas istiqamətləri

Sxem 38



- IMAX təhsilin məqsədi təhsil sisteminin davamlı inkişafını təmin edən mexanizmin yaradılmasıdır. Həmin məqsədləri həyata keçirmək üçün qarşılıqlı şəkildə bir-birilə bağlı vacib məsələlərin həlli tələb olunur:

a) filmlərə baxış keçirmək üçün metodik tövsiyyələrin işlənib-hazırlanması

b) IMAX filmlərinin nümayişi vasitəsilə əlavə savadın alınması üçün əlverişli imkanların təmin edilməsi;

c) IMAX dərslərinin yeni texnologiyasından istifadə edərək təhsilin müasir keyfiyyətlərinə nail olunması;

IMAX texnologiyaları vasitəsilə coğrafi təhsilin müasirləşdirilməsi zərurəti elə həyata keçirilir ki: birincisi, bu coğrafiyanın tədrisində ən yeni texnologiyadır; ikincisi fənnin tədrisi üçün təkmilləşdirilmiş yeni prinsiplər açılır, üçüncüsü IMAX kinoteatrında kresloda oturaraq öyrəncilərin əksəriyyəti və hər biri planetimizin və kainatın müxtəlif guşələrinə səfər edə bilir.

Bu cür filmlər nədən ibarətdir? Yeddi mərtəbəli ev boyda ekranda təsəvvür edilməyəcək qədər real və aydın görüntülər müasir səsləndirmə sistemi ilə birləşərək insanı tamaşaçıdan hadisələrin iştirakçısına çevirəcək. IMAX texnologiyası kino tarixində ilk dəfə ən iri ölçülü kadrlardan istifadə edir. Bu gün dünyada bu, vizual və səsləndirmə siqnalını canlandıran ən qabaqcıl vasitədir. Hadisə adət etdiyimiz çərçivədən çıxır və texnoloji kəşflər sayəsində birbaşa tamaşaçıların gözləri qarşısında 18 x 23m ölçüdə ekranda canlanır. Tamaşaçılar filmə o qədər aludə olurlar ki, həqiqətən özləri sanki, kosmik gəmidə hərəkət edir, və ya Qalapaqos adalarında və yaxud Antarktidada, okeanın dibində səyahət edir, delfinlərlə bir yerdə üzür və ya onlarla ünsiyyət edir.

Coğrafiyaya həsr olunmuş seriyalar xüsusilə hərtərəfli və maraqlıdır. Odur ki, IMAX filmləri inkişaf etmiş

ölkələrin əksəriyyətində və bu kimi başqa ölkələrdə məktəb proqramlarına daxil edilib. Məsələn, Parisin kinoteatrları uşaqlar üçün bir idrak mərkəzinə çevrilmişdir. Hal-hazırda IMAX kataloquna müxtəlif istiqamətli 180 film daxildir; onlar əyləncə, elmi-kütləvi, dərketmə (idrak), tədris və təsviri filmlərdir. IMAX filmlərinə baxış sadəcə başqa ölkələrə səyahət deyil: bu zaman və məkan daxilində elə bir səyahətdir ki, həm keçmişi, həm də indini görməkdir.

Multimediadan coğrafiyanın tədrisində istifadə edilməsi.

Multimedia vasitələrindən tədris prosesində istifadə edilməsi ümumi təhsil sisteminin tərkib hissəsidir. Odur ki, multimedia təhsil nəşrlərinin yaradılmasında tədrisin ümumi prinsiplərindən çıxış etmək deməkdir. Onlar məqsədlərin, məzmunun və tədris metodlarının müəyyənləşdirilməsində dəqiqlik tələb edir. Müasir tədris texnologiyaları vahid informasiya mənbələri kompleksinə arxalanaraq müxtəlif mənbələr kompleksini yaratmağa imkan verir

Texnologiyaların tətbiq edilməsinin bir sıra çətinlikləri vardır. Məsələn materialların həddən çox yüklənməsi, dərslik ilə toplanmış material arasında bir sıra fərqlərin olması və s. Belə vəziyyətdə müəllimin məsuliyyəti daha da artır, çünki müəllim şagirdlərini, onların tələblərinə uyğun gələn məlumatların əldə edilməsinə istiqamətləndirməlidir. İnformasiya və komminikasiya texnologiyalarının tədris prosesində tətbiq imkanları çox genişdir:

1.İnternet – dəyişkənliyinin və məlumatları öz vaxtında dərc etmək baxımından digər kompyuter proqramları ilə müqayisə edilməyəcək dərəcədə geniş imkanlara malikdir.

2.E-poçt –ünsiyyət bağlamaq üçün əvəzedilməz vasitədir.Şagirdlərin bir-biri ilən informasiya mübadiləsi aparması onların birgə işinə yaxın kömək edir.

3.Simulyasiya – hər hansı problemin müzakirəsinə qoşulma imkanı yaradan bu proqram, şagirdlərdə digərlərinin fikrinə

yanaşmaq və öz fikrini əsaslandıra bilmək bacarığının formalaşmasına səbəb olur.

4.**Microsoft Vord-** hazırlanmış mətni yığmaq, disklərə paylamaq, redaktə və çap etmək üçün ən yaxşı proqramdır.

5.Mikrosoft Excel- cədvəllərlə işləmək üçün istifadə olunur.

6.Mikrosoft Pover Point – konfrans, layinə dərslərinin, coğrafi ekskursiyaların yekununa dair yekun məlumatların təqdimatı üçün istifadə olunur.

7.Paint- internet vasitəsi ilə və ya skaynerin köməyi ilə əldə edilən coğrafi şəkillər(təbii zonalar, coğrafi obyekt təsvirləri və s) üzərində müxtəlif əməliyyatlar aparmaq mümündür.

Kompyuterlərdən həmçinin fəal xarakterli işlərdə məlumatların toplanmasında, həmyaşıdları ilə söhbətdə, çətin məsələlərin həllində və s istifadə etməsi şagirdlərin cəmiyyətin aktiv iştirakçısı olmaq tələbinə uyğun gəlir, çünki. müasir gənclər müstəqil düşünən,problemin həlli, təhlil, ünsiyyət və qrup şəklində işləmək bacarığına malik olan insanların yaşadığı bir mühitdə fəaliyyət göstərəcəklər.

Tədris- metodik komplektlərinin hazırlanması

Ali pedoqoji təhsilin müasir konsepsiyası gələcək müəllimlərdə təhsilin informasiyalaşma şəraitində işə hazırlığını təmin edir. Coğrafiya fakultəsinin tələbələri yeni informasiya texnologiyaları ilə yaxından tanış olmalıdır, xüsusi kurslar keçməlidirlər.

Xüsusi kurs proqramı ilə tanış olarkən tələbələr aşağıdakıları öyrənməyə müvəffəq olmalıdırlar:

a) Coğrafiya üzrə internet – kursun tədrisi haqqında biliklər;

b) Coğrafiya üzrə mövcud elektron tədris vəsaitləri haqqında;

c) Metodik prinsiplər(yanaşmalar) və pedoqoji fəaliyyətdən istifadə problemləri haqqında.

Məşğələlərdə aşağıdakı bacarıqlar formalaşdırılmalıdır:

a) Coğrafiyanın tədrisi prosesində təhsil İnternet-resurslarından istifadə bacarıqları;

b) Elektron tədris vasitələri ilə coğrafiya üzrə işləmək və onları dərsdə və dərsdən kənar tətbiq etmək bacarıqları;

c) Multimedia təqdimatları yaratmaq və onları tədris prosesində tətbiq etmək bacarıqları;

ç) Məktəb coğrafiya kursu mövzularının yeni informasiya texnologiyalarının prinsiplərinə əsaslanan dərs və tapşırıqları özündə birləşdirən elektron tədris metodiki tövsiyyələri işləyib-hazırlamaq bacarıqları.

Kompyuter texnologiyasından istifadə şagirdlərin bir sıra oyunlar vasitəsi ilə bilikləri əldə etmək imkanı yaradır. Xüsusilə inzibati rayon və ölkələrin coğrafiyanın öyrənilməsində oyunların əhəmiyyəti böyükdür. Oyun dünyanın siyasi xəritəsini öyrənməyə kömək etməyə, bəzi ölkələr haqqında məlumat almağa, onların konturlarını yadda saxlamağa kömək edir.

Coğrafiya dərsləri və əyani vasitələr üzrə elektron dərsliklərinin hazırlanması müasir təhsilin qarşısında duran ən mühüm vəzifələrdən biridir. Bu tipli seriyalarından olan kompakt-disklərin tədrisi məzmunu özündə bir neçə tip tədris materialları əhatə edir. Tədris kompakt-disklərinin məzmunu əksər hallarda informasiya və ya izahat xarakterli mətnlərdən və illustrasiyalardan (şəkillər, foto şəkillər, aimasiyalar), interaktiv təsvirlər üç ölçülü obyektlər, video fraqmentlərdən ibarətdir.

Kompyuter proqramının növləri

Kompyuter proqramlarının təsnifatı onların yerinə yetirdikləri didaktik funksiyalar əsasında aparılır:

Trenajorlar-Vərdiş və bacarıqların formalaşdırılması, və şagirdlərin müstəqil şəkildə hazırlaşması. Bu proqramdan istifadə nəzəri materiallar mənimsənildikdən sonra nəzərdə tutulur.

Nəzarət- Bilik və bacarıqların yoxlanması. Bu cür proqramlar müxtəlif yoxlama çalışmaları və testlər vasitəsi ilə təqdim olunur.

Nümayişli-Təsviri tədris materialının əyani nümayişi, müxtəlif əyani vasitələr, illüstrativ fotolar, video-fraqmentlər, animasiyalar.

Coğrafi informasiya sistemləri (CİS) – Yer səthi üzrə informasiyanın xəritələrdə toplanması, saxlanması, təhlili və göstərilməsi. CİS hansısa ərazi üzrə zəruri informasiyanı tez axtarıb tapmağa imkan verir.

Təqlidi- Obyekt və hadisələrin simulyasiyası. Bu proqramlar coğrafiya üçün daha önəmlidir, o zaman ki, öyrənilən hadisələri göstərmək çətindir və ya onlar çox mücərrəddir.

İnformatik sorğu- Zəruri informasiyanın internetin təhsil mənbələrinə qoşulmaqla əldə edilməsi. Müxtəlif ensiklopedik nəşrlər də informatik sorğu proqramlarına aid etmək olar.

Tədris- Yeni biliklərin müxtəlif üsullarla təqdimatı.

Müəllimlərin dərsə hazırlaşmasında kompyuter texnologiyalarının tətbiqi

Müəllim nəzərdə tutulmuş dərsə hazırlaşarkən, ilk növbədə bir neçə gün əvvəl audio-vizual tədris vasitəsinin məzmunu ilə tanış olmalıdır. (film, disk, video-fonoqramla). Vasitə ilə tanışlıq onun dərsdə tətbiqi yerini (mərhələsini) müəyyənləşdirməyə imkan verir. Bu zaman, şagirdlərin verə biləcək sualları müəyyənləşdirməyə, onlara veriləcək cavabların hazırlanmasına, material ətrafında müzakirələrin gedişini və növbəti dərslərin təşkilini düşünməyə şərait yaranır. Yadda saxlamaq lazımdır ki, tədris vəsaiti müəllifləri hələ onun yaradılması mərhələsində ondan necə istifadə olunacağının müəyyən formalarını düşünmürlər.

Buna görə də, müəllimin vəzifəsi müəlliflərin nəzərdə tutduğu qaydalara əməl etməkdir.

Audio-vizual tədris vasitələrindən istifadə etməyi planlaşdırarkən yadda saxlamaq lazımdır ki, coğrafiyanın tədrisi vasitələri özlərinin şagirdlərə təsiri səviyyəsi ilə çox fərqlənirlər.

Dərsdə audio-vizual tədris vasitələrindən istifadə edərkən aşağıdakılar nəzərə alınmalıdır:

- şagirdlərə öyrənmə vəzifəsi də izah edilməlidir ki, onlar onu öz şəxsi vəzifələri kimi qəbul etsinlər.
- filmə tamaşa etməzdən əvvəl onlara suallar və çalışmalar təqdim olunmalıdır. Bu onlara audio-vizual vasitənin (filmin) məzmununu məqsədyönlü şəkildə qavramağa imkan verir.

Coğrafiya dərslərində diapozitivlərdən istifadənin təşkili müəllimdən əlavə hazırlıq tələb edir. *Birincisi,* diapozitivləri müəyyən ardıcıllıqla yığmaq tələb olunur. Bu yığım dərsin məqsəd və vəzifələrinə uyğun olmalıdır. *İkincisi,* müəllim annotasiyalarla (xülasələrlə) tanış olmalıdır. Onlar diapozitivlərə əlavə olunur. Üçüncüsü, hər bir diapozitivin və ya onların komplektini dərsin hansı mərhələsində nümayişi zərurəti müəyyənləşdirilməlidir.

Tədris kinofilminin nümayişinə hazırlaşarkən müəllim onun dərsin strukturunda yerini müəyyənləşdirməlidir, nümayiş müddəti məsələsini həll etməlidir.

Dərsdə filmə baxışdan əvvəl şagirdlərə filmin həsr olunduğu mövzunun xüsusiyyətləri barədə məlumat vermək, şagirdlərdə filmə baxmağa maraq oyatmaq filmdə ən vacib materiala diqqəti yönəltmək vacibdir. Müəllimin təlimat tapşırığı belə üsulları da əhatə edə bilər: ümumiləşdirici sual və çalışmalar lövhədə yazılır.

Multi-media təqdimatı müəllimin izahı zamanı nümayişetmə funksiyasını yerinə yetirir. İri, rəngarəng

təsvirlərdən, coğrafi xəritələrdən, əqli cəhətdən geri qalmış uşaqların dərketmə qabiliyyətlərinə uyğunlaşmış tədris kino və videofilmlərdən və televerilişlərdən istifadə edilməsi şagirdlərin öyrənilən təbii obyektlər və ya hadisələr haqqında daha aydın təsəvvürlərin formalaşmasına müsbət təsir göstərəcək.

7.5. Coğrafiya kabineti

Təhsil sistemində aparılan islahatların tərkib hissəsi kimi, tədrisin əyaniləşdirilməsi daima aktual olmuşdur. Əyani vəsaitlərdən sistemli istifadə etmək üçün isə ilk növbədə coğrafiya kabinetlərinə verilən tələblərə nəzarət, onların yaradılması və saxlanılması, düzgün istifadəsinə dair məlumatlar toplanmalıdır. Ümumilikdə götürdükdə təhsildə kabinet sisteminə 1960-cı ildən keçilmişdir. Lakin coğrafiya kabinetlərinin yaradılmasına aid ilk ideya Parisdə 1875-ci ildə keçirilmiş beynəlxalq coğrafiya sərgisində A.Pulikovski tərəfindən səslənmişdir. Kabinetin avadanlığı ilə təhciz olunması müəyyən didaktik prinsiplər əsasında formalaşdırılır:

1.Coğrafiya dərslərində müəllim və şagirdlərin fəaliyyəti üçün yaradılan mühitin olması.

2.Avadanlıqların sinif şagirdlərini təhciz edəcək sayda olması

3. Avadanlıqlar istifadə

üçün sadə, qiymətləri münasib və estetik cəhətdən uyğun olmalıdır.

4. Avadanlıqların texniki təhlükəsizliyi və məktəb gigiyenası tələblərinə cavab verməsi.

Coğrafiya kabineti özünəməxsus cəhətlərə malikdir və məktəbdəki digər kabinetlərdən fərqlənir.

Coğrafiya kabinetini təşkil edərkən, seçilmiş sahə imkan verərsə yaş xüsusiyyətindən asılı olaraq 2 yanaşı yer seçilir. Birincisi kabinet, ikincisi laboratoriya otağı. Kabinet

66-70 kvadrat metr sahəni əhatə edir. Laboratoriya otağı 2,5 kvadrat metr, labarant yeri isə 15 kvadrat metr olmalıdır. Kabinetin sahəsi burada sanitar-gijgiyenik normalara riayət etməyə, mebel yerləşdirməyə imkan verməlidir. Kabinetdə şagird masaları və 3 sıra olmaqla yerləşdirilir. Şagird masaları ya tək-tək,ya da cüt-cüt yerləşdirilir.

Masalar arasında məsafə 0,6 metr olmalıdır. Birinci masadan divara qədər məsafə 2,6-2,7 metr, sonuncu masa ilə qarşı divar arasında məsafə 8,6 metr olmalıdır. Kabinetin ön hissəsində divarda sinif lövhəsi yerləşdirilir. Arxa hissədə divarda uzununa formada tədris avadanlıqlarını saxlamaq üçün uyğunlaşdırılmış mebel yığılır. Yan divarlar və əks pəncərələr daimi və müvəqqəti ekspozisiyalar üçün istifadə olunur. Divarlarda coğrafiya xəritələri, coğrafiya elmində xidmətləri olan səyyahların, alimlərin, coğrafiyşünasların portretləri yerləşdirilir.

Laboratoriya otağı məşğul olmaq üçün nəzərdə tutulmur,buradan xəritələrin seçimi, cədvəllərin hazırlanması və tədris avadanlıqlarının saxlanılması üçün istifadə olunur.

Kabinetin işıqlandırılması təbii və süni yolla yerinə yetirilir. Coğrafiya kabinetinin pəncərələri üfüqün cənub, şərq və cənubi-şərq tərəflərinə olmalıdır. Kabinetdə solyönlü işıq olmalıdır. Süni yolla yaradılmış işığın tavandan divara qədər olan məsafə 2,2 metr olmalıdır. Divarların və mebelin rənginə uyğun pəncərələrdən toxunma pərdələr və ya jalüz asılmalıdır. Süni işıqlar laboratoriya otağında isə uzununa sıralarla pəncərələrə paralel qurulmalıdır. İstiqamətindən asılı olaraq kabinetin rənglənməsi açıq tonlarla olmalıdır. Cənubda yerləşmiş kabinet soyuq tonlarda-mavi, boz, yaşıl; şimalda yerləşən kabinet isə ilıq tonlarda –sarı, çəhrayı rənglərdə olmalıdır. Kabinetin döşəməsi taxtadan hazırlanmış parket örtüyə və yaxud qızdırılmış əsasda lineumla örtülür. Kabinetin

divarları hamar olmalıdır ki, divarlara hər hansı xəritə və yaxud cədvəli yerləşdirmək mümkün olsun.

Divarların işıq əksetdirmə əmsalı 0,5-0,6 metr dairəsində, partalar 0,7-0,8 metr, döşəmə 0,3-0,5 metr olmalıdır. Kabinet istilik və vintilyasiya sistemi ilə təchiz olunmalıdır. Kabinetdə temperatur 18-21°C havanın rütubətliyi isə 40-60% olmalıdır.

Coğrafiya dərslərində tematik xəritələr çox olduğundan hər dərsdə həmin dərsin mövzusuna uyğun xəritəni axtarıb tapmaq çətinlik törədir. Məhz bu çətinlikləri aradan qaldırmaq üçün xəritələrin üzərini müxtəlif rəqəmlər yazıb onları sistemləşdirmək lazımdır. Bu xəritələri arxa divarda quraşdırılmış mebelə yığmaq lazımdır. Xəritələrin yığıldığı bölmənin üzərinə «XƏRİTƏLƏR» sözü yazılmalıdır. Lazım olanda keçilən dərsin mövzusuna uyğun olan xəritəni müvafiq rəqəmə əsasən axtarıb tapmaq və istifadə etmək olar. Bu kataloqlaşdırma sistemi qarışıqlığı aradan qaldırır, vaxta qənaət edir Ümumiyyətlə coğrafiya dərslərinin keçirilməsi və yüksək nəticənin əldə olunması üçün xəritələrin istifadəsi vacib şərtlərdən sayılır.

Müasir coğrafiya kabinetlərində bütün şagird masalarında qlobus yerləşdirilməlidir. Dünyanın inkişaf etmiş ölkələrində bu sistem tətbiq olunur.

Bir sözlə şagirdlərin dərsi daha dərindən öyrənməsi və başa düşməsi üçün müasir kompyuter və texnologiya avadanlıqları ilə təchiz olunmuş, dünya standartlarına cavab verən coğrafiya kabinetləri təşkil etmək lazımdır. Müasir Azərbaycan məktəblərində şagirdlərin coğrafiya fənnini sevməsi və dərindən öyrənilməsini təmin etmək üçün Təhsil Nazirliyinin və məktəb kollektivinin qarşısında duran vəzifələrdən biri də coğrafiya kabinetlərinn təşkil olunması və ya yenidən qurulmasıdır. Şagirdlərin dərsi daha dərindən öyrənməsi və mənimsəməsi üçün kabinet amili mühüm rol oynayır. Dərsin mükəmməl çatdırılması, müəllimlər tərəfindən şagirdlərə ötürülməsində coğrafiya

kabinetinin rolu əvəzsizdir. Coğrafiya kabinetinin düzgün tərtib olunması ilk növbədə ona verilən tələblər müəyyən olunmalıdır.Kabinetin interyerini rəsmiləşdirməsinə dair tələblər:

- kabinetin tərtib edilməsi vaxtı bəzəkçilikdən çəkinmək lazımdır.
- kabinetin interyeri yüklənmiş olmamalıdır, orada bütün göstərilən materiallar funksional əhəmiyyətli olmalıdır.

Kabinetin ön və yan divarlarında görkəmli coğrafiyaçıların portretləri asılmalıdır.

Kabinetdə daimi nümayiş etdirilən vəsaitlərdən biri ölkələrin bayraqlarıdır.

Coğrafiya kabinetinin əhəmiyyətli tərkib hissəsindən biri meteostansiyanın şagirdləri tanış etməyə imkan verməli, müşahidə və onların nəticələrini təhlil etmək üçün imkana malik olmalıdır.

Məktəb meteostansiyası müşahidələrin keçirməsini təmin etməlidir, təbiətşünaslıq, coğrafiya və biologiya üzrə tədris proqramıyla nəzərdə tutulmuş praktik işlər hava üçün sistematik müşahidələri təşkil etmək, təbiətdə mövsümü hadisələrlə, həmçinin məktəbyanı sahənin mikroiqlimin öyrənilməsi üçün nəzərdə tutulur.

Coğrafiya kabinetində təbii obyektlər –herbari kolleksiyalar-günəş şüalardan qorumaq üçün şkafın qaranlıq seksiyalarında bağlı qutularda saxlanılmalıdır.

Diapozitivlər və diafilmləri fabrik qutularında saxlayırlar.

Diafilmlər də eyni zamanda yığıldıqları qutuların diametrinə uyğun olmalıdır.

Coğrafiya kabineti üçün nümayiş masasının ölçüsü 120x75 sm, 90 sm hündürlük olmalıdır.

Masanın horizontal səthi 120x50 sm ölçüylə dərsliyin yerləşdirməsini təmin edir, atlas, dəftərlər, praktik və

sərbəst işlərin icrası üçün ləvazimatlar, qlobusları yerbəyer etməyə imkan verir.

Kabinetdə xüsusi metodik ədəbiyyatları, coğrafiya dərslik və proqramları, təlimat kitabları, coğrafiya üzrə əlavə ensikplopediyaların olmasını nəzərdə tutur.

Coğrafiya kabinetində diyarşünaslıq materialları yan divarlarda müxtəlif stendlərdə yerləşdirmək mümkündür.

Eyni zamanda coğrafiya kabinetində kompyuter, televizor, videomaqnitofon, qrafoproektor və diaproektor və s. cihazlar olmalıdır.

Müasir dərslərin tədrisində qrup təşkilat formasının üstünlük təşkil etməsi, coğrafiya kabinetində masaların yerləşdirilməsində dəyişiklik edilməsini tələb edir. (masalar divar boyu, dəyirmi masa şəklində və s. ola bilər). Şagird masalarının yerləşməsindən asılı olmayaraq nümayiş stolunun vəziyyəti dəyişdirilmir.

MÖVZU VIII. COĞRAFİ BİLİKLƏRİN QİYMƏTLƏNDİRİLMƏSİ

«Biliyi yaddaşa görə deyil, mühakiməyə görə qiymətləndirmək lazımdır»
L.N.Tolstoy

8.1.Bilik və bacarıqların yoxlanılmasına verilən tələblər

Şagirdlərin nailiyyətlərinin qiymətləndirilməsi ənənəvi olaraq onların əldə etdikləri: bilik, bacarıq və vərdişlərin kəmiyyətcə qiymətləndirilməsinə əsaslanir.

Məktəb təcrübəsinin işində «qiymət» və «qiymətləndirmə» anlayışları çox vaxt qarışdırılır. Bu anlayışların hər birinin geniş izahı mövcuddur, lakin qısa olaraq qiyməti-təhsilin kəmiyyət nəticəsidir, qiymətləndirməni isə – diaqnozlaşdırma və qiymətin qoyulması prosesi kimi qəbul etmək mümkündür.

Qiymət şagirdin nəinki təhsil fəaliyyətində, hətta həyatının hər tərəfində də böyük rol oynayır. O yalnız sinifdə qalmır, ondan kənara çıxır və şagird haqqında söhbət gedən istənilən yerdə xüsusi vurğu ilə səslənir. Qiymət şagirdin bilik və bacarığının «günahsız» halı deməkdir. Qiymət şagirdi tədris prosesində istiqamətləndirməyə kömək edir. Və bununlada o şagirdin şəxsiyyətinə keçərək, onun ayrılmaz xüsusiyyətinə çevrilir, məktəbdə aldığı qiymət ətraf sosial mühitin həmin şəxs haqqında münasibətinə güclü təsir edir

Təhsilə yeni başlayan hər hansı şagird üçün qiymət bir qədər fərqli anlayışdır. O, bunu həyatda baş verən dəyişiklik və müvəffəqiyyət kimi qəbul edir. Lakin sonra vaxt keçdikcə şagird sinifdə öz nüfuzunun təhsil fəaliyyətinin nəticələrindən, yəni qiymətdən asılı olduğunu anlamağa başlayır. Bu prosesin sürəti və dərinliyi şagirdin həyatında tədris fəaliyyətinin artmasından asılıdır. Şagirdlər biri-birinə qiymət prizmasından baxmağa öyrənirlər. Qiymətlərin bu cür tendensiyası – şagirdin şəxsiyyətini ümumi şəkildə təqdim etməyə imkan verir.Alınan biliklərin göstəricisi ilə şagird, məktəb kollektivi ilə onlarla əlaqədə və təmasda olmağa razılaşır.

Lakin, məktəb kollektivində qiymət yalnız şagirdlərin bir-biri ilə və kollektivlə ünsiyyətinə təsir göstərmir. O məktəbdən kənara çıxaraq həyatın bütün mühitinə, həmçinin ailəyə də təsir göstərir.

Şagirdə verilən qiymət, sonrakı tərbiyəvi işin hansı istiqamətdə aparılması üçün özünəməxsus impuls, siqnal rolunu oynayır. Məsələn, «Beş» qiymət şagirddə öz bilik və bacarığına daha da əminlik yaradır. «Üç» şagird üçün bacarığının az olması yaxud da müəllimin ona qarşı diqqətsizliyini sübut edir.

Bir sıra didaktik tədqiqatlar göstərir ki, bütün yaş həddində olan şagirdlər üçün qiymət bir növ hazırlaşmaq

üçün əsas motiv hesab olunur. Aşağı siniflərdə şagirdlər yüksək qiymət almaq üçün intizamlı olmağa üstünlük verirlər, üçüncü sinifdən şagirdlər qiymətə görə öyrənməyə başlayır. Bu vəziyyət ildən-ilə artır. Yuxarı siniflərdə isə bu bir qədər azalır. Ayrı-ayrı şagirdlər isə nəyin bahasına olursa olsun hətta onlar layiq olmasalar belə «yaxşı» qiymət almağa çalışırlar. Bu zaman qiymət onlara ilk növbədə sinifdə möhkəm mövqe tutmaq,özlərinin gücünü nümayiş etdirmək üçün lazımdır. Daha sonra biliklərin göstəricisi kimi yüksək qiymətə bir növ alışırlar. Şagirdlərin çox az hissəsi təhsilə biliyin vacib olması üçün maraq göstərirlər.

Bütün bunlar göstərir ki, verilən qiymətlər yüksək dərəcədə obyektiv olmalıdır. Qiymət subyektiv olan zaman onun tərbiyəvi təsiri kəskin surətdə azalır. Qiymətin şişirdilməsi və azaldılması da şagirdə çox pis təsir göstərir. Qiymətin yüksəldilməsi fənnə olan diqqəti və hörməti azaldır. Qiymətin azalması isə şagirdin özünə olan inamını azaldır və tədris fəaliyyətinə olan marağını zəiflədir. Buna görə də qiymətin verilməsi müəllimin işinin ayrılmaz çətin hissəsi olaraq böyük diqqət tələb edir.

Qiymətin subyektivliyi – həm mübahisəsiz, həm də çox xoşagəlməz faktdır. Bunu bir cavaba müxtəlif müəllimlərin verdiyi qiymətdə olan fərqlilik sübut edir. Təhsil Problemləri institunun bir qrup alimlərinin apardığı tədqiqat bu vəziyyəti təsdiq etmişdir. Eksperimentin mənası ondan ibarət olmuşdur ki, bir cavabı üç müəllim qiymətləndirmişdir. Nəticədə fərqli qiymətlər alınmışdır: «2» və «3», «4», «5» . Cavabı «əla» qiymətləndirən müəllim materialın məntiqi izahı və, dolğun olmasını, bəzi faktların konkret açılışı kimi güclü olduğunu əsaslandırmışdır. Bu zaman «bəzi rəqəm göstəricilərin bir qədər dəqiq olmaması faktı» qeyd olunurdu. Lakin, bu hal qiymətin verilməsinə öz təsirini göstərməmişdir. «Dörd» qiymətləndirən müəllim, bəzi punktlarda faktiki materialın olmamasını qeyd

etmişdir. Ən aşağı qiymət verən müəllim isə materialda yalnız ardıcıllığın olmasını əsas götürmüşdür. Ayrı-ayrı mövzuların tam açılışı onu qane etməmişdir. Bundan başqa çox sayda səhflərə və diqqətsizliyə fikir verilmişdir. Eksperimentin nəticələri demək olar ki, aydındır.

Müşahidələr göstərirki çox vaxt şagirdlərə elə gəlir ki, onların cavabları düzgün qiymətləndirilməmişdir. Bəzi vaxt şagirdlər müəllimdə qiymətləndirmə zaman aydın meyarların olmamasını düzgün qeyd edirlər. Ayrı-ayrı hallarda hətta müəllimin qeyri obyektiv olmasını da sübut etməyə çalışırlar. Qiymətləndirmə və qiymət vermə zamanı lazımi obyektivliyin olmaması bir sıra subyektiv faktorlarla izah edilir. Bunlar dünyanın qabaqcıl ölkələrini pedaqoq müəlliflərin işlərində tədqiq olunmuşdur. Müəlliflər qiymətləndirməni şərti olaraq iki qrupa bölürlər. Birinci qrupa yalnız qiymətin verilməsinə təsir edən amillər aid olub aşağıdakı kimi izah olunur:

1). «Qalo-effekt», şagirdin qalosu – şagirdin əvvəlcədən mövcud olan reputasiyasına əsaslanır. Bəzi şagirdlər sinifdəki mövqeyini nə vaxtsa yaxşı (pis və yaxud əksinə "yaxşı") qiymətləndirilmiş, sonra olan zəiflik (güclülük və ya əksinə) olmasından asılı olmayaraq, əvvəlki qiymətini daşıyır. Yeknəsəklik yaradan belə qiymətləndirmə prossesi şagidlərdə həvəsi öldürür, müəllimdə isə obyektivliyi itirir.

2). «Ko-effekt», yaxud əməkdaşlıq effekti. Bu müəllimlə daha çox əməkdaşlığa nail olan, onun tələblərinə uyğunlaşa bilən, yəni müəyyən səbəbdən müəllimin sevimlisinə çevrilən və daha yaxın bildiyi şagird daha yüksək qiymətlərin alması izah olunur.

3) «Səviyyə effekti» - mahiyyəti eyni olan suallara görə daha zəif səviyyəli sinifdə şagirdlər daha yüksək qiymət aldıqları halda, daha güclü sinifdə isə layiq olduqlarından daha aşağı qiymət almaqlarından ibarətdir.

İkinci qrupa şagirdin cavabını süni surətdə zəiflədən amillər aiddir. Onlara aşağıdakılar aiddir: «əlaqə effekti» və «emosiya effekti». Onlar ondan ibarətdir ki, lövhə qarşısında cavab verən zaman şagirdin psixi vəziyyəti pozulur. Nəticədə şagird həyəcanlanır, özünü itirir və cavabını düzgün qura bilmir. Ona görə də şagirdin cavabı onun bilik səviyyəsinə uyğun gəlmir.. Belə halda,müəllimin verdiyi qiyməti qeyri-obyektiv hesab etmək olmaz. Lakin, müəllim daima nəzərə almalıdır ki, «sorğu atmosferi nə qədər sakit və mehriban olsa da qiymətləndirmə prosesi hər zaman həyəcanlarla müşahidə olunur».

Qiymətin obyektivliyinə təsir edən digər bir sıra amillər mövcuddur. Məsələn: qiymət verən müəllimin emosional vəziyyətidir. Şəxsi problem, pis əhval ruhiyyə, bazar günləri planların pozulması, maliyyə uğursuzluğu, hansısa bir futbol komandasının uduzması, hətta pis hava müəllimin halını dəyişə bilər. Qiymət verən zaman onlar tələbkar və ya səhlənkar ola bilər.

Yuxarıda göstərilən amillər qiymətin subyektiv olması səbəblərinə öz təsirini göstərir.

Müasir məktəbdə mövcud olan beş ballıq qiymət sistemi də obyektiv qiymətləndirməni çətinləşdirir. Hələ, 1944-cü ildə qəbul edilmiş bu sistem müəyyən dəyişiklikləri tələb edir: burada müsbət qiymət azdır (iki-müsbət, bir-neytral, iki-mənfi). Bu çatışmamazlıq «+» və «-» təcrübəyə keçərkən qismən aradan qaldırılır. Lakin, bu cur əlavəni müəllim özünün qeyd dəftərində aparır (əgər müəllimin belə dəftəri varsa). Sinif jurnalına isə qiymət bal şəklində qoyulur. «Qiymət norması» haqda müxtəlif təkliflər də bu problemi həll edə bilmir. Aparılan təhsil islahatları qiymətləndirmə üçün yeni normativlər qəbul etmişdir və bu qaydalar ənənəvidən xeyli fərqlidir (Cədvəl 23).

Cədvəl 23

Müasir qiymətləndirmənin ənənəvi qiymətləndirmə ilə müqayisəsi

Ənənəvi qiymətləndirmə	Müasir qiymətləndirmə
Qiymətləndirmə şagirdə qiymət yazmaq kimi qəbul olunurdu, şagird yalnız qiymət almaq xatirinə oxuyurdu.	Qiymətləndirmə təhsilin keyfiyyətinin yüksəldilməsinə yönəldilir və onu idarə edən vacib amil kimi meydana çıxır.
Cari qiymətləndirmə formalizmə gətirib çıxarırdı. Müəllimin subyektiv rəyinə əsaslanırdı.	Cari qiymətləndirmənin aradan qaldırılması məzmun standartlarının bütövlükdə mənimsənilməsini və qiymətləndirmənin obyektivliyini təmin edir.
Tədris prosesinin yalnız müəyyən bir hissəsində tətbiq edilirdi.	Tədris prosesinin bütün mərhələlərində tətbiq edilir.
Əsasən bilik səviyyəsi qiymətləndirilirdi.	Şagirdin nailiyyəti (qazanılan dəyərlər) qiymətləndirilir, inkişafı sistemli şəkildə izlənilir.
Qiymətləndirmə standartları mövcud deyildi.	Məzmun standartlarının mənimsənilməsi səviyyəsini ölçmək üçün qiymətləndirmə standartları müəyyənləşdirilmişdir

8.2. Coğrafi biliklərin qiymətləndirilməsi

Təhsil nəticələri – tarixi kateqoriyadır. Onun interpretasiyasına olan yanaşma dəyişkəndir. Bu proses müxtəlif şəraitin təsiri altında baş verir. Onlardan əsası bir tərəfdən ideoloji təyinat, digər tərəfdən-təhsil nəzəriyyəsinin inkişaf səviyyəsidir.

Ənənəvi olaraq coğrafiya proqramında hər bir mövzunun məzmununu əks etdirən mətnindən və məşğələlərdən sonra «Bilik və bacarıqlarına olan tələb» adlı xüsusi rubrika olurdu. Burada şagirdlər nəyi bilməli və hansı bacarıqlara malik olmaları aydın yazılırdı. Həmçinin biliklərə olan tələb mətnə tam uyğun olurdu, bacarıqlar isə təqdim olunan məşğələlər zamanı formalaşırdı. Nəzərdə tutulurdu ki, hər bir mövzunun öyrədilməsini müəllim konkret təhsil nəticələrini nəzərdə tutaraq quracaqdır.

İlk baxışdan əksinədir, tədrisin nəticələrinə olan tələblər coğrafiya təhsili standart layihəsində göstərilmişdir. Onları şərh edərkən, müəlliflər göstərir ki, təhsil zamanı şagirdlərdə dərketmə prosesi gedir.

Standart layihəsinə görə şagirdlərdən aşağıdakı fəaliyyət növləri tələb olunur: 1) adlandırmaq (yaxud) göstərmək; 2) təyin etmək (ölçmək); 3) şərh etmək(təqdim etmək); 4) başa salmaq(izah etmək); 5) proqnozlaşdırmaq (Cədvəl 24).

Cədvəli təhlil edərkən qeyd etmək lazımdır ki, şagirdlərin malik olduqları beş nəzarət olunan hərəkətdən dördü bilik meyarına əsaslanır. Həqiqətən də, buzlaşma zonalarını yaxud dünyanın köhnə sənaye rayonlarının adını çəkmək üçün ilk növbədə onları bilmək lazımdır. Şərh edərkən şagirdlərin yaddaşında öyrənilən obyektlərin və hadisələrin konkret təsəvvürləri yaranmalıdır. Təsəvvürlər hissiyat dərketməsinin nəticəsi kimi faktlarla birgə emprik biliklərin tərkib hissəsi sayılır. Başa salmaq şagirdlərin səbəb-nəticə əlaqələrinin sistemli biliyini və izahını nəzərdə tutulur.

Proqnozlaşdırma fəaliyyəti üçün bir tərəfdən obyektin müasir vəziyyətini, digər tərəfdən isə onun inkişaf mərhələsini bilmək tələb olunur.

Cədvəl 24

Standart layihəsinə görə təhsil nəticələrinin konkretləşdirilməsi

Fəaliyyət növləri	Tapşırıqlar
Adlandırmaq və ya obyekti nümayiş etdirmək	Dağ süxurlarının növləri, quru sularının insan tərəfindən istifadəsi, buzlaşmanın əsas zonaları və ən iri buzlaqlar, dünyanın ən iri köhnəsənaye rayonları, yataqlar, hövzələr, ehtiyat rayonları və s.
Təyin etmək -ölçmək	Obyektlərin coğrafi şəraiti, xəritə üzrə dərəcələrlə, istiqamətə görə, azimuta görə təyin etmək; təsərrüfat sahələrinin yerləşmə xüsusiyyətləri və s.
Təqdim etmək-şərh etmək	İstiqamətləri azimut bucaqlarına görə havanı siklon və antisiklonlarla; ayrı-ayrı ölkələr və regionlarda miqrasiya proseslərini və s.
Başa salmaq - İzah etmək	Yerin təbiətinə buzlaşmanın təsiri, iqlimə təsir göstərən isti və soyuq cərəyanlar; insanın təsərrüfat fəaliyyəti nəticəsində landşaftın dəyişilməsini; dünyada daha çox çin, ingilis, ərəb, rus, hindu və s. dillərin yayılması səbəblərini və s.
Proqnozlaşdırmaq	İnsan fəaliyyəti nəticəsində təbiət obyektlərinin dəyişilməsini, dünyanın ayrı-ayrı regionlarında və ümumiyyətlə bütün dünyada əhalinin artım surətinin nəticələrini və s.

Qeyd etmək lazımdır ki, nəzarət edilən fəaliyyət növlərində yoxlanılan biliklərin mənimsəmə səviyyəsi eyni

deyil. Birinci, biliklər informasiyanın verilməsi səviyyəsində yoxlanılır («adını çəkmək», «şərh etmək»), ikinci, dərk etmək səviyyəsində («başa salmaq») və sonuncu üçüncü, - proqnozlaşdırma zamanı bilikləri göstərmək səviyyəsi.

Şagirdlərin «Təyin etmək» fəaliyyəti ümumilikdə «şagirdlər bacarmalıdır» ənənəvi proqramın tələbini xatırladır.

Qiymətləndirmə layihəsindən fərqli olaraq hazırda cografiya fənni uzrə qiymətləndirmə sənəddə tələblərinin altı səviyyəsi mövcuddur. İlk növbədə «əsas anlayış və terminlərin mənasını bilmək» tələbidir. Digər tələblər əvvəlki fəaliyyət növləri ilə uyğun təyin edilmişdir Lakin tələblər daha ümumiləşdirilmiş vəziyyətə gətirilmişdir(litosfer, atmosfer, hidrosfer, biosferin əsas coğrafi obyektlərinin adını çəkmək, əsas coğrafi obyektlərin, proseslərin və hadisələrin və s. ərazi yerləşməsini göstərmək) «Şərh etmək» və «Proqnozlaşdırmaq» fəaliyyət növlərinə aid olan coğrafi obyektləri, hadisələri və prosesləri şərh etmək; insanın təsərrüfat fəaliyyəti nəticəsində və sosial-iqtisadi obyektləri, təbii komplekslərin dəyişməsini proqnozlaşdırmaq və s. tələblərin dünya standartına uyğun gəlir.

Əsas, yəni ümumi orta təhsildə məzunların hazırlıq səviyyəsinə olan tələblər aşağıdakı kimi qəbul edilmişdir:1) bilmək-başa düşmək; 2) bacarmaq; 3) əldə olunan bilik və bacarıqları təcrübə fəaliyyətində və gündəlik həyatda istifadə etmək.

Bacarıqların formalaşmasına olan tələblərin istiqamətləri müxtəlifdir. Bacarıqların bir hissəsi praktiki xarakter daşıyır. Məsələn, coğrafi obyektlərin və müxtəlif hadisələrin, onların təbii və insan ehtiyatları ilə təmin olunması, təsərrüfat ehtiyatlarının, coğrafi problemlərini öyrənmək üçün müxtəlif mənbələrdə informasiyanı toplamaq və s.

Müxtəlif coğrafi informasiyalar əsasında şagirdlərin ərazilərin qısa səciyyəsini verməyi bacarıqlarından biridir. Məlumdur ki, ərazinin müxtəlif ehtiyatlarla təmin olunması, onların təsərrüfat potensialı və coğrafi problemlərinin səciyyəsi coğrafi səciyyənin struktur hissəsidir. Şagirdlərdən həmçinin ərazidə planda və xəritədə məsafə, istiqamət və nöqtələrin hündürlüyünü, onların coğrafi koordinatları müəyyən etmək bacarığı tələb olunur (sonuncu, yalnız xəritələrə aiddir. Çünki, ərazidə coğrafi koordinatları təyin etmək üçün xüsusi cihazlar tələb olunur.

Təbii komponentlərinin kəmiyyət və keyfiyyət səciyyəsini təyin etmək üçün cihaz və alətlərdən istifadə bacarığı da praktiki fəaliyyət sayılır. (Burada söhbət sadə alətlərdən gedir). Şagirdlərin coğrafi obyekt və hadisələrin müəyyən xüsusiyyətlərini qeyd etməsi, şərh etməsi və başa salmağı daha çox intellektual bacarıqlara aiddir.

Nümunə gətirmək bacarığı (təbii ehtiyatlardan istifadə və onların qorunması, insanın ətraf mühitə uyğunlaşması, onun xalqların mədəniyyətinin formalaşmasına təsiri və s.) bacarıq deyil bilik deməkdir.Məlumdur ki, müvafiq olaraq nümunələri verə bilən şagird heç bir çətinlik olmadan mənimsənilmiş informasiyaları çatdıra bilər.

«Praktiki fəaliyyətdə və gündəlik həyatda alınan biliklərdən istifadə»də bacarıq sayılır. Bu tələblərə müvafiq olaraq şagirdlər alınan biliklərdən. ərazidə istiqaməti müəyyən etmək və onun sahələrinin təsvirini çəkmək üçün istifadə etmək üçün ətraf mühitdə baş verən dəyişiklikləri nəzərə almalı; coğrafi hadisələr və prosesləri müşahidə etməli; təbii mühitin keyfiyyətini müəyyən etmək üçün praktiki məsələlər həll etməyi, yaşadığı ərazinin təbii komponentlərinin komfort və diskomfort parametrləri müəyyən etməyi; müxtəlif mənbələrdən coğrafi informasiyalar sərbəst axtarmağı və s.bacarmalıdır.

Milli kurrikuluma görə fəaliyyət növləri üçdür.

a) İdrak bacarıqları – tanımaq, izah etmək, nümunə göstərmək, istifadə etmək, təhlil etmək, müqayisə etmək, dəyərləndirmək.

b) Ünsiyyət bacarıqları – izah etmək, təsvir etmək, şərh etmək, reaksiya vermək, təqdim etmək.

c) Psixomotor bacarıqları – qaçmaq-yazmaq, rəsm çəkmək, quraşdırmaq.

Göründüyü kimi, coğrafiya fənninin məzmunu şagirdlərdən daha çox idrakı və ünsiyyət bacarıqlarını tələb edir.

8.3. Qiymətləndirmənin növləri və formaları

Xüsusilə son illər təhsil sistemində qiymətləndirmə tədqiqatçıların maraq dairəsinə daxil olmuşdur. Şagirdlərin bilik və bacarıqlarının qiymətləndirilməsinin təkmilləşdirilməsi prosesində qiymətin iki funksiyasını nəzərdən qaçırmaq olmaz:

a) şagirddə tədris prosesinə olan marağı yaratmaq və saxlamaq.

b) şagirdlərin mənimsədikləri bilik və bacarıqların səviyyəsini bilmək.

Qiymətləndirmənin ənənəvi praktikası hazırda təhsil müəssisələrinə yol açan müasir qiymətləndirmədən xeyli fərqlidir. Coğrafiya fənni üzrə müasir qiymətləndirmənin üç əsas növü qəbul edilir:

1) Diaqnostik qiymətləndirmə – coğrafi təlimin hər hansı mərhələsində (yeni dərs ilinin başlanğıcında, yeni bölmənin giriş dərsində və ya hər hansı mövzunun əvvəlində – şagirdlərin bilik və bacarıq səviyyəsinin qiymətləndirilməsidir. Diaqnostik qiymətləndirmə şagirdlərdə motiv yaradır. Onların maraq dairəsi, dünyagörüşü barədə müəllimdə məlumat toplanır.

Müəllimlər diaqnostik qiymətləndirməni şagirdlərlə müsahibə, söhbət aparmaq, tapşırıqlar və ya dərslik müşahidə etməklə valideyn, digər müəllimlər, məktəb,

psixoloji və ya sinif rəhbəri ilə əməkdaşlıq vasitəsi ilə verə bilər.

2) Formativ qiymətləndirmə – təlim prosesinin hər hansı mərhələsində şagirdlərin əldə etdikləri bilik və bacarıqların səviyyəsinin qiymətləndirilməsidir. Bu qiymətləndirmə növü müəyyən edilmiş sxemlər üzrə aparılır. Formativ qiymətləndirmə tədris prosesini düzgün istiqamətləndirməyə və səmərəliliyi təmin etməyə imkan verir, şagirdlərin təlim ehtiyaclarının öyrənilməsinə imkan yaradır, şagirdlərin müvəffəqiyyətlərinin izləməyə imkan verir Formativ qiymətləndirməni təşkil etmək üçün müəllim şagirdləri müşahidə edə bilər, test tapşırıqları verə bilən şagirdlərə yazı işləri verir, xəritə üzərində tapşırıqlar verir və ya şagirdlərdən şifahi sorğu ilə soruşur.

Formativ qiymətləndirmə hər hansı dərs prosesində və müəyyən ardıcıllıqla (yarım il, ay, il və s.) aparılır və uzunmuddətli olduqda təhlil olunur, şagird üzərində həmin dövr üçün nəzarət müəyyən edilə bilər.

3) Summativ qiymətləndirmə – təhsilin hər hansı mərhələsində (yarım il və ya ilin sonunda) şagirdlərin qazandıqları nailiyyətlərin qiymətləndirilməsidir. Summativ qiymətləndirmə şagirdlərin fənni mənimsəmə səviyyəsini göstərir. Bu qiymətləndirmə növünü həyata keçirərkən müəllim şagirdlərin şifahi təqdimatını dinləyir, test tapşırıqları yoxlaması keçirir, şagirdlər hazırladığı mövzuya dair nailiyyətləri nümayiş etdirirlər.

Hər hansı qiymətləndirmə şagirdlərin fəaliyyətinə nəzarətdən başlayır.

Coğrafiyanın tədrisi metodikasında yoxlamanın müxtəlif forma və üsullarından istifadə etmək təqdim olunur.

Nəzarətin hər bir növünün müəyyən müsbət və çatışmamazlıqları vardır (Cədvəl 25).

Cədvəl 25

Nəzarətin əsas növləri

Forma	Fərdi	Frontal
Şifahi	Fərdi şifahi sorğu	Frontal şifahi sorğu
Yazılı	Fərdi yazılı iş	Frontal yazılı iş

Hazırda ümumtəhsil məktəblərinin təcrübəsində nəzarətin əsas növü fərdi şifahi sorğu olaraq qalır. Bu zaman şagird xəritə və yaxud lövhə qarşısında ötən dərsin materialına cavab verir. Şagird öz cavabını sübut və məntiqi qura bilir, həmçinin onun danışmaq və divar xəritəsi ilə işləmək bacarığı inkişaf edir. Müəllim cavabı təhlil edərək, lazım olan zaman əlavə sual verərək, cavab verənin biliyinin dərinliyini, həcmini və möhkəmliyini təyin edə bilir. Nəzarətin bu növünün çatışmamazlığı çox vaxtın sərf olunmasındadır. Bir dərs ərzində müəllim lövhə qarşısında iki-üç şagirddən soruşa bilər. Bu da o deməkdir ki, hər bir şagird rüb ərzində bir-iki dəfə cavab verir. Bir qayda olaraq şagirdlər cavabdan sonra bilirlər ki, müəyyən vaxt ərzində onlardan fərqli qaydada dərs soruşmayacaqlar. Bundan başqa qeyd etmək vacibdir ki, şagird cavab verdiyi zamanı sinifin qalan şagirdləri çox passivdir, bu da nizam-intizama mənfi təsir göstərir.Təlimin səmərəliliyi baxımından belə sorğu modeli effektli sayılmir. Çünki,müəllim dərs prosesinin 20 dəqiqəsini, keçmiş mövzunu danişan 3- 4 şagirdə sərf edirsə və ya hər birinə suallarla müraciət edirsə, bu zaman təlimin səmərələliyi aşağı olur. Fərdi sorğudan fərqli olaraq frontal sorğu prosesində, şagirdlərin çoxu fəaliyyətdə olur.Bir çoxları cavab vermək istəyir və əllərini qaldırır. Dərs ərzində şagirdlər bir neçə dəfə cavab verə bilir, müəllimində bir neçə şagirdi qiymətləndirmə imkanı olur. Lakin verilən suallar dərin və geniş cavab tələb etmir.

Buna görə də müəllimin verdiyi qiymət səthi olur. Ön plana şagirdin tədris materialının mənimsənilmə səviyyəsi deyil, ümumi aktivliyi çıxır. Lakin, yeni pedaqoji texnologiyalar baxımından sorğunun elə modelləri qurula bilər ki, az vaxt ərzində daha çox şagird əhatə olunsun.

Frontal yazı işində şagird maksimal dərəcədə nəzarətlə əhatə olunur, proses yazılı aparılır, deməli sinfin bütün şagirdləri qiymətləndirilir. Hər bir iş detallara qədər təhlil oluna bilər. Frontal yazı işi zamanı nizam-intizam çox yüksək olur. Lakin müəllim şagirdlərin hamısına nəzarət edə bilmir, onlarda da köçürmək əlavə gizli mənbələrdən istifadə etmək və s. imkanı yaranır. Bundan başqa müəllimə işləri yoxlamaq üçün vaxt lazım olur. Nəticədə iş və onu nəticələndirmək arasında yaranan xronoloji parçalanma əmələ gəlir. Bu da qoyulan qiymətlərin tərbiyəvi cəhətini çox azaldır.

Bir qayda olaraq, fərdi yazı işi ev tapşırığı şəklində verilir. Onun hazırlığı zamanı şagird müxtəlif informasiya mənbəyindən istifadə edə bilir. Bu dərslik və ya dərs vəsaitlərindən internetə qədər ola bilər. Bu cür işlərin informasiya dəyəri çox yüksəkdir. Lakin şagirdlər (bəzi vaxtı onların valideynləri də) materialı yenidən işləmək əvəzinə köçürürlər. Müəllim gözəl, yaxud səliqəli yazılmış məruzəyə əla qiymət verir. Lakin bu işin təhsil dəyəri şübhə doğurur. Fəaliyyətin bu növünə pedaqoji tamamlanma vermək üçün sinifdə işi müdafiə, yaxud izah (üzündən oxumadan) yaxud təqdim etmək lazımdır.

Nəzarətin digər bir növü fərdi və frontal formalarına birgə keçirildiyi sorğunu aid etmək olar. Bu növ yoxlama prosesində 2-3 şagird (adətən birinci parta arxasında oturanlar) suallara yazılı cavab hazırlayır, 1-2 şagird divar xəritəsi üzərində işləyir, digərləri isə frontal sorğuda iştirak edir. İşin bu cür təşkili zamanı qoyulan qiymətin kəmiyyəti cəhətdən nəzarətin səmərəliyi artır. Lakin fərdi iş görən

şagirdlər sinifin ümumi işindən azad olur və müəllimin nəzarətindən uzaq olur. Qeyd etmək lazımdır ki, yoxlamanın bu növü hazırda mənasını itirmişdir. Lakin yaxın zamana qədər bu üsul geniş yayılmışdı və pedaqoji təcrübənin qabaqcıl elementlərindən sayılırdı.

Nəzarət, bir qayda olaraq, qiymətlərin qoyulması və qiymətləndirilməsindən asılıdır. Yuxarıda qeyd olunan bütün yoxlama növlərinin ümumi çatışmamazlığı obyektivliyin yüksək səviyyədə olmamasıdır. Ümumiyyətlə, yoxlama və nəzarətin qiymətləndirmə tərəfi ciddi pedaqoji problemdir.

Hər şagirdin özünün xoşa gələn və xoşa gəlməyən yoxlama növü var: biri yazmağı, digəri – mülahizəni, üçüncüsü isə - hamının qarşısında çıxış etməyi, daha yaxşı bacarır. Əslində isə müəllim şagirdin müxtəlif növ fəaliyyətinin qiymətləndirməsi daha yaxşı olardı. Nəticələri cədvələ köçürmək olar (Cədvəl 26).

Cədvəl 26

Müasir qiymətləndirmə meyarları

Soyadı adı	Şifahi cavablar	Frontal iş zamanı yazılı cavablar	Dərsdə aktivliyi	Məruzə və referatların hazırlanması	Kontur xəritə üzərində iş	Coğrafiya dəftərinin vəziyyəti
Bu cür cədvəl rüblük qiymətlərinin əsaslı qoyulmasına kömək edir.						

Dərsin strukturunda qiymətləndirmənin yeri, ənənəvi və yaxud kombinələşdirilmiş dərsin strukturunda yoxlama və nəzarət mərhələsi kimi ayrıca verilir. Digər mərhələlərdə təşkilat zamanı, sorğu (yoxlama və nəzarət), yeni materialın öyrənilməsi, onun möhkəmlənməsi, ev tapşırığında da suallar verilə bilər. Adətən yoxlama və nəzarət yeni

materialın öyrənilməsindən əvvəl, dərsin birinci yarısında təşkil olunur. Məsələn, əvvəlki dərsdə Cənubi Amerikanın iqlimi öyrənilmişdir. Sonrakı dərsin əvvəlində müəllim keçilən materialın (iqlim) sorğusunu aparır, sonra isə yeni mövzuya keçir.


Lakin dərsin bu cür strukturu, şagirdlərin bəzi ciddi psixoloji xüsusiyyətləri ilə uyğun gəlmir. Onların dərs müddətində materialı qavramaq və yadda saxlamaq bacarığı daimi olmur .

Tədqiqatçıların apardığı müşahidələrə əsasən hazırki 45 dəqiqəlik dərsin həcmini heç də hamısı, şagirdlərin tam aktivliyi ilə keçmir.

Şagirdlərin aktivlik səviyyəsi dərsin sonuna yaxın aşağı düşür (Sxem 39).

Sxem39

Şagirdlərin aktivlik dərəcəsinin dəyişməsi



Qrafiki təhlil edərkən görünür ki, dərsin əvvəlində məktəblilərin iş bacarığı artır və 1-ci 10 dəqiqədə öz

zirvəsinə çatır. Sonrakı, 10-15 dəqiqə o yüksək səviyyədə qalır.

Dərsin ikinci yarısının əvvəlində iş bacarığı getdikcə aşağı düşür. Beləliklə, kombinə edilmiş dərsin ənənəvi strukturunda şagirdlərin iş bacarığının zirvəsi dərsin əsas mərhələsinə düşmür. Yəni, yeni materialın öyrənilməsinə deyil, sorğu prosesinə düşür..Bu da ki, məqsədəuyğun deyil.

Dərsin əvvəlində yoxlama və nəzarətin aparılmasına qarşı bir amil də mövcuddur. Hesab olunur ki, bu mərhələ dərs vaxtının 1/3 artığını tutmamalıdır. Lakin, sorğu prosesi uzun çəkə bilər, şagirdlərin cavabından razı qalmadıqda müəllim keçmiş dərsi yenidən izah etməyə başlayır. Nəticədə yeni dərsin öyrənilməsinə az vaxt qalır və müəllimin onu nəinki anlatmağa, hətta normal izah etməyə çatmır. Yeni mövzu mənimsənilmir və növbəti dərsdə yuxarıda qeyd olunan vəziyyət yenidən təkrarlanır.

Bu cür vəziyyətdən çıxış yolu, yalnız yoxlama və nəzarətlə bağlı xüsusi təşkil olunmuş dərslərdəndir. Müəllim planlaşdırmanı elə qura bilər ki, burada ənənəvi kombinələşdirilmiş deyil, xüsusi dərslər daha çox olar. Yeni materialın öyrənilməsindən üç-dörd dərs sonra (sorğusuz) xüsusi dərs gəlir. Onun əsas didaktik məqsədi – təhsil nəticələrinin yoxlanılması və nəzarəti, həmçinin qiymətlərin qoyulmasıdır. Frontal yazı işini geniş istifadə etmək məqsədəuyğun hesab edilir: onları keçirərkən vaxta nəzarət etmək asandır. Bundan başqa onları dərsin əvvəlində deyil, sonunda keçirmək olar.

Qeyd olunduğu kimi, fərdi şifahi sorğu zamanı nizam-intizam pozula bilər. Şagirdin biri lövhədə cavab verərkən digər şagirdlər passiv olur: ən yaxşı halda şagirdlər gələn dərsin materialını oxuyurlar. Belə vəziyyətdə müəllim şagirdlərin fəaliyyətini bu yaxud digər növdə təşkil edə bilər. Tapşırıqların digər növündən istifadə etmək olar:

1) Cavaba diqqətlə qulaq asmaq, lazım olan zaman əlavə etmək və ya səhvlərə düzəliş vermək

2) Sinif yoldaşının cavabının planını qurmaq;

3)Cavabın xülasəsini vermək və burada onun müsbət və mənfi xüsusiyyətlərini göstərmək (nədən deyilib, nə düz deyilməyib, cavaba nəyi əlavə etmək olar). Xülasə zamanı şagird cavab verənə qulaq asdıqdan sonra onun monoloqunu özünün fikirləşdiyi cavabla müqayisə etməlidir. Bu bir qədər çətin fəaliyyət növüdür. Onu daha məsuliyyətlə istifadə etmək məqsədəuyğundur. Nəzərə almaq lazımdır ki, həm şifahi cavab, həm də ona olan xülasə də qiymətləndirilməlidir. Sonuncu isə ilk cavabın qiymətinə mənfi təsir etməməlidir. Cavabın xülasəsini bir neçə şagird yazılı şəkildə birgə təqdim edə bilər, bu zaman dərs vaxtı qoyulmuş qiymətlərin sayı artar.

Coğrafiyanın tədrisi metodikasının əsas şərtlərindən biri də təhsil məzmununun bütün komponentlərinin yoxlanılması və nəzarət olunmasıdır.Başqa sözlə bilik, bacarıq və yaradıcılıq fəaliyyətinin dəyərləndirilməsidir.Yoxlama və nəzarət nəzəriyyəsi baxımdan, o materialın müxtəlif mənimsənilmə səviyyəsinə uyğun sual və tapşırıqların yoxlamaya mütləq daxil edilməsi deməkdir.

Xatırladaq ki, biliklərin üç mənimsənilmə səviyyəsi var .

Tədris informasiyasını *qavrama, yadda saxlama və həyata keçirmə* birinci mərhələnin yəni biliyin mənimsənilməsini göstərir. Bu mənimsənilmə səviyyəsinin tapşırıqları «adını çəkmək», «şərh etmək», «misal gətirmək», «əsas termin və anlayışların məzmununu bilmək» və «izah etmək» kimi tələblərə ümumiyyətlə cavab verməlidir.

Tədris materialını *anlamaq, nümunə üçün əvvəlki mövcud biliklərdən istifadə etmək* ikinci mənimsəmə səviyyəsini göstərir. Ona müxtəlif mənbələrdən toplanmış coğrafi informasiya, coğrafi obyektlərin və hadisələrin

səciyyəvi xüsusiyyətlərini müəyyən etmək müqayisə etməyə yönəldilmiş müxtəlif tapşırıqlar uyğundur.

Üçüncü, yüksək mənimsəmə səviyyəsi *bilikləri yeni, tanış olmayan tədris prosesində istifadə etməyi* təklif edir. Ona problemli və yaradıcılıq tələb edilən tapşırıqları müvafiqdir. (cədvəl 26).

Cədvəl 26

Biliklərin mənimsəmə səviyyəsi

Səviyyə	Fəaliyyət növü	Tapşırıq nümunələri
I	Qavrama, yadda saxlama, informasiyanı həyata keçirmə	Torpaq nədir?
II	Əvvəlki, tanış biliklərdən istifadə etməklə yaradılan bilik	«Torpaq» anlayışının dağ süxurlarından fərqləndirin Şəkildən istifadə edərək podzol və qonur meşə torpaqlarının torpaq profilinin quruluşundakı fərqi müəyyən edin və izah edin.
III	Yeni, tanış olmayan vəziyyətdə biliklərdən istifadə	Meşə zonasında çöldən fərqli olaraq çürüntü tökülməsi daha çoxdur. Lakin, çöl torpaqları –yəni qara torpaqlar – meşə torpaqlarından daha məhsuldardır. Bu nə ilə izah olunur?

Qeyd etmək lazımdır ki, bu tapşırığın hansı bir səviyyəyə aid edilməsi şərtidir və materialın öyrənilməsi xüsusiyyətilə müəyyən edilir. Əgər müəllim bütün dərs

ərzində podzol torpaqlar ilə müqayisədə qara torpaqların daha məhsuldar olmasını başa salırdısa, şagirdlər isə möhkəmləndirmə zamanı yalnız müəllimin sözlərini təkrar edirdilərsə bu zaman tapşırıq yalnız birinci səviyyəyə aid edilir. Həmçinin əksinə, əgər ekskursiya posesində şagirdlər torpaq süxurları çıxararaq «torpaq» anlayışını müəyyən etməyə çalışırlarsa, bu zaman «Torpaq nədir» sualı ikinci səviyyəyə uyğundur.

Bacarıqların formalaşdırılmasında iki səviyyə mövcuddur. Yuxarıda qeyd olunduğu kimi, məlum olan alqoritm üzrə tanış vəziyyətdə fəaliyyəti həyata keçirmək imkanı birinci səviyyəyə, fəaliyyətin yeni vəziyyətə keçməsi isə ikinci səviyyəyə müvafiqdir. Məsələn, coğrafi koordinatları müəyyən etmək bacarığını formalaşdırmaq birinci səviyyəyə aiddir.Yarımkürələr xəritəsindən Avrasiya xəritəsinə keçməklə verilən tapşırıqlar isə ikinci səviyyəni əks etdirir. Çünki, xəritələr müxtəlif proyeksiyalarda qurulmuşdur və dərəcə toru müxtəlif formalara malikdir. Yəni, əgər şagird yarımkürələr xəritəsi üzərində coğrafi koordinatları müvəffəqiyyətlə təyin edə bilirsə və bu fəaliyyəti yeni şəraitə keçirməyi bacarırsa, bu bacarığın mənimsənilməsinin daha yüksək səviyyəsini göstərir.

Yaradıcı fəaliyyətini formalaşma səviyyəsi haqda sual bu vaxta qədər açıq qalır. Hesab olunur ki, bu təcrübənin olmasını (yaxud olmamasını) şagirdin problemli və yaradıcı tapşırıqları həll etməyi bacarması ilə müəyyən etmək olar. Bu zaman yalnız problemli məsələlərin səviyyəsi aydın müəyyən edilmişdir – bu mövcud olan və yeni əldə olunan biliklər arasındakı fərqdir. (Dənizdə baş verən qasırğa zamanı, okean gəmiləri buxtaya girməyə, sunamidən isə qaçaraq açıq okeana çıxmağa çalışır. Nəyə görə? Kordilyerin sahilyanı silsilələri yaranmasına görə ən cavan olsalar da çox hündür deyillər. Bunların yaranma vaxtı və

dağların hündürlüyü arasındakı olan uyğunsuzluğun səbəbi nədədir?).

Dərslik müəllifləri və metodistlərin yekun baxışları hələ formalaşmamışdır. Bəzən bu kateqoriyaya digər növ tapşırıqlar aiddir. 1) Xəyalən ekvatordan 20-ci meridian boyunca şimala doğru səyahət edin və rast gələn təbii zonaların xüsusiyyətini izah edin. 2) «Mən səhrada, meşədə, çöldə və s.)» mözusunda inşa yazın. 3) Turizm agentliyinin başçısı olaraq Bakı –Qazax yolu boyunca çox maraqlı marşrut yaradın.

Bu cür tapşırıqları təhlil edərkən qeyd edək ki, onlar tədris prosesində şagirdləri inkişafedirici potensiala malikdir.Məktəblilərin çoxu inşa yazan zaman yalnız internet, dərslik materiallarından, bəzən isə ensiklopediyadan istifadə edirlər. Məktəb təcrübəsi göstərir ki, 8-10 şagirddən yalnız biri həqiqətən də izah olunan obyektə xəyalən gedir. Beləliklə, demək olar ki, «yaradıcılıq tapşırığı» anlayışı, «problem tapşırığı» anlayışına nisbətən daha genişdir. Yəni, hər bir problem tapşırıq yaradıcıdır. Lakin, yaradıcı tapşırığın hamısı problemli olmur.

Tədris prosesində sorğu metodlarının müxtəlifliyi didaktikada ən geniş yayılmış problem məsələlərdən biri olaraq qalır.

Sorğu metodlarının təsnifatı haqda uzun müddət müzakirələr olmuşdur. Pedaqoqlar daima şagirdlərin aktiv, yaradıcı fəaliyyətinin qiymətləndirilməsinə nəzarət edən metodlar axtarırlar..

Təbii ki, şagirdlərin hazır bilikləri təkrarlamaq metodu tənqidə məruz qalır. Lakin əsas metod kimi məktəbdə tədqiqat metodundan geniş istifadə olunmaq təklif olunur.

Hər hansı halda, olursa-olsun şagirdlərin bilik və bacarıqlarının yoxlanılması və qiymətləndirilməsi təhsil prosesinin əsas struktur komponentidir və ardıcıllıq və sistematik prinsiplərinə və təhsilin möhkəm olmasına uyğun

olaraq bütün təhsil müddəti boyunca həyata keçməlidir. Biliklərin yoxlanılması və qiymətləndirilməsinin müxtəlif növləri bununla müəyyən edilir. Onlardan əsasları bunlardır:

a) gündəlik tədris məşğələləri zamanı keçirilən biliklərin yoxlanılması və qiymətləndirilməsi;

b) hər rübün (yarımilin) sonunda keçirilən rüblük yoxlama və biliklərin qiymətləndirilməsi;

c) illik bilik qiyməti, yəni şagirdlərin il boyu davamiyyətinin qiyməti

d) buraxılış və keçid imtahanları.

Davamiyyətin keyfiyyətinin yoxlanılması və qiymətləndirilməsi zamanı əsas tədris məsələlərinin necə həll olunmasını açıqlamaq vacibdir, yəni şagirdlər nə dərəcədə bilikləri, bacarıqları, dünyagörüşü və mənəvi-estetik ideyaları, həmçinin yaradıcılıq fəaliyyəti üsullarını dərk edirlər. Hər hansı bir şagirdin təhsilə olan yanaşması, onun daimi yaxud qismən işləməsi və s. də xüsusi əhəmiyyətə malikdir. Bunların hamısı biliklərin yoxlanması və qiymətləndirilməsi metodlarının birlikdə istifadəsinin vacib olması ilə müəyyənləşdirilir. Onlar aşağıda göstərilmişdir.

Şifahi sorğu - indivudial, frontal aparılır. Bu metod biliklərin yoxlanılması və qiymətləndirilməsi zamanı daha geniş yayılmışdır. Bu metodun mahiyyəti ondadır ki, müəllim şagirdlərə keçilmiş materialların məzmunu üzrə şagirdlərə sual verir və onları cavaba yönəldir. Beləliklə, o dərsin mənimsənilməsinin keyfiyyətini və tamlığını açıqlayır. Şifahi sorğu biliklərin yoxlanılmasının sual-cavab üsulu olduğundan onu bəzi vaxt söhbət və ya söz-verbal da adlandırırlar.

Şifahi sorğu zamanı müəllim öyrədilən materialı ayrı-ayrı hissələrə bölür. Bunların hər biri üzrə də şagirdlərə sual verir. Şagirdlərə bu yaxud digər öyrənilmiş materialı tam danışmağa imkan vermək olar. Bu zaman onlar biliklərin mənimsənilməsinin dərinliyini, möhkəmliyini və dərk

olunmasını, həmçinin daxili məntiqini göstərir. Bir çox fənlərdə şifahi sorğu şagirdlərin şifahi və yazılı tapşırıqların həll olunması ilə birgə aparılır.

Şifahi sorğu şagirdlərin biliyinin yoxlanılması və qiymətləndirilməsinin ən səmərəli və yayılmış metod olsa da, onun özünün də çatışmamazlıqları mövcuddur. Onun köməyi ilə dərsdə maksimum 3-4 şagird biliyini yoxlamaq mümkündür. Buna görə də təcrübədə bu metodun müxtəlif modifikasıyalarından, əsasən də frontal, həmçinin «dərs zamanı bal» istifadə olunur.

Frontal sorğunun mahiyyəti ondadır ki, öyrənilən materialı xırda hissələrə parçalayaraq bir çox şagirdin biliyini yoxlayır. Bu sorğu zamanı şagirdi qiymətləndirmək asan olmur. Çünki, 1-2 xırda cavab keçilən dərsin mənimsənilməsinin dərinliyini və həcmini müəyyən etməyi imkan vermir.

Frontal sorğunun mahiyyəti ondadır ki, müəllim bir şagirdi şifahi soruşmaq üçün lövhəyə çıxarır, dörd-beş şagirdə isə sualla yazılı cavab verməyi təklif edir. Bu suallar əvvəlcədən ayrı-ayrı vərəqlərdə hazırlanır. Bu sorğu ona görə sıx adlanır ki, müəllim şagirdlərin yazılı işlərini yoxlayır və eyni zamanda da onları qiymətləndirir. Bununla da o biliklərin, bacarıqların yoxlanmasına ayrılan vaxtı qənaət edir.

Sorğu təcrübəsi göstərir ki, bu zaman biliklərin yazılı yoxlanması metodikası yaranmışdır. Bu sorğu zamanı müəllim şagirdlərə əvvəlcədən ayrı-ayrı vərəqlərdə hazırlanmış suallar yaxud məsələ və misallar paylayır. Onlar 10-12 dəqiqə ərzində yazılı cavab verirlər. Yazılı sorğu bir dərs zamanı bütün şagirdlərin biliyinin qiymətləndirilməsinə imkan verir. Bu da qeyd olunan metodun əsas müsbət tərəfidir.

Şifahi sorğunun məlum modifikasiyası ayrı-ayrı şagirdlərə dərs zamanı balın verilməsidir. Dərs zamanı bal, dərs müddətində ayrı-ayrı şagirdlərin göstərdiyi biliklərinə

verilir. Beləliklə, şagird öz yoldaşlarının cavablarına əlavə, dəqiqləşdirmə və dərinləşdirmə etməyi bacarır.

Sonra şagird müəllim yeni dərsi izah edərkən suallarına cavab verə və misallar gətirə bilər, həmçinin öyrənilən mövzunun mənimsənilməsini anlamaq üçün öz fikirlərini də söyləməyi bacarmalıdır. Dərs zamanı verilən ballar şagirdlərin bilik aktivliyinə və fikirlərin cəmlənməsinə imkan verir. Bununla yanaşı o şagirdlərin biliklərinin yoxlanılmasını sistematik edir.

Yoxlama yazı işləri. Bu şagirdlərin biliklərinin, bacarıqlarının, həmçinin yaradıcı bacarıqlarının yoxlanılması və qiymətləndirilməsinin ən səmərəli metodlardan biridir. Bu metodun mahiyyəti, ondan ibarətdir ki, müəllim tədris proqramındakı ayrı-ayrı mövzuları və bölmələri keçdikdən sonra və bacarıqların yoxlanılmasını və qiymətləndirilməsini yazılı yaxud praktiki formada keçirilir. Yoxlama işi keçirərkən bir sıra didaktik tələblərə riayət etmək vacibdir.

Birinci: müəllim yoxlama işini dərsi keçdikdən sonra şagirdlərin bu materialı dərk etmələri və mənimsənilməsindən əmin olduqdan sonra keçirməsi məqsədəuyğundur. Əgər şagirdlər öyrənilən proqramın mövzusunu yaxud bölməsini yaxşı mənimsəməmişlərsə, bu zaman yoxlama işi keçirilməməlidir və daha dərindən mənimsəmək üçün tədris işi davam etdirilməlidir.

İkinci: şagirdlərə bir-iki həftə əvvəlcədən yoxlama işinin keçirilməsi haqda xəbərdarlıq etmək lazımdır və bununla əlaqədar müvafiq hazırlıq işləri aparılmalıdır. Bununla yanaşı şagirdlərə məntiqi tapşırıqlar verilməlidir. Bu da onlara qeyri standart tapşırıq və məsələlər həlli üçün düzgün cavab axtarmağa kömək edir. Bəzi vaxtı xəbərdar yoxlama işi də keçirmək vacibdir. Bu şagirdlərin gələcək yoxlama işinə hazırlığını müəyyən edir.

Üçüncü: yoxlama işinin məzmunu öyrənilən materialın əsas hissələrini tam əhatə etməli və şagirdlərdən yaradıcı fikirlərin olmasını tələb edən misallarında olması vacibdir.

Dördüncü: yoxlama işi keçirilərkən şagirdlər köçürmədə və köməkdən istifadə etməyərək işi sərbəst yazmalıdırlar. Buna görə də bir tapşırığı ayrı-ayrı stol arxasında oturan tələbələrə müxtəlif variantda verilməsi daha yaxşı üsuldur.

Beşinci: yoxlama işləri adətən həftənin birinci yarısında, ikinci və üçüncü dərslərdə keçirilir. Yoxlama işini həftənin sonuna yaxud axırıncı dərslərə salmaq məqsədə uyğun hesab olunmur. Çünki, bu zaman şagirdlər yorğun olur, bu da yoxlama işinə öz mənfi təsirini göstərə bilər. Buna görə də bir gündə bir neçə yoxlama işi keçirmək mümkün deyil.

Altıncı: müəllim yoxlama işlərini çox dəqiq yoxlamalı və obyektiv qiymətləndirməlidir, həmçinin onların yerinə yetirilmə keyfiyyətini təhlil etməli, şagirdlərin buraxdıqları səhvləri təsnifatlaşdırmalı və onların biliklərində bilmədiklərini başa salmalıdır.

Şagirdlərin ev tapşırıqlarının yoxlanılması. Şagirdlərin biliklərini yoxlamaq və qiymətləndirmək üçün onların ev tapşırıqlarının yoxlanılması böyük rol oynayır. O, müəllimə şagirdin tədris işinə olan yanaşmasını, öyrənilən materialın mənimsənilmə səviyyəsini, bilikdə olan çatışmamazlığı, həmçinin ev tapşırıqlarını yerinə yetirən zaman sərbəstliyin dərəcəsini müəyyən etməyə imkan verir.

Ev tapşırıqlarının yoxlanması bu və yaxud digər formada hər dərs həyata keçirilir. Bundan başqa müəllim şagirdlərin ev tapşırıqları olan dəftərləri mütəmadi olaraq xüsusi yoxlamaq üçün yığır. Müəllim xüsusi ilə zəif oxuyan şagirdlərin ev tapşırıqlarını hər zaman yoxlamalıdır.

Proqramlaşdırılmış yoxlama. Şagirdlərin biliklərinin yoxlanılması sistemində proqramlaşdırılmış yoxlamadan istifadə olunur. Onu alternativ metod adlandırmaq olar. Bu

metodun mahiyyəti ondadır ki, şagirdlərə suallar ve bunlara aid üç-dörd cavab verilir. Cavablardan biri düz olur. Şagird onlardan birini seçməlidir. Bir neçə eyni sual və cavab şagirdlərə sinifdə ayrı-ayrı vərəqlərdə yaxud kompüterin köməyi ilə verilir. Bu da bir neçə dəqiqə ərzində onların biliyini yoxlamağa imkan verir. Bu da proqramlaşdırılmış yoxlama metodunun müsbət tərəfidir.

Lakin, bu metodun öz çatışmazlıqları da mövcuddur. Onlardan əsası odur ki, onun köməyi ilə öyrənilən materialın mənimsənilməsinin yalnız ayrı-ayrı tərəflərini müəyyən etməyə imkan verir. Bu metod biliyin bütövlükdə və həcmini müəyyən etmir. Buna baxmayaraq, demək olar ki, yuxarıda göstərilən bilikləri yoxlayan və qiymətləndirən metodlardan hər birinin həm mənfi, həm də müsbət cəhətləri var. Yoxlama yazı işləri onunla yaxşıdır ki, bütün sinif yaxud qrup şagirdlərinin biliyini eyni vaxtda qiymətləndirməyə imkan verir. Lakin, o çox vaxt tələb edir və buna görə də tez-tez keçirilə bilməz.

Hazırda ümum təhsil məktəblərində şagirdin cavabı beşballıq skala ilə qiymətləndirilir. Cavabları qiymətləndirmə və qiymətlərin verilməsi zamanı məsləhət xarakteri daşıyan təxmini kriteriyalar əsaslanmaq olar.

a) Nəzəri suala görə:

Şagird səhvə yol vermədən dəqiq cavabı məntiqi izah etməli, səciyyələnən coğrafi obyektlərin və hadisələrin əlaqəsini göstərməli; lazım olan coğrafi terminlərdən istifadə edərək, nəzəri hissəni konkret misallarla əlavə etməlidir. Sistemli biliyini nümayiş etdirməyi bacaranda şagirdə «5» qiymət qoyulur.

Sualın əsasına cavab verərkən, coğrafi proseslərə və hadisələrə təsir edən səbəb-nəticə əlaqələri haqda təsəvvürün olması və bu cavabda bəzi məzmun elementlərinin olmaması, dəqiq olmaması, yaxud cavab məntiqli olmayanda, yaxud coğrafi terminologiyadan düzgün istifadə olunmayanda şagirdə «4» qiymət qoyulur.

Cavabda məzmunun elementlərini bilməyərək fraqmentlərlə göstərən, lakin onları konkret misallarla əlavə etməyən, coğrafi proseslər və hadisələr haqda ümumi biliyə malik olmayan, lakin onların mahiyyətini açıqlaya bilməyən zaman şagirdə «3» qiymət qoyulur.

b) Problemli suala görə:

-Şagird qoyulan problemi anlamasını nümayiş etdirən və onun mahiyyətini açıqlaya bilən, qoyulan problemin mahiyyətini izah edərək, olan coğrafi bilikləri çatdıra bilən, materialı sərbəst mənimsənilməsini göstərən, vacib olan coğrafi terminləri istsfadə edən şəxsi nəzər nöqtəsini problemin təhlilində və coğrafi materialın seçimində sərbəst olan zaman şagirdə «5» qiymət qoyulur.

-Şagird cavabında problemin mahiyyətinin anlamasını göstərməyi və coğrafi bilikləri cavabda necə nümayiş etdirməyi, onları məişət səviyyəsində qoyulan problemlə əlaqələndirərək göstərdi bacararkən «4» qoyulur.

- Şagird problemin mahiyyətini anlayarkən, lakin onun həllinə aid olan faktiki materialı fraqmentlərlə göstərərkən «3» qiymət qoyulur.

c) Praktiki məsələlərin həlli üçün kartoqrafik təsvirlərin mənbə istifadəsi bacarığının (xəritə, qlobus və s.) yoxlanılmasına verilən suala görə:

- Şagird lazım olan kartoqrafik informasiya mənbəyini düzgün seçərkən, həlli yoluna dəqiq əməl edərək tapşırığı düzgün həll edəndə «5» qiymət verilir.

-Şagirdin cavabında tapşırığın ardıcıllığı görünürsə, lakin kartoqrafik mənbəyindən düzgün istifadə etməmiş, yaxud iş prosesində bəzi səhvlərə yol vermişdirsə, bu zaman «4» qiymət verilir.

- Şagirdin hansı mənbədən istifadə etməsi haqda ümumi təsəvvürü olarsa, lakin onları seçməkdə çətinlik çəkirsə, yaxud tapşırığı ardıcıllıqla həll etməsi haqda təsəvvürü olarsa, lakin onu praktiki olaraq həyata keçirməyi bacarmırsa, yaxud informasiya mənbələrinin

hamısını toplamayıb həll edəndə və alınan nəticələrdə səhvlərə yol verilən zaman «3» qiymət verilir.

Ənənəvi təhsildən yeni texnologiyalara keçid dövründə, ümumtəhsil məktəblərdə coğrafiya fənni üzrə qiymətləndirmə normaları aşağıdakı kimi təklif oluna bilər:

«5» qiymət almaq üçün şagird

- coğrafi terminləri izah edir, onlara aid fakt və nümunələr gətirir;
- coğrafi anlayış və qanunauyğunluqların məzmununu tam və düzgün açа bilir;
- proqramda tələb olunan coğrafi nomenklaturanı sərbəst olaraq xəritədə göstərir və onların coğrafi mövqeyini izah edir;
- müxtəlif məzmunlu xəritələrdən heç bir səhv olmadan istifadə edir, xəritə üzərində hesablamalar aparır, müqayisələr edir və əldə etdiyi bilikləri mövzuya tətbiq etməyi bacarır;
- əvvəllər mənimsədiyi və dövrü mətbuatdakı mühüm coğrafi hadisə və prosesləri mövcud şəraitə tətbiq edir;
- kontur xəritədə və proqram tələbində olan praktik işləri müstəqil şəkildə yerinə yetirir və onun nəticələrini ümumiləşdirir;
- dərsliyə əlavə tərtib olunmuş iş dəftərini düzgün və səliqəli şəkildə doldurur;
- problem sualların həll edilməsində, proqnoz xarakterli tapşırıqların yerinə yetirilməsində yaxından iştirak edir, təkliflər verir, təqdimatlar hazırlayır.

«4» qiymət almaq üçün şagird

- coğrafi terminləri izah edir, lakin onlara aid fakt və nümunələr gətirməkdə nisbətən çətimnlik çəkir;
- coğrafi anlayış və qanunauyğunluqların məzmununu düzgün açа bilir, lakin bir sıra səhvlərə yol verir;
- proqramda tələb olunan coğrafi nomenklaturanı xəritədə göstərməkdə müəllimin istiqamətlərinə ehtiyac

duyur, onların coğrafi mövqeyini izah edərkən kiçik səhvlərə yol verir;

- müxtəlif məzmunlu xəritələrdən istifadə edir, xəritə üzərində hesablamalar aparır, müqayisələr edir və lakin əldə etdiyi bilikləri mövzuya tətbiq edərkən çətinlik çəkir;

- əvvəllər mənimsədiyi bilikləri yada sala bilir və dövrü mətbuatdakı mühüm coğrafi hadisə və proseslərdən xəbərdar olduğunu nümayiş etdirir; lakin onları mövcud şəraitə tətbiq etmək üçün müəllimin köməyinə ehtiyac duyur;

- kontur xəritədə və proqram tələbində olan praktik işləri yerinə yetirərkən səhvlərə yol verir və onun nəticələrini ümumiləşdirməkdə çətinlik çəkir;

- dərsliyə əlavə tərtib olunmuş iş dəftərini səliqəli, lakin bir sıra qüsurlar olmaqla doldurur;

- problem sualların həll edilməsində, proqnoz xarakterli tapşırıqların yerinə yetirilməsində passivlik göstərir, təkliflər verməkdə çətinlik çəkir;

«3» qiymət almaq üçün şagird

- coğrafi terminlərin böyük əksəriyyətini başa düşür, lakin onu izah etməkdə çətinlik çəkir, müəllimin köməyinə ehtiyac duyur, nümunələr gətirə bilmir;

- coğrafi anlayış və qanunauyğunluqların məzmununu əlavə kömək olmadan şərh edə bilmir, kobud səhvlərə yol verir.

- proqramda tələb olunan coğrafi nomenklaturanın çox az hissəsini xəritədə göstərə bilir, müəllimin köməyi olmadan coğrafi mövqeyin təhlilini verə bilmir;

- xəritələrdən istifadə edə bilmir, xəritə üzərində hesablamalar aparmaqda ciddi çətinlik çəkir, müqayisələri bacarmır;

- əvvəllər mənimsədiyi bilikləri yada sàla bilmir, dövrü mətbuatı izləməkdə xətalara yol verir, coğrafi hadisə və proseslərin çox az qismindən xəbərdar olur;

- kontur xəritədə işləyərkən kobud səhvlərə yol verir, praktik işləri həll etməkdə çətinlik çəkir;

- dərsliyə əlavə tərtib olunmuş iş dəftərini qüsurlarla doldurur;

- problem sualların həllində iştirak etmir.

«2» qiymət alan şagird

-coğrafi terminlərin böyük əksəriyyətini başa düşmür, onları izah etməkdə çətinlik çəkir;

-coğrafi anlayış və qanunauyğunluqların məzmununu başa düşmür və ya kobud səhvlərə yol verir;

- proqramda tələb olunan coğrafi nomenklaturanın çox az hissəsini, müəllimin köməyi ilə xəritədə göstərə bilir.

- xəritələrdən istifadə edə bilmir, xəritə üzərində hesablamaları bacarmır;

- əvvəllər mənimsədiyi bilikləri yada sala bilmir, dövrü mətbuatı işləmir;

- kontur xəritədə işləyərkən kobud səhvlərə yol verir

- dərsliyə əlavə tərtib olunmuş iş dəftərini tamamilə səhv doldurur;

«1» qiymət alan şagird

- coğrafi terminləri izah edə bilmir;

- coğrafi anlayış və qanunauyğunluqların məzmununu başa düşmür;

- proqramda tələb olunan coğrafi nomenklaturanın çox az hissəsini bilir;

- xəritələrdən və kontur xəritədən istifadə edə bilmir.

8.4. Coğrafi biliklərin yoxlanılmasında test tapşırıqları

Test metodikası xaricdə, proqramlaşdırma tədrisinin əsasında yaranmışdır. Onlar yalnız tədris nəticələrinin qiymətləndirilməsi üçün deyil, həm də təcrübəçinin istedadını həmçinin müəyyən fəaliyyət növlərinə qarşı bacarıqların aşkar olunmasını müəyyən etmə məqsədilə istifadə olmuşdur.

Müstəqillik illərindən əvvəl məktəblər test tapşırıqlarına bir qədər şübhə ilə yanaşırdılar. Onların dərs prosesində istifadəsi qadağan olunmasada, yaxşı da qəbul olunmurdu. Ona görə də metodik ədəbiyyatda test yoxlaması geniş yer almamışdır. Bu sahədə xüsusi tədqiqatlar aparılmırdı. Test tapşırıqlarının ayrı-ayrı məsələləri coğrafiya dərslərinə aid müxtəlif metodiki kitablarda epizodik şəkildə rast gəlinirdi. Bəzi vəsaitlərdə test formada tapşırıqlar «coğrafi imla» adlanırdı.

1990-cı illərin ortalarında test texnologiyalarına olan yanaşma köklü dəyişmişdir. Test tapşırıqları tədris nəticələrinin yoxlanılması kimi şöhrəti kəskin yüksəlmişdir. Testlərin istifadə miqyası çox artmışdır. Bu bir sıra səbəblərə görə baş vermişdir: 1) təhsil nəticələrinə marağın artması; 2) kompyuter texnikasının tədris prosesində geniş tədbiqi, yoxlama işinin nəticələrini avtomatlaşdırılmış yoxlanılma imkanları; 3) yazı işlərində düzgn (səhv) cavabların hesablanması, yəni verilən qiymətlərin obyektiv olması; 4) qısa zaman ərzində tədris materialının böyük həmçinin yoxlanılması, yəni yoxlamanın yüksək səmərəliliyi.

Test yoxlanılmasına artıq maraq son illərdə vahid dövlət imtahanlarının keçirilməsi bağlıdır. Ali və orta ixtisas məktəblərinə qəbul imtahanları, Dövlət qulluğunda işləmək üçün kadr seçimi (Vergilər Nazirliyi, Gömrük Komitəsi, Milli Təhlükəsizlik Nazirliyi və s) və s. Azərbaycan Respublikası Prezidenti yanında Tələbə Qəbulu üzrə Dövlət Komissiyası tərəfindən həyata keçirilir.Coğrafiya fənni üzrə test tapşırıqları ikinci ixtisas qrupunda iqtisadiyyat və coğrafiya ixtisasında və eləcə də bir sıra dövlət qulluğunda işə düzəlmək üçün kadr seçimində tətbiq olunur. (2005-ci ilə qədər humanitar ixtisaslarada tətbiq edilirdi).

TQDK-nın həyata keçirdiyi imtahan suallarında hər ixtisas üçün 120 test tapşırığı təqdim olunur. Testlər abituriyentlərə 700 bal qazanmaq şansı verir.

Əslində , testologiya ilə məşğul olan tədqiqatçılar 700 ballıq qiymətləndirmə şkalasını, hazırda orta məktəblərdə tətbiq olunan «beşballıq» qiymətləndirmə ilə uyğunlaşdırmış və aşağıdakı kimi qəbul etmişlər.

625-dən yuxarı - «5»;
553-624 bal – «4»;
481-552 bal - «3»;
408-480 bal - «2»;
335-407 bal - «1».

Test yoxlamasının nəzəriyyəsi cavabların variantlarının qurulmasına bir sıra tələb irəli sürür. Onların hər biri (həm düzgün, həm distraktorlar) lazımi dərəcədə düzgün və cəlbedici olmalıdır. Bundan başqa, cavabların bütün variantları təsdiqə uyğun olmalıdır, eləcə də Azərbaycan dilində aydın ifadə olunmalıdır.

Test imtahanlarının ilk illərində tətbiq olunan, sadə, şagirdlərdən yalnız faktiki bilik tələb edən tapşırıqlar demək olar ki, hazırda istifadə olunmur.

Məsələn: «Dünyada neçə iqlim qurşağı vardır?

A) 10 B) 13 C) 9 D) 11 E) 6

Digər tapşırıq növü terminlərin izahını tələb edir.Tapşırıqlar uzun təsdiq və qısa cavabla daha cəlbedici görünürlər. Məsələn: «Şərti işarələri istifadə etməklə, müəyyən riyazi qanunlarla qurulmuş, yer kürəsinin bütövlükdə kiçildilmiş ümumiləşdirilmiş təsviri adlanır:

A) ərazinin planı B) şəkil C) aerofotoşəkil D) coğrafi xəritə E) qlobus

Tapşırıqların formasının təhlilini başa çatdırarkən, onları quran zaman «göstərin» «verin» yaxud «qeyd edin» kimi sözləri istifadə etmək daha məqsədəuyğundur.

İlk baxışdan tapşırıqların açıq formasını qurmaq asan gəlir. Bunun üçün cavabı dərslikdəki kimi götürmək lazımdır.

Məsələn:

«Okeanın neftlə çirklənməsinin nəticələrinə aid etmək olar» test tapşırığının bir neçə düzgün cavabı var: okean üzərində buxarlanmanın azalması; üzvi aləmin azalması; okeanla atmosferin əlaqəsinin məhdudlaşması və s. Düzgün cavabların çox olması – qeyd olunan tapşırıqların tamamilə başqa stildə təqdim olunmasına imkan verir. Belə ki, müəyyən sayda cavablar yazılır. Düzgün cavablarla yanaşı səhv fikirlər də istifadə olunur. Məsələn çay və göllərin çirklənməsi və yaxud, onun dibində baş verən tektonik proseslərin fəallaşması və s. Cavabların rəqəmlə ifadə olunması və düzgün cavabın seçilməsi test texnologiyasında geniş yayılmışdır. Müasir skaner qurğuları bu cavabın məntiqi təhlilini apara bilmir. Cavabları bir-iki sözdən yaxud rəqəmdən ibarət tapşırıqlar qurmaq daha məqsədəuyğundur.

Digər tapşırıq da diqqəti cəlb edir:

«Kanadada ingilis və .... dillərdə danışırlar.

cavablarda «italyan», «ukrayna» və hətta «çin» yazmaq olar. Lakin, aydındır ki, bu sualda fransız dili nəzərdə tutulur.

Qeyd olunan tapşırıq digər vəziyyətdə belə olur:

«Kanadanın dövlət dili, ingilis dili ilə yanaşı .... dilidir.

Test tapşırıqları tədris prosesində digər formalarda tətbiq oluna bilər. Məsələn, təqdim olunan formalarda olan test tapşırıqlarında olan elementlərin indeksasiya olunmuş yığımı arasındakı müvafiqliyi təyin etməyi nəzərdə tutur. Birinci çoxluğun elementlərini rəqəmlə, ikincini hərflərlə qeyd etmək təklif olunur. (Cədvəl 27).

Test tapşırıq növü

Cədvəl 27

Uyğun gələn ifadələri müəyyən edin:

1	Nəqletmə, mühazirə, mühasibə....	A	Venn diaqramında aparılır
2	Xəritə üzərində dərəcə şəbəkəsinə əsasən hesablama işlərinin aparılması...	B	Yeni biliklərin verilməsidir.
3	Şagirdin məlum biliklərdən məchula doğru istiqamətləndirilməsi...	C	Öyrədici mühitdir
4	Coğrafi obyektlərin bir-biri ilə müqayisə edilməsi	D	İnduktiv prinsipdir
5	Şagirdlərin nəyi bilmək və nəyi bacarmaq tələbi	E	Məlumatı çatdırandır
6	Dərsin dərketmə mərhələsi...	K	İqtisadi prinsipdir.
7	«Müəllim-kollektiv-şagird»...	T	Əşyavi mühitdir
8	Şagirdlərin idraki fəaliyyətinin təşkil edilməsi....	F	Dəqiq nəticələrin nail olunmasına yönəlmiş metodların cəmidir
9	Qafqaz dağlarının nümunəsində bütün dağların öyrənilməsi....	R	Xəritəni başa düşməkdir
10	Tədrisin şagird şəxsiyyətinin inkişafına yönəlməsi...	N	Kollektivçilik prinsipidir
11	Ənənəvi təlim metodlarında müəllim....	R	Milli kurrikulumun elementləridir
12	Qrup təlim metodu ilə tədris prosesində məqsəd...	F	Coğrafiya tədrisi metodikasının nəzəri metodlarıdır

13	Təbii ehtiyatlardan səmərəli istifadə edilməsinin ön plana çəkilməsi...	Ç	Problem situasiyadır
14	Planlaşdırma, öyrənmə nəzəriyyəsi və idarəetmə...	U	Coğrafiya tədrisinin əsas prinsipləridir
15	Tədris prosesində əyanilik tətbiq edilməsi...	X	Coğrafiya tədrisi metodikasının emprik metodlarıdır
16	Tarixi yanaşma, statistik təhlil...	Z	Dərsin əsas məqsədləridir
17	Təhsil, İnkişafetdiricilik və tərbiyəedicilik...	Y	Coğrafiya tədrisinin təlim məqsədləridir
18	Özünüidarə, özünüqiymətləndirmə məsuliyyət, məhəl şünaslıq və s...	Ü	Psixoloji prinsipdir
19	Pedaqoji texnologiya...	P	Şifahi şərh metodlarıdır
20	Müsahibə, anket sorğularının aparılması, pedaqoji eksperiment...	Q	Müasir tədris fəaliyyət formasıdır

Sağ çoxluqda elementlərin sayı soldakından artıq ola bilər, bu nisbi çətinlik yaradır, lakin, sağ və sol sütunlarda say bərabər olduqda, digər halda sonuncu uyğunluq avtomatik olaraq müəyyən olunur.

Digər tapşırıq forması da geniş yayılmışdır. Onlar bir çoxluğun elementləri arasında düzgün və məntiqi ardıcıllığın müəyyən olunması ilə bağlıdır.

Böyük Qafqazın (dağ zirvələrindən ətəyinə kimi) hündürlük qurşağının dəyişməsinin düzgün ardıcıllığını təyin edin.

1) meşə qurşağı
2) qar və buzlaqlar qurşağı
4) alp qurşağı
5) meşə-çöl qurşağı

3) subalp qurşağı

Bu cür tapşırıqlar üçün analoji variant fikirləşmək bir qədər asandır. bunun üçün mötərizədə göstərilmiş fikri əksi ilə əvəz kifayətdir (dağ ətəklərindən onların zirvələrinə), və düzgün ardıcıllıq əks olur.

Müxtəlif statistik materialların mənimsənilməsinin yoxlanılmasına aid test tapşırıqları da şagirdlərin bilik və bacarıqlarını üzə çıxarılmasına imkan verir. Ölkələrin (yaxud rayonları) kəmiyyət göstəricilərinin dəyişməsi ardıcıllığı ilə (ərazinin böyüklüyü, əhalinin sayı, hasilatın, istehsalın yaxud hər-hansı bir məhsulun istehlak həcmi) yerləşdirilməsi. səbəb-nəticə əlaqələrinin yoxlanılması mümkündür.

Digər tapşırıq növləri də şagirdlərin təfəkkürünün inkişaf etdirilməsi və səviyyəsinin yoxlanılması baxımından maraqlıdır. Məsələn:

«Avstraliyanın təbii xüsusiyyətlərini izah edən səbəb-nəticə əlaqəsinin zəncirini yaradın»:

1.Dağlar, okeandan gələn nəm hava kütlələrini saxlayır.

2.Ərazinin çox hissəsini səhralar təşkil edir.

3.Materikin çox hissəsində az yağıntı düşür

Belə test tapşırıqlarının açıq və qapalı test tapşırığı kimi təqdim etmək mümkündür.

Test tapşırıqları tərtib edərkən coğrafiya tədrisinin bütün məzmun komponentləri nəzərə alına bilər. Bu tələbin həyata keçməsi cədvəldə təqdim olunmuşdur (Cədvəl 28).

Beləliklə, test tapşırıqlarının köməyi ilə həm empirik, həm nəzəri bilikləri, həm də praktiki bacarıqları nəzarət etmək olar.

Cədvəl 28

Test yoxlaması üçün olan coğrafiya təhsilinin məzmun elementləri

Məzmun elementləri	Tapşırıq növü	Düzgün cavab
Empirik biliklər: Faktlar	Cənubi Avropada yağıntılarının əsas hissəsi ilin hansı vaxtı düşür. 1) qışda 3) yayda 2) yazda 4) payızda	1
	ABŞ əhalinin sayına görə hansı ölkələrdən irəlidədir 1.Braziliya və İndoneziyadan 2.İndoneziya və Yaponiyadan 3.Braziliya və İndoneziyadan 4.Avstraliya və Hindistandan	3
Empirik biliklər: coğrafi nomenklatura	Amazon ovalığı ... dağlar yerləşən materikdədir: 1) Kordilyer 2) Himalay 3) And 4) Atlas	3
	Avrasiya yarımadalarını şərqdən qərbə doğru hansı ardıcıllıqla yerləşir: 1.Hindistpan 2. Ərəbistan 3.Kiçik Asiya 4.Priney 5.Hin-Çin	5.1.2. 3.4
Nəzəri biliklər: Anlayışlar	İnsanın təsərrüfat fəaliyyətinə bütövlükdə yaxud qismən daxil olan təbiət komponentləri, adlanır...	Təbii ehtiyatlar
	«Beynəlxalq coğrafi əmək bölgüsü» anlayışının əsas xüsusiyyətləri hansılardır?	2

	1. konsentrasiya və ixtisaslaşma 2. ixtisaslaşma və mübadilə 3. mübadilə və kooperasiya 4. kooperasiya və kombinə	
Nəzəri biliklər: səbəb-nəticə əlaqələri	Qərbi-Sibir düzənliyinin Şərqi-Avropa düzənliyindən səciyyələnir:	
	1. Platformanın bünövrəsinin daha dərinlikdə yerləşməsi 2. Tektonik hərəkətlərinin çox olması ilə 3. Çöküntü örtüyünün qalınlığının az olması ilə üzdə baş verən 4. Səthdə relyefəməələgətirən proseslərin zəif fəaliyyəti ilə	1
	Azərbaycanda əkin sahələri daha çox məruz qalır: 1.sellərə 2. şoranlaşmaya 3. sürüşmələrə	2
Təlim bacarıqları Praktiki fəaliyyət	VI sat qurşağında 5 saat 23. 45dəq. olarsa, bu zaman yeni sutka hansı saat qurşaqlarında başlamışdır. 1) II-dən XI-qədər 2) II-dən V-qədər 3)V-dənVII-qədər 4) VII-dən XI-qədər	4

Hazırda dünyanın əksər ölkələrində o cümlədən azərbaycanda istifadə olunan qiymətləndirmə standartları Amerika psixoloqu B.Blüm (1913-1999) test üsulu ilə taksonomiyasına (1956) əsaslanır. B.Blümün təsnifatına görə suallar şagirdlərdən ideyaların sintezini, məlumatın təsvir və təhlilini, obrazları interpretasiya etməyi (yəni bir şəkilin digərinə çevirməyi), tətqiq etməyi və s. tələb edir. 1969-cu ildə B.Blüm təsnifatını yenidən Sanders islahatına məruz qalmışdır. Sanderə görə sualların müxtəlif növləri vardır ki, formal və hafizə tələb edən suallar mühitinə tələb edən, suallar isə kursun yuxarı həddini göstərir. B.Blüm təsnifatında şagird təfəkkürünün bütün növlərinin (xüsusilə məntiqi), yaradıcı və tənqidi) inkişafı, yoxlanılması nəzərdə tutulur(Cədvəl 29).

Sualların təsnifat cədvəlindən görünür ki, coğrafiya fənnin məzmununda, onlar üçün geniş imkanlar vardır.

Ali və orta ixtisas məktəblərinə qəbul, əsas və orta məktəbin buraxılış imtahanları üçün təqdim olunan test tapşırıqları da məhz sözügedən taksonomiya əsasında tərtib olunur.

Tədris prosesində qiymətləndirmənin testlərlə aparılmasında da bu tələblər gözlənilməlidir.

Test tapşırıqları mürəkkəblik, relevantlıq dərəcəsinə görədə qruplaşdırılır.

Hazırda coğrafiya fənni üzrə müxtəlif müəssisələrdə istifadə olunun test tapşırıqları relevantlıq dərəcəsinə görə aşağıdakı kimi qruplaşdırmaq qəbul edilmişdir:

1. **Terminologiya** - Coğrafiya kursunun məzmununa daxil olan bütün terminlər bu siyahıya daxildir. Coğrafi terminlərin inifikasiyası, orta məktəblərdə dəqiq yerləşdirilməsi xüsusi tədqiqat tələb edir. Termin sualları xarakterinə görə fərqli şəkildə verilə bilər. Bu məlumdan-məchula və ya əksinə məchuldan məluma prinsipindən istifadə etmək mümkündür. Məsələn:

Cədvəl 29

B. Blüm taksonomiyasına görə bilik səviyyələrinin təhlili

Səviyyələr	Tədris məqsədi	Şagirdlərin fəaliyyəti	Tədris strategiyası
BİLİK	Məlumat və faktları dəyişiklik etmədən yadda saxlama və xatırlama bacarığı	Terminləri sadalamaq, əzbərləmək ardıcıllıqla söyləmək təkrarlamaq	Mühazirə oxuma
ANLAMA	Nə dediyini anlamaq və materialdan digər materiallarla əlaqə yaradaraq istifadə etmək bacarığı	Təsnif etmək.təsvir etmək, müzakirə etmək,izah vermək	Mühazirə. Kiçik qruplarda müzakirə
TƏTBİQ	Nəticə çıxarma,yeni situasiyanı izah etmək üçün ümumi ideyaları tətbiq etmək bacarığı	Tətbiq etmək, seçmək, şərh etmək	Müzakirə. Rollu oyunlar. Nümunələr. Qrup və fərdi layihələr
ANALİZ	İnformasiyanı hər bir hissəsi anlaşıqlı və əlaqəli şəkildə ayırmaq bacarığı	Təhlil etmək.müqayisə etmək ziddiyəti açmaq hesablama aparmaq	Suallar-müqayisə ziddiyət qrup müzakirəsi rəylər
SİNTEZ	Ümumini formalaşdırmaq üçün mövcud olanlarını birləşdirmək bacarığı	Quraşdırmaq yaratmaq inkişaf etdirmək formalaşdırmaq	İnşa yazmaq təqdimat qrup müzakirəsi
QİYMƏTLƏNDİRMƏ	Məlumatın qiymətləndirilməsi onun müəyyən kriteriyalara uyğunluğuna aid fikirlərin əsaslandırmaq bacarığı	Əsaslandırmaq. Qiymətləndirmək. Mühakimə yürütmək müdafiə etmək	Yazılı. Şifahi rəylər debat. Qiymətləndirmə

Passat nədir? (tropik enliklərdən ekvatora doğru axan küləklərdir) sualında termin üçün izah etmək tələb olunursa, əksinə «tropik eniliklərdən ekvatora doğru əsən külək nə adlanır? (Passat) ola bilər. Şagirdin əqli qabiliyyətindən asılı olaraq düzgün cavabın təyini fərqli olacaqdır.

Təhlillər göstərir ki, hafizə suallarına mexaniki yadda saxlanmaya meylli şagirdlər birinci halda, daha yüksək anlama qabiliyyətinə meyilli şagirdlər ikinci halda müvəffəqiyyət qazanır.

2. Faktoloji suallar – coğrafi nomenklatura, hər hansı coğrafi hadisənin baş verdiyi ərazinin müəyyən edilməsi bir coğrafi obyektin tərkibinə daxil olan digər obyektlər və s. tipli torpaqlar «faktiki» suallardır.

Məsələn:

Sərhəddə yerləşməyən dağ silsilələri:

A) Qovdağ, Sudur, Yan silsilə

B) Niyaldağ, Ələt, Zəngəzur

C) Dərəlyəz, Vulkanik yayla, Murquz

D) Murov, Niyal dağ, Ləngəbiz

E) Talış ,Peştəşər, Burovar

Və yaxud

Çoxsahəli sənaye mərkəzləri:

A) Bakı, Sumqayıt, Gəncə B) Bakı, Oğuz, Şirvan

C) Sumqayıt, Xaçmaz, Masallı D) Gəncə, Yardımlı, Şirvan E) Mingəçevir, Naxçıvan, Lerik

Göründüyü kimi «faktoloji testlər şagirdlərdən əsasən hafizə tələb edir. Lakin, sualların cavabı mürəkkəb yaddasaxlamaya əsaslanır.

2.Ümumiləşdirmə sualları -hər hansı iki (üç, dörd və s.) coğrafi obyekt (materik, region, ölkə, çay, təbii zona, iqlim qurşağı və s.) arasında oxşar və fərqli cəhətləri təhlil

edilməsini əks etdirir. Şagirdlərdən müqayisə bacarığının tələb edilməsinə dair test tapşırıqlarının tərtib edilməsi çox mürəkkəbdir və diqqət tələb edir. Məsələn:

Lənkəran və Samur – Dəvəçi düzlərinin oxşar əlamətləri:
1.Xarici ölkə ilə həmsərhəddirlər.
2. Xəzər dənizinə çıxışları vardır.
3. Rütubətli subtropik iqlimə məxsusdur.
4.Allüvial-çəmən torpaqlar mövcuddur.
5. Mülayim isti iqlim hökmrandır.
6. Sitrus meyvəçiliyi inkişaf etmişdir.
A) 1,4,6 B) 2,3,5 C) 1,3,5 D)2,4,6 E)1,2,4

Digər variantda belə suallar daha sadə görünür. Məsələn:
Bazardüzü, Şahdağ və Qapacıq zirvələri üçün ümumi cəhət:
A) Eyni tektonik zonaya aiddirlər
B) Eyni dağ silsiləsi üzərindədirlər
C) Buzlaq relyef formaları vardır
D) Eyni fiziki coğrafi rayon daxilindədir
E) Rusiya ilə sərhəd rola malikdir

Ümumiləşmə ilə təsviri də interpritasiya xarakterli ola bilər. Məsələn:
Əlamətlərin hansı iqtisadi rayona aid olduğunu müəyyən edir:
1.Xəzərə çıxışı vardır
2. Neft hasil edilir
3. Bütün yüksəklik qurşaqları mövcuddur
4.Kurort turizm ehtiyatları mövcuddur.
A) Lənkəran B) Kür –Araz, C)Quba-Xaçmaz, D) Şəki-Zaqatala E) Yuxarı Qarabağ

4. İzahat – xarakterli test tapşırıqları şagirdlərin mühakimə yürütmək, təhlil etmək qabiliyyətinin üzə

çıxarılmasına istiqamətlənmişdir. Səbəb-nəticə əlaqələrinin, məntiqi ardıcıllığın, coğrafi obyektlər arasında əlaqələrin olmasına aid test tapşırıqları güclü təfəkkürə malik olan şagirdlərdə daha çox maraq yaradır. Məsələn:

Azərbaycanda taxıl əkinləri əkin sahələrinin 50%-dən çoxunu əhatə etsə də əhalinin daxili tələbatı ödənilmir. Bu nə ilə izah olunur?

A) məhsul yığımının əllə aparılması ilə
B) tələbatın dünya normasından artığı ilə
C) güclü maldarlıq komplekslərinin inkişafı ilə
D) iqlimin isti və rütubətli olması ilə
E) məhsuldarlığın aşağı olması ilə

İzahat hər hansı konkret coğrafi hadisənin təhlilinə də aid ola bilər. Məsələn:

Kür çayının yazda daşmasının səbəbi:
A) buzlaq suları ilə qidalanması
B) yağış suları ilə qidalanması
C) əsasən qar suları ilə qidalanması
D) yeraltı və yağış suları ilə qidalanması
E) buzlaq, yağış və qar suları ilə qidalanması

Bəzən izahat xarakterli test tapşırıqları ümumiləşmə testlərinə çox oxşar olur.

Məsələn:
Mərkəzi Aranda pambıqçılığın inkişafına təsir edən amillər:

A) düzən relyef, isti rütubətli iqlim
B) düzən relyef, isti və quru iqlim
C) yayla relyef, suvarma şəbəkəsi
D) düzən relyef, mülayim iqlim
E) ovlaq, sıx lay şəbəkəsi, soyuq iqlim

Azərbaycanın kənd təsərrüfatı heyvandarlığın inkişafı üçün geniş imkanlara malikdir.

Çünki:

A) örüş-otlaqlar il boyu açıq şəraitdə istifadəyə yarayır

B) düzənlik ərazilərdə il boyu savanna bitkilərinin becərilməsinə imkan vardır

C) heyvanları il boyu tövlə şəraitində saxlamaq üçün bol yem ehtiyatı mövcuddur

D) kənd təsərrüfatı maldarlıq üçün müasir dünya standartlarına uyğun tövlələrlə təmin olunmuşdur.

E) dövlət ehtiyat fonduna daxil olan torpaqlar tamamilə əhaliyə paylanmışdır.

İzahat sualları B.Blüm taksonomiyasına görə « analiz etmək» qrupuna daxildir.

5. Hesablama-xarakterli suallar, anlamanın yüksək pilləsi olub, özündə faktiki rəqəmləri (məsələn, şagird bilməlidir ki, hündürlüyə doğru havanın temperaturu hər 1000 m-də 6°C aşağı düşür, və ya hər saat qurşağının şərq və qərbi arasında 1 saat vaxt fərqi vardır və s.), mühakimə irəli sürməyi, təhlil aparmağı və s.-i birləşdirir.

Hesablama sualları birbaşa riyazi coğrafiyanı özündə əks etdirir. Belə test tapşırıqları fənnlərarası əlaqə baxımından əhəmiyyətə malikdir.

Mürəkkəblik səviyyəsinə görə hesablama sualları sadə, orta, çətin və daha mürəkkəb olurlar. Hesablama bir mövzuya aid olarsa belə testlər sadə və orta olurlar. Məsələn:

«23 sentyabrda günəşin düşmə bucağı hansı en dairəsində 38° bucaqda görünür?»

A) 23° 30 B) 58° C) 52° D) 22° E) qütb dairələrində

və yaxud

«Ölkədə əhalinin ümumi sayı 60000000-dır. Onun 60%-i əmək ehtiyatına aiddir. Əmək ehtyiatının 30%-i isə sənaye sahəsində çalışır. Fəal əhalinin mütləq sayı nə qədərdir?»

A) 36000000
B) 18000000
C) 6000000
D) 600000
E) 12000000

Çətin və daha çətin (mürəkkəb hesablama testləri iki və daha çox mövzunu birləşdirir. Həlli zamanı daha mürəkkəb əməliyyatların tətbiqini tələb edir. Məsələn:

«Yay gündönümündə şimal qütb dairəsi ilə günəşin zenitdə olduğu paralel arasında dərəcə fərqi:»

A) 23,5° B) 66,5° C)50° D) 47° E) 43°

Bəzi hallarda hesablama sualları şəkil, sxem ilə sintez olunur, nəticədə daha mürəkkəb test tapşırığı alınır. Məsələn:

Sxemə əsasən M nöqtəsinin mütləq hündürlüyünü KM nöqtələri arasında temperatur fərqinin hesabı: (Sxem 40)


A) 1100 m və 6°C
B) 1200 m və5,4°C
C) 1150 m və 5,7°C
D) 1115 m və 4,8°C
E) 1450 m və 5°C

6. **Təklif olunan əməliyyat** və ya tətbiq xarakterli test tapşırıqları şagirdlərdən daha mürəkkəb fəaliyyət növləri tələb edir. Xəritə, sxem, şəkil, diaqram, hidroqraf və s.

üzərində aparılan əməliyyatlar – terminoloji (hər hansı coğrafi obyekt və ya hadisənin təsviri), faktoloji (xəritə üzərində coğrafi obyektlər), ümumiləşmə, izahat, hesablama xarakterli sualların təklif edilməsidir.

Məsələn: Xəritə-sxemə əsasən qış otlaqları üçün əlverişli olan əraziləri müəyyən edin:

Sxem 41



A) 20, 24,4 B) 12, 3, 17 C)) 11, 15, 5 D) 26, 9, 7 E) 18, 16, 25

Digər nümunədə Azərbaycan Respublikasında əhalinin yaş tərkibini əks etdirən diaqramının müəyyən ediilməsi


tələb olunur (Bunun üçün ilk növbədə öyrəncilər şərti işarələr ilə tanış olmalıdırlar) : (Sxem 41)

0-14 yaşlılar 15-64 yaşlılar 65 yaşdan yuxarı

A)  B)  C) 

D)  E) 

1. Aqağıdakı iqlim diaqramına əsasən hansı nəticəyə gəlmək olmaz: (Sxem42)



1.Rüiubətlənmə əmsalı həmişə vahiddən böyükdür

2. Sutkalıq temperatur amplitudası ən böyük kəmiyyətə çatır

3. Fiziki aşınmanın qiyməti daha çoxdur

4. Buxarlanma ilə buxarlanma qabiliyyəti arasında çox azdır

5. Gecə-gündüzün adi növbələşməsi müşahidə olur

6. Fəsillər aydın müşahidə olunmur

7.Qəhvəyi torpaqlar əmələ gəlir

8.Cod yarpaqlı həmişəyaşıl meşə və kolluqlar yaradır

A) 2,5,7,8

B) 3,5,7,8

C) 3,4,5,6

D) 1,2,4,6

E) 1,2,4,7

1. Cədvələ əsasən əhalinin yaş tərkibini müəyyən edin:

№	%-ilə göstərici	Yaş göstəricisi
I	67%	?
II	7%	?
III	26%	?

A) 1-15-64 yaşlılar, II-65 yaşdan yuxarı, III-0-14 yaşlılar

B) 1-0-14 yaşlılar, II-65 yaşdan yuxarı, III-15-64 yaşlılar

C) 1-15-64 yaşlılar, II- 0,14 yaşlılar,III-65 yaşdan yuxarı

D) 1-65 yaşdan yuxarı .II-15-14 yaşlılar, III-0-14 yaşlılar

E) 1-0-14 yaşlılar, II-15-64 yaşlılar, III-65 yaşdan yuxarı.

7. Proqnoz xarakterli suallar, şagirdlərdən daha yüksək tənqidi təfəkkürün üzə çıxarılmasına xidmət edir. Təklif olunan fəaliyyətdə olduğu kimi, proqnoz sualları da, əvvəlki fəaliyyət növlərini özündə birləşdirə bilir. Məsələn:

«Nabukko» qaz kəmərinin layihəsinə görə Xəzərin şərq və qərb hissələri necə əlaqələndiriləcəkdir?

A) kəmər Xəzər sahili ovalıqdan keçməklə çəkiləcək
B) gəmi –bərələr vasitəsi ilə
C) xüsusi tankerlərin köməyi ilə
D) kəmər Xəzərin üzəri ilə çəkiləcək
E) Kəmər Xəzərin dibi ilə çəkiləcək
Və yaxud

Uzun illər Kür çayının aşağı axarında toplanan lilin təmizlənməməsi nəticəsində:
A) Neftçala rayonunda daşqınların daha təhlükəli olmasına səbəb olur.
B) Muğan və Mil düzlərinin şoranlaşmasına səbəb olur.
C) Salyan rayonu ərazisində bataqlıqların yaranmasına səbəb olur.
D) Sabirabad rayonunda daşqın və sel hadisələrinin baş verməsinə səbəb olur
E) Toplanan lil ərazidə məhsuldar qara torpaqların yaranmasına səbəb olur.

Müasir dövrdə təqdim olunan qapalı testlərlə yanaşı hazırda «açıq tipli» testlərdən istifadə olunur. Belə test nümunələrində cavablar yazılmır.

8.5. Coğrafi biliklərin yoxlanılmasında tətbiq olunan yeni texnologiyalar

Şagirdlərin coğrafi bilikləri məzmununun mənimsənilmə səviyyəsinin yoxlanılması və qiymətləndirilməsi, yəni, nəzarəti, tədris prosesinin tərkib hissəsinin və həmçinin coğrafiya tədrisinin ayrılmaz hissəsidir.

Lakin yoxlama və nəzarətin mənası təkcə əks təsirlə bitmir. O, həm də şagirdlərə öyrədici, tərbiyəedici və inkişaf etdirici təsirə malikdir.

Yoxlamanın *öyrədici* funksiyası aydındır. Sorğu zamanı şagirdin cavabı onun mövcud bilik və

bacarıqlarının səviyyəsini əks etdirir. Lakin elə olur ki, nəzarət prosesində şagirdlər yeni bilik və bacarıqlar əldə edirlər.

Yoxlama və nəzarət həmçinin *tərbiyəedici* funksiyaya da malikdir. Çünki coğrafiya kursu üzrə kifayət qədər tərbiyəvi potensiala öz ölkəsinə, regionuna olan hörmət və məhəbbəti formalaşdıran, eləcə də digər xalqların mədəniyyətə tolerant yanaşma tələb edən; təbiətə olan qayğılı münasibət və təbii ehtiyatlardan səmərəli istifadəsinin vacibliyinə dair sual və tapşırıqlar vardır.

Nəzarət prosesində şagirdlər məntiqi düşünməyi ifadə etdiyi fikirləri əsaslandırmağı və s. öyrənirlər. Bu zaman nitq, düşüncə, yaddaş, diqqət və digər idrakı proseslər inkişaf edir. Bu mənada yoxlama və nəzarətin *inkişaf etdirici* funksiyası daha böyükdür.

Psixoloji araşdırmalar göstərir ki, tədris fəaliyyəti birinci növbədə şagirdlərin şəxsiyyətinin intelektual əsaslı-tələbati, emosional sahəsinin inkişafına şərait yaradır. Bəs onda yeniyetmə (13-15 yaş) və gənc (15-17 yaş) şagirdlərin inkişafının əsas xüsusiyyətləri hansılardır?

Məlumdur ki, yeniyetmə yaşı uşaqlıqdan böyüklüyə doğru kəskin keçidlə xarakterizə olunur. Yeniyetmənin şəxsiyyəti disharmoniyadır ki, bu da, onun özündən böyüklərə qarşı kəskin etirazedici davranışı ilə xarakterizə olunur. Yeniyetmə yeni sosial səviyyəyə çıxır, onun özünə qarşı cəmiyyətin bir nümayəndəsi kimi münasibəti yaranır, böyüklərin onu qiymətləndirilməsindən özünüqiymətləndirməyə doğru gedir, özünü dərketmə baş verir.

Yeniyetmə dövründə əsas əhəmiyyət yaşıdları ilə ünsiyyətə verilir. Dostları ilə ünsiyyət zamanı yeniyetmələr cəmiyyətdəki davranış qaydalarına yiyələnir, özünü və başqalarını qiymətləndirməyi öyrənirlər. Lakin yüksək

səviyyədə olmaq başqa ünsürlərin sayəsində mümkün olursa, bu zaman qiymət öz mənasını itirir.

Bu baxımdan şagirdlərin qiymətləndirilməsinə oyun texnologiyalarının gətirilməsi vacibdir. Sorğu prosesinin sadələşdirilməsi, onu « əzabverici həyacanlı dəqiqələrdən», «sevincgətirici» sərbəst özünü yoxlamağa» gətirmək üçün yeni tipli tapşırıqlar hazırlanmalıdır.

Biliklərin yoxlanılmasının digər aşağıdakı nümunələrdə verilmiş növləri bu baxımdan maraqlıdır:

a) İfadələrin tamamlanması

Şagirdlərə xüsusi sorğu vərəqələri paylanır.

«Sakit okeanın sahəsi ..... olub, ...nın ən iri su sahəsidir. Okeanın ətrafında ..... materik, o cümlədən ....., ..., ..., ..., ..., yerləşir. Okean eyni adlı litosfer tavası üzərində yerləşir. Hər tərəfdən tavalarla toqquşur. Bu isə müasir ....əmələ gətirir və Sakit okean .... adlanır. Hazırda Sakit okeanı yaşına görə ...okean hesab edirlər, çünki okean getdikcə ..... Bunu ..... və .....materiklərinin yaxınlaşması göstərir.

Sakit okean çox nəhəng olduğuna görə ətraf materiklərin təbiətinə, ilk növbədə .....güclü təsir edir. Belə ki, nəhəng su sahəsi ilə qonşu quru sahələri arasında təzyiq fərqi yaranır, güclü hava .... əmələ gəlir. Belə küləklərdən biri .... olub, əsasən Şərqi və Cənub Şərqi Asiya üçün xarakterikdir»

Şərtə görə şagirdlər buraxılmış yerlərə mətnə uyğun sözlər əlavə etməli və fikirləri tamamlamalıdır. (materialın birgə oxunmasını təlimin texniki vasitəsi – kodoskopla ağ və ya elektron lövhədə nümayişi ilə təşkil etmək olar).

Cavablar: 183 milyon kv.km; dünyanın; 5; Avrasiya, Cənubi Amerika, Şimali Avstraliya, Avstraliya, Antarktida; geosinklinal; odlu həlqə; qədim; qapanır; Avrasiya, Şimali Amerika iqliminə; axınları; musson.

b) Sematik əlamətlərlə coğrafi izahat.

Şagirdlər onlara təqdim olunan əlamətləri təhlil edir və onları qruplaşdırır:

Əlamətlər:

1.Qarabağ vulkanik yaylasından başlayır.
2.Respublikada ən uzun çaydır.
3.Üzərində eyni adlı su anbarı mövcuddur.
4.Dörd ölkənin ərazisindən keçir.
5.Buzlaqların ərinti suları ilə qidalanır.
6.Rusiya ilə sərhəd çaydır.
7.İranla sərhəd çaydır.
8.Yağış və yeraltı sularla qidalanır.
9.Uzunluğu 1515 km-dir.
10.Okean səviyyəsindən 11 km aşağıda digər çaya qovuşur.
11.Üç ölkənin ərazisindən axır.
12.Üzərində Bəhrəmtəpə adlı su anbarı var.
13.Gürcüstan ilə sərhəddir.
14.Təbii rejimlidir.
15.Yalnız yağışla qidalanır.
16.Birbaşa Xəzər dənizinə tökülür.
17.Üzərində Sərsəng adlı su anbarı var.
18.Quruyan çaydır.
19.Dağ çayıdır.
20.Mənbəyini digər ölkənin ərazisindən götürür.
21.Türkiyənin Bingöl silsiləsindən başlayır.
22.Kürün sol qollarıdır.
23.Tənzimlənmiş çaylardır.
24.Qidasında qar və yeraltı sular üstündür.
25.Düzənliklərdən axan çaydır.

Xüsusi metodikaya uyğun olaraq verilmiş əlamətləri çaylara tətbiq etmək üçün bir neçə dəqiqə vaxt sərf olunur. Bir əlamət bir neçə çaya aid ola bilər. Məsələn:

Nümunə: Kür – 2, 8, 9, 11, 16, 20, 23, 25.

Digər nümunə cədvəl şəklində tərtib olunur.(Cədvəl 30)

Əlamətlər	Ekvator	Subek-vator	Tropik	Subtro-pik	Müla yim	Subarktik	Arktik
İl boyu isti olur	+	+	+				
Yay ayları yağıntı olur	+	+				+	
Fəsillər bilinmir	+						+
İl boyu quru olur			+				
Yayda tropik, qışda mülayim olur				+			
Fəsillər kəskin bilinir			+	+	+		
Rütubətə görə 2 tipə bölünür			+				
Heç bir tipə bölünmür	+	+				+	+
Sutkalıq amplituda kəskindir			+				
İllik amplituda cüzidir	+						+
İlk boyu yüksək təzyiqdir			+				+
Musson tipii var				+	+		
Aralıq dəniz tipi var				+			
Qış quru və soyuq olur						+	+

Şagirdlər cədvəli xüsusi işarələri qoymaqla tamamlayır. Təqdim olunan ev tapşırığını başqa variantda da yerinə yetirmək mümkündür. Belə ki, həmin əlamətlər yazılır, eyni zamanda əlamətlər iqlim qurşaqlarına uyğun olaraq qruplaşdırır. Məsələn:

Ekvatorial 1, 3, 8, 10.
Subekvatorial 1, 2, 6, 8, 10.
Tropik 1, 4, 7, 6, 9, 11.
Subtropik 5, 9, 12, 13.
Mülayim 6, 12.
Subarktik 2, 6, 8, 14.
Arktik 3, 8, 10, 11.

C) Qrafik sorğu üsulu

Keçmiş dərsin sorğusu və ya yeni dərsin möhkəmləndirilməsi prosesində həyata keçrilir.Müəllim

nəzərdə tutulan mövzuya aid fikirləri ardıcıl olaraq aramla oxuyur. Şagirdlər isə həmin fikirlərə öz münasibətini bildirir. Sorğu prosesinin əsas ideyası, fikirlər arasında müəllimin bilərəkdən yazdığı səhvlərin şagirdlər tərəfindən müəyyən olunmasıdır. Qrafik sorğunun təşkil olunması üçün ilk növbədə, eni 10 sm , uzunluğu 20 sm-dən ibarət kiçik vərəqlər üzərində şagirdlər öz adlarını yazır və müəllimin şərtinə əsasən, söylənilən ifadələrin düz (-) və ya səhv ( ) olduğunu ardıcıllıqla qeyd edərək qrafik şəkildə əks etdirir. Bunun üçün sinifdə bütün şagirdlər fərdi işləməli, eyni vaxtda verilən sualların hamısına cavab verməlidir. Sorğu bir variantda aparılmalı, sakitlik tamamilə bərpa olunmalıdır.

Qrafik sorğu adətən keçmiş dərsin sorğusu və ya yeni dərsin möhkəmləndirilməsi prosesində tətbiq olunur. Məsələn, VIII sinifdə Abşeron iqtisadi rayonu sorğusu aşağıdakı kimi aparıla bilər.

1. Abşeron iqtisadi coğrafi rayonu respublikamızın iqtisadi və sosial cəhətdən inkişaf etmiş ikinci böyük rayonudur.

2. Rayon ərazisində quru subtropik iqlim hakimdir

3. Abşeron filiz ehtiyatları baxımından zəngin deyil

4. Abşeron rayonunun əhalisinin içməli su təchizatında Samur-Abşeron kanalı, Nohurqışlar, Ceyranbatan su anbarı mühüm rol oynayır.

5. Rayonun əhalisi çox millətlidir.

6. Rayonun sənayesi tikinti materialları, idxal neft-qaz və kənd təsərrüfatı xammalının emalına əsaslanır

7. Səttərxan adına, Keşlə, B.Sərdarov adına və Suraxanı zavodları rayonda ən böyük neft maşınqayırması müəssisələridir


8. Qara və əlvan metallurgiyanın ən böyük müəssisələri Sumqayıt boruyayma və aluminium zavodlarıdır

9. Rayonun aqroiqlim ehtiyatları qiymətli sitrus bitkilər olan zəfəran, badam, püstə, əncir, zeytun yetişdirməyə imkan verir

10. Bilgəh, Buzovna, Pirşağı, Mərdəkan, Şüvəlan şəhər tipli qəsəbələrdir.

Şagirdlər özlərinə məxsus vərəqlərdə aramla söylənilmiş fikirlərə öz münasibətini ardıcıl bildirirlər. Bu üsul eyni vaxtda bütün şagirdlərdən suallara cavab verməyin mümkünlüyünü təmin edir, nəticədə təlimin səmərəliliyi artır.

Düzgün cavab şablonu:



Cavablar yoxlandıqdan sonra düzgün cavab lövhəyə çəkilir və şagirdlərin vərəqləri onlardan seçilmiş iki ekspert tərəfindən yoxlanılır. Göründüyü kimi, ifadələrdən ümumiyyətlə (1,4,6,9) səhvdir. Bu metoddan təkcə bir deyil, bir neçə mövzunun sorğusu üçün, eyni zamanda yekunlaşdırıcı dərslərdə istifadə etmək olar.

Digər nümunə olaraq X sinif « Yerşünaslıq» kursunda « Atmosfer» mövzusunun yekununa aid aşağıdakı kimi qrafik sorğu tərtib oluna bilər:

1. Dünyanın iqliminin müxtəlif olmasının səbəbi günəş şüalarının yer səthini qeyri-bərabər qızdırmasıdır.

2. Günəşin şüalarının düşmə bucağı ekvatordan qütblərə doğru artır, bu isə hava temperaturunun azalmasına səbəb olur.

3. İqlim əmələ gətirən amillər dedikdə günəş radiasiyası, hava kütlələrinin dövranı və döşənən səth qəbul edilmişdir.

4. Döşənən səthdən asılı olaraq iqlimdə əsasən 2 tip əmələ gəlir, belə ki, okean səthi üzərində quru, materik səthi üzərində isə rütubətli iqlim tipi yaranır.

5. İqlimin əsas göstəriciləri temperaturun, yağıntının illik gedişidir ki, bu da iqlim diaqramlarında əks olunur.

6. İqlim əsasən coğrafi uzunluqlar üzrə dəyişir, belə ki, eyni meridian üzərində yerləşən bir neçə məntəqədə iqlim eyni olmur.

7. Coğrafi enliklərdə isə iqlim hər tərəfdə «qurşaq boyu» bütün məntəqələrdə eyni olur.

8.Hər hansı məntəqədə iqlim haqqında əsas göstəricilərdən biri rütubətlilik əmsalıdır. Belə qəbul edilmişdir ki, rütubət əmsalı vahiddən böyük olarsa, bu ərazinin iqlimi quru – kontinental, kiçik olduqda isə rütubətli olur.


9. Dünyanın iqlim xüsusiyyətləri və göstəriciləri şimal və cənub yarımkürələrində əks göstəricilərdir.

10. Yer kürəsində mövcud olan hava kütlələri təzyiq qurşaqlarından asılı olaraq 4 tipə bölünür ki, bunlar da ekvatorial, tropik, mülayim və arktik (antarktik)dir.

Şagirdlər coğrafiya dəftərlərində və ya xüsusi blanklarda deyilən fikirlərə öz münasibətlərini ardıcıl bildirirlər.

Qrafik sorğu eyni vaxtda bütün şagirdlərdən suallara cavab verməsinin mümkünlüyünü təmin edir, Nəticədə təlimin səmərəliliyi artır.

Cavab:



Cavab vərəqləri toplandıqdan sonra düzgün cavab (şablon) lövhəyə çəkilir və şagirdlərin vərəqləri onlardan seçilmiş iki ekspert tərəfindən müəllimin özü tərəfindən və ya lövhədə çəkilmiş şablona əsasən şagirdlərin özü tərəfindən yoxlanıla bilər. Göründüyü kimi, ifadələrdən 4-ü ümumiyyətlə, (2, 4,

7 və 8-ci) səhvdir və bu səhvlər şagirdlərin iştirakı ilə təhlil olunur.

Digər nümunə bilavasitə « Coğrafiya tədrisi metodikası» kursunun tədrisinə aiddir:

1.Coğrafiyanın tədrisi metodikası elm sahəsi kimi coğrafiya və pedaqoji elmlərin sintezindən yaranmışdır.

2.Coğrafiya tədrisi metodikasına görə nəyi öyrənmək - təlimin məqsədini, niyə öyrənmək- təlimin məzmununu, necə öyrənmək isə təlimin forma və metodlarını əks etdirir.

3.Tədris metodikasının tədqiqat metodları nəzəri və emprik olmaqla iki qrupa ayrılır.

4.Müasir dövrdə orta ümumtəhsil məktəblərində tədris olunan coğrafiya fənninin əsas vəzifəsi - coğrafi təbəqənin tərkibinə daxil olan müxtəlif təbəqələri təsvir etmək, coğrafi nomenklaturanı xəritə üzərində təyin etməkdən ibarətdir.

5.Coğrafi məkan, cəmiyyət və iqtisadiyyat --- coğrafiya fənni üzrə milli kurrikulumun əsas məzmun xətləridir

6.Coğrafiya tədrisininin ən mühüm psixoloji əsası təlimin şəxsiyyətyönümlü və inkişafetdirici prinsipə malik olmasıdır.

7.Coğrafiya tədrisində istifadə olunan metodların mahiyyəti --- qarşıya qoyulmuş məqsədə çatmaq üçün tətbiq olunan fənd və üsulların cəmidir.

8.Müasir, interaktiv təlim metodlarına görə tədris prosesinin iştirakçılarından biri olan müəllimin əsas işi --- informasiyanı ötürən, şagirdin isə əsas işi tədqiqatçı rolunda çıxış etməkdir.

9.Verbal yəni söz, nəqletmə, mühazirə və müsahibə metodları şifahi şərhin ənənəvi metodlarıdır.

10. Əyani metodların ən mühüm tərkib hissəsi olan xəritə üzərində aparılan işlər üç mərhələdə aparılır: xəritəni başa düşmək, xəritəni oxumaq və xəritəni bilmək

11. Coğrafi biliklərin müəllim tərəfindən ötürülməsi və şagirdlərin həmin bilikləri mənimsənilərək təkrarlaması produktiv metod adlanır.

12. Motivasiya dərsin sonunda həyata keçirilən düşünməyə yönəltmə mərhələsində aparılan, yeni mövzunun möhkəmləndirilməsi və şagirdlərin rəyinin öyrənilməsini əhatə edən prosesdir.

13. Müasir tələblərə uyğun gələn üç mərhələli dərs prosesinin tərkibinə: düşünməyə yönəltmə, dərketmə və düşünmə mərhələləri daxildir.

14. İnteraktiv dərsin mahiyyəti fərdi olaraq şagirdlərin müəllim ilə ünsiyyətini nəzərdə tutur.

15. Coğrafi biliklərin qiymətləndirilməsində ko effekt şagirdin müəllim yanında reputasiyasına əsaslanır belə ki şagird əvvəllər aldığı yüksək qiymətləri sonralar heç bir zəhmət çəkmədən əldə edir.

16. Təlim gənc nəslin təcrübəsinin yaşlı nəsilə ötürülməsi prosesi olub ən qədim dövrlərdən cəmiyyətin diqqət mərkəzində durur.

17. Coğrafiya dərsinin ən mühüm tiplərindən biri olan kombinə edilmiş dərs --- bir neçə elementi özündə birləşdirməsi ilə fərqlənir.

18. Tədris vəsaiti kimi natural obyektlərə mineral nümunələri, herbari, kinofilm, faydalı qazıntı nümunələri daxildir.

19. Dərsliyin mətindənkənar elementləri onun didaktik aparatı adlanır.

20. Sinifin təşkili, biliklərin yoxlanılması, yeni mövzunun öyrədilməsi və möhkəmləndirilməsi, ev tapşırığının verilməsi---interaktiv dərsin əsas mərhələləridir.
Düzgün cavab: 1+,2-,3+,4 -,5-, 6+,7+,8-,9+,10+,11-,12 -,13 +,14 -,15-,16 -,17 +,18 -,19+,20 –

d) Rəqəmlə sorğu üsulu

Coğrafiya fənninin tədrisində özünəməxsus coğrafi məkan anlayışının mövcudluğu bu texnologiyanın tətbiq edilməsinə geniş imkan yaradır. Rəqəmlə sorğu üç səviyyədə aparıla bilər: a) coğrafi toponimləri öyrənmək məqsədi ilə b) coğrafi fikir və ifadələrin regionlara tətbiq edilməsi məqsədi ilə c) coğrafi məzmunun əks olunduğu imlada istifadə olunan (hekayə, şer və.s) coğrafi adları qruplaşdırmaqla Aşağıdakı nümunələrdə bunu aydın görmək mümkündür:
Əvvəlcədən yazılmış coğrafi adlar az vaxt ərzində dağ, ovalıq, zirvə, yayla, çökəklik olmaqla qruplaşdırılır.

1. Pont. 2. Kür-Araz. 3.Fərqanə. 4. Tyan-Şan. 5. Qələbə. 6. Aldan. 7.Kopetdağ. 8. Anadolu. 9. Üstyurt. 10.Tavr. 11. Sayan. 12. Turan. 13.Savalan. 14.Verxoyansk. 15. Qaragiye. 16. Altay. 17. Turfan. 18. Tuva. 19. Xəzəryanı. 20.Qafqaz. 21.Ağrıdağ. 22. Cunqar. 23. Volqaboyu. 24. Turqay. 25. Talış.

Coğrafi adlar şagirdlər tərəfindən müxtəlif xüsusiyyətlərinə görə qruplaşdırılır:

Ovalıq - 2, 3, 12, 19, 23.
Dağ – 1, 4, 7, 10, 11, 14, 16, 20, 22, 25.
Zirvə – 5, 13, 21.
Çökəklik – 15, 17, 18, 24.
Yayla – 6, 8, 9, 22.

Düzgün cavab lövhəyə yazılır. Daha tez cavab verən şagird qiymətləndirilir.

Həmin coğrafi adlardan istifadə edərək onların havada –yəni hansı türk dövlət və qurumunda yerləşdiyini müəyyən etmək olar. Digər nümunə daha sadə olub, aşağı sinif şagidləri üçün nəzərdə tutulmuşdur:

Afrika sahil xətlərini müəyyən edin.

1. Şimal
2. Şərq
3. Cənub
4. Qərb

1. Kamor adları;	2. İiynə burnu;
3. Madaqaskar adası	4.Qvineya körfəzi
5. Aralıq dənizi	6. Qırmızı dəniz
7. Mozambik boğazı	8. Sokotra adası
9. Seysel adaları	10. Yaşıl burun adası
11. Ben- sekka burnu	12. Almadı burnu
13. Xas-Xafun boğazı	14. Ümid burnu
15. Cəbəltariq boğazı	16. Somali yarımadası
17. Ədən körfəzi	18. Bab-əl məndəb boğazı

Düzgün cavab

4 3 2 4 1 2 2 2 2 4 1 4 2 3 1 2 2 2

Digər variantda tapşırıq Azərbaycana aid ola bilər:

1. Viləş 2. Bazardüzü, 3. Dəlidağ,4. Qapıcıq, 5. Muğan. 6. Zəngəzur. 7. Xunam 8.Qarayazı, Türyançay,10. Qızyurdu, 11. Arpaçay, 12. Əsrik çay.13. İncədüzü, 14. Qudyalçay 15. Masazır 16. İşıqlı 17. Küküdağ 18. Burovar 19. Beşbarmaq 20. Təngə dərəsi

Düzgün cavab:

1. Böyük Qafqaz - 2. 9,14,15.19,20
2. Kiçik Qafqaz - 3,12,16
3. Talış - 1,10,18,16

4. Aran - 5,7,8,13
5. Naxçıvan - 4,6,11,17

Digər variantda coğrafi adlar deyil, coğrafi ifadələrin hansı təbii rayona aid olması təyin olunur:

1.Azərbaycanın ən uca zirvəsi buradadır
2. Yağıntının miqdarı buxarlanmadan daha çoxdur
3. İqlimin kəskin kontinentallığı ilə seçilir
4. Çökmə süxurlar səthi tamamilə örtmüşdür
5. Tumlu meyvəçiliyin inkişafı üçün əlverişli şərait vardır.
6. Sitrus bitkiçiliyinin inkişafı mümkündür
7. Pambıqçılıq ixtisaslaşmış sahədir
8.Dağ mədən sənayesinin inkişafı üçün geniş imkan vardır
9. Mineral bulaqlarla zəngin olması ixtisaslaşmasına təsir edir.
10. Tranzit dəmiryol və avtomobil magistrallarının üzərində olması rayonun inkişafına müsbət təsir edir.

Şagirdlərin növbəti fəaliyyəti ifadələrin təbii rayonlara uyğun olaraq qruplaşdırılmasıdır.

1. Böyük Qafqaz- 1.5.
2. Kiçik Qafqaz-8.
3. Talış- 2.6.
4. Kür-Araz- 4.7.10
5. Naxçıvan-3.9

Digər nümunə «Materik və okeanların fiziki coğrafiyası» kursuna tətbiq oluna bilər.Məsələn:

«Qurunun dağ və düzənlikləri» - mövzusunda adları çəkilən nomenklaturanı materiklərə uyğun olaraq qruplaşdırır.

1.Avrasiya
2. Şim.Amerika
3. C.Amerika
4. Afrika

1. Okean və materik tavalarının toqquşması nəticəsində əmələ gələn Kuril, Yapon və Filippin adaları həm də cavan dağlıq ölkələridir.

2. Sakit okeanın təsiri ilə əmələ gələn digər relyef formaları And və (Kordilyer) dağlarıdır. Bu qurşaq dünyanın ikinci seysmik zonasıdır.

3. Üçüncü böyük dağlıq qurşaq Alp dağlarından Himalaya qədər uzanan bir sistemdir.

4.Atlas dağlardarından başlanan bu nəhəng dağ sisteminin tərkibinə hündür zirvələr daxildir.

5. Müasir tektonik prosesinin daha fəal baş verdiyi ərazilərdən biri də quruda yeganə çat zonasıdır Tanqanika və Nyasa göllərinin yerləşdiyi bu ərazi seysmik zonasıdır.

6. Materiklərin platformalarına uyğun gələn denudason düzənliklərə Braziliya, Saxara, Dekan, Orta Sibir və s. düzənliklərin misal göstərmək olar.

7. Platformaların çökək sahələrinə və platformalararası çökəkliklərə uyğun gələn akkumulyativ düzənliklər də geniş yer tutur.

Amazon, Missisipi, Turan, Baltikyanı La-Plata, Qərbi Sibir buna misaldır.

Düzgün cavab:

1,1,1,3,2,1,1,4,4,4,3,4,1,1,3,2,1,1,3,1,1,3,1,4,4,3,1

Üçüncü variantda rəqəmli sorgu daha mürəkkəb şəkildə şəkildə tərtib olunmuşdur. Şagirdlər müəllimin aramla oxuduğu mətnə və ya «hekayə»-yə qulaq asır, eşitdikləri coğrafi adları onlardan tələb olunan materiklərə uyğun yazılmış rəqəmləri ardıcıllıqla yazır. Bu zaman onlar həm yeni bilik əldə edir və eləcə də keçmiş biliklərini yoxlamaq imkanı əldə edir.

«Dünyanın yaşı» adlı «hekayə»sinin nümunəsində bu variantı belə təqdim etmək olar:

1. Şm Amerika
2. Avrasiya

3. C.Amerika
4. Afrika
5. Avstraliya

« Ən qədim vaxtlarda yəni 4 milyard il əvvəl Zabaykale və Pribaykale dağları yaranmağa başladı. Az sonra, Brazilya yaylasının yerində nəhəng dağ sistemi əmələ gəldi. Bu dağlar sonralar yağış və küləyin təsirinə məruz qalaraq indiki hala düşmüşdür. Hazırda səhraya çevrilmiş Saxara da bir vaxtlar uca dağlar olmuşdur.

Müəyyən dövr dünyada sakitlik olmuşdur. Paleozoy erasının sonunda yenidən seysmiklik artmış zəlzələ və vulkanlar aktivləşmişdir. Bu vaxt Appalac, Böyük Suayrıcı, Ural, Kap, Skandinaviya dağları yaranmağa başladı.

Mezazoyun əvvəlində yer kürəsi geoloji yuxuya getdi. Lakin sakitlik uzun çəkmədi. Bu dəfə Yer kürəsinin şimal yarımkürəsi daha güclü seysmikliyə məruz qaldı. Kordilyer, Verxoyansk dağları yaranmaqla yerdə quru səthi daha kiçik hissələrə ayrıldı. Müasir dövrdə də davam edən dağəmələgəlmə And, Alp, Himalay, Atlas, Qafqaz dağlarının hündürlüyünün artması ilə müşayiət olunur.

Düzgün cavab: 2, 2, 3, 4, 1, 5, 2, 4, 2, 1, 2, 3, 2, 2, 4, 2

e) «Səhvlərin təyini»

Hər hansı fənnin müvəffəqiyyəti onun tədris edilməsində istifadə olunan metodlardan asılıdır. Xüsusilə aşağı siniflərdə şagirdlər işgüzar oyunlarla aparılan tədrisə meyilli olurlar. Şagirdlərin bu xüsusiyyətindən səmərəli surətdə istifadə etməklə böyük nailiyyət əldə etmək mümkündür. Belə metodlardan biri «Səhvlərin təyin edilməsi»-dir. Müəllim əvvəlcədən tərtib etdiyi mətndə xeyli miqdarda «səhvlər» edir, onların sayı barədə məlumat verir. (verməyə də bilər).Dinləyici-şagirdlər tam sakitlik şəraitində müəllimin və ya öz aralarından nitq qabiliyyətinə görə

seçilən şagirdlərdən birinin nitqinə qulaq asır, və öz vərəqlərində «səhvləri» qeyd edir. Oyunun bütün yaş dövrlərində maraqla qarşılanacağı bəllidir. Ona görə də birinci nümunə «Coğrafiya tədrisi metodikası»na aiddir.

« *Metod qarşıya çıxa bilən* ***problemləri müəyyən etmək*** *üçün fənd və üsulların cəmidir. Coğrafiyanın tədrisində ənənəvi olaraq şifahi şərh, əyani və praktik metodlar mövcud olmuşdur. Şifahi şərh metodlarının həyata keçirilməsində öyrədənin* ***görünüşü*** *ən vacib elementdir. Bu metod şagirdlərdə başqasının fikrini izləmək,* ***bilikləri tətbiq etmək*** *, materialı ardıcıl və məntqi şərh etmək qabiliyyəti əldə edə bilir. Şifahi şərhin* ***ən yeni*** *metodlarından biri verbal metodudur. Tədris materialının ümumiləşdirilməsində və* ***motivasiya mərhələsinin*** *yaradılmasında əvəzedilməz üstünlüklərə malikdir. Şifahi şərhin digər metodu mühasibədir. Müsahibənin 2 forması mövcuddur: istiqamətləndirici suallar vasitəsi ilə şagirdin idrak qabiliyyətinin aktivləşdirilməsi* ***katexisis,*** *faktiki materiallara qısa və lakonik sual- cavab dialoqu isə* ***evristik*** *müsahibə adlanır. Əyani metodların tədris əhəmiyyəti daha böyükdür. Belə metodlar içərisində xəritə üzərində aparılan işlərdir. Xəritə üzərindəki işlər 3 mərhələdə aparılır: xəritəni başa düşmək,* ***xəritəni görmək,*** *xəritəni bilmək. Digər metodlar qrupu isə praktik metodlardır. Bu metodlar əsasən* ***sinif şəraitində*** *aparılır. Tətbiq olunduğu mövzulardan asılı olmayaraq,tədris metodları dərsin müxtəlif mərhələrində aparılmalıdır. Dərsin motivasiya mərhələsi yəni yeni* ***mövzunun izah edilməsi prosesində*** *müəllimin aktivliyi maksimuma çatır. Digər mərhələlərdə - xüsusilə , dərketmə mərhələsində* ***şagirdlərdən yüksək aktivlik*** *tələb olunur.*

Sonuncu mərhələ düşünmə adlanır. Coğrafi biliklərin möhkəmləndirilməsi məhz bu mərhələdə həyata keçirilir. Coğrafiyanın tədris edilməsində ən mühüm təşkilat forması ***ekskursiyalardır****. Digər mühüm forma isə dərs olub, şagird şəxsiyyətinin inkişafında yüksək əhəmiyyətə malikdir. Dərsə verilən tələblər bütün* ***dövrlərdə eyni*** *olmuşdur – əvvəlki dövrlərdə inkişafetdirici funksiya ön planda verilir.Müasir zamanda isə dərsin* ***təhsilverici*** *funksiyası daha çox əhəmiyyət kəsb edir.»*

Tələbələr qeyd vərəqlərində buraxılmış səhvləri müəyyən edir : 1. məqsəd 2.emosiya 3 bilikləri əldə etmək 4 ənənəvi 5. Nəticənin üzə çıxarılmasında 6 evristik 7.katexisis 8 xəritəni oxumaq 9.sinifdənkənar 10. düşünməyə yönəltmə 11. müəllimdən yüksək bilik 12. dərs 13 dövrlərdə müxtəlif 14. təhsilverici 15. inkişafetdirici

Digər nümunələrdən biri «Materik və okeanların fiziki coğrafiyası» kursuna aiddir.

«Antarktidanın kəşf olunması coğrafi mövqeyi»nə aid 5 dəqiqəlik hekayə»

«Antaraktida çox böyük ərazi olduğuna görə bütün meridianlarda yerləşən yeganə materikdir. İlk dəfə bu materiki D.Bellinshauzen və M.Lazarev 1819-cu ildə kəşf etmişdir. 1911-ci ildə dekabrın 14-də Rual Amundsen, 18 yanvarda 1912-ci ildə isə Robert Skót cənub qütbünə çatmışlar. Onlar (P.Amundsen və R.Skot) eyni vaxtda yola düşmüşdülər. Lakin R.Amundsenin dəstəsi gecələr də hərəkət edir. Skotun ekspedisiyası isə axşamlar istirahət edir və yalnız gündüzlər hərəkət edirdi. Amundsenin ekspedisiyası qütbə çatan gün dumanlı və çiskinli hava idi. Güclü yağış ara vermədən yağırdı. Bir neçə gün onlar

çadırda istirahət etdilər. Ətrafda canlı gözə dəymirdi. Az sonra günəşin şüaları səthi qızdırmış pinqivin quşları yuvalarından çıxıb civildəşir, sanki ekspedisiya üzvlərinə xoş gəlmisiniz deyirdi. Bir neçə gün ərzində misilsiz elmi məlumatlar əldə edən səyyahlar sahilə yan aldılar. Sahildə morj və suiti çox idi».

Müəllim mətndə 7 səhv fikrin olduğunu elan edirsə, şagirdlər dəfələrlə və daha diqqətlə mətni oxuyur, qeydlər aparır və düzgün cavabları (əslində səhvləri) üzə çıxarır. Onları əsaslandırırlar.

II variantda müəllim səhvlərin miqdarını da şagirdlərdən soruşur, bu isə şagirdlərdən daha artıq məsuliyyət tələb edir.

Digər nümunədə şagirdlərin təfəkküründün inkişafı üçün daha geniş imkanlar vardır. «Relyefdən istifadə» adlanan bu mətndə kobud səhvlər buraxılmışdır.

«Relyefin formalaşmasında daxili və xarici qüvvələr iştirak edir. Xarici qüvvələr içərisində günəş enerjisi ,**zəlzələlər,** külək, buzlaqlar, **vulkan püskürmələri** hər yerdə eyni deyil. Xarici qüvvələr nəticəsində süxurlar aşınır, küləyin tərkibi dəyişərək-**metomarfozlaşır.** Azərbaycanda relyefin əmələ gəlməsində yalnız denudasiya və akkumulyasiya prosesi rol oynayır. Ğelə ki, Dağlıq ərazilərdə **akkumulyasiya**, düzənliklərdə isə **denudasiya** aktivdir.

Böyük Qafqazın dağətəyi zonalarında **Ceyrançöl-Acınohurda** kəskin parçalanmış relyef formaları –yastanlar üstünlük təşkil edir. Buzlaqların hökmran olduğu yüksək dağ zirvələrində isə karlar, **dyunlar,** morenlər, **deltalar, gətirmə konusları** və troq dərələri geniş yayılmışdır.

Xarici relyef formalarının yaranmasında əsasən düzənliklər üçün səciyyəvi olan **sürüşmələr** mühüm rola malikdir.

Gilli süxurlarda inkişaf edən belə sürüşmələr əkin sahələrinə, yaşayış məntəqələrə böyük zərbə vurur.

Respublikamızda düzən ərazilər əsasən əkinçilik və **yay otlaqları** kimi istifadə olunur.

Suvarma şəbəkəsinin təsiri ilə yaradılan əkin sahələri **talalar** şəklindədir. Əsas sənaye mərkəzləri də düzənliklərə uyğun gəlir.

Dünyanın hər yerində olduğu kimi respublikamızda da hündürlük və yamacların **meyilliyi artdıqca ərazinin mənimsənilməsi artır.**

k) «Kənar olanın müəyyən edilməsi»

Sinifdə çox variantlı və düzgün qymətləndirmə aparmaq üçün son illər istifadə olunan yeni metodlardan biri də «kənar olanı müəyyən edin» və ya « çatışmayanı təyin edin» tapşırıqlarıdır. Belə tapşırıqları xəritə üzərində coğrafi adların öyrənilməsinə də tətbiq etmək mümkündür. «Kənar olunan müəyyən edilməsi» texnologiyasında 3,4,5 və daha çox coğrafi obyektin adı yazılır. Şagirdlərdən onlardan birini yəni obyektlər qrupuna aid olmayan ondan hər hansı coğrafi obyektin adını seçmək bacarığı tələb olunur, bununla da şagirddə güclü məntiqin inkişaf etdirilməsinə şərait yaranır.

Məsələn:

1.Salyan
2.Neftçala
3. Kürdəmir
4. Ağsu
5. Göyçay

Göründüyü kimi coğrafi adların sayı beşdir, lakin şagirdlərə «Dördlükdən kənar olan müəyyən edin» sualı verilir. Belə ki, verilmiş nümunədə şagirdlər Ağsu rayonunu seçməlidir. Onlar, bu rayonun Dağlıq Şirvan iqtisadi rayonuna, digər rayonların isə Aran iqtisadi rayonuna aid olduğunu əsaslandıra bilərlər.Əməliyyatı əksinə də aparmaq olar. Bu da biliyin möhkəmlənməsinə xidmət edir. Bu vaxt şagirdlərə «Çatışmayanı əhatə edin» sualı verilir.

Məsələn:

1.Quba
2.Xaçmaz
3.Qusar
4.Şabran
5.

Coğrafi adlar qrupu təqdim edilərək şagirdlərə «Çatışmayanı əlavə edin» sualı verilir.

Bu halda şagird ilk növbədə adların Quba-Xaçmaz iqtisadi rayonununa aid olduğunu təyin edir və sonra bu iqtisadi rayonun inzibati rayonlarının adlarını yada salaraq Siyəzən rayonunun olmadığını söyləyir.

Təqdim olunan variantda aparılan əməliyyatlar şagirdlərdən konkret və dəqiq bilik tələb edir. Şagird xəritəsi, mövcud informasiyanı bilməli və tətbiq

t) Yada salaraq oxu və ya cümlələri tamamla

Bu metoda əsasən şagirdlərin hər birinə ayrıca yazı vərəqi paylanır. Şagirdlər buraxılmış sözlərə mətnə əlavə edirlər.

« Lənkəran iqtisadi-coğrafi rayonu respublikanın - _____ yerləşir. Rayon şərqdə _____ ilə əlahətəlidir. Qərbdə və cənubda _____ həmsərhəddir. Tərkibinə Lənkəran, Cəlilabad _____ inzibati rayonları daxildir.

Lənkəran rayonu təbii şəraitinə görə respublikanın başqa iqtisadi-coğrafi rayonlarınlan fərqlənir. Rayonda - _____ iqlim hakimdir.

Rayonun əhalisi ___ fərqlənir.

Respublikada istehsal olunan _____ 99%-İ, tərəvəz və bostan məhsullarının yarıdan çoxu bu aryonun payına düşür. İqtisadi rayon _____ meyvəçilik rayonudur.

Sənaye məhsulunun 90%-ə qədəri _____ sənayenin payına düşür. İqtisadi rayonun inkişafında _____ şəhərinin böyük əhəmiyyəti var.

Rayon termal mineral sularla zəngindir ____ və _____ isti mineral bulaqları daha məşhurdur».

Şərtə görə şagirdlər buraxılmış yerlərə mətnə uyğun sözlər əlavə etməli və fikirləri tamamlamalıdı.

Cavablar: Cənub-şərqi; Xəzər dənizi; İran İslam Respublikası; Masallı; Astara; Lerik; Yardımlı; rütubətli sübtropik; uzunömürlülük; çay; sitrus; yeyinti; Lənkəran; Lənkəran (Meşəsi); Masallı.

f) T-sxemin tərtib olunması

Hər hansı problemə olan ikili münasibəti əks etdirir. Şagird şəxsiyyətinin inkişafına onun sərbəst nəticə çıxarmaq bacarığına yönəlir. Cütlər və ya sinif bütövlükdə 2 qrupa ayrılır. Qoyulmuş məsələyə münasibətinə görə sinif iki qrupa bölünür:

Lehinə və əleyhinə olanlar

Məsələn: «Xəzər dənizindən neft çıxarılması məqsədə uyğundurmu

Hə (lehinə)	yox (əleyhinə)
-	-
-	-
-	-
-	-

Və ya «Bataqlıqların qurudulması təbiətdə lazımdırmı?

MÖVZU IX.
ORTA ÜMUMTƏHSİL MƏKTƏBLƏRİNDƏ TƏDRİS OLUNAN COĞRAFİYA KURSLARININ TƏDRİSİ METODİKASI

9.1. «Fiziki coğrafiya kurslarının tədrisi məsələləri

Fiziki coğrafiya kursları VI sinif – Ümumi fiziki coğrafiya» (il boyu 68 saat) və X sinifdə «Yerşünaslıq» adı ilə (il boyu 34 saat) həcmində tədris olunur. Lakin, VII sinifdə tədrisə ayrılan 68 saatlıq vaxtın təqribən 20 saatı ümumi fiziki coğrafi komponentlərin öyrənilməsinə sərf olunur. Çünki 6-cı sinif şagirdlərinin yaş xüsusiyyəti və idrak fəaliyyətində regionlara tətbiqetmə imkanları az olduğuna görə bəzi coğrafi anlayış və qanunauyğunluqlar yuxarı yaş səviyyəsində öyrənilir

a) «Ümumi fiziki coğrafiya» (VI sinif) kursunun tədrisi məsələləri: «Ümumi fiziki coğrafiya» kursu, V sinif "Təbiətşünaslıq" kursuna əsaslanır. I-IV siniflərdə tədris olunan «Ətraf aləm» və ya «Təbiət» (hazırda bu kurs «Həyat bilgisi» adlanır) . proqramları sonrakı illərdə coğrafiyanın tədrisi üçün ilkin baza rolunu oynayır. «Təbiətşünaslıq» kursu yer planetini günəş sisteminin tərkib hissəsi kimi öyrənir. İlin fəsillərini təbiətdə baş verən dəyişikliklərin təkrarlanması baxımından qiymətləndirilir. Bu kursun məqsədi aşağıdakılardır:

Yeni biliklərin mənimsənilməsi – Yəni canlı və cansız təbiətin bir-birilə əlaqəsi və insanın ətraf aləmə təsirini öyrənmək.

Vərdişlərin qazanılması – Hava üzərində müşahidə, nivelirlə ölçmə, kompasla istiqamətlərinin təyini və s. bacarıqlarının qzanılması.

İnkişafetdiricilik baxımından – Təbiəti öyrənməyə maraq, məntiqi məsələlərin həlli prosesinə yaradıcı münasibət səbəb-nəticə əlaqələri arasında asılılığının müəyyən edilməsi.

Təbiətə həssas münasibət – Ətraf mühitə insanların təsiri, ekoloji norma ekoloji hüquqların qorunması, sağlam həyat tərzinə əməletmə.

Tətbiqetmə – Bilik və bacarıqların, praktik tapşırıq və təcrübələrlə tətbiq edilməsi, müxtəlif vəsaitlərdən istifadə edilməsini öyrənir.

«Ümumi fiziki coğrafiya» kursunun tədris edilməsinin əsas məqsədi «Təbiətşünaslıq»dan sistematik coğrafiya kurslarına keçmək üçün zəmin yaratmaqdır.

Kursun tədrisi zamanı şagirdlər bir elm kimi coğrafiyanın məzmunu, məqsədi, tədqiqat obyekti, onun dili sayılan plan, xəritə və qlobus haqqında məlumat alır. Bununla bərabər bu kursda Yerin təbəqələri, burada baş verən proseslər, hadisələr dünyanın əhalisi, məhəllin təbiəti və əhalisi haqqında ilkin məlumat verilir.


Coğrafi biliklərin şagirdlərə aşılanmasında diyarşünaslıq materialları əsas rol oynayır. Bu məqsədlə müşahidələrə, məhəlli praktik işlərə (ölçmə, planalma, yerli relyefin, havanın, suların müşahidəsi və s. müşahidəsi) xüsusi yer verilir.

«Ümumi fiziki coğrafiya»nın əsas istiqaməti təbiət və insan olub, geosferlər haqqında biliklər formalaşdımaq, təbiətin əsas komponentlərini və planet, əhalisinin ümumi xüsusiyyətlərini öyrətməkdir.

Hazırda orta ümumtəhsil məktəblərində istifadə olunan «Ümumi fiziki coğrafiya» dərslym E.Əlizadə və N.Seyfulalyeva tərəfindən tərtib olunmuşdur. Dərslik 2002-ci ildə Azərbaycan Respublikası Təhsil Nazirliyi tərəfindən qəbul edilmiş «Orta ümumtəhsil məktəblərində coğrafiya proqramı»nın tələblərinə uyğun tərtib olunmuşdur. Dərsliyin strukturu ümumi fiziki coğrafi elementlərini əhatə edir (Sxem 43).

Ümumi fiziki coğrafiya» dərsliyinin məzmununun sxematik təsviri

Sxem 43



«Ümumi fiziki coğrafiya» kursunun məzmunu şagirdlərin yaş səviyyəsinə uyğun olaraq tərtib olunmuşdur. Kursun məzmununa verilən tələblər aşağıdakılardan ibarətdir:

- coğrafiya elminin əhəmiyyətini və inkişaf mərhələlərini;
- plan, xəritə, qlobus anlayışlarını;
- Yer kürəsinin forma və ölçülərinə aid sadə rəqəmləri;
- zəlzələ, vulkan, qeyzer anlayışlarını;
- quru səthini əmələ gətirən əsas relyef formalarını;
- dağların yaşına görə təsnifatını;
- düzənliklərin mütləq hündürlüyünə və mənşəyinə görə təsnifatını;
- Okean dibi relyef formalarını;
- Atmosfer anlayışını, atmosferin əhəmiyyətini;
- troposferdə temperatur və təzyiqin dəyişməsini;
- küləyin yaranma səbəblərini-yerli külək anlayışını (briz);
- havada su buxarının yaratdığı nəticələri;
- yağıntının növlərini;
- havanın element və hadisələrini sadalamağı;
- hidrosfer anlayışını, suyun böyük və kiçik dövranını;
- Dünya okeanı hissələrini (okean, dəniz, körfəz, boğaz anlayışlarını;
- quru sularının əsas növlərinin (çay, göl, buzlaq, yeraltı su) anlayış kimi əsas elementlərini;
- biosfer anlayışını
- dünya əhalisi və azərbaycanlıların sayını
- əhalinin irqi tərkibini
-dünyanın ən böyük ölkələri və onların paytaxtlarını bilməlidir.

«Ümumi fiziki coğrafiya»nın tədrisində ayrı-ayrı bölmələrin tədrisinə ayrılan vaxt həcmi aşağıdakı kimidir: «Giriş. Coğrafiya nəyi öyrədir» mövzusuna 2 saat, «Plan və xəritə» mövzusuna 14 saat, «Litosfer» mövzusuna 14 saat, «Atmosfer və hidrosfer» bölmələrinin hər birinə 11 saat, «Biosfer» bölməsinə 5 saat, «Yer kürəsində bəşəriyyət» mövzusuna 6 saat vaxt ayrılır. «Ümumi fiziki coğrafiya»

kursu şagirdlərdə aşağıdakı bacarıq və vərdişlərin yaranmasına imkan verir.

-İbtidai siniflərdə yaradılmış coğrafi təsəvvürləri aydın şəkildə təhlil etmək.

-Təbiətdə baş verən hadisə və proseslərin müşahidəsini aparmaq;

- Baş verən təbiət hadisələrinin təsvirini vermək;

-Əyani vəsaitlərdən coğrafi cihaz və alətlərdən istifadə etmək;

-Xəritə üzərində coğrafi obyektlər arasında müqayisələr aparmaq;

-Coğrafi problemlərin həll edilməsində ekoloji amili irəli çəkmək;

-Ətraf aləmdə baş vermiş hadisə və proseslərin müəyyən zaman daxilində təkrarlanmasını dərk emək;.

Ayrı-ayrı bölmələr üzrə şagird bacarıqlarına verilən tələblər aşağıdakı kimidir:

- müxtəlif dövrlərə aid coğrafi təsəvvürləri təhlil etmək;
- məhəldə və planda cəhətləri təyin etmək;
- xəritə və qlobus üzərində nöqtələrin coğrafi koordinatlarını təyin etmək;
- miqyasın oxunması və ona aid sadə çalışmaları həll etmək;
- şərti işarələri bir-birindən ayırmaq və sadə coğrafi imla yazmaq;
- fəaliyyətdə olan vulkanların yerini xəritədə göstərmək;
- dünyanın ən iri dağ və düzənliklərini yarımkürələr xəritəsində göstərmək;
- yüksəkliyə doğru temperatur və təzyiqin azalmasına dair sadə çalışmalar həll etmək;
- orta sutkalıq və orta illik temperaturu hesablamaq;
- külək gülü sxemini tərtib etmək;
- təbiətdə suyun dövran sxemini çəkmək;

-çay və onun elementləri sxemini tərtib etmək;
- göllərin rejiminə görə sxemini çəkmək;
- biosferin digər təbəqələrlə əlaqə sxemini çəkmək;
- dünyanın böyük dövlətlərini xəritədə göstərmək.

Bacarıq və vərdişlərin əldə edilməsi məqsədi ilə kursun tədrisində 21 praktik işin yerinə yetirilməsi təklif olunmuşdur.

Praktik işlərin bəziləri sinifdənkənar təşkilat formasında həyata keçirilməsi nəzərdə tutulur.

Kursun məzmunu, məqsədi və onlara verilən tələblərin təhlili göstərir ki, «Ümumi fiziki coğrafiya» kursu ümumi coğrafi anlayışların yaradılmasına, coğrafi biliklərin formalaşması üçün dayaq, istinad rolunu oynamağa xidmət edir. Başlanğıc kurs kimi, «Ümumi fiziki coğrafiya»nın əsas məzmunu ən mühüm coğrafi anlayış və proseslərin yaranmasının formalaşdırılması təşkil edir. Əsas anlayışları – coğrafi obyektlər (dağ, düzənlik, çay göl və s.), coğrafi proseslərin yaranmasına aid təsəvvürlər (məsələn quru relyefin əmələ gəlməsində yerin daxili qüvvələrinin rolu) və hadisələrin (məsələn hava hadisələri) mənimsənilməsi aşağıdakı kimi yerinə yetirilir:

- məntiqi ardıcıllığı təyin etmək; (məsələn, hava troposferinin hər hansı dövr üçün fiziki vəziyyətidir).
- qısa mülahizələr kimi şərh etmək, (vulkanik mənşəli dağlar, iqlim əmələgətirən amillər və s.)
- ayrı-ayrı coğrafi hadisələri təsvir və izah etmək (məsələn, buludların yaranması, briz küləklərinin əmələ gəlməsi və s.)
- hər hansı coğrafi obyektin səciyyəsini vermək (okean, göl, ada və s.)
- coğrafi qanunauyğunluqları açmaq (suyun böyük dövranı, istilik qurşaqlarının əmələ gəlməsi və s.)

Təlim nəticələrinin əldə edilməsinə verilən tələblər müxtəlif tədris üsullarının tətbiq edilməsini (nəzəri və prakti) tələb edir:

«Ümumi fiziki coğrafiya» kursunun tədrisi prosesinin təşkil edilməsində –dərs, ekskursiya, ev tapşırıqları və müşahidələr üstünlük təşkil edir. Kursun praktiki əhəmiyyəti böyükdür. Praktiki işlərin aparılması üç istiqamətdə yerinə yetirilir.

- coğrafi cihaz və alətlərlə tanışlıq, onlardan istifadə qaydaları;
- coğrafi müşahidə və təcrübələrin aparılması;
- coğrafi təsvirlər üzərində (plan, xəritə, qlobus) aparılan işlər.

Kursun tədrisində ayrı-ayrı bölmə və mövzular üzrə ümumi anlayışların formalaşdırılması prosesi müəyyən ardıcıllıqla yerinə yetirilir:

1.Sorğu vasitəsi ilə- şagirdlərin bilik və təsəvvürlərini üzə çıxarmaq («Təbiətşünaslıq» kursunda əldə etdikləri anlayışları)

2. Ətraf aləmdə mövcud olan obyekt və hadisələrə (relyef formaları, hava hadisələri və s.) yenidən yaratmaq və tədris prosesində onları yeni baxışla öyrənmək (məs. Hava üzərində müşahidə aparmaq, təpənin hündürlüyünü ölçmək və s.).

3. Şagirdlərin real həyatda rast gəlmədikləri, lakin onlara televiziya, internet, şəkil və s. dən tanış olan coğrafi obyektlərə (vulkan, qeyzer, buzlaq və s.) aid təsəvvürlərin formalaşdırılması.

4. Coğrafi obyekt və hadisələrə dair daha dolğun təsəvvür əldə etmək üçün əyani vəsaitlərin (xəritə, qlobus, şəkil və s.) tətbiqi (məsələn okean səviyyəsindən 200 m-dən aşağı materik dayazlıqlarını təyin etmək üçün yeni bacarıqlar qazanmalıdır).

5. Mövzu daxilində, bir-birinə yaxın anlayışların ayırd edilməsinə nəzarət etmək (məs. Çay sistemi və çay hövzəsi və s.)

6. Plan, xəritə, şəkil üzərində obyektlərin elementar təsvir edilməsinə dair tapşırıqların verilməsi; müqayisə edilməsi (məs.Kür və Araz çaylarının müqayisəsi).

Coğrafi anlayışların yuxarıdakı ardıcıllıqla verilməsi, həmin anlayışa aid elmi təsəvvürün formalaşdırılmasına imkan verir.

B) «Yerşünaslıq « (X sinif) kursunun tədrisi məsələləri

«Yerşünaslıq» kursu ümumtəhsil məktəblərinin orta təhsilin birinci pilləsində X tədris olunur. Kursun tədrisinə 32 saat vaxt ayrılmışdır (maksimum proqramma görə isə 178 saat). Kursun tədris edilməsində əsas məqsəd VI sinifdə şagirdlərin yaş səviyyəsinə görə çox bəsit şəkildə verilən biliklərdən fərqli olaraq, şagirdlərə planetin bir sıra ümumi fiziki coğrafi qanunauyğunluqları (Yer bir planet kimi, Yer qabığı quruluşunun əsas xüsusiyyətləri, burada baş verən bir sıra mürəkkəb proses və hadisələr, eləcə də coğrafi təbəqənin ayrı-ayrı sahələrində müşahidə edilən hadisə və proseslər, yerin landşaft təbəqəsi, qlobal ekoloji problemlər və s.) və xüsusiyyətləri haqda dolğun və dərin ümumi elmi məlumatlar verməkdir.

Coğrafi hadisə və proseslərin baş vermə səbəbləri, onların təsir etdiyi digər təbiət hadisələrinə aid coğrafi informasiyaların həcminin yüksək səviyyədə iqtisadi, «insan-təbiət» qarşılıqlı əlaqəsinə yeni baxışın yaranması vacibliyi, şagirdlərdə coğrafi təfəkkürün yeniləşməsini tələb edir ki, bu onların yuxarı yaş səviyyəsində eləcə də digər fənnlərə aid biliklərin formalaşmasından sonra mümkündür.

Tədqiqatlar göstərir ki, VI sinif şagirdlərinin istilik qurşaqlarına aid təsəvvürləri sadə yaddasaxlama prinsipinə əsaslanır və onlar istilik qurşaqların əmələ gəlməsinə səbəb olan günəş şüalarının düşmə bucağının ekvatordan qütblərə doğru azalması və bunun səbəbinin isə Yerin kürə formasında olması faktı ilə əlaqələndirilə bilmirlər. X

sinifdə «Yerşünaslıq» kursunun tədris edilməsi şagirdlər təhlil etmək, ümumiləşdirmək, müqayisə etmək, məntiqi ardıcıllığı müəyyən etmək, müşahidələri yekunlaşdırmaq və s. idrakı fəaliyyətlərinin inkişaf etdirilməsinə imkan verir. «Yerşünaslıq» kursu coğrafiya elminin fundamental əsaslarının qəbul edilmiş anlayış və qanunauyğunluqlarının tədrisini nəzərdə tutur. Coğrafi informasiyaların, mənimsənilməsi üçün onların tədrisi müxtəlif səviyyələrdə təqdim olunur:

- hər hansı coğrafi obyektin ilk baxışdan təsviri, onun görünüşü, xarici əlamətləri - VI sinif materiallarını yada salmaqla həyata keçirilir. Məsələn, şagirdlər mövzunu öyrənərkən təkrar məqsədi ilə şagirdlərin keçmiş bilikləri yada salınır, məlum biliklər üzərində problemli vəziyyət yaratmaq imkanı yaranır.

- həmin coğrafi obyektin yerləşməsinə aid biliklər, şagirdlərin VII sinif «Materik və okeanlar coğrafiyası» kursunda əldə etdikləri bilik və bacarıqların təkrarlanmasına və tətbiq edilməsini aktuallaşdırır.

Məsələn, şagirdlər dağlar mövzusunu təhlil edərkən onların təsnifatı hündürlüyünə görə fərqlənməsi, uzunluğu istiqamət, digər komponentlərdən fərqli cəhətlərinə üstünlük verirlər.

- öyrənilən coğrafi obyektin məzmununu digər komponentlər ilə qarşılıqlı əlaqədə mənimsəmək, səbəb-nəticə baxımından obyektin yaranmasını, yerləşməsini təhlil etməyi X sinifdə «Yerşünaslıq» kursunun tədrisində əldə edə bilirlər. Məsələn, X sinif şagirdləri dağ anlayışını litosfer tavalarının hərəkətinin nəticəsi kimi və ya denudasiya proseslərinin intensiv olduğunu dərk edir və əhalinin məskunlaşması baxımından eksterimal ərazilər kimi qiymətləndirir. Göründüyü kimi, coğrafi obyekt və hadisələrin VI, VII siniflərdə olduğu yalnız fiziki coğrafi səciyyəsi deyil, eyni zamanda iqtisadi coğrafi qiymətləndirilməsi də təhlil olunur. Çünki, X sinif

şagirdlərinə artıq IX sinifdə «Dünyanın iqtisadi və sosial coğrafiyası» kursünü öyrənmiş və bir sıra iqtisadi təhlillər aparmaq bacarığını əldə etmişlər.

9.2. « Materiklər və okeanlarrın fiziki coğrafiyası» (VII sinif) kursunun tədrisi məsələləri

«Materik və okeanların fiziki coğrafiyası» kursu orta ümumtəhsil məktəblərinin VII sinifində həftədə 2 saat olmaqla, il ərzində 64 saat həcmində tədris olunur. Kursun tədris edilməsində əsas məqsəd şagirdlərdə

- materik və okeanların özünəməxsus fiziki coğrafi xüsusiyyətlərini sistemli şəkildə öyrənmək;
- Yer təbiətinin coğrafi inkişaf qanunauyğunluqları haqqında vahid təsəvvür yaratmaq:
- insan və təbiətin qarşılıqlı əlaqələri və onların nəticələrini təhlil edərək proqnoz vermək;
- dünyanın siyasi xəritəsinin rəngarəngliyi, habelə nəhəng ölkələrin əhalisi və məskunlaşma xüsusiyyətlərinə dair ilkin biliklər əldə etməkdir.


«Materik və okeanların fiziki coğrafiyası» kursu VI sinif «Ümumi fiziki coğrafiya» kursunun davamı və məntiqi ardıcıllığı olmaqla bərabər X sinif «Yerşünaslıq» kursu arasında keçid rolunu oynayır.

Kursun strukturuna «Giriş», «Yer təbiətinin əsas xüsusiyyətləri» və «Regional hissə» daxildir (Sxem 44).

Kursun quruluşundan göründüyü kimi, şagirdlər ilk olaraq kartoqrafik bilik və bacarıqların əldə edilməsi ilə başlayır. VII sinifdə istifadə olunan «Coğrafiya atlası» ilə tanış olur, ümumi coğrafi və tematik xəritələrin oxunması üçün tələb olunan şərti işarələr ilə tanış olur.

«Materik və okeanlar coğrafiyası» dərsliyinin məzmunun sxematik təsviri

Sxem 44



«Materik və okeanların fiziki coğrafiyası»nın tədrisi

- təbiətdə baş verən qarşılıqlı əlaqənin təsəvvürünü yaratmaq
- əhali və onun təsərrüfatı fəaliyyətinin əsas istiqamətlərini təsəvvür etmək
- dünyanın coğrafi təsvini vermək vəzifələrini yerinə yetirməklə şagirdlərdə regional coğrafi bilik anlayışını formalaşdırmaqdır.

Kursun tədrisi sayəsində şagirdlərdə coğrafi təbəqənin qanunauyğunluqlarının geosferin inkişafındakı roluna dair coğrafi biliklər formalaşır və ölkəşünaslığa aid ilkin baza yaranır.

Kursun təhsilverici məqsədi:

1.Coğrafi obyekt və hadisələr, onların lokal, regional və qlobal miqyası, coğrafi təbəqənin qanunauyğunluqları və ərazi üzrə differensasiyasına aid biliklər formalaşdırmaq;

2. İnsanı əhatə edən mühitin bütövlüyü və vahidliyinə aid təsəvvürləri genişləndirərək insanın coğrafi mühitin dəyişilməsində rolunu qiymətləndirmək və baş verən lokal, regional və qlobal problemlərə dair proqnozlar verməyi öyrənmək;

3.Ölkəşünaslığa aid kompleks bilik əldə etməyin yollarının mümkünlüyünü öyrətməkdir.

Kursun tərbiyəedici məqsədi:

1.Cəmiyyət qarşısında öz vəzifələrini dərk etmək, təbiət və cəmiyyətə aid bilikləri əldə etmək üçün zəhmət çəkməyin vacibliyini əsaslandırmaq, tədris əməyinə müsbət münasibət formalaşdırmaq;

2. İnsanın təbiətdki rolunu şagirdlərə başa salmaq, ekoloji mühitin pozulmasında insanın rolunu qiymətləndirmək, təbiəti mühafizə tədbirlərinin keçirilməsinin labüdlüyünü və hər hansı cəmiyyət üzvünün iştirakının vacibliyini dərk etdirmək;

3. Vətənpərvərlik, təbiətə qayğılı münasibət, cəmiyyət üzvlərinə hörmətli münasibət hissini inkişaf etdirməkdir.

Kursun inkişafetdirici məqsədi:

1.Bilikləri müstəqil surətdə əldə etməyin yollarını başa salmaq;

2. Problemlərin həll edilməsi və yaradıcı təfəkkürün inkişafına nail olmaq;

3. Nitq, təsəvvür etmək, təhlil etmək, nəticə çıxarmaq, problemlərin həllində kompleks şəkildə yanaşma tərzini əldə etməyin vərdişlərini öyrətməkdir.

Kursun məzmunu «Materik və okeanların fiziki coğrafiyası» kursu nəyi öyrədir?» mövzusu ilə başlayır. Materik və okeanların sahələrinin təsviri şagirdlərdə müqayisə etmək bacarığının formalaşmasına yönəlmişdir. «Yer kürəsinin öyrənilməsinin əsas mərhələsi» adlanan növbəti mövzu şagirdlərin VI sinifdə «Coğrafi biliklərin inkişafı» mövzusunu yada salmaqla varislik prinsipinin yerinə yetirilməsinə xidmət edir. «Materiklərin xəritələri»

mövzusu isə tədris ili müddətində şagirdlərin istifadə edəcəkləri xəritələr üzrə bacarıqların formalaşdırılması üçün təməl rolunu oynayır. İlk dəfə olaraq şagirdlər tematik xəritələrdə istifadə edərək hər hansı əraziyə dair kompleks bilik əldə etməyin yollarını öyrənir. «Yer təbiətinin əsas xüsusiyyətləri» bölməsi şagirdlərdə *nəzəri coğrafi* biliklərin əldə edilməsinə imkan verir. Onlar litosfer tavaları, geosinklikal platforma, orta okean dağ silsilələri geoloji era və dövrlər, günəş radiasiyası (düz və səpələnən radiasiya), istilik qurşaqları, təzyiq qurşaqları, hava kütlələri, atmosfer cəbhələri, iqlim əmələ gətirən amillər və iqlim qurşaqları, dünya okeanında duzluluğun paylanmasına təsir edən amillər, su kütlələri; okean cərəyanlarının hərəkəti, coğrafi təbəqənin qanunauyğunluqları, təbii komponentlər, təbii kompleks, təbii zona, torpaq əmələ gətirən amillər, enlik və hündürlük zonallığı anlayışlarını öyrənir və onları materik və okeanları təbiətinə təsirini təhlil edərək kompleks coğrafi biliklər əldə etməyin yollarını mənimsəyirlər.

Kursun tədrisində *emprik biliklərin* əldə edilməsi üçün geniş imkanlar mövcuddur. Kursun regional xarakteri, şagirdlərdə xeyli sayda coğrafi nomenklaturdan əldə etmək imkanı verir.

Tədris prosesinin təşkili üçün hazırda orta ümumtəhsil məktəblərində O.Alxasov, D.Ələsgərov, Ş.Pənahov və R.Məmmədovun müəllif olduğu «Materiklər və okeanların fiziki coğrafiyası» dərsliyi, Bakı Kartoqrafika Fabrikinin nəşr etdiyüi «Materik və okeanların fiziki coğrafiya atlası», eyni adlı kontur xəritə, eləcə də iki variantda «İş dəftəri» (müəlliflər N.Seyfullayeva və D.İbrahimova) mövcuddur.

Kursun tədrisi prosesinin təşkil edilməsi üçün aşağıdakı şərtlərə əməl edilməsi məqsədəuyğundur:

1. Nəzəri biliklərin formalaşdırılması- uzun və çətin prosesdir. Şagirdlərin dərs ili müddətində əvvəldən sona kimi, rastlaşdıqları coğrafi anlayış və qanunauyğunluqların mənimsəməsi üçün müxtəlif metodlardan istifadə olunur.

Fənnin əsasını təşkil edən anlayış və qanunauyğunluqların coğrafiya dəftərlərində qeyd olunması mənimsəmənin güclənməsinə imkan verir.

2. Materik, okean və iri regionların tipoloji planı əsasında təhlil edilməsi, yazılı və ya şifahi təqdim edilməsi; reproduktiv metoddan tədqiqata qədər müxtəlif metodlar təklif olunmalıdır.

2. Fənn daxili və fənlər arası əlaqənin təmin olunması mühüm şərtlərdən biridir. Ümumi yerşünaslığa əsaslanan coğrafi biliklərin biologiya, fizika, kimya, eləcə də tarix, ədəbiyyat fənnləri ilə əlaqəli şəkildə təqdim olunur.

4. Coğrafiya fənninin tədrisində müqayisə metodunun tətbiqi ən mühüm şərtlərdən biridir. Şagirdlərə coğrafi obyekti və hadisələri, paralel və ardıcıl müqayisənin qaydaları izah olunmalı, oxşar və fərqli əlamətlər əsasında nəticələrin çıxarılması öyrənilməlidir.

5. Coğrafiyanın tədrisinin şərtlərindən biri coğrafi vəsaitlərdən istifadə etməklə (xəritə, atlas, sxem, təsviri vasitələr və s.) biliklərin əldə edilməsidir. Son illər elektron dərsliklər, kompyüter avadanlığı –multimediyanın tətbiqi coğrafi informasiyaların təqdim edilməsinə deyil, eyni zamanda yoxlama, sorğu prosesinə tətbiq edilməsi tələb olunur.

6. Coğrafi biliklərin formalaşdırılmasında məntiqi istinad konspektlərinin tərtib olunması və onların tətbiq edilməsidir.

«Materiklərin və okeanların fiziki coğrafiyası» kursunun tədrisi ənənəvi və yeni təşkilat formalarının tətbiq edilməsinə imkan verir. Əsas təşkilat forması dərs, tədris ekskursiyaları, məsləhət saatı, imtahan və s.dir. Tədris ilinin əvvəlində və iri bölmələrin birinci dərslərində giriş- son dərslərdə isə ümumiləşdirici yekun dərsləri təşkil olunmalıdır. Əsasən kombinə edilmiş dərslərə üstünlük verilməli, hər hansı materiki öyrəndikdən, sonra ümumiləşdirici təkrar dərsi keçirilməlidir. Təlimin yeni

təşkilat formaları kimi şagirdlərin müstəqil fəaliyyətinin təşkil edilməsinə əsaslanan tədqiqat dərslərinə üstünlük verilir.

Lakin, xəritə üzərində qiyabi səyahət dərslərinin tədris edilməsi üçün geniş imkanlar vardır. Ayrı-ayrı materiklərin əhalisi və siyasi xəritəsinə dair mövzuların tədrisində konfrans-dərslərin tətbiqi fənnlərarası əlaqə baxımından əhəmiyyətlidir. Coğrafi kəşflər, təbii zonaların tədrisində şagirdlər maket, rəsm, xəritə-sxem, gündəlik, hekayə, esse və s. tərtib etməsi dərslərin daha maraqlı olmasına imkan verir. Kursun tədrisində disput-dərslərin həyata keçirilməsi üçün maraqlı, problemli sualların seçilməsi üçün geniş imkanlar vardır. «Böyük Suayrıcı dağları Avstraliyanın qərb sahilində yerləşsə idi»... və ya «Skandinaviya dağları hazırki hündürlüyündən iki dəfə yüksək olsaydı, Avropanın iqlimi indikindən hansı xüsusiyyəti ilə fərqlənərdi?» və s. tipli suallar verməklə şagirdlərin yaradıcı düşüncəsini inkişaf etdirmək mümkündür.

9.3. «Azərbaycan Respublikasının fiziki coğrafiyası» və Azərbaycan Respublikasının iqtisadi və sosial coğrafiyası»(VIII sinif) kurslarının tədrisi məsələləri

Azərbaycan coğrafiyası məktəb coğrafiyasının strukturunda mərkəz rola malikdir. Ölkənin öyrənilməsi iki istiqamətdə aparılır:

a) müxtəlif kursların proqram və dərsliklərində tədris olunan mövzulardan coğrafi termin və anlayışlara dair nümunələr gətirməklə – ümumi şəkildə (VI, VII, IX,X)

b) respublikanın tam öyrədilməsi məqsədi ilə tərtib olunmuş xüsusi proqram və dərslik şəklində də (VIII sinif). «Azərbaycan Respublikası ümumi biliklər V-XI sinif coğrafiya dərsliklərini əhatə edir – Belə ki,

-İbtidai siniflərdə və «Ana dili», «Oxu», «Ətraf mühit», «Təbiət» kurslarının və V sinifdə Azərbaycan təbiətinin təsvirinə aid nümunələr;

-VI sinifdə «Ümumi fiziki coğrafiya» kursunun tədrisində coğrafi termin və anlayışlarına aid nümunələr gətirməklə;

-VII sinifdə ayrı- ayrı materiklərdə rast gəlinən və respublika ərazisinə oxşar təbii şəraiti müqayisə etməklə;

-IX sinifdə dünya ölkələrinin Azərbaycan ilə inteqrasiyası və iqtisadi coğrafi əlaqələr baxımından müqayisə etməklə

-X sinifdə fiziki coğrafi qanunauyğunluqları və fiziki coğrafiya təfəkkür yaratmaq ölkə ərazisinə tətbiq imkanları ilə

-XI sinifdə Azərbaycan türk dünyasında milli soy kökünə qayıtmaq istəyində olan, türk birliyinin möhkəmlənməsi istiqamətində islahatlar aparan subyekt olmaqla təqdim olunur.

Baza tədris planında Azərbaycan coğrafiyası VIII sinifdə I yarım ildə həftədə 1 saat, II yarım ildə 2 saat olmaqla, cəmi 51 saat müddətində tədris olunur.

Tədris həcminin 32 saatı fiziki coğrafiya, 17 saatı iqtisadi və sosial coğrafiyaya həsr olunmuşdur. (maksimum proqrama görə 170 saat vaxt verilir).

«Azərbaycan coğrafiyası» nın kursunun tədrisinin tarixi ADR qurulması ilə bağlıdır. 1919-cu ildə Qafur Rəşad Mirzəzadə daha sonra isə 1924 ildə M.Baharlı, Qasım Gül, H.Əliyev ,Ə.Hacızadə, B.Budaqov və B.Apoyev, Y.Qəribov, N.Əyyubov, Ş.Dəmirqayayev, N.Allahverdiyev və Ş. Göyçaylı müəllif heyətini təşkil edir.

Hazırda tədris müəssisələrində istifadə olunan Azərbaycan coğrafiyası dərslikləri B.Budaqov, Y.Qəribov və Ş.Hümmətovaya (Azərbaycan Respublikasının fiziki coğrafiyası) və N.Əyyubov və M.Babayevaya (Azərbaycan Respublikasının iqtisadi və sosial coğrafiyası) məxsus olub, 2011-ci ildə təkmilləşdirilmişdir.

Kursun tədris planında yeri pedaqoji prinsiplərə əsasən uyğun gəlmir. Təhsil qanununda baş verən dəyişikliyə

əsasən icbari təhsilin IX illik olması, kursun tədris planında sonuncu kursa keçirilməsini tələb edir. Bu isə də tədrisə ayrılan vaxt həcminin artmasına imkan verəcək və minimum dərs saatlarının 64 saat olmasına şərait yaradacaqdır. Milli kurrikulumda Azərbaycan coğrafiyası ön plana çəkilir, tədris prosesinin fəaliyyət xətlərinin əsas mərkəzində durur.

Kursun tədrisi prosesində şagirdlərin fəaliyyəti aşağıdakı kimi müəyyən edilmişdir:

1.Problemin həlli – Azərbaycanda olan problemlərin siyasi- ekoloji- sosial (miqrasiya, qaynar nöqtə) həlli yollarını araşdırır, təhlil edir, təqdimatlar verir.

2.Mühakimə yürütmək – Azərbaycan dünya və türk dövlətlərində mövqeyin üstünlüklərinin əsasında tutduğu ənənəvi təbii resursların istifadəsinə marağın artmasmını əsaslandırır.

3.Əməkdaşlıq – yaşadığı ərazinin ekoloji vəziyyətini pozan mənbələrin müəyyən edərək, müəssələrin fəaliyyəti ilə bağlı topladığı məlumatı təqdim edir, ölkələrdə yaşıdları ilə əməkdaşlıq edir.

4. Müşahidə və müqayisə etmək – Azərbaycan Respublikasına aid statistik rəqəmləri, təbii şəraiti, xəritə üzərində digər ölkə və regionlarla müqayisə edərək təhlil edir.

5.Tətbiq etmək – yaşadığı ərazinin hər hansı coğrafi obyektə, mərkəzə, hadisə və prosesin olduğu yerə nisbətən mövqeyini, məsafəsini müəyyən edir, hər hansı problemin həlli üçün layihələr hazırlayır.

6.Təqdim etmə – Respublikamızın elm mərkəzlərində əldə olunan məlumatları, ekoloji vəliyyətə digər regionlara aid topladığı məlumatları təqdim edir. (referat şəklində, bülleten kimi və s.).

7.Proqnozlaşdırma – dünyada baş verən qlobal proseslərin-ekoloji çirklənmənin iqtisadi və siyasi

islahatların və eləcə də geoloji hadisələr əsasında dünyada və Azərbaycanda gələcək vəziyyətinə dair proqnozlar verir.

8. Sistemləşdirmə – respublikada və ya təsnif etmə (eləcə də dünyada) ölkələri, regionları, rayonları hər hansı qabiliyyətinə görə (mineral bulaqları suyun tərkibinə görə, iqtisadi,inzibati rayonların əhalisinin xüsusiyyətlərinə görə və s.qruplaşdırmağı bacarmalıdır.

Azərbaycan coğrafiyası kursunun tədrisininin keçid xarakteri həm də onunla izah olunur ki, bu kurs fiziki coğrafi bilikləri yekunlaşdırmağa imkan verir, coğrafi hadisə və proseslərin uzaqdan yaxına prinsiplərini tətbiq etdirir, yəni ümumi fiziki coğrafi bilikləri öyrənən şagird (VI sinifdə) bu bilikləri materiklərə tətbiq edir (VII sinifdə) və nəhayət öz ölkə ərazisində axtarır və müqayisə edir.

Tədris ilinin 2-ci yarısında Azərbaycan Respublikasının iqtisadi və sosial coğrafiyası öyrədilir. Bu kurs isə şagirdlər iqtisadi anlayışları ilkin formada təqdim etməyə imkan verir. Şagirdlər gələcəkdə dünyanın iqtisadi və sosial coğrafiyasına tətbiq etmək üçün baza əldə edir.

Azərbaycan coğrafiyasının tədrisində əsas vəzifələrdən biri şagirdlərin dünyagörüşündə – dialoqa girmək yəni özünü və ya özgəsini digərləri ilə əlaqələrinin düzgün müstəvidə qəbul etməsini formalaşdırmaqdır. Fənnin ədrisində mövcud olmanın əlamətləri kimi ünsiyyətdə olmaq, dialoqa girmək və s. fəaliyyət növləri əsas götürülür. Bu prinsip şagirdlərin bir- biri ilə və geniş mənada ölkəmizin digər ölkələr ilə qarşılıqlı münasibətləri yaratmağa istiqamətləndirir, müasir təhsil konsepsiyasının inkişafetdirici və tərbiyəedici təlim prinsiplərin tələblərini yerinə yetirməyə imkan verir.

Tədris prosesində vətənpərvərlik tərbiyəsi önəmli yer tutur. Şagirdləri ölkəsinin gələcək məsuliyyətini daşıyan və ona görə də bu gün cəmiyyətdə fəal (aktiv) mövqedə dayanmaq üçün mübarizə aparan şəxsiyyət kimi yetişdirmək kursun tədrisində aparıcı elementdir.

Kursun tədrisində tolerant yanaşma tərbiyəsi də aşılanır. Azərbaycanın, dünyanın digər ölkələri ilə inteqrasiyası, insanların dini, etiqad seçimində azadlığı, hər bir kəsin söz demək, təklif vermək, tənqid etmək və s.hüquqlara malik olması tərbiyə edilir, digər şəxslərə hörmət, dözülmü münasibət tərbiyəsi formalaşdırılır.

«Azərbaycan iqtisadi və sosial coğrafiyası» kursunun məqsədi:


- ölkənin təbiəti, əhalisi və iqtisadiyyatına dair tam təsəvvür yaratmaq;
- Azərbaycanın dünyada geosiyasi mövqeyinin əhəmiyyətinin rolunu təhlil etmək və onları dəyərləndirmək;
- müxtəlif coğrafi informasiyalara əsasən- atlas, divar xəritələri, statistik cədvəllər, diaqram və s.əsasında ölkə və digər regionlara (fiziki-coğrafi, iqtisadi-coğrafi, inzibati) aid məlumatları əldə etmək və praktik olaraq onları tətbiq etmək;
- ölkə ərazisində baş verən təbii coğrafi obyektlər eləcə də iqtisadi coğrafi prosesləri (sürüşmə, təbiətin mühafizəsi, təbii ehtiyatlardan stifadə və .s.) zaman və məkan daxilində dəyişməsinə aid təsəvvür formalaşdırmaq;
-«Təbiət-insan» kontekstində «təbiətdən istifadənin «tarazlı inkişafı»nın vacibliyini (tarazlı inkişaf yəni mövcud təbii ehtiyatlardan gələcək nəsillər üçün saxlanılması şərti ilə istifadə etmək) şagirdlərə çatdırmaqdır.

Azərbaycan Respublikasının coğrayiyası fiziki və iqtisadi sosial olmaqla iki hissədən ibarətdir.

Fiziki coğrafiya kursunun strukturu aşağıdakı sxemdə verilmişdir (Sxem 45)

«Azərbaycan Respublikasının fiziki coğrafiyası» dərsliyinin məzmunun sxematik təsviri

Sxem 45



Minimum proqrama görə kursun tədrisində 10, maksimuma görə 24 praktiki iş nəzərdə tutulur.

Kursun məzmunu coğrafi elmlərin baza prinsiplərinə əsaslanır.

Məzmunda

a) kartoqrafik
b) tarixi-coğrafi
e) ekoloji
d) fiziki coğrafi
c) iqtisadi sosial

biliklərdən istifadə olunmuşdur.

«Azərbaycan fiziki coğrafiyası» orta məktəbdə tədrisinin keyfiyyətini yüksəltmək üçün BKF-də 1:600000 miqyaslı fiziki xəritə, oroqrafik, iqlim, torpaq, landşaft,

fiziki coğrafi rayonlaşma divar xəritələri, habelə atlas, ona uyğun kontur xəritələr nəsr edilmişdir.

İş dəftəri yoxdur. Dərslik çox variantlı deyil.

Kursun tədrisində qeyri ənənəvi metodlardan istifadə imkanları genişdir və onların tətbiq edilməsi tədrisin keyfiyyətini artırır. Öz ölkələrinə aid informasiyanın mövcudluğu, kursun tamamlayıcı rolu-tədris prosesində praktik metodlardan və yeni texnologiyalardan istifadə etməyə geniş imkanlar yaradır.

«İNSERT» «BİBÖ», «Venn diaqramı», «T-sxemlər», «İstiqamətləndirilmiş mühazirə», «Disput» və s. kimi yeni pedaqoji texnologiyalardan eləcədə, mühazirə, seminar (seminar,yəni əvvəlcədən planlaşdırılmış hər hansı məsələnin (sual, problem və s.) müzakirəsinə həsr olunmuş dərs tipi) , zaçot və s dərslərindən istifadə oluna bilər.

Azərbaycan fiziki coğrafiyası kursunda ekskursiyaların təşkili, kursun tədrisinə verilən ən mühüm tələblərdən biridir.

II yarımildə tədris olunan Azərbaycan iqtisadi və sosial coğrafiyasına minimum proqrama görə 17, maksimuma görə 102 saat vaxt ayrılır

Azərbaycan iqtisadi və sosial coğrafiya kursunun quruluşu aşağıdakı sxemdə (Sxem 46) verilmişdir.

Tədris prosesinə ayrılan vaxtın həddən artıq az olması və eyni zamanda tədris prosesində yüksək nailiyyət əldə etmək üçün iqtisadi rayonlar müqayisə şəklində öyrədilir.İqtisadi rayonların bir-biri ilə uzlaşdırılması müəllimin istəyindən asılı olaraq dəyişilə bilər:

1-ci mövzu -Abşeron

2-ci mövzu-Quba-Xaçmaz ,Dağlıq Şivan və Şəki-Zaqatala.


3-cü mövzu- Gəncə- Qazax, Kəlbəcər- Laçın və Yuxarı Qarabağ

4-cü mövzu -Aran

5-ci mövzu - Lənkəran-Astara və Naxçıvan

«Azərbaycan Respublikasının iqtisadi və sosial coğrafiyası» dərsliyinin məzmunun sxematik təsviri

Sxem 46



Vaxt məhdudluğu iqtisadi və sosial coğrafiyada daha yeni metodların tətbiqini tələb edir. Şagirdlərlə axtarış-tədqiqat, kartoqrafik metodları tətbiq etmək və fəaliyyətini artırmaqla proqram materiallarını çatdırmaq mümkündür.

İlk növbədə şagirdlər

-Azərbaycan Respublikasının iqtisadi və sosial coğrafiyası fənninin vəzifələrini;

- Azərbaycan Respublikasının dünya okeanına çıxmaq imkanlarını;
- Asiya və Avropa ölkələri arasında iqtisadi əlaqələrdə Azərbaycanın nəqliyyat dəhlizi olmasını;
- Respublika ərazinin təbii şəraitinin əlverişliyini;
- Təbii ehtiyatların növlərini;
- Respublikanın neft-qaz ehtiyatlarının başlıca rayonlarını;
-Enerji istehsal edən elektrik stansiyalarının tiplərini;
- Maşınqayırma mərkəzlərini;
- Metallurgiya bazalarını;
- Meşə sənayesinin sahələrini;
- Tikinti materiallarının ən mühüm xammal bazalarını;
- Toxuculuq sənayesinin başlıca mərkəzlərini;
- Kənd təsərrüfatının ixtisaslaşdırılmış sahələrini;
- Yeyinti sənayesinin sahələrini;
- Nəqliyyatın növlərini;
- Azərbaycan Respublikasının xarici iqtisadi əlaqələrini;
- Coğrafi rayonların tərkibinə daxil olan inzibati rayonları, iri şəhərləri;
- sənaye mərkəzlərini iqtisadi rayonlar üzrə iqtisaslaşmasına dair nəzəri bilikləri bilməlidir.

Şagird bacarıqlarına verilən tələblər, onların yaş səviyyəsinə uyğunlaşdırılmışdır. Belə ki, şagirdlər «Azərbaycan Respublikasının iqtisadi və sosial coğrafiyası» müqayisə etməyi
- Azərbaycan Respublikasının dünya okeanına çıxması üçün coğrafi obyektləri xəritədə göstərməyi;
- təbii şərait və təbii ehtiyatları təsərrüfat baxımından qiymətləndirməyi;
- Təbiəti mühafizənin həlli yollarını;
- Ayrı-ayrı təsərrüfat sahələrinin tərkibini sxematik təsvir etməyi;
- Müxtəlif məzmunlu tematik xəritələri təhlil etməyi:

- Sxem, cədvəl, statistik materiallar əsasında hər hansı diaqram qurmağı;

- İqtisadi rayonlara aid məlumatları (və ya inzibati) tipik plan əsasında səciyyələndirməyi bacarmaldır.

Kursun tədris edilməsində qarşıya qoyulan məqsədlər çox böyükdür.«Azərbaycan Respublikasının iqtisadi və sosial coğrafiyası» kursunun vəzifələri aşağıdakılardan ibarətdir: 1) Azərbaycan iqtisadi mövqeyinin əhəmiyyətini təhlil etmək onu digər ölkələr ilə müqayisə etmək

2)Azərbaycanda təbii şərait və təbii ehtiyatları qiymətləndirmək, onlardan istifadə edilməsinin səmərəli olmasına dair mühakimə yürütmək. Məsələn VIII sinif şagirdi ehtiyatın növ tərkibinin zənginliyi ilə seçilən və ya filizin miqdarının çox olduğu yatağın daha hündür relyefdə yerləşdiyinə görə istifadə edilmədiyini, lakin nəqliyyat-yol xərclərinin az olmasına görə daha aşağıda yerləşən ehtiyatlardan istifadə edildiyinə (faydalı qazıntı, mineral bulaq, kurort və s.) dair öz mülahizələrini bildirə bilər.

3)Azərbaycanda əhalinin sayı, artım dinamikası sıxılığı məskunlaşması, yaş-cins tərkibi və miqrasiyası onların iqtisadiyyata təsirini təhlil etmək, şəhər və kənd (qəsəbə) yaşayış məskənlərində əhalinin məşqulluq dərəcəsini müəyyən etmək, yarana bilən sosial problemləri proqnozlaşdırmaq.

4) Azərbaycanda təsərrüfat sahələrinin yerləşmə prinsiplərini təhlil etmək, bazar iqtisadiyyatı, milli gəlir, maya dəyəri və s. iqtisadi anlayışları təhlil etmək

5) Azərbaycanın dünya ölkələri ilə nəqliyyat, iqtisadi əlaqələrini (səfirlik, konsulluq) araşdırmaq və s.

6) İqtisadi rayonlar anlayışı, ixtisaslaşma, təbii-iqtisadi şəraitin müxtəlifliyi və s. barədə ilkin bilikləri formalaşdırmaqdan ibarətdir.

Kursun məzmunundan aydın olur ki, şagirdlər statistik kartoqrafik, tarixi coğrafi və s. bazalar əsasında fəaliyyət göstərməyi bacarmalıdır.

Kursun tədrisi geniş inkişafetdiricilik və tərbiyəedicilik imkanlarına malikdir.

Bu isə eyni zaman vətənpərvərlik demokratiklik, humanistlik, diyarşunaslıq prinsipi həyata keçməyə imkan verir. İqtisadi rayonların öyrədilməsində aşağıdakı prinsiplərə əməl etmək məqsədəuyğundur:

1.İstehsal prinsipi – yəni iqtisadi rayonda istehsal olunan məhsulların əhaliyə olan nisbətinə görə yaranan ixtisaslaşma dərəcəsinə görə (statistik rəqəmlərə görə)

2. İnzibati rayonlaşma-bir-biri ilə nəqliyyat, iqtisadi əlaqə baxımından inzibati rayonlar müəyyən mərkəzdə birləşməli və idarə edilməsi ümumilikdə ölkədə inkişafa səbəb olur. Məsələn: 65 inzibati rayonu 10 iqtisadi rayonda birləşməsi idarəetmə baxımından əlverişlidir.

3. Milli prinsip-milli azlıqların mövcud olmasına əsaslanır.Bəzi hallarda milli azlıqlar arasında konflikt yaranır. Məsələn:DQMR

4. Təbii ərazi kompleksi prinsipi –hər hansı ərazidə mövcud olan faydalı qazıntılar qrupu rayonun iqtisadiyyatında mühüm rola çevrilir və həmin sahəyə diqqəti artırmağa imkan verir.

İqtisadi coğrafiya şagirdlərdə hər hansı təsərrüfat sahəsinin inkişafı və ya əraziyə aid konkret bilik əldə etmək və bilikləri sistemləşdirmək imkanı verir. Şagirdlər sənaye və kənd təsərrüfatı sahələrini öyrənərkən onlara:

a) sahənin əhəmiyyəti;

b) texnoloji prosesin özünəməxsusluğu

c) yerləşmə prinsipi

d) əsas mərkəzlər

e) gələcəkdə inkişaf perspektivlərini və s.tədqiq etmək tapşırıqları verilir (Onlar müxtəlif xəritə və digər mənbələrdən istifadə edərək mövzunu tədqiq edir)

Tədris prosesində keyfiyyəti yüksəltmək, şagirdlərin yaradıcılığını artırmaq, onların sərbəst axtarışını təmin etmək, nəzəri biliklərini praktik olaraq tətbiq etmək, internet-informasiya şəbəkəsindən istifadə etmək, səbəb-nəticə əlaqələrini müəyyən etmək, tədqiqat-axtarış metodlarından geniş istifadə etmək və s. üçün Azərbaycanın fiziki və iqtisadi coğrafiyasının sintezindən ibarət konstruktiv coğrafiya proqramını yaratmağın vaxtı çatmışdır.

Coğrafiya fənni üzrə milli kurrukulumda bu nəzərə alınmış və şagirdlərin fəaliyyətində əks olunmuşdur.

9.4. «İqtisadi və sosial coğrafiya» kurslarının tədrisi məsələləri

9.4.a Dünyanın iqtisadi və sosial coğrafiyası (IX sinif) kursunun tədrisi məsələləri.

«Dünyanın iqtisadi və sosial coğrafiyası» kursu orta məktəbin əsas pilləsinin son kursunda tədris olunur. Kursun tədrisinə ayrılan vaxt həcmi həftədə 2 saat olmaqla il ərzində 64 saatdır. Lakin bu minimum proqrama görə belədir, maksimum proqrama görə saatların miqdarı 170 saat ola bilər. İqtisadi və sosial coğrafi biliklərin bəziləri aşağı siniflərdə verilir. Belə olduqda şagirdlər təbiət və ondan istifadəyə dair kompleks bilik əldə edə bilmirlər.

Sərbəst şəkildə tədris olunan iqtisadi və sosial coğrafiya kursu isə şagirdlərdə:

-dünyanın sosial-iqtisadi coğrafi xəritəsinə dair tam təsəvvür formalaşdırır,

- təbiət və cəmiyyətin qarşılıqlı əlaqələrinə əsaslanan coğrafi təfəkkürü inkişaf etdirir,

-əhalinin artımı və yerləşməsi, dünya təsərrüfatı və coğrafi əmək bölgüsü,

-qlobal problemlərin yaranması;

-ayrı-ayrı regionların və ölkələrin inkişaf xüsusiyyətlərinə aid tam təsəvvür yaratmağa imkan verir.

Kursun tədris olunmasında əsas məqsədlər aşağıdakılardan ibarətdir;

- planetar və regional səviyyədə «Dövlət və insanın» vahidliyi baxımından mövcud olan müasir dünyanın iqtisadi və sosial problemlərinə dair bilikləri formalaşdırmaq;
- təbii, sosial-iqtisadi və geoloji hadisə və proseslərin təhlilinə qlobal regional və lokal yanaşma ilə təsnifatı verə bilməyi öyrətmək;
- şagirdlərdə coğrafi mədəniyyət və coğrafi təfəkkürü formalaşdırmaq və vətənpərvərlik hissini tərbiyə etmək.
- coğrafi informasiyaları – sərbəst şəkildə toplamağı və onlar əsasında referat hazırlamağı, layihə tərtib etməyi öyrətməkdir.

Lakin, təhsil sistemində aparılan islahatlar, dünyada baş verən inteqrasiya bu kursun tədrisində də köklü dəyişiklikliyini tələb edir.

Tədris prosesində öyrənmənin, sadəcə hafizədən təfəkkürün inkişafına doğru yönəldilməsi iqtisadi coğrafiya kurslarının tədrisinin daha aydın özünü göstərə bilir.

Bu kursun məzmunu və tədrisi şagirdlərin yaş səviyyəsinə uyğunluğu ilə əlaqədardır.


Kursun quruluşunda ümumidən xüsusiyə doğru pedaqoji prinsip gözlənilmişdir. Tədris ilinin əvvəlində ümumi iqtisadi qanunauyğunluqların öyrədilməsi əsas məqsəd hesab olunursa, ikinci mərhələdə coğrafi qanunauyğunluqların iri region və ölkələrə tətbiq edilməsi və şagirdlərin konkret olaraq nəzəri bilikləri müxtəlif regionlara tətbiq edilməsi tədrisin əsas məqsədinə çevrilir. Kursun sonu nəticəyönümlü, təxəyyülə əsaslanan, proqnoz xarakterli biliklər ilə yekunlaşır. Əslində kursun modeli düzgün seçilmişdir. Şagirdlərin müstəqil və praktik fəaliyyəti üçün geniş imkanlar vardır.

Uzun müddət, müstəqillik illərindən əvvəlki dövrdə Azərbaycanda «Dünyanın iqtisadi və sosial coğrafiyası» kursu ümumittifaq məktəbləri üçün nəzərdə tutulmuş

V.Maksakovskiyə məxsus dərslikdən istifadə olunmaqla tədris edilmişdir. 1994-cü ildən respublikada istifadə olunan və mərhum T.Gərayzadəyə məxsus dərslik dəfələrlə təkmilləşdirilmiş variantda çap olunmuşdur. Hazırda isə O.Alxasov, Y.Qəribov və A.Bağmanlıya məxsus 2010-cu ildə nəşr edilmiş dərslik tətbiq olunur. Kursun strukturu aşağıdakı kimidir. (Sxem 47)..

«Dünyanın iqtisadi və sosial coğrafiyası» dərsliyinin məzmunun sxematik təsviri

Sxem 47



Kursu ölkəşünaslıq kursu adlandırmaq olar. Azərbaycan Respublikasının mərkəz mövqedə olması və dünya ölkələrinin müqayisəli şəkildə öyrənilməsi əsas motivdir.

Kursun tədrisində məzmun və struktur problemi qalmaqallıdır. Bu keçmiş SSRİ ölkələrində (Rusiya, Gürcüstan və s) də eyni problemdir. Bəzi tədqiqatçı siyasətçilərin fikrinə görə ölkələrin qruplaşdırılmasında üç pilləli inkişaf etmiş ,etməkdə olan və geri qalmış) bölgüsü prinsipi ilə dərsliyin tərtib olunması artıq köhnəlmiş ideyadır.

Hazırda müxtəlif yeni ideyalar mövcuddur:

1. Ölkələrin daxil olduğu siyasi bilik və ya təşkilatlar şəklində öyrənilməsi

2. Ölkələrin respublikadan yaxından uzağa prinsipi və əlaqəsi olan öyrədilməsi (qonşu ölkələr).

3. Din, dil, etnik xüsusiyyətlərinə görə ölkələri qruplaşdırmaqla

4. İqtisadiyyatın strukturuna görə və s.

Müəllif yanaşmasından asılı olmayaraq müasir dövrdə iqtisadi və sosial coğrafiya proqramından aşağıdakı məsələlər öyrənilir:

- müasir siyasi xəritə formalaşma mərhələləri, ölkələrin qruplaşması inzibati ərazi bölgüsü və idarəetmə quruluşuna görə ölkələrin təsnifatı, beynəlxalq təşkilatlar.

- dünyanın təbii ehtiyatları təbiətdən istifadə və yaranan ekoloji problemlər, ehtiyatlar ilə təhcizat, coğrafi mühit anlayışı - insan və təbiətin qarşılıqlı əlaqəsi.

- dünya əhalisi-sayı, təkrar artımı, demoqrafik siyasət, əhalinin yaş, cins, etnik, din, tərkibi, əhali yerləşməsi, miqrasiyası, urbanizasiya.

- dünya təsərrüfatında elmi-texniki inqilab coğrafi əmək bölgüsü, təsərrüfatın ərazi strukturu, yerləşmə prinsipləri, dünya sənayesi, kənd təsərrüfatı, nəqliyyat və iqtisadi əlaqələr.

- ayrı-ayrı regionların və ya iri ölkələrin ümumi səciyyəsi:

- bəşəriyyətin qlobal problemləri

Hazırda istifadə olunan proqram tələblərinə görə 19 praktik iş təklif olunur.

Kursun tədris materialı şagirdlərin müstəqil işləri üçün geniş imkanlara malikdir. Kartoqrafik, statistik materiallar əsasında ayrı-ayrı ölkələrə aid referatlar hazırlamaq, ölkələri müqayisəli şəkildə təhlil etmək və ya digər ölkələrin tarixi-mədəni yerləri, iri şəhərlərini, əhalinin adət-ənənələri, eləcə də qaçqınlar problemi, «qaynar nöqtələr», «yaşıl inqilab» və s. istiqamətli layihələri sərbəst şəkildə hazırlamaq məsələsinə aid şagirdlər inkişafetdirici məqsədə nail olmaq mümkündür.

Kursun tədris edilməsi üçün respublikada əyani vəsaitlər son dərəcə azdır.

Dərslikdə «Tanışlıq vərəqəsi» adlanan hər region üçün tərtib edilən cədvəllər ən mühüm əyani vəsait rolunu oynayır.

Bakı Kartoqrafiya fabrikində nəşr olunan atlas, hələlik ən mühüm əyani vəsait rolunu oynayır. İş dəftəri hazırda yoxdur və ya mənənəvi cəhətdən köhnəlmiş variantdadır. Yalnız, şagirdlərin sərbəst işi üçün regionlara aid iş dəftəri mövcuddur.

Tədris prosesinin təşkilat formaları çoxvariantlıdır.

Kursun deduktiv xarakteri (ümumidən xüsusiyə) şagirdlərin sərbəst fəaliyyəti üçün geniş imkanlar yaradır. Onların yaş səviyyəsi də buna imkan verir. Müəllim yalnız məsləhətçi rolunda olmaqla dərslər mühazirə-seminar – zaçot sistemi ilə qurula bilər.

Mühazirə –biliklərin müvəffəqiyyətlə yaradıcılıqla mənimsənilməsi üçün ən mühüm vasitələrdən biridir. Mətin üzərində işləyərkən.

- altından xətt çəkməklə

- əsas anlayış və qanunauyğunluqları seçməklə

- yaddaşda qalanları yazmaqla

-əlavələr etmək və s. tapşırıqlarla mühazirə mətnini öyrənməklə və s. mümkündür.

-Mühazirə mətnini, sxemini qurmaq və ya məntiqi ardıcıllığı müəyyən etmək kimi tapşırıqlar da verilə bilər.

Seminar dərslərində-– hər bir şagird seçdiyi mövzunu tədqiq edir və onu referat-icmal şəklində təqdim edir.

Layihə dərslərində isə şagirdlər fərdi və ya qrup şəklində hər hansı praktiki sual götürür, ona aid informasiya toplayır, problemli sualları həll edərək təqdimat hazırlayır.

Layihələr albom, jurnal, videofilm, doklad, qəzet bülleteni şəklində tərtib olunmalı və eyni zamanda müxtəlif fənləri də əhatə etməlidir.

Referat üçün mövzular müxtəlif istiqamətli ola bilər («Regional konfliktlər», «Müxtəlif ölkələrdə ekoloji siyasət», «Şirin su çatışmazlığı» və s.).

9.4.b «Türk dünyasının coğrafiyası» (XI sinif) kursunun tədrisi məsələləri:

Orta ümumtəhsil məktəblərinin, orta təhsil pilləsində tədris edilməsi nəzərdə tutulan «Türk dünyası coğrafiyası» yalnız, Azərbaycan Respublikasında müstəqillik əldə edildikdən sonra mümkün olmuşdur. Kursun ideyaları müasir dövrdə çox aktual sayılan bir problemə həsr olunur. Məlumdur ki, uzun müddət sovet imperiyasının əsarətində olan azərbaycanlılar və digər türk dilli xalqlar öz tarixi köklərindən ayrı düşmüş, qədim ənənələri düşündürülmüş şəkildə: unutdurulmuş, yaşadıqları ərazilərdə coğrafi obyektlərin adları, hətta soy adları belə dəyişdirilmiş, yazılı tarixlərinin izləri belə silindirilmişdir.

Müstəqilliyin əldə edilməsi ilə türk xalqları öz soy-kökünə qayıtmaq, tarixi illərinə dönmək, mənsub olduqlarının sahibi olmaq imkanını əldə etdilər.

Dünyanın müasir siyasi səhnəsinə yeni qədəm qoyan, uzun illərin problemləri ilə yaşayan dünya ölkələrindən iqtisadi, hərbi, təhsil ,səhiyyə və s.sahələrin inkişafında xeyli geridə qalan bir ölkənin fəaliyyətinin nə dərəcədə çətin olduğunu müəyyən edən müstəqil türk dövlət rəhbərləri – yeni bir ortaq təşkilatın «Türk birliyinin» təməlini qoydular. Bu birlik bütün sahələrdə. siyasi, iqtisadi, sosial-mədəni ,hərbi, təhsil, turizm, nəqliyyat, informasiya və s. sahələrində fəaliyyət göstərməyə başladı. Türk birliyinin güclənməsi, müstəqil türk dövlətlərinin bir-birinə və dünyaya inteqrasiyası üçün təhsil sahəsində atılan addımlardan biri məhz «Türk dünyası coğrafiyası» kursunun yaradılmasıdır.

Kursun tədrisinə ayrılan minimum vaxt 34 saat (həftədə 1 saat olmaqla), maksimum vaxt isə 204 saatdır. (həftədə 6 saat). Tədrisin əsas məqsədi şagirdlərdə aşağıdakı nəzəri bilikləri şagirdlərdə formalaşdırmaqdır. Şagirdlər:

- dünyanın siyasi xəritəsində türk dövlət və qurumlarının yerləşdiyi əraziləri müəyyən etməyi;
- türk xalqlarının adət-ənənələrindəki ümumi cəhətlərini müəyyən etməyi;
- türk dövlət və qurumlarının yerləşdiyi ərazilərin təbii şəraiti və təbii ehtiyatların təsərrüfat baxımından qiymətləndirməyi;
- əhali və əmək ehtiyatlarının statistik, tarixi-coğrafi baxımdan təhlil etməyi;
- təsərrüfatın müxtəlif sahələrinin inkişafı üçün olan imkanları proqnozlaşdırmağı;
- ayrı-ayrı türk dövlət və qurumları tipik plan üzrə səciyyələndirməyi;
- türk dövlətlərinin inteqrasiyasının, onların inkişafı üçün əsas faktorlardan biri olmasını dərk etdirməkdir.

Kursun tarixində praktik yönümlü bacarıqlara üstünlük verilir. Şagirdlər:

- dünya xəritəsində türk dövlətlərinin ərazisi, sərhədləri əsas fiziki coğrafi obyektləri göstərməyi;

- türk dövlətlərinin rəmzlərini bir-birindən ayırmağı;

- təbii ehtiyatların yerləşməsinə görə türk dövlətlərini qruplaşdırmağı

- təsərrüfatın inkişafına görə türk dövlətlərini fərqləndirməyi;

-türk xalqlarının inteqrasiyasının əsas istiqamətləri və perspektivlərini müəyyənləşdirməyi bacarmalıdırlar.

«Türk dünyası coğrafiyası» kursunun tədrisi coğrafiya fənninin yekunlaşdırıcı vəzifələrini yerinə yetirir, kurs ilk növbədə tədris fəaliyyətinin müqayisə, tədqiqat, layihə işi, axtarış metodlarının tətbiq edilməsi üçüun geniş imkanlara malikdir.

«Türk dünyası coğrafiyası» kursu eyni zamanda tarixi-coğrafi xüsusiyyətlərə malikdir. Xüsusilə, görkəmli türkoloq L.N.Qumilyevin «etnoslar mədəniyyət daşıyıcılarıdır» ideologiyası kursun əsas motividir. Ünsiyyət dilinin vacib şərt olması, xalqların dini əxlaqi baxışlarının, adət-ənənələrinin oxşarlığı türk xalqlarının inteqrasiya üçün əsas olması şagirdlərə dərk etdirilir və onların yaş səviyyəsinə uyğun olaraq tədqiqat üçün şərait yaradılır.

Kursun tədris edilməsi 2002-ci ildə Azərbaycan Respublikası Təhsil Nazirliyi tərəfindən təsdiq olunmuş proqram və proqrama uyğun olaraq M.Museyibov, V.Əfəndiyev və N.Seyfullayeva tərəfindən tərtib olunmuş dərslik ilə həyata keçirilir. Dərslikdə nəzəri-elmi materiallarla yanaşı, şagirdlərin müstəqil fəaliyyəti üçün imkanlara mövcuddur. Belə ki, «Düşünməyə dəvət», «Müzakirəniz üçün», «Məlumat üçün», «Əlavə oxu üçün», «Suallara cavab verin», «Bilirsinizmi» başlıqları ilə verilmiş əlavə informasiya və sorğu şagirdlərin praktik fəaliyyətini təşkil etməyə imkan verir.

«Türk dünyası coğrafiyası» kursu pedaqoji prosesin məqsədlərini (yaxın və uzunmuddətli) yerinə yetirməyə imkan verən ən mühüm tədris fənnlərindən biridir.

MÖVZU X. COĞRAFİYA FƏNNİ ÜZRƏ DƏRSDƏNKƏNAR İŞLƏRİN TƏŞKİLİ

10.1. Dərsdənkənar işlərin aparılması məqsədləri

Ətraf aləmin dərk edilməsi öyrənmə mühitinin, pedaqoji işin və şagird əməyinə qarşılıqlı əlaqəsi olmadan mümkün deyildir. Təbii və ictimai mühitdə fəaliyyət göstərməsi üçün şagirdlərin yalnız dərs prosesində fəaliyyəti kifayət deyil. Tədris prosesində öyrədənlə öyrənənlərin qarşılıqlı fəaliyyəti mövzu və anlayışların əsaslı mənimsənilməsi yalnız dərs prosesində mümkün olmur. Pedaqoji prosesi uğurla həyata keçirmək üçün öyrənənlərin qavrama, anlama, yaddasaxlama dərəcəsi ilə şərtlənir. Lakin, öyrənilən problemlərin praktik həyata tətbiq edilməsi pedaqoji prosesin təsirinin gücləndirir. Pedaqoji prosesdə qazanılan bilik və bacarıqların möhkəmləndirilməsi şagirdlərin dərsdənkənar işlərinin təşkilində daha aydın görünür. Dərsdənkənar tədrisləri tədris prosesinin davamı kimi qiymətləndirmək olar. Şagirdlərin müstəqil fəaliyyəti baxımından belə tədbirlər onlarda diyarşunaslıq işlərinin aparılmasına imkan verir, mədəni səviyyələri artır, təşkilatçılıq qabiliyyəti yüksəlir, kollektiv fəaliyyət göstərmək keyfiyyəti güclənir, şagirdlərin coğrafi dünyagörüşü genişlənir. Dərsdənkənar tədbirlərin həyata keçirilməsi müəyyən məqsədlərə xidmət edir:

- Şagirdlərə təbiətdə və cəmiyyətdə baş verən dəyişiklikləri müşahidə etmək və onların iştirakçısı kimi çıxış etmək imkanı əldə edir
- öz ölkəsinin və yaşadığı rayonun (şəhərin, kəndin və s.) təbiəti, iqtisadiyyatı, mədəni həyatına aid bilikləri

toplamaq, onları qruplaşdırmaq, təqdim etmək, başqalarına sevdirmək fəaliyyəti ilə məşğul olur;

-öz ölkəsinin ərazi bütövlüyünün təmin olunmasında, tarixi nailiyyətlərin, dövlət müstəqilliyinin qorunmasında, dövlət rəmzlərinə hörmət hissinin formalaşdırılmasında-vəətənpərvərlik o cümlədən hərbi vətənpərvərlik şüurunun yayılması üçün aparılan təbliqat işlərində iştirak edir;

-gənc nəsildə milli mənlik şüuru, milli mədəniyyət və bəşəri dəyərlərə qovuşmaq –hər bir vətəndaşın dövlətin bir parçası kimi fəaliyyət göstərmək ideyasını tətbiq edir;

- təbiət və cəmiyyət hadisələrinə estetik münasibət formalaşdırır;

- təbii amillərin (su, hava və s.) həyat üçün əhəmiyyətini dərk edərək onlarda ekoloji təxəyyülü inkişaf etdirir, təbiətə məhəbbət hissini formalaşdırır və onun qorunması üçün səfərbər edir, ətraf mühitin qorunması üçün mübarizə aparan təşkilatların işi ilə tanış olur, yaxından iştirak edir, müxtəlif mərkəzlərdə birləşir və fəaliyyət göstərirlər.

- Bazar iqtisadiyyatında vətəndaşlardan tələb olunan qənaətlilik, sahibkarlıq, təsərrüfatçılıq, maddi və mənəvi nemətlərə qarşı qayğı hissi və məsuliyyətli yanaşma formalaşdırır.

- ekoloji maariflәndirmə və təhsil ekologiyanın iqtisadiyyat, mədəniyyət, əxlaq, siyasət, sağalmaq ilə əlaqəsini müəyyən edir, tədbirlərdə iştirak edir.

- coğrafiya elmi, təhsil, dərslik və proqramm müəllifləri ilə görüşlər keçirir, coğrafi mətbuatda çıxış edirlər.

Sadalanan məqsədlər coğrafiya fənni üzrə dərsdən kənar tədbirlərin mütəşəkkil şəkildə təşkil edilməsini tələb edir.

10.1.a. Məktəb coğrafiya dərnəyi

Orta ümumtəhsil məktəblərində fəaliyyət göstərən coğrafiya fənni üzrə dərnəklərinin özünəməxsus rolu, məqsədləri, vəzifələri vardır. Onlar əsasən diyarşünaslıq

materiklərinin yığılması və tətbiqi istiqamətində təşkil olunur.

Dərnəyin işi ilk növbədə onun təşkilindən asılıdır. Coğrafiya müəllimi fənnə xüsusi maraq göstərən şagirdləri seçərək, onların öz aralarında dərnək rəhbərliyini (üç nəfərdən ibarət heyət) üzvlərini müəyyən edir. Dərnək üzvləri bütün siniflər üzrə şagirdləri əhatə etməlidir. Dərnəyin iş planında nəzərdə tutulmuş tədbirlərdə də şagirdlərin yaş səviyyəsi nəzərə alınmalıdır. Dərnəyin işi müxtəlif proqram-layihələrin həyata keçirilməsinə həsr olunur. «Gənc tədqiqatçı-ölkəşünaslar; «Bizim Bakı» (və ya şagirdin yaşadığı hər hansı şəhər,qəsəbə və ya kənd), »Gənc səyahətçilər», «Gənc təbiətşunaslar», «Təbiəti sevənlər», «Yaşıl patrullar» və s. adlı «təşkilatlarda» birləşən dərnək üzvləri seçdikləri «proqram» üzrə fəaliyyət göstərirlər. Şagirdlərin təmsil olunduğu birliklər « hazırcavablar komandası», «Gənc diyarşunaslar akademiyası», «Ekspedisisya dəstələri», «Könüllü bərpaçılar dəstəsi», «Ekskursiya təşkilatçıları», «Eksponat yığanlar», adları ilə fəaliyyət göstərirlər.

Dərnək üzvləri təmsil olunduğu birliklərin döş nişanını daşıyır, iş planına uyğun fəaliyyət göstərir, vaxtaşırı birlik liderlərinə hesabat verirlər. Birliklərin liderləri də eyni zamanda dərnək rəhbərliyi heyətində məsələlər qaldırır, ümumi tədbirlərdə özlərinə uyğun istiqamətdə fəaliyyət göstərirlər.

Coğrafiya dərnəyində şagirdlər diyarşünaslıq fəaliyyəti üçün aşağıdakı formalardan istifadə edirlər; mühazirələr, söhbətlər, müşahidələr, seminar, konfranslar keçirir, görkəmli və məşhur coğrafiyaçılarla görüşlər keçirir, şəhərə, muzeylərə, təbiətə, istehsalata ekskursiyalar təşkil edirlər, teatrlaşdırılımış səhnələr yaradır, rəsm sərgiləri keçirir, şer, hekayə müsabiqələri təşkil edir, oyun, viktorina auksionlar, konkurslar, turnirlər keçirir, referatların müsabiqəsinin keçirir, bağ-baxça , park, ətrafda məhəllin təmizliyinə, gül

və ağac əkilməsində iştirak edir, təmizlik aksiyaları keçirirlər.
Coğrafiya dərnəiyndə illik və aylıq iş planı tərtib edilir və onun əsasında işləyirlər. Müntəzəm olaraq qəzet və ya bülleten buraxılması dərnəyin iş fəaliyyətinin tərkib hissəsidir.
Coğrafiya dərnəyi məktəbdə coğrafiya fənnində aid keçirilən digər tədbirlərdə yaxından iştirak edir.

10.1.b. Coğrafiya gecələri

Dərsdənkənar tədbirlər içərisində ən maraqlı tədbirlərdən biri coğrafiya gecələridir. Coğrafiya gecələri şagirdlərin yaradıcı fəaliyyətinin, oyun yarışlarının, konkusrların keçirilməsi üçün ən optimal təşkilat formasıdır.
Coğrafiya gecələri şagirdlərin bir tipli fəaliyyəti ilə kifayətlənə bilməz. Adətən coğrafiya gecələrinin senarisi rəngarəngliyi ilə seçilir: Proqram son məlumatlar ilə başlayır, bir neçə məruzə (adətən belə mərüzələr slaydllar ilə müşaiyət olunmalıdır) dinlənir, oyunlar, viktorina, tapmacalar, bədii səhnələşdirilmiş parçalar, eyni zamanda nəğmə və rəqslər daxil olunur.
Adətən, coğrafiya gecələrində müəllim və bir neçə şagirddən ibarət münsiflər heyəti seçilir və onlar iştirakçıları rəğbətləndirir və mükafatlandırır.
Göründüyü kimi, coğrafiya gecələri ən azı üç hissədən ibarət olmalıdır:
1.Məruzənin dinlənilməsi
II. Səhnələşdirilmiş parçalar
III. İnteraktiv (tamaşaçıları cəlb etməklə) əyləncəli proqram.
Coğrafiya gecələri tədris ili ərzində ən azı iki dəfə keçirilməli, tədbirin keçiriləcəyi otaq və foye bəzədilməli,

məktəb kollektivi, valideynlər və qonaqlar dəvət olunmalıdır.

10.1. c. Coğrafi oyunlar

Tədris prosesində istifadə edilən işgüzar oyunlardan fərqli olaraq dərsdənkənar coğrafi oyunlar çox tərəfliyi ilə seçilir, bir deyil əksər coğrafi informasiyaları əhatə edir.

Coğrafi oyunlar şagirdlərdə təşəbbüskarlıq və yaradıcılıq keyfiyyətlərinin inkişafında mühüm əhəmiyyətə malikdir. Oyunların şagirdlərin məntiqi düşüncələrinin inkişafında böyük rolu vardır. Onların müxtəlif növləri çoxdur: «Qiyabi səyahətlər», «Coğrafi nomenklaturanın tapılması», «Konturların təyini», «Zəif bənd», «Milyonçu», «Ağıl dəryası», «Tap tapmaca», «Ən böyük və ən kiçik» (belə oyunların əksəriyyəti hazırda informasiya vasitələrində müxtəlif variantlarda təmsil olunur)və s. şagirdlərin ən sevdiyi əyləncələrdən biridir.

10.1.d Coğrafiya olimpiadaları

Tədris prosesinin ən vacib elementlərindən biri kimi, coğrafi olimpiadalar məktəb coğrafiyasının inkişafı üçün mühüm rola malikdir. Şagirdlərin yaradıcı və məntiqi qabiliyyətlərinin üzə çıxarılmasında, onların istedadlarının aşkar edilməsində, tədris prosesinə daha aktiv şəkildə cəlb olunmasında, peşəyönümündə geniş imkanlara malik olan olimpiadaların təşkil edilməsi məsuliyyət və xüsusi hassaslıq tələb edir.

Ənənəvi olaraq olimpiadalar aşağıdakı ardıcıllıqla həyata keçirilir: məktəb olimpiadası, rayon turu, şəhər turu, respublika olimpiadası. Son illərdə müxtəlif fənnlər üzrə tematik olimpiadalar keçirilir. Lakin, hələlik bu tədbir coğrafiya fənni üzrə təşkil olunmur.

Olimpiadanın təşkili ilk növbədə seçilmiş suallar ilə başlayır. Suallar bütün məktəb coğrafiyasını əhatə etməli və onlar mürəkkəblik dərəcəsinə görə üç qrupda olmalıdır.

Birinci sual-elementar səviyyəli olub, informasiya xarakterli olmalıdır. Şagirdlərin əksəriyyətinin bu məlumatı ilə tanış olması vacib şərtlərdən biridir. İkinci sualın tətbiq xarakterli olması nəzərə alınmalıdır. Belə suallar adətən xəritə üzərindəki tapşırıqlar şəklində və ya hesablama xarakterli olmalıdır. Mürəkkəblik səviyyəsinə görə üçüncü tip suallar problem və inkişafetdirici xüsusiyyətə malik olmalıdır.

Hazırda olimpiada suallarının test tapşırıqları formasında tərtib edilməsinə üstünlük verilir. Xüsusilə, son illərdə tətbiq olunan kompyuter-internet vasitəsi ilə həyata keçirilən distant formalar daha maraqla qarşılanır.

Fənn olimpiadaları dekabr-aprel ayları ərəfəsində keçirilir. Unutmaq olmaz ki, tədbirin həyata keçirilməsi üçün ilk növbədə «Olimpiada təşkilat komitəsi» seçilməlidir.

10.1.e Coğrafiya həftəsi

«Şagirdlərin coğrafiya fənninə marağını necə artırmalı?» sualı coğrafiya müəllimlərinin əksəriyyətini narahat edir. Problemin həllini sinifdənxaric işlərdə axtaran müəllimlər, tədris tərbiyə prosesinin ayrılmaz hissəsi kimi, coğrafiya həftəsinin təşkil edilməsinə üstünlük verir. Coğrafiya həftəsi şagirdlərə coğrafi bilikləri zənginləşdirməyə, müstəqillik və təşəbbüskarlıq göstərməyə, fərdi qabiliyyətlərini və istedadlarını göstərməyə imkan verir. Şagirdlərin müxtəlif coğrafi mənbələrdən istifadə etdiklərini nümayiş etdirməyə şərait yaranır. Coğrafiya həftəsi müxtəlif formalı tədbirlərin keçirildiyi çox mühüm tədbirlər. Həftə görkəmli coğrafiyaçıların xatirəsinə və ya hər hansı mühüm hadisənin şərəfinə və ya sadəcə tədris ili üçün nəzərdə tutulmuş tədbir kimi keçirilə bilər. Həftə ərzində məktəb coğrafiya dərnəyinin məsuliyyəti dəfələrlə yüksəlir: coğrafiya bülletenləri; divar qəzetləri, əyani vəsaitlərin, şagirdlərin əl işlərinin sərgiləri, açıq dərslər,

oyun-yarışlar, konkurs, coğrafiya gecələri, viktorinalar , ekskursiyalar və s. həyata keçirilir. Həftənin məsuliyyəti təkcə coğrafiya müəllimlərinin deyil, bütövlükdə məktəb rəhbərliyinin üzərinə düşür. Coğrafiya həftəsi tədris ili ərzində bir dəfə böyük məktəblərdə isə bəzən hətta iki ildə bir dəfə keçirilir. Tədbirdə coğrafiyanın tədris olunduğu bütün siniflər iştirak edir. .

Coğrafiya həftəsinin iş planı dəqiq müəyyən edilməsi, coğrafiya müəllimləri, dərnək rəhbərləri, məktəbin tədris və tərbiyə işləri üzrə direktor müavinləri və məktəb direktoru tərəfindən müzakirə edilməli, çıxa bilən problemlər nəzərə alınmalıdır.

«Coğrafiya həftəsi» nümunəsi

«Dünya azərbaycanlılarının həmrəyliyi gününə həsr olunmuş coğafiya həftəsinin iş planı.

1.Bazar ertəsi – . «Dünya azərbaycanlılarının sayı, paylanması, yaratdtığı təşkilatlar, diasporanın fəaliyyəti» haqqında çıxış. (coğrafiya müəllimlərindən birinin məruzəsi). VI-XI sinifində.

2.Çərşənbə axşamı – Şəkil, şer, hekayə, maket, model, referat, rebus və s..fərdi yaradıcılıq nümunələrinin konkursu (sərgi şəklində məktəbin foyesində keçirilir).

3. Çərşənbə – VIII, IX, XI siniflərdə nümunəvi açıq dərslər (mövzu uyğunlaşdırılmış şəkildə olmalıdır).

4. Cümə axşamı – coğrafiya viktorinası siniflər arası bilik yarışı- «Bizim ümumi vətənimiz Azərbaycandır».

5.Cümə – Həftənin yekunlaşdırılması, qaliblərin mükafat landırılması (ekskursiya və ya səyahətin təşkili).

X.2. Coğrafiya meydançası

Coğrayiya meydançası- coğrafiya fənninin tədrisi zamanı praktiki məşğələlər və müşahidələr aparmaq üçün xüsusi təchiz edilmiş meydançadır. Bu meydanyçada həm də digər fənlər riyaziyyat, fizika, astronomiya kimi fənlərin də tədrisi məqsədəuyğundur. Coğrafi meydançasının əsaslı

düşünülmüş təchizatı onu müxtəlif təcrübələrin aparılması üçün rahat olan, açıq səma altında bir laboratoriyaya çevrilir. Meydançanın abadlığı, estetik tərtibatı və yaşıllaşdırılması diqqət mərkəzində olmalıdır. Coğrafiya meydançasının sahəsi müxtəlif, əsasən 12 X12m-ə qədər ola bilər. Bəzi coğrafiyaçı metodistlər 21x21 m ölçülü meydana təklif etmişdir. Meydança məktəbə yaxın olmalıdır, çünki şagirdlər dərsdən meydançaya gedərkən vaxt itirmirlər və meydançanın təhlükəsizliyi tam təmin olunmalıdır. Meydança ölçülü hasarla əhatə olunmalıdır ki, şagirdlər burada addımlarını ölçə bilsinlər. Meydançanın kənarları şimaldan cənuba və qərbdən şərqə istiqamətlənməlidir. Burada hava üzərində müşahidələr aparılır. Günəşin hündürlüyü, azimut müəyyən edilir, yığılmış materiallar işlənilir, emal olunur, temperatur qrafikası, buludluluq və yağıntının diaqramları, külək gülləri, havanın təsviri tərtib olunur. Meydançada aşağıdakı cihazlar olmalıdır: boyölçən, hündürlük ölçən dirək (10 m-ə qədər) –flügerlə birlikdə, 1 kv.m-lik meydança (kvadrat ölçü haqqında təsəvvür yartamaq üçün, qnomon (həqiqi və maqnit meridianlarının istiqaməti, maqnit meyilliyi və Günəşə görə istiqamətləri göstərmək üçün), rombşəkilli halqa ilə istiqamətlənmiş çevrə (məkan anlayışını inkişaf etdirmək və istiqamətləri təyin etmə vərdişi yaratmaq üçün), Qütb ulduzu göstərən, şaquli bucaqölçən (ərazinin eni və Günəşin hündürlüyünü təyin etmək üçün), azimut ölçən (kompas), günəş saatı (vaxtı və günəş vaxtını təyin etmək üçün), meteoroloji budka (içində hiqometr və termometr olmaqla), yağışölçən, qarölçən tamaşa, nefoskopik çevrə (buludluluq %-ni, buludların istiqamət və sürətini təyin etmək üçün), relyefin tipik formaları (dağ, düzənlik). İçi qumla dolu yeşik (yaş qumdan müxtəlif relyef formaları hazırlamaq üçün), torpaq kəsilişi və torpaq nümunələri, faydalı qazıntı və dağ süxuru nümunələrinin olduğu yer olmalıdır. Meydançaya stol və skamyalar yerləşdirilməlidir ki, praktik məşğələlər aparıla bilsin.

Coğrafi meydançasında iş siniflərin yaş səviyyəsinə uyğun olmalıdır. İbtidai siniflərdə təbitəşunaslıq istiqamətində olan mövzuların tədrisində müəllim meydançada öyrəniləcək təbiət hadisələrinin müşahidəsini təşkil edir, 3-cü sinifdə ayrı-ayrı fənn dərslərində və məktəb ətrafında ekskursiyalar zamanı uşaqlar relyeflə və eləcə də yer səthinin əsas formalarının elementləri ilə tanış olurlar, 4-cü sinifdə uşaqlar coğrafiya meydançasında öz rayonlarının səthinin xüsusiyyətlərilə tanış olurlar və qurunun relyefini oxumağı öyrənirlər. Dağ süxurları, aşınma prosesləri, torpağın xüsusiyyətlərini tətbiq edirlər.

6-cı sinifdə coğrafiya xüsusiyyətlərilə tanış olurlar və qurunun relyefini oxumağı öyrənirlər. Dağ süxurları, aşınma prosesləri, torpağın xüsusiyyətlərini tədqiq edirlər. 6-cı sinifdə coğrafiya meydançasından fenoloji müşahidələr aparılır, eləcə də uşaqlar göy cisimləri ilə tanış olur.

7-ci sinifdə şagirdlər meydançada üfüqdən günəşin hündürlüyünü təyin edirlər, hava, təbiət üzərində fenoloji müşahidələri davam etdirir nisbi və mütləq hündürlüyü təyin etməyi öyrənirlər. Relyef və onun müxtəlif formaları haqqında biliklərini dərinləşdirir və yeniləşdirir, kompas ilə məhəldə cəhəti təyin etməyi, azimutu tapmağı, yerin illik hərəkətini öyrənirlər.


Coğrafiya meydançasında olan ləvazimatlar sistemə uyğun yönəldilməlidir (Sxem 48).

Coğrafi meydançasında cihazların yerləşmə qaydası

1. Ölçülü hasar 2. Ölçülü yol, 3. Şagirdlərin işlədiyi yer 4. Müəllimin işlədiyi yer. 5. Oriyentirlərinə üçün taxta səki 6.Cığır 7.Şimal dirəyi. 8. Qərb dirəyi. 9. Şərq dirəyi. 10. Üfüqi günəş saatı. 11. Ekvatorial günəş saatı 12. Meridian və paralellərin modeli .13. Ərazinin torpaq nümunələri. 14. Ərazinin dağ süxurlarının nümunələri. 15. Flüger. 16. Kvadrat metr 17. Kub metr. 18.Qnomon, 19. Yağışölçən, 20.Qarölçən tamaşa, 21. Meteoroloji budka, 22. Qumla dolu çala.

Coğrafiya meydançasının tipik sxemi

Sxem 48



Coğrafiya meydançasında aparılan bəzi təcrübə nümunələri: «Səth örtüyünün xarakterindən asılı olaraq havanın temperaturunun ölçülməsi»- bunun üçün meydançadan ölçülü 50 sm-50 sm, dərinliyi 50 sm olan bir neçə çuxur qazılmalıdır. Çuxurlara gil və qum doldurulur və müəyyən olunmuş saatlarda müxtəlif səthlər üzərində temperaturlar ölçülür.

Günəşli gündə 2 termometrdən birini su hövzəsi sahilində yerləşdirmək, digərini isə suya salmaq lazımdır. 10 dəqiqədən sonra termometrlə ölçü aparılır və nəticəyə əsasən bu suallara cavab axtarılır. Əyani olaraq yarğanın, çayın, sürüşmənin və s.təbi proseslərin modelini quraraq ölçü işləri aparmaq mümkündür.

ƏDƏBİYYAT

1. Təlim materiallarının təkmilləşdirilməsinin nəzəri və praktik məsələləri. « Maarif» 1981.

2. Orta məktəblərdə coğrafiya təliminin metodikası (B.Bibikin redaktəsi ilə) «Maarif» 1978.

3. Coğrafiya xəritəsi yə onun üzərində çalşmalar. A.Hüseynov. «Maarif» 1997.

4. İnteraktiv kurrikulumun mahiyyəti və nümunələr.F.Kərimova, M.Əhmədova və b.2005.

5. Tələbələrin coğrafiyadan pedaqoji təcrübəsinin təşkilinə dair metodik göstəriş Bakı 1986.

6. « Dərslik necə olmalıdır» Açıq Cəmiyyət İnstitutuBakı 2003.

7. Uşaqlar necə dərk edir» Açıq Cəmiyyət İnstitutuBakı 2000

8. «Tənqidi təfəkkür inkişafın əsasıdır» I kitab Açıq Cəmiyyət İnstitutu Bakı 2000

9. « Birgə təhsil»V kitab Açıq Cəmiyyət İnstitutu Bakı 2000

10. « Dərsin planlaşdırılması və qiymətləndirilməsi» VI kitab Açıq Cəmiyyət İnstitutu Bakı 2000

11. « Tənqidi təfəkkürün inkişaf etdirilməsi üsulları» III kitab Açıq Cəmiyyət İnstitutu Bakı 1999

12. « Düşünən oxucunun yetişdirilməsi»VIII kitab Açıq Cəmiyyət İnstitutu Bakı 2000

13. « Yazılı nitqin inkişafı üzrə seminar: özünümüdafiədən yazılı əsaslandırmya doğru» VII kitab Açıq Cəmiyyət İnstitutu Bakı 2000

14. « Bütün fənnlər üzrə mütaliə, yazı və müzakirə» III kitab Açıq Cəmiyyət İnstitutuBakı 2000

15. Tənqidi təfəkkürün gələcək inkişaf üsulları IV kitab Açıq Cəmiyyət İnstitutuBakı 2000

16. « Fəal təlim» Təhsilin inkişaf mərkəzi Bakı 2003

17. Orta ümumtəhsil məktəblərində coğrafiya proqramı « Təhsil» 2002

18. Pilot təhsil müəssisələrində təlim konsepsiyasının əsas istiqamətləri « bkakı» 1999

19. Coğrafiya dərslərinin səciyyəvi xüsusiyyətləri. M.Zülfüqarov 1983

20. Coğrafiya fənni üzrə təlimin təşkili forma və üsulları (metodik vəsait) N.Seyfullayeva və Y.Əliyeva 2008

21. Ekoloji problemlərə aid təlim materialları Ş. Ağayev 2006

22. Müəllim hazırlığının və orta təhsilin perspektivləri .M.Əhmədova, M.Əliyev və b. Bakı 2005

23. «Ümumi fiziki coğrafiya kursunda « plan və xəritə» mövzusunun tədrisinə dair metodik tövsiyyə A.Hüseynov Bakı 1992

24. «Ümumi fiziki coğrafiya» E.Əlizadə və N.Seyfullayeva « Azərbaycan» nəşriyyatı 2008 VI sinif üçün dərslik

25. Materiklərin və okeanların fiziki coğrafiyası» D.Ələsgərov, O.Alxasov,R.Məmmədov « Aspoliqraf» 2009 VII sinif üçün dərslik

26. «Azərbaycan Respublikasının fiziki coğrafiyası» B.Budaqov və Y.Qəribli « Aspoliqraf» 2006 VIII sinif üçün

27. «Azərbaycan Respublikasının iqtisadi və sosial coğrafiyası».Ş.Göyçaylı, N.Əyyubov və b. «Çaşıoğlu» 2006 VIII sinif üçün

28. «Dünyanın iqtisadi və sosial coğrafiyası» O.Alxasov, Y.Qəribli «Aspoliqraf» 2010 IX sinif üçün dərslik

29. « Yerşünaslıq» M.Müseyibov, E.Əlizadə və N.Seyfullayeva «Çaşıoğlu» 2010 X sinif üçün dərslik

30. «Türk dünyası coğrafiyası» M.Müseyibov, V.Əfəndiyev və N.Seyfullayeva « Aspoliqraf» 2010

31 « Yeni pedaqoji təfəkkür» . Ə.Əlizadə Bakı 2001

32. «Методика обучения географии в обшеобразовательных учреждениях» Под редакцией И.Душиной Москва 2007

33.Методика преподавания географии Под редакцией Е.Таможней Москва 2008

34. Проектная деятельность учащихся география 9-11 классы.Н. Яковлева Волгаград 2008

35. «Урок-игра: ура! Ура!» 5-7 классах Н.Дик Ростов-на Дону 2008

36. «Предметная неделя географии» В.Андреева Ростов на –Дону 2008

37. «География. Акtивные формы обучения» 6- 10 классы Н.Зинченко,Л.Звонцова Волгаград 2011

38. «Школьные олипиады география» 6-10 классы Н.Марченко,В.НизовцевМосква 2008

39. «Методика и технология обучения географии в школе» И.Душина,Е.Таможня. Москва 2004

40. «Методик преподавания региональной георафии в школе» Под редакцией М.Никонова.Москва 2003

41. «Проверка и оценка резулбтатов обучения географии» В.Патунин Москва 2003.

42. «Ali məktəb pedaqogikası». N.Kazımov , «Nicat» nəşriyyatı. 1993.

43. «Abitruyent» jurnalları TQDK (aylıq nəşrlər üzrə «Coğrafiya» fənni üzrə metodik məqalə və tövsiyələr)

44. www.google.com

45. www.wikipedia.com

46. www.yahoo.com

47. www.geoqraf.ru

48.http.antonioraster.narod.ru/nauka/qeoqaf/metodika /urok.

htm

49.http.antonioraster.narod.ru/nauka/qeoqaf/metodika /proverka.htm

50.http.antonioraster.narod.ru/nauka/qeoqaf/metodika /ohodeuroke.htm
51.http.antonioraster.narod.ru/nauka/qeoqaf/metodika /urok.
Htm
51.http.antonioraster.narod.ru/nauka/qeoqaf/metodika /rolKarthtm
52.http.antonioraster.narod.ru/nauka/qeoqaf/metodika /uth-vospit.htm
53.http.antonioraster.narod.ru/nauka/qeoqaf/metodika /objanenie Novoqo.htm
54.http.antonioraster.narod.ru/nauka/qeoqaf/metodika /podqonoko.htm
55.http.antonioraster.narod.ru/nauka/qeoqaf/metodika /ekskurhtm

Üz qabığındakı miniatür rəsmin müəllifi:
Kərimzadə Emil
Korrektorlar: Əliyev Ramin
Çapa imzalanıb: 14.08.2011
Yığılmağa verilib: 17.08.2011
Formatı 60x84. Tirajı 400. Həcmi 16 ç.v.
Sifariş №14. Qiyməti müqavilə ilə.